AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## VI KİTAB

## DASTANLAR

BAKI – 2017

**Layihənin rəhbəri:** AMEA-nın həqiqi üzvü
**Muxtar KAZIMOĞLU (İMANOV)**

**Tərtib edəni:** f.ü.f.d. **Mətanət MAŞALLAHQIZI (ABBASOVA)**

**Toplayanı:** Folklorşünas
**Böyükbəy ƏLƏKBƏROĞLU**

**Redaktor:** **Soltan İMAMƏLİYEV**

**Güney Azərbaycan folkloru, VI kitab.** Bakı, Elm və təhsil, 2017. -416 səh.

Kitabda Güney Azərbaycanın zəngin şifahi xalq yaradıcılığına aid dastan nümunələri toplanmışdır.

folklor.az

G $\frac{4603000000}{098-2017}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2017.

## ÖN SÖZ

Azərbaycan şifahi xalq ədəbiyyatının çoxşaxəli qollarından biri olan aşıq yaradıcılığı zəngin türk tarixinin və mədəniyyətinin daha qədim çağlarından yol gəlməkdədir. Tarixən xalq mərasimlərində, müxtəlif ayinlərdə, hətta döyüş meydanlarında, savaşlarda el şairləri, ozan-aşıqlar iştirak etmiş, saz və sözlə xalqa mənəvi-ruhi qida verməyə çalışmışlar. Böyük Oğuz-Türk mədəniyyətinin tərkibində təşəkkül tapan aşıqlıq sənəti ozan-aşıq ənənəsindən yol almış, indiki aşıq ifaçılığına qədər inkişaf etmişdir. Ozan yaradıcılığında təşəkkül tapan qədim boyların mətn strukturu, poetik kanonları sonradan aşıq dastanlarına transformasiya olunmuş və poetik informasiyanın yeni ifadə imkanlarında formalaşmışdır. Bütün hallarda boy, dastan ifaçıları "ozan", "dədə", "ata", "qam" adlarıyla xalq arasında tanınmış, xüsusi hörmətlə qarşılanmışlar. Milli-mənəvi mədəniyyətimizin şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanının boylarında qam, dədə, ozan kimi tanıdığımız Dədə Qorqud obrazının dərin fəlsəfi tutumu, xalqın mədəniyyət və düşüncəsində xüsusi rol oynamışdır.

Ritm və intonasiya üzərində qurulan, nəzm və nəsrin növbələşməsi, el havaları, rəqs elementlərinin də daxil olduğu sinkretik mədəniyyət olan aşıq sənətinin əsas cəhətlərindən birini də dastan yaradıcılığı təşkil edir. Dastan yaradıcılığı öz növbəsində professional musiqi və ifaçılığın inkişaf təkamüllərində zəngin tarixi qaynaq rolunu oynayır.

Müəyyən improvizasiyalar, şəkildəyişmələriylə ifadə olunan bu zəngin yaradıcılığın tarixi bir qolunu da Güney aşıqlarının yaradıcılığı əhatə edir. Güney aşıq sənəti və ifaçılığı tarixi baxımdan çox mükəmməl bir təkamül yolu keçmişdir. Aşıq Qurbani (XVI yüzillik), Aşıq Abbas Tufarqanlı (XVII yüzillik), Xəstə Qasım Tikmədaşlı (XVIII yüzillik) və s. kimi ustad aşıqların yaratdığı dastanlar, el havaları bütün dövrlərdə aşıq ədəbiyyatı və dastançılığın professional forma və üslubda təməli olaraq qəbul edilmiş, öyrənilərək təbliğ olunmuşdur. Doğma dildə təh-

silin olmaması, milli-mənəvi irsin təbliğ imkanlarının məhdudluğu və s. problemlər zaman baxımından Güneydə şifahi ədəbiyyatın, xüsusilə aşıq yaradıcılığının daha mükəmməl formada inkişafına təkan vermişdir. Kənd-kənd, oba-oba el şənlikləri – toylarda dastan söyləyən aşıqlar bu mənəvi-ruhi ehtiyacdan dolayı tez-tez qəhvəxanalarda toplanmaqla da bu sənəti qoruyub təbliğ etməyə çalışmışlar. Təsadüfi deyildir ki, Güney aşıq ocaqlarının böyük bir qrupu qəhvəxana, çayxanalarla ("Gülüstan Aşıqlar Evi", "Aşıq İsmayıl Qəmbəri Aşıqlar Qəhvəsi", "Aşıq İman Danış Aşıqlar Qəhvəsi", "Dehqan Aşıqlar Qəhvəsi", "Zülfəli Aşıqlar Qəhvəsi", "Tanrıverdi Aşıqlar Qəhvəsi" və s. bağlı olmuşdur.

Aşıq ədəbiyyatının Güney Azərbaycanda inkişaf qolları və təmayülləri yaranma yeri, çalğı alətləri, repertuarı, aşıq-ozan dərnəklərinin fəaliyyəti, hansı ustad aşıqların irsini, sənət yolunu davam etdirmələri baxımından müxtəlif aşıq mühitlərini əhatə edir. Əli Qafqasiyalı "İran türkləri aşıq mühitləri" adlı kitabında bu mühitlərin təsnifatını vermişdir:

1.Təbriz-Qaradağ aşıq mühiti;
2.Urmiya aşıq mühiti;
3.Sulduz-Qarapapaq aşıq mühiti;
4. Zəncan aşıq mühiti;
5.Qum-Savə aşıq mühiti;
6. Xorasan-Türkmənistan aşıq mühiti;
7.Qaşqay aşıq mühiti;[1]

Ayrı-ayrı aşıq mühitlərinin yaradıcı, ifaçı şair-aşıqlarının dastançılığında cilalanmış dil-üslub xüsisiyyətləri, poetik imkanlar, eləcə də dini-fəlsəfi məzmun bu və ya digər şəkildə aşıq mühitlərinin formalaşdığı yerli türk boylarının milli-etnoqrafik xüsusiyyətlərindən, yaradıcılıq ənənələrindən irəli gəlir. Tarixən Təbriz-Qaradağ aşıq mühitinin əhatə etdiyi Şəbüstər, Təbriz, Sərab, Əhər və s. ərazilərdə Afşar, Ağqoyunlu, Xan Çobanlı, Qacar, Kəngərli, Muğanlı tayfaları, Xoy, Səlmas, Zeyvə, Ağbulaq ətrafının qoşulduğu Urmiya aşıq mühitində Qarapapaq, Kən-

[1] Əli Qafqasiyalı. İran türkləri aşıq mühitləri, Ərzurum, 2006

gərli, Ustaclı və s. türk boyları məskunlaşmışdır. Qeyd edək ki, aşıqların ifasında bir çox havaların "Qaraçı", "Ovşarı", "Şahsevəni" kimi adlandırılması da bu baxımdan yerli tayfa adlarının aşıq sənətində qorunub saxlanılması özəlliyindən irəli gəlir.

Güney aşıq sənəti özünün yaradıçı aşıq-ustadları ilə dastançılığın qədim ənənələrini bu gün də qorumaqdadır. Dədə Qurbani (Dirili), Aşıq Abbas (Tufarqanlı), Miskinli Məhəmməd, Xəstə Qasım (Tikmədaşlı), Dollu Mustafa, Əziz Şəhnazi (Əhər), Hüseyn Cavan (Ütü kəndi), Çəngiz Mehdipur (Xudafərin), Hüseyn Sai (Təbriz) və s. yaradıcı aşıqların ifa etdikləri ayrı-ayrı dastan və müxtəlif aşıq havaları Güney dastançılığının zəngin qaynaqları sırasındadır. "Koroğlu", "Şikari", "Aşıq Ələsgər", "Əsli və Kərəm", "Qərib və Şahsənəm", "Tahir və Zöhrə", "Hüseyn Cavan", "Tilim xan ", "Leyli və Məcnun", "Abbas və Gülgəz", "Dədə Qurbani", "Məsum və Diləfruz", "Aşıq Əli və Aşıq Rəfi", "Əli şah" və s. dastanlar bu qəbildəndir. Qeyd olunan dastanlar müxtəlif tarixi hadisə, şəxsiyyətlərin həyatı, sevgi macəraları, aşıqlar haqqında dastan-rəvayətlər əsasında yaradılmışdır. Bu silsilədə "Aşıq Ələsgər", "Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", "Tahir və Zöhrə" və s. kimi dastanlar aşıq repertuarında xüsusilə geniş yayılmışdır. Müxtəlif aşıq mühitləri və ustad sənətkarların yaradıcılığında daha çox ifa olunmaqla, zaman keçdikcə müxtəlif üslublarda cilalanmış, dinləyici auditoriyasına uyğun improvizə olunmaqla çoxvariantlılıq qazanmışdır. Bir sıra aşıq dastanları isə lokal formada el sənətkarlarının yaradıcılığında işlədilmiş, məhdud bölgə aşıqlarının repertuarına daxil edilmişdir.

Aşıq dastanlarının strukturunda yer alan aşıq havalarının qədim ifa xüsusiyyətlərinin qorunması və yeni nümunələrinin yaradılmasında da Güney aşıq mühitinin xüsusi rolu vardır. Qeyd edək ki, aşıqların dastan söyləməsi daha çox el məclislərində təşkil olunduğundan burada rəvayət – nağılların məzmunu ilə uzlaşan nəzm parçalarının sazda müəyyən havalar üzərində ifa olunması şərt idi. Dastan qəhrəmanlarının ruhi vəziyyətləri, müxtəlif hadisələrin təsvirində aşıq havalarının lad çalarları, me-

lodik quruluşu, ahəng xüsusiyyətləri, bütövlükdə tembintonasiyası forma və məzmuna uyğun olaraq dəyişir. Aşıq havalarının dastanların məzmun xüsusiyyətlərinə bağlılığını Aşıq Cunun vaxtilə obrazlı şəkildə belə ifadə etmişdir:

Aşıq, götür telli sazı, "Baş Divani" de gəlsin,
Mərifətə yollar açan bir "İrfanı"[2] de gəlsin.
"Baş Sarıtel" sızıldasın yardan mətləb alanda,
Qəm yükünü daşıyanda, "Naxcivani" de gəlsin.

"Qurbəti"də sızıldasın, qərib canın ağlasın,
"Dübeyti"ni dilə gətir yaraları bağlasın.
"Dilqəmi"də yara yalvar, qoy sinəni dağlasın,
Sel saranı aparanda "Xan Çobanı" de gəlsin.

Cunun, qaldır "Cəngi" səsin, meydan oxu düşmənə,
"Təbili-Cəngi-Köroğlu" çal, ürək olsun qoy sənə.
"Misri" böyük bir döyüşdən xəbər verir vətənə,
El-obanın dar günündə "Qəhrəmani" de gəlsin.

Təsadüfi deyildir ki, aşıq havalarının zəngin forma çaları xalq xanəndələrinin yaradıcılığında möhkəmlənməklə həm də təsnif və muğamlara daxil edilmişdir. "Aşıq havalarında nə oynaq havalar və xüsusiyyətlər varsa, xanəndələr öz sənətkarlığına uyğunlaşdırıb istədikləri hallarda təsnif kimi oxumuş, muğamları genişləndirmək üçün aşıq formalarını və xalq mahnılarını muğamata daxil etmişlər. Misal üçün: Arazbarı, Kürdü, Ovşarı, Mani, Şikəstə, Bayatı, Kərəmi, Kəsmə Şikəstə, Şirvan şikəstəsi və buna bənzər aşıq formalarını əsas tutaraq geniş səsə malik olan xanəndələr bu formaları genişləndirmiş, mükəmməlləşdirmiş, muğamata üzvi şəkildə aşılayaraq muğamatı xalqa yaxınlaşdırmışlar"[3].

---

[2] "Ruhani" havası
[3] Bülbülün III Aşıqlar Qurultayındakı məruzəsi (1961-ci il) "Musiqi dünyası" 2002, 3-4, səh 165-170

Müxtəlif şeir formaları ("Təcnis", "Müxəmməs", "Divani"), tarixi-əfsanəvi qəhrəmanların adları ("Koroğlu", "Kərəmi", "Cəlili"), bədii-poetik anlayışlar ("Gülabı", "Sarıtel") və s. ilə bağlı məlum aşıq havalarının Güney dastançılığında zəngin bir ənənəsi mövcuddur. Bununla yanaşı, "İran dübeytisi", "Ürmiya divanisi", "Təbriz nisgili", "Qaradağ gəraylısı", "Təbriz dübeytisi", "Qaradağ təcnisi", "Zəncan şikəstəsi" və s. aşıq havalarının yaranması coğrafi baxımdan Cənubi Azərbaycana məxsus ərazilərə bağlıdır. Bir çox aşıq havalarının yaradılması isə konkret el sənətkarlarının yaradıcılığına aiddir: (Aşıq Səttar Babai (Ağcaqışlaqlı) – "Səttar müxəmməsi", Dədə Qurbani – "Şahsevəni", Koroğlu qaytarması", Çəngiz Mehdipur – "Nəbati gəraylısı", "Qaradağ təcnisi", Aşıq Dərviş Vahabzadə – "Şəkər yazı", Fərrux Mehdipur – "Fərrux laylası", Aşıq Məhəmməd – "Qərədağ yanixkərəmisi" və s.)

Güney aşıq mühitinin zəngin, təkrarsız dastançılıq ənənəsini nəzərə alaraq, Güney Azərbaycan folklorunun növbəti cildini bütövlükdə dastanlar əsasında hazırlamışıq. Qeyd edək ki, "Güney Azərbaycan folkloru"nun iki cildində Güneyin müxtəlif folklor ənənələri sırasında Təbriz-Qaradağ aşıq mühiti, bu mühitin əsas xüsusiyyətləri – çalğı alətləri, xalq rəvayət və dastanları, aşıq havaları, çağdaş aşıqları haqqında ümumi məlumat verilmiş (Təbriz folklor örnəkləri, I kitab. Bakı, "Nurlan" nəşriyyatı, 2013), eləcə də konkret olaraq 8 aşıq rəvayəti və 9 dastan mətni (Güney Azərbaycan folkloru, II kitab, Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014) qeyd olunmuşdur. Təqdim olunan növbəti kitabda isə ayrıca olaraq Güney aşıqlarının repertuarından seçilən 12 dastan mətni və bir aşıq deyişməsini bir araya gətirmişik: "Yusif və Züleyxa", "Şirin ilə Fərhad", "Yadigar və Gülabatın", "Abbas və Gülgəz", "Dililqar və Mahcamal", "Zöhrə və Məhəmməd", "Aşıq Əsəd və Səltənət", "Sənan və tərsa balası", "Cəhanəfruz və Cəmşid", "Aşıq Leysan", "Gərgərli Məhəmməd və Məhparə xanım", "Tahir və Zöhrə", "Aşıq Həsən Qəfarla Aşıq Əzizin bir macərası". Əldə olunan dastan mətnləri əsasən aşıqların canlı ifalarından dinlənilərək yazıya alınmışdır. Aşığın

dinləyici ilə birbaşa təması əsasında qeydə alınan bu dastan mətnlərində aşıq improvizasiyaları və söhbətləşmələr mətnlərdə olduğu kimi saxlanılmışdır.

Kitabda təqdim olunan "Abbas və Gülgəz" dastanı Təbrizin ustad aşıqlarından XVI əsrin sonu, XVII əsrin əvvələrində yaşamış Abbas Tufarqanlının həyatı və yaradıcılığı üzərində qurulmuşdur. Dastan Qaradağlı Aşıq Həsən Qəffaridən dinlənərək Nəbi Azəroğlu tərəfindən toplanıb, yazıya alınmışdır. Qeyd edək ki, Azərbaycan folklorşünaslığında dastanın ümumilikdə üç versiyası – Azərbaycan-Türkiyə ədəbi mühitində qeydə alınan 9 variantdan ibarət əsas versiyası, iki variantlı "Şirvan" versiyası və bir variantda "Abbas" versiyası mövcuddur. Güney dastançılığında isə "Abbas və Gülgəz"in 5 variantı qeyd edilir (Miyana variantı: Gülgəz təbrizli Sultan Muradın qızı, Abbas isə Sultan Muradın pəhləvanıdır; Təbriz variantı: Gülgəz Təbrizdə Batman Qılıncın bacısı, Abbas isə Tufarqanlı hacı Məhəmmədin oğludur; İstanbul variantı: Gülgəz Əhməd paşanın qızı, Abbas isə Tufarqanlı Xoca Məhəmmədin oğludur; Ərak variantı: Gülgəz Səlim xanın qızı, Abbas isə Tufarqanlı Xoca Səbanın oğludur; Təbriz variantı; Abbasla Gülgəz əmiqızı, əmioğludurlar). Güney Azərbaycan dastançılığında "Abbas və Gülgəz"ə aşıqlar daha çox müraciət etmiş, dastanı zaman-zaman yeni improvizələrdə yaşatmışlar. Belə ki, Aşıq Çəngiz Biriya (Ərəzəyin), Şıq Dərviş Vahabzadə (Urmiya), Aşıq Əhməd Həmidi (Qaradağ), Aşıq Yədulla Eyvazpur (Tufarqan) və s. aşıqların repertuarında bu dastan xüsusi yer almaqdadır.

Kitabda təqdim olunan "Əsəd və Səltənət" dastanı isə əhərli yaradıcı aşıqlardan olan aşıq Əziz Şəhnazinin repertuarından alınmışdır. Aşıq Əziz Şəhnazi 1929-cu ildə Gəncədə doğulmuşdur. Aşığın bioqrafiyasından verilən məlumata görə, onun babası vaxtilə Təbrizdə qurulan Azərbaycan Demokratik hökumətinin süqutundan sonra Gəncəyə köçmüş və bir müddət burada məskunlaşmışdır. Əsl adı Əzizi Rəmiş olan aşığa sonradan xalq Şəhnazi adını vermişdir. 1938-ci ildən aşığın ailəsi yenidən İran Azərbaycanına qayıdır və Əhər şəhərində məskunlaşırlar.

Aşıq təhsilini burada davam etdirmişdir. Aşıq Əziz Şəhnazi 1995-ci ildə Təbriz şəhərində vəfat etmişdir. Yaradıcı aşıq bəlağətli dastan ifa etməklə bərabər öz şeirlərini ana dilli türkcəylə qələmə almışdır. Kitabda təqdim olunan "Əsəd və Səltənət" dastanının Aşıq Əziz Şəhnazidən dinlənilməsi haqqında yazıya alınarkən ayrıca məlumat verilmişdir. Dastanın qeyd olunan versiyasında aşıq dinləyiciyə bu haqda məlumat verərək deyir: "Əziz bu diskə və bu dastana qulaq asan gözəl bizim Azərbaycan xalqımız, bu gün gözəl bir ocaxdeyıx. Ustad ocağı deməy olar. Allah ruhun şad eləsin Aşıx Əziz Şahnazinin. Özünə on səkkiz mahal Qərədağda, Azərbaycan dünyasında, mənəvi dünyada yer açan ustad Aşıx Əziz Şahnazinin ocağında. Və keşmişlərdə biz ata-babalarımızın yanında görərdik ki, aşıx Əziz Şahnazi Miskin Əsəd və Səltənətdən dastan diyərdi. Və mən bu gün onun ocağına gəlməkdə, Allah onun ruhunu şad eyləsin, onun evladı Aşıx Riza Şahnazi, onun ocağın işıxlandırır, ustadın sazıynan, şeiriynən, nəfəsiynən və Allah Aşıx Rizanın da canını sağ eləsin! Mən Aşıx Rizadan xahiş elərdim ki, o, həmən ustad Aşıx Miskin Əsəddən, Səltənətdən, o dastandan atan söhbət elərdi. Aşıx Əziz Şahnazi. Nə bilirsənsə bizim üçün və Azərbaycanın gələcək nəsli üçün köçüb kitab olmaxda, qalmaxda elə billəm ki, sizin böyük bir işiz olar."

"Baba Leysan" dastanı Aşıq Əmirin, "Gərgərli Məhəmməd və Məhparə" dastanı isə Aşıq Hüseyn Təbrizinin dilindən dinlənilərək yazıya alınmışdır. Dastan mətni aşığın bilavasitə ifasından alındığından "navar"lar arası müxtəlif qəzəl, xalq mahnıları, bayatı üzərində oxunan təsniflər olduğu kimi saxlanılmışdır.

Kitabda verilən digər dastan mətnləri isə Aşıq Hüseyn Saidən dinlənilərək yazıya alınmışdır. Aşıq Hüseyn Sai 1966-cı ildə Təbriz yaxınlığındakı Mahmudabad kəndində doğulmuşdur. Təbrizə köçdükdən sonra müxtəlif aşıq məclislərinə maraq göstərmiş, Əziz Şəhnazi, Hacı Məhəmməd Baqri, Həsən Qəffarinin yaradıcılığından bəhrələnmişdir. Onlardan "Əli və Rafi", "Şah İsmayıl", "Aşıq Qərib", "Gürcü qızı", ""Ağ Aşıq", "Əsli və Kərəm", "Novruz və Qəndab" dastanlarını öyrənmişdir. "Şahzadə

Cəmşid", "Şirin ilə Fərhad", "Zal oğlu Rüstəm", "Şah İsmail – Leyli xanım", "Məhəmməd – Zöhrə", "Yusif sultan" dastanlarına şeir qoşmaqla onları aşıq dastanına çevirmişdır.

Dastan mətnləri aşıqların söylədikləri müxtəlif rəvayət, hadisələrlə bağlı olaraq, qoşma, gəraylı, bayatı, qəzəl, xalq mahnıları üzərində qurulan ayrı-ayrı lirik parçalarla zənginləşdirilmişdir. Xüsusilə "Baba Leysan" dastanında bu lirik parçaların demək olar ki, hər birindən aşıq mətnə uyğun yaradıcı şəkildə istifadə etmişdir.

Yazıya alınan dastanlar içərisində çoxşaxəli sujet xətti olan geniş həcmli, gərgin dinamik səhnələrdə verilən dastan mətnlərindən fərqli olaraq, "Dililqar ilə Mahcamal", "Zöhrə – Məhəmməd" dastanlarında hadisələrin inkişafı əlavə sujet xətlərinə ayrılmır. Bu dastanların mətn təhkiyəsinə nisbətən şeir şəkli daha üstündür. Təbrizli Əhməd xanın oğlu Dililqarın İsmayıl xanın qızı Mahcamala sevgisi üzərində qurulan ilk dastanda qəhrəman öz istəklisinə çatmaq üçün ənənəvi dastan poetikasından irəli gələn, motivləşən xüsusi hədlər qarşısında qalmır. Başqa sözlə desək, bu dastanda aşiqin ruhi-mənəvi iztirabları daha çox önə çəkilir. Dililqarın Mahcamalla, anası, atası, yoldaşları ilə deyişmələri, dağlara xitabı üzərində qurulan şeirlər dastanın nəqlində daha çox yer tutmaqla hissi-emosional məzmun daşıyır. Qeyd edək ki, bu qrup dastanların təşəkkülü aşıqların özlərinin maraqları çərşivəsində yaranmaqla xüsusi dinləyici auditoriyasını əhatə etdiyindən geniş variantlılıqda işlədilmir. Bu qrup dastanlar öz-özlüyündə onu söyləyən aşığın yaradıcı irsinə, üslub və dil texnikasına daha çox bağlı olur. Təsadüfi deyildir ki, adı çəkilən dastanda müəyyən səhnələrin improvizəsi də eyni subyektiv yaradıcı yanaşmadan irəli gəlir. Belə ki, dastanda Dililqarın Mahcamalla görüşü "Kitabi-Dədə Qorqud" boylarının müəyyən səhnələrinə uyğunlaşdırılmışdır. Dililqar Mahcamalla şikarını qovlayarkən qızın yaylaqdakı çadırı qarşısında görüşür və oğlan qıza üzük, qızsa güllü dəsmal bağışlamaqla bir-birləri ilə əhdi-peyman bağlayırlar.

Sadə sujet variantı “Zöhrə və Məhəmməd” dastanında da qeydə alınır. Təbrizli İbrahim tacirin oğlu Məhəmməd dağlarda yoldaşları ilə dincələrkən Həzrət Əlinin ona yuxuda buta verməsindən sonra İsfahanda şah Abbasın qızı Zöhrənin sorağına düşür. Qəhrəman Şah Abbasın qoyduğu şərtlərlə yad ölkədə uzun zaman qalıb işləməsinə baxmayaraq, ənənəvi məhəbbət dastanlarının qəhrəmanları kimi maneələr qarşısında qalmır və Məhəmmədin səfəri, gördüyü insanlar, başına gələn hər hansı bir hadisə rəvayətləşdirilmir.

Qeyd olunan dastan mətnlərində Türk dastançılıq motivlərindən qəhrəmanın doğulmadan öncə seçilməsi – övladsızlıq, eyni zamanda mübaraklərin əlindən badə alıb içmə-yuxu motivləri təkrarlanmaqdadır. Həzrət Əli, Məhəmməd peyğəmbər, “Qırxlar”, Xızır peyğəmbərin yuxada qəhrəmanlara badə verməsi nəticədə onların həm sevgilərini tapmasına, həm də aşiq olaraq həqiqi “həqq aşığı” mərtəbəsinə çatmalarına yardım edir.

Dastan poetikasına uyğun olaraq kitabda verilən nümunələrdə mətnlər müxtəlif aşıq havaları üzərində qurulmuşdur. Baş pərdədə olan aşıq havalarından “Qürbəti”, “Baş sarıtel”, “Yanıq Kərəmi”, açıq kökdə olan “Bayrami”, şah pərdə kökündə olan “Baş divani”, “Xan çobani”, “Kərəm köçdü”, “Şahsevəni” “Qaraçı”, “Çoban bayatısı” və s. havalar dastanların yüksələn sujet xətti, dramatik səhnələrin təlqin etdiyi əhval-ruhiyyə üzərində ifa olunur.

Dastanların dil-poetik xüsusiyyətlərinə gəldikdə isə qeyd edək ki, xalq danışıq dili, ifadələri ilə ərəb-fars söz və tərkibləri qarşılıqlı şəkildə işlədilmişdir. Aşıq yaradıcılığına fars dilinin təsiri öncə sənətkarların yaşadığı tarixi-coğrafi şərait və ictimai-siyasi mühitlə bağlıdır. İctimai-mədəni həyatın bütün sahələrində işlədilən fars sözləri, aşıqların bu dildə təhsil almaları, eləcə də bu dili dinləyərək öyrənmələrindən irəli gəlir. Ərəb-fars sözlərinin dastan mətnlərində işləkliyi daha çox aşıq deyişmələrində müşahidə olunur. Aşıq sənətinin tarixi inkişafından bəllidir ki, sənətkarların fəlsəfi mənsubiyyəti, uyğun təriqət ifadələri şeirlərin söz-obrazlarına köçürülmüş və qəlibləşmişdir. İslami və irfa-

ni düşüncəyə malik olduqlarından onlar öz yaradıcılıqlarında Həzrət Məhəmmədin meracı, Həzrət Əli haqqında dini- mifoloji təsəvvürlərə xüsusi yer vermişlər. Təsəvvüf, Ələvi, Bəktaşi inanc sistemində bir çox ərəb-fars ifadələri, izafət tərkiblərinin aşıq şeirində möhkəmlənməsi və aşıq-ustad ənənələri ilə ötürülməsi bu nümunələrin dil sistemində də öz yerini tapmışdır.

Bütövlükdə isə dastanların təhkiyəsi, xalq şeiri janrlarında milli dilin zəngin xəzinəsi qorunmaqdadır. Müasir ünsiyyətdə arxaikləşmiş söz və ifadələr (yazı-çöl, kəndi-öz, tana-sırğa, nəsnə-şey, var-get və s.), arxaik morfoloji elementlər ("Züleyxa yavaş-yavaş olardan tezrax gəlib şəhrin bir guşəsində ol yerdən ki, Həzrəti Yaqub gələcəydi, Həzrəti Yusif onu pişvaz eliyəcəydi, gəlib ora"), yerli danışıqdan götürülən frazeoloji ifadələr, idiomlar, təsvir vasitələri və s. xalq dilinin gözəlliyi və sadəliyi ifadə olunur. ("Aşıq Qərə saqqal tutudu", "Şər qapını kəsdi, belə olanda balabançıya dedi ki, qəşəng yerdə dükan aşdıx, Allah ruzisini bazar eləsin", "Elə bilərsən ki, mən çoxlarının meydanına düşmüşdüm, amma sənin yayıvı əlləməli dəyil, qardaş", "Əsəd baxdı ki, elə nahardan bəlliydi şama nə var", "Bildirçinin dəni də yanında, suyu da", "Sabaha qalsa, qazanın dibi yanar", "Aşıxsan, yoxsa dolaşıxsan? Amma elə bil sən pırtdaşıxsan", "Mən deyirdim heş əvvəldə ütüdən çıxmıyassan", "...Vallah, mən toğludan, buzovdan-zaddan dəyləm ki, xatircın ol, mən o aşıxlığın kəltə kəliyəm" və s.). Xalq danışıq dilinə aid idiomlar, təşbehlər aşıq təhkiyəsində bütövlükdə sinkretik formada ifadə olunur.

Dastan təhkiyəsində diqqət çəkən faktlardan biri də aşıqların işlətdikləri arxaik, yerli, yaxud fars sözlərinin ardıcıl, qarşılıqlı şəkildə işlədilməsidir. ("Ağlına sığışdı, gəlir, qapını daqqılıbab elədi, qapını döydü, Məhəmməd gəldi qapıya", "Əqlim cayıb, huşum başdan çaşınca....", "Allah-tala özü insanı yaradanda özünə "əhsən" deyir. Demir erkək- dişiliğını, zənən-arvaddığını" və s.)

Dastan mətnləri yazıya alınarkən aşıq təhkiyəsindəki dialekt və şivə xüsusiyyətləri gözlənilmiş, mümkün dərəcədə bu dil faktlarının orijinallığına toxunulmamışdır.

Kitabda təqdim olunan aşıq dastanlarının bilavasitə aşıqların məclisdəki ifalarından götürüldüyündən bəzən mətnlərin pərakəndəliyi (aşığın fikrini yarımçıq saxlayıb başqa bir əhvalatı danışması), təkrarlar da müşahidə olunur. Eləcə də səsli faylların yazıya alınarkən texniki səbəblərdən "oxunmaması" müəyyən mətnlərdə yarımçıqlıq yaratmışdır ki, dastanlarda bu hissələr nöqtələrlə saxlanılmışdır. Dastanların əldə olunan variantlarında müəyyən səhnələrdə yer alan aşıq deyişmələrinin bir qismi tam əldə olunmamışdır. Orijinala uyğun olaraq bu mətnlər yarımçıq şəkildə olsa da kitabda saxlanılmışdır.

Güney Azərbaycan dastan yaradıcılığının bilavasitə aşıq ifalarından dinlənilərək ayrıca folklor cildlərinə salınması ümid edirik ki, gələcəkdə bu dastanların Güney variantlarının, fərqli versiyalarının toplanılması, bir araya gətirilməsi və tədqiqatlara cəlb olunması işinə marağı daha da artıracaqdır.

***Mətanət Abbasova***
***Filologiya üzrə fəlsəfə doktoru***

# TUFARQANLI ABBAS İLƏ GÜLGƏZ

## Ustadnamə

Ay ariflər, zalım fələk cəbrindən,
Qohumdan, qardaşdan, eldən ayrıldım.
Fərhad kimi çəkdim Şirin qəhrini,
Bülbül pərvaz etdim, daldan ayrıldım.

Bir canım var, yar yolunda sadağa,
Bal bələnib dilə, dişə, dodağa.
Nə müddətdi bağban idim bu bağa,
Görmədim qoncasın, güldən ayrıldım.

Abbas deyir, yar ayrısı yamandı,
Kimsəyə göstərmə, Allah, yamandır.
Qınamayın əlif qəddim kəmandır,
Dodaq qaymaq, dili baldan ayrıldım.

Tifarqannı Abbasın və Gülgəzin söhbətin biz ərz eliyəcəyix, söhbətimiz o yerdən ərz olunur ki, indi adına Azərşəhr deyillər, mögə o şəhrin adı Tifarqanımış. Tifarqan şəhrində iki qardaş var. Birinin adına Xocə Əziz deyəllər, birinin adına tacir Məhəmməd. Buların övladları olmazdı. Ama bular öz aralarında öz Allahlarinən nə eysanı eləyiblər bilmirəm, vəxt olub ki, buların Allah hər ikisinə övlad əta eliyib. Xocə Əzizin bir qızı oldu və tacir Məhəmmədin bir oğlu. Tamam cəmaət, qohum-qəbilə yığışıblər olara adqoyma elədilər. Oğlanın qulağına çağırdılar – "Abbas", qızın qulağına çağırdılar – "Gülgəz". Bir yaş, iki yaş, beş yaş, ta bular yetişiblər yeddi yaşlarına, götdülər qoydular hər ikisin məhtəbxanaya. Hər biri dərsin alıb, dərsdən kamil olsunlar.

Buların tacir Məhəmmədinən ömürlərinnən bir middət ruzigarlari xoş geçinib. Ama tacir Məhəmməd dünyadan istiyir təşrif aparsın. Çağırdı qardaşı Xocə Əzizi və vəsiyyətdərin eliyib, vəsiyyətnaməsin yazdırdı: "Qardaş, Abbas hənüz uşaxdi, ama vaxti ki, Abbas və Gülgəz həddi-buluğa yetişdilər, Gülgəzin əlinnən tutar-

san tapşırarsan Abbasa. Ama mənnən sora mənim qulum Abdullahı da azad elərsiz gedər, mənim qapımda çox xidmətdər eliyib".

Tacir Məhəmməd dünyani vida elədi. Abbas bir müddət ruzigarın belə geçirib, ama bir gün atasının vəsiyyəti yadına düşdi, dedi: "Hə, atam mənə vəsiyyət eləmişdi ki, sən Abdullani azad elərsən, gedər". Yapışıp Qul Abdullanın qolunnan, gətirir atasının qəbri üsdə. Dedi:

– Abdulla, atamın vəsiyyətinə mən əməl eliyirəm. Səni isdiyirəm azad eliyəm, amma üş dəfən səni dolandıraceyəm bu məzarın başına, səni mirəxəss eliyəm.

Bu söz Qul Abdullaya dağdan ağır gəldi, dedi:

– Tacir oğlu, biz eşitmişıx təsaddıx olar, amma diriyə, nəinki ölüyə təsəddıx olmaz.

Bu söz də Abbasa nagivarə gəlib, Qul Abdullaya bir neçə dənə şəpələx vurdi, ordan buların sözləri çəp gəldi. Qul Abdulla ordan tərk eliyib, ağa, üz qoydi İsfəhanə getməhdədi. Zəman o zəmandı ki, Şah Abbasın dövrüdi. Qul Abdulla təyyə mənazil, günə bir mənzil eliyib getti ta yetişdi, ağa, İsfəhana. Amma qəribədi bir yanı tanımır, bir kimsəsi yoxdi. İsfəhanın bazarın, küçəsin dolanır. Şah Abbasın bir dənə xadəmi var, adına Sarı Xoca diyəllər. Rast gəldi meydanda Sarı Xocaya. Sarı Xoca gördi bir dənə qərib burda durub, çox pərişanhaldı. Soruşdu:

– Oğlum, kimsən? Nəçisən, nə karəsən? Hardan gəlibsən, hara gedirsən?

Dedi ki, mən Tifarqannanam, Təbrizin yannınan – Tifarqan şəhrinnənəm, qəribəm, bir kəsim yoxdu. Bir şəxsə nökər idim və ömrümün çoxun orda keçirdmişəm. Məni dolandırdı atasının qəbrinin başına, mən də qəbul eləmədim. Məni döyüb, şəhrindən xaric elədi, gəlmişəm başımı saxlayım.

– Nə başarırsan?

Dedi:

– Ev işi, nəmənə desən başarram.

– Mehtərrıx əlinnən gələr?

Dedi:

– Bəli.

Yapışıb Qul Abdullanın qolunnan, ağa, gətirdi Şah Abbasın mehtərxanəsinə. Dedi:

– Üzülməz çörəhdi, nə qədər ömrün var ye, burda və bu mehtərxanədə qal.

Ruzigari bunun burda belə keçinməhdədi, amma bir gün car çəhdirib, tamam leşgər, tamam İsfahan əhli, tükan-bazar, meydan hamısı bəzənib və şadiyanəlıx məclisi qurdular. Şah Abbasın doğumudu. Meydanın bir tərəfində təxt-səltənət qoyulub, Şah Abbas əyləşib təxdin üstündə. Ağa, hər kəsən cürgəbəcürgə, rical hammısı, hər kəsən öz yerində bərqərar. Amma Şah Abbasın gözü düşüb məclisə. Bir nəfər durub qəribanə baxır, çox məlül. Əl elədi Sarı Xocaya. Sarı Xoca: "Bəli", – gəlib baş vurub ədəb yerində dayandı.

– Sarı Xoca, o kimdi?

Dedi:

– Qurban, o Təbrizin yannınan – Tifarqannıdı, azərbaycannıdı.

– Nəçidi? Nə karədi?

Dedi:

– Sənin mehtərxanəndədi, sənə mehtərdi.

– Bəs mən heç bunu görməmişəm?

Dedi:

– Bəli, cərəyan belədi, bir müddətdi ki burdadı.

Şab Abbas çağırıb yanına, xəbər aldı bunnan: "Oğlum, yeriz-yurdsuz və halı-əhvalız?"

Dedi:

– Qurban, bizim yerimiz çox yəxşidi, bizim yerimizdə yəxşi igiddər olar, yəxşi gözəllər olar.

Hər ustad bi rəvayət ərz elədim ki, diyər mən də ustadimnən belə eşitmişəm. Biri deyir xeyr, Pərini getdi bağda gördi, Abbas orda aşiq oldi, ya Dağdan Dağdırız bəyin cənginə getmişdi, vəli mənim ustadım diyən söhbət budu.

"Bəli, – dedi, – "Mən istiyirəm Azərbaycannan evlənəm, yəxşi gözəllər tərifilədin, var ki bi dənə mənim üçün intixab eyliyəsən?"

Söz yerinə düşdü, dedi:

– Qurban, sənə bir qız nişan verim, həniz çərx altına gəlməyib lingəsi.

Dedi:

– Kimdi?

Dedi:

– Tifarqanda Xocə Əzizin qızıdı. Fəqət elə Allah yaradıb şaha layıxdı.

O qədir tərifinnən, ədəbinnən Gülgəzin deyib, Şah Abbas görməmişdən Gülgəzə aşiq oldu. Məclis dağılır, çağirdi bir namə yazdi, verdi Sarı Xocaya, bir qədri də cahı-cəlal, Qul Abdullanı da qoşdu bulara, gedərsən bu naməni verərsən Xoca Əzizə və Xoca Əziz qızının qolunnan tutar, təhvil verər sənə. Ağa, bular bu tərəfdə gəlməhdədi, sizə deyim burdan – Tifarqannan.

Xocə Əziz bir gün gördi Gülgəzinən Abbas, ikisi də mədrəsədən gəlir, ama baxıb gördü elə həqiqətən bular biri-birinə layixdilər və qardaşının da vəsiyyəti yadına düşdü. Gördi hər ikisi hədde-buluğ olublar. Abbası çağırdı yanına:

– Oğlum, Abbas!

Dedi:

– Bəli.

– Abbas, bir namə yazıram apararsan bunu Təbrizdə filan tacirə ki, Xocə Əzizinən dostdu, hər nəmənə sənin toyuva ehtiyacın var, olari götürərsən və gələrsən. Mən Gülgəzin əlinnən tutaram tapşırram sənin ixtiyarivə.

Abbas orda xəcalətinnən başın salıb əşağa, cəvab demədi. Ama Xocə Əziz naməni yazıb, təmam elədi. Abbas naməni götürüb, Tifarqannan çıxıb, ağa, gəldi Təbrizə. O naməni ki əmisi yazmışdı, verdi həman tacirə, tacir o yazılan şeylərin tədarikindədi. Ama Abbas da öz arasında Allahinnan bir peymani bağlamışdi, qırx dənə qurban kəsəm Sahibil-Əmirin məscidinə, gündə bir dənə qurban kəsəm payliyəm, qurbannar təmam olannan sora, gedəm toyumu eliyəm. Gəlib atını bir kərvansaradə bağladi, varid oldu Sahibil-Əmirin məscidinə. Ağa, günüzlər gündə bir dənə qoyun alır, verir bir nəfər kəsir. Özü gecələr

Sahibil-Əmirin məscidində ibadətdədi. Abbas qırx gün orda ibadət eləməhdə olsun, bu tərəfdən sözü eşit kimnən, Sarı Xoca, Qul Abdulladan. Bu da ləşgəriynən gəldi yetişdi Tifarqana. Şəhrin kənarında, bəli, Abdullanı qatib qabağına, Xoca Əzizin xanəsin mənə nişan verginən. Ağa, gəliblər Xoca Əzizin qapısına, qapını döydülər. Xoca Əziz çıxıb qabağa, baxdi gördi, bəli, cahıcəlal, dəbdəbə. Sarı Xoca qoynunnan bir namı çığəddi, dedi:

– Xocə Əziz sağ olsun, bu namə sənə yetişəcəh.

– Kimnən gəlib?

– Al oxu, gör kimnən gəlib.

Xocə Əziz naməni aldı. Əvvəl tarufe-pərvərdiyardan sonra götürüb yazıb: “Xocə Əziz, mənim bu naməm sənə yetişən kimi Gülgəzin qolunnan tutarsan, təhvil verərsən Sarı Xoca gətirər İsfəhana”. Belə diyəndə Xoca Əziz çox pərişan gözlərinin yaşını əbre bəhar kimin töhdi. Sarı Xoca üz tutdu Xocə Əzizə:

– Xocə, niyə ağliyirsan?

Dedi:

– Qurban, ağlamağım bunnan xatirdi ki, axı mən bir qızı iki nəfərə necə verim? Qızım mənim qardaşım oğlu Abbasa namizəddi, gedib Təbrizdən xərid eləsin, gətirsin Gülgəzin toyun eləsin. Bular anadan olannan, bizim əhdi-peymanımız budu.

Dedi:

– Bəs bu işi, bu çəpəllığı, sizin öz içizdən olubdu. Ağacı öz içinnən qurt yiyər. Sənin, aya, de görüm qulun varıdi?

Dedi:

– Xeyr, mənim yox, vəli qardaşımın bir dana qulu var idi – Qul Abdulla.

Dedi:

– Bu işlərin hammısın həman qul eliyibdi. Bəs, qulun özü hanı?

Gördülər qulun yeri boşdi, qul əkilib gizləndi. Sarı Xoca dedi:

– Əgər aparmıyım, Şah Abbas diyər ki, şah dəsturudi, necə aparmiyim, gedim nə deyim? Xocə Əziz, Gülgəzi mən gərəh İsfəhanə aparım, ama sənə govlu verirəm ki, təbsirati Şah Abbasa

deyərəm, Şah Abbas da əlin Gülgəzə vurmaz. Abbası yollayarsız gələr, ta mən də köməhliy elərəm, elə Gülgəzin toyun orda elərıx Abbasa, gənə hər ikisin tapşırrıx biri-birinə.

Ağa, gecəni möhlət aliblar qız üçün tədərükə, rah təhiyyə eliyillər. Abbas da otuz doqquz gündi qurbannarın kəsib, qırxımıncı qurbanı qalır ki, sabah qurbannarı tamam olsun. Abbas hər gecə məsçiddə ibadətə məşğuldu. Sübhə yaxın gördü bir səda gəldi Abbasın qulağına: "Abbas, gözlərivi aç, Abbas". Ama gözlərin açıb iki mübarəh barmağın işar elədi:

– Abbas, bax bu barmağımın arasınnan, gör haranı görürsən?

Baxdi, yeddi təbəqə yeri gördi. Dubarə işar elədi: "Gör haranı görürsən?" Baxdi yeddi təbəğə göyü gördi. Abbas o moge yeddi yer, yeddi güyü görmüşdi mehraşnaməni dedi və mübarək əlində bir cami doldurub, taruf elədi: "Abbas, al bu cami də əlimnən iç". Abbas camı alib işdi, ama gördi süddən ağdi, baldan şirin. Dedi:

– Ağa, bu camdən bi dənə ver içim.

Dedi:

– Elə bunun öhdəsinnən gəlsən, day kifayətindi. Bu cam, o camdi ki, sənin bəsirət gözün açıldı, hər yerdə də məni çağırsan, orda sənin dadıva yetərəm.

Söz təmam, ama Abbas bir mogə ayıldı, gördi gördüğün hamısı yuxudu. Abbas təzdən yuxuya gedib: "İlahi, görəsən, bu söz zahirdi, ya mən yuxu görürəm, batildi? Ya necə bir sözdi?" Dubarə gördi həman şəxsi gəldi başının üsdünə:

– Abbas, oyan yuxudan. O qəzov-qədər ki, sənin başıva gələcəhdi, gəldi.

– Axı, ağa, nə oldu?

Mubarəh barmağın işar eliyib: "Bax gör nə görərsən?" Baxdi, gördi Tifarqanı görür. Qəliblər alçaxlandi, alçaxlar qəlbilənib.

Abbas Tifarqana baxır görür, ama huş aləmindədi. Gördü bi cahı-cəlal var, dedi:

– Bu nə cah-cəlal, nəyin nəsi?

Dedi:

– O cahı-cəlal sənin başıvın qəzov-qədəridi. Gülgəzi aparallar İsfahana, ama axir Gülgəz sənindi, sən Gülgəzinsən. Ge-

dərsən Şah Abbasın əlinnən Gülgəzi alarsan, sən toy eliyərsən, gətirərsən.

Abbas görürüb görəh xilasə oyandi, görəh burda bir neçə kəlmə nə deyir:

Abbas dedi:

Bir səda eşiddim canan əlinnən,
Oyandım yuxudan bu sabahları.
Bir cəvab almadım yarın dilinnən,
Görüm açılmasın bu sabahları.

Aşiq olan qullux eylər pirinə,
Gün gəlibdi günortanın yerinə.
İki sevgi yetsə biri-birinə,
Hamıya xoş gələr bu sabahları.

Mən Abbasam, İsfahanə varmadım,
Əl uzadıb yar zilfini hörmədim,
Bir bağ əhdim, güllərini dərmədim,
Dərdilər, töhdülər bu sabahları.

Ama Abbas məsciddən çıxıb eşiyə. Dünya Abbasın nəzərində tirə-taridi. Abbas məsciddən çıxıb, atını ki bir kərvansarədə təvil vermişdi, gəlib, ağa, Sahibil-Əmirin qapısını döydi. Həman micavir ki, bilirdi, taniyirdi Abbası, ama gecənin bi vəxtidi. Bu neynir indidən durmaxda? Nə işi var? Suval elədi:

– Oğlum, axı nə qəzov-qədər oldu sənə? Nə cərəyan üz verib?

Dedi:

– Qulağ as, qulağ as sinəmdə bir neçə xanə söz var, deyim gör mənim başımın qəzov-gədəri nəmənədi?

Abbas götürüb burda görəh nə deyir bir neçə kəlmə:

**“Sarıtel” havası**

Yatmışdım xabi-qəflətdə,
Düldülü minmişdi sərvər.

Xəbər aldım, sorax tutdum,
Bir xəbər verdi Qəzənfər.

Dedim: "Aya, muəllimsən?"
Dedi: "Əfzəl mukəllimsən".
Dedim: "Şaha, bə sən kimsən?"
Dedi: "Damad peyğəmbər".

Sözün yetsin isbata,
Cəhanə salmışam sövda.
Abbasam ruzi cəzada,
Əl məndən, damən Heydərdən.

Söz təmam oldi, ama micavir baxdı gördi Abbas az qalır divanə olsun, dəli adam kimin. Ağa, Abbasın nəmənə əmanətdəri var, gətirdilər. Abbas bağliyib atın yəhərinin qaşına, əyax rikabə, isdiyir ata süvar olsun, gördi yavaş-yavaş dan yeri sökülür. Minədi nəda çəhdi azan, "Allahu əkbər".

Abbas dedi:

– Hələ mənim getmağım tutmadı. Vəli micavir bir neçə nəfərdilər, bular da dəlil, nəsiyyət Abbasa deyillər. Ama Abbas buların cəvabində belə deyir:

**"Gözəlləmə" havası**

Dindirmiyin qan ağlaram,
Artıbdır fərağim mənim.
Baş götürüb gedərəm,
Heş gəlməz sorağım mənim.

Fələh məni saldı təngə,
Gedərəm Rumi, Firəngə.
Dağılıb tifağım mənim,
Kim verər sorağım mənim?

Abbas qurbət elə varsa,
Muxənnəsim geri dursa.

Deyliənlər doğru olsa,
Keçibdir çırağım mənim.

Abbas sözünün dəvamında dedi:

**“Qaraçı” havası**

Yatmışdım xabi-rahət içində,
Uyatdi qəflətdən abı-tabinan.
Bir dəstə gülüdü, bir dəstə reyhan,
Tutmuşdi dəstində abı-tabinan.

Sənə qurban olum, ya Həsən Qazi,
Yer-göyə qoyulub mizan-tərazi.
Vermişdin Davuda son xoş əvazi,
Oxur ərşə, gedər abı-tabinan.

Sənə qurban olum, ya Həsən Baba,
Gecə-gündüz zikr eylərsən kitaba.
Pəncşənbə günündə yasindi Kəbə,
Qoydular binasın abı-tabinan.

Hamı Qəmbər kimi qulluxda duran,
Hamı Səlman kimin müsəlman olan.
Göydən yerə gəldi ayeyi-Quran,
Oxullar mullalar abı-tabinan.

Abbas sözün söylər ruzi-əzəldən,
Əli nəzər saldı, su çıxdı daşdan.
Məhəmməd-əl Mustəfa gəldi mehraşdan,
Yerə qədəm qoydi abı-tabinan.

Sözü eşit kimnən? Ərz eliyim, Sarı Xoca, Qul Abdulladan. Naməni Sarı Xoca, Şah Abbasın naməsin ki, verdi Xocə Əzizə, gərəh mən Gülgəzi aparam İsfəhana, başladı Əziz ağlamağı. Sarı Xoca dedi:

– Niyə ağliyirsən?

Dedi:

– Onnan ötür ağliram ki, bir qızı iki kərə ərə vermək olmaz. Gülgəz əmisi oğlu Abbasa namizəddi. Abbas gedib Təbrizə xəridə, vaxti yaxındi ki, gəlsin. Bu tərəfdən də Şah Abbasın naməsi, sənin gəlməğin, neyniyim, ona nə deyim?

Sarı Xoca orda govlu verdi ki, xatircəm olginan. Ağa, o tərəfdən də Sarı Xoca dəstur verdi, qızıl kəcavələr bəzənib, Gülgəzi əyləşdirdilər kəcaviyə. Bular da ordan hərəkət elədilər. Ama Gülgəz Tifarqannan çıxanda, yollara baxır, kaş Abbası bir dəfən görürdüm əğəllən. Gördi Abbasdan xəbər yoxdu. Götürüb bir neçə kəlmə burda Gülgəz nə diyəcəh?

Gülgəz dedi:

**"Sarı tel" havası**

Durub yollara baxmaxdan,
Bağrım qan oldu, yar gəlməz.
Çeşmimin yaşi axmaxdan,
Sel ümman oldu, yar gəlməz.

Qızıl güli dərim dəstə,
Dərdindən olmuşam xəstə
Durum çıxım yollar üstə,
Ürəh qan oldu, yar gəlməz.

Dağların göksü söküldü,
Axdi ümmanə töküldü.
Gülgəzin nəxşi çəkildi,
Nə yaman oldu, yar gəlməz.

Sarı Hoca Gülgəzin qolunnan tutub, tapşırdi yengələrə, iki dənə dayə, ta ordan İsfahana kimin Gülgəznən bahəm getsinnər.

Ağa, sözü eşit kimnən? Abbasdan. Abbas da bu tərəfdən Tifarqanə tərəf gedir. Bir qədri yol gəlib çıxdı, Sərdərrinin başının üsdünə. Atın başını çəkib, saxladı. Baxdı gördü ki, bir dəstə zəvvar bular məşğuldular, gedillər ziyarətə. Çavuş pərçəm əlində, buların qabağındadı. Abbas atının başın saxlıyıb, götürüb görəh burda bir neçə nə deyir, nə oxuyur?

Abbas dedi:

**“Qurbəti” havası**

Gedən, getmə halallaşax ayrılax,
Gedər olsan Kərbəlayə ərzim var.
Mən fağirə gör nə sitəm olubdur,
Nəcəf şahı, o movlayə ərzim var.

Ceyran olub otdamadım çölləri,
Tez pozuldu Kərbəlanın gülləri.
Fərat kənarində düşən qolları,
Abbas kimin ələmdarə ərzim var.

Miskin Abbas sözünü diyər ədəbdə,
Gözüm qaldı dişlərində, sədəfdə.
Gedib Kərbəlayə, qallam Nəcəfdə,
Nəcəf şahi Mürtəzayə ərzim var.

Ama Abbas bularınan həlal-hümmət eliyib, Tifarqanə tərəf üz qoydu. Ağa, Sərdərrinin bağlarından ki, çıxırdılar kənarə, Abbas gördü o yuxuni ki, görmüşdü, o cahı-cəlalı görmüşdi, burda rubəru oldular. Ama Gülgəz əyləşib bi dənə qızıl kəcavədə. Bir neçə dənə də qız yanında. Abbas Gülgəzin kəcavəsinin qabağın kəsdi. Ama Gülgəz başını kəcavənin pəncərəsinnən çığaddi eşiyə, Abbas Gülgəzi görüb, Gülgəz Abbasi: “Aman nəbadə, nəbadə mənim dalımcan gəlmə, sənin qəvi düşmannarın var”. Abbas götürüb, ürəhdərə gəldi, bir neçə kəlmə görəh burda Gülgəzə nə deyir?

Abbas dedi:

**“Dübeyti” havası**

Atasınan, anasınnan
Gülgəz indi, Gülgəz indi,
Şahın dövlət xanəsində,
Gülgəz indi, Gülgəz indi.

Əlində vardı narıncı,
Boyuna düşübdü inci.
Məni qoyursan zarıncı,
Gülgəz indi, Gülgəz indi.

Abbasam, yandım bu işdə,
Döndərdin, yandım bu işdə.
Mən yazıx yandım bürüşdə,
Gülgəz indi, Gülgəz indi.

Gülgəz yenə dedi ki, əmioğlu, əgər məni isdəsən, dalımcan gəlməginən. Sənin Qul Abdulla kimin düşmənin var. Firsət düşüb əlinə, səni öldürəcəh, gəlməginən.

Abbas vəxti ki, Gülgəzdən bu şözü eşidib, elə bi dağı çaldılar Abbasın kəlləsinə. Ama Gülgəz də bu sözdən narahat olub, hər ikisi ağliya-ağliya bir-birinnən ayrılıblar. Ama Abbas üz qoyub, gəlir Tifarqana tərəf. Gülgəz də, ağa, şah Abbasın ordusinan.

Sarı Xoca dəstur verib, bular gəldilər Sərdərriyə. Gördülər nahar vəxti olub. Bular burda düşüblər, kədxuda evindədilər, bular nahara məşğuldular. Ama Abbas yetirib, atını bağladı. Anasi isdəmir ki, Gülgəzin getməginnən Abbas bu tezdıxda xəbərdar olsun, ama bilmir ki, bular yatmışdi, Abbas cərəyannan xəbərdardı.

Ağa, tamam qohum-qəbilə, dost-aşina yığışdılar Abbasin başinə. Ama görüllər Abbas çox pərişanhaldı. Nənəsi pərvanə kimin dolanır oğlunun başına:

– Oğlum, niyə pərişansan? Çoxdandi burdan gedibsən, qıx gündi. Heş məni dindirib danışdırmısan.

Hərə bir dilinən Abbası dilləndirir, danışdırıllar. Dedi: “Qülağ asın”. Abbas götürüb bir neçə kəlmə nə deyir:

### “Döymə Kərəmi” havası

Payız olcax bağlar tökər xazali,
Bahar olcax baxçalara bar gəlir.
Olsa bir igidin bəxti, iqbali,
Cənnət bəxçasınnan ona nar gəlir.

Ay ağələr, nə qəmginəm, nə şadəm,
Dost yanında nə aşniyəm, nə yadəm.
Heş bilmirəm nə bəlali səyyədəm,
Tor qururam tərlan üçün sar gəlir.

Abbas deyər, bağrım başı yandı,
Bağrım şan-şan olub yaralandı.
Ay ağalar, heş bilmirəm nədəndi?
Aləmə gen dünya, mənə dar gəlir.

Üzün tutdu nənəsinə tərəf:

– Ana.

– Bəli.

– Mənə bir qədri tədarükə rah təhiyyə elə.

– Axı, oğlum, hara gedirsən? Nolub? Sən elə indi Təbrizdən gəlibsən.

Dedi:

– Nənə, o sözlərdən geçibdi, ama isdiyirsən mənim dərdimi dübarə biləsən, elə bilirsən cərəyan nəyin kimidi, vəli məni danışdırırsan. Qulağ asginən.

Görəh burda Abbas anasına nə deyir? Abbas anasına dedi:

Başınə döndüyüm gül üzlü ana,
Yarsız bu dünyada nə qalam indi?
Bivəfayə ərzi-halım yazmağa,
Nə kağaz, mürəkkəb, nə qələm indi.

Narınca bax, narınca,
Dərmərəm sararınca.
Mən sənə yar deməram,
Əhdim yerin almayınca.

Dərd əlinnən qurtareydim yaxamı,
Katib olsa, yaza bilməz dərdimi.
Bir də Gülgəz gəlib tikməz yəxəmi,
Gülgəzsiz dünyada nə qalam indi?

Sən məni ağlar qoydun,
Sinəmi dağlar qoydun.
Elə yıxdın evimi,
Qapımi bağlar qoydun.

Peyğəmbər mehracə cumada getdi,
Xublar görmeyə cumada yetdi.
Abbasin sövdügü, çün badə getdi,
Həmdəmsiz dünyada nə qalam indi?

Ama dövrə bi şey başa düşmədilər Abbasdan. Anası başa düşdi Abbas nə deyir. "Oğlum, Gülgəzin getməyin gördün", – nə qədər dəlil, nəsiyyət Abbasa deyillər – "Oğlum getmə", ama gördülər, xeyir, bu sözlərinən Abbas burda qalasi deyil.

Abbas bir qadir xəşlix götürüb, bağladi atin tərkinə. Ağa, Abbas da daldan atdanıb, bular gəlməhdədilər. Sari Xoca, Qul Abdulla Sərdərridə naharını kədxudanin evində yeyib, dəstur verdi, qoşun atdandı.

Abbas gəldi, həmin evdə ki bular düşmüşdülər, atdan düşdü, döndi həman kədxudanin evinə. Gördü ki, qonax sahibi qonağını yola salır. "Səlam", – "Bədəz səlam" – keçib əyləşdi. Amma xanəsahab gördi bu cəvan oğlan çox pərişanhaldı. Sahabxanə üz tutdi Abbasa:

– Oğlum, şayəd üşüyubsən, niyə pərişanhalsan?

Ama dedi, mən dərdimi dilnən diyəmmərəm. Görəh sazinnan, sözünnən nə deyib:

Abbas dedi:

**"Keşişoğlu" havası**

Gedən dilbər, mücərrədəm yolunda,
Sən mənim dərdimnən halisan bari?
Sən məni salmisan Əyyub dərdinə,
Dünya seyfəsinnən xalısan bari?

Xanənnən çıxmısan oda gedərsən,
Gəl bəri deyrəm, oda gedərsən.

Sən məni salmısan oda gedərsən,
Od budur sinəmdə bilirsən bari?

Varrılar gedəllər var əyağına,
Yoxsulu çəkillər dar ayağına,
Abbas, əlin çatmaz yar əyağına,
Döşən təvaf eylə qalisan bari.

Ama ev sahibi nə qədir Abbasdan söz xəbər aldı, axı, oğlum, dərdin nəmənədi, aşyara de görüm, nə dərdə girifdar olubsan?

Dedi:

– Əmi, elə dərdim buyudu ki, mən sənə bəyan elədim, – ev sahibindən xudahafiz eliyir.

Sarı Xoca, Qul Abdulla, bular da ağa, ordunu Sərdəridən çiğərdiblər. Buların dalıcan bir gədri yol gəldi, ama Gülgəzin kəcavəsi dalıdadı. Gülgəzin kəcavəsi dalıda və sarivan yavaş-yavaş kəcavəni çəhməhdədi.

Kəcavənin dalısıcan Abbas gəlir, ama Abbasin ürəhi dərdə gəldi, götürüb burda bir neçə kəlmə görəh nə diyəcək?

Abbas dedi:

**"Ceyranı Kərəm" havası**

Ay ağalar, gedənə bax, gedənə,
Məni qoyub gözüyaşlı yar gedər.
Yüklənibdi qəflə qatar-barxanam,
Elə billəm külli-aləm, var gedər.

Mən aşiq qoydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə saxladın,
Nə bir günə qoydun məni.

Bivəfayə əmək verdim həmayil,
Çəkdiyim zəmmətlər olubdur zayil.

Bən yeri tək qızarıbdır həmayil,
Belə billəm ağ sinədə nar gedər.

Xoy çiməni, xoyçi məni,
Mərəndin guy çiməni.
Mələrəm yar dalısıcan,
Ya vurar ovçu məni.

Kəcavələr düzüm-düzüm düzüldü,
Xumarlandı, ala gözlər süzüldü.
Abbas ağlar, əlim yardan üzüldü,
Dəvə bozlar, sərvan ağlar, yar gedər.

Mən aşıq meşə dağlar,
Od tutub meşə yanar.
Kim kimə bais olsa,
Nə gülsün, nə şad olsun.

Çun dəvənin balası ki dalda qalmışdı, dəvə hərdən dönürdi balasına tərəf bir bozluyurdu. Olar gedir, ama Abbas dalıdan gedib.

Abbas daldan qərib-qərib gəlib, bular Qızılüzəni keşdilər, Abbas gəlib yetişdi Qızılüzən körpüsunə. Baxdı gördü körpünün o göyünən gedən mogeyidi, su lap göyünən gedir. Ama burda bir qədri suya tamaşa eliyib, götürub görəh bu Qızılüzən körpüsunə bir neçə kəlmə suya nə deyəcəh?

Abbas dedi:

**"Zarı Kərəm" havası**

Sənə qurban Qızılüzən körpüsü,
Körpü, sənnən neçə cannar köçübdü?
Çoxlar cəhd eylədi, başa varmadı,
Bu bir yükdü Süleymannan ötübdü.

Bir şüşə parçası tərh edir ayə,
Ala qarqa pənah gətdi umayə.

Oğullar ataya, qızlar anayə,
Ağ bulutlar yol, ərkənnar ötübdü.

Nədən göyərçinnər qarə geyibdi?
Gözəl tərlan kəhlih yağı yeyibdi,
Çoxlar bu dünyadə mənəm deyibdi,
Abbas kimin suxənverrər ötübdi.

Abbas da sudan keşdi o tərəfə və bular da yavaş-yavaş gedillər, ta yetişdilər bir basəfa çəmənzarə. Sarı Xoca dəstur verdi, orda düşüblər, ağa, çadırrar qurulub. Çün Gülgəz şah hərəmidi, Gülgəzin çadırın ordudan bir az kənarda qurardılar. Bir neçə dənə dayələr yannarrında həmrah olmuşdu. Abbas dalıdan gəlir. Abbas gəlib gördi ki, Gülgəzin çadırı hammıdan kənarədi. Atın bir xəlvətdə bağliyib, özi gəldi sərvanın yanına. Bir neçə kəlmə sərvanə nə diyəcəh, nə cür icazə isdiyəcəh ki, getsin Gülgəzi görsün, dərdi-dilin bir-birinə desinnər.

Abbas dedi:

**“Qəhrəmani” havası**

Dolannam başıva gül üzlü sərvan,
Endir kəçavəni, mən görüm yari.
Sənə kömək olsun bir pərvərdiyar,
Endir kəçavəni, mən görüm yari.

Mən açaydım köynəyinin yaxasın,
Görsedeydim eşq odunun yarəsin.
Sən bilirsən kəcavənin çarasin,
Endir kəçavəni, mən görüm yari.

Mən Abbasam, yollar üstə duraram,
Gah gedərəm, gah boynumu buraram.
Xoca Sərvan bir ox vuraram,
Endir kəçavəni, mən görüm yari.

Söz təmam oldu. Keşikçi onun israrına dedi:

– Bilirəm, əgər bu cərəyannan Qul Abdullanın, ya Sarı Xocanın xəbəri ola, yəqin səni də öldürəcəhlər, məni də. Ama pinhani belə get, nəmənə sözün olsa, Gülgəzə deginən.

Abbas varid olub Gülgəzin yanına. Bir qədər söhbətdən sora gecəni burda hər ikisi sabah elədilər. Söbh açıldı. Abbas yavaş-yavaş getməhdədi.

Sözü eşit kimnən, Qul Abdulladan. Qul Abdulla elə şəkkidəydi, şayəd Abbas bizim dalımızcan gələr, fürsənd axdarır. Nə ola bu yerrərdə Abbas mənim əlimə düşə, mən qisasımı Abbasdan alam. Ağa, gördi Gülgəzin otağından bir nəfər ayrılıb. Əl əbrusuna qoyub, gördi Abbasdı. Əl xəncərə, özün yetirib Abbasa. Ta Sarı Xoca və o qalan ordunun xəbəri olana kimin, Gülgəzin bu işdən xəbəri olana kimin, Qul Abdulla Abbasa bir neçə yarə vurub, ağa, yıxıb yanı üsdə. Daşdan, torpaxdan da bir az yığdi Abbasın belinə.

Gülgəz gəlib Abbasın başının üsdünə: “Əmioğlu, deməmdim məni isdəsən, mənim dalimcan gəlməginən? Sənin Qul Abdulla kimin düşmanın var, səni hər yerdə görsə, öldürər”. Elə fikir elədilər Abbas burda ölüb, Abbası o halidə tərg ediblər. Sarı Xoca dəstur verdi, ağa, bular genə tərpəndilər. Yavaş-yavaş bular getməxdədilər. Bir mənzil bular yol getdilər, yetişiblər Məzə dağına. Sarı Xoca dəstur verib, genə ora düşdülər. Çadırrarı vurublar, payələrin bərkidiblər. Genə Gülgəzin də çadırın ordudan bir az kənarə vurdular. Ama Gülgəz bir dəsdə qızınan çıxıb o dağdan güldən, çiçəhdən dərir.

Ama Abbas moqeyi huş aləmində gördi bir səs gəldi qulağına: “Abbas, yarə nədi?”. Dedi: “Ağa, Qul Abdullanın bu zəxmilərinnən dahı mənim bədənim yəxşi olmaz. Mübarək dodaxlarının suyunnan vurub, Abbasın o yarələri yaxcı olub”. Deyir: “Abbas, dur əyağa, səndə heç narahatçılıx yoxdi”. Abbas bir moqeyi ayılıb, gördi ki, əslən heç bu yarələrdən əsər qalmiyib. Abbas durub yavaş-yavaş buların qərəbəqərə dallarıcan gedir. Gəldi gördi, bəli, olar ki bir yerdə düşüblər Abbas da çıxıb Məzə dağında bir ücə daşın üsdündə, yanini qoyub bir təxtə səngin üsdünə. Gördi Gülgəz bir deyir, min şəqqildəyir çiçəhlərin içində qızlarınan.

Gülgəzin seyrinə, gəştinə bax! Ama götürüb burda ürəh dərdə gəlib, bir neçə kəlmə nə diyəcəh?

Abbas dedi:

**“Zil sarı” havası**

Bir belə gəştə varanda,
Gözəl yeylax gəzə dağı.
Açılıbdır süsən-sünbül,
Tər bənöşə təzə dağı.

Sən orda oyna narınan,
Mən burda ahı zarınan.
Gülgəz bivəfa yarınan,
Çıxıb gəştə gəzə dağı.

Şanə aslanıb telinnən,
Kəmər açılıb belinən.
Abbas gəzər qul əlinnən,
Qan yaş töküb, gəzə dağı.

Gülgəz gördi Abbas təxtə səngin üsdündə oturub, elə yanıxlı-yanıxlı oxuyur. Ama Gülgəz elə o yoldaşlarını da götürüb üz qoydu Abbasa tərəf. Bular gəldilər, ağa, vəxti ki, yetişiblər bir-birlərinə, Gülgəz dahı xəcalətdığınnan Abbasın üzünə baxa bilmir. Ama üzün tutdu dedi:

– Əmi oğlu, məndə heş təxsir yoxdi, məni məcbur aparıllar, məndə ixtiyar yoxdu ki mən getmiyim. Gəl əgər mənim sözümü qəbul eləsən, burdan qeyitginən, getginən Tifarqana. Mənnən çox gözəllər var, bir dənə ayri bir qız al.

Vəxti ki, Gülgəz bu sözü Abbasa deyib, elə bi dağ yıxılıb, Abbas qaldı altında. Dedi:

– Əmiqızı! Sən şah hərəmi olubsan, bilirəm Şah Abbas kimi şahın xanımısan. Səni İsfəhana aparıllar, vəli mən də sayil kimi dalıncan sürünürəm.

Bular söhbətləşərlər, ağa, gün batdi. Vəxti ki, gün batıb, Abbas Gülgəzinən bahəm gəldilər Gülgəzin çadırına. Gecəni

Abbas qalıb Gülgəzin çadirində. Ama sübh vəxti Abbas götürüb bir neçə kəlmə, gördü Gülgəz yatıb, nə cür oyadır, burda Gülgəzdən xudahafiz eləsin:

Abbas Gülgəzə dedi:

**“Xan Çobanı” havası**

Ay ağalar, nəyin günahkariyam,
Demişəm getmə, oyan, a Gülgəz.
Qılınci kəsgindi vurar boynümi,
Ağ əllər boyanar al qanə, Gülgəz.

**“Zil Naxcivani” havası**

Suna kəhliy çəkilibdir güneyə,
Əlləri batıbdır əlvan hənayə.
Gəl verax ləb-ləbə, sinə-sinəyə,
Tər sinən sinəmə dayana, Gülgəz.

Uzağa atdığın Gülgəz daşını,
Axıtdın gözümnən qannı yaşımı.
Çəhdir sinən üsdə, kəsdir başımı,
Ağ sinən qanıma boyana Gülgəz.

Uzəngu basim gulgəzim atdan,
Sən məni qutardın əlovdan, oddan.
Abbasın sövdügü xabi-qəflətdən,
Tavuz sən çəkil oyana Gülgəz.

Gülgəz ayıldı, gördi Abbas üsdündə oxuyur:

– Əmioğlu, nə dad, fəryad? Məgər bilmisən sənin Qul Abdulla səsivi eşidər, səni də öldürər.

Həniz yaxçı işıxlanmamışdı ki, Abbas Gülgəzdən ayrılır, üz qoyur dağa tərəf, Abbas gedir ata tərəf.

Qul Abdulla, bular baxəbər dəyillər, ağa, bir moqe Qul Abdulla yuxudan ayılıb, görüb Gülgəzin alaçığınnan bir qərəlti gəlir. Qəlbinə qoyuldi ki, bu, Abbas olaceh. Yavaş-yavaş o qə-

rəltiyə tərəf gəlib gördi, bəli, əynən Abbasdı. Ama Abbas Gülgəzdən bir az kənarə çəkilmişdi, aralanmışdı. Qul Abdulla xənçəri çəkib belinnən, dedi, səni bu dəfən sələmət qoycıyam ki, bir də Gülgəzinən bahəm bir yerdə oturasan? Abbasın sələmət yerin qoymiyib, Abbasa bir neçə yarələr vurub, yıxdı yanı üşdə.

İşıxlanıb, ta Gülgəzin Sarı Xoca, tamam sayiri yoldaşlari baxəbər oldular, gördülər Abbasda dahı sələmət yer qalmiyib. Gülgəz gəldi Abbasın başının üsdünə: "Əmioğlu, sənə demədim səs eləmə, gəlmə mənim yanıma? Sənin Qul Abdulla kimi düşmənin var".

Gördi Abbasda dahi nəfəs yoxdi. Ağa, bir qədri gözdəyiblər, gördülər Abbas ayılmadı, Abbası bu halidə tərg ediblər. Bular burda tərpəniblər, ama Gülgəz ağliya-ağliya gedir. Bular bir qədri yol getdilər, gəlib ta yetişdilər Kürşat quyusunun başına. O yol bir yoldu ki, Təbrizdən Tehrana və Tehrannan İsfahana gedir yoldu. Ora bir yeridi ki, Kürşat quyusu o yerdə, vəli gərəh olar bir neçə mənzilin suyun ordan götürürdülər. Bular yetişiblər Kürşat quyusunun başındadılar, susuzlux bulara gələbə eliyib.

Sözi eşit Abbasdan. Bir moqeyi gördu qulağına bir səda yetişdi: "Abbas, Abbas" Gözlərin açıb: "Bəli", – dedi. "Abbas, dur əyağa və sənin bədənin sələmətdi, səndə heç yarə və ayrı bir cərəhət yoxdur". Yuxuda genə tapşırmışdı ki, Abbas, əcəleynən yetiş Küşat quyusuna, hər yerdə çağırsan, yanında hazırəm.

Abbas elə ki, yuxudan ayılıb, gördi, bəli, bədən səhəh-sələmət və ağanın nuru var, ozü qayibdi. Abbas durub buların dalıncan, ağa rahı-rəvan oldu, ama yolun yarısında bir molleynan bahəm yoldaş oldular, hər ikisi gəlillər. Bular ki quyunun başında məətəldilər, heş kəs qorxusunnan Kürşat quyusuna girmək isdəmir. Ama bular bu guftugudadılar, gördülər Abbas bir dana mullaynan zahir oldi, buların bu guftugusuna. Baxdılar, gördülər Abbas səheh-sələmət varid oldu buların yanına. Qul Abdulla dilin işə saldı:

– Abbas, ürəyimizdə o ki nə ədavət var qoyax kənara, genə sən mənim ağamsan, mən sənin qulun.

Abbas dedi:

– O sözü ki, axirdə diyəcəhsən, onu əvvəldə de.

Dedi:

– İndi sözün, həqq, mətləbi budu ki, quyuya heş birimiz girə bilmirix, sənnən suvay heş kəs də girə bilməz. Gülgəz də susuzdu, hamımız susuzux.

Dedi:

– Mən girrəm, mən razı deyiləm ki mən ölmaxdan otüri əmim qızi Gülgəz susuz qalsın.

Abbas tənabı bağliyib isdiyir girə quyuya. Xəbər verdilər Gülgəzə, Gülgəz özün yetirdi. Götürüb Gülgəzə Abbas bir neçə kəlmə burada nə diyəceh?

Abbas Gülgəzə dedi:

**“Cəlili” havası**

Sən tək yer üzundə pəri olammaz,
Misri, İstambülu, Şamı gərmişəm.
Hər yerlərdə adıbəlli gözəl var,
Gəzmişəm adbəad, hamı görmüşəm.

Ayna alıb mah cəmalın gör, pəri,
Şana alıb siyah zülfün hör, pəri.
Gözəllikdə heş kəs olmaz tay pəri,
Mən Sərrafam, Güləndamı görmüşəm.

Abbas bir qubardı, sənsən afitab,
Görcəgin cəmalın oluram bitab.
Məkkə sənin olsun, məsçidi-mehrab,
Mən özüm öz müsəllamı görmüşəm.

Kəməndi bagladılar Abbasın belinə. Abbası isdiyillər salsınnar quyuya, ama Gülgəz gözlərinin yaşını əbri-bəhar kimi töhdi ki, əmoğlu, qoy mən susuzluqdan atəş olum, sən girmə quyuya. Ama Abbas götürüb Gülgəzin ağlamağına bir neçə kəlmə nə deyir?

Abbas dedi:

**“Yaniq Kərəmi” havası**

Ağlamasın, sövdücəyim, gözlərin,
Axır ərzəm gedər Mevlaya yetişi.
Bal olsa ləblərin yoxdu qiyməti,
Min tüməndi bazürganə yetişi.

Mən aşıq, qoydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə saxladın,
Nə günə qoydun məni.

Qüdrətinnən su bağlanıb gölümə,
Öldürsələr, yaman gəlməz dilimə.
Hər kəs yarın əlin versə əlimə,
Bu dünyada nə isdəsə yetişi.

Mən aşiqam, o guzeylər,
Mən aşiqam, o guzeylər.
Həsrət həsrətin görəndə,
Bayramın o gün eylər.

Abbas deyir, yarim urbəndin ata
Görsədə cəmalın, günün obada.
Hər kəs nazlı yarın cənginə bata,
Səggiz cənnət, bir rizvanə yetişər.

Apardı bozat məni,
Saxladı, səyyad məni.
Baş qoyum dizin üstə
Çox yatsam, oyat məni.

Abbas yenib quyunun təkinə, Abbas sudan verib tamam bular işdilər, sirab oldular və məzillərinin də o su ki ehtiyaşlarıydı, mənzillərin də suyun götürüblər. Ama Sarı Xoca dəstur verdi, tamam qabları suynan doldurannan sora dedi:

– Qul Abdulla, mən gedirəm, nə qədir ki, su bizə ehtiyacıdi, siz çəkin, ama dalıdan yavaş-yavaş Abbası da özünüznən gətirəsiz, gətirəsiz ha.

Bular getməhdədilər. Abbas tənabı bağlıyib belinə, çəhdilər. Abbasın başı quyudan zahir oldi eşiyə, Qul Abdulla dedi:

– Abbas, elə bilirdin ki, mən sənə düz deyirdim ki, səni quyudan səheh-səlamət çığardecıyam? Genə çıxıb mənə ərbablığ eliyəsən?

Dedi:

– Əlinnən nəmənə gəlsə, muzayiqə eləməginən, bilirəm firsət tüşüb sənin əlinə.

Qul Abdullanın şəmşiri gedib əzəl yerində qərar tutdu, ağa, tənab bir əlində, şəmşiri yendirib Abbasın boynuna. Abbası şəmşirdən rəf eliyib, şəmşir dəydi tənabə, tənab qırılır, Abbas getdi qırx ərşin quyunun təkində düşdü yerə. Ama Qul Abdulla gördi, o mətləb ki bunun ürəyində ola bilmədi, o dövrədə nə qədir öz gujləri çatan daş var, quyuya doldurdu. Ama Abbasın Allahı Abbası daşınnan difar arasına saxliir. Abbasa daşlardan çox yarə yetişip, çox yaralanıb, ama al qaninə xərman. O qədir daş töhdilər, şayət quyunun iki-üç ərşini daşınnan hörüldü.

Qul Abdulla əğzın tutdu quyuya dedi:

– Abbas, indi bunnan sora hər moqeyi gələ bilsən gə, Gülgəzin qolunnan tutup verəciyəm sənə.

Ağa, Abbası-quyunu daşliyiblər tərg eddilər, düşdülər yola, gəlib yetişdilər Sarı Xocaya. Sarı Xoca gördi Abbas gəlmir, xəbər aldi:

– Abdulla, bəs Abbas hanı?

Dedi:

– Sarı Xoca sağ olsun, Abbas tərəfinnən başın sağ olsun. Deme, tənabın bir nəzih yeri varımış, Abbası çəhdıx, tənab qırıldı, Abbas bir də düşdü quyuya.

Sarı Xoca inanmadı ki, mən bilirəm Abbas yenə gələcəh. Ama sən namərtlıx eliyibsən. Çün Sarı Xoca inanmışdı ki, Abbas kəmərbəstədi, neçə dəfəm Abbasa o yarələr dəyib Abbas genə yəxşi oldi.

Bir sözi ərz eliyax Abbasdan. Abbas bir moqeyi huş gəlib başına baxdi gördü ki, quyu Abbasın nəzərinə bir ulduz kimi gözükürdi. Bu zamanda ağanın fərmayişti yadına düşdü ki, mənə deyib hər yerdə məni çağırsan, orda yanına zahirəm. Ama götürüb görah burda quyunun dibində bir neçə kəlmə nə deyir?

Abbas dedi:

**“Daban Şikəstəsi” – “Kərəm şikəstəsi” havası**

Aliyyə əlasan, şahi-lafəta.
Aləmə sərvərsən Ali Qəzənfər.
Qəzənfərsən, canım ismivə fəda,
Otuz üş min batman götürdün Xeybər.

On səggiz min aləmin sənsən sərvəri,
İşarə eylədin, gün döndi bəri.
Yədullah dəstində götdün Xeybəri,
Şahiddi bu sözə göylər, həm yerrər.

Yüz irmi dört min nəbidən sənsən oliya,
Həx deyib şənivə lolake lola,
Bir ismin Yasindi, bir ismin Taha,
Bir ismin Külkəfa, bir ismin Heydər.

Hörmətinnən yer, göy tutubdur gərəh,
On səggiz min aləm küllən, nə ki var.
Sənə bəxş eliyib bir pərvərdigar,
Fatimə Zilfiqar, Düldül və Qəmbər.

Sənsən mehraşda Rəsulun yolunu tutan,
Qul deyib özüni bazarda satan.
Tiflikən ağ devin barmağın satan,
Vəsiyyi-Mustəfa, qəziyyül məhşər.

Həzrət Rəsul mehrac üsdə varanda,
Onda gördüm şahi-mərdan Əlini,

Məlakələr dört dörəsin alanda,
Orda gördüm şahi-mərdan Əlini.

**"Şirvan Şikəstəsi" havası**

Həzrət Rəsul mehrac üsdə yeridi,
Məlakələr dört-dörəsin bürüdi.
Şahi-mərdan şir donunda göründi,
Kəsdi orda Mustəfanın yoluni.

İnsanoğlu, çox guvənmə varrığa,
Bir gün olar əlin düşşər darriğa,
Tihrinmişəm bir sən, sənin birriğa,
Saxlama quyuda Abbas kimin qulunu.

Ama Abbas gördi bir səs gəldi Abbasın qulağına. Abbas gördü daşlar şarhaşar gedir guyunun təkinə. Qan, su bir-birinnən aralandı, gördi nur daxil oldu quyuya. Ama götürüb Abbas bir neçə kəlmə burda nə deyəceh?

Abbas dedi:

**"Ruhani" havası**

Ay ağalar, səlle-əla Mühəmməd,
Ərənnnər sərvəri gəldi, nə gəldi.
Düldülun sahibi, Qəmbər ağasi,
Cansıza can verən gəldi, nə gəldi.

Əcəb xoş açılıb beheştin güli,
Həsən, Husen o cənnətin bülbüli,
Daş yarıldı, çıxdı şahın Düldüli
Aslanı yanıncan gəldi, nə gəldi.

Ənbiyadır ərənnərin sərvəri,
Nurdan xəlq olunub onun mənbəri.
Rikabinnən tutub gəldi Qəmbəri,
Mərtlərin ağasi gəldi, nə gəldi.

Quranı oxullar ayə üzünnən,
Dür tökülür Peyğəmbərin sözünnən.
Binamazlar tüşüb həqqin gözünnən,
Cəbrəyildən nida gəldi, nə gəldi.

Abbas deyir, həm qanandır, həm alim,
Qismət ola görax cənnətəl-bagi.
Məhəmməd-əl Müstəfa minmiş Baragi,
Əliyəl Mürtəza gəldi, nə gəldi.

Bir qəddi Tubadır, qaməti ər-ər,
Gözləri nərgisdi, cəmalı mahru.
Qaşlar qose-quzeh, kirpihlər misri,
Salib əbr üsdünnən misalə geysu.

Cəmalı ay kimin, nurə hidayət,
Kərəm dəryasısan, elmi-səxavət.
Qaziəlmə məhşərsən, ruze qiyamət,
Görəndə cəmalın qətrə vurur su.

Sənə qurban olum, kərəmın kani,
Kərəmin kanısan, elmin bəyani.
Biçarə Abbasın sənsən gumani,
Sən tək ağası olan qula nə qorxu?

Abbas gördi quyunun başınnan səs gəldi gulağına: “Abbas, əlivi ver əlimə”. Dedi: “Ağa, burdan ora əl yetişməz, bu quyunun qırx ərşin ərzi tuludi”. Xızır peyğəmbər dedi: “Əqidədən kənar olma, əlin yetişər, əlivi ver əlimə”. Abbas əlin uzadıb gördi elə su Abbası qövziyib, gətirib quyunun lap ağzındadi. Abbasın qolunnan tutub, qoydi kənarə. Abbasın halını soruşdu: “Abbas, vəzi-halın necədi?” Götürüb bir neçə kəlmə nə diyəcəh:

Abbas dedi:

**“Qurbəti” havası**

Ay xaliqi-zamin və asiman,
Yetiş hərayima, ay pərvərdigar.

Pərvanə tək yandım eşqin oduna,
Yetiş hərayima, ay pərvərdigar.

Mən aşıq qan eylər,
Su gələr, qan eylər.
Dost məni bu halda görsə,
Ya ölər, ya qana-qan eylər.

**"Ceyrani-Kərəm" havası**

Mən aşıq balam ağlar,
Arı şan bala bağlar.
Bir ata yara alsa,
Yarasın bala bağlar.

Kəbəyə gedənnə de müşkülünə,
Bülbül vəsfə halın demiş gülünə.
Biçarə Abbası de müşkülünə
Özün yetirginən, ay ağə, həray.

Mən aşıq ərzi-Ruma,
Yollar gedə Ərziruma.
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

Xızır peyğəmbər dedi:

– Abbas, məni tanıyısan? Mən kiməm?

Dedi:

– Taniyiram, elə mən bu bəlalərə çoxu sənin üzünnən düşmüşəm. Mən hara, İsfəhan hara? Mən hara, Kürşat quyusi hara? Bu badəni sən mənə verməsəydin, bəlkə bu qəzov-qədər mənim başıma gəlməzdi.

Dedi:

– Abbas, kişi dünyada gərəh qəzov-qədər çəhsin. Qəzov-qədər çəhərsən, ama axır muradıva çatarsan. Hələ halı-əhvalın nə cürdi?

Dedi:

– Bəli, qulax as halımı deyim nə cürdi. Ama götürüb burda bir neçə kəlmə nə diyəcəh:

Abbas dedi:

Ərəb, mənnən xəbər alma,
Mənim halım pərişandı.
Sən tək təbibim olmasa,
Ağa, dərdim bidərmandı.

Yazılannar oldi bica,
Zəhrimardi gündüz, gecə.
Qul Abdulla, Sarı Xoca,
Edib divanə amandı.

Abbas sözünün dəvamında dedi:

**“Sarı torpaq– Koroğlu qaytarması” havası**

Gülgəz əldən getdi həmdəm,
Günbəgün artır dərdi-qəm.
Bir adım Şah-i Qəşəməm,
Bir adım Şah-i Mərdandı.

Gülgəz əldən getdi bari,
Sən ol mən fəqirin yari.
Üzüm dönmür vətən sari,
Dünya başıma tufandı.

Abbasam, qəhrə dolmuşam,
Ərənnərdən pay almışam.
Qəm girdabında qalmışam,
Yetiş imdadə, amandı!

Dedi:

– Abbas, sən burda dayan, mən bir neçə rikət nəmaz qilacıyam, nəzımı qılım.

Sözü eşit kimnən, quyunu bir nəfər ehsani qazmışdı. Ama bu ağa üş gecədi yatır, hər gecə görür ki, quyu doludu qaninən.

Ama sübh yerinnən durub, əsasını alib əlinə, yavaş-yavaş gəldi, yetişdi, ağa, Kürşat quyusunun başına. Kürşat quyusunun başına yetişib, burda birinin oturduğunu gördü, dedi:

– Burda nə işin var?

Dedi:

– Üş gündü bu quyuda mənəm, məni bura atdılar.

Dedi:

– Bə oğul, bu qırx ərşin quyudan səni kim çığəddi? Biləsən kim çığəddi?

Dedi:

– Bəli.

Dedi:

– İsdirəm biləm görəm səni bu qırx arşin dərin quyudan kim çığəddi?

Ama götürub Abbas neçə kəlmə nə diyəcəh?

Abbas dedi:

**"Divanı" havası**

Bu zəmanda girifdarəm əkbərə, sübhanə bax,
İki aləmin günəşi şokətilə, şanə bax.
Daş yarıldı, çıxdı Düldül, hatifdən gəldi nəda,
Yeddi min yeddi yüz yetmiş yeddi pərzada,
Hər tərəfdə səcdə qılan hureye, qılmanə bax.
Müsgülləri həll elədi Tifarqanı Abbas üçün,
Üz döşərəm xake payinə həbibə, rəhmanə bax.

Ağa nəmazını tamam eliyib, Abbasın gəldi yanına: "Abbas, yapış mənim rikabimnən". Abbas rikabinnən yapışıb, dedi: "Abbas, uş dənə səlavət çövür". Abbas üş dənə səlavəti çövürüb, ama gördi əyaxlar dəydi yerə. Abbas gozlərin aşdi, ağa, bura haradı? Dedi, bura həman şəhr-İsfahandı. Ama çün Abbas ki yetişdi dərvaziyə Mübarəkdən səval elədi:

– Ağa, mənim əmim qızi Gülgəz gəlib, ya bizdən dalı gələceh?

Buyurdu ki, hələ on beş gün sənnən sora, on beş gün bunnan sora Gülgəz gələr İsfəhana.

Abbas addı bir dana dərvazəban üş gecəydi yatırdı, Abbası yuxuda görür ki, bu namı-nişanda bir cəvan gələçəh, ama ona sahib gərəh o olsun. Vəfağadi ki, Abbas dönüb, ağa, mənim sahibim hansi terefden gəleh? Mübarəh barmağinan işarə elədi, bu tərəfdən sənə sahib gələr. Döndi, Abbas baxıb belə döndi, gördi ağa gözunnən qayib olub.

Cəmaət yığışdılar Abbasın başına, gördülər bi dənə cəvanyemə, işmə, xəddi-xəlinə, gül cəmalinə, on dört gejəlih ay kimi şövlə verir, ama elə ağliyir. Dedilər, oğlum, niyə ağliyirsan? Nə olub sənə? Ama Abbas dərdin isdiyir İsfəhan əhlinə belə desin:

Abbas dedi:

**"Gəraylı" havası**

Kor olaydi mənim gözüm,
Mənim ağam hara getdi?
Qəmbər rikabinnən tutdu,
Mənim ağam hara getdi.

Qılıncını çaldı daşa,
Bir çüt bulax çıxdı goşa.
Əjdahəni başdan-başa,
Kəsən Ağam hara getdi.

İtirdim natiqi-Qurani,
Şahi-Mərdan, Mürtəzani.
Mən Abbasi-natəvani,
Ağlar qoyan, hara getdi?

Bir dənə dərvazəban var, bunun da adı Abbasdı. Xızır peygambər bunun ki, üş gecəydi yatırdi yuxusuna gəldi, Abbası rüyada görürdi, yetişib gördi həman oğlandi ki, ağası buna yuxuda nişan vermişdi – Abbası bunun mənzilinə. Çün ağa buyurmuşdu ki, on beş gün sənnən sora Gülgəz gələr bu İsfəhana.

Sözi eşit ərz eliyim kimnən, Sarı Xocadan. Sarı Xoca on beş günnən sora gəlib yetişdi İsfəhanın bir mənzillığında düşdülər. Götürüb bir namə yazdı, yolladı Şah Abbasa:

– Qibleyi-aləm sağ olsun, həman qızi ki gətirmişəm. Ama çün Şah Abbas gızı görməmişdi, Sarı Xoca çox baədəb, bakəmal bir adamıdı, dedi bünu şah dərbarinə varid eliyirəm. Ama Şah Abbas dəsdur verdi, Azərbaycannan Farsustana gətiriblər, İsfəhan farsdi, gərəh bu qızı cahı-cəlalınan, dəbdəbəynən varid eliyin şəhrə.

Abbas gördi ki, şəhri-İsfəhana qili-qal düşüb. Abbas üzün tutdi o Abbasa ki, nə xəbər var? Dedi, oğlum Şah Abbasa Azərbaycannan bir qız gətirillər, cəmaət onun pişvazına gedir. Abbas da durub qoşuldu cəmaətə, ama qəribdi, elə təh gedir. Gedib dərvazənin yaxınnığında bir yerdə də Abbas dayandı, Abbas gördi Gülgəzin qabaxında çalğıçılar, Gülgəzin qabağıncan çala-çala gəlillər. Abbas gördi, Gülgəz də kəcavədən, pəncərəsinnən başın çığardıb kənərə, tamaşa eliyir cəmaətə. Ama ağliya-ağliya gəli, çox bekefdi.

Abbas dərvazənin bir tərəfində dayanıb bir neçə kəlmə Gülgəzin gəlməsinə deyir:

Abbas dedi:

**“Sindivanı” havası**

Sövdücəyim, xumar-xumar gəlirsən,
Vurubsan ağ üzə, o xalə zəngi.
Sağında, solunda nocəvan qullar,
Qabaxda döyüllər təblə cəngi.

Könül necə dönsün sən kimi nazdan?
O şirin söhbətdən, o şirin sözdən.
Gözəllər gəlsələr şəhrə Şirazdan,
Olmaz sən Gülgəzin dangının dangı.

**“Dəmir Gözəlləməsi” havası**

Sövdücəyim, sən nə xiyal eylədin?
Danışdın əqlimi xandan eylədin.

Biçarə Abbası abdal eylədin,
Qovzadın dalına pustə pələngi.

Abbas sözünün dəvamını beylə dedi:

**Zil-dubeyti**

Gəlir qızıl kəcavədə,
Gəl bənəviş şallı gəlin.
Kecavəni var ucada,
Gəl bənəviş şallı gəlin.

Bənövşə bitər uzadi,
Qaz kimi boynun uzadi.
Gəlin var qızdan təzədi,
Gəl bənəviş şallı gəlin.

Bənövşə bitər torpaxdan,
Dərmərəm gülün yarpaxdan.
Öldüm yolunda durmaxdan,
Gəl bənəviş şallı gəlin.

Bənövşə bitər allanı,
Abbas baxıb xəyalına.
Ağ sinən üsdə hallanı
Gəl bənəviş şallı gəlin.

Qul Abdulla əğzı açıx qaldı. Bildi ki, bular dərbarə getsələr, ölüm Qul Abdullanınkıdi. Abdulla bulardan ayrilan itdi. Ama Sarı Xoca Abbası gətirib orda bi dənə yerdə qaldı. Gülgəzi aparım təvil verim Şah Abbasa və necə ki, görmüşəm, o cür da mən Şah Abbasa səni diyəcəyəm, elə Gülgəz sənindi, sən də Gülgəzinsən. Abbas gəlib çılovpəzxaniyə, bu burda qalmaxda olsun, sözi eşit kimnən, Sarı Xocadan. Qızı təvil verib, gəldi Şah Abbasın huzuruna. Baş vurub, ədəb yerində dayandı. Bədəz sələm və kəlam, sərgüzəşti nəğil elədi. Sərgüzəştlərin nəğil eliyib, dedi, qızı təvil vermişəm bir dənə qəsridədi.

Şah Abbas gəldi Gülgəzin otağına. Gülgəz Şah Abbası pişvaz eliyib, durdu əyağına şaha səlam verib. Şah Abbas gördi bir dənə qırmızı, Allah tərəfinnən bir qırmızı pərdə, bunun gözünün qabağın tutdu, görə bilmir. Şah Abbas bildi burda bir əlamət var, qəyitdi. Gəlib öz qəsrinə, dedi:

– Sarı Xoca, bu qızı ki, sən Azərbaycannan gətiribsən, nə sistim gətiribsən, o cür mənə bəyan elə.

Dedi:

– Qurban, bu qızı ki, mən Tifarqannan ki götürmüşəm, munun əmisi oğlu bunun namizədidi. Əz qəza biz beş-üş gün də gej getsəydıx, buların toyları olmuşdu. Getmişdi Təbrizdən özünə bazarrıx eləsin. Ta o gələnə kimin biz qızı Tifarqannan götürmüşdüx. O cür Gülgəzin dalısıcan gəlib ta bu İsfahana kimin. Neçə yerdə həman qul demə buların ədavətləri varımış, bir yerdə Qaflantıda, bir dəfən Məzə dağında, bir dənən Kürşat quyusunda Abbasa Qul Abdulla neçə yarələr vurub salıb quyuya, indi bizdən qabax gəlib görmüşəm ki, İsfəhanın dərvazəsindədi.

Dedi:

– Necə oldu oğlan?

Dedi ki, o oğlanı qoymuşam bir dənə barınaxda. Şah Abbas dəsdur verdi getsinlər. Getdığında gördülər gedibdi. Dedilər, üş günüdü burda yoldaşıdım, bu gün getdi, ama bir neçə kəlmə də söz mənə dedi, bilmürəm hara getdi.

– Nə dedi?

– Dedi, elə mənə örgədibdi, mən deyim çün savadım yoxdi, siz yazın. Bu sözləri deyib, ama götürüb burda bir neçə kəlmə görəh Abbas nə diyeceh?

Abbas şöylə dedi:

**“Gözəlləmə” havası**

Gün batannan günəş üzlüm
Gəlib günçıxana getdi.
Şah Abbas aldı yarını,
Qarqana-qarqana getdi.

Möminlər salallar mənbər,
Qoynunda var müşkü-ənbər.
Misiridə Yusufi-peyğəmbər,
Varıdı, zindanə getdi.

Yaram azdı,
Ovçu çox, maral azdı.
Tabibsən dərman eylə,
Ölmərəm, yaram azdı.

Abbasın vardır ağası,
Çağırram qolsuz Abbası.
Əlində ərizə naməsi,
Gəldi, Xurasanə getdi.

Çün söz diyən elə Abbasın özüdi, ama bular tanımıllar. Dedi, gedirəm ya Kərbalayə Şah Abbasın əlinnən şikayət eliyəm, gedirəm ya Kərbalada Əbəlfəzə şikayət eliyəm, ya gedirəm Xurasanda imam Rizaya şikayət eliyəm. Mənim əmim qızımi, öz həlalimi əlimdən alıb. Bular naməni aldılar, rahı-rəvan oldular. Ama Sarı Xoca intizar çəkir, gördi həman şəxsilər boş gəldilər, bu xəbər Gülgəzin qulağına bu söz yetişib. Gülgəz bu sözi eşidən bir dedi, Abbas heş yerə getməz. Vəli bu İsfahandadı, görün hardadi tapın. Sarı Xoca bu sözi eşidən, gəldi həman yerdə ki Abbası qoymuşdu, tapşırmışdı ora. Gəldi gördi Abbas özi burdadı, Abbasın qolun saldı boynuna, gözlərinnən opüb, dedi: "Oğlum, mən isdiyirəm işi asan eliyəm, sən özün salərsan çətinə. Mən Şah Abbasın məclisində, sənin tərifinnən o qədir demişəm sənə məhəbbət yetirib. Şah Abbas isdiyir sənnən bir neçə imtəhan alsın, fəqət Əlinin şəninnən oxuyacəhsən, əmin qızı Gülgəzi də qolunnan tutsun, tapşırsın sənin əlivə".

Ağa, Abbası razı elədi, gətirillər Şah Abbasın dərbarinə. Məclis təmam, Abbas isdiyir Şah Abbasın məclisində Əlinin şəninnən oxusun. Şah Abbas imtahan alır, danışdırır. Xanımlar üsdə durardılar, pərdənin dalında, Abbas şah Abbasdan icazə alıb, çəkilib təxtin bərabərinnən bir qədri kənarə. Düymələri açıb Ab-

bas üzün tutub yuxarı ki, bir neçə kəlmə Əlinin şəninnən oxusun. O sözü ki, qəlbində oxuyacəhdi, yadınnan çıxdı götürüb indi bir neçə kəlmə nə diyəcəh?

Abbas dedi:

**“Cəlili “havası**

Badi-səba oyrəşəndə zilfinə,
Bir muyi üzülsə, uzulər canım.
Damənin yığıb yerə sərməsən,
Onun əllərinlə alasan canım.

Arı bal gətirməz qorxuram şanə,
Bu qərə bağrimi qoydun nişanə.
Bi teli tökülə qorxuram şanə,
Bir muyi üzülsə, üzülər canım.

Abbasam, geçərəm bu günahinən,
Məni qətlə yetir bu günahinən.
Həmdəmsiz dünyadə bu günahinən,
Əgər şah lütf edə, üzəsən canım.

Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Qolun qurusun avçı,
Maral vurduğun yerdə.

Şah Abbas işarə elədi Sarı Xocaya, götür bunu sal çölə. Yapışıb Abbasın qolunnan Sarı Xoca çığaddı qəsridən kənarə, bə sen ne oxuyusan?

Abbas dedi:

– Sarı Xoca, mən şah məclisi görməmişəm indiyə kimin. Get mənim üzrümü Şah Abbasdan isdə, bu dəfən tamam Əlinin şəninnən diyəcəyəm. Mən belə bilirəm ki, Əlinın şənninən demişəm.

Sarı Xoca qəyitdi Şah Abbasın bərabərinə, dedi:

– Qurban, o şairi ki, gətirmişdıx bura, şah məclisi görməmişdi və şahın üzünə baxanda fikri çaşıb, deyir icazə versin mən bu dəfə öz ağamın şəninnən diyəcəyəm.

Dubarə Abbas əllər döşündə, Şah Abbasın bərabərində dayanıb:

– Qurban, o dəfəm huşum başımda deyilmiş, indi icazə verginən tamam Əlinin şəninnən oxuyaceyəm.

Gülgəz genə pərdəni vurdu. Abbas baxan, gördi Gülgəz həman yerdən tamaşa eliyir, ama bu dəfəm üzün bir az yana çöndərib. Ama götürüb bir neçə kəlmə isdiyir Əlinin şəninnən oxusun, genə Gülgəz gəldi gözünün qabağına deyir:

Abbas dedi:

**“Şərili” havası və ya “Dəmir gözəlləməsi”**

Dərs almadı aşdı kitab oxudi,
Ehtiyacı yox usdaya qaşlarin.
Dəryayi-ümmannan rəngin edibdi,
Şahi-Mərdan Mürtəzayə qaşların.

Əman olməz yarın ləli-ləbinnən,
Dəryalər muç vurur çeşmim selinnən.
Təzə çıxıb ostadının əlinnən,
Salıb ağ üzünə sayə qaşların.

Ovçu olan durar dağ damanında,
Dərddi olan durar dərtli yanında.
Nə durmusan seyrəğublar dalında,
Bənzər nuri-təcəllayə qaşların.

Ama ustad rəvayət eliyir, Şah Abbasın dilinin üsdündə bir xal varmış, o moqeyi ki, qəzəbi tutseydi o xal böyüyərdi, Şah Abbas danışanda pəltəhləşərdi, yaxşı danışa bilməzdi. Sarı Xoca gördi Şah Abbas gəldi qəzəb üsdə. Hey işarə elədi, gördi olmadı. Ama alıb sözün dubarəsini Abbas nə diyəcəh:

Abbas dedi:

Qaşların bazirgan, xalların xoca,
Ver əmsin ləbinnən mənim tək aca.
Abbas idim gəlməzdim şahə iltica,
Gətdi məni ilticayə qaşların.

Şah Abbas səsləndi cəllada, cəlladlar da dərbarın q-apısında amadədilər, varid oldular: "Bəli. Ağa, yemişıx çörəyivi, geymişıx libasivi, qolumuz qüvvəli, gözümüz qanni, kimin ömri təmamə yetişib?"

Əlin uzatdi belə balabançıya tərəf, dedi:

– Vur bu xəta didənin boynun.

Abbas gördü ho bara qoyub, indi huşi başına gəldi, indi huş gəldi başına. Gördü cəlladdar gəldi. Ağa dərbarın vəsətində dəsdur verdi, teşti qoyublar, külü tökublər Abbası əyləşdirsinnər teştin içində. Dedi:

– Çəpəl, sən məni səriyibsən? Aşıxsan, aşıx sözü de, dərvişsən dərviş sözü de.

Cəllatlar isdiyillər Abbası doğrasınnar. Ama götürüb görəh dubarə bir neçə kəlmə nə deyir, Şah Abbasa nə iltimas eliyirdi?

Abbas dedi:

**"Kərəm köşdü" havası**

Başıva dolanım ədalət şahım,
Yazılan Quranə bağışla məni.
Yüz igirmi dört min nəbi sərvəri,
Hətm Əli şəninə bağışla məni.

Səndə vardı peyğəmbərin nişani,
Aşikar eylədi dini, imani.
Ühüd davasında sınan dəndani,
O sinan dəndanə bağışla məni.

**"Qəzəl bayatısı" havası**

Abbasın ağasi xubların səri,
Əgər huri desən, xəlq edər pəri.

Şah Təgi, Şah Nəqi, Həsən Əsgəri,
Sahibəzzəmana bağışla məni.

Bu sözi deyən Şah Abbasın dünya nəzərində tiri-tar oldu. Cəlladdar müntəzirdilər, Şah Abbasın hökmi-fərmanına, gördülər şahdan cəvab gəlmədi. Şah Abbas əlinnən işarə elədi ki, götürün bunu kənarə.

Abbası mejlisdən çıxaddılar, dəstur verdi ki, Abbası aparın salın hamam siyahçala. Dəstur verdi çəkin siyah çalə tərəf. Bəli, Gülgəz bu muqəddəməni eşidib, hərəmxanə qızlarınnan, xanımlarınnan, kənizlərinnən bir dəsdə yığıb, ağlıya-ağlıya yolun bir tərəfində dayanır.

İndi söz eşit kimnən – Qul Abdulladan. Allah heç nanəcibin kefin saz eləməsin. Bu cərəyannan bixəbər olan, eşitdi ki, Abbas Şah Abbasın məclisində dolaşıb, indi şahın qəzəbi tutub, isdiyir Abbasi saldırtsın quyuya. Bu da çıxdi, dedi, bəli, mən bilirdim bunun zatı xarəpdı da. Qul Abdulla qabaxda durub, dayanıb şəmadət eliyir.

İcazə aldı ki, üz tutdi dövrüyiyə mənə beş, on dəyqə vəxt verin ki, sinəmdə bir neçə kəlmə sözüm var, mən onu deyim. Ama indi burda Abbas isdiyir nə desin?

Abbas dedi:

**"Döymə Kərəmi" havası**

Adam var zatı puç, borki əyri,
Özünnən özgəni dahı bəyənməz.
Adam var ki, nan tapammır dünyada,
Adam var qət yeyər, balı bəyənməz.

Adam var ki, gəzər cahan sərsəri,
Adam var ki, giyər pust ilə dəri.
Adam var ki, yox ədəbdən xəbəri,
Adam var ki, yol, ərkanı bəyənməz.

Adam var ki, getmiyəsən işinə,
Adam var ki, dolanasan başına,

Adam var ki, ayran tapmaz aşına,
Adam var ki, yağ yiyər, balı bəyənməz.

Adam var gözünə çəkəsən millər,
Adam var dəstində tutupdu güllər.
Tufarqannı Abbas, başıva küllər,
Nə günə qalıb öz yari bəyənməz.

Abbası çəkillər siyah çahə tərəf, ama gördü səsinə səs verən olmadı. Gülgəz də bu tərəfdən gəlib Abbasın qabağında dayandı: "Əmioğlu, əcəb özvü bədbəxt elədin, dahi sənnən mənim didarım qaldi qiyamətə". Abbas burda ürəh gənə dərtdənib, dedi: "Mən gedirəm, dahi bizim görüşümüz qiyamətə qaldı. Ama mənim tərəfimnən bir namə yazarsan Tifarqana, mənim anamın gözi yolda qalmasın, dahi mən bu quyudan inanmıram səlamət çıxam bir də". Götürüb bir neçə kəlmə nə diyəceh?

Abbas dedi:

Bir gözəl oxladi məni,
Belə əbru, kaman olmaz.
Göydən huri-mələh yenə,
Sənin kimi gözəl olmaz.

Kabab yanar köz ilə,
Danış yarın özi ilə.
Müxənnətlər sözü ilə,
Yar yarınnan kənar olmaz.

Mən Abbasam, yana-yana,
Yandı bağrım döndü qana,
Bir namə yaz divarqana,
Dahı sənnən yaman olmaz.

Dahı əlim heş yerə yetişmədi, bir namə yaz tərəfimnən Tifarqana. Bir sər-səlaməti kağız yazarsan ta mənim doslarım və anam mənim intizarımı çəkməsinnər. Söz təmamdı, Abbası indi gətdilər, ağa, yetiriblər siyah çahın üsdünə. Şah Abbas dəsdur verdi, bəli, Abbası salliyıblar quyunun təkinə, isdiyillər ki, quyunun

əğzin bağlasınnar. Abbas götürüb gördü ki, cəmahət hazırdılar quyunun əğzin örtsünnər, əgər bu quyunun əğzı örtülər Abbasın bir saət ömürunə gumanı yoxdi. Görəh nə deyir, kimə nə deyir?

Abbas dedi:

**"Qaraçı qaytarması"**

Tədbir yoxdur göydən gələn qəzayə,
Bu dövrannan mənə sitəm olubdu.
Şikayət eylərəm İmam Rizayə,
Bu dövrannan mənə sitəm olubdu.

Mən aşıx keşmə mənnən,
Çay sənnən, çeşmə mənnən.
Baxma yadlar sözünə
Çəvanam, keşmə mənnən.

Gecə-günüz çox eylərdim ibadət,
Göz yaşım özümə eglədi adət.
Göyün mələkləri şəhadət,
Bu dövrannan mənə sitəm olubdu.

Mən, aşiq qoydun məni,
Nar kimi soydun məni.
Nə kölgəndə saxladın,
Nə bir günə qoydun məni.

Abbas deyir, həbəsədir həbəsə,
Tutu quşi kimi düşdim qəfəsə.
Mən gedib diyərəm şahi-Nəcəfə,
Bu dövrannan mənə sitəm olupdu.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Xəzəl ollam tökülləm,
Bir dənə ağaç kimi.

Dəsdur verdi quyunun əğzın örtün, quyunun əğzi örtüldü, cəmahət çoxu ağlıya-ağlıya qayitdi. Fəqət bi şadı xəndan ki, qəyitdi, Qul Abdulla oldu.

Bir üzün dolandırdı dört dövrəsinə, gördü quyunun takidi, burda heş kəs yoxdi və bir dadirəs yoxdi. Yadına gəldi, axı, ağa, mənə Sahibil-Əmirdə dedi, sən məni hər yerdə çağırsan, mən orda sənin püşto pənahınam, gəl, elə bi dərdivi deginən. Ama götürüb indi bir neçə kəlmə burda nə deyir?

Abbas dedi:

**"Qurbəti" havası**

Müşgüldə qalmışam, yetiş dadima,
Dadrəssən yetiş, ay ağə, həray.
Müşgüldə qalana müşgülquşasan,
Gəl sən özün yetiş, ay ağə, həray.

Qalmışam qəmgin zəmində,
Çəkirsən fikrimi öz aləmində.
Sızıldaram zülümat zəmində,
Gəl sən yetiş dadə, ay ağə, həray.

Abbasıydım, ayrı düşdüm elimnən,
Sonalarım fərar oldü gölümnən.
Mədət eylə, özün yapış əlimnən,
Müxənnəs yapışır, ay ağə, həray.

Abbas gördü quyunun bir tərəfinnən, bir qapı açıldı, ama gördi elə bil gün düşdi. Həman seyyidə nurani varid oldi quyunun təkinə:

– Narahat olma, bu maşaqqətin, bu zəhmətin əvəzində muradın hasil olar. Ama sən qırx gün bu quyuda qalmalısan.

Abbas qaldı quyunun təkində. Abbas gördü ki, bir tərəfdən ışıx, elə bi gün düşüb, ama gül-gülüzarrıx bağdi, bir də bi qəsri, ağa, barmağinan işar elədi, o bağ, o qəsri sənin yerindi. O qırx günü sən burda qalmalısan və narahat olmagınən.

O tərəfdən Şah Abbasın məclisi bərqərar olub, məclis təkmildi, ama munun məclisində yeddi dövlətdən elçi var. Şah Abbasdan aşıq isdədilər. Aşıqlar deyişməyə başladı, eşihdən gələn aşıq elə dedi ki, heş kəs bağlaya bilmədi. Dedilər: "Qurban, biz eşitmişıx sənin yeməli, işməli, yəxşi-pis görmüşüx, eşitmişıx sənin yəxşi aşığın, şayirrərin olar, alimlərin olar, indi bir dənə böyük aşıx var, hardadı o?".

Şah Abbasın burda Abbas yadına düşdü. İndi bi yol Abbas burda olacağdı ki, söz desin. Şah Abbas Sarı Xocanı da çağırdı, həman Abbası mən sənnən salamət isdiyirəm. Dedilər: "Qurban, o siyah çahda özün biləsən ki, bir sahatdan sora heş kəs orda dəvam eləməz, Abbasın indi sümühləri sürmiyə döndi. Gəlilllər quyunun əğzin aşsinnar, görsünnər Abbasdan nə xəbər var. Ama Gülgəz də eşitdi. Bular, bu da gəldi quyunun başında müntəzirdi, hamıdan çox intizar Gülgəzdi. Quyunun əğzi açılan Gülgəz dəstur verdi qızlara, hərəz bi dana daş götürün, salax bu quyuya, görax quyu çox dərindi, dayazdi, Abbasdan nə xəbər var?".

Abbas da baxdı gördi quyunun təki elə bir bir dana ulduzdi Abbasın gözünə görsənir.

Qızlar daşları salıblar və Gülgəz də bir daş saldi. Gülgəzin daşı Abbasa dəyən, yanı elə hamının daşı Abbasa dəyirdi, vəli Abbas burda dimmədi. Ama Abbas götürüb burda bir neçə kəlmə nə diyəceh?

Abbas dedi:

### "Gəraylı" havası

Duman, gəl, get, bu dağlardan,
Qoy dağlar bahar eyləsin.
Nə gözüm bivəfa görsün,
Nə göylüm qubar eyləsin.

Haşa, södücəyim, haşa,
Yazılandı gəlir başa.
Bir yannan özün bas daşa,
Bir yannan el car eyləsin.

Qoy Abbas quyuda qalsın,
Muxənnəs de, kamın alsın.
Nə daşin başımı yarsın,
Nə təbib tumar eyləsin.

Ama bu sözlərdən diyən, Gülgəz çox narahatdı. Kaş mənim əllərim çolax olurdu, mən bu quyuya daş salmırdım. Tənabı salliyiblər, Abbas bağliyib tənabı, Abbası quyudan çəhdilər. Gətitdilər dərbarə. Xəbər verdilər Şah Abbasa, qurban, Abbas quyudan çıxdı. Ama bu yeddi nəfər xarici müntəzirdilər, görax İran şahı bizə necə bir aşıq gətirəceh. Abbas dayanıb qapıda, fərraşlərdən geçib şaha səlam ərz elədilər. Genə Sarı Xoca varid oldi Abbasın yanına. Bala, həvasın cəm olsun ha, qabaxkılar kimin eləmə, bu dəfən şaha ehtiram elə, Gülgəz eynən səfil-əmanət qalır sənin üçün.

Abbas məclisə varid olan, gördi, bəli, yeddi dövlətdən burda əyləşiblər, müntəzirdilər. Şah Abbas icazə verdi, oğlum, mənim bir qonağım var, indi bir necə kəlmə mənim bu qonaxlarım üçün. Abbas məclisə səlam verir, görax bu salamı kimə verir?

Abbas dedi:

**"Şirvan şikəstəsi" havası**

Sirrə xəfiyasən, həqqə laməkan,
Nuri-təcəllayə səlamun əleyk,
Əşrəfi-məxluqat, aləm sərvəri,
Məhəmməd Mustəfayə səlam-əleyk.

Məhəmməd peyğəmbər əfzəldi, əfzəl,
Bələddi o yerlərə tamam sərasər.
Vəliyyə xudadur, vəsiyyə peyğəmbər,
Şahi Mürtəzayə səlamun əleyk.

Fatimeyi-Zəhra əsli xanımdı,
İlqar dedigin din imanımdı.
Ona qurban mənim yazıx canımdı,
Həsən Mustəfayə səlamun əleyk.

Dəstur verdi, Abbas bir neçə qədəm gəldi qabağa, Abbas Şah Abbasın bərabərinə. Şah Abbas üzün tutdu: "Oğlum, dubarə bəyan elə görüm, bu səlam, bu tərif, bu məclisdə kimə yetişir?". İndi qulağ as gör, səlam, tərif kiminkidi, nə diyəceh? Abbas bu dəfən isdəmədi ki, Şah Abbasa bir şey desin, aldı Abbas dedi:

**"Zil Naxcivani" havası**

Gəldim şahı özüm tərif eyliyəm,
Səlam olsun şahənşahə başa-baş.
Əzəldən axirə müşgülqüşadi,
Səlam olsun şahənşahə şeşa-şeş.
Mən ölüncə tərk etmərəm islami,
Mənnən kənar olub abe hərami.
Mübarək dəstində bülür cami,
Səlam olsun şahənşahə şeşa-şeş.

Mən aşıqam, mey qanlı,
Mey qanlı, məzə qanlı.
Qorxuram qərib öləm,
Yurdumda gəzə qanlı.

O şahı deyirəm bil ki, qənidi,
Müşgüldə qalana tamam həmidi.
Abbas bu gün söhbətivin dəmidi,
Salam olsun şahənşahə şeşa-şeş.

Bular gördülər ki, baba, bu əslən heş şah Abbasa səlam vermir, bu məclisin səlamı deyil bu. Hə, barəkallah, Abbas barəkallah, oğul, sən bu səlamı kimə deyirsən? Sən bu şah nəzərində kimi tutubsan? Və biz eşitmişıx ki, sən qırx gün bu siyah çahda qalıbsan, ölmiyibsən. Nə cür oldu? Gərəh bunu da bizə bəyan eliyəsən.

Bəs, gulağ asın, yəxşi bəyan elərəm, axı mənə nolmuşdu ki, mən orda öləm? İndi Abbas burda nə deyir?

Abbas dedi:

Onun kimin şahə xuban sövənin
Nə qəmi var qala qəmlər içində.
Gözəl şahın üzün görən çürüməz,
Yüz il qala şehi nəmlər içində.

Damadi-peyğəmbərdi o, Düldül səvar,
Gəlmiyib cəhanə belə şəhsivar.
Qınınnan qişgari gəlsə Zilfiqar,
Divan eylər söbhi şəblər içində.

Yar əlinnən piyaləmi alaram,
Əmib, əmib ləblərinnən qanaram.
Gecələr alışaram, gündüz yanaram,
Yarı gördüm naməhrəmlər içində.

Əzəldən Abbasa demədi kimsən?
Süleyman təxdində sahibi-dinsən.
Hər məclisə varsan sədrinişinsən,
Müəllimsən mülayimlər içində.

Şah Abbas üzün tutdi Abbasa:

– Barəkallah Abbas, barəkallah! Oğlum, indi bəyan elə görüm sən bu middəti sən o siyah çalda qaldın, mən hər kəsi ora salsam, bir sahatdan sonra ordan sələmət cıxmaz. Orda sən nə yeyirdin, nə içirdin? İndi Abbas götürüb sözün nə cür dedi?

Abbas dedi:

**"Cəngi Koroğlu" havası**

Yad ölkədə, qurbət eldə qalanda,
Mən çağırdım şahi-mərdan Əlini.
Tig əlində Xeybər üsdə varanda,
Mən çağırdim şahi-mərdan Əlini.

Peyğəmbər mehrac üsdə yeridi,
Məlakələr dört bir yanın bürüdi.

Həzrət Əli şir donunda göründi,
Onda kəsdi Mustəfanın yoluni.

Mən aşıqam, bu dağınan,
El də gəzər bu dağinan,
Sənə yaxşı deməzlər,
Mən ölsəm bu dağilən.

İnsan oğlu, çox güvənmə varlığa,
Bir gün olar əlin düşər darrığa.
Xudam xəlq eliyib yari yarlığa,
Saxladi quyuda Abbas tək qulun.

Bir qula ki, həxdən qəzəb olmasa,
Əsli-şəriyətdən əzab olmasa,
Aralıxda şeytan kəzzab olmasa,
Dünya bahəm yiyər inqilab olmaz.
*(Aşıq Qurbani)*

Ama Abbas genə üzün yuxarı tutan, göz sataşdı Gülgəzin cəmalinə. Dedi:

– Qurban, icazə ver bir neçə qafiyə genə sinəmdə söz var, ərz eliyim.

Abbas sözünün dəvamını dedi:

Zümrüd kəmanələr, xoş təmaşələr,
Könlüm evi ilticayə düşübdi.
Sənin cəddin məlayik, insan bəşər,
Kaman əbrulari yayə düşübdi.

Yeddi qız, yeddi quldan şahi pərvər,
Yeddi səd, dört səlam, beş oda Kovsər.
Bir libas qaldırdı etdi minəvvər,
Günün şoqun tutub ayə düşübdi.

Nuhi-Nəbiyullah səxavət zatin,
İnsana baxmağa var qəbahətin.

Cəmalin şovləsi xums-zəkatin,
Qul Abbas tək binəvayə düşübdi.

Şah Abbas dedi:

– Bunu belə tərif eliyiblər ki, mənim yanımda, bu həqq aşığıdi, yerdən də desən bilər, göydən də soruşsan bilər. Və bunun qəlbinə inam, qulağına səs deyillər, bir belə şayirdi. Ama indi qırx gündü mən salmışam quyuya, indi səlamət çıxıb gəlib.

Dedi:

– Mən sizin yanızda bunnan bir imtahan alım.

Şah Abbas bilirdi ki, Abbasdan nə imtahan alsa, diyəcəh. Sari Xocaya Gülgəzi pərdənin dalında, atlas pərdələrin dalında gətirməsini istiyir. Bir dənə surəyə yasin ayəsi və əlifbani yazdılar aparıblar vurdular Gülgəzin döşlərinə, yəni görax bu əlaməti bu biləcəh ki Gülgəzin sinəsində nə var?

Hamı əlaməti bilir, fəğət Abbasdan pinhandı. Bəli, indi Abbas isdiyir ki, bu imtahanı ki bunların hamısı bilillər Gülgəzdə nə əlamət var, fəğət Abbas bilmir. Xəbər aldılar, oğul, bu imtahanı əgər versən, elə qız da səninkidi, söz də səninkidi. Abbas nə diyəcəh, daha sınamaq istədi.

Abbas dedi:

**“Sarı tel” havası**

Pərim, sənin məmələrin,
Heş bilmirəm nəyə bənzər.
Biri Yasin surəsinə,
Biri əlif-beyə bənzər.

Məjlis üz tutdular Şah Abbasa, qurban, aya bu imtahani bu şayirin bildi, ya bilmədi?

Şah Abbas işarə elədi ki, oları aldılar və oları əvəz elədilər. Surəyə yasını ki, yazmışdılar vurdular. Oğlum, de gördüm indi nə görüsən? Çün o yaziləri götürüb, bir dənə “mim”, bir dənə “nun” yazdılar vurdular həman əvvəlki yazıların üstünə, onu deyir. Abbas sözünün davamını dedi:

### “Dübeyti” havası

Biri “mim”di, biri “nun”di,
Oları xəlq edən kimdi?
Biri yeni doğmuş gündi,
Bədirlənmiş aya bənzər.

Biri Axlatin alması,
Biri Bağdadın xurması.
Biri şəkarin halvasi,
Biri ağ minayə bənzər.

Biri güldür, gülabıdur,
Biri gulabin qabıdur.
Biri Misrin şərabıdur,
Biri şamamayə bənzər.

Mən Abbasam ağlım çaşır,
Yar qölün boynumnan aşır.
Çıxıb eyvannan boylaşır
Bir cüt şəhzadiyə bənzər.

Şah Abbas dedi, bu deyir çıxıb eyvannan boylaşır, bir cüt şəhzadiyə bənzər, nəmənə deyir? Gülgəzin yanınnan xəbər gətirsinnər. Dedilər, qurban, sənin qızıvunan çıxıbdi balquna, dövriyə tamaşa eliyillər, onu deyir.

Gördülər ki, Abbas eyni cərəyani deyir. Dedilər, şah, nə deyir? Nə isdiyir? Dedi ki, mən şah babaya hərif deyiləm, mən bir dənə şayirəm, heş zadım yoxdu, mənim əmim qızi dərbadərdi, mən də desəm o mənim namzədimdi yalandi. Əmiqızın sənin bir elə ona məhəbbətin var, onun da sənə məhəbbəti var, ya yox?

Dedi, bəs qulağ asın, dilinən demağınan ki olmaz, mən sazınan, sözünən deyim.

Abbas dedi:

### “Yaniq Kərəmi” havası

Elçilərim, sizə bəyan eyləyim,
Bağrım qərə-qərə közə tutullar.
Bu dünya işləri məkri-hal oldi,
Qiyamət pərdəsin üzə tutallar.

Qərəbağda qalan var,
Zülfün üzə tökən var.
Gedirsən get, tez gayıt,
Gözü yolda qalan var.

Şah Abbas dedi:

– Axi, bu yalan deyir, bunun əmisi qızı bunu isdəmir ki.

Dedilər:

– Bəs qurban, nə cür isdəmir? Bu isdəməməyi biz hardan bilax?

Dəsdur verdi, iki dana alma gətirin, biri ağ, biri qırmızı və yazdılar almanın birinin üstünə Abbasın adın. Dedi, bu iki dana almani yolliyax bunun əmisi qızının huzurinə, əgər bunun almasini qəbul elədi, bunu isdiyir, yox qəbul eləmədi, bil ki, heç bunu isdəmir. Da üzünnən gəlmədi ki, diyə mən də eləm aşiqəm o qıza.

Elə ki, qoydilər bir xonçiyə, xonçəni gətdilər Gülgəzin bərabərinə, Gülgəz xonçənin örtüyün götürən gördü ki, bəli, iki dana almadı – biri ağdı, biri qırmizi, biri Şah Abbasin adına yazılıb, biri Abbasın. Fikirdə qaldi, aya, əmim oğlunun almasını götürüm, şahın bəlkə məjlisdə qəzəbi tutdu. Yox, əgər Şah Abbasın almasın götürüm, əmim oğlu elə yəqin eliyəcəh ki, mənim heş buna meylim yoxdi.

Sarı Xoca o xüsusi naməni çığğadi, Gülgəz oxuyan gördi, bəli, Şah Abbas yazıb mənim almamı götür, Abbasınki qəyitsin. Naçar Şah Abbasın almasını götürüb, Abbasın almasını qəytərdilər.

Xonça məclisə varid olan, Şah Abbas üzün tutdu:

– Gördüz bu yalan diyir, heş moqeyi bunun əmisi qızının buna məhəbbəti yoxdi, bu yalan deyir.

Elçilər dedi:

– Xub, oğul, indi bu ki yalan deyir, day sən bunnan əl çəh da.

Dedi:

– Axı bu arada hilə keçib.

Cəmaət baxdi bir-birinin üzünə, Şah Abbas gördi, ey dadi-bidad, bu eynən cərəyanı diyəceh. Bi baxdı Abbasın üzünə, Abbas alib sözün dubarəsini nə deyir?

Abbas dedi:

Şeyda bülbül bizim bağda oxuya,
Beş barmağı yüz rəng ipək toxuya.
Yoxsul gedə loğman dili oxuya,
Ərbabın sözüni sözə tutallar.

Mən aşıqam, daşlı qala,
Suyu soyux daşlı qala.
Necəsın atam gedəm
Gözlərin yaşlı qala.

**"Zil Yanıq Kərəmi" havası**

Qəvvaz olub dərin dəryalar üzsin
Xəncər alıb qərə bağrım teyləsin.
Abbas deyir, yüz il qazanc eyləsin,
Öləndə beş ərşin bezə tutallar.

Araz, Araz, xan Araz,
Sultan Araz, xan Araz.
Suyun başdan qurusun,
Mənim kimi yan Araz.

Şah Abbas bir namə yazdı, Şah Abbas verdi Sarı Xocaya. Namədə nə yazmışdi, nə əməl eliyəceh Sarı Xoca? Yazmışdı ki, bir məclisi təşkil verərsən, tamam əyanı-əşrafın xanımların dəvət elərsən o məclisə və Gülgəzi olara saqı elərsən. Görəh Abbas burdan bilər ki, Gülgəz orada oların saqisidi.

Oldu sabah, məclis bərqərar olub, Şah Abbas Sarı Xocanı çağırdı. Xanımlar məclisdədilər. Ama boşqablar qoyuldi hərənin

qabağında almadan. Gülgəz də buların qabaxlarında saqi dolanır, çün dəsture Şah Abbasdi. Üzün tutdu Şah Abbas məclisədə o əyləşənnərə:

– İndi mən isdiyirəm bunun həqq aşığı olduğu mənə sabit olsun. Bunun əmi qızısı ələn hardadı?

Üz tutdular, balam, söhbət elə görəh sənin əmin qızı indi harda? Ama Abbas götürüb burda bir neçə kəlmə nə diyəceh? Abbas dedi:

**"Ağır qəhrəmani" havası**

Məclisi-arasta, mütrübi-xoşnud,
Dolan gərdiş eylə, var saqini gör.
Öz əyağın tutmuş gərdişə dövran,
Dolan gərdiş eylə, var saqini gör.

Çün xanımların qabağında ki, alma hər birinin əlində bir qızıl alma və bir qızıl çəqqi piçax, xanımlar məşğuldular alma soysunnar. Bir də dəstur verdi Şah Abbas, Gülgəzin üzünnən rubənd açılan, xanımların gözü sataşan Gülgəzin cəmalinə, gördülər, ey dadi-bidad, axı xanım budu, bular bunun yaninda nəmənədi. Ağa, xanımların hammisi o piçağı ki, almiyə vuracehdilər, hammısi əllərinə saldılar piçaxlari. Gör xanımlar elə olanda, beçara Abbas nə çəkir?

– Oğlum, indi ikiminci pərdə nəmənədi? Onu de, əmi qızın ələn nə işdədi?

Dedi, qurban, qulaq as. Götürüb Abbas sözünün dəvamını belə dedi:

Əlində görünür qızıl alması,
Dost dosta göndərər qızıl alması.
Dost necə qəbul etməz əlması,
Dovram-dovram oldu, var saqini gör.

Abbas deyir, günüm olubdur qarə,
Bunnan belə dərdim gəlməz şumarə.
Gülgəzi zilfinnən çəhdilər darə,
Əyləşib təxt üsdə, var saqini gör.

Maral durduğu yerdə,
Boynun burduğu yerdə.
Qolun qurusun, ovçı,
Maral vurduğun yerdə.

Çün şah Abbas dəstur verdi Sarı Xocaya, Gülgəzi əyləşdir bir dənə təxdin üstündə və ziflərinnən bağlaginən otağın səgfinnən, görax indi Abbas biləceh ki, Gülgəz harda əylişib və Gülgəz zilfinnən hara bağlanıb, əgər bunu da bilsə, həqq aşiğidi da.

Bu sözü deyən Sarı Xoca dedi:

– Qurban, elə imtahanın buyudu ki, daha Abbasa söz yoxdi. Abbas bu imtahani ki, sən demişdin, mən əncam vermişdim. Gülgəzi təxtin üsdündə əyləşdirib, ziflərinnən otagın səgfinə bağlamışam. Amma mənim qəbulum deyir.

Öz-özünə dedi, çün Sarı Xoca Abbasınan İsfəhana bular bahəm gəlib, bular ikisinin də ürəyi birdi.

Şayəd bu sözləri Sarı Xoca buna orgədir beyede. Dedilər, qurban, sən bu şayiri dolaşdırırsan. Dedi, bu məclisdə olanlar hərəmiz bir niyyət tutaceyız.

İndi nəmənə, oların qəlbində nə var, nə diyəceh? Baxaq nə tutublar? Abbas necə tapır?

Abbas dedi:

Bir belə adil şah olan,
Özgə bəs cəlalı neynir?
Hər kəsin yarın versələr,
Özgə bir cananı neynir?

Bir yar ki, ləbi qənd ola,
Əməsən şair pəsənd ola.
Bir yar ki əhli-fənd ola,
İşvə, işarəti neynir?

Ahi göksümnən götürən,
Göylumnən qubar götürən,
Abbası yarə yetirən,
Kəbə ziyarəti neynir?

Üçüminci niyyət o elçi ki, orda əyləşib xarici dövlətdən, niyyəti buyudu ki, əgər mənim qəlbimi bilsə, mən qəlbimdə nən tutmuşam, Gülgəzin bu şah Abbasdan iltimasın eliyib. Ama Şah Abbas dedi: "Nə xeyir. Əsli imtahan qalır, onu da elə vaqiyən həqq aşığıdı".

Dəstur verdi ki, Gülgəzi geydirin saqinin libasinə. Əyaxdan o badəni o şərbətdən birin də versin Abbasa, görax Abbas biləcəh ki, bu şarbət payliyan kimdi?

Gülgəzə saqi libası geyindirdilər. Üzünə bir dənə rübənd salıblar, Gülgəz piyaləni əyaxdan payliya-payliya gəldi yetişdi Abbasın bərabərinə. Abbas görür Gülgəz məclisdə saqi dolanır. Gülgəz isdiyir piyaləni Abbasa versin. Abbasın bərabərində Gülgəz, saqi libasi əynində, rubənd üzündə, qabağında. Abbas piyaləni almadı, ama indi bir neçə kəlmə nə diyəcəh?

Abbas dedi:

**"Qəhrəmanı" havası**

Dolanır məclisdə saqi, xoş sima,
İşmərəm əlinnən mən piyaləni.
Cəllad kimin sən durubsan qətlimə,
İşmərəm əlinnən mən piyaləni.

Öldürsələr dilim tutmaz, ya saqi,
Göylüm deyir, qafil olma, ya saqi.
Bu necə məclisdi, bu necə saqi?
İşmərəm əlinnən, qan piyaləni.

Abbasam, olmuşam illər xəstəsi,
Xəsdə gərəh dərdə dəva isdəsin.
Çəkibdir üstümə tiğə qəmzəsin,
İşmərəm əlinnən san piyaləni.

Bu sözü diyən Gülgəz rubəndin altınnan, ağliya-ağliya Abbasın qabağınnan qeyitdi, pərdənin dalına dayandı: "Niyə əmim oğlu mənim əlimnən, mənim şərbətimi alıb işmədi? Abbas niyə işmədi?"

Abbas gördi Gülgəz çox narahat halidə qəyitdi, bir neçə kəlmə Gülgəzin bu narahatçılığına nəmənə oxuyacəh?

Abbas dedi:

Ay səlatın, nə xışımlı baxırsan,
Dahı gül sövdügüm, yaman deyiləm.
Hər baxanda gövlüm evin yıxırsan,
Dahı gül, sövdügüm, yaman deyiləm.

Hicran qapısından yüz qan eylədim,
Zilfə şanə çəhdim, yüz qan eylədim.
Mən bir gövül yıxdım, yüz qan eylədim,
Dahı gül, sövdügüm, yaman deyiləm.

Yar qəddinə geyinibdi daməni,
Nadan bilməz, sərraf tanır o lalı.
Nitqə gəlib dindirəsən o lalı,
Deyər, qul Abbasam, yaman deyiləm.

Şah Abbas gördi burda iki məşuqə öz aralarında bir söz danışdılar. Şah Abbas bilir bular nə danışıllar. Ama dövrədən bunların əsli mətləbləri nəmənədi, bilmillər. Ama Şah Abbas neynədi, dəstur verdi ki, saqi şərbət gətirsin. Piyalələr doldu şərbətinən, fəqət Abbasın piyaləsinə zəhri doldurun, hələ görax bu piyalənin zəhr olmağın Abbas həqq aşiğidi, biləcəh, yoxsa yox?

Dünyaya neçə şayir gəlib, dünyaya Abbas kimi şayir gəlmiyib, bunları ki ərz eliyirəm elə şayirdi və aşiqdi. Qurbanidi Dirili və Abbas Tifarqannıdı, Xəstə Qasim Tihmədaşlıdı, Aşıq Ələsgər Göyçəlidi və Əli Rafidi. Bunların bərabərinə aşıx yoxdi. Bunların həmi ruhanı sözü var, həmi eşqi-insan var.

Gülgəz əlində piyalə genə şah dəsturudu, çarəsi yoxdi, əyaxdan piyalələri düzə-düzə gəldi. Abbasın gabağına gələndə Gülgəzin əli əsdi. Dedi, qurban, icazə verginən, Şah Abbasdan icazə alıb, sinəmə bir necə söz gəldi, mən bu saqinin əlinnən, bu sözləri oxiyim, alım bu şərbəti içim da.

Abbas dedi:

Başıva dolanım, mehriban saqi,
Ver içim əlinnən mən piyaləni.
Ver içim solmasin ömrümün baği,
Saxlama əlində sən piyaləni.

Başdan-başa piyaləsi düzülüb,
Qəm, hicran çəhmədən bağrım əzilib.
Hökmüdür qətlimə fərman yazılıb,
Gülə həmdəm edib ver piyaləni.

Qaşların cəlladi, gözün yağıdı,
Şikəsdə göylümün viran çağıdı.
Kövsərə misaldı, demə ağıdı,
Ver içim əlinnən, yar, piyaləni.

Dövran gərdiş edir, gör nə təhridi?
Abbasi tutubdu qəza qəhridi.
Məclisə şərbətdi, mənə zəhridi,
Ver içim əlinnən yar piyaləni.

– Diyən əl uzadıb Gülgəzin qabağınnan piyaləni götürdi. Elə xonçadan piyaləni götürən Abbas isdiyib əğzına yaxın gətirsin piyaləni, içirəm bidəfənnıx olam, Şah Abbas dəstur verdi: "Vurun piyaləni düşsün yerə". Abbas içə bilmədi.

– Bəs niyə şərbət verdim işmədin, indi zəhri verdilər işdin?

Dedi:

– Qurban, o şərbət mənə nuşi deyildi, ama zəhr mənə nuşidi.

Abbas bu sözi çox narahatdi diyən Şah Abbas dedi:

– Oğlum, bura bax görüm, indi əsli mənzurun nəmənədi?

Dedi:

– Sazinan, sözünən deyim. Görəh, sazınan sözünən nə deyir?

Könül, Məcnun kimi yayıl dağlara,
Əyil bu lalənin budağınnan öp.
Pərvanə tək dolan yarın başına,
Siğəllə tellərin, qabağınnan öp.

Almağ olmaz nanəcibin qızını,
Çəhmağ olmaz nanəcibin nazını.
O üzüni, bu üzüni, gözüni,
Dilinnən, dişinnən, dodağınnən öp.

Quranda oxullar Sina yaxşıdı,
Muxənnəsin boynu sına yaxşıdı.
Mən dedim öppagə sinə yaxşıdı,
Könül ha yalvarır yanağindan öp.

Baxçalar titrəşir bardan ötəri,
Almadan, heyvadan, nardan ötəri.
Abbas, ağliyirdin yardan ötəri,
Dur şahlar şahının əyağınnən öp.

Abbas sözün deyib təmam elədi, dih galxıb yerinnən üzüquyuli düşdi Şah Abbasın qədəmlərinə. Dedi, qurban, heş zad, elə bu dərbaridən məni xilas eləsən, öz canımın səlamətdiyin isdiyirəm. Dedi, qurban, icazə verəsən genə sinəmdə bir neçə kəlmə söz var, ərz eliyim. İndi Şah Abbasa dubarə Abbas nə diyəcəh, çün Gülgəz pərdənin dalındadi, sözlərin ora oxuyur.

Abbas dedi:

### “Cəlili” havası

Əzəldən can deyib, can eşidən yar,
İndi bivəfalıx, ay nədən oldu?
Deyirdin ölüncə dönmərəm sənnən,
İndi na-aşnalığın, ay nədən oldu?

Sənə qurban olum şahın yavəri,
Şahın qulluğunda yol budur, tanı.
Deyirdin həftiyə olmaram qali,
Həftən ilə döndi, ay nədən oldu?

Gözəl şah, üsdümə salgınan sayə,
Rəhmin gəlsin mənim tək binəvayə.

Abbas deyir, sirri qaldım xudayə,
Pərim bir bəşərdi, ay nədən oldu?

Narınca bax narınca,
Dərmərəm sararınca.
Mən sənə yar demərəm,
Əhdim yerin almayınca.

Söz təmam olub, Şah Abbas dəstur verdi bu məcis qutardı.

Ama sözi eşit kimnən, Gülgəzdən. Gülgəz o qızlardan bir dəstə götürüb, ertədən əmoğlumun qəlbin sindırmışam deyib, onun yanına getməh istədi. Xəlvəti gecənin yarısi gəldi Abbasın otağına, gördi Abbas belə yatıbdı ki, kasıbın o şansı kimin. İndi Gülgəz bir neçə kəlmə ağliya-ağliya Abbasın başının üsdündə nə oxuyur?

Gülgəz dedi:

**"Hicrani-Kərəm" havası**

Dünyanın şöhrətin rənc eyləmisən,
Dolanım başıva sən ayılasan,
Dünyanın şöhrətinnən sərxoş olmusan,
Dolanım başıva sən ayılasan.

Naqafil guşuva gör səda gəldi,
Xudam məgər endi, gür səda gəldi.
Leylidən Məcnuna höş səda gəldi,
Əməsən ləbimnən sən ayılasan.

**"Daban şikəstəsi" havası**

Üzüm yoxdi, necə gəlim yanıva?
Qərib canım qurban qərib canıva.
Qul Abdulla susiyibdir qanıva,
Rəhm eylə qapında mən sayilə sən.

Tərg elədin el, öbani, qardaşı,
Əzəldən beləymiş qəzanın işi.
Leysanə dönübdi gözümün yaşi,
Yatıbsan yuxudan sən ayılasan.

Nagahdan oyniyib qarşıma çıxan,
Tifilkən canımi odlara yaxan,
Niyə oyanmısan, ay evim yıxan?
Qol salım boynuva, sən ayılasan.

Gülgəzəm, gəlmişəm vallahi cana,
Məcnun təh tüşərəm çöl-biyabana.
Mən də dolanım başıva misli-pərvanə,
Mən oduva yanım, sən ayılasan.

Abbas Gülgəzin sədasına ayıldı. Ayılan gördi o hərəm xanımlarınnan və hərəm qulluxçularınnan bir neçəsin götürüb gecənin bu möqeyi elə gəlib Abbasın başının üsdünə. Gülgəz gözlərinin yaşını belə eliyir, necə baharın buludunnan tökülər, Gülgəzin gözlərinnən yaş tökülür. Bu halı görən Abbas götürüb bir neçə kəlmə nə deyir?

Abbas dedi:

**"Dübeyti" havası**

Nə ağlarsan, nə sızlarsan,
Bir dərdi beş olan könlüm.
Axırda verəm bağlarsan,
Qəmə yoldaş olan könlüm.

Doymadım xoş baxışınnan,
Aləm yandı atəşimnən.
Dumannar qalxır başımnan,
Baharı qış olan könlüm.

Abbas ağlar arsız-arsız,
Dünya olub etibarsız.

Deyirdin gəzərəm yarsız,
Gəz bağrı daş olan könlüm.

Abbasınan Gülgəz bu gecəni burda səhər elədilər. Səhər isdiyir Gülgəz Abbasın qəsrinnən getsin. Ama Gülgəz getməhdə, Abbas nə oxuyaceh?

Ay səhərdən seyrə çıxan nazənin,
Elə gəl, elə get yol inciməsin.
Şəkərləblərinnən mənə bir busə,
Dodax tərpəşməsin, dil inciməsin.

Göydə oyniyar şəmsilə qəmər,
Sevgi sevgisinin ləbinnən əmər.
O incə belivə gümüşdən kəmər,
Elə dolaginan bel inciməsin.

Qoşa nar aslanıb yar sinəsinnən,
Bülbüllər oxuyar gül həvasinnən.
Elə gəl, elə get bağ bərəsinnən,
Bülbülər ürküşüb, gül inciməsin.

Abbas deyib ağliyanda, güləndə,
Nazlı yar soruşub halın biləndə.
Mərhəmət eyliyib bizə gələndə
Elə gəl, elə get yol inciməsin.

**“Dəmir gözəlləməsi” havası**

Ay bimirvət, məndə sənnən ötəri,
Düşmüşəm çöllərə sailəm indi.
Can çıxanda cəsəddən buna nə çarə?
O məh camalinə qayiləm indi.

Dərtli Məcnun kimi bəlayə düşəm,
Mən sənin dərdinnən bil ki, bihuşam.
Mey ki işməmişəm, necə sərxoşam?
Sənin eşqində mən bil ki, sərxoşam.

Gördüm camalini, bu nə gözəldi?
Ruh gedib, canımdan bu bir nəfəsdi.
Bu dərd, mohnətin sənin əsərdi,
Öldürürsən də öldür, qayıləm indi.

Abbasınan Gülgəz indi ikisi bir yerdədilər, çün bir neçə kəlmə Gülgəzin getməsinə Abbas söz oxudu, Gülgəz dedi:

– Alıb o zəhri içəcəhdin?.

– Bəli, o zəhri işmax mənə çox nuşidi belə zindəgannıx-dan, – deyib Abbas gözlərinin yaşını töhdi.

Dedi:

– Əmoğlu, indi nədən ötürdi ağliyirsən? Əlan mən sənin yanında xitmətində, kəniz kimi qabağında durmuşam.

Dedi:

– Qulağ as, deyim.

Ama götürüb görax bir neçə kəlmə burda nə oxuyur Abbas.

Abbas dedi:

Tüfeylisən ay qarçığar baxışlım,
Elə baxıb məni cannan eyləmə.
Ağ əllərli, mehriban baxışlım,
Elə baxıb məni cannan eylədin.

Qul Abdulla bizə etdi zülümi,
Əlimnən aldılar qonçə gülümi.
Hər iki tərəfdən üzdün əlimi,
Həm oyannan, həm bu yannan eylədin.

Eşqin atəşinə yanmazdı Abbas,
Əmərdi ləblərin, qanmazdı Abbas.
Ölüncən vətənnən dönməzdi Abbas,
Sən zülmünən divarqannan eylədin.

Məni ağlada-ağlada gətirdin çixartdın bura. Gülgəz çox narahat oldi. İndi isdiyir Abbas burda bir neçə kəlmə desin.

Abbas dedi:

### “Sarı tel” havası

Budur gəldi bahar vəxti,
Dağların lalə vəxtidi.
Açılıbdır qızıl güllər,
Bülbülün bala vəxtidi.

Bülbüllər dolanır bağı,
Gəl xəlvət etdim otaği,
Dolanım başıva saqi,
Mey ver, piyala vəxtidi.

Mən Abbasam, ay boyu bəstə,
Dərdinnən olmuşam xəstə.
Al başımı dizin üsdə,
Çal yatax, layla vəxtidi.

Gülgəz dedi: “Abbas vaxtı ki mən sənnən kənarıdım, onda fikirinnən nə geçirdi?”

Dedi: “Qulağ as, Gülgəz, deyim nələr geçirdi”

Abbas dedi:

### “Gəraylı” havası

Gözüm qalmışdi yollarda,
Gəlmişdi Yusifi-sani,
Dedim salıbsan nəzərdən,
Mənim təkin binəvani.

Mən bir qulam sənə bəndə,
Zilflərin salıb kəməndə.
O qaş ilə, o göz səndə,
Salır təxdən Süleymani.

Abbası saldın zindana,
Vəxtidir oduva yana.
Ehtibar yoxdur insana,
Gördüm bu fəna dünyanı.

Abbas da indi isdiyir Gülgəzdən ayrılsın, burdan təşrif aparsın, görək nə dedi?

Abbas dedi:

**“Paşa köşdü” havası**

Durum dolanım başıva,
Ala gözlü yar, gedirəm.
Ölsəm boyuva sədağə,
Qalsam, intizar gedirəm.

Mərdinən eylə ülfəti,
Namərddən çəhmə minnəti.
Bülbül qızıl gül həsrəti,
Qışı, yazı zar gedirəm.

Abbas deyir gəl bəhsidir,
Bunnan artıx bəd hansıdır?
Ayrılığın vədəsidir,
Gəl göylümü al, gedirəm.

Söz təmam, bular bir-birinən qol boyun ayrıldılar. Ama dəstə ki Abbasın otağınnan çıxdı, Abbas da ahu balasının dalısıcan baxan kimin, bi Gülgəzin dalıncan baxdı.

Ama indi Gülgəz getməxdə, Abbas Gülgəzin dalıcan bir qətər də belə oxuyur. Abbas özün təh görüb, götürdü görək belə nə dedi?

Abbas Gülgəzə dedi:

**“Ərəb Cəlili” havası**

Başına döndüyüm ala göz pərim,
Öz-özünə qeyri halınan oynar.
Cavahir mətahi, dürr xəridari,
Tutubdi dəstindələlinən oynar.

Sənsiz gürüm viran qalsın bu bağı,
Şeyda bülbül nə zoğ elər, nə zağı.

Zülfü dal gərdəndə aşıb məzaği,
Ag üzün münəvvər xalınan oynar.

Sabah Abbas tərəfdən namə yazmışdılar Mir Hüseyni gəlsin. İndi Mir Hüseynə ki namə yetişdi, namədən baxəbər olan, elə bir kağazında bir əlamət var ki, bi aşıx gəlib, onnan sən bi dəsti pəncə vuracehsən. Dedi: "Bu necə aşıxdı gəlib mənim meydanimə? Mən dərbar aşiqiyəm, kim mənə hərif olar, mənim gün batan, gün çıxan hərifim yoxdi, bu kimdi?"

Bunun bir qiyafəsin xəbər aldı: "Ay bala, o şayir, o aşıx ki gəlib o məclisə cavandi, ya qocadi?". Dedilər: "Vallah, cavandı. On beş, on altı, da on səggizdən yuxari bunun sinni olmaz". Dedi: "Axı Şah Abbas mən bir nəhəngi-dəryayəm, məni on beş sinnidə uşağın meydanınə nəyə isdiyib?"

Yeddi dövlətdən Şah Abbasın orda məclisi bərqərardi, hər dövlətdən orda neçə dana növsəndəndələr var, söz yazıllar.

Dedi: "Şah Abbasın xarici qonaxları var, isdiyir səni dərbaridə oxutsun". "Bəs onnan ötri, deyirəm axi".

İndi Mir Hüseynin yapışıblar qollarınnan əsa əlində, day o saz vəxtinnən addamışdı, yapışdılar təmtərazinən, Mir Hüseyni varidi – Şah Abbasın məclisi oldi.

Salam, əleykəssalam. Baxdi gördi yuxarıda bir səndəl var. O qədir özünə məğrurudu ki, bəs ki Şah Abbasın da dərbar aşığıdı. Heş kəsi hesabə qoymazdı. Geşdi getdi lap o yuxarıdakı səndəlin üstündə oturub, cibinnən o avanıs dərağı çıxardıb, səqqəli bi dariyib, dedi:

– Qurban, məni bura nə üçün gətiribsən? Elə bi bu dövrüyə aşıx gəlib.

Şah Abbas dedi:

– Hə, ağayi Mir Hüseyni, bilmirəm hardan bir cavan oğlan gəlib çıxıb, yeddi dövlətin də qonsulun burda əyləyib. Sən o aşıgi bağlasan, mən onu öldütdürəcəyəm. Çün özünə çox məğrurudi.

"Yüz irmi sinnim var", – dedi, – "Qurban, hankı aşıxdı?"

Abbası nişan verdilər. Gördi lap məclisin əyax başında oturub.

Ama Mir Hüseynin gözü Abbasə sataşan, gördi bunun aşıx vəxti deyil, buna heç elə aşıx demax olmaz. Ama Mir Hüseyni Abbasa bir əyaxdan yuxari, diqqətinən baxıb, dedi:

– Oğlum, indi qulağ asginən bir neçə kəlmə, ama yaxşı, fikrin məndə olsun ha, gör nə deyirəm.

Aldı sazını Mir Hüseyin. Mir Hüseyin dedi:

**“Təcnis divanı” havası**

Sənnən xəbər alım, ay cavan şayir,
Məhəmməd nə guni taci-sər oldu?
Nə yedi nə işdi, kimlə danışdı,
Gedib bax harada bərqərar oldu?

Abbas Mir Hüseyinin cəvabında dedi:

Məğribdən məşriqə əyləman şayir,
Məhəmməd şənbədə taci-sər oldu.
Nur yedi, işdi, Allah ilə danışdı,
Gedib ərşəladə bərqərar oldu.

Mir Hüseyin Abbasdan sordu:

Kim gətdi ülgücün, kim gətdi daşin,
Kim islah eylədi Rəsulun başın?
Neçə min yazallar dünyanın yaşın,
Axırda bəs kimə vaguzar oldu?

Abbas Mir Hüseyinin cəvabında dedi:

Cəbrəyil gətitdi ülgücün daşın,
Səlman islah eylədi Rəsulun başın,
Çox müfəssəl yazar dünyanın yaşın,
Axırda Adəmə vaguzar oldu.

Mir Hüseyin Abbasdan sordu:

Səlman bəs nə dedi ülgüci çaldı?
Kim hardan su gətdi, muyini aldı?
De görüm göyə getdi, ya yerdə qaldı?
Gedibən harada müxtəsər oldu?

Abbas Mir Hüseyinin cəvabında dedi:

“Bismillah” deyib, bi ülgücü çaldı,
Cəbrayil su gətdi, muyini aldı.
Nə göyə gedibdi, nə yerdə qaldı,
Sidrətulmuntəhadə bərqərar oldu.

Mir Hüseyin Abbasdan sordi:

**“Kəşküli” havası**

Mir Hüseyni deyir, gün cəhandə neçədi?
Neçə yaqut, neçə mərcan neçədi?
Peyğəmbərin dərəcəsi neçədi,
Kim sanadı onnan xəbərdar oldu?

Abbas Mir Hüseyinin cəvabında dedi:

Abbas diyər, gün cahanda ikidi,
İki yaqut, iki mərcan ikidi.
Peyğəmbərin dərəcəsi ikidi,
Cəbrayil sanadı, xəbərdar oldu.

Abbas bunu kırıxdırdı, Şah Abbas gördü bu məclis, bu hər nəmənə desə biləceh. Bu məjlis hələ bular biri-birinnən ayrılsın və bir neçə söz mən örgədim Mir Hüseyniyə, dərbar aşığı Mir Hüseynidi axı. Dedi:

– Büyün ki məjlis xətəmə tapdi, sözüzün kəsrini sabah gərəh danışasız.

Şah Abbasla Mir Huseyninən bir xəlvət, ikisi bir oldu, dedi:

– Evin yıxılsın, Mir Hüseyni, bes bə bu necə bi sözdi, sən buna belə bi söz deginən ki, bu tapa bilməsin axı.

Dedi:

– Sabahki məclis mən ona bi dədə yandırım ki, tüstüsi asimana bulənd olsun.

Dedi:

– Hə, başıva dolanım, bir cür eləginən ki, o səni xit eləməsin ha, diyəllər Şah Abbasın aşığın bir dənə təzə əmələ gəlmə uşax bağladı.

Dedi: "Sən heş narahat olma". Ama dil deyir da, gecə səhərəcən də Allaha yalvarır: "Allah, rəhm elə mən ona qalib olum".

Sabah məclis təkmil, bərqərar, mintəzirdilər iki dənə aşığın deyişməsinə. Hər kəsən öz səndəlinin üstündə əyləşib. Əvvəl Mir Hüseyin təşrif gətdi, genə oturub o yuxarıda, Abbas gəldi. Qonsurrar hazır olub hər kəsən öz mizinin üstündə, öz səndəlinin üsdündə əyləşiblər, müntəzirdilər bu iki şayir genə nə desin. Söz verildi Şah Abbasa, qurban, icazə ver aşıxlarımız deyişsin.

– Bəli, deyişsinnər.

Abbas dedi:

– Qurban, dünənnəri sənin aşığın düşüb qabağa, bu gün də mən düşdüm qabağa.

– Xeyr, – dedi, – "gəl sən gabağa düş". Fikirrəşir, bu gabağa düşsə, mən bunun sözlərinə bəyə cavab diyə bilmədim, mən də buna bir belə söz diyərəm ki, bu da heş mənim sözümü tapa bilməz. İndi genə Mir Hüseyni isdiyir Abbasdan nə xəbər alsın?

Mir Hüseyni Abbasdan sordu:

Sənnən xəbər alım, ay cəvan aşıx,
Çərx dolanır, çərxi-gərdun nədəndi?
Dünya qərar tutub nəyin üsdündə?
Yeməz, işməz qoxmaxlığı nədəndi?

Abbas Mir Hüseyinin cəvabında dedi:

Sənə xəbər verim ağa Mir Hüseyn,
Çərx dolanır, çərxi-gərdun həxdəndi.
Dünya qərar tutub öküz üsdündə,
Yeməz, işməz qoxmaxlığı həxdəndi.

Mir Hüseyn Abbasdan sordu:

O kimidi atası yox doğuldu?
O kimidi qünçəsində boğuldu?
O hansı gülşəndi gülləri soldi,
O güllərin solmaxlığı nədəndi?

Abbas Mir Hüseynə cəvap verdi:

**"Quba Kərəmi" havası**

O İsadır – atası yox doğuldu,
Əliəsgərdi – qünçəsində boğuldu.
O gülşən Kərbəla gülləri soldu,
O güllərin solmaxlığı həxdəndi.

Bu dəfa Abbas Mir Hüseyndən sordu:

**"Döymə Kərəmi" havası**

Sənnən xəbər alım, şahın aşığı,
Neçə ulduz, neçə ayə bağlıdı?
Tərtib nədi müsəlmanın şərtində,
Neçə taleh Mustəfayə bağlıdı?

Durum gedim bir ustadan dərs alım,
Dərs alım örgənim, olsun öz malım.
Alimsən, şayirsən qoy xəbər alım,
Dört kitabda neçə ayələr vardır?

Abbasam, yolumu kim verdi, Xalıq,
Yetişsin dadıma o rəbbim Xalıq.
Dərya qırağında kim uddi balıq,
Namaz qılır nə Qiblayə bağlıdı?

Söz təmam oldu, Mir Hüseynidən cəvab gəlmədi, ama ətrafındaki yeddi dövlətdən burda neçə nəfər əyləşmişdilər, hamısı Abbasa "afərin" sədasi ərşə bilənd oldu: "Barəkəllah, ay bu cəvan aşıx, bərəkallah". Şah Abbas gördü bunun aşığı mətəl qaldı, tutuldu, dəstur verdi məclis dağılsın.

Çün dərdarıda kim Şah Abbasa nə diyəcəhdi, məclis xatəmə tapdı, hər kəsən öz yerində bərqərar.

Abbasın çün kəməri bağlıdı, ağasi şiələr ağası, şah-mərdan, şirə yəzdan əlin çəkib Abbasın kurəyinə. Çün Abbasın göz-

ləri, bəsirət gözi açığıdi, hər yani görürdi və bir dəfən ağa dərviş donunda buyurmuşdu, hər yerdə çağırsan, orda sənin köməyinəm, Mir Hüseyni xəbər alseydi Abbasın sinəsində.

Gecəni sabah eliyiblər, səhər hər kəsən öz yerinnən duran, cəmaət öz yerində bərqərar, hər kəsən öz səndəlinin üsdündə əyləşiblər və Şah Abbasın aşığı Mir Hüseyni gəldi, Abbas gəldi. Ama indi Abbas deyir, Mir Hüseyni cəvab eşidir. Sabahki məclis, indi görax bir neçə kəlmədən Abbas Mir Hüseynidən nə xəbər alır?

Abbas Mir Hüseynidən sordu:

**"Ruhani" havası**

Sənnən xəbər alım, ağamir Hüseyn,
İbtida kim gəldi külü cahana?
Neçə əşdi onun burci səmaya?
Tarik oldi cəhan düşdi zindana.

Neçə min il dünya zülmatda qaldı?
Pənahım kirdigar nə kərəm qıldı?
Neçə ildən sonra mehraba gəldi?
Güzəl işiğini saldı cəhanə.

Abbasam, Heydər Kərrardır ağam,
Ağamın əlinnən işmişəm bir cam.
Dünyadən ki, getdi həzrəti-Adəm,
Onnan sonra gəldi neçə zəmanə?

Məclis baxdılar Mir Hüseyninin üzünə, gödülər Mir Hüseynidə dahi can galmıyıb. Şah Abbas dəstur verdi cəmaətə, məclis təmam oldu, dedi mümkündi Mir Hüseyni bir fikr eləsən, bu sözləri səhər cabəca elər.

Sabah Mir Hüseynini təmtərazınan gətdilər dərbarə, varid olub əyləşib öz səndəlinin üstündə. Abbas qapıdan dərbarə varid olan, əllər döşündə, əyağ üsdə dayanıb. Şah Abbas başınan işarə elədi, geç öz yerində əyləş. Mir Hüseyni də bu ünvanə buna müd-

deyi olub ki, mən dərbarın əvvəlin namli aşığıdım. Məclis müntəzirdi Abbasa və Mir Hüseyniyə, görsünnər nə oxuyacehlər.

Genə Abbas üzün tutdi ustadə:

– Möhtərəm ağayi– Mir Hüseyni, indi sən oxuyacehsən, ya mən oxuyaceyəm?

Mir Hüseyni dedi:

– Elə genə sən oxuyacehsən, mən sənə cəvab diyəcəyəm.

Ama götürüb Abbas indi nə xəbər alır? Abbas Mir Hüseyinə sordu:

**"Kəşkoğlu" havası**

Sənnən xəbər alım, şahın aşığı,
Rəsul ərşə vardi, marağı nədir?
Kim gələrdi, ona vəhy gətirərdi?
Həzrat Rəsulun marağı nədir?

Neçə min heyvandan, neçə min nardan?
Neçə min mələh var asdanıb dardan?
Söylə, yerin-göyün qapısı hardan?
Kim açar, kim örtər marağı nədir?

Kimin börkün hankı başda götdülər?
Hesab edib hansı borca satdılar?
Həqiqət evini nədən yapdılar?
İçi dişi, onun sivağı nədir?

Neçə min seyyid var dünya üzündə?
Neçəsi ərşaddi həqqin gözündə?
Neçə min qəndil asılıb ərşin üzündə?
Olar nəyə batib, durağı nədi?

Abbas deyir, mən qurbanam qamətə,
Necə şeylər o gətirdi surətə?
Nə tayfadı apardılar zülmətə,
Olar nə yandırdı, çirağı nədi?

Abbas sözünü təmam elədi, Mir Hüseyninin işıx dünya nəzərində tiri-tar oldu.

Şah Abbas gördi ənqəribdi ki, Mir Hüseyninin ruhu bədənnən ayrılsın. Dəstur məclis xatəmə tapdı, dedi sabah hər kəsən həman saət öz yerində bərqəraridi. Cəmahət dağılışınnan sohra Şah Abbas Mir Hüseynə dedi:

– Sən neçə illərdi mənim dərbarımın aşığısən, heç aşığa əyilməmişdin, nə cür oldu uşağın cəvabını diyə bilmisən?

Dedi:

– Ay bu süd əmər uşağı qızılca çiçəyi aparsın, bilmisən bu hardan danışır, nə deyir. Qurban, sənin başına and olsun, bu sözlərin mənası yoxdu, heç özü də bilmir, məlum deyil bulari kimnən örgəşib, yanı indəyəcən bu sozlər açılmiyib.

Sabah hər kəsən öz yerində bərqərar, Mir Hüseyni varidi, məclis oldi. Mir Hüseynidən sohra Abbası gətdilər. Abbas bi təzim elədi, Şah Abbas icazə verib əyləşib. Şah Abbas dedi:

– Axırda ki, bir qərər söz deyibsən, fəqət o sözləruvun mənasın de görum nəmənədi, axı bilirsən özün?

Vəxti ki, Şah Abbasın söz əğzinnən çıxan Abbas dedi:

– Məgər, qurban, söz mənasız olar?

Dedi:

– Fəqət axir sözlərinnən bir dənə mənə də görüm ki, bunların mənası nədi?

Abbas götürüb nəmənə deyir, nə oxuyaceh bunların mənasını?

Abbas dedi:

**“Qaraçı qaytarması” havası**

Gəl sənə söyliyim, şahın aşığı,
Rəsul ərşə vardı, durağî nurdu,
Cəbrayıl gələrdi, vəhy gətirərdi,
Nurdan xəlq olundi, Burağî nurdu.

Mən aşığıyam yarimdan,
Getmir fikri başımdan

Yastıq şikayət elər,
Gözümdəki yaşımdan.

Yetmiş min mələh var yerin üzündə,
Yetmiş min mələhdi həqqin sözündə.
Yetmiş min qəndil asılıb ərşin üzündə,
Olar nura bətdi durağі nurdu.

Mən aşığam yüz yalvar,
Əlli yalvar, yüz yalvar,
Fələh əl çəkən dəyil,
Tut əlindən yüz yalvar.

Yetmiş min mələh var aslanıb dardan,
Yetmiş min nardandi, yetmiş min nurdan,
Yer-göyün qapsi odu, məhrabadan,
Əli açar, Əli örtər içi nurdu.

Mən aşığam ağlağandı,
Gözlərim ağlağandı.
Gedək dərd bilən yanına,
Görək kim ağlağandı?

Abbas dedi:

**"Misri" havası**

Əmmanı Yengəç burçda götdülər,
Hesab edib Aslan burca satdılar.
Həqiqət evini nurdan yapdılar,
İçi, dışı, onun sıvağı nurdu.

Abbas deyir, özüm qurban qamətə,
Gül açılar paki durri-sufətə.
Həbəş qömu, apardılar zülmatə,
Olar nur yandırar, çırağı nurdu.

Söz təmam oldi, dövrə gənə Abbasa “afərin”, “əhsən” dedilər.

Əlbəttə, gördülər sözün mənası var, Abbas özi deyir. Mir Hüseyni bulara cəvab diyə bilmədi və Şah Abbas indi gənə əyləşib, nəxşə çəkir, görsün nə novu Abbasa hilə eləsin. Dəstur verdi, qıx dənə qız hammısı Gülgəz boyda, hammısın bir libasə geyindirin, gətirin hərəmxanənin pərdənin dalısına. Əgər Abbas bildi, Gülgəzi tanıdi, bildi ki bunun öz əmisi qızi Gülgəzdi, verrəm Abbasa toyuni bu dərbaridə başlaram.

Dəstur verib Gülgəz qıx dənə qızınən varidi-məclis oldu pərdənin dalında, ama qızların hamısi bi boyda, bir libasdadılar.

İndi Şah Abbas dəstur verdi, Abbas oxusun, görax bizim qəlbimizdən geçən mətləb nədi? İndi Abbas görax nə oxuyaceh, nə diyəcəh?

Abbas dedi:

Güzəllər gözəli, mələhlər şahi,
Nə gözəl yaradıb yaradan səni.
Əgər sənin göylün mənnən xoş olsa,
Yaradan saxlasın bələdən səni.

Gözəllər içində adı bəllisən,
Guftarı şirinsən, ləbi bəllisən.
Bir nişanın budur özü xallısən,
Görcayın tanıram oradan səni.

Sən məni eyləmə gülünci başi,
Könlümün şüşəsinə vurubsan daşi,
Dilim əzbəridi, könlümün səsi,
Uçutmaram gedəsən burdan səni.

Adəmi-atənin eynən zatiyam,
Kim nə bilir, yerin yeddi qatiyam.
Şikəstə Abbasam xərabatiyam,
Könül, heş qövmadim buradan səni.

Bu sözü diyən Şah Abbasın əlinə firsət düşüb, üzün tutdi, dedi:

– Camaət görüsüz. Deyir, mən yerin yeddi qatiyam. Əgər bu düz deyir, vaqiyən həqq aşığıdi, gərəh yeddi qat yerdən mənə xəbər versin, bəyan eliyəsən, görüm nə var.

Abbas dedi:

– Şah Abbas, gəl yeddi qat yeri mənnən xəbər alma, əgər mən yeddi qat yeri bəyan eləsəm, mənnən sohra da İranda həqq aşığı olmaz, çün aşıxların sirrini bəyan eliyirəm.

Şah Abbas dedi:

– Gərəh diyəsən, sən deginən yer sirri aşkar olsun. Sənnən sora heş dünyayə aşıx gəlməsin.

Abbas dedi:

– Bəs mən nə Gülgəzi isdiyirəm, nə yeddi qat yerin sirrin bəyan eliyəm, mən bu sirri diyə bilmərəm.

Şah Abbas dedi:

– Gərəh yeddi qat yerin sirrin bəyan eliyəsən, görax yeddi qat yerdən nə xəbərin var.

Abbas dəst-nəmazın alıb, iki rikət hacət namazi qıldı, üzünü qoydi torpağa, genə üzün tutdi bir Nəcəf sarı: "Ay mənim kürəyimə əl çəkən, mənnən indi Şah Abbas yeddi qat yer səval eliyir". Abbasın qulağına səda, qəlbinə ilham yetişdi ki, Abbas, dayanma de.

Abbas dedi:

**"Dübeyti" havası**

Ay ağalar, əzəl başdan,
Gəlin yad edax Allahı.
Açar bəndəsi üzünə,
Bağlı qoymaz o, dərgahı.

O, damda bir dür yaratdı,
Nəzər salıb ab eylədi.
Tutubdi külli-cəhani,
Siz görün həkmətullahi.

Kötüyünnən tutdi yerlər,
Qubarinnən yeddi göylər.

Bir lərzədə təmam eylər,
Gör indi hikməti-ilahi.

Həqiqətdən, mərifətdən,
Yer altınnan xəbər verdi,
Bir dəryayə nəzər saldı,
Doxsan min yaratdi mahi.

Aldı sözün dubarəsini:

Yerin əvvəl təbəğəsi,
Bir öküzdi qərar tutmuş.
Öküzün zikrində məgər,
Dayim yad edər Allahi.

Öküzün üsdündə dürür,
Dürrün üsdündə firiştə,
Tutub məğribdən məşriğə,
Edir zikri-illəllahi.

İkiminci təbəqəsi,
Hamının xoşvaxt yeridi,
Ora varan kimsənələr
Həx verməz rəhmətullahi.

Üçümüncü təbəqəsi,
Bir qərə heyvan yaşamış,
Orada bəs kim əyləmiş?
İblisi-lənətullahi.

Yerin dördüncü qatını demişlər:

**“Sarı tel” havası**

Dördümüncü təbəqəsi,
Əcayib xəlqi diyəllər.

Xaliqi çox düz tutallar,
Dayım sevəllər Allahi.

Beşiminci təbəqəsi,
Cinnilərin məskənidi.
Ora varan kimsənələr,
Oxusunnar "bismillahi".

Altımıncı təbəqə,
Sərasər su, qazi edər.
Yeddi yerə, yeddi göyə,
Xudam xub yaradıb rahi.

Adəm ata övladiyıx,
Biz də gəldıx bu dünyayə.
Həqq özi alim yaratdı
Adəmi-səfiyullahi.

Adəm çox bəlalar çəhdi,
Həx biridi, min eylədi,
Kimi asdilar məncənəxdən?
İbrahim Xəlilullahi.

Abbas sözünün dəvamını dedi:

**"Gözəlləmə" havası**

Zəkəriyya diri ikən,
Ağaşda çəhdilər misar.
Həqq özi alim yaratdi,
Musayi-kərmullahi.

Bu dünyada çadır qurdux,
Fələh tənabini qırdı,
O Süleyman idi getdi,
Qızıldandı barigahi.

Həx buyurdi İbrahima,
Mənim üçün bir ev yasa,
İbrahm bəna eylədi,
O Kəbəyi-Bəhtullahi.

Peyğəmbərrər xəlq olunub
Bir-bir gəldi bu dünyayə.
Hammıdan əfsər yaradıb
Məhəmməd Rəsulullahi.

Elə ki yerin mehraşnaməsi təmam oldi, Abbas dedi:

– Sən gərəh aşıxlığın sirrin aşıkar elətdimirdin, hələ ki, sən yeddi yeri xəbər aldın, mən yeddi göyü də ərz eliyəcəyəm.

Əlbəttə, indi bunnan belə Abbas bura kimin nə deyib, yer mehraşnaməsidi, bunnan bu yana göyün mehraşnaməsin diyəceh.

Abbas sözünün dəvamını oxudu:

**"Şahsevən" havası ("El" havası)**

Həx buyurdu Cəbrayilə,
Var mənim dostumu gətir.
Cəbrayil endi zəminə,
Səslədi Rəsulullahi.

Rəsul ki mindi Buraqə,
Əmr olundi Buraq uşdu.
Əvvəlin ərşə yetişdi,
Gördi bədirlənmiş mahi.

İkinci ərşə varanda,
Bir günəşin seyrin etdi.
Bir dağ üsdə min firiştə,
Yazırdılar "bismillahi".

Abbas sözünün davamını dedi:

### “Muxənnəs” havası

Üçüncü ərşə varanda,
Bir şir kəsdi qabağını.
Verdi hatəmin nişanın,
Buyurdu budur məndə.

Dördüncü ərşə varanda,
Ona “beytül məmul” diyəllər,
Gedibdi məscidi-Əqsayə
Gördi İsa-ruhullahı.

Beşinci ərşə varanda
Burağ işləmadi durdu.
Rəfrəf gəldi, səvar oldu,
Oldu Rəsulun həmrahi.

Abbas sözünün dəvamını oxudu:

### “Ruhani” havası

Altıncı ərşə varanda,
Rəfrəf də hökmüdən düşdi,
Mindi Cəbrayil pərinə,
Oxudi nəsru minəllahi.

Yeddinci ərşə varanda,
Həx Rəsula səlam verdi.
Səlam verib, əleyk aldı,
Dedi ərzim yoxdu dahi.

Peyğəmbər geşdi içəri,
Əmr olundi taham gəldi.
Pərdə dalınnan səs gəldi,
Buyurdu de, “bismillahi”.

Abbas sözünün dəvamını dedi:

Allahilə üş min kəlmə danışdı,
Arzu edib, ümmətinə yetişdi
Yanmaz ümmətin narə eşitdi,
Budur sözümün biləsən kutahi.

Rəsul bir eyvana vardı,
Çün bir şəxsə səlam verdi.
Rəsul orda mətəl qaldı,
Buyurdi qırxımız bir, birimiz qırx.

Oradan endi əşağə,
Bir şəcərə nəzər saldı.
Məğribdən məşriği tutmuş,
Bu necə şeydi, İlahi?

Həsəndir çeşmimin nuri,
Hüseyndir Kərbəla şahi.
Bari Allahım, sən bağışla,
Çoxdur Abbasın günahi.

Abbas yeddi yer, yeddi göyü deyib, təmam elədi.

Dahı indi bunnan bu yana Gülgəz Abbasa yetişdi. Şah Abbasın dərbarında Gülgəzin toyunu tutdular.

Abbas ordan icazə isdiyib ta cahı-cəlal, dəbdəbəynən gəlib öz vilayətində, Təbrizin yaxınında moqey Tifarqanıdı bu şəhrin adı, həman öz ata vilayətində dubarə qıx gün, qıx gecə burda toyların elədilər.

İndi bu məclis Abbasın burda dastani xatəmiyə yetişdi, düşmanın ömri təmamə yetişsin, olar muradılarına yetişdilər, biz də oxuyax oların saglığına:

**Duvaqqapma:**

Çıxdım Qıratın belinə
Kaş düşman yüz olaydı.
Çəkəndə misri qılıncı,
Dərə, təpə düz olaydı.

Atı mindim gəzdirməyə,
Düşman bağrın əzdirməyə,
Oba çayın üzdürməyə,
Qırat genə var olaydı.

Köroğluyam, öz elimdə,
Qızıl bazubənd qolumda,
Dəlilərim sağ solumda,
Ayvəz balam tez gələydi.

# DİLİLQAR VƏ MAHCAMAL

Keçmiş ustadlar belə rəvayat ediblər ki, günlərin birində Təbrizdə varlı-döylətli, səxavətli el ağsaqqalı, sözü hamıya qəbul olan bir kişi yaşardı, adına Əhməd xan deyərdilər. Allah-təala hər nazı-nemətdən Əhməd xana vermişdi, amma bir övlad dərdi çəkirdi. Bir gün arvadı Zeynəb xanım gördü Əhməd xan qəmginhal oturub, dünyadan xəbəri yoxdu. Zeynəb xanım durub gəldi Əhməd xanın yanına, salam verdi. Əhməd xan Zeynəb xanımın salamın aldı, dedi:

– Nə əcəb, Zeynəb xanım?

Zeynəb xanım dedi:

– Ay kişi, niyə belə qəmgin oturmusan?

Bu sözü eşitdi və bir ah çəkdi, dedi:

– Allah bizə bir övlad vermədi, bizdən sonra mal-döylətimizə sahib ola, ad-sanımız arada itməsin bəlkə.

Zeynəb xanım bu sözü eşitdi və dedi:

– Gəl daha qəmli olma, ehsan elə, bəlkə sənin ehsanın məzlumların duası ilə qəbul oldu.

Bu sözü eşitdi Əhməd xan, elə bil ki yatmışdı, yuxudan oyandı. Dəstür verdi, bütün Təbriz şəhrində aclara, yetimlərə yemək-içmək verin.

Bəli, elə də oldu. Allah-təala bu məzlumların səsin eşitdi, elə o gündən bunun övlad payı gəldi.

Səhərə yaxındır, Əhməd xan durub dəstəmaz alıb, gəlir namaz qılsın, gördü qapı çalındı. Gəldi qapını açdı, gördü bir ərəb əlində bir alma tutub, dedi:

– Əhməd xan, al bu almanı.

Əhməd xan almanı aldı. Ərəb dedi:

– Yarısın özün ye, yarısın ver Zeynəb xanıma. Allah sənə bir oğlan verəcək, adın quyarsan Dililqar, yəni “ilqarlı adam”.

O, almanı aldı. Bir də baxanda daha ərəbi görə bilmədi. Əlində alma gəldi evə. Bu cəryanı xanımına təmama söhbət elədi. O gecə almanı yedilər, elə o gündən Dililqar düşdü Zeynəb xanımın boynuna. Duqquz ay, duqquz gün, duqquz saat, duqquz

dəqiqə, duqquz saniyədən sonra Zeynəb xanım işıqlı dünyayə gözəl-göyçək bir oğlan gətirdi. Əhməd xana müjdələr gətirdilər. Əhməd xan şad oldu, bu xəbəri gətirənlərə ənamlar verdi.

Günlər belə keçir. Bir gün Əhməd xan el ağsaqqaların bir yerə cəm elədi, dedi:

– Oğlumun ad quyma günüdür, bir yerə yığılın.

Hamı hazırdı. Dedilər:

– Oğlanın adı nədir?

Əhməd dedi:

– Oğlanın adı Dililqardır, çün bu adı mullamız özu qoyubdur.

Hamı "Allaha mübarək eləsin!", – dedilər. Dililqar bala-bala yekəlib ta ki çatdı yeddi, ya səggiz yaşına. Bunu atası quydu məktəbə. On səggiz yaşında dərsin qurtardı.

Bir gün dərs kitablarına baxırdı. Ovçuların ova getməsin görüb düşdü şikar eşqinə. Durub gəldi atası Əhməd xanın yanına. Salam verdi, atası salamın aldı. Dedi:

– Oğlum, nə istəyirsən?

Dedi:

– Ata, şikarə getməyə icazə verəsən, məmnün olaram.

Atası dedi:

– Yoldaşlarından yaxşıların götür gedin, amma ayıq ol.

Dililqar şad, kefi saz qayıtdı yoldaşlarına xəbər verdi, sabah şikarə çıxacağıq.

Gecəni səhər elədi, Dililqar səhər atını minib gəldi. Yoldaşlarını da götürüb gəlirlər Azərbaycanın güllü-çiçəkli dağlarında şikargahına. Bunlar bir neçə gün yol gəlib bir gözəl-göyçək, səfalı bir çəməndə çadırların qurublar, orda ov ovlamağa başladılar.

Gəlin eşidək kimdən, İsmayıl xandan. Sən demə, İsmayıl xanın yaylaqlarıdır, bu Dililqar gələn yaylaq. Bu tərəfdən İsmayıl xanın təzə-tər, gözəl-göyçək, canlar alan qızı var, adına Mahcamal deyərlər. O da İsmayıl xandan icazə alıb, dağın bir tərəfində alaçıqların qurub. Bunun bir əl ceyranı var, boynuna gümüşdən gül salıb oturub, dağın bir tərəfində otlayır. Gəlin görək

indi Dililqar nə edir? Şikargahda Dililqar səhərə yaxın durur, dağlara baxır, görür yaxında bir gözəl ceyran otlayır. Elə gözəldir ki, adamın az qalır canın ala. Bir yolluq durdu, tez atın mindi, gəlir bu ceyrana sarı. Ceyran gördü şikarçı gəlir, başladı qaşmağa. Gəldi özün saldı Mahcamalın çadırına. Mahcamal gördü, ceyran elə qaçıb ürəgi yerində dəyil. Tez çadırdan çölə çıxdı, gördü bir atlı durub çadırın qabağında. Qız oğlanı görən gördü elə gözəldir, bunun tayın tapa bilməz. Dedi:

– Cavan, nə istəyirsən?

Dililqar da könül verib dedi:

– Xanım, mənim şikarım gəldi bura, onu boşla gəlsin.

Mahcamal dedi:

– O əl ceyranıdı, şikar üçün dəyil.

Burda görək indi Dililqar qıza nələr söylədi:

Gəl sənə söyləyim, gülüzlü canan,
Ürək sözün mənə sən elə bəyan.
Gözəllər içində adı bəllisan
Şikarıma çıxdın gözəl nagahan.

Bu sözü Dililqar oxuyanda qız dedi:

– Dayan, cavabını verim.

Aldı görək burda Mahcamal xanım oğlana necə cavab verir:

Sənə cavab verim, ay döyran cavan,
Məkanım soruşsan uca dağıdır.
On bir ildir səhraları gəzərəm
Bu sinəmdən qalxan hicran dağıdır.

Aldı Dililqar:

Səni görcək itdi əqlim, kəmalım,
Hüsnün aydan gözəl, qədi-nəhalın.
Səndən ayrı yaman olur əhvalım,
Bil, sənsiz yaşamaq yamandır, yaman.

Aldı Mahcamal xanım:

Bu aşiqi salma atəşə, nara,
Səndən sonra oymam döylətə, vara.

Gəl hicran dərdinə sən elə çara,
Fərhadın gəzməsi Şirin dağıdır.

Aldı Dililqar:

Sənsiz dünya mənə olacaqdı dar,
Dililqar da yarsız çəkər ah-zar.
Atam Əhməd xandı, Təbrizdə olar,
Çarə et dərdimə qaşları kəman.

Aldı Mahcamal xanım:

Səhər-səhər çıxan dan ulduzuyam,
Atanın, ananın işvə, nazıyam.
Mahcamalam, İsmayıl xan qızıyam,
Sən olmasan dünya mənə yağıdır.

Bunlar hər ikisi atalarının kim olduğunu bir-birinə bəyan elədi. Oğlan atdan düşdü gəldi. Çadrın qabağında oturub bunlar ilqar verdilər bir-birinə. Mahcamal dedi:

– Ata-anavı yolla, gəlsin elçilik eləsinnər. İki aya kimi biz burdan gedəcağıq.

Elə də oğlan qıza yadigar bir üzük verdi, qız da oğlana bir güllü dəsmal. Dililqar qalxdı atın belinə, yola düşən zaman qız həsrətlə baxır. O anda görək oğlan qıza nələr dedi:

Şükür həqqin dərgahına,
Arzularım yetir oldu.
Səni gördüm kamə çatdım,
Qəmi qəsəmıtr oldu.

Sular axsın bu dağlara,
Sürü qalxsın yaylaqlara.
Sən gələndə bu dağlara
Maral burda ötür oldu.

Dililqar da sevdi səni,
Qəmzən azad etdi məni.

Çox gəzdim ana vətəni,
Bülbül gölə çatar oldu.

Bu sözü təmamladı. Atına bir taziyanə vurub yola rəvan oldu. Gəldi çatdı yoldaşlarına. Yoldaşları dedilər:

– Dililqar, hara getmişdin?

Dedi:

– Cəryan çuxdur, durun çadırları cəm eləyin, burdan gedək Təbrizə.

Bunlar çadırları yığışdırıb yol elədilər. Bir neçə gün yol gələndən sonra çatdılar Təbrizə.

Əhməd xan baxəbər oldu ki, oğlu şikardan qayıdıbdır. Gəldi oğlunun yanına. Dedi:

– Bala, tez qayıtdın, nə var?

Oğlan dinmədi və lal-kar kimi baxmağa başladı. Əhməd xan dedi:

– Oğlum, nədən belə qəmginsən? Mənə bəyan eylə.

Alıb görək atasına burda Dililqar nələr söyləyir:

Başına döndüyüm gül üzlü ata,
Qaşları canımı alan yar hanı?
Ondan ayrı bu dünyanı neylərəm,
Atəşi canıma salan yar hanı?

Əhməd xan dedi:

– Oğlum, mən bu işdən baş çıxartmıram, amma sən istəsən kimin qızın desən sənə alaram. Mənə bircə adın söylə, ayrı işin olmasın.

Aldı Dililqar belə dedi:

Bir baxışı candan edir insanı,
Onun kimi nazlı canan de hanı?
Dağ seyrində gördüm mən o cananı,
Mənilə danışıb gülən yar hanı?

Dililqarın odur nərgiz butası,
O olmasa atəşlərə yanası.
Mahcamaldır, İsmayıl xan atası,
Aşiqinin qədrini bilən yar hanı?

Bu sözü dedi, ağlaya-ağlaya getdi öz otağına. Ata-anası, qühüm-qəbilələri yaman narahatdır ki, bu oğlan neyə belə ağlayır? Əhməd xan Dililqarın anası Zeynəb xanımı gündərdi, gör oğlan niyə ağladı? Anası gəldi balasının yanına. Dililqar qolun saldı anasının boynuna, görək anasına nələr dedi:

Başına dulanım gül üzlü ana,
Nazlı yardan mən aralı ağlaram.
Hicranın atəşi düşüb canıma,
Nazlı yardan mən aralı ağlaram.

O mənə yar dedi, mən də ona yar,
Onsuz bu başıma dünya olur dar.
Çatsın imdadıma Heydəri-Kərrar,
Nazlı yardan mən aralı ağlaram.

Dililqar söyləyir belədir düzü,
Sürmə məst eləyib o ala gözi.
Adı Mahcamaldır, bir xanın qızı,
Nazlı yardan mən aralı ağlaram.

Anası dedi:

– Bala, haralıdır, harda olur?

Bu anda gəlin görək Mahcamal yaylaqda nə edir? İndi Mahcamal Dililqar gedəndən sonra dərin fikrə getdi, qızlar da gül dərə-dərə gəldilər gördülər ki, Mahcamal yaman pörtüb. Qızların biri dedi:

– Xanım, neyə belə olmusan?

Burda görək Mahcamal qızlara nə söylədi:

Başına dulanım, gözəl pərilər,
Oduna yandığım yarım gələydi.
Məni intizardan azad edeydi,
Dərman üçün vəfadarım gələydi.

Çün qızlar oğlanı görməmişdilər, dedilər:

– Xanım, kimə vurulmusan, yarın kimdir?

Alıb belə dedi Mahcamal xanım:

Gecələr çəkdiyim qəmli ahıdir,
Yarımın getdiyi doğru rahıdir.
Ona kömək edən şahlar şahıdir,
Çöllü bağçalardan yarım gəleydi.

Mahcamal dərdinə eləyir çara,
Məcnun kimi məni qoyub avara.
Bir də yolu düşə burda şikarə,
Dölətim gəleydi, varım gəleydi.

Sözlər tamam olandan sonra Mahcamal açdı ayaq-baş söhbət elədi. Bunlar burda, gəlin görək Təbrizdə nə xəbər var? Əhməd xanın evi dölhadüldür. Zeynəb xanım dedi:

– Əhməd xan, oğlan öylənmək istəyir, narahat olma.

Əhməd xan özü gəldi:

– Bala, Təbrizdə kimi deyirsən sənə alım?

Ata belə deyəndə görək Dililqar atasına nələr söylədi:

Canım ata, gözüm ata,
Mən söydügüm Mahcamaldır.
Sənə büdür sözüm ata,
Mən söydügüm Mahcamaldır.

Ceyran olur dağlarında,
Fəslin gözəl çağlarında.
Nişan aldım ovlarında,
Mən söydügüm Mahcamaldır.

Dağların olar lalası,
Könlüm o dağda qalası.
Dililqaram el balası,
Mən söydügüm Mahcamaldır.

Bu sözü oğlan deyəndə atası dedi:

– Oğlum, o qız haralıdır, atası kimdir?

Dililqar dedi:

– Ata, o, Qaradağ yaylaqlarında olur. Atası İsmayıl xandır.

Əhməd xan dedi:

– Qəm eləmə, sabah amadə ol, gedək o dağları mənə nişan ver, görüm hansı eldən, obadandır.

Əhməd xan qayıtdı dedi:

– Xanım, sabah elçi gedək, çünki qızın əsl-nəsəbi bəlli oldu.

Dililqarın anası şad oldu. Bilmədi neyləsin söyüncdən. Bunlar burda qalsın, görək yaylaqda qız nə edir? Mahcamal qızlar başında dedi:

– Gəlin yaxına, sizə sözüm var.

Aldı görək qızlara burda nə söylədi:

Qızlar, mənim halım yaman,
Gözüm yolda, yar gəlmədi.
Bilmədim haraya getdi?
Güllü bağa bar gəlmədi.

Vətənində adlı-sanlı,
İgidlikdə gözü qanlı.
Yəqin oldu qili-qalı
Çəkdim ahü zar gəlmədi.

Mahcamalı ağlar qoyub,
Sinəsini dağlar qoyub.
Gül-çiçəgli bağlar qoyub,
Külli-dölət, var gəlmədi.

Qızlar dedi:

– Mahcamal xanım, qəmgin olma. Allah qadirdir, gələr bir gün.

Gəlin eşidək Əhməd xandan. Öz dörəsin başına cəm elədi, yol elədilər yaylağa tərəf. Bir neçə gün yol gələndən sonra çatdılar yaylağa. İsmayıl xana xəbər verdilər ki, qonaq gəlir. İsmayıl xan çıxdı bunların pışvazına, bunları qonaq elədi. İsmayıl xan dedi:

– Əhməd xan, nə əcəb bu yaylaqda bizləri yad eləmisən?

Əhməd xan açdı təmam macəranı danışdı. İsmayıl xan dedi:

– Gedin Mahcamalı bura gətirin, onla işim var.

Mahcamalı gedib gətirdilər. Atası Mahcamala dedi:

– Qızım, sənə elçi gəliblər, sözün nədir?

Qız dinmədi. Dayəsi dedi:

– Xan, icazə verin qız oğlanla danışsın, bir-birini görsünlər.

Elə də oldu. Dililqar Mahcamalla bir çadırda, Mahcamal dedi:

– Dililqar, xoş gəldin bura.

Oğlan utandı, dinmədi. Alıb burda qız belə dedi Dililqar:

Başına dulanım, gül üzlü yarım,
Lütf eyləyib bizim elə gəlibsən.
Həsrətindən gecəm yoxdur, dəliyəm,
Lütf eyləyib bizim elə gəlibsən.

Aldı Dililqar:

Hürisən, pərisən, qılmansan, nəsən,
Gəl əyləş, söygölüm, söhbət eliyək.
Bədənin büllurdu, boyun sürahı,
Gəl əgləş, söygülüm, söhbət eliyək.

Aldı Mahcamal:

Məni tərk eyləyib buradan getmə,
Yaralı könlümü pərişan etmə.
Məni burda qoyub ayrısın tutma,
Lütf eyləyib bizim elə gəlibsən.

Aldı Dililqar:

Mənim ürəyimin sözü də sənsən,
Yanar atəşi də, közü də sənsən,
Deyirəm bəxtimin özü də sənsən,
Gəl əgləş, söygülüm, söhbət eyliyək.

Aldı Mahcamal:

Mahcamalı salma oda, amandı,
Sənsiz mənə dünya çəndi, dumandı.
Seyri-qüba sirri demə yamandı,
Lütf eləyib bizim elə gəlibsən.

Aldı Dililqar:

Dililqaram, gedib yenə gələrəm,
Ürəgimin dərdi-qəmin silərəm.
Öl desən yolunda, vallah, ölərəm,
Gəl əgləş, söygülüm, söhbət eyliyək.

Bunlar burda qalsın, qızın dayəsi dedi:

– Qız razıdır, İsmayıl xan.

İsmayıl xan Əhməd xana dedi:

– Qız sənindir. Amma gələrsiz Muğanda düyünü edərik.

Əhməd xan "Allah mübarək eləsin", – dedi, qalxdı ayağa, bir üzük, bir yaylıq nişanə verdilər. Dayə gəldi Dililqara dedi:

– Atan gedir, deyir gəlsin gedək.

Dililqar Mahcamaldan ayrılan zaman qız ağladı. Alıb görək Dililqar burda yarına nələr söylədi:

Niyə belə oldun xəstə, nigaran,
Sən mənim canım, belə ağlama.
Ölməsəm, gələrəm ah-zar etmə,
Sən mənim canım, belə ağlama.

Sənin eşqin məni salar çöllərə,
Məcnün kimi adım düşər dillərə.
Qayıdıb gələrəm sizin ellərə,
Sən mənim canım, belə ağlama.

Dililqaram, sənsiz günüm qaradı,
Heç bilmərəm getdigim yer haradı?
Bağbanların meyli bağda, bardadı
Sən mənim canım, belə ağlama.

Bu sözü dedi, yarından icazə aldı, dedi:

– Atam atandan səni aldı, yaylaq vaxtı qurtaranacan, yenə də gələrəm.

Yola düşdü, çatdı atasına salam verib əlindən öpdü. Əhməd xan gördü Dililqarın qanadı yoxdur uça. Əhməd xan da şad oldu. Qızlar da Mahcamala "mübarək" deməyə gəldilər. Mahcamal şad, burda görək qızlara Mahcamal nə oxumaq istəyir:

Qızlar, gəlin bu gün sizə söyləyim,
Mənim didarıma yarım gəlmişdi.
Bu qəmli könlümü o şad elədi,
Mənim didarıma yarım gəlmişdi.

Şirin rəftarlıdır, gülər üzlüdür,
Baxışı gözəldir, söhbət sazlıdır.
Danışığı təmiz, qəlbi sözlüdür,
Mənim didarıma yarım gəlmişdi.

Mahcamalı həsrət qoydü xalına,
Bülbül olub qonacağam gölünə.
Kaş ki, yolum düşə ulus-elinə,
Mənim didarıma yarım gəlmişdi.

Bu sözü oxudu. Qızlar çəkildi getdi.

Az müddət keçdi, qız fikrə getdi: "Oğlan demişdi ki, bu tezliklə qayıdacağam yubandı, bə Dililqar niyə gələnmədi?". Qız zülflərin saz, barmağın mizrab edib görək şahlar şahı Əli şah lafətayə necə yalvarır ki, yarımı qaytar:

Mən qalmışam bu zəmini-girdabda
Özün dada yetiş, ya Şahi-Mərdan.
Əlac eyləgilən məni-misginə,
Özün dada yetiş, ya Şahi-Mərdan.

Bütün əlaların əlası sənsən,
Bütün aşıqların sədası sənsən.
Darda qalanların sədası sənsən
Özün dada yetiş, ya Şahi-Mərdan.

Mahcamalı darda qoyma, yazıqdı,
Onu ahu-zarda qoyma, yazıqdı.
Yarı intizarda qoyma, yazıqdı,
Özün dada yetiş, ya Şahi-Mərdan.

Bu sözdən sonra qız gəldi, bağçasına oturub bir gül ağacının yanında güllərə baxır, söygülüsü Dililqar yadına düşdü. Görək güllərin yanında qız nə oxudu:

Bu məlul çağımda, müşgil halımda,
Güzar edib bu bağçaya gələsən.
Sənin dərdin məni salıb bəlayə
Əl uzadıb qızıl güldən dərəsən.

Yar yarını yada salar, yad eylər,
Ağız dülü-ləzzət eylər, dad eylər.
Seyrəqibə alu eylər, od eylər,
Mən yalqıza gəlib həmdəm olasan.

Mahcamalı gözü yolda qoyma sən,
Sirrimizi aləmlərə yayma sən.
Sən mənim, mən səninəm, cayma sən,
Qonaq olub güllü bağda qalasan.

Mahcamal xanım bu sözü başa vurdu. Gəlin görək, Dililqar nə edir Təbrizdə? Dililqar atasıyla yaylaqdan gələndən sonra fikri-zikri qalıb Mahcamalda. Bir gün dedi:

– Ana, atama deginən mənə icazə versin, gedim yaylağa.

Ana gəldi Əhməd xanın xidmətinə. Əhməd xan dedi:

– Zeynəb xanım, mənə görə nə sözün var?

Zeynəb xanım dedi:

– Oğlan dağlara gəzmək üçün səndən icazə istəyir.

Əhməd xan dedi:

– Getsin, əmma məndən İsmayıl xana salam versin.

Ana şad gəldi, balasına danışdı. Dililqar amadə olub atın mindi, şad-xürrəm yola düşdü. Qaradağ mahalı dağlarının gözəl vaxtıdır, gül-gülə salam verirdi. Oturub bir axarlı-baxarlı bulağın başında, görək nələr oxudu:

Görən sənə heyran olur,
Açılıb güllərin dağlar.
Yaz olanda şölələnirsən,
Gəlir ellərin dağlar.

Gözəllərin dəstə-dəstə,
Əldə kuzə bulaq üstə.
Süyün içən olmaz xəstə,
Xoş gəlir illərın, dağlar.

Dililqar da sənə gələr,
Mahcamal da deyib gülər.
Dəstə-dəstə sürü mələr
Dillənər çöllərin dağlar.

İndi gəlin eşidək Mahcamaldan. Mahcamal səhər vaxtı qızları da götürüb gəldi dağların ətəyindən gül-çiçək dərib dəstə bağlaya yarı üçün, bu yandan Dililqar durub atına mindi, o uzaqdan ürək mivəsin gördü, tanıdı. Burda görək öz ürək sözün necə dedi:

Şükür dərgahına, ey qadir Allah,
Güllərin içində nazlı yar gəzir.
Bəndənin üzünə açırsan rahı,
Güllərin içində nazlı yar gəzir.

Mahcamal oğlanın səsin eşitdi, dağlarda bu səsi axtarır. Alıb görək daha nə oxudu Dililqar:

Günəşin şəfəqi bura saçılır,
Qəmi-qüssə ürəkələrdən qaçılır.
Lalələrdən buxaqlara tökülür,
Güllərin içində nazlı yar gəzir.

Yenə də Mahcamal səsi axtarır, dağlara baxır, uzaqdan gördü at üstündə bir oğlandır oxuyur, könlünün meyvəsin tanıdı. Gəlir Mahcamal Dililqara sarı. Dililqar gördü qız gəlir buna tərəf, yolu gələ-gələ alıb atın üstündə belə dedi:

Dayan, mən gəlirəm ahu ceyranım,
Baxışına qurban, nazlı cananım.
Dililqaram, sənsiz necə dulanım,
Güllərin içində nazlı yar gəzir.

Oğlan bu yandan, qız da o yandan yetişdilər, bunlar bir-birinə salam verdi, görüşdülər. Əl-ələ verib güllərin içində oturdular, bir-birləri ilə şirin söhbət edirlər. Mahcamal baxdı Dililqarın üzünə, dedi:

– Niyə bu qədər yubandın? Olmuya şəhərdə qızları görüb məni yadından çıxartmısan?

Bu anda Dililqar dedi:

– Dayan, sənə sözüm var.

Alıb görək nə oxudu yarına:

Dünya gözəli ola, çıxa qarşıma,
Nazlı yar, heç biri sən ola bilməz.
Tuta bu dünyanı minlərlə gözəl
Nazlı yar, heç biri sən ola bilməz.

Bütün gözəllərlə elərəm cəngi,
İçmərəm heç zaman milə bəngi,
Gözəl Rumi ola, ya da Firəngi,
Nazlı yar, heç biri sən ola bilməz.

Dililqarın gözündə hür, qılmansan,
Cismi-təndə həmişə ruhu-rəvansan,
Xidmətdə durmuşam adil sultansan,
Nazlı yar, heç biri sən ola bilməz.

O sözü təmam elədi. Əl-ələ veriblər, at qaldı çəməndə, bunlar gəldi yaylaqda qızlar olan yerə. Orda dayələr kəbabları saldılar şişə, yeməyə başladılar. İndi ayrılıq vaxtı gəlib ki, Dililqar gərək Təbrizə qayıtsın. Şərt olundu ki, bir aya bunlar yaylaqdan gedir. Dililqar atasından istəsin bunların toyu olsun və Muğana toyları qalmasın. Dililqar bu işi Allahdan istəyir, qızdan icazə alıb gəlir atına tərəf. Dililqar gördü Mahcamal bir az ağlayan kimi oldu. Bu anda görək Dililqar öz yarına nələr söylədi:

Yollara baxıban doldurma gözün,
Baxışın az qaldı canımı alsın.
Mən gedirəm, nazlı nigar, gələrəm.
Yar yarını gərək tez yola salsın.

Gözlərin qaradı, gələrsən gözə,
Fikir ver söhbətə, fikir ver sözə.
Gəlib aparram şəhri-Təbrizə
İstəmərəm yarım intizar qalsın.

Elə baxma can üzülür, baş gedir,
Rəvan olur gözlərimdən yaş gedir.
Gər getmə səmallarimdən iş gedir?
Qıyma sən Dililqar saralsın, solsun.

Söz qurtarandan sonra Dililqar gəlib atın mindi, yola rəvan oldu. Bir neçə gün yol gələndə sonra çatdı Təbrizə. Öz ata-anasıyla görüşdü. Cərəyanı ata-anasına bəyan elədi. Atası-anası durublar gəlirlər hara, İsmayıl xanın obasına. Yaylağa çatdılar. İsmayıl xanın adamları İsmayıl xana xəbər verdilər ki, Əhməd xan gəlir xanımı Zeynəb xanımla. Bu zaman İsmayıl xan qurban kəsdirdi bunların qabağında, o yandan Mahcamala xəbər verdilər. Mahcamal Zeynəb xanımın əlindən öpdü. Zeynəb xanım gördü doğrudan da mah camaldır, gözəlligi Allah-təala buna pay verib. Çəkdi gəlinin üzündən, gözündən öpdü. İsmayıl xan dedi:

– Əhməd xan, mənə görə sözün?

Əhməd xan dedi:

– İsmayıl xan, düzdü qərar oldu toyu Muğanda edək, indi mənim işim belə olub ki, tez toy eləyib Mahcamalı Təbrizə aparım. Sözün nədir?

İsmayıl xan dedi:

– Əhməd xan, sən gəlsəydin qızı bu tezliklə verməzdim, əma Zeynəb xanıma sözüm yoxdur.

Şadlıq oldu. Qərara gəldilər yeddi gün yaylaqda toy olsun. Yeddi gün Təbrizdə toy başlandı, aşıqlar yaylaqdan gəlin aparmağa gəliblər. Dililqar atın üstündə baxır, gördü yarı çadırdan baxır, elə bu anda görək cəmaata nə oxuyur:

Pərdə kənarında durüb çadırda,
Gözümə görsəndi, nazlı yar baxdı.
Hüşümi başımdan aldı apardı,
Gözümə görsəndi, nazlı yar baxdı.

Ala gözlərin canımı aldı,
Baxışı canıma vəlvələ saldı,
Dəhanı şəkərdi, dudağı baldı,
Gözümə görsəndi, nazlı yar baxdı.

Dililqaram, rəhm eləməz mən zarə
Canım qurban olsun gül üzlü yarə.
Ondan ötru gəldim mən bu diyarə,
Gözümə görsəndi nazlı yar baxdı.

Bu sözdən sonra gəlini çıxardılar, yola saldılar Təbrizə tərəf. Təbrizdə yeddi gün, yeddi gecə toy oldu. Əhməd xanın imarətində bunlar muradına çatdı. El aşıqı burda bir müxəmməslə dastanı suna yetirdi.

# ZÖHRƏ VƏ MƏHƏMMƏD

Ustadlar belə rəvayət edirlər ki, keçmiş zamanlarda Təbrizdə varlı-karlı, etibarlı, sözükeçən el ağsaqqalı, yoxsullara kömək edən bir tacir varımış. Onun adına İbrahim tacir deyərdilər. Günü xoş keçir və Allah-təala da buna bir oğlan verir, adını qoyurlar Məhəmməd.

Bir gün Məhəmməd on səggiz yaşına dolüb atasına dedi:

– Mənə icazə ver, çıxım bu dağlarda bir neçə gün gəzim, bəlkə halım düzəlsin.

Atası icazə verdi. Məhəmməd yoldaşlarını götürüb gəldi ətraf dağlarda gəzməyə. Bir xoş, səfalı bulağın başında atdan düşdülər, istirahət eləyib on gün yedilər, içdilər. Bir gün səhərə bir az qalmış aləmi-röyadə mövlası Həzrət Əlini (ə) gördü. Həzrət ona belə buyurdu:

– Oğlum, aç gözünü al bu badəni nüş elə.

Məhəmməd dedi:

– Ağa, biz badə içmərik.

Mövlası dedi:

– Oğul, bu badə məst edən badə deyil.

Aldı ağasından badəni içdi və sonra gördü bir ali imarət var, bağçasında bir dünya gözəli gəzir. Dedi:

– Aldın, iç gör nə görürsən?

Dedi:

– Ağa, gül-çiçək içində bağda bir dünya gözəli görürəm.

Mövlası dedi:

– O İsfahanda Şah Abbas cənnətməkanın qızı Zöhrə xanımdır. Onu da sənə nəşan vermişəm. Zəhmət çək, al. Bax gör gələn kimdir?

Məhəmməd dalı baxdı və dönüb qabağa baxanda gördü mövlası yoxdur. Yuxudan oyandı, halı özündə yox. Yoldaşlar bünün nərəsinə yuxudan oyanıb gördülər Məhəmmədin halı düz deyil. Dedilər:

– Sənə nə gəldi, ilan vurdu, ya cin sataşdı?

Məhəmməd dedi:

– Nə ilan, nə cin məsələsi yoxdur. Qulaq asın ürək dərdimi sizə bəyan edim.

Görək Məhəmməd yoldaşlarına nələr söyləyir:

Ay yoldaşlar, cavab verin,
Zöhrə yarım hara getdi?
Məni dərddən hali edin,
Zöhrə yarım hara getdi?

Yoldaşları dedi:

– Məhəmməd, Zöhrə yar kimdir, sən kimdən danışırsan?

Alıb Məhəmməd:

Heç gözəl olmaz təhrində,
Bülbül qızıl gül qəhrində.
O İsfəhanın şəhrində,
Zöhrə yarım hara getdi?

Yoldaşları fikrə getdilər: “Ay vay, bu oğlan dəli oldu. Atasına nə deyəcağıq?”

Məhəmməd anladı ki, bunlar onu dəli hesab edirlər, alıb daha nələr söylədi:

Məhəmməd Zöhrəni gördü,
Yüzə yetişdi bir dərdi.
Əli mövlam buta verdi,
Zöhrə yarım hara getdi?

Yoldaşları atları amadə elədi, Məhəmmədi mindirdilər ata, düşdülər yola. Gün çıxana kimi özlərin Təbrizə yetirdilər, atları İbrahim tacirin qapısında saxladılar. İbrahim tacirə xəbər verdilər ki, oğlun şikardan gəlib. Qapını nükərlər açdı, bunlar varid oldular içəri. Məhəmmədi atdan endirdilər yerə. Məhəmmədin halı ozündə yox. Atası, anası gəldilər:

– Bəs, bala, sənə nə gəldi, niyə belə saralmısan?

Bu halda görək ata-anasına Məhəmməd nələr söylədi:

Başına döndüyüm gül üzlü ana,
İcazə ver, İsfəhana gedirəm.
Bir gözəl eşqində divanəyəm,
Mənə icazə ver, İsfəhana gedirəm.

Gözəllər içində adı bəllidir,
Şirin ləhcəlidir, şirin dillidir.
Ağır obalıdır, ağır ellidir,
İcazə ver, İsfəhana gedirəm.

Məhəmmədəm, yarım gözəllər gözü,
Kölgədə bəslənmiş bir əmlik quzu.
Adı Zöhrə xanım, Şah Abbas qızı,
İcazə ver, İsfəhana gedirəm.

Məhəmməd dedi:

– Anacan, mən İsfəhan şəhrində Şah Abbas qızı Zöhrəni görmüşəm, mövla Əli onu mənə verib yuxuda.

İbrahim tacir bu sözü eşitdi səfərə hazırlanıb, oğlu Məhəmmədi öz yanınca götürüb, elçiligə hər nə lazım olar götürüb, yola rəvan oldular. İsfəhan şəhrinə tərəf bir neçə gün yol gəlib, çatdılar İsfəhana.

Şah Abbas bütün böyük tacirləri tanırdı. İbrahim tacir icazə istədi. Şah Abbasa xəbər verdilər ki, İbrahim tacir gəlib, icazə versin gəlsinlər. Şah Abbas icazə verdi, onlar daxil oldu. İbrahim tacir gəldi Şah Abbasa baş əydi, ədəb yerinə yetirdi. Şah Abbas dedi:

– İbrahim tacir, Təbrizdən nə xəbər?

Tacir dedi:

– Şah Abbasın dölətindən günümüz pis keçmir. Şah Abbas sağ olsun, bir məramə gəlmişəm.

Şah Abbas dedi:

– Yanındakı bu oğlan kimdir?

Tacir dedi:

– Mənim oğlum Məhəmməddi, qulluğuna gətirdim, sənə bir salam versin.

Şah Abbas dedi:

– Gəl yaxına.

Məhəmməd gəldi yaxına, salam verdi. Şah Abbas dedi:

– Oğul, atan İbrahim tacir yaxşı kişilərdən biridir. Ona mənim ayrı hörmətim var, gələcəkdə onun yerin tutmalısan.

Şah Abbas soruşdu:

– Tacir, bizə görə sözün?

Tacir dedi:

– Şah Abbas sağ olsun, sənlə qohum olmaq istəyirəm.

Şah Abbas dedi:

– Necə qohum olursan?

Tacir dedi:

– Sənin qızın Zöhrəni Məhəmmədə almaq istəyirəm.

Şah Abbas mat qaldı, bir söz demədi. Şah Abbas bir neçə saat fikrə gedib dedi:

– Tacir, qızı mən buna verərəm, əmma şərti var. Onu gərək Məhəmməd qəbul eləyə. Şərt büdür ki, bu gün Məhəmməd gərək gedə Hələbdə işləyə, pul qazana, gələ mənim qızımı ala. Görüm ki, mənim qızımı saxlaya bilər.

Tacir bu sözə söz tapa bilmədi. Məhəmməd qəbul elədi. Atası ağlaya-ağlaya qayıtdı Təbrizə. Məhəmməd gecə qaldı imarətdə, səhər olub yola düşən zaman Zöhrə gəlib kəsdi Məhəmmədin qabağın. Məhəmmədin gözü Zöhrə xanıma sataşdı. Burda görək Məhəmməd Zöhrə xanıma nələr söylədi:

Başına döndüyüm Zöhrə,
Sən Allah, sal yola məni.
Qəbul elə sözlərimi,
Sən Allah, sal yola məni.

Aldı ağlaya-ağlaya görək Zöhrə nə dedi:

Canım yarım, gözüm yarım,
Səni Allaha tapşırdım.
Sənə qurban olum yarım,
Səni Allaha tapşırdım.

Aldı Məhəmməd:

Yollara baxıb ağlama,
Sinəmi çarpaz dağlama,
Gəl yadlara bel bağlama,
Sən Allah, sal yola məni.

Aldı Zöhrə xanım:

Yollara baxıb ağlaram,
Sinəmi çarpaz dağlaram.
Çətin yada bel bağlaram,
Allaha tapşırdım səni.

Aldı Məhəmməd:

Məhəmməd qürbət ellərdə,
Adı əzbərdir dillərdə.
Sonalar gəzir göllərdə,
Sən Allah, sal yola məni.

Aldı Zöhrə xanım:

Zöhrə yarın sənə qurban,
Eyləmə könlümü viran,
Yoluna baxaram hər an,
Allaha tapşırdım səni.

Bu sözlərdən sonra gəlib çatdı Zöhrə olan evə və dedi:

– Zöhrə, məni burda üç il gözlə, üç ilə kimi gələrəm.

Ordan ayrıldı, yol elədi Hələbə sarı. Bir müddət yol gələndən sonra yolda bir tacirə rast oldu. Dedi:

– Salam, tacirbaşı, hardan gəlib, hara gedirsən?

Dedi:

– Hələbdən gəlib, İsfəhana gedirəm.

Burda görək Məhəmməd tacirdən Zöhrə xanıma necə namə yollayır:

Gəl sənə söyləyim tacir,
Bu naməni ver Zöhrəyə.
Mənim günüm bir il keçir,
Bu naməni ver Zöhrəyə.

Adı əzbərdir dilimdə,
Bülbül şövq eylər gölümdə.
Özü İsfəhan elində,
Bu naməni ver Zöhrəyə.

Məhəmmədin büdür sözü,
Onun üçün gülür üzü.
Zöhrə Şah Abbasın qızı,
Bu naməni ver Zöhrəyə.

Bu naməni verdi tacirə, tacir İsfəhana tərəf yola düşdü. Məhəmməd yol gəldi çatdı bir dağın ətəginə. Dağların lap gözəl vaxtıdır, orda cuşa gəldi, görək dağlara Məhəmməd nələr söylədi:

Yaz ayları gələn vaxtı,
Açılar güllərin, dağlar.
Gəşt edib sənə gəlirlər,
Şən olur ellərin, dağlar.

Suların məsəli-gulabdı,
Dağların güllü nəbatdı,
Baxana abı-həyatdı,
Gur olsun sellərin, dağlar.

Maralların dəstə-dəstə,
Məhəmməd də olmaz xəstə.
Mən də gəzdim bu hüsndə,
Solmasın çöllərin, dağlar.

Bu sözdən sonra yol elədi gəldi yetişdi Şamaxı şəhrinə. Yorğün-arğın bir çayxanə tapdı, orda istrahət elədi, hamı cəm oldu başına. Dedilər:

– Qardaş, hardan gəlib, hara gedirsən?

Görək Şamaxı əhlinə Məhəmməd nələr söyləyir:

Gəşt elədim Şamaxının şəhrini,
Yerləri var, bizim yerə bənzəyər.
Bu yerlərin çox var "İmamzadə"si,
Pirləri var, bizim pirə bənzəyər.

Danışarlar bir-birinə söyməli,
Cavanları bir-birindən öyməli.
Libasları həm gözəldir, geyməli,
Sırları var, bizim sıra bənzəyər.

Məhəmmədin ürək sözü qalmasın,
Namərd fələk bizə çəngə salmasın.
İgidləri intizarda olmasın
Ərləri var, bizim ərə bənzəyər.

Bu sözdən sonra dedilər:

– Hələb şəhri bura yaxındı, iki gün yol gedsən çatarsan.

Məhəmməd atını minib gəldi çatdı bir obaya. Gördü dağların allı-güllü vaxtıdır, elat qızları dağlara zinət olub. Əlində sazı görəndə elat qızları aşiqin qabağın kəsib dedilər:

– Bizə bir ağız oxumasan, səni buraxan deyilik.

Görək Məhəmməd qızlara necə oxuyur:

Mən gedirəm o Hələbə,
Siz salamat qalın, qızlar.
Yar üçün düşmüşəm çölə,
Siz salamat qalın, qızlar.

Qızların biri dedi:

– Yarın haralıdır?

Aldı görək Məhəmməd nə dedi:

Olmuşam ah, fəğanlı,
Gəzirəm Məcnün xiyallı.
Yarım olub İsfəhanlı,
Siz salamat qalın, qızlar.

Məhəmməd qürbətə gedir,
Qara bağrın al qan edir.
Günbəgün ömrü keçir,
Siz salamat qalın, qızlar.

Məhəmməd bu sözü oxuyandan sonra dedilər, Hələb yaxındı, az yol qalır. Bir neçə gün yol gəlib axşamüstü yetişdi Hələbə. Camaat bünün əlində sazı görəndə yığışdılar Məhəmmədin başına: "Qardaş, hardan gəlirsən, haralısan?". Aldı Məhəmməd görək onlara nə dedi:

Olub Təbriz şəhərindən,
Hələb şəhrinə mən gəldim.

Çərxi-fələgin əlindən,
Axırı canə mən gəldim.

Cəfa çəkdim bir fel üçün,
Saçı siyah sünbül üçün.
Bülbül oldum mən gül üçün,
Düşdüm əfğanə mən gəldim.

Məhəmməd də eldə gəzib,
Məcnun kimi çöldə gəzib,
Adım dildən-dildə gəzib,
Batdım al qanə mən gəldim.

Məhəmməd Hələbdə qalsın, gəlin görək Zöhrə xanım nə edir? İsfəhan şəhrində Məhəmməd gedəndən sonra Zöhrə kənizlərin otağdan çölə saldı, otağında xəlvət başladı ağlamağa. Məhəmmədi yadına salıb görək tək otağda nələr söyləyir:

Sən qürbət ellərdə səfil, sərgərdan,
Mən də öz elimdə qalıb ağlaram.
Ürəyim nigəran, halım pərişan,
Qəmilə qüssəyə dalıb ağlaram.

Necə yaşayırsan mənsiz dünyada,
Yatıram görürəm səni röyada.
Dərdimin əlacı qalıb mövlada,
Bir-bir günlərimi sanıb ağlaram.

Zöhrə yarın yadlara bel bağlamaz,
Sənsiz bir gün fərəhlənib çağlamaz.
Kamil ovçu bala ovu ovlamaz,
Bahar buludu tək dolub ağlaram.

Zöhrə belə oxuyanda qızlar səsə gəldilər. Qapını açıb girdilər otağa. Zöhrənin boynun qucağladılar, əlindən yapışıb bağa gətirdilər. Böyük kənizi Mahrux xanım görək Zöhrənin könlün almaq üçün nə oxudu:

Zöhrə, bu ayrılıq Allah işdir,
Nədən boynun büküb, qəmgin olursan?
Neçə ildir sən çəkirsən möhnəti,
Nədən boynun büküb, qəmgin olursan?

Yarın gələr, şadlıq olar bu bağda,
Quşlar oxur, nəğmə çalar bu bağda.
Yarın sözü yara qalar bu bağda,
Nədən boynun büküb, qəmgin olursan?

Mahrux dərdin sənə bəyan eyləsin,
Həqiqəti burda əyan eyləsin,
Qəmli canın sənə qurban eyləsin,
Nədən boynun büküb, qəmgin olursan?

Bu sözdən sonra yenə də Zöhrə pərişan halda qızlara belə söylədi bağda:

Qadir Allah, budur səndən diləyim,
Harda qaldı nazlı yarım, gəlmədi?
İntizaram gecə-gündüz ağlaram,
Harda qaldı nazlı yarım, gəlmədi?

İndi qürbət eldə, harada qalır?
O mənim qaydıma, fikrimə qalır.
Yar ki yar dərdindən saralır, solur,
Harda qaldı nazlı yarım, gəlmədi?

Zöhrənin olubdur halı pərişan,
Vətənimdə yox halımı soruşan.
Təkcə mənəm hal-əhvalı qarışan,
Harda qaldı nazlı yarım, gəlmədi?

Bu sözdən sonra Zöhrənin halı korlandı, Mahrux kəniz getdi təbib gətirdi. Təbib dərman verdi. Qız bir neçə gündən sonra yaxşı oldu, gəldi ata hüzuruna. Şah Abbas dedi:

– Qızım, sözün nədir?

Zöhrə dedi:

– İcazə versən gedəcəyəm Hələbə, Məhəmmədin dalınca.

Şah qəzəbə gəldi, dedi:

– Qayıt! Bir də bu sözləri dilinə gətirmə ki, dilivi kəsərəm.

Zöhrə ağlaya-ağlaya qayıtdı gəldi. Zöhrə burda qalsın, görək Məhəmməd Hələbdə nə edir? Hələbdə üç il işlədi, aşığlıq edib pül qazandı. Sora hazır olub gəlir İsfəhana.

İndi görək Zöhrə nə edir? Zöhrə öz otağında, gördülər ki, atası Şah Abbas gəlir, Zöhrə xanıma xəbər verdilər. Zöhrə özün amadə elədi. Atası gəldi, gördü, Zöhrə bir guşədə oturub, atasın görəndə ayağa qalxdı, əlindən öpdü. Atası dedi:

– Qızım, niyə belə solmusan?

Alıb görək Zöhrə Şah Abbasa nələr söylədi:

Bəlayi-möhnətdə, dəmi-bəladə,
Heç kəs mən tək dərdə giriftar olmaz.
Leyla kimi Məcnununu itirən,
Güllü bağçasında mən tək xar olmaz.

Fələyin əlindən qalmışam ağlar,
Sinəmə çəkildi qüssəli dağlar.
Bülbülsüz gül açmaz bağçalar, bağlar,
Bülbülsüz göllərə heç quş yar olmaz.

Zöhrə baxır yola çəkir intizar,
Məhəmməddən qeyri onun nəyi var?
Şahım rəhm etməsə olmam payidar,
İşvəsiz, qəmzəsiz kəman, tar olmaz.

Elə bunlar bu söhbətdə, xəbər gəldi, qasid gəlib Məhəmməddən namə gətirdi. Şah Abbas naməni aldı, amma az qalır Zöhrənin qəlbi yata, görəsən ölüm xəbəridir? Şah naməni açdı oxudu, rəngi saraldı. Zöhrə şad oldu, bildi yarı gəlir. Şah Abbas narahat getdi. Qızları yığdı başına Zöhrə, görək nələr dedi:

Qadir Allah, şükür sənə,
Yol yorğunu yarım gəlir.
Muradına çatmaq üçün,
Yol yorğunu yarım gəlir.

Oturub eylərik söhbət,
Sözlərimdir bil həqiqət.
Elə bil gəlir Məhəmməd
Yol yorğunu yarım gəlir.

Zöhrə yarı ona qurban,
Yoluna baxıram hər an,
Kaş xoş keçə elə döyran,
Yol yorğünü yarım gəlir.

Bu sözü oxuyandan sonra səs düşdü şəhrə İbrahim tacirin oğlu Məhəmməd gəlir. Məhəmməd gəldi. Hamı ilə görüşüb, gəldi Şah Abbasın bargahinə. Yol verdilər, Məhəmməd gəldi pulları qoydu Şah Abbasın qabağına. Şah Abbas dedi:

– Sənə verməyə mənim qızım yoxdur, götür pulları burdan get.

Onda oranı od aldı, yandı Məhəmməd. Görək Şah Abbasa nələr söylədi:

Ədalət şah, hüzurunda durmuşam,
Hərdən öz-özünə alışma, şahım.
Yəqin elə ölüm vardı qabağda,
Yalandan hər işə qarışma, şahım.

Allahın işidir düzəldər işi,
Çünki dulandırır çərxi-gərdişi.
Bütün irilərin iridir işi,
İşin düzülüməsə çalışma, şahım.

Məhəmmədi saldı çöllərə fələk,
Başına gətirdi minlərlə kələk.
İndi də başlayaq biz toyu edək,
Hər ağza gələni danışma, şahım.

Bu sözdən sonra Şah Abbasa vəzirlər dedi:

– Qurban, şah da öz millətinə yalan deyərmi?

Bu söz Şah Abbasa yaman dəydi. Dedi:

– Mən Zöhrəni verdim Məhəmmədə.

İbrahim tacirə namə yazdı, qasidə verdi, dedi:

– Bu naməni apar ver Təbrizdə İbrahim tacirə. Söylə, gəlsin toya.

Elə də qasid naməni gətirdi, Təbrizdə verdi İbrahim tacirə. Tacir şad oldu. Məhəmmədin tayfası, anası gəldilər İsfəhana, toy başlandı. Məhəmməd ilə Zöhrə gəldi ata və ana əlindən öpdü. Gəlin gəldi şəhri Təbrizə. İsfəhandan Təbriz aşıqları qırx gün, qırx gecə toyda çaldılar, oxudular. Məhəmmədlə Zöhrənin toyu başa çatdı.

## SƏNAN VƏ TƏRSA BALASI

Keçən ustadlardan rəvayət olunur ki, İranın Nişapur şəhərində bir Şeyx vardır, adına Şeyx Sənan deyiər. Onun əbadətinə görə, yanında beş yüzə qədər yoldaşı varıymış, bunların günləri xoş keçirdi. Günlərin birində Şeyx Sənan yatıb yuxusunda Rum şəhrində Rum şahının qızın görür. Ona bir könlüdən, min könülə aşiq olur. Bu zaman yuxudan oyanır, görür ki, gördüyü yüxü imiş. Günü-gündəhalı pozulur, gül rəngi saralıb payız yarpağına dönür. Dərdin bir kiməsə deyə bilmir. Yoldaşları görür Şeyx Sənan günü-gündədalı gedir. Onlar gəlirlər Şeyx Sənanın yanına. Şeyx Sənan soruşur:

– Sözüz nədir? Mənim yanıma gəlməkdən mənzuruz nə?

Onlar deyərlər:

– Ya Şeyx, sən bir neçə vaxt olar pozulmusan, dərdin nədir? Neyə belə olmusan?

Burda alıb görəŞeyx Sənan yoldaşlarına nələr dedi:

Yatmışdım, aləmi-röyadə gördüm
Ala göz, qara qaş bir cananı mən.
Bir baxışı dəydünya mülkünə,
İndi hardan tapım o loğmanı mən?

Dedilər:

– Ya Şeyx, bizə açıq bəyan eylə, baş tapammadıq.

Şeyx sözün belə dəvam elədi:

Gözəgi hər mahala bəllidir,
Gümüş kəmərlidir, incə bellidir.
Şirin göftarlıdır, şirin dillidir,
Onusuz neyliyirəm bu dünyanı mən?

Sənanı atəşə saldı nazlı yar.
Bircə baxışında min mənalar var,
Yanağa düzülüb cüt qoşa xal var.
Başdan çıxartmaram bu södanı mən.

Şeyx Sənan dostlarına dedi:

– Mən aləm-röyadə Məliykə xanımı görmüşəm. Ruma getməliyəm.

Yoldaşlar bu sözü eşitdi, narahat oldular. Dedilər:

– Ya Şeyx, onlar xiristiandılar, biz müsəlman, gəl bu yoldan qayıt.

Alıb Şeyx Sənan görək yoldaşlarına nələr söylədi:

Məni halal edin, dostlar, amandı,
Üz çevirib yaradana, gedirəm.
Gələm, ya gəlmiyəm bir də bu yerə,
Səməndərəm, yana-yana gedirəm.

Bu sözü eşidən yoldaşlar ağladılar. Alıb görək Sənan daha nələr dedi:

Yolumu gözləyən intizarım var,
Bülbül inanma ki, gülü unudar.
Gəlir üstümə qəm xalvar-xalvar,
Həq sözünü qana-qana gedirəm.

Şeyx Sənan, sevədan ulduzudur,
Atanın, ananın işvə, nazıdır.
Məkanı Rüm şəhri, tərsa qızıdır,
Sığınıban o sübhana, gedirəm.

Sözlər başa çatdı. Dedilər, gəl sən bu yolu özünə yol eləmə, qayıt. Şeyx durub gəldi öz evinə, otağı xəlvət elə, üzün tütüb yaradan Allaha, görək ağlaya-ağlaya necə yalvarır:

Üz tutmuşam dərgahına, yaradan,
Məni bu zillətdən qurtar, ilahi.
Rəhmin gəlsin mənə ürəqandı,
Məni bu zillətdən qurtar, ilahi.

Hicranın əlindən bu canım yandı,
Ayrılıq həsrəti mənə yamandı.
Cavan ikən mənim qəddim kəmandı,
Məni bu zillətdən qurtar, ilahi.

Gecə-gündüz yola baxıb ağlaram,
Sinəüstun düyünlərəm, dağlaram.

Kimə gedib, kimə ümid bağlaram?
Məni bu zillətdən qurtar, ilahi.

Sözlər təmam oldu, yuxu bunu tutub, yatdı. Bir zaman gözün açdı, gördü azan səsi gəlir, durub dəstəmaz alıb, gəlib namazın qıldı. Üzün tütdü həqq dərgahına, görək nələr dedi:

Yalvarıram sənə zəlil, sərgərdan,
Od almışam, yana-yana ağlaram.
Yadımdan çıxmır bir mələk mənzər,
Həqiqəti qana-qana ağlaram.

Bahar buludu tək boşaldım, doldum,
Payız yarpağı tək saraldım, soldum.
Eşqə düşdüm, bu dünyada xar oldum,
Günlərimi sana-sana ağlaram.

Gözlərim yollarda baxır yollara,
Bülbül necə qulluq eylər güllərə.
Vamiq kimi mən də düşdüm çöllərə,
Mən Sənanam, ana-ana ağlaram.

Bu sözlər təmam, yoldaşları gəldilər Şeyxin yanına, qapını döydülər. Şeyx qapını açdı, gördü yoldaşlarıdı. Səlam-kəlamdan sonra varid oldular Sənanın evinə. Gördülər Şeyx amadə olub getsin, dedilər:

– Gəl bizim sözümüzə bax, bu yoldan qayıt.

Şeyx burda görək yoldaşlarına nələr deyir:

Qulaq verin sözlərimə, qardaşlar,
Getməəm, yar yadıma düşübdür.
İndi yola baxır qalıb nigəran,
Getməəm, yar yadıma düşübdür.

Dedilər:

– Gəl bu daşları ətəgindən tök, qal burda, getmə.

Aldı görək yoldaşlarına daha nələr dedi:

Yuxuda görmüşəm mahi-cəmalın,
Onsuz neyləyirəm dünya malını?

O gün ola mən də tutam əlini,
Getməəm, yar yadıma düşübdür.

Adı əzbər mən Sənanın dilində,
Razıyam ölümə gedəm yolunda.
Anadan olubdur Rumun elində,
Getməəm, yar yadıma düşübdür.

Sözlər başa çatdı. Gördülər Şeyx istəygedə, yoldaşları məlul-məlul baxır. İndi Şeyxin ayrılan vaxtıdır axır sözün görək necə deyir burda yoldaşlarına:

Məni həlal edin istədostlar,
Yol eləyib Rum elinə gedirəm.
Nazlı yar həsrət, yolumu gözlər,
Yol eləyib Rüm elinə gedirəm.

Seyr edə bilməmeyvə bağımda,
Sinəmin üstündə vardı dağım da.
Sizdən ayrılıram qoca çağımda
Yol eləyib Rum elinə gedirəm.

Məni bağışlayın dostlar, amandı,
Bu Şeyx Sənanın halı yamandı.
Yardan ayrı dünya mənə zindandı,
Yol eləyib Rum elinə gedirəm.

Bu sözdən sonra dedilər, gəl getmə, qayıt bu yoldan, sən nədəötrü belə yolu özünə peşə etmisən? Alıb görək Sənan burda nələr söylədi yoldaşlarına:

Uzaq bir ölkədə, uzaq bir eldə,
Hicran həsrət qüyüb dildarə məni.
Gecə-gündüz ah və fəğan eylərəm,
Məhəbbət bağlayıb nigarə məni.

Cəmalı günəşdir, qaşları aydır,
Əşqi-bar ilə kiprigi yaydir.
Gözəhəqən bir ayrı paydır,
Söygülüm yandırıb dübarə məni.

Məhəbbət bağının gülləri solmaz,
Aşiq məşuqheç zaman gülmə.
Şeyx Sənan tərsasız yaşaya bilməz,
Zülfü aylə salıbdı həsarə məni.

Bu sözdən sonra yoldaşları Sənanı yola salıb ağlaya-ağlaya qayıtdılar şəhrə. Şeyx Sənan bir qədər yol gələndən sonra çatdı bir duzəngaha, oturub bir qədər fikir elədi, alıb öz dərdini belə söylədi:

Günüm dönüb qaranlıqda gəzirəm,
Nə vaxt qismət olar günəş, ay mənə.
Gözəl Züleyxanın oduna yandım,
Fələk verib dərdi-qəmi pay mənə.

Bu həqiqət sözü duyub qanmışam,
Gecə-gündüz günlərimi sanmışam.
Alışmışam, yar oduna yanmışam,
Aşıqlar içində yoxdur tay mənə.

Şeyx Sənan görüb qaşın qarasın,
Tərsa qızı eylər dərdin çarasın.
Aşiq bağlar aşiqının yarasın
Həqən bir səs verir inan hay mənə.

Bir müddət yol gəlib özun çatdırdı Rum şəhrinə. Gözü şəhrə sataşanda, orda cuşa gəlib özü-özünə dedi: "Bəlkə də bu şəhr, Rüm şəhri olmadı".

Bir nəfərin qabağın kəsdi, görək Rüm şəhrin bundan necə soruşur:

Dayan, sənə sözüm vardı,
Bu görünən nə şəhrdi?
Mənə danış elə burdan,
Bu görünən nə şəhrdi?

O adamın adı Calansdır, görək Şeyxə necə cavab verdi:

Sənə deyim dərdli qoca,
Bu görünən Rüm şəhri.
Həmişə olasan uca,
Bu görünən Rüm şəhri.

Aldı Şeyx Sənan:

Mənim burda yarım vardı,
Yarı-vəfadarım vardı.
Gözü-intizarım vardı,
Bu görünən nə şəhrdi?

Aldı Calans:

Söylə, sənin yarın kimdir?
Yarı-vəfadarın kimdir?
Gözü-intizarın kimdir?
Bu görünən Rum şəhri.

Aldı Sənan:

Sənanın gözü qarası,
Ərşə çıxıbdı nalası.
Şah qızı, tərsa balası,
Bu görülən nə şəhrdi?

Aldı Calans:

Gözəllərin gözüdür o,
Aşıqların sözdür o,
Günəşin də özüdür o
Bu görünən Rum şəhri.

Calans dedi:

– Rum şəhri buradır.

Sənan eşitdi, az qaldı orda partlasın. Görək Rum şəhrinə çatmasına nələr söylədi:

Fələgin əlindən şikayətim var,
Oxuyub dərdimi yazan olaydı.
Bülbül kimi çatammasam gülümə,
Ay, kaş taleyimi pozan olaydı.

Mən düşmüşəm el-obamdan aralı,
Kamil ovçu dayim gəzir maralı.
Günü-gündən gül rəngim saralı,
Mənim də dalımca gəzən olaydı.

Dağlardan ensən yetişdik düzə,
Allah, mərd oğulu gətirmə gözə.
Şeyx Sənan qurban o ala gözə,
Evlənəndə qəbrim qazan olaydı.

Bu sözdən sonra axşam günün batan zamanı özun yetirdi şəhrə. Orda dolanıb bir ev tapdı. Əlində olan nə ki vardı orda bir yerə yığib, fikrə cümdu ki, qızın yanına necə yol tapa bilər? Gecəyatdı, səhər durub nəmazın qıldı, təzə libasların geyib gəldi şəhrə. Gördü hamı təzə libas geyib. Bir nəfərdən xəbər alır:

– Qardaş, nə var ki, hamı təzə paltar geyib?.

O, cavab verdi:

– Rum şahının qızı ildə bir yol şəhrə çıxar, cəmalın göstərə cəmaata, kimi sevsə, ona gedə.

Şeyx Sənan da bir tərəfdə durub, qızı gözlədi, gördü qızdan xəbər yoxdur. Alıb görək səbri-qərarı yox, nə söylədi:

Otağından eşiyə çıx,
Mahitaban, hayandasan?
Könül düzəlt, ya da bir yix,
Mahitaban, hayandasan?

Sənsən bu könlümün xanı,
Yolunda verərəm canı.
Niylərəm sənsiz dünyanı,
Mahitaban, hayandasan?

Bülbül güllərin bəhrində,
Sənanam onun təhrində.
Olmuşam İran şəhrində,
Mahitaban, hayandasan?

Elə bu sözlər qurtaranda gördü səs gəldi: “Yol verin, tərsa balası gəlir”. Sənan keşdi camatın qabağına. Qız baxa-baxa gəldi keçdi, heç birinə məhəl quymadı. Qaçdı daldan yapışdı qızın kəcavəsindən:

– Ay nazlı canan, mənə rəhm elə, İrandan bura səndən ötrü gəlmişəm.

Qız əmr elədi, vurun kəcavədən salın yerə. Bünü vurdular, kəcavədən saldılar yerə. Qız getdi. Alıb ağlaya-ağlaya qızın dalıca görək nələr dedi:

Yasəmən tellərin, nərgiz gözlərin,
Elə bil mənilə çuxdan yağıdı.
Dedim ənsaf elə öldürmə məni,
Bu xəstə könlümün yaman çağıdı.

Əmalı-gözəldə xəta kəm gərək,
Sevgi gərək, söhbət gərək, dəm gərək.
Aşiqə vəfalı bir həmdəm gərək,
Həmdəmbal yesə, ona ağıdı.

Şeyx Sənan ömrünü vursa da başa,
O tərsa qızından osanmaz haşa.
Fərhad Şirin üçün sığındı daşa,
Məcnün oylağı, Leyli dağıdı.

Bu sözü təmam elədi. Sizə kimdən deyim, kimən danışım – Şeyxin yoldaşlarından. Şeyxi yola salandan sonra onlar düşüblər bünün dalınca gəliblər Ruma. Rumda bir ev tütüb Şeyxi gözləyərlər. Gördülər Sənan yola düşüb, gəlir. Çıxdılar Sənanın qabağına. Şeyx Sənan yoldaşların görən kimi mat qaldı, bir-birin qucaqladılar, gəldilər evə. Dedilər:

– Ya Şeyx, gəl bu södadan əl götür, qayıdaq vətənə.

Burda görək indi Sənan yoldaşlarına nələr söylədi:

Məni qınamayın gəlin, a dostlar,
Qalmalıyam, gedəmməəm bu yerdən.
Könlüm qüşü uçub qonub bu dağa,
Qalmalıyam, gedəmməəm bu yerdən.

Məni heyran edir şirin dilləri,
Yanındadır obaları, elləri.
Xınalı barmağı, əlvan əlləri,
Qalmalıyam, gedəmməəm bu yerdən.

Şeyxi-Sənan Rüm şəhrinə varanda,
Meyli gah dağdadır, gah da aranda.
Nazlı yarın cəmalını görəndə,
Qalmalıyam, gedəmməəm bu yerdən.

Şeyx Sənan yoldaşlarından icazə alıb gəldi Məleykəgörsün. Gəldi Məleykənin bağına, bağın qapısın döydü. Kənizlər qapını açdı. Gördü bir yarı yaşlı kişidir. Dedi:

– Qardaş, nə istərsən?

Dedi:

– Məleykəgörməəm.

Kəniz gəlib tərsa balasından icazə aldı, qız dedi:

– Yol verin gəlsin.

Sənana yol verdilər, Sənan gəldi qızın otağına. Səlam verib səlam aldı, dedi:

– Ay kişi, məndən nə istəən?

Alıb görək Sənan qıza nələr söylədi:

Başına dulanım gözəl,
Sən mənə yar olmalısan.
Səndən ötrü çöllərdəyə,
Sən mənə yar olmalısan.

Dedi:

– Ay kişi, hardan bura gəlmisən?

Aldı Sənan belə oxudu:

Bülbüllər gülün qəhrində,
Gözəl görmətəhrində.
Məkanım İran şəhrində,
Sən mənə yar olmalısan.

Şeyx Sənandır, bil adım,
Yaradan verib muradım.
Şahi-mərdandır ustadım,
Sən mənə yar olmalısan.

Bu sözlər başa çatdı. Qız dedi:

– Mənə doğru söylürsən?

Sənan dedi:

– İrandan bura gəlmişəm səni alam və İrana gəlin aparam.
Məleykə dedi:
– Mənim nəyimə aşiq olmusan?
Burda görək nələr söylədi:

Gözəllərin gözəlisən,
Səndən qeyri gözəl olmaz.
Əzəllərin əzəli sən,
Səndən ayrı əzəl olmaz.

Gözlərindi deyim ala,
Məni salıb qalmaqala.
Yanağında vardı lalə,
Sən olmasan, qəzəl olmaz.

Məni atıb yadı tutsan,
Qabağımdan yana ötsan,
Bu Sənanı salıb gedsən,
Sonra dəhaın düzəl olmaz.

Bu sözü oxuyandan sonra Məleykə dedi:
– Hansı dinənən?
Sənan dedi:
– İslam.
Qız dedi:
– Məni almaq istəsən, gərək dindən çıxasan.
Sənan dedi:
– Mənə icazə ver, gedim öz ürək dostlarıma deyim, görüm onlar mənə nələr deyir?
Sənan qayıtdı halı-pərişan evinə. Yoldaşları dedi:
– Nə oldu, nəyə pərişan olmusan?
Alıb Sənan görək burda nələr söylədi:

Qadir Allah, budur səndən diləyim,
Gəl çıxart başımdan sən bu sevdanı.
Sənin əlindədir külli-ixtiyar,
Sənsən xəlq elən yeri, səmanı.

Yoxdan yaratmısan bu məxluqatı,
Sənin əlindədir ixtiyar qəti.
Bizlərə sən dedin külli-hikməti,
Kərəmin doldürüb külli-məkanı.

Şeyx Sənan quldur, salma gözündən
Quyma bata cəhalatın üzündən.
Bizə nəcat verən Quran sözündən,
Nuranı eliyən bütün dünyanı.

Bu sözü deyəndə yoldaşlar ağladı. Dedilər:

– Gəl bu södadan əl götür.

Şeyx Sənan qəbül eyləədi, durdu gəldi Məleykəyanına. Dedi:

– Sənlə gedirəm kəlisayə, sizin dini qəbül edəm.

Sənan qızla durub gəldi kəlisaya. Orda qızın dinin qəbül elədi. Qız gördü oğlan bünün yolunda dinindən keçdi, dedi:

– Bir imtəhan da qalır, o da budur ki, bir il mənim douzlarımı otarasan, ondan sonra sənə gələm.

Şeyx Sənan bunu da qəbül elədi. Bu sevdanı Sənanın yoldaşları bildi, gəldilər ağlaya-ağlaya başladılar Allaha yalvarmağa. Sənan bir gün gördü Həzrət peyğəmbər (s) gəldi bünün yuxusuna, deyir. "Sən görən yüxünü Məleykədə görüb, yoldaşlarını götür qayıt vətənə". Sənan douzları buşladı çölə, gəldi. Yoldaşlarına dedi, yoldaşları şadlanıb yol tutdular vətənə sarı.

Sizə kimdən deyim, Məleykəən. Bu da Həzrət peyğəmbər (s) görüb, ona peyğəmbər (s) büyürüb gərək Şeyx Sənanə gedəsən. Ondan bahəm olmaq istəən gərək "kəlmeyi-şəhadəti" öyrəəən. Qız libasların götürüb qızları çağırdı, dedi:

– Gəlin məni həlal edin, gedirəm İranə.

Ata-anasına xəbər verdilər. Ata-ana bu işdən sonra qızına yaxşı yol deyib, yola saldılar. Məleykə yola duşən zaman alıb qızlara belə söylədi:

Həlal edin məni qızlar, amandı,
Buşladım dinimi, gəldim imanə.
Allahı bir bilib inandım ona,
Vuruldum ürəən Şeyx Sənanə.

İslamın yolunda candan geçmişəm,
Ərənlər əlindən badə içmişəm.
Bu yol həqq yoludur, mən də seçmişəm,
Sidqilə baxıram yola, ərkanə.

Məleykə də dərdin sizə söylədi,
Xəncər alıb qara bağrı yilə.
Həqqi, həqiqəti əyan eylədi,
Elə bil ki, indi gəldim cəhanə.

Məleykə qızlardan ayrılıb, uzun yollardan sonra gəlib çatdı Şeyx Sənanın kərvanına. Şeyxi uca səslə çağırdı. Şeyx Sənanın qulağına səs gəldi: “Dayan, qız müslüman olub”. Sənan dala döndü, gördü qız gəlir. Dayandı, qız yetişdi, qolun saldı Sənanın boynuna, görək nələr söylədi:

Mürşüdi-kamilim, ay tacidarım,
Bağışla pənahım, dada gəlmişəm.
Üzumu tutmuşam həqq dərgahına,
Sığınmışam min bir ada gəlmişəm.

Aldı Sənan:

Gözəllər gözə, gözəllər xası,
Qədəm qüyüb bura səfa gətirdin.
Silindi könlümün qalmadı pası,
Qədəm qüyüb bura səfa gətirdin.

Aldı Məleykə:

Həqiqəti, təriqəti görən var,
Mətləb verib, vəətləri sora var.
Şəriəti, mərifəti söravar,
Yandırıb canımı oda gəlmişəm.

Aldı Sənan:

Möminərin ümidgahı Əlidir,
Ərənlərin qibləı Əlidir.

Əzəlindən mömin şahı Əlidir,
Qədəm qüyüb bura səfa gətirdin.

Aldı Məleykə:

Məleykəyəm, çox incitdim mən səni,
Ay kərəm sahabı, əfv qıl məni.
Özün gəl bağışla, ay kərəm kanı,
Ömrümü vermişəm bada gəlmişəm.

Aldı Sənan:

Gərdəni büllüri, boyun sürahi,
Üzümə açdı bax yaradan rahı.
Sənanı zillətdən qurtar, ilahi,
Qədəm qüyüb bura səfa gətirdin.

Bunlar gəldilər Nişapura, orda bir alim bunların əqdin oxudu. Bunlar illər boyu ömür sürdülər, yedilər, içdilər, dünyadan küçdülər.

## ŞİRİN İLƏ FƏRHAD

Gələk mətləb üstünə, belə nəql edirlər ki, keçmiş zamanlarda Ənuşirəvan öləndən sonra Hərməz şah İran ölkəşahı oldu. O zaman İranın paytaxtı Mədayin şəhri idi. Hərməz şahın ömrünün çüxü getmişdi, azı qalırdı. Əma bir evladı olmamışdı. Bir gün Hərməz şah təxtində oturub çox narahat halda fikrə cümmüşdü. Vəzir gəlib şahı narahat gürəndə soruşdu:

– Qurban, niyə narahatsan?

Şah dedi:

– Buna narahatam ki, mən öləndən sonra bir kəsim yoxdur, mənim məmləkətimə sahib ola, məndən sura adımı çəkə.

Vəzir dedi:

– Qurban, yuxsullara əhsan ver, bəlkə Allah sənə ölad bağışlaya.

Belə də elədilər, Allah Hərməz şaha bir oğlan verdi. Adın da Xəsrov quydular. Xəsrova mirzələr dərs öyrədəndən sonra dərbarın böyük pəhluanları ona pəhluanlıq məşqi verdilər.

Bir gün Xəsrov atasından icazə alıb, vəzir ilə bərabər bir bölük də qüşün götürüb şikara çıxdı. Bir xiyli ov ovlayandan sonra hamı yürülüb bir yaşıl çəmənlikdə yuxuya getdilər. Xəsrov yuxuda qədim Azərbaycan yurdu olan Ərmənistanda Məhinbanunun qardaşı qızı Şirini gördü, bir könüldən min könülə ona aşiq oldu.

Xəsrovun əmrilə quşün dərbara sarı yola düşdü, dərbara gəldilər. Vəzir gördü Xəsrov çox pərişandi, dedi:

– Qurban, sənə nə olub?

Xəsrov Pərviz aldı görək nə dedi. O dil cavabı demişdi, biz də şeirlə deyirik:

Bir də cəmalını görəydim yarın,
İnanmıram bir də görəm Şirini.
Yolunda verəəm İranın varın,
İnanmıram bir də görəm Şirini.

Onu otandırar cəmalı ayı,
Hameydan çox düşüb gözəllik payı.

Çərx altında onun tapılmaz tayı,
İnanmıram bir də görəm Şirini.

Mən Xəsrüyam, olub dərdim ziyada,
Məcnün təkin yalqız qaldım dünyada.
Şirini gürəəm bir də ruyada?
İnanmıram bir də görəm Şirini.

Söz təmam oldu. Xəsrov Pərvizin Şapur adında bir lələ varıdı, yaxşı da nəqqaş idi, Xəsrovün nə dedigini anladı, dedi:

– Qurban, o Şirin ki deyirsən, onu nə təhər gürdün?

Aldı Xəsrov Pərviz görək nə dedi:

Canım lələ, gözüm lələ,
Oldum heyranı Şirinin.
Sənə büdür sözüm lələ,
Oldum heyranı Şirinin.

Durmüşdü çeşmə başında,
Sürmə varıdı qaşında.
On iki, on üç yaşında,
Oldum heyranı Şirinin.

Xəsov ondan qaldı dalda,
Cüt bilərzik vardı qolda.
Dayəərı sağda-sulda,
Oldum heyranı Şirinin.

Söz təmam oldu. Şapur dedi:

– Qurban, mən o qızı sənə ala bilərəm, o, Ərmənistan hakimiqızıdır. Ərmənistanın hakimi olub, yerində bacısı Məhin xanım əyləşib.

Xəsrov Pərviz dəstür verdi, Şapur Ərmənistana Şirin xanımın dalınca getsin. Şapur yola düşdü, axşamacan yol gəlib qaranlıqlayanda bir çiməndə yatdı.

Sübh oldu, yuxudan duranda baxdı, gördü təbiətin güzəlligi adamı heyran eyləyir. Aldı görənə dedi:

Doymuram baxmaqdan sənə,
Açıbdır güllərin dağlar.

Mən sənə olmuşam heyran,
Xüş gəlib illərin, dağlar.

Qüyün-qüzü səndə mə,
Həzin səs qəlbimi dəlir.
Gür nə gözəyağış gəlir,
Gür axır sellərin, dağlar.

Şapur boyun səndə gəzir,
Dərdi-qəmin bağrın üzür.
Kəhlikəərin bir-bir süzür,
Al geyib güllərin, dağlar.

Söz təmam oldu. Bir neçə müddətdən sonra gəlib Ərmənistana çatdı, bir qucadan Şirin xanımın yerin sürüşdü. Quca dedi:

– Oğul, o sabah kənizləri ilə çıxıb bağlarında dulanacaq, orda onu gürəərsən.

Şapur gəlib bağa Xəsrov Pərviz şəklini çəkib, adın da altında yazıb bir ağaca vürdü, ozü də gizləndi. Sabah Şirin xanım gəlib bağda dulananda güzü şəkilə düşdü. Şəkili gütürüb bir tərəfdə oturub heyran şəkilə baxdı. Bir könüldən min könülə bu şəkilin sahibinə aşiq oldu. Aldı gürənə dedi:

Başına dulanım gül üzlü yarım,
Sənsiz bir ləhzəə gəzə bilmiəm.
Bəs mən necə düzüm bu dərdi-qəmə,
Qəmin dəryasında üzə bilmirəm.

İntizar gözlərim dülübdür nəmə,
Sirrimi mən gedib süyləyim kimə?
Sənsiz qərq olaram dumana, çənə
Həcran atəşinə düzə bilmiəm.

Səni oz yanıma gətirəm gərək,
Özumu ya sənə yetirəm gərək.
Şirinəm vəsalı bitirəm gərək,
Hicrində güz yaşı süzə bilmiəm.

Söz təmam oldu. Şapur atını sürüb gəldi. Şirin dedi:

– Sən kimsən?

Cavabında aldı Şapur:

Şirin xanım bir rəhm elə,
Mən Xəsrüvün lələsiy.
Onun yolunda öldürsəz
Ağlamaram, güləsiyəm.

Ata-ananın bir gülü,
Xüş keçirdir ayı, ili.
Mahalı Mədayin eli
Boyundan çox söz biləsiyəm.

Şapuram, söz yetdi suna,
Şirin, məni azca qına.
Sevsən səni alım ona,
Yolunda mən öləsiyəm.

Şapur dedi:

– Mən gedirəm Mədayinə. Sən də istəsən gələsən, Xəsrov Pərvizin üzüyün verirəm sənə. Gəlib dərbara görsətsən sənə yol verərlər.

Şapur üzüyü Şirinə verib Mədayinə sarı yola düşdü. İndi Xəsrov Pərvizdən eşidək. Xəsrov Pərviz çox gözlədi, Şapur gəlmə. Dedi, Ərmənistanda Məhin xanımın adamları onu tütüb öldürlərlər. Yol eylədi Ərmənistana. Bu getməkdə olsun. Şirin xanım da gəlib Mədayinə üzüyü nəşan verdi, dərbara varid oldu. Hərəm xanımları gördülər Şirin o qədər gözəldir ki, əgər Xəsrov Pərviz onu gürsə bunları daha saya salmaz. Odur ki Şirini Kərmanşahın yaxınlığında bir qəsrə gətirdilər. O gündən oranın adı Qəsri-Şirin qaldı.

Xəsrov Pərviz gəlib Ərmənistanda xəbərdar oldu ki, Şirin xanım Mədayinə gedib. Elə bu zaman Xəsrov Pərvizə xəbər verdilər ki, atan Hərməz şah dünyadan köçüb, Bəhram adında bir nəfər qiyam eylhəkküməti əlinə keçirdib, Mədayinə gəlmə, gəlsən öldürərlər. Xəsrov Pərviz Ərmənistanda yol eylədi Rümün şahı Qeysərin yanına. Qeysər şah da qüdrətli bir şah idi. Qeysər şah Xəsrov Pərvizi qarşılamağa çıxdı.

Qeysər şah dedi:

– İranın şahı, sənə nə olub bu vəzdə pərişan gəlibsən?

Aldı gürəXəsrov Pərviz nə dedi:

Başına dulanım Qeysərin şahı,
Əzəl gündən bəxti qara olmuşam.
Malı-mülküm təmam gedib əlimdən,
Dəli kimi mən avara olmuşam.

Alıblar təxtimi mənim əlımdən,
Bülbül təki ayrılmışam gülümdən.
Özümü qurtardım mən də ölümdən
Bilməm niyə mən biçara olmuşam.

Xəsrov Pərvizəm Şirinə həsrət,
İnsana lazımdır namusla qeyrət.
Niyə mənlə bəd başladı bu mələt?
Orəgimdən para-para olmuşam.

Söz təmam oldu. Qeysər şah dedi:

– Sən qəm eyləə, mən sənin ixtiyarında qüşün quyaram, gedib həkkümətini ələ alarsan. Get istərahətlə məşğül ol.

Qeysər şahın Məryəm adında bir qızı varıdı. Eşitdi ki, İranın şahı dərbara gəlib, gecəbir yarısı gəldi Xəsrov Pərviz olan otağa. Xəsrov Pərvizi gürən kimi bir künüldən min künülə ona aşiq oldu, dedi:

– Gərək məni alasan, əgər almasan atamı quymaram sənə küməkeyliyə.

Xəsrov Pərviz məcbür olub Məryəmi aldı. Bir neçə gün toydan, şənlikdən sonra Qeysər şah quşunun da gütürüb gəlib İrana, həkküməti Bəhram Çübinin əlindən alıb Xəsrov Pərvizə verdi. Xəsrov Pərviz Məryəmə Şirin adlı sevgisi olduğunu bildirəmmirdi, çün deyirdi Məryəm bu işi bilsə atasına deyə, mənim turpağımı daşıyıb dəryalara tükərlər, tac-təxtimi alarlar.

Şirin Qəsri-Şirində Xəsrov Pərvizi çox güzlədi, bir xəbər olmadı. Bir yandan Xəsrov Pərvizin Məryəmi almağın eşidəndə Xəsrov Pərviz Şirinin gözündən düşüb, acığından xəstəəndi. Şa-

pur lələ Fərhad adında bir həkim tapıb, gətirdi Şirinin yanına. Deməəm ki, Fərhad həm həkim, həm də yaxşı memar idi. Fərhad Şirini gürəkimi bir könüldən min könülə ona aşiq oldu, Şirin də Fərhada aşiq oldu. Gürək nə dedi:

Həkim qardaş, çarəzdi bu dərdim,
Edəmməz dərmanın şəfayı-həkim.
Dünyaya gələndən bəxtim qaraldı,
Görmədünyada vəfa, ay həkim.

Qüssə ilə yükləndim, dərdilə doldum,
Hər cürə bəlaya mən də tüş oldum.
Xəzan yarpağı tək saraldım, soldum,
Sürmədim dünyada səfayı, həkim.

Məcnün kimi mən də oldum avara,
Mənsur kimi qəmdən çəkildim dara.
Şirinin dərdinə eylə bir çara,
Çəkməyim dünyada cəfa, ay həkim.

Süz təmam oldu. Fərhad Şapura dedi:

– Mən daşdan bir nov düzəəəm, gərək novun bir başından süd sağılıb tökülə, o süd günə novun aşağı başına yetişəndə Şirin o süddən içə, halı düzəə, yuxsa ayrı çarəı yoxdur.

Bəli, belə də elədilər, Şirinin xəstədüzəldi. Ataların bir süzü var, deyərlər çüğül ölm, ölməz. Bir nəfər çüğül özün yetirib Xəsrov Pərvizin yanına, dedi:

– Şirinlə Fərhad bir-birin seviblər. Şirin səni də yadından çıxardıb.

Xəsrov Pərviz qəzəbədəstür verdi, Fərhadı tütüb yanına gətirdilər. Xəsrov Pərviz hər nə dedi, Fərhad cavabın verdi. Axırda Xəsrov Pərviz dedi:

– Gəl sənə nə qədər desən, qızıl verim Şirindən əl çək.

Fərhad cavabında aldı gürək nə dedi:

Qulaq as söyləyim, Xəsrov Pərviz,
Eşqi qızıl ilə alammaz heç kəs.
Mən aşiq olmuşam bu qələm qaşa,
Eşqi qızıl ilə alammaz heç kəs.

Sən elə bilmə ki, divanəyəm mən,
O şəm olsa, ona pərvanəyəm mən.
Doğru ilqarımda mərdanəyəm mən,
Eşqi qızıl ilə alammaz heç kəs.

Fərhadın könlünü eyləmə viran,
Heç vaxt belə qalmaz, puzular döyran.
Əlindən çıxacaq bir gün bu meydan,
Eşqi qızıl ilə alammaz heç kəs.

Süz təmam oldu. Xəsrov Pərviz gördü Fərhad ilə bacarmayacaq, öldürə də bilməzdi, çün əman vermişdi. Vəziri çağırdı yanına, dedi:

– Vəzir, indi mən neyləyim?

Vəzir dedi:

– Qurban, Fərhada degilən o Bistün dağının yolu ki oradan bir atlı gücnən keçir, elə qazıb yekəltsin ki, ordan karvan gəlib keçsin. O, bu işi görəmmiyəcək, qızdan əl çəkib qüyüb gedəcək, istəə də qaza min il ömrü də olsa, bu işi yerinə yetirəmməcək.

Xəsrov Pərviz Fərhada dedi:

– Əgər Bistün dağının yolun qazıb yekəlsən, oradan karvan keçsə, Şirini sənə verəcəm.

Fərhad sevincək qəbül eyləyib, gəlib külüngün götürüb başladı dağı qazmağa. Fərhad öz gücünün yox, bəlkə eşqin gücünə bir çox çəkməBistün dağın qazdı. Hamı bu işə heyran qaldı. Dahı az qalırdı ki Fərhad yolu qazıb qurtasın, Şirini alsın, Xəsrov Pərviz bu işdən xəbərdar olub, dedi, neyləyim, neyləməyim. Axtarıb bir qarı tapdı. Dedi:

– Qarı, Fərhad az qalır Bistünü qazıb qurtarsın. Gür neyləən Şirin əldən getmə.

Qarı dedi:

– Bu iş mənim əlimdə. Qırx nəfər qız istəyirəm, hamısı qara geysin, bir də bir cənazə düzəək, hamımız ağlaya-ağlaya cənazəni aparaq Fərhadın yanına, deyəbu Şirindir, ölübdür. O, işi belə görəndə daha əl çəkib qüyüb gedər.

Bəli, qarı belə elədi. Qırx nəfər qıznan yalançıq bir cənazəni gətirdilər Fərhadın yanına. Qarı dedi:

– A yazıq, daha dağı nəyə qazırsan? Şirin ölüb, bu da cənazədi.

Fərhad bu süzü eşidəndə dünya güzündə tir-tar oldu. Külüngünü iki əlli başına möhkəm endirdi, yarı can yerə yixili, qarı dedi:

– Oğul, sən niyə özünü öldürdün? Qız ölməyib, mən Xəsrov Pərvizin dəstürilə bu işi gürdüm.

Fərhad dedi:

– A qarı, səni and verirəm hər nəyə inanıbsan ona, mənim bu sözlərimi Şirinə yetirginən.

Aldı gürək nə dedi:

Qarı, məndən süylə vəfalı yara,
Mənimçün yollara baxıb ağlasın.
Xəsrov hiyləylə məni öldürdü,
Əlinə al qanım yaxıb ağlasın.

Fani dünya mənim üçün oldu dar,
Yar yolunda canı eylədim nisar.
Məni heç vaxt yaddan çıxartmasın yar
Güzlərinin yaşın sıxıb ağlasın.

Qarı düşmən məni qüyübdür nakam
Yolunda içirəm bir əbədi cam.
Məndən sonra heç kimsə düşməxam
Fərhad qəlbini yıxıb ağlasın.

Süz təmam oldu. Qarı bu sözləri yazdırıb Şirinə aparmaqda olsun. Fərhad da canını yaradana bağışladı.

İndi eşidək Şirüyədən. Şirüyə Xəsrov Pərvizin oğlu idi, Şirinin tərifin çox eşitmişdir. Bir fərsət axtarırdı atası Xəsrov Pərvizi öldürüb, Şirini alsın. Xəsrov Pərviz yavaş-yavaş ki, hazırlanırdı rahat xiyalınan Şirin gürüşünə getsin, Şirüyə yetirib onu öldürdü.

İndi eşidək qarıdan. Qarı naməni gətirib verdi Şirinə. Şirin Fərhadın ölüm xəbərin eşidəndə gəlib Fərhadın cənazəsi üsdə aldı gürək nə dedi:

Özün xilas etdin qəmdən,
Ayıl, nakam ölən oğlan.
Niyə sən ayrıldın çəməndən?
Ayıl, nakam ölən oğlan.

Anan yox sinə dağlaya,
Bacın yox coşub çağlaya.
Kim sənə matəm saxlaya?
Ayıl, nakam ölən oğlan.

Şirin sənsiz qalmaz dahı,
Hər gün çəkər min bir ahı.
Qisas alsın şahlar şahı,
Ayıl, nakam ölən oğlan.

Süz təmam oldu. Fərhadı gətirib qəbrə quydular. Qızlar Şirinlə birgə qəsrə qayıtdılar. Gecə yarısı Şirin özün Fərhadın qəbri üstə yetirib aldı gürək nə dedi:

Yar yolunda mən canımdan keçərəm,
Bağışla sən məni, qadir ilahi.
Əcəlin şərbətin alıb içərəm,
Bağışla sən məni, qadir ilahi.

Meylimi bir kəsə sala bilməəm
...................................................
Fərhad ki ölübdür, qala bilməəm
Bağışla sən məni, qadir ilahi.

Şirini bağışla, qadiri-sübhan,
Niyə belə gəldi bu fanı döyran.
Verirəm canımı Fərhada qurban,
Bağışla sən məni, qadir ilahi.

Süz təmam oldu. Şirin də özün öldürüb canını yaradana bağışladı.

## YADİGAR VƏ GÜLABATIN

Gələk mətləb üstünə, ustad belə söyləyir ki, keçmiş zaman Həndustanda Bəhramşah adda bir şah varıdı, ömrünün son çağlarıdı, allah ona ölad verməmişdi. Bir gün iki vəzirin yanına çağırıb dedi:

– Əhməd vəzir, sən dərbarın baş vəzirisən, mən öləndən sonra mənim taxtımda sən oturarsan, Səməd vəziri də özünə baş vəzir edəən.

Əmm̃a yaradanın işindən baş tapmaq olmaz. Bəhram şahın xanımı hamilə oldu. Bəhram şah çox sevinib yenə Əhməd vəziri, Səməd vəziri yanına çağırdı, dedi:

– Mən dünyadan köçürəm, əgər mənim oğlum olsa, oğluz kimi, qızım olsa qızız tək onu böyüdəz.

Əhməd vəzir əlin qüyüb gözün üstə, dedi:

– Mənim bu gözlərim üstə.

Bəli, çox çəkməyib, Bəhram şah dünyadan köçdü, Bəhram şahın vəsĩyyətinə görə Əhməd vəzir şah oldu. Əhməd şah baxdı gördü əgər Bəhram şahın xanımı doğsa, uşaq böyüyəndən sonra atasının yerində oturacaq, təmam taxti-tac bunun əlindən çıxacaq. Odur ki, cəlladların çağırıb dəstür verdi Bəhram şahın xanımın aparıb cəngəlliyn bir əl çatmaz yerində öldürsünlər. Səməd vəzir qabağa yeriyib dedi:

– Əhməd şah, bu iş ənsafdan deyil.

Əhməd şah dedi:

– Gərəg dedigim yerinə yetirilə.

Səməd vəzir çarasız qalıb cəlladlarla birgə Bəhram şahın xanımı Gülnəgar xanımı gətirdilər cəngələ öldürsünlər. Əmma Səməd vəzir nə qədər cəlladlara iltmas elər, cəlladlar qəbül eləmir. Şahın dəstürü gərək yerinə yetirilə. Burada Gülnəgar ağlaya-ağlaya alır görək nə deyir:

Üz tuturam dərgahına, ilahi,
Özün saxla mənim cəgərparamı.
Zalim cəllad susayıbdı qanıma,
Hər yandan kəsibdi mənim çaramı.

Özün sən şahid ol qadiri-sübhan,
Quymagınan yerdə qala nahaq qan.
Yalqız bu meşəə mən verirəm can,
Yaradanım, sən ver mənə aramı.

Gülnəgarın əli əldən üzüldü,
Göz yaşları bir sel təki süzüldü.
Qara baxtım neyə belə yazıldı?
Kim geyər əyninə mənim qaramı.

Söz təmam oldu. Cəlladlar Səməd vəzirin sözünə baxmayıb, Güləgar xanımı öldürdülər. Başın kəsib Əhməd şaha apardılar. Səməd vəzir bir az ölüdən aralanmışdır ki, dedi qüy qayıdım onu turpağa tapışırım. Qayıtdı gördü Güləgar xanımın uşağı olub, uşaq düşüb yerə ağlayır. Vəzir ölünü quylayıb, uşağı götürüb gətirdi, qüydü karvan yolunun qırağına. Sonra belə bir kağız yazdı. "Bu uşağın adı Yadigardı, bir də bir ləl quymuşam bələginə, hər kəs bünü tapsa, ləli satıb onun pülü ilə bu uşağı böyütsün". Sonra Səməd vəzir cibindən qiymətli bir ləl çıxardıb Yadigarın bələginə qüydü, kağızıda uşağın yaxasına sancdı. Qüyüb getdi.

İndi sizə kimdən xəbər verim, Saleh södagərdən. Saleh södagər tacir idi, evi Yəmənə olardı. İldə bir dəfə Həndustana yolu düşərdi. Allah ona da ölad verməmişdi. Saleh södagər karvanla gəlib cəngəldən keçəndə gördü yolun qırağında bir uşaq quyublar. Atdan düşüb uşağı götürdü, gördü bir kağız var. Kağızı açıb oxudu, başladı Allaha şükr eləməgə ki, Allah ona bir uşaq yetiribdi. Uşağı da götürüb gəldi Yəmənə. Uşaq böyüdü, Saleh södagər onu məktəbə qüydü. Yadigar məktəbi qurtarandan sonra pəhlivanlıq məşqi gördü. İgit bir cavan oldu. Bir gün Yadigar yoldaşlarını da götürüb yol elədilər Həndustana, həm bu ki Həndustanda yaxşı şikarlar eliyəər, həm də orada bir bulaq var adına şəfa bulağı deyərlər, onun suyundan sudəgərə gətirəər, çün sudagər xəstə düşmüşdü, həkimlər şəfa bulağının süyün dərman demişdilər. Bəli, Yadigarınan yoldaşları yol eyləyib gəldilər Həndustanda şəfa bulağının qırağında çadır vurdular.

İndi sizə kimdən xəbər verim, Səməd vəzirin qızı Gülabatın xanımdan. Gülabatın xanım kənizlərilə bahəm şəfa bu-

lağına sarı gəzməgə çıxmışdı. Gülabatın xanım şəfa bulağından su içəndə Yadigara gözü sataşdı. Bunlar bir-birin görən kimi aşiq oldular, aldı görək Yadigar Gülabatın xanıma nə dedi:

Başına dulanım şahzadə xanım,
Bir gecə mehmanın olum, olarmı?
Sənə qurban olsun bu şirin canım,
Qolumu boynuna salım, olarmı?

Cavabında aldı Gülabatın xanım:

Gəl sənə söyləyim mehriban cavan,
Tüşü yoxdur mənə qonaq olasan.
Ala gözlərinə olmuşam heyran,
Tüşü yoxdur mənə qonaq olasan.

Aldı Yadigar:

Bülbülü bağçanda gülün olaydım,
Başında bir qara telin olaydım.
Sən xanım olanda qulun olaydım,
İndi sizə qonaq gəlim olarmı?

Cavabında aldı Gülabatın xanım:

Bülbüllü bağçada gül əskik olmaz,
Gözəbaşından tel əskik olmaz.
Xanım olanlara qul əskik olmaz,
Tüşü yoxdur mənə qonaq olasan.

Aldı Yadigar:

Yadigar sevibdi sən qələm qaşı,
Hicrində tökülər gözündən yaşı.
Yolunda quymuşam can ilə başı,
Səndən ayrı mənim halım olarmı?

Cavabında aldı Gülabatın xanım:

Gözəl görənlərin xiyalı çaşı,
Gözündən axıtma sən qanlı yaşı.
Gülabatın deyir olmaram naşı,
Tüşü yoxdur mənə qonaq olasan.

Söz təmam oldu. Yadigar Gülabatının kim olduğunu sürüşdü, sonra dedi:

– Xanım, mənim atam xəstədir, ona şəfa bulağının süyün aparmalı, gedib Yəmənə qayıdıb səni alaram. Sonra Yadigar üzüyün çıxardıb, Gülabatının barmağına taxdı. Yadigar yoldaşların yığib çadırlarına yol eyləyib, istəər Yəmənə sarı yola düşsünlər. Aldı görək, Gülabatın xanım Yadigara nə dedi:

İgit cavan, göz yaşımı,
Silincə gözlərəm səni.
Çəkdigim ahlar bağrımı
Dəlincə gözlərəm səni.

Məni salma oda belə,
Rəhmə gəlib insaf elə.
Navaxt gəlsən bizim elə,
Gəlincə gözlərəm səni.

Gülabatın sənə qurban,
Sənlə bağlamışam peyman.
Sənə kömək Şahi-mərdan,
Ölüncə gözlərəm səni.

Söz təmam oldu. Yadigarla yoldaşları yola düşüb gəldilər Yəmənə. Saleh Södagər şəfa bulağının suyundan içib sağaldı.

İndi sizə kimdən xəbər verim, Əhməd şahdan. Əhməd şah Səməd vəziri yanına çağırıb dedi ki, qızın Gülabatını oğluma alıram, hazırlaş bir aya kimi tuyların edə. Gülabatın xanım bu sözü eşidən kimi ağlaya-ağlaya aldı görək nə dedi:

Başına dulanım, ellər,
Yaman solur gülüm mənim.
Xəzan aldı güllü bağı,
Ölübdür bülbülüm mənim.

Olmuşam mən dərdli, qəmli,
Yar-yarını görər dəmli.
Ürəgim olub vərəmli,
Bilsin bunu elim mənim.

Gedirəm dağilə daşa,
Çarə qılmaz nə bir paşa.
Mən Gülabatını buşa,
Çıxacaqdı əlim mənim.

Söz təmam oldu, Gülabatın götürüb Yadigara belə bir məktub yazdı:

Əhvalım pozğündür, halım pərişan,
Gül yerində tikan bitir, Yadigar.
Əhməd şah oğluna istəyir məni,
Çox yubanma zaman ötür, Yadigar.

Gözləyirəm səni dağlar aşınca,
Əqlim cayıb, hüşüm başdan çaşınca.
Təkcə şaha gücün düşməz basınca,
Neçə min də qüşün götür, Yadigar.

Mən Gülabatınam, zülfüm hörməzsən,
Bilirəm ki, məni yada verməzsən.
Əgər gec gələn dahı görməzsən,
Bir ayacan özün yetir, Yadigar.

Söz təmam oldu. Gülabatın məktubu qasidə verib, çoxlu da pul verib Yəmənə sarı yola saldı. Qasid məktubu gətirib verdi Yadigara. Yadigar məktubu oxuyub narahat oldu. Atası dedi:

– Oğul, sənə nə olub, niyə belə pərişansan?

Cavabında aldı görək Yadigar nə dedi:

Başına dulanım, gül üzlü ata,
Od almışam, yana-yana gedirəm.
İntizarim vardı qürbət ellərdə,
Qəsd eyləyib şirin cana gedirəm.

Södagər dedi:

– Oğul, əntəzarın kimdir? Kimin qızın desən alacağam.

Aldı Yadigar:

Səhərin sübhünün dan ulduzudur,
Kölgəə bəsləş əmlik quzüdür.

Gülabatın Əhməd şahın qızıdır,
Sığınmışam yaradana, gedirəm.

Södagər dedi:

– Oğul, Gülabatın yaşayan mahal haradır?

Yadigar dedi:

Şirindir ləhcə, şirindir dili,
Yadigarın bağçasının bülbülü.
Behişt hürisidir, həndüdür eli,
Baş alıban Həndustana gedirəm.

Söz təmam oldu, Södagər Gülabatının məktübün alıb oxuyub gördü cəriyan ayrı cürdür, dedi:

– Oğul, şahınan tərəf düşmək olmaz. Sən tək də getsən tütüb öldürər, gərək özümüznən neçə min nəfər qoşun aparaq.

Yadigar dedi:

– Ay atacan, bu qədər qoşunu biz haradan yığaq?

Dedi:

– Oğul, qurxma. Məndə qiymətli bir ləl var, sənin yaşından saxlamışam, onu satsaq puluynan qüşün yığarıq.

Bəli, Södagər belə eyləyib neçə min qoşun yığdı. Bunlar Həndustana sarı yola düşdülər. Gəlib sərhədə çatdılar. Yadigar qasiddən Əhməd şaha bir məktüb göndərdi. Məktubda yazmışdır ki, Əhməd şah, Gülabatınan əl çək, ver bizə, ya da cəngə hazır ol. Əhməd şah məktübü alıb oxudu, qoşuna dəstür verdi ki, Yadigarın üstünə yeriş eləər. İki qoşün qabaq-qabağa gəldi. Yadigarın qoşünü Əhməd şahın qoşununa qələbə çaldı. Əhməd şahın əli hər yerdən üzülüb bir pəhlivanı varıdı, onu çağırıb dedi:

– Qasim, əgər gedib Yadigarı öldürsən, Gülabatını sənə alacağam.

Pəhlivan Qasim sevinib gəldi meydana. Yadigara dedi:

– Oğul, sən hələ uşaqsan, mənim meydanıma nəyə gəlibsən?

Belə olanda Yadigar aldı görək nə dedi:

İmdadıma yetiş, şahi-lafəta,
Kimin vardı şah mərdanı sənin tək.
Quyma məni qalam düşman əlində,
Görməmişəm kərəm kanı sənin tək.

Bir ləhzəə girib Xibri aldın,
Zülfüqarı duşman başına çaldın.
Mərkəbi öldürdün, zəlzələ saldın,
Tapmaq olmaz pəhlivanı sənin tək.

Yadigar qulundür, eylə imdadı,
Göyə ucalıbdı ahı, fəryadı.
Xar etmə meydanda yalqız, tənhadı,
Görməmişəm məhirbanı sənin tək.

Söz təmam oldu. Yadigar yapışıb Qasim pəhlivanı başına alıb elə yerə vürdü ki, canı çıxdı. Qüşün yeriş eyləyib Əhməd şahı tütdü, Yadigar Əhməd şaha elə bir qılınc vürdü ki, Əhməd şah iki bölündü. Qoşun bu yandan Səməd vəziri tütüb istəyir öldürsün, Səməd vəzir Yadigarı səsləyib dedi:

– Quyma məni öldürsünlər, sənə demə sözum var.

Yadigar dedi:

– Vəziri gətirin görək nə deyir.

Səməd vəzir Yadigara dedi:

– Atan kimdir?

Yadigar Södagəri göstərdi dedi:

– Atam Södagərdir.

Səməd vəzir Salh södagərı anda verib dedi:

– Södagər, səni and vermişəm bir allaha, Yadigar sənin oğlundur?

Södagər dedi:

– Yox, onu mən bu Həndustanda cəngəlin içində, yol qırağında tapmışam.

Səməd vəzir cəryanı açıb Yadigara dedi:

– Oğul, sən Bəhram şahın oğlusan, Əhməd şah sənin ananı öldürdü, mən sənin canını ölümdən qurtardım.

Belə olanda Yadigarla Səməd vəzir qucaqlaşıb öpüşdülər. Yadigar Səməd vəziri Həndustana şah elədi, özü də vəliəhd oldu, sonra Gülabatınla Yadigarın tüyün başladılar.

# CƏHAN VƏ CƏMŞİD

Rəvayət olur ki, geçmiş zamanlarda Gülistani-İrəmdə Məhəmməd adlı bir şah varımış. Allah-təala ona üç oğlan əta eyləmişdi. İki oğlan bir xanımdan olmuşdur, biri də o birisi xanımdan olmuşdu. Bir gün iki qardaşlar hiylə fikrinə düşdülər ki, o biri qardaşların ata gözündən salsınlar. İki qardaşların birinin adı Əhməd, birinin adı Məmməddir, o biri xanımdan olan oğlanın adı da Cəmşiddir.

İki qardaşlar, yəni Əhməd və Məmməd bir fikrə düşübdür bargahda qızların birin orgədirlər ki, gedə Məhəmməd şaha deyə ki, Cəmşid mənə süz atır, dalımca bəhtanlar deyir, mən də yoldaşlarımın yanında puzuluram. Eylə də oldu. Qız gəlib Məhəmməd şaha ağızına gələni Cəmşidin barəsində söhbət eylədi. Məhəmməd şah bu cəryanı bildi, şahzadə Cəmşidə və anası Məhrbanu xanıma şəhərdən kənar bir yerdə yer verdilər, orda qalsınlar. Ruzgar belə süvüşür.

Bunlar burda qalsın, gəlin sizə söyləyim kimdən Gülistanı-İrəmdə Cəhanxanımdan. Cəhaneylə güzəl bir qızdır ki, pərilər ona mat-mətdəl qalıblar, belə güzəl olmaz. Bu da əhd eylədi mən öz ürəyim sevətapmasam, ərə getmiyəəm.

Günlərin birində Cəmşid bağçada oturub. Fikir cümüb bünü yüxü apardı. Ruyada gördü ki, bir qız bədəni insan, başı qüş, dedi: “Cavan, mən təxti-Səlimanda Cəhanəfruzun mürği-xəndanıyam, məni tapmasan atan Məhəmməd şahı eylə bir dərdə salaram ki, əlacı tapılmaz”. Bu anda şahzadə Cəmşid yuxudan oyandı. Halı özündə deyildi. Görək burda istəyir kimdən nəcat alsın Cəmşid:

Mən qalmışam bu zəmini-girdabda,
Yətiş imdadıma, ya mövla Əli.
Nə qədər düzüm olar məgər insanda,
Yətiş əmdadıma, ya mövla Əli,

Bəhiştdə açılan Hüseyn gülüdür,
İnsanı aldadan şeytan felidür.

Nəcat virəol Xızrinan Əlidür,
Yetiş əmdadıma, ya mövla Əli.

Məcnün, Leyli kimi oldum avarə,
Qul adına çəkilərəm bazarə.
Şahzadə Cəmşidi etmə biçarə,
Yetiş əmdadıma, ya mövla Əli.

Bu səsi anası eşitdi. Durdu gəldi balasının yanına. Gördü balası eylə saralıb bir neçə saatda ki, halı hal deyil. Dedi:

– Bala, sənə nə gəlib, dərdin nədir?

Burda ana üçün Cəmşid belə dedi:

Təxti-Səlimanda pərilər içrə,
Canlar alan hüri-qılmanı gördüm.
Mürği-xəndan qüş oxuyur yanında,
Bəxtimə yazılan cananı gürdüm.

Məni Məcnün etdi, özunu Leyli,
Getməəyanına olar gileyli.
Ozü də yaşayır obalı, elli,
Bu dərdimə dərman loğmanı gürdüm.

İcazə ver ana, bu yola gedim,
Yarımın əmrinə itaət edim.
İnanmıram onsuz murada çatım,
Cəmşidə, dərdimə dərmanı gördüm.

Anası icazə verir, Cəmşid çıxır şəhrə, lazım olan vəsayeləərdən alsın. Gördü ki, deyərlər Məhəmməd şah belə bir yüxü görüb, əgər mürğü-xəndanı tapmasalar ömrü təmam olacaq. Bu söz, bu səs şahzadə Cəmşidi yaman incitdi. Gəlib evlərinə. Burda anası gəldi, gördü balasın ki icazə verib, əma yenə də narahatdır. Dedi:

– Bala, cəriyan nədir?

Açdı cəryanın söhbət eylədi. Anası dedi:

– Bala, onlar bizə zülm eylədilər. Buşla getsin.

Burda alıb anasına görək nə söylədi:

Canım ana, mənə gərək tapasan,
Gedirəm cəng edəm vəsaeyli-cəng.
Atamın dərdinə əlac etməgə,
Duşmanın qəlbinə vuram ox-xədəng.

Rüstəmi-Zal kimi qıram qoşunu,
Uçurdam güylərə künül qüşünü.
Dağıdam ləşkərin, yaram düşünü,
Onlar belə kimdir dəryada nəhəng.

Kömək alam ol Əliyi-əladan,
Qurxmaram bu yulda dərdi-bəladan.
Gərəkdir bu Cəmşid çıxa davadan,
Aslan dəvasına tab etməz pələng.

Anası özündən, gözündən öpüp dedi:
– Bala, getmə, gəl bu sevdadan əl götür.
Amma şahzadə qəbül etmir, anasına görək nə söylədi:

Canım ana, gözüm ana,
İcazə ver, gedərgiyəm.
Sənə büdür süzüm ana,
İcazə ver, gedərgiyəm.

Anası:

Canım oğul, gözüm oğul,
Gəl əl götür bu sevdadan.
Sənə qurban özüm, oğul,
Gəl əl götür bu sevdadan.

Cəmşid:

Gül üstünü alan xardı,
Day qaytmaq da ardı.
Əli mölam mənə yardı,
İcazə ver, gedərgiyəm.

Anası:

Gözüm yolda intizardı,
Həsrətin qəlbimi yardı.

Allah quymaz yolda mərdi,
Gəl əl götür bu sevdadan.

Cəmşid:

Bu Cəmşidi gəl sal yola,
Quyma gözü yaşla dula.
Gəl yaxın, verəqol-qola,
İcazə ver, gedərigiyəm.

Anası:

Anan Məhri sənə qurban,
Eyləmə künlümi viran.
İtgin düşür tülək tərlan,
Gəl əl götür bu sevdadan.

Anasından icazə alıb yola rəvan oldu. Yol gəlməkdə çölə, yolun yarısında qardaşların gürdü, dedi:

– Siz burda neylərsiz?

Aşdı qardaşları Əhməd və Məmməd atası görən yüxünü söhbət eylədi, dedilər:

– Gəlin hərəmiz bir yola gedə. Qaydanda eylə bu yerdə bahəm olaq.

Hərə bir yerə getdi, şahzadə Cəmşid də yol eylədi təxti-Səlimanə tərəf. Gördü uca dağlar yolu kəsib, yol vermək istəmir. Burda görək dağlara nə demək istəCəmşid:

Mən gedirəm qürbət elə
Dağlar, yol verin, yol verin.
Gözüm yaşı dönür selə,
Dağlar, yol verin, yol verin.

Sözlər təmam, başladı yol getməyə. Gəldi yetişdi bir dəryanın kənarına. Gördü süyün içində bir qələ saldırıblar ki, adamın əqli gedir. Kəməndi atdı, düşdü qəliyə. Başladı dulanmağa, gördü iki danə at bağlanıbdır. Bu atlar Cəmşidi görən kimi hücüm elədi. Şahzadə yümürüğün düyünləyib bunların hərəsinə bir zərbə vurdu, ikisi də öldü. Varid oldu otağlara, gördü yaman bahalı vəsaeyələər var. Burda bir dünya güzəlini də çarmıxa çəkiblər. Qızdan bir səs eşitdi. Dedi:

– Cavan, yaxın gəlmə burdan gedən o biri otağa, orda üç danə xanım var, olar üçü də cadugərdi. Onlar səndən iltimas edərlər ki, bizi azad eylə. Onların sözlərinə baxma, oları öldür, sənin başıva oyın açarlar.

Cəmşid bu qızı burda qüyüb otaqların birinə varid oldu. Gördü üç danə xanım oturub burda. Bunların biri dedi:

– Cavan, xüş gəlmisən sən, nə istəyirsən amadə edim?

Bu yandan o birisi başladı sehr oxumağa. Cəmşid bünü anladı, buların üçün də öldürüb qayıtdı həmin qabağki otağa. Gördü o gözəl əzab çəkir. Lövhi oxuyub azad eylədi. Bu qızın adı Mələkmənzərdi. Dedi:

– Cavan, gəl burdan gedək, bura devlər məkanıdır, Ağ dev indi gələr.

Şahzadə qəbül eyləmə, burda görək Mələkmənzər nə söylədi:

Başıva mən dünüm, cavan,
Bura devlər məkanıdır.
Mən söyləy, sən də inan,
Bura devlər məkanıdır.

Gəlginən salma qalmaqal,
Qara xətti gəl etmə çal.
Bura qucaldıb Rüstəm Zal,
Bura devlər məkanıdır.

Mələkmənzər sənə qurban,
Hərgiz belə qalmaz döyran.
Mən sənə vermirəm fərman,
Bura devlər məkanıdır.

Oğlan dedi:

– Xanım, gəl bu qədər qurxma, ondan büyüglərin öldürrəm.

Mələkmənzər dedi:

– Cavan, qulaq as, sənə bir neçə kəlmə sözüm var.

Alıb Mələkmənzərə söylədi:

Məni dilə tutma, cavan,
Qurxuram mən bu yerlərdən.
Hər nə desədoğrudur qan,
Qurxuram mən bu yerlərdən.

Aldı görək burda şahzadə Cəmşid necə cavab verdi:

Qurxmaginan, Mələkmənzər,
Öldürrəm devi, öldürrəm.
Xuda bizə etsə nəzər,
Öldürrəm devi, öldürrəm.

Aldı Mələkmənzər:

Düzdür yaradandır kömək,
Ağ dev nədir söylə görək.
Çox çətindir bil öldürmək,
Qurxuram mən bu yerlərdən.

Aldı Cəmşid:

Ona deməzlər şir, pələng,
Ondan ötrü vermə ürək.
Yaradandır bizə kömək,
Öldürrəm devi, öldürrəm.

Aldı Mələkmənzər:

Mələkmənzər baxır üzə,
Yara çıxsın yaman gözə.
Çap atını çıxaq düzə,
Qurxuram mən bu yerlərdən.

Aldı Cəmşid:

Şahzadəni sayma naşı,
Axırdaram gözdən yaşı.
Verəm qurda quşalışı,
Öldürrəm devi, öldürrəm.

Bu sözü təmam eylədi, birdən ildırım çaxdı. Mələkmənzər dedi:

– Ayıq ol, Ağ dev gəlir.

Birdən səs ucaldı, şahzadə otağdan eşigə çıxdı. Ağ dev Cəmşidi görən kimi dedi:

– Cavan, burda neylərsən?

Cəmşid ağ devin canı olan şişəAğ devə nişan verdi. Ağ dev daha dinmə, dayandı dedi:

– Adam oğlu, məni öldürmənə desən, amadə edəəm.

Şahzadə Cəmşid dedi:

– Məni gərək aparasan təxti-Səlimanə.

Ağ dev bünü götürüb yol eylədi təxti-Səlimanə tərəf. Gəlib təxti-Səlimanda yerə düşdülər. Cəmşid qulaq verdi, gördü bir yaralı səs onun ürəyin qan edir. Bu səs Gülcəhanın səsidir, dara çəkibər ağlayır, burda belə nəcat istəyyaradandan:

Mən qalmışam bu gərdabda,
Haray mövlam, dadə yetiş.
Məni qurtar bu zəndandan,
Həray mövlam, dadə yetiş.

Yeddi ildir avarayım,
Demə dəli-dıvanəyəm.
Öz elimə pərvaniyəm
Həray mövlam, dadə yetiş.

Gülcəhanam, qürbət eldə,
Adım qaldı dildən dildə.
Qılıncım da yoxdur beldə,
Haray mövlam, dadə yetiş.

Şahzadə bu qızı azad eylədi. Gəldi çatdı, Cəhanuzun başı üstə, gördü mürği-xəndan oxuyur, Cəhanxanım yatıb. Burda görək necə namə yazır qüyür Cəhanbaşı üstə:

Xab içində yatan gözəl,
Apardım mürği-xəndanı.
Dərdi-qəmə batan gözəl,
Apardım mürği-xəndanı.

Çox etdim ahi-fəğanı,
Mən çəkirəm qəm zəndanı.
Çağırdım dadə mövlanı,
Apardım mürği-xəndanı.

Şahzadə Cəmşidi tanı,
Bu dünya fanidir, fani.
Sənsən gözallarin xanı,
Apardım mürği-xəndanı.

Namənin altında yazdı ki, yerim Gülüsitani-İrəm, atam Məhəmməd şah, öz adım şahzadə Cəmşid. Gəlsən, məni tapsan mənə yar olasan, mən getdim, məni bura Ağ dev gətirdi.

Əzizlərim, Ağ devi öldürüb yol eylədi həmin qardaşlarıy-nan qərar quyduqları yerə gəldi. Gördü qardaşları orda məntəzir durublar. Görüşdülər, ama qardaşlar dalıdan şahzadəni o qədər vurdular ki, haldan getdi. Mürği-xəndanı da götürüb gəldilər ev-lərinə. Atası bunları pişvaz eylədi. Mürği-xəndanı gördü, həm də oğlanlarının hərəyanında cəlalı bir gözəl gördü şadlandılar.

Gəlin eşidək şahzadə Cəmşiddən. Halı gəlib özünə, gördü mürği-xəndan və qardaşlar yoxdur, burda görək fələkdən necə şikayət edir:

Zalim fələk, neyləmişdim mən sənə,
Mənilə başladın inada, fələk?
Çüxli zülüm çəkdim, yara çatmadım,
Quymadın yetişimuradə, fələk?

Leyli, Məcnün təki avarə qaldım,
Cavan ikən özumu səhraya saldım.
Qəvvas olub neçə dəryayə daldım,
Axirdə tapşərdın xudayə fələk?

Şahzadə Cəmşidi etmə günahkar,
Mənlə bəd başladı çərxi-gəc rəftar.
Bu qəmli sinədə min-min yara var,
Dərdi-qəmi verdin ziyadə fələk?

Sözlər təmam, yıxıldı yerə. Mövlası, ağası gəldi başı üstə: “Oğul, oyan”. Oğlan bu səs eşidən vaxt yuxudan oyandı. Gördü yaraları düzəlib, Allaşükr edib gəldi şəhrə, ordan birbaş gəldi evə. Anasın gördü. Anası dedi:

– Bala, qüşi gətirdin?

Burda anasına görən şahzadə nə söylədi:

Mürği-xəndan qüşü tapdım,
Şəhrə getdim qardaş aldı.
Fələk mənlə bəd başladı,
Güzlərimi qan-yaş aldı.

Ürəod alıb yanır,
Cigərimə ləkə salır.
Bu başıma nələr gəlir,
Dövr-o bərim kəllaş aldı.

Şahzadə bax ağlar qaldı,
Sinəsində dağlar qaldı.
Ürəə çağlar qaldı,
Dörəmi pis sirdaş aldı.

Bu sözlər təmam. Anası dedi:

– Bala, narahat olma.

Bu, öz evlərində istirahətə məşğül, gəlin eşidək Cəhanxanımdan. Yuxudan durdu, gördü mürği-xəndan oxumur. Baxdı gördü qəfəsdə yoxdur. Duranda ayağa gördü bir namə yasdığın dibində. Oxudu, gördü adam-zad gəlib bura, qüşü aparıb. Yazıb ki, Gülistani-İrəmdə səni gözləyiəm, adım şahzadə Cəmşid, Məhəmməd şahın oğluyam. Pərilərə dəstür verdi: “Dürün amadə olun gedək, görüm bu şahzadə necə cavandır, mənim qüşümü aparıb”. Yola düşdülər. Bir gözü yümüb açınca özlərin yetirdilər Gülistani-İrəmə, orda sərhədə düşüb oturaq eylədilər. Bir nəfər qaçdı Məhəmməd şaha xəbər eylədi ki, o qədər qüşün gəlib, sayı-hesabı yoxdur. Məhəmməd şah dedi:

– Vəzir, get gör bizdən nə istəyir?

Vəzir gəldi. Cəhan yol verdi, varid oldu çadra. Cəhan dedi:

– Mürği-xəndanı gətirən adamı istəəm.

Vəzir qayıtdı bu sözü Məhəmməd şaha dedi. O, da oğlanların çağırdı, dedi:

– Pərilər şahı qüşü gətirəni istəyir.

Əhmədlə Məmməd qurxuya düşür. Hər iki qardaşlar gəldi meydanə. Cəhanafruz gəldi onların yanına, dedi:

– O qüşü necə gətirdiz?

Bular cavab tapammadı. Cəhan buları öldürdü. Gündə neçə nəfər öldürür. Bu səs getdi çatdı şahzadə Cəmşidin qulağına ki, pəriərin şahı Cəhan gəlib meydanə, gündə neçə nəfəri öldürür ki, qüşü gətirən kimdir gərək bəlli olsun. Bu dəfə şahzadə Cəmşid atın melədi girdi meydanə. Dedi:

– Xanım, mən gətirmişəm.

Bu cəryanı söhbət elədi. Bir tərəfdə Məhəmməd şah, bir tərəfdə Cəhana gördülər ki, şahzadə Cəmşid gətirib qüşü. Cəhan dedi:

– Səndən dönməəm ölənə qədər.

Tüy başlandı. Məhəmməd şah da pəşman olub gəldi Məhrbanudan iltmas etdi ki, məni bağışlayın. Bu yandan şahzadə yanında Cəhan gəldi anasının görək nə dedi:

Canım ana, güzüm ana,
Gözəl ana, yarım gəldi.
Sənə qurban özüm ana,
Gözəl ana, yarım gəldi.

Əzəldən odur sevdiyim,
Yolunda canı verdiyim.
Sürüşüb yerin bildiyim,
Gözəl ana, yarım gəldi.

Fələk bizə aşdı oyun,
Sinəmizə çəkdi düyün.
Başla bu Cəmşidin tüyün,
Gözəl ana, yarım gəldi.

Bəli, əzizlər, qix gün, qix gecə tüy oldu, şahzadə və anası arzularına yetişdi. Şad olun, şad yaşayın.

# YUSİF VƏ ZÜLEYXA

Sizə mən bir söhbət açaceyəm geçən tarixlərdən. Peyğəmbərlərin zamanından digər geçən zamanında Həzrəti-Yaqubun on iki oğlu varıdı. Həzrəti-Yaqubun on iki oğlunun içində Həzrəti-Yusifi çox özünə əziz tutardı. Əmma ona xatir bunun böyük oğlanlari hammisi naraharat oldular necə ki, atamız bizi on iki oğlun içində bir dənə Həzrəti-Yusifi bir belə çox isdiyir. Gərək biz bir iş görək bunu aradan apardax.

Günlərdən bir gün çox dolanırlar bir fikir eliyirlər Yahuda, Rubi, Şəmu-bunnar danışdılar. Dedi, bəs biz atamızdan Həzrəti-Yusifi şikar bəhanəsiylə alax, aparax dağa. Aparax dağda bunun başına bir oyun gətirək. Onnan sora atamıza gəlib deyərik ki, Yusifi qurt dağıtdı. Aha, bular bu nəqşəni çəkib gəldilər Həzrəti-Yusifin yanına. Həzrəti-Yusifə dedilər: "Biz səni aparıyıcıx dağa". Dedi: "Atam icazə versə, mən gələrəm".

Gedirlər Həzrəti-Yaqubun yanına ki, atayi-mehriban, sən icazə verəsən biz büyünnərim Həzrəti-Yusifi özümüznən aparax dağa.

Həzrəti-Yaqub dedi:

– Yox, mən Yusifi verməröm. Bir zərrə, saniyə də eliyə bilmərəm. Gözümün önündən kinar eliyim.

Dedi:

– Bəs nə cür olar?

Dedi:

– Atayi-mehriban, bizim çox ürəyimiz istiyir ki, Həzrəti-Yusifi aparax dağa.

Çox diyəndən sora gəlirlər Həzrəti-Yusifi Həzrəti-Yaqubdan alıb, yavaş-yavaş gedirlər dağa. Çox gəzdilər bular, qəsdiləri oyuduy ki, Yusifi aradan aparsınlar. Gəlirlər yetişirlər bir yerə ki, ora kimsəsiz çölüdü. Yusifi o qədər dolandıdılar Yusif susuzladı. Dedi:

– Ay qardaşlar, mən çox susuzlamışam, mənə Allahın rizasında bir az su verin içim.

Dedi:

– Bəs o cür olsa gedək bir yaxında bir quyu var, gedək o quyunun yanına.

Aha, gətirirlər quyunun başına. Rubil dedi, gəlin bu Yusifi öldürək salax quyuya, atamız nə biləcək. Amma o yandan Yahuda dedi, ay qardaş, gəl öldürməyək bunu. Quyuya salınız, elə o cürəsində salax quyuya. Yusif baxdı gördü, yox, bullar bunu öldürmək bəhanəsiylə gətiriblər. Dedi:

– Ay qardaşlar, mən doğrudan da sizin kimi qardaş görməmişəm. Qardaş da qardaşına belə qəsd elər? Əgər indi icazə versəniz mənim bir neçə dəsgah sözüm var. Sözümü diyim, onnan sonra görək başımızın qəzası nədi.

Bəli, orda ürəkdən Allahı yad eliyir. Götürür görək "Qəmərgülü" havasında nə diyir? Mən də tərəfimdən deyim, tamam el sağlığına, vətən sağlığına:

Başınıza dolanım, gül üzlü qardaş,
Deyin görüm, mənim günahım nədi?
Bu sirri heç yerdə eyləmərəm faş,
Deyin görüm, mənim günahım nədi?

Qardaşlar dedi:

– Sənin günahın yoxdu. Biz isdiyirik ki, səni əslən aradan aparax. Çün atam sənə çox gərmi tələqqi eliyir.

Götürdü sözünün ikincisini belə deyir:

Biyabandı, hər bir yerdən daldadır,
Atam ağlır, onun gözü yoldadı.
Ay qardaş, iki cüt mələk sağı, soldadı,
Deyin görüm, mənim günahım nədi?

Gördü, yox genə qardaşları buna rəhm eləmirlər. Aldı sözün təxəllüsün belə deyir:

Siz məni atamdan amanat aldız,
Bu necə fikir idi, ay qardaş, ürəgə saldız.
Yusif qardaşıza bağrız daş oldu,
Deyin görüm, mənim günahım nədi?

Söz təmam olur, düşmənin ömrü təmama yetişsin, Rubil gətirib həmən saət Yusifi salır quyuya.

Allahdan əmr olundu Cəbrailə, get Yusifi quyuda tutginən. Ağa, Yusifi Cəbrayıl həmən saət aldı qucağına. Yusif elə bildi öz atası Yaqubdu quyunun dibində bunu saxlıyıb qucağında. Dedi:

– Ay atayi-mehriban, sən burda nə iş görürsən?
Dedi:
– Mən atan dəyiləm, Cəbrayılam. Allah tərəfindən nazil olmuşam ki, səni burda qucağımda saxlıyam ki, çox məqamlara sən yetəcəksən.
Ağa, bular burda qalmaxda olsun, sözü eşidən kimin Yusifin qardaşlarının bir dənəsi qaldı orda, quyunun başında, ikisi qaçdılar evə. Ataları Yaqub dedi ki, ay bala, hanı bəs Yusif? Necə elədiz? Bir dənə də çöldə, biyabanda quş vurdular, Yusifin köynəyinə batırdılar onun qanıynan gətirdilər.
Dedilər:
– Vallah, qurd gəldi, həzrəti-Yusifi bizim əlimizdən aldı.
Dedi:
– Olmaz, Həzrəti Yusifi qurt yiməz.
Dedi:
– Atacan, vallahi day biz yalan danışmırıx ki.
Nə qədir diyəndən sora gənə başlarına keçmədi, dedi yox. Vallah genə diyərlər ki, Həzrəti-Yusifi bir qurt gəldi bizim əlimizdən aldi. Həzrəti-Yusifin anası baxəbər oldi. Gəlib həzrəti Yaqubun yanına dedi: “Mənim balamı verin. Sən mənim balamı veribsən aparıflar”. Ağlıya-ağlıya götürüf görək burda bir neçə dəstgah oğlunu Həzrəti-Yaqubdan nə isdiyir, nə cür diyəcək? Mən də tərəfimdən diyim tamam el sağlığına, vətən varlığına:

Kəsilib qərarım, yanır ürəyim,
Aman Yaqub, mən balamı isdərəm.
Gejə-gündüz ah çəkərəm, ağlaram
Aman Yaqub, mən balamı isdərəm.

Dedi:
– Ay xanım, Allahdan əgər gizlin olmasın bəndədən ki olmaz, gəl sən özün də Allah tərəfinə üz döndərginən, inşaallah, heç zad olmaz.
Götürüb görək anası o birisi bəndinən nə deyir:

Düşəndə yadıma ala gözləri,
Şəkərdən, şərbətdən şirin sözləri,

Salıb ürəgimə odlu közləri
Aman Yaqub, mən balamı isdərəm.

Genə də didarlıx verdi. Götürüb görək sözünün təxəllüsün nə deyir:

Üzümü tutaram həqq dərgahına,
Yusifimi tapşırıram qibləgahıma.
Rəhmin gəlsin mənliyanın ahına
Aman Yaqub, mən balamı isdərəm.

Ağa, söz tamam olur, düşmanın ömrü tamama yetişsin, dedi: “Allah kərim, heş narahat olmaginan”. Həzrəti-Yaqub durur çoxlu eşigi zadı, biyabanı dolandı bi əsəri ələ gətirə bilmədi. Gənə gəlib özünü verir qəm otağına diyir: “Xudaya, görəsən mənim sənin dərgahında nəmənə günahım vardı? Mənim bu moqeyətdə mənim cavan balamı əlimdən aldın”. Gördü, yox, narahatçılığından eliyə bilmir dayansın, özünü verib bir otağa görək orda öz dərdinə razı nə deyəcək, nə danışacax? Mən də oxuyum tamam el sağlığına, vətən varlığına. Götürüb görək bu dillərinən nə diyir:

Yerə-göyə tək qərar verən Allah,
Cəlalıyam şükür elərəm, ilahi.
Xəcalətəm bəyan edə bilmərəm
Sənsən qəlblərin püşki-pənahı.

Gördü yox dərdinə həm olmadı götürdü görək ikinci belə deyir:

Yox yerdən yaratdın dağınan daşı,
Dəryada mahını, havada quşu.
Özün düzəltginən bu müşkil işi,
Sənə bel bağlıyan itirməz rahı.

Sənə hər kəs ümid bağlasa, yolun itirməz. Amma götürür görək Həzrəti-Yaqub sözünün təxəllüsün nə deyir:

Biçarə Yaqubam, qolu bağlıyam,
Bir dərdim var, gecə-gündüz ağlıyan.
Yusifim itibdi sinə dağlıyam
Sən özün kömək ol, ey şahların şahı.

Ağa, söz tamam olub, düşmənin ömrü tamama yetişsin. Genə gördülər nə qədir oxuyandan sonra dərdinə çarə olmadı.

O zaman diyirlər bir tacir vardı benami, gələrdi ticarətə gedərdi Misirə. Yolu həmin quyunun başına düşüb, gəldi quyunun başında düşdülər aşağıya. Dedi qulamına: “Ay bala, gedin o quyudan bir az su gətirin biz içək”. Gördülər bir nəfər quyunun uzaqlığında dayanıb. Gəldi yetişdi qabağa əllərində var idi, ya hər nəmənə idi onu salırlar quyunun içinə, həmin sahat Cəbrayıl nazil olur ki, Yusif, dur əyax üsdə. Dedi: “Mən qırx metr quyunun dibindəyəm, çıxa billəm üstə?”

Dedi: “Dur əyax üsdə”. Cəbrayıl kömək eliyir, o səhvidi ki, gəlmişdi quyunun içinə Həzrəti-Yusifi salır içinə. Ordakı o sərtlik içində qulam yavaş-yavaş bunu çəkir gətirir yuxarıya. Gördü, yox, zoru yetişmir. Səsləndi tacir başına ki, bir nəfər mənə kömək yollaginən. Bir nəfər kömək gəlir, yavaş-yavaş o sərtli gətirdilər yuxarıya gördü, bəli, bir dənə gözəl cavan əvəzi su yerinə çıxdı üsdə. Səsləndilər, tacir başı, müjdə verginən bizə. Su əvəzinə bir dənə oğlan gəldi yuxarıya. Tacir başı baxdı, gördü bir dənə oğlandı Allahın əzəl meyli olanda bu oğlanı yaradıb. Səsləndi: “Ay bala, de görüm səni bu cavan vaxtında kim salıb quyuya?”. Bu sözlər dedi haman saət Yahuda qaçır qardaşı Rubilə dedi:

– Rubil, bir dənə tacir gəldi quyunun başına Yusifi quyudan çıxatdı.

Tez gəlirlər tacirbaşına səslənirlər: “O qulam bizim qulamımızdı. Düşmüşdü quyuya tapmırdıx. İndi sən çıxardıbsan. Ya 100 dinar verəcəksən, yainki qulamımızı biz sənə verməriк”.

Tacir başı baxdı gördü ki, qulamı 100 dinara alsa, onu yüz min dinara satacax. Səsləndi mən sizə 100 dinar verirəm. Tacirbaşı 100 dinar verib qulamı aldı. Yusifi gətirir, deyir:

– Ay bala, axı di görüm, sənin bu cavan moğasında günahın nədi? Niyə səni bu quyuya salıblar?

Yusifin gözləri doldu, dedi:

– Tacirbaşı, əgər isdiyirsən mənim dərdimdən halı olasan, məni öz qardaşlarım bu bəlaya salıb.

Dedi:

– Adamın da qardaşı özünə düşmən olar?

Dedi, bəs indi mənim sözümə qulaq asmadın, icazə ver bir neçə dəstgah sözüm vardı. Götürüb görək burda nə diyəcək:

Gəl sənə söyləyim, ay tacirbaşı,
Tifil ikən nələr gəldi başıma?
Yalan danışdılar yazıx atama,
Necə nifrin edim öz qardaşıma?

Baxdı tacirbaşı o birisi sözün nə deyir:
Yusifəm, çağırıram qadiri-sübhanı,
Yox yerdən yaradıb külli-dünyanı.
Sən mənə kömək ol, ey kərəmin kani,
Bir nəzər salginən bi müşgil işimə.

Dedi: "Sən Allahı çağırdın, bəs o qadiri-sübhan sənə kömək elər". Ağa durublar yavaş-yavaş köçürlər hayana sarı, Misrə sarı. Tacirbaşı Yusifi gətirir Misrə. Misirdə bir meydan varıdı, qulam alveri elərdilər o zaman. Bunlar burda neçə gün qalırlar, bir günnərim əzizi-Misri Züleyxanın yolu gəlir həmin yerdə düşdü. Züleyxa baxdı gördü bir dənə cavan qulam bu meydanda vardı. Yimiyə, işmiyə xətti-xalına, mahi-camalına tamaşa eliyəsən. Elə biləsən on dörd gecəlik ay tuluğ eliyib. Bir dənə cavandı ki, dünyada misali yoxdu.

Dedi:

– Əziz, bu qulamı gərək mənim üçün alasan.

Dedi:

– Neyniyəcəksən?

Dedi:

– Yox, bu qulamı gərək mənim üçün alasan, mənim yanımda xidmət eliyə.

Ağa, Əziz tacirbaşına səsləndi:

– Tacirbaşı, bu qulamı mənim üçün verərsən?

Dedi:

– Xeyir, mən bu qulamı satmıram.

Baxdı gördü, yox, doğrudan da gözü tutub, dedi qulamı satmıram.

Dedi beş yüz dinar, min dinar, dedi yox, satmıram. Axırda külli-dinara tacir başı qulamı satır. Yusifi satdı. Yusifi gətirirlər dərbara. Dərbarda Yusifə ali libas geyindirirlər. Həzrəti-Yusifin əgər camalı bir idi, min oldu. O qədir gözəlləndi ki, əl-üzünə səfa verir. Hər gün burda xidmət eləməkdə oldu. Bir günnərim Züleyxa, elə bir məşuqə gözüynən buna baxdı. Baxdı gördü, xudaya, bir belə cavanı necə yaradıbsan sən? Dedi, Allahın əzəl meyli olanda insana o cür qüdrət, o cür camal verər.

Yusif burda qalıb, neçə gün qalandan sonra bur müddət baxdı gördü bəli, vətənindən, qardaşlarından, ata-anasından, hammısından ayrı düşüb. Olar heç, amma Züleyxa əl-əyağa yetir, çox narahat haldaydı. Gəlir öz otağında gecə oturub nə qədir fikir, xiyal həzrəti-Yusifi çurğaladı. Götürüb yavaş-yavaş dərdinə münasib bir neçə dəsgah görək nə deyəcək:

Barı ilahi, kərəm eylə,
Bir də görüm ellərimi.
Xəzan dəymiş bağlar kimi,
Saraltdılar güllərimi.

Axı, mənim bu muğuyətimdə mənim güllərimi niyə saraltdılar? Di görüm, axı mən qardaşlarıma nə iş görmüşdüm? Götürüb o birisi bəndin görək nə diyir:

İndi atam nə haldadır?
Peymanım dolhadoldadır.
Qardaşlar nə xiyaldadır?
Bağladılar qollarımı.

Yusif ağlıyır ki, xudaya, sən özün rəhm eləginən mənə. Axı, mən qardaşlarıma nə eləmişdim məni bu günə saldılar. Götürüb görək indi birisin axır bəndin nə diyir:

Yusif ağlar yana-yana,
Yandı bağırım döndü qana.
------------
Bir vətənə döndərəydi yollarım.

Yusif ağlıyır, gözlərinin yaşı baharın buludu kimi rüxsarına rəvan olur. Burda neçə gün qalır.

Eşidək sözü kimdən, Züleyxadan. Züleyxa, Yusifin eşqində divanə var olub. Xanımlar hammısi bu işdən baxəbər oldular. Dedilər ki, hə, Həzrəti-Yusifə Züleyxa aşiq olub-öz qulamına aşiq olub.

Dedi, bəs indi mənə bu cür gülürsüz, bir dənə bərnamə düzəltdi. Bir mehmanı, bir qonaxlıx düzəldib, dedi, yaxçı oldu, tammam vəzir-vəkilin hammısının xanımların gərək mən dəvət eliyəm. Bir günnərim də Yusifi də olara dəvət eliyəm. Görəm, ayə bular da özlərindən çıxmasalar, deməк doğrudan da mən elə dəli-divanə olmuşam. Ağa, divanı var gəzir, bir günnərim kənizinə səsləndi ki, bir məclis quraq. Ağa, bir məclis qururlar gəlirlər. Tamam mehmanlıx, qonaxlıx quruldu, hərə öz yerində əyləşib, həzrəti-Yusif buların içinə pişxedmət olub. Ağa, gətir-götür həzrəti-Yusifnəndi. O zaman deyirlər bir nar, bir bıçax hər xanımın əlinə dəstur verdilər. Züleyxadan dəstur olundu, hərə bir dənə bıçax, bir dənə narınc alsın əlinə. Yavaş-yavaş məşğul olsun yiməyə. Ağa, bular isdiyirdilər ki, məşğul olsun meyvələrin soymağına. Həzrəti Yusif dolanırdı buların içində tamam xanımlar hammısı baxıllar Yusifin camalına, gördülər, ey dadi-bidad, doğrudan da, əgər Züleyxaya nəmənə söz diyiblər bular iştibahdadı. Yusifi hər kəs görsə, xoş dilliyinə doğrudan aşiq olacaq. Ağa, bular əvəzi ki, meyvəni soysunlar tamam götürdülər əllərin kəsdilər. Biri isdiyirdi ki, miyvənin qabığını soyub əvəzi ki, miyvənin məğzin qoysun ağzına qabıxların yiyirdilər. Ağa, tamam əllərin, dodaxların kəsdilər. Baxıllar, gördülər özlərində ruh qalmadmışdı. İndi Züleyxa sərhal dayanıb baxırdı bu səhnəyə. Görsün ki, mənə gülən xanımlar indi özlərin nə cür bazəndə elədilər? Yusifə dəstur verdi, dedi: "Bəli, sən otaxdan xaric olginan". Ağa, Yusif otaxdan çıxıb, indi üz tutdu xanımlara: "Bəs, niyə mənə gülürdüz? Bəs niyə özüğüz əlacı mivə dodağız kəsirəz, əlləriz kəsirəz. Bıçağı gözüvüzə sancıraz. Nə oldu?"

Dedilər, ay xanım, hax səndəndi. Nə desən haxxın vardı. İndi bi oların Züleyxa götürüb burda tellərindən dəstəyi-tara ayırıb görək öz dərdi-dilini bulara nə diyəcək, mən də diyim:

Tək Allah Yusifə nəzər salıpdır,
Gözəlliyi tutub cahanı yeksər.

Daldadan danışıb mənə gülürdüz,
Gördüz bu sırrıdan olduq baxəbər.

Xanımlar hammısı başların aşağı saldılar. Bəs mənə niyə gülürdüz? İndi bi baxın Yusifin camalına özüğüzü saxlıyın görək. Gördülər, yox, xanım, doğrudan da həqq səndədi. Alıb görək o birisi nə deyir:

Ürəkdən düşmüşəm Yusif eşqinə,
Camalın oxşatdım ayınan günə.
Baxışı, ay xanımlar, kafəri gətirir dinə
Bu işə şahiddir həm yerlər, göylər.

Gördülər, yox, doğrudan da Züleyxanın sözləri həxdir. Alıb görək sözün təxəllüsün nə deyir:

Züleyxayam, edim dünyaya elan,
Eşqi-həqiqətdi dünyada qalan.
İnandı sözümə, demirəm yalan,
Hazıram yolunda böhtan desələr.

Ağa, sözün tamam eliyib genə də tamamı xanımlar hammısı çıxdılar eşigə. Əvvəli ki, qapıdan çıxsınlar tamam başların sarıdılar, əvvəlidi ki, başmax giyinsinlər, əyaxlarına tamam əllərinə giydilər. Züleyxa baxdı gördü xanımlar öz huşlarından gediblər. Dedi, hə, bundan bu yana mənə gülmüyün. Ağa, bular hammısı-hərə öz yerində qərar tutdular. Dedi, elə doğrudan da Züleyxa vaqəən aşiq olupdur. Yusfin camalın hər kəs görsə aşiq olar. Hərə öz yerində qərar tutub, genə bir neçə gündən sora Züleyxa divana var gəzirdi, kənizin çağırdı:

– Ey kəniz, gəl mənim dərdimə bir əlac eləginən.

Dedi:

– Xanım, nə iş görüm, neyniyim mən?

Dedi:

– Mənə bir çarə qılginən ki, Yusifnən bir otaxda olum.

Dedi:

-Ay xanım, sən bir iş görə bilərsən.

Dedi:

– Mən nə iş görüm?

Dedi:

– Bu otağı aynabəndi eləginən, qapıların bağlatdırginən. Yusif gəlsin hər tərəfə baxsın öz əksini, səni görsün camalı sənin camalıya düş olsun. Onda sənə aşiq olar. Day məcbur qalar heç yana gedə bilməz.

Ağa, həmin işi gördülər, Yusifi çağırdılar həmin otağa qapıları bağladılar. Yusif hər yana baxdı, gördi aynəbəndlik olub. Nə qapı var, nə baca var. Heç zad yoxdu. Ağa, bir bu yana, bir o yana baxdı gördi otağın bir guşəsində Züleyxa bir çadır, bir dəstmal çəkir üsdünə.

Dedi:

– Ay xanım, o nəmənədi?

Dedi:

– Vallah, o bu tür züvardır.

Dedi:

– Onda nə iş görürsən?

Dedi:

– Bunun üzün çəkib məbadə bizi görə, mən xicalət olaram.

Yusif bir güldi. Dedi:

– Hə, sən bir dənə ağac tikəsinə sitayiş eliyirsən. Onun üzün çəkirsən ki, ondan utanırsan, vəli başısan Allahımdan utanmıyım.

Dedi:

– Hanı Allah? Burda yoxdu ki, burda aləm aynəbəndlikdi. Hər tərəfə baxıram məni görürəm, özünü görürəm.

Dedi:

– Yox, mənim Allahım hər yerdə olsa, mənim başımın üstündədi.

Dedi:

– Yusif, sənin eşqin mənim elə kor eliyipdi ki, mən Allahızadı bilmirəm. Yusif bu yana baxdı, o yana baxdı istədi ki, qapılardan, bir yerdən bir yol tapsın çıxsın, gördü yox, yol yoxdu. Götürüb görək indi Züleyxanı bir doğru yola dəvət eliyir, mən də diyim tərəfimdən tamam el sağlığına. Görək nə diyəcək burda buna. Bir "Qəcəri şikəstəsi"ynən götürüb görək nə diyəcək, mən də diyim tamam ellər şad olsun:

Gəl əl götür məndən aman, Züleyxa,
Baş üsdə Allaha baxginən, utan.
İki mələk xeyri – şərri yazan var,
Şər meyli olana baxginən utan.

Dedi:

– Mən məlayikə-zad görmürəm. Bir səndən, bir məndən geriyə burda bir kəs yoxdu ki.

Dedi:

– Hə, bəs sən heç zada qail dəyilsən.

Götürüb görək sözünün o birisi bəndin Züleyxa nə diyir, mən diyim. Züleyxa qulaq asır, Yusif iki bəndin belə deyir:

Tifil ikən mən quyuya atıldım,
Qul adına, Züleyxa, mən bu Misirdə satıldım.
Nahəqq yerdən bir bəlaya qatıldım,
Qəzəbi-xüdadan qorxginən,
Utan, gəl Allahı nəzərdə alginən.

"Allah var, bizi görür", – dedi, – "Yox, Yusif, burda heş kəs yoxdu". Amma götürüb görək sözünün təxəllüsünü nə diyir, onu da bir "Zil Yanıx Kərəmi"ndə görək nə dedi:

Züleyxa, əl götür Allaha yalvar,
Bu şeytan işindən olginən kənar.
Yusifi-Kənanını etmə günahkar
Bu nahaqq yollardan çıxginan, utan.

Ama sözü tamam olub, nə qədri, istədi ki, qapının bir yanından çıxsın eşigə, gördü yol tapa bilmir. Dedi:

– Xanım, gəl mənə əziyyət eləməginən.

Dedi:

– Yox, sənin camalın doğrudan məni muştağ eliyipdi. İstədi qapıdan çıxsın, gördü yox, yol yoxdu. Bir pəncərədən özü şişələri vurub bir yol tapdı. İstədi ki, qaşsın, amma Züleyxa daldan əl uzadıb onun köynəyini cırdı. Daldan köynəyini cıranda Yusif qaşdı, vəli heş zad eliyə bilmədi. Baxdı gördü ki, Yusif qaşdı, dad eylədi: "Əzizimiz, sənin təxtin viran olsun. O qulamı ki, mənə almışdın isdiyirdi mənə təcavüz eləsin". Gəldi, baxdı gördü xanımı dadı-bidad eliyir. İstədi Yusifi öldürsün, dedi:

– Ey cavan, mən səni qulam adına gətirmişəm bura. Bəs sən indi mənim hərəmimə təcavüz eliyirsən.

Yusif baxdı, ürəyi doldu dedi:

– Ey əzizimiz, mən sənin hərəmiynən heç iş görməmişəm. O, isdiyirdi məni burda bədnam eləsin.

İstədi ki, Yusifi aradan aparsın. Dedi:

– Gəl məni öldürməginən mənim bir neçə kəlmə ürəyimdə sözüm var, oları diyim onnan sora görək başımızın çarəsi nədi?

Bəli əziz eşidənlər, söhbətimiz həmən sərmənzili-mabədə o yerdə qalıb ki, həzrəti-Yusif ki Züleyxanın otağından gəlmişdi, istədi Əzizi Həzrəti-Yusifi öldürsün, Yusif yalvardı, dedi, məni öldürməginən. Mənim ürəgimdə bir neçə dəstgah sözüm var. Oları deyim onnan sora əgər mənim günahım olsa məni öldürün. Götürüb görək bu dillərinən "Kaşkoğlu" üsdündə nə diyəcək, mən də diyim el sağlığına:

Eşit sözlərimi, ey əzizimiz,
Mən yazıx cavanı bədnam eyləmə.
Əgər təxsirkaram, öldürün məni
Bica yerə lafı kənzab söyləmə.

Bu gün bir bəlaya mən olmuşam tuş,
Ey Əziz, Allah verib bizə əqli-kamal, huş.
Bu sirri balaca uşaxdan soruş,
Yalan yerə bağrım başın teyləmə.

Həzrəti-Yusif baxdı gördü bir balaca uşax bir sinnində ayət doqquz aylıxdı. Əziz cəhənnəm kimi zəbana çəkdi: "Oğlan, rəhmətliyin oğlu, məgər bir yaşında, ya doqquz aylıx uşax da danışarmı?"

Dedi:

– Əziz, əgər Allah nəzər salsa, o uşax hətta bir günlük də olsa Allahın nəzəriynən danışar.

Dedi:

– Bəs indi o Züleyxanı çağırın gəlsin bura.

Züleyxanı çağırıblar götürüb görək:

Çağırın huzura siz Züleyxanı,
Götürüb aradan namus, həyanı.
Günahkar eliyib Yusif-Kənanı
Yara üsdünə yara vurub könlümə.

Əziz səsləndi:

– Züleyxa, bu nəmənədi?

Dedi:

– Yalandı.

Dedi:

– Necə yalan deyir?

Dedi:

– Bəs indi əgər mən yalan diyirəm o bir yaşında uşaxdı onu çağırın gəlsin. Gətirin bələyi qabağa.

Ağa, gətirirlər xırdaca uşaxı. Əziz səsələndi:

– Di görüm, bu uşax nə cür danışacax?

Allahın əmrində hököm olundu uşağa, uşax danışır. Dedi:

– Ey Əzizimiz, əgər Yusifin köynəyi qabaxdan cırılmış olsa, gəl ki, Yusif həmlə eliyipdi Züleyxaya. Yoxsan ki köynəgi daldan cırıx olsa, elə bilginən Züleyxa həmlə eliyib buna. Bu günahkar döyül.

Baxdılar gördülər həmin söz, uşax diyən düzdü. Əlini Züleyxa daldan atıbdı Yusifin köynəgin tutsun, ya Yusifi saxlasın köynəgi cırılıb. Züleyxa başını saldı aşağıya, Əzizi dedi:

– Ey xatakarın birisi, bəs sən diyirdin o mənə həmlə elədi?

Amma Yusifi otaxdan rədd eliyiblər, Züleyxa dedi:

– Əgər sən idiyəsən məni zindana verəsən, ya Yusifi zindana verməsən onda diyəllər Züleyxa günahkardır. Gəl sən iş görginən, Yusifi zindanan verginən, qoy desinlər Yusif günahkardır.

Ağa, Züleyxanın sözünə baxıb həzrəti-Yusifi verir zindana. Həzrəti-Yusif zindanda qalır. Amma günnərin bir günü Əzizin bir xançaları vardı. Xançaları şərabdarı çağırıb deyir ki, ağ oğlan, gəl bir iş görək. Dedi: "Neyniyək?" Dedi: "Gəlginən, şahın şərabına zəhri vurax onu aradan aparax. Mən özüm onun yerində olum". Amma şah bu badnamədən baxəbər olub, şərabdarnan xançaların ikisini də verdi zindana. Həmin zindana ki,

Həzrəti-Yusif vardı. Ağa, gəlirlər zindanda qalırlar, bir neçə gün qalandan sonra xançalar bir yuxu gördü. Dedi:

– Yusif, mən bir yuxu görmüşəm.

Dedi:

– Nəmənədi?

Dedi:

– Mən yuxuda gördüm, vallah, məni dar ağacına çəkiblər.

Əmma şərabdar da bir yuxu gördü, o da gəldi Yusifə danışdı. Dedi:

– Yusif, mən də bir yuxu görmüşəm.

Dedi:

– Sən nəmənə yuxusu görmüsən?

Dedi:

– Vallah, dübarə gördüm, şahın otağında dolanıram. Saatı gəldi gedirəm.

Dedi:

–Hə, sənin yuxun budu: sən neçə gündən sora azad olarsan, gedərsən həmin öz işinə. Bəli, xançaları üş gündən sora dara çəkəcəkdilər.

Xançalar dadi-fəryad elədi, dedi:

– Yox mən bu yuxunu görməmişəm.

Dedi:

– Yox, sən özün yuxu görübsən, özün də diyirsən.

Bəli, üş gündən sora xançaları çəkdilər dara. O, dünyadan getdi, amma şərabdar da azad olub, isdiyirdi ki, getsin şahın yanına. Yusif səsləndi ki, əgər getsən mənim salamımı yetirərsən. Deyərsən, Yusif deyir, bigünah zindanə düşmüşəm.

Ağa, bu gəlib yavaş-yavaş öz işiynən məşğul oldu həmin şarafdarlığına. Allahın əmrindən o söz idi ki, Yusif danışmışdı, demişdi ki, mənim ərzi-halımı yetirginən onun yadından çıxıb.

Bir neçə müddət qalandan sora Allahın əmri olunur Cəbrailə ki, getginən Yusifi zindanda görginən. Diginən beş il qalıbsan, iki il də genə qalacaxsan. Amma Cəbrail gəlib nidanı verdi ki, ey Yusif, sən Allahı yadına salmadın. Allahdan kömək istəmədin. İstədin şah sənin günahından keçsin. Allahın əmriynən

beş il qalıbsan, yeddi ildə qalacaxsan. Amma yeddi il yavaş-yavaş başa varırdı. Həzrəti-Yusif genə bir günnərim zindanın bir guşəsində baxdı gördü, ey pərvərdigar, aləm hər kəs səndən ləhzəcə qəflət eləsə, sənin qəzəbin olur. Allahın qəzəbi adamı tutdu.

Doğrudan da heç iş görmək olmaz. İndi götürüf görək öz dərdini münasib burda bir neçə dəstgah "Qaraçı" havasında nə diyəcək? Mən də diyim tamam el sağlığına:

Səndən kənar gəzən payidar olmaz,
Can verib, can alan sənsən, İlahi.
Yox yerdən yaratdın külli-cahanı
Göydə qərar verdin xurşidi-mahı.

Yeri-göyü, hamısını sən yaradıbsan, dəryanı, daşı, quşları, dəryada mahıları sən yaradıbsan. Axı, mənim dərdimə də bir yetişginən. Alıb sözünün ikinci bəndini belə deyir:

Adəmə qalıbdı göndərdin dara,
Nuhun kəşdisinə sən verdin nəcat.
Minayə qurbanı göndərdin sovğat,
Qurtardın narınla Xəlilullahı.

Sən necə İbrahimi oddan qurtardın, mənə də nicat verginən. Amma götürüb görək sözünün təxəllüsün nə deyir:

Əzəldən aşiqəm o min bir ada,
Ürəkdən çağırıram yetişər dada.
Biçarə Yusifi salginən yada
Bir lütfi görginən, qadir İlahi.

Ağa, söz tamam olub, Yusif öz xudasıynan nazı-niyaz eylədi. Amma əziz Mesridən eşidək sözü. Əzizi Mesri yatmışdı, bir gecə yuxuda gördü ki, yeddi dənə lağər öküz gəldi, yeddi dənə çağ öküzü yidi. Ayə, yuxudan hərəsan durub əyağ üsdə tamami qulamların çağırdı. Dedi:

– Gedin bu münəccimləri gətirin, mənim dərdimə çarə eləsin.

Dedilər:

– Qurban nəmənədi?

Dedi:

– Mən bir yuxu görmüşəm.

Nə qədir yuxu yozanlar vardı, münəccimlər varıdı gəldilər, onun yuxsunu yozammadılar. Zinadanda ki, qabax buna söz tapşırmışdı, gəldi səsləndi:

– Şah sağ olsun, mən bir nəfəri tanıyıram sənin yuxunu o diyər.

Dedi:

– O kimdi?

Dedi:

– Həzrəti-Yusif.

Dedi:

– Bəs, Yusifi zindandan çıxardın.

Gəldilər Həzrəti-Yusifi zindandan çıxartsınlar. Həzrəti-Yusif dedi:

– Bəs əgər şah yazmasa, özü imzalamasa mənim bir günahlığımı imza eləməsə, mən zindandan çıxmaram.

Əmma gəlirlər, şah onun bigünahlığını küllən kağıza imza eliyir.

Həzrəti-Yusif gəldi eşigə. Dedi:

– Yusif, mənim yuxumu təqdir eləginən.

Dedi:

– Şah sağ olsun, sənin yuxun budu ki, o yeddi lağər öküz, yeddi dənə çağ öküzü yiyir: Budi ki, yeddi il sənin məmləkətində bollux olacaxdı. Yeddi ildən sonra sənin məmləkətində qəti olacax. O yeddi il sənə nə qədir buğdadən izafə gəlsə, yığginən ənbarlara, ənbar eləginən ta o yeddi il qəti oldu, onda sənin millətin aclığa düşməsin.

Ağa, Yusifin gözündən öpüb, bigünahlığı da sabit oldu. Özünə vəzir elədi. Tamam xəridi-furuş, ənbarların tamam dəsturatını verdi Yusifin əlinə. Yusif başladı burda yavaş-yavaş məşhur oldu xərid furuşa. Əmma Əzizi Mesin burda Züleyxanı öz öyündən çıxardır eşigə. Dedi:

– Day sən mənim dərdimə dəyməzsən, bigünah yerə Yusifi saldırdın zindana. Day mən səni isdəmirəm.

Amma Züleyxa çıxıb eşigə, Yusifin eşqi genə Züleyxanı əhatə elədi ki, Züleyxa ağlıyır:

– Xudaya, xudavəndi, ey Yusifin Allahı, sən gəl Yusifin ürəyinə rəhm salginən bəlkə məni əfv eləsin, ya alsın.

Amma dadi-giryan eliyə-eliyə oturub bir guşədə götürüb görək zülflərindən bir dəstə ayırdı. Burda bir neçə dəstgah öz dərdinə münasib görək nə diyəcək? Mən də diyim tamam deyənlər hamısı şad olsun. Buna "Ara Hüseyni" havası deyəllər, "Bəztəvər" havası da diyəllər:

Bağrım başı mən ağlaram ruzi-şəb,
Ağlaram dərdimin çarası yoxdu.
Yusif bir ox vurub bağırım başımdan
Sızlayır ürəgim, yarası yoxdu.

Onun oxu mənim bağırımın başını sızıldadır, vəli yarası yoxdu. Amma götürüb sözün o birisin belə deyir:

Dolanır gözümdə həftələr, aylar,
Günüm qara keçir, işim ahi-zar.
Dünya bilir dərya kimi dərdim var,
Ağlaram, gözümün qarası yoxdur.

Amma axır sözün Züleyxa diyir:

Züleyxayam, mən olmuşam divana,
Tarixlər yazacax bir gün dastana.
Vurulmuşam ol Yusifi-Kənana,
Onun da mənimlə arası yoxdu.

Züleyxa sözünü tamam eylədi. Amma dəli-divanə şəhri dolanırdı. O qədir dolandı Yusifin eşqində ağladı gözləri tutuldu. Ağa, gözləri tutulub bu burda qalmaxda olsun, sözü eşidək kimdən gənə həzrəti-Yusifdən, Əzizi Mesidən. Bullar neçə müddət gəzdilər, amma o yeddi il ki, başa vardı, yeddi il tamamı buğda, məhsul o qədir bol gəldi ki, həzrəti-Yusif tamam buların hammısını anbar eylədi. Ambar eylədi, buğdaları vurdu anbara, yeddi il qəti dolandı gəldi. Yeddi il qəti dolanıf gələndə amma Əziz Mesin dünyadan vəfat elədi getdi. Tamami hökm düşdü həzrəti-Yusifin əlinə.

Amma eşidək sözü kimdən Kənandan, tamam ajlıx düşdü yetişdi Kənana. Həzrəti Yaqubun uşaxları səsləndi:

– Atayi-mehriban, diyirlər, Əzizi Mesri çox buğda anbar eliyib. İcazə veriginən, pul verginən gedək ordan bir miqdar bir xərid eliyək gələk.

Dedi:

– Eybi yoxdu, bala.

Bir miqdar pul verib bulara, yavaş-yavaş gəlirlər yetişirlər, həmin Misirə. Misirə varid oldular, həzrəti-Yusif gəzirdi baxdı gördü, qardaşdarından bir üçü-dördü gəlir. Bu, buları tanıdı, amma olar bunu tanımadılar. Həzrəti-Yusif səsləndi:

– Ay qardaş, hardansız?

Dedi:

– Vallah, biz Kənandan gəldik. Həzrəti Yaqubun uşaxlarıyıx. Bizim də məmləkətimizə ajdıx düşüb. Deyirlər, bu Əzizi Mesi çox buğdalar anbar eliyib, gəlmişik ondan bir miqdar xərid eliyək aparax.

Dedi:

– Diyin görək, Həzrəti-Yaqub nə haldadı?

Dedilər:

– Həzrəti-Yaqubun bir oğlu vardı Benami Yusif. Yusifi dağda qurt yidi. Onun fərağında o qədir ağladı indi gözləri tutulufdu. Bir qardaşımız vardı, benami Bünyamin, indi o həzrəti-Yusifə xatır onu, yerində çox istər. Onu heş yerə qoymaz getməyə.

Dedi:

– Hə, bəs indi mən sizə on dəvənin yükü buğda verirəm apararsız, vəli bu dəfə gəldiz o Bünyamini də özünüznən gətirin, sizə on dəvənin də yükünü buğda verirəm, day pulunu almaram.

Ağa, bular çox razı oldular, Allah cəlalın artıx eləsin. Ağa, dəvələrin-yeddi dəvənin yükü buğda yüklüyürlər, yavaş-yavaş gəlirlər. Gəldilər yetişdilər Kənana. Əlbəttə, bir neçə muddət bu tür çəkir. Gəlirlər yetişirlər Kənana, nəvələrindən babalarına dedilər ki, Yaqub sağ olsun, oğlanların gəldi, çox da buğda gətirdilər. Gəlirlər yetişirlər, deyir:

– Ay bala, nə iş gördüz, kimi gördüz?

Dedi:

– Atayi-mehriban, Misridə bir dənə Əzizi Mesri vardı. Doğrudan da cahı-calallı gözəl bir adamdı. Bizə on dəvənin yükü buğda verdi, pulun da almadı. Dedi, Bünyamini gətirsəniz, sizə on dəvənin yükü dübarə buğda verəcəyəm.

Dedi:

– O, nə bildi? Siz on iki qardaş, az və xırda qardaşızı da mənim yanımdan heş yerə qoymaram getsin.

Dedi:

– Atayi-mehriban, o bizdən yaxçı bilir.

Dedi:

– Nə bildin?

Dedi:

– O, bizim tamam adlarımızacan hamısını bir-bir dedi. Dedi, əgər Bünyamini gətirsəniz, on dəvə yükü buğda ərzağı verəciyik.

Bir neçə gün qalandan sora Rubin gəlir, atasının yanına:

– Atayi-mehriban, indi Bünyamini qoş biznən gedək buğda gətirək.

Dedi:

– Yox, verməröm.

Dedi:

– Niyə verməzsən?

Dedi:

– Siz apardız Yusifi çöldə itirdiz, bunu da dahi sizə etibar eləmirəm. Vermərəm aparasız.

Nə qədir diyəndən sora olmadı, Rubil götürüb atasına bir neçə dəstgah nə cür yalvarır, Allaha and verdirib, götürüb görək bu dillərnən bir “Şəki Şirvanı” üsdündə nə didi, mən də diyim el sağlığına:

> Sənə qurban olum, gül üzlü ata,
> Verginən aparım mən Bünyamini.
> Səni and verdirirəm o min bir ada,
> Verginən aparım mən Bünyamini.

Həzrəti Yaqub dedi, yox, vermərəm. Apararsız bunu da gətirməzsiz. Yani, Benyamini gözümdən o yana qoymaram. Gözü-

mün ki, nuru yoxdu, vəli xub bu, mənim gözümün nurudi. Nə qədir diyəndən sora olmadı, götürüb görək o birisi kəliməsin nə deyir:

Səxavətdə yoxdu onun həm tayı,
Cavannıxda, atacan, Allah veribdir payı.
Hər yanda deyir çörəyi çayı,
Verginən aparım mən Bünyamini.

Dedi:

– Yox, vallah, verməkrəm.

Dedi:

– Yox, atayi-mehriban, sən əyə Bünyamini verməsən biz aparax, bizim tamam xanə-vadəmiz acından, beyindən gedər. Əgər Bünyamini aparmasax, Əzizi Messi bizə buğda verməz. Amma götürüb görək sözünün təxəllüsün nə deyir:

Qəbul eylə sən Rubilin sözünü,
Atacan, intizarda qoyma Əziz gözünü.
Allah bilir, deyim sözün düzünü,
Verginən aparım mən Bünyamini.

Nə qədir diyəndən sora Rubilin sözün qəbul eləmədi. Dedi:

– Yox, mən sənə Bünyamini verməkrəm.

Amma Yahuda gəldi qabağa dedi:

– Ay atayi-mehriban, əgər mənim sözümü qəbul eləsən, indi Bünyamini mənə tapşırginən, mənə təhvil ver. Məndən də təhvil al.

Çün Allahın min bir adı araya gəldi, Həzrəti Yaqub dedi:

– Eybi yoxdu, indi Allaha xatir verirəm aparasız. Vəli sağ aparıb, salamət gətirəsiz.

Ağa, bullar yavaş-yavaş Bünyamini götürüblər yola düşdülər. Gəldilər yetişdilər hənüz Misrə. Misridə gördülər, bəli, Yusif gördü öz qardaşları genə gəldilər, əmma Bünyamini də gətiriblər. Qulamına dedi, apararsan bu mənim qardaşlarımdı. Buları aparasan mənim öz otağımda bulara yer verəsən. Ağa, buları aparıblar Həzrəti Yusifin öz dəribarında yer verdilər. Neçə gün qalırlar burda, əmma burda çoxlu sözlər soruşur Həzrəti-Yusif bulardan. Nə cür oldi? Yusif niyə itdi? Yaqubin niyə göz-

ləri beyindən getdi? Buların hamısını diyəndən sora dastanı mən burda xülasə elədim. Yetişdirək sözün şirin yerinə.

Bir neçə gün qalandan sora dedi:

– İndi, xub əgər gedəcəksiz, mən mane döyüləm, durun siz barlarınızı aparın. Atanız indi sizi gözlüyür.

Ağa, gəlirlər buğdaları yüklərə, vursunlar ki, dəvələrə aparsınlar Həzrəti Yusif səsləndi o ənbardara, o buğdanı ki ölçülən qədim zaman batman diyərdilər, o batmannan ki, buğdaları ölçüllər, onu salarsan Bünyamının barına. Buğdaları qurtarandan sora sal onu.

Dedi, eybi yox. Ağa, gəlirlər buğdaların tayların amadə eliyəndən sonra yüklədilər, dəvələr yola düşdü, Həzrəti Yusif gəldi. Ənbardar səsləndi:

– Əzizi Mesri sağ olsun. O batman ki, biz buğda ölçürük, o yoxdur.

Dedi:

– Necə yoxdur?

Dedi:

– Vallah, bilmirəm indi bu Kənandan gələnlər hansı götürüblər?

Dedi:

– Bəs Həzrəti Yaqubun uşaxlarına mən bir şərti qoyuram araya.

Dedi:

– Nəmənə şərti?

Dedi:

– Hər kəsin barından çıxsa, o, mənə qulam olacax. Hər kəs, əgər sizin barınəzdan da çıxmasa, mən sizə qulam olacam.

Ağa, bular da ərxayındılar ki, barlarında heş zat yoxdur. Bəli, götürüb barları yavaş-yavaş gəzdilər, gəldilər Bünyaminin dəvəsinin barına baxanda, baxdılar gördülər, hə, o batman ki, buğda ölçürdürlər Bünyaminin barındadı. Ağa, gətirdilər dəvələrin yükün aşdılar, həmin batmanı çıxartdılar.

Dedi:

– Xub, indi bəs nəmənə deyirsən? Bu Bünyamin mənim yanımda qulam olub, qalmalıdır.

Ağa, bular nə qədir yalvardılar-yaxardılar biz atamdan bunu əmanət almışıx gətrimişıx. Dedi, bə rəhmətdiyin oğlu, siz nə bilirsiz əmanət nəmənədi? Əmanətə siz xayanət elədiz. O zaman ki, Yusifi də siz apardız çöldə itirdiz, bunu da gedərsiz deyərsiz itidik. Ya yolda bunu da bir qurt yidi, ya quş yidi, olmaz ki? Aparmıyın, bu mənim yanımda qalmalıdır. Amma çox narahat oldular. Yəhuda dedi: “Rubil, əgər Bünyamini aparmasax indi biz atamızın yanında üzü qərə olacıyıx”. Şəmun dedi: “Yox, əgər Bünyamin gəlməsə, gərək mən də burda qalım”. Götürüb görək Rubil burda bir neçə dəstgah əzizi mesrin nə cür yalvarır ki, saxlama bizim qardaşımızı. Onu da götürüb görək bir “Şeydayı” havasında görək nə diyəcək, mən də diyim tamam el sağlığına, vətən varlığına:

Aman, əziz, kərəm eylə sən bizə,
Gəl saxlama qardaşımı, amandır.
Aparmasan atam qəzəb eliyər,
Gəl saxlama qardaşımı, amandır.

Yusif genə dedi ki, siz qardaşızı aparmasanız atan sizə nə diyəcək? Gedin diyin orda qurd-quş dağıtdı çöldə.

Dedi, yox, Əziz daha biz yalan danışa bilmərik. Amma götürüb ikiminci bəndi görək nə diyir:

Atam verib onu bizə əmanət,
Əmanətə eyləməzlər xəyanət.
Atamın yanında oluram xəcalət,
Gəl saxlama qardaşımı, amandı.

Gedirsiz əmanətə də xəyanət elədiz. Necə ki Yusifə xəyanət eylədiz, buna da xəyanət eliyin. Götürüb Rubil axır bəndi belə deyir:

Rubil deyir, sinəsindən dağlıdır
Yaqut canı Bünyaminə bağlıdır.
Yusifin yerində əziz oğludur,
Gəl saxlama qardaşımı, amandır.

Dedi, yox, olmaz. Mən gərək bunu saxlıyam. Çün mənə xəyanət eliyibsiz, mənim buğda ölçənimi oğurluyubsuz. İndi gə-

rək mən bunu saxlıyam. Nə qədir diyəndən sora yalvar-yaxar elədilər. Dedi, yox, gərək gedəsiz. Aha, bular istədilər yavaş-yavaş istədilər yola düşsünlər. Şəmun dedi:

– Qardaş, mən gərək qalam burda. Mən gərək qalam burda siz gedin atama deyin ki, Şəmun da qaldı. Yox, əgər biz üçümüz də getsək, atamız hətmən deyər bular beyindən aparıblar.

Ağa, bular yola düşürlər günə bir mənzil gəlirlər Misridən, Kənandan aralı bir bulağın başında düşürlər. Bir istirahatçılıx eliyilər. Əl-üzlərinə səfa verirlər. Baxdı gördü doğrudan da burda Yusif o cür itdi, Bünyamini də burdan aparmasax bizə çox pis olacaxdı. Bir az əl-üzlərin yuyandan sora, çay-çörək yiyəndən sora Yahuda burda Rubilə deyir:

– Ay qardaş, mənim ürəyim dərdə gəlib. Az qalıb od tuta yana. Mən burda bir neçə dəstgah sözüm vardı. Onu oxuyum ondan sonra durax. Görək başımızın qazası nədir?

Durublar yavaş-yavaş indi Rubil qulaq asır, Yahuda görək burda bir neçə dəstgah nə diyəcək, buna da "Əfşar gözəlləməsi" diyəllər. Mən oxuyum tamam el sağlığına:

Aman qardaş, yalan çıxdı sözümüz,
Atam Yaqubi-Kənana nə deyim?
Qol vermişdim Bünyamını gətirrəm,
Ah çəkibən yanə-yanə nə deyim?

Axı, mən nə cür söz diyim ona, bu dəfə mən qol vermişdim atama.

Dedi, ay qardaş, Allah qadirdi görək hələ başımızın qəzası nədi. Götürür görək o birisin belə deyir:

Bir bad əsdi yolumuzu bağladı,
Bu ayrılıx bağırım başım dağladı.
Yusif üçün aylar, illər ağladı,
Gözü yaşlı o giryanə nə diyim?

Dedi, ay qardaş, narahat olmaginən. Genə də diyir, Allah qadirdir. Amma götürüb görək Yahuda sözün axırın nə deyir:

Əhdi-peymanımız başa varmadı,
Əl uzadıb bir qonça gül dərmədi.
Yusif itdi, Bünyamini gəlmədi

Yəhudayam, dil buryana nə diyim?
Axı mən gedim yanə-yanə ona nə deyim?

Durullar yavaş-yavaş barların çatırlar, hərəkət eliyirlər gəlirlər Kənana sarı. Az qalırlar yetişsinlər, Kənana xəbər verirlər ki Həzrəti Yaquba sənin uşaxların gəlirlər.

Həzrəti Yaqub nəvələrindən yolladı, dedi: "Ay bala, çıxın görün çox yaxunlaşıblar, ya yox?". Az qaldılar gəlsinlər yetişsinlər Kənana. Tamam nəvələri, uşaxları gəlirlər, ey baba, dəvələr yüklənib hammısı gəlir. Gəlirlər yetişirlər Kənana. Kənana yetişəndə baxdılar gördülər, bəli, doğrudan da neçə qatar dəvənin yükü buğda gəlir. Həzrəti Yaqub çıxdı qabağa səsləndi ki, ay bala, elə biləsən Həzrəti Yusifin qoxusu bu düyülərdən, bu buğdalardan gəlir.

Bəli, söhbətimizi indi burdan şuru eliyək ki, Həzrəti Yaqubun uşaxları gəldilər, nəvələri səsləndi:

– Babacan, əlan bizim barlarımız yetişdi.

Gəlir qabağa, ay bala, baxdı gördü bu buğda yüklərindən bir Yusifin qoxusu gəldi. Səsləndi, aya bala, bu buğdalardan Yusifin qoxusu gəlir. Nəvələri gülüşdülər, dedi, babamız hələ neçə illərdi Yusif gedib, genə Yusifin qoxusu gəlir. Amma gəldilər qabağa Rubildən soruşdu:

– Rubil, Yəhuda, bəs Şəmun, Bünyamin hanı?

Dedilər:

– Vallah, atayi-mehriban olar qaldılar.

Amma Həzrəti Yaqub burda narahat oldu. Dedi:

– Bilirəm, siz genə mənə xəyanət elədiz. Mənim balalarımı niyə gətirmədiz? Çox ağlıyıb narahat halda götürüb görək burda bir neçə dəstgah öz dərdinə münasib balasını bulardan nə cür isdiyir? Niyə mənim balamı apardız, genə gətirmədiz? Yusifi o cür apardız, gətirmədiz. İndi də Bünyamini gətirmədiz. Götürüb görək bu dilinən bir "Zarı Kərəmi", buna bizim öz aramızda "Kəsmə Kərəmi" də deyəllər, "Zarı Kərəmi" də deyəllər, nə deyir:

Heç bilmirəm nə bəlalı başım var,
Aman Rubil, sən balamı neynədin?
Gözlərim kor oldu Yusif yolunda,
Aman Rubil, sən balamı neynədin?

Dedi:

– Mənə di görüm, axı balamı niyə gətirmədin? Bu dəfə mənim iki balamı gətirmədin.

Dedi:

– Atayi-mehriban, narahat olmaginən, vallah, olar qaldılar Misridə Əzizi Mesrin yanında.

Dedi:

– Yox, yalan diyirsən.

Amma götürüb o birisini belə deyir:

Bu fələk başıma gör nələr gətdi,
Bir şeyda bülübülüm gülşəndən ötdü.
On iki yaşında Yusifim itdi,
Aman Rubil, sən balamı neynədin?

Genə də bular and içirlər, atayi-mehriban, and olsun Allahın təkliyinə, uşaxlar salımdirlər, qaldılar Əzizi Mesrin yanında.

Amma götürüb görək Yaqub sözünün təxəllüsünü nə deyir:

Verdigim əmanət necə oldu, hanı?
Əritdin cəsəddə qalmadı qanı.
Daim ağlar qoydun Yaqubu Kənanı,
Aman Rubil, sən balamı neynədin?

Dedi:

– Atayi-mehriban, o Şəmunun barları-dəvəsinin yükü, o da Bünyaminin dəvəsinin yükü.

Dedi:

– Gətirin o Bünyaminin dəvəsinin yükünü açın, gətirin mənim gözümün qabağına, gətirin görək.

Amma bular gətirdilər yükləri, açdılar hammısını. Bünyaminin barını açanda o zaman o batmanı ki Həzrəti Yusif bardan çıxartmışdı öz köynəyini qoymuşdu barın yükünə. Ağa, yükün ağzın açanda baxdılar gördülər bir köynək var. Gətirdilər baları: "Atayi-mehriban, bir dənə köynək vardı, bu da Bünyaminin barından çıxdı".

Dedi, köynəyi gətirin verin mənə görüm. Ağa, o köynəyi ki, gətirdilər verdilər Həzrəti Yaquba. Həzrəti Yaqub baxdı, öpdü köynəyi qoydu gözlərinə. Köynəyi gözlərinə qoyanda Həzrəti

Yaqubun Allahın tərəfindən gözləri açıldı. Baxdı gördü həmin köynək Yusifin əynindəki o zaman ki bular şikara aparmışdılar, səsləndi: "Uşaxlar, Həzrəti Yusif Misirdədi. Bu köynək onunkudu. Tez özünüzü amada eliyin biz gedək ora". Ağa, özlərini amadə eliyirlər, neçə dənə uşaxlardan Yahuda, Rubil, Həzrəti Yaqub, bir dənə ayrı uşaxlarından götürüb yavaş-yavaş dururlar yola hey vururlar.

O zaman idi ki, bular gəlməkdə olsunlar Misrə, amma sözü eşidək kimdən, Züleyxadan. Züleyxa o qədir ağlıyıb, Yusifin fərağında gözləri kor olmuşdu. Bir guşədən eşitdi ki, dedilər, vallah Həzrəti Yusifin atası Yaqub Kənana gələcək. Dedi, yaxşı oldu, mən də çıxım bu biyabanda, bu yollarda bir baxım görüm şayət Allahın meyli ola, Yusif gələ, orda məni görə. Ağa, gəlir, amma Həzrəti Yusifə də xəbər verdilər ki, Həzrəti Yaqub Kənanı az qalıb yetişsin Misrə. Züleyxa yavaş-yavaş olardan tezrax gəlib şəhrin bir guşəsində ol yerdən ki, Həzrəti Yaqub gələcəydi Həzrəti Yusif onu peşvaz eliyəcəydi, gəlib ora. Orda bir münasib yer tapdı, baxdı gördü heş kəs yoxdu. Amma götürüb zülflərindən bir dəstəyi-tar ayırdı, burda görək bir neçə dəstgah nə diyəcək. Mən də diyəcəyəm tamam el sağlığına, vətən varlığına. "Vaqif gözəlləməsi" də deyəllər buna, "Mixəgi havası"da diyəllər buna. Görək nə diyəcək, mən də diyim tamam el sağlığına, vətən varlığına:

Gecə-gündüz ah çəkərəm, ağalaram,
İnsafa gəlmədi Yusif Kənanı.
Eşq oduynan ciyərimi dağlaram,
Eşitsin yer, göylər ahi-fəğanı.

Baxdı gördü yox, dünya elə biləsən başına dolanır. Axı, niyə mənim ey Yusifin Allahı, mənim sözümü eşitmirsən, niyə qulax asmırsan? Götürüb o birisin belə deyir:

Mənim eşqim dünyalara faş oldu,
Çox ağladım, ətək dolu yaş oldu.
Dəli könlüm həvaləndi, quş oldu,
Yusifim almadı ələ kənamı.

Kaş Yusif məni öldürəydi, amma bu dərdə giriftar eləmiyəydi. Ağlıyır, gözlərinin yaşın baharın buludu kimi rüxsarına

rəvan eliyir. Amma götürüb sözünün təxəllüsünü görək nə diyəcək, mən də diyim el sağlığına:

Kənar guşələrdə olmuşam zəlil,
Gələrəm qapında düşərəm dəxil.
Nardan necə ad tapdi İbrahimxəlil,
Gəl oda yandırma sən Züleyxanı.

Ağa, söz tamam. Düşmənin ömrü tamama yetişsin, Züleyxa indi ağlıyır gözlərinin yaşını rüxsarına rəvan eliyir. Ey Yusifin Allahı, mənə kömək eləginən. Bəlkə Yusif məndən bir xoşu gəlsin, məndən bir hami-dil hasil eləsin. Amma bu burda qalmaxda olsun, eşit sözü kimdən-Həzrəti Yaqub oğlanlarıynan gəlir yetişir, az qalır yetişsin Kənana. Kənandan gəliblər ki, Misrə yetişsin.

Həzrəti Yusif özü neçə dənə qulamlarından, vəziri-vüzəradan, əmiri-imarədən hamısı başında gəlirlər, atasını pişvaz eləsin. Baxdı gördü, bəli, atası gəlib, çox da qocalıbdır, uzaxdan salam verdi, Yaqub ələyk aldı. Amma neçə illərin ayrı düşən ata-balası biri-birlərin görürlər. O eşqi-halətindən görürsən adam bir moğa o eşqidə ağlamağa, insana ağlamax gələr. Bir də görürsən ki, Allah görsətməsin o qəmli ahənin halında adama görəsən qəm gətirər, ağlamax gətirər. Bəli, inşaallah, tamam ellərimizi Allah eşq ağlamağıynan ağlasın. Bular bir-birlərin görəndə xoşhal olurlar. Həzrəti Yusif baxdı gördü doğrudan atasının gəlməsinə əgər bir neçə hava "xoş gəldin" diməsin, doğrudan burda aşağılıx eliyib. Götürüb bir neçə dəstgah atasına nə cür "xoş gəldin" eliyib. Mən də diyim tamam el sağlığına, vətən varlığına. Götürüb onu da, qardaş, bu ahəngə –"Əfşarı Məhəlli" diyəllər, tamam el sağlığına xoş olar:

Qurban olum qədəminə,
Xoş gəldin, ata, xoş gəldin.
Lütf eylədin qulamınam,
Xoş gəldin, ata, xoş gəldin.

Yaqub:

– Şürk eylərəm Allahıma oğul, səni sağ görürəm. Qüvvət gəldi qollarıma, bala, oğul, səni sağ görürəm.

İndi ata-bala bir-birinə baxırlar, götürüb görək indi o birisin nə deyir:

Nur tökülür gözlərindən, atacan,
Doymamışam sözlərindən.
Həsrət çəkdin yüzlərnən,
Xoş gəldin ata, xoş gəldin.

Baxdı gördü, oğlu da doğrudan xoş haldı ki atasının gəlməsinə. İndi bir qolların götürüf görək son asitarısıynan Yaqub nə dedi:

Gəzərdim Kənanı hər gün,
Dərd sinəmdə dügün-dügün.
Yetişdim murada bü gün,
Oğul, səni sağ görürəm.

Amma götürüf dübarə görək Yusif nə deyir:

Yusifəm, Allaha bəndə,
Qərq olmuşdum, dərdi-qəmdə.
Aram tapdı ürəgim də,
Xoş gəldin, ata, xoş gəldin.

Amma götürüf Həzrəti Yusif sözünün axır kəlməsin bir "Paşa köşdü" üsdündə görək nə diyir tamam el sağlığına. Yaqub axır sözünü elə baxdı balasına doğrudan da ürəyi qəmə dolmuşdu. Burda çox şad olur. Allah tamam eli şad eləsin:

Yaqubam, mən fikir eylərəm,
Gecə-gündüz zikr eylərəm.
Xaliqimə şükr eylərəm,
Oğul, səni sağ görürəm.

Doğrudan da baxdı ata-bala indi bu yolunan qol-boyun olurlar. Neçə dəfə qol-boyun oldular, huşdan getdilər, huşa gəldilər.

Yaqub deyir, Yusif, mən sənin o zamandandı ki getmisən, o qədir ağlamışam gözlərim tutulmuşdu. Sənin o köynəyinin gəlməyi mənim gözlərimə şəfa verdi. Baxdı gördü doğrudanda on iki oğul sahibi ola, bir dənə oğulu getməkdə bir belə nigarandı. Yavaş-yavaş indi qeyidirlər şəhrə sarı.

Qeyidirlər şəhrə sarı, Həzərəti Yusif qabaxdan gəlib, qulamları başında amma gəlirlər yetişirlər həmin Züleyxanın yanına. Züleyxanın yanına gəlib yetişəndə, Züleyxa istədi özünü salsın Həzrəti Yusifin atının qabağına, Yusif də heş baxmırdı, isdə-

di atı onun üsdündən sürsün, o zaman Cəbrail nazil oldu: “Ey Yusif! Əgər isdiyə idin atıyı Züleyxanın üsdündən aparsaydın, sürsəydin, səni peyğəmbərlikdən Allah xaric eliyərdi”. Amma rədd oldular. Həzrəti Yusif, Yaqub daldan gəlirdi, baxdı gördü neçə dənə vəziri-vüzərdan, əmiri-üməradan, qulamlardan Həzrəti Yaqubun başında gəlirdilər. Gözün dolandırdı şəhrin guşəsinə baxanda baxdı gördü bir qoca arvad əl-üzünü tük basıb, elə gözləri də kor olupdur, ağlıyır. Dedi:

– Diyin görüm, o, kimdi?

Dedilər:

– Vallah, o Züleyxadı. Neçə illər Yusifin eşqində o qədri zindəgisindən əl çəkib ağlıyıb, gözləri tutulub.

Yusif ona baxmır. Yaqub istədi qeyitsin, Həzrəti Yusif döndü dala, dedi:

– Ay atayi-mehriban, niyə qəyidirsən?

Dedi:

– Day mən şəhirdə qalmaram.

Dedi:

– Niyə?

Dedi:

– Bu şəhri xof tutubdu.

Dedi:

– Necə?

Dedi:

– Sən nə cür peyğəmbər olasan ki.... Sən ədalətinə necə zor eliyirsən? Bunu gərək sən alaydın.

Dedi:

– Ay atayi-mehriban, axı mən eliyə bilməzdim.

Dedi:

– Gərək ya mənim sözümə baxasan, Allaha xatir bunu alasan. Yainki mən burdan qeyidəcəyəm.

Dedi, bəs atayi-mehriban, gəl dala qeyitməginən, mən bunu sənə xatir, sən ki hər nəmənə əmr eləsən, mən sənin müti fərmanınam. Ağa, gəlirlər o zaman Həzrəti Yusif öz otaxlarını bəzəmişdi, Həzrəti Yaqub gəlir, tamam otururlar. Amma burda

Həzrəti Yaqub dəstur verir ki, neçə kənizlər, Həzrəti Yusifin qulamlarının yanında kənizləri varıdı, olar aparırlar Züleyxanı bir abi-kövsər suyu var, o abi-kövsər suyuna, aparsınlar yuyundursunlar. Yusif də burda baxdı gördü atası çox gözəl söz diyir, didi: "Bəs atayi-mehriban, mən də gedim öz otağımda bir ibadət eliyim. Allahla, öz aramda bir razı-niyazım vardı. Oları danışım, onnan sora şayət Allah dübarə nəzər sala, Züleyxanı gətirə cavan eliyə, gözləri açıla". Amma gəlib öz otağında oturub yavaş-yavaş razı-niyaz eliyir, neçə rəkat namaz qılıb, indi bi oların götürüb burda görək nə diyir. Mən də diyim tamam ellər sağlığına:

Əgər günahkaram əfv et günahım,
Şəfasın istərəm mən Züleyxanın.
Bu işıx dünyaya həsrət qalıbdır,
Şəfasın istərəm mən Züleyxanın.

Amma Allahınan öz arasında razı-niyaz eliyir. Allaha yalvarır, götürüf görək sözün ikimincisni nə deyir:

Sən mənə veribsən, cahı-cəlalı,
Sən tək yarı olan istəməz malı.
Açaram başımdan fikri, xiyalı,
Şəfasın istərəm mən Züleyxanın.

Gənə Allaha yalvarır, ey xudavəndə, mənim əgər günahım da olsa bu dəfə əfv eləginən. Götürüb sözünün axırın belə deyir:

Əhədsən, Səmədsən, ey Kərəmin kanı,
Yoxdan xəlq eylədin külli-cahanı.
Qəbul et duasın Yusif Kənanın,
Şəfasın istərəm mən Züleyxanın.

Allahnan razı-niyaz eliyib, bir neçə rəkat genə hacət namazı qılıb, durub yavaş-yavaş gəldi öz atasının yanına. Amma atasıynan bahəm söhbət eliyirdilər, bir onda baxdılar gördülər, bəli, Züleyxa Allahın əmrindən on dörd sinnində cavan olub. Elə gözəlligi Züleyxanın əgər biridi, yüz min olub. Gördülər. bəh-bəh, bir gözəl cavan yavaş-yavaş həyətnən gəlir. O idi ki, orda bir ağlaşma diyəllər, o kim idi sinə dağlı çəkildi? Hənüz Həzrəti Züleyxaydı kı, düvarədən cavan oldu. Yaqub buları yavaş-yavaş gətirir, əl-ələ verib dedi: "Hə, bundan bu yana mənim daha ar-

zum qalmadı”. Yusifnən Züleyxanı burda əl-ələ verib burda toyların tutdu. Amma özləri də gedirlər Kənanı da nəmənə oğlanları-zadı, ovladı varıdı, hammısnı yığırlar gətirirlər Misirə. Misirdə neçə gün zindəgi eliyirlər. İndi bir onların ucalırlar, qocalırlar, zindəgi eliyirlər, dünyadan köçürlər gedirlər.

Budu etibarı qoca dünyanın,
Veririr fərmanını hər bir insanın.
Özündə saxlıyır baharı, yazı
Biz də olax bu dövrandan razı.
Aşiqpərəs götür sədəfli sazı,
Olar üçün oxusun xoş avazı.

İndi götürüb görək burda axirin aşıq burda Allahın qüdrətinə razi neçə dəstgah şeir yazıb, olar da hənüz dastana mərbuddur. “Ovşarı” havasında görək nə diyək. Mən də diyim tamam el sağlığına, vətən varlığına:

Barigahın xəlq eylədi insanı,
Adəmi-Həvvaya nə gözəl yazıb.
Nəsrindən yarandı Nuhi İbrahim,
Yusifi Züleyxaya nə gözəl yazıb.

Baxdı gördü, hə, doğrudan da Yusifi elə Züleyxaya yazmalıdır. Amma götürüb o birisin belə deyir:

Nurdan xəlq eylədi Həzrəti İsanı,
Turda dolandırdı Həzrəti Musanı.
Xətmi-ənbiyaya verdi Quranı,
Zülfiqarı Molaya gözəl yazıb.

Doğrudan da Zülfiqar da Moğlaya yaraşır. Amma götürüb görək o birisi bəndini nə diyəcək. Mən də diyim tamam ellərin hammısının sağlığına:

Xudam verdi Cəbrailə fərmanı,
Dayanmasın şuhədanın karvanı.
İsmayil tək ol Minanın qurbanı,
Hüseyn Kərbalaya gözəl yazıb.

Tamam bu navara qulaq asannar və bu söhbətin intizarını çəkənnər də murada yetişsinnər, inşallah. Burda söhbətimiz qurtardı. Biz xüdahafiz, sizi Allaha tapşırdıx.

# AŞIQ MİSKİN ƏSƏD VƏ SƏLTƏNƏT

## Ustadnamə

İmanı soruşdum fərzanələrdən
Dedilər, axtarsan düz ilqardadı.
İlqarı arifdən sual eylədim,
Dedi, pak qəlbli etibardadı.

İnsafdı insanın başının tacı,
Vicdanın qaziyə yox ehtiyacı.
Kəbə nişangahdı, fəxr etmə, hacı,
Axtar, tap gör ev sahibi hardadı.

Əmr olub, İbrahim ora daş töküb,
Həxdən müzdin alıb, orda ev tikib.
İnsanın qəlbini həx özü tikib,
Sındırma bir qəlbi, Allah ordadı.

Xəyal etmə büsat divan qalacax,
Fələk bir gün yolun ordan salacax.
Hər nə veribdisə, axir alacax,
Məkrin, makirin kirdigardadı.

Əziz deyər, həqiqətdən olma yad,
Əgər var-dövlətin olsa da ziyad.
Bir günah eylədi dünyada Şəddad,
Behişt qaldı, özü yanar, nardadı.

Bəli, əzizlərim, Əsəd Miskin Mişkinin yaxınlığında qədim adı Xoydu, Xiyovun yaxınlığında Hesar kəndində anadan olupdur. Amma çün Əsədin atası çox məzhəbli insan idi. Əsəd aşıxlığa üz gətirir. Aşıxlığa üz gətirəndə atasıyla bir yerdə keçinə bilmirlər. Məcburiyyətdən köçür qardaşı Məhəmmədiylə, ailəsiylə birlikdə keçir o tay Azərbaycana – Şəmkirdə məskunlaşır. Əsəd Şəmkirdə məskunlaşandan sonra day burda aşıxlıx eliyə bilmir. Gedir bir biçinçılığa, biçinçılıx eliyir. Bunun ərbabı cüvar imiş.

Mən ustaddan eşitdiyim sözləri ərz eliyirəm xidmətizə. Bunun ərbabı günnərin bir günü sübhana aparırmış. Sübhana aparanda uzaxdan görür ki, yaxçı bir aşıx səsi gəlir. Qənşərə çıxanda səs qət olur. Görür ki, Əsəd oxuyur. Sübhanələrin verir, ancax bir söz demir. Qəyidir gəlir, öz həyət yoldaşına deyir ki, getginən Əsədin ailəsinnən xanımına, həyat yoldaşına denən ki, o İrannan gətirdığınız vəsaillərə mən də bir baxım. Bu gətirir, gəlir belə də eliyir. Gəlir bunun xanımısıynan səlam-əleykdən sonra deyir:

– Ay bacı, sən Allah, o İrannan gətirdığınız vəsayillər, o ev vəsayilləri ki, gətiribsiz olara mən də bir baxa billəm?

Deyir:

– O nə sözdü?

Gətirir tökür qabağına. Amma bu tapşırmışdı ki, bax görginən o vəsayillərin içərisində, o ev alətlərin içərisində mizrapdan, simdən bir şey görə bilərsən, yoxsa yox. Bu baxır görür, bəli, həmən mizrap var, həm sim var. O zamanda mizraplar naylon dəyildi ki, o zaman gilas ağacından, gilas ağacının qabığınnan qaynadardılar ustaddar. Mən özüm onnan çalmışam o mizraplarnan. Bəli, bu birin götürüb deyir, o mizrabın birini ver mənə. Alır, gətirir. Gəlir bu ərbabın yanına. Öz xanımısı deyir, bəli, onun vəsailində aşıx-saz vəsaili var idi. Axşamçağı olur, Əsəd gəlir ərbabın evinə. Ancax bu tərəfdən bunun həyat yoldaşı Əsədi görür, ərbabın həyat yoldaşı. Deyir, Əsəd gir hamama yuyunginən çıx sənnən işim var. Əsəd girir hamama yuyunur, özünə səfa gəlir, üz-gözün vurur, çıxanda görür, bəli, bir dəstə libas, bir dəst məclis libası Əsədə verilir. Əsəd məclis libasın geyir. Deyir:

– Əsəd, keş içəridə ağan oturupdu, keş otur ağa yanında.

Əsəd gəlir məclisə varid olanda adətdi, ənənədi, salam verir ucadan. Hammı əleykə-əleykəni alırlar. Əsəd gəlir, isdiyir otura ağası deyir ki, Əsəd, gəl mənim yanımda əyləş. Əsəd gəlir bunun yanında oturur. Bu tərəfdən ərbab dəstur verir ki, nökərlərin birinə o sazı gətirin Əsədə. Əsəd baxır görür ki, bir dənə saz gətirillər, ana sazdı. Axı aşıxlar arasında belə deməliyəm ki, tavar saz var, cürə saz var, ana saz var. Ana saz hamısınnan böyüy olar, məclis sazıdı. Belə olanda Əsəd saza bir mizrap vırır, bir taziyanə vırır.

Zilin zil, dəmin dəm bu gecə burda dilxoşlux eliyillər. Ancax Əsəd o günnən bu yana, ağası deyir ki, Əsəd, bınnan belə day sən işdəmiyəssən. Sən karyerlərin başının üsdündə durassan. Yavaş-yavaş, yavaş-yavaş elə o insanın himayəsi altında Əsəd başdıyır o tayda aşıxlığı. Əsədin adı dildən-dilə, dişdən-dişə, eldən-elə, obadan-obıya, kəddən şəhərə, yavaş-yavaş yayılmağa başdıyır.

Sizə ərz eliyim hardan, aşıxların bu tay Azərbaycanda aşıxların özünün bir qəhfəxanası var. O tayda da vardı, heş ənənə qorunub saxlanıbdı. Ona görə Əsəd qəhfiyə gedərmiş. Qəfədə bir aşıx varıdı, adı Qərə idi. Aşıx Qərə heş Əsəd gələndə salam da verməzdi. Əsədin əyağına da durmazdı, Əsədi hesaba qoymazdı. Aşıx Qərə günnərin bir günü gedir Ucar mahalına toya. Gedir orda toydan çıxır deyir gedim Ucarın bu şəhərində gedim qəfəxanaya görüm ki, kim var, kim yox. Əgər olsa düşsə, genə aşığın adəti budu. Qədimdən deyiblər, aşıxlar el peyğəmbəri olub, eldə gəzib. Yəni, hər yerin görürsən qəmli, şad, qüssəli hər nəmənəni aşıxlar çatdırıpdı. Çün eldən-elə, kəddən-kəndə, obadan-obaya gəzipdi. Bu ənənə indi də hələ Əhərdə elə davam eliyir. Belə deməliyəm ki, Əhərin elə kəddərində də aşıxdan sonra ayrı bir zad aparmırlar. Bəli, aşıx Qərə gedir qəfiyə. Bu tərəfdən burda kim var idi. Burda da Səltənət xanım var idi. Səltənət xanım neçə aşığı bağlıyıb, böyük bir bağı var idi. Bağlıyıb orda karkarçılıq elətdirirdi. Səltənət xanım bunları bağlıyannan sonra ancax aşıx Qərə gəlir, Səltənət xanımın kənizləri, nökərləri deyirlər: “Ay xanım, əlində bir saz gəldi bir nəfər keşdi şəhərə. Belə iş olmaz” Bəli, gəldilər çağırdılar. Dedilər, xanım səni çağırır. Aşıx Qərə dedi, hə, qəribə yerdə dükan aşdım, Allah ruzun bazar eləsin. Belə o toydan gəlmişəm, beş-on qram da burdan qazannam, qeydərəm gedərrəm Şəmkirə. Gəldi gördü bir xanımdı. Dedi:

– Salam.

– Əleykemə-salam.

– Aşıxsan?

– Bəli, aşığam.

– Bir de görüm aşıxsan, yoxsa pırtdaşıxsan?

Dedi:

– Xanım, əsl aşığam elə.

Belə diyəndə dedi, onda yaxşı oldu, sənnən bir neçə söz soruşaceyəm. Cavaf versən, elə əsl aşıxsan. Cavaf verə bilməsən, ya pırtdaşıxsan, ya dolaşıx. Götürüb görey Səltənət xanım nə soruşur, nə deyir, aya, Aşıx Qərə cavaf verə biləcək, yoxsa yox. Tərəfimdən ərz eliyim sizin hamınıza can sağlığı:

Mənnən salam olsun əcəm oğluna,
Aşıx arasında kəlam neçədi?
Bir məclisdən bir məclisə varanda,
Oham arasında salam neçədi?

Dedi:

– Ay xanım, sənin bu dediyin sözlərinin heş mən heş birisini eşitməmişəm. Dedi:

– Eşitmiyibsən? Sənnən söz soruşuram bura meydandı.

Dedi:

– Xanım, mən meydan aşığı dəyiləm, qurban olum. Mən səngə aşığıyam. Sən elə bir tərzə tutdun ee...

Dedi:

– Axı sən dedin mənə əsl aşığam.

Aşıx nə söylüyər əvəl məclisi,
Harada oxuyar divan, təcnisi.
Neçədi əlində sazın pərdəsi,
İlham verən barmaxların neçədi?

Belə diyəndə, dedi, ay xanım, vallah bir səngədıx. Qurban olum, mən gəlmişəm əhli-əyalıma beş qram çörək qazanmax üçün. Dedi, biz çörəy əsrigiyirik? Aşıx Qərə öz özünə fikirrəşdi ki, Əsədi – gəlginən bunu aradan götürginən. Axı rəqib həmməşə əlləşər rəqibi yıxa. Dedi:

– Xanım, mənim bir ustadım var, belə şeyi göydə axtarır, yerdə əlinə düşmür.

Deyir:

– Qoçağım, namə yazsam, kağız yazsam gələr?

Dedi:

– Bəli.

– Adı nəmənədi?

Dedi:

– Ona şair Əsəd diyəllər. Əsəd Miskindi, İran tayınnan keçib gəlipdi bu taya. Yəni sinəsi doludu, dəryayi-umman kimidi.

Dedi qulax ver, sənə dərs verir bu aşıx Əsəd:

Sənə dərs vermiyib o aşıx Əsəd,
Ustaddan dərs alan çəhməz xəcalət.
Əlinnən sazıvı alar, Səltənət,
Bilərsən ki, sazın alan neçədi?

Belə olanda Aşıx Qərənin sazını əlinnən alırlar. Nökərlərə tapşırdı ki, bunun da əl-qolunu bağlıyın, aparın ötürün bağa. Dedi:

– Ay xanım, sən Allah, insaf elə mən bağ adamı dəyiləm ki...

Gördü, bəli, bel-kürüyü gətdilər qoydular Aşıx Qərənin qabağına, dedilər, götüginən işdəginən. Dedi:

– Xanım, biz cücüyə, quzuya, piloğa, toylarda naz eliyirıx, insaf elə. Bizim əlimiz bu alətlərə adət eləmiyibdi.

Dedi:

– Uzun danışma!

Dedi:

– Xanım, sənə dedim da mənim ustadımın bir könlünə düşəsən, görərsən ki, əmin kəddə ət satır, ya qət satır.

Dedi:

– Namə yazsam gələr?

Dedi:

– Bə niyə gəlmir.

Dedi:

– Amma şərtim var.

– Nədi?

Dedi:

– Sazı qoyassan, sazıvı almışam saxlamışam. Qəşəng gedəssən, naməni yazacıyam, aparasan ustadıva verib qeyidəssən. Verib qəyitməsən özün bilirsən elə adın da burdadı sazın da burdadı. Özüm durub gəlib Şəmkirdən səni axtarıb taparam.

Dedi:

– Xanım, mənim gözüm üsdə.

Aşıx Qərə ki bağda gördü ki, karıgərçilik eliyillər, bulardan soruşdu:

– Qardaş, siz burda pula işdiyirsiz?

Dedilər:

– Ə kişi, nə pulu? Bizi bu bağlı evdə, hər tərəfdəki üzü açığıx, bağlıyıb gətirib bu bağında işlədir bizi.

Aşıx Qərə bunları görəndə yaxşı canına üşütmə otdu. Dedi: "Xanım, gedərəm. Əyax yalın gedərəm". Aşıx Qərəyə bir namə yazıb, görək namənin mətni nəmənədi: Aşıx Əsəd cavab yazıb yolluya biləcəkmi, Aşıx Qərə aparıb yerinə yetirəcək, yoxsa yox?

Namə, gedər olsan Şəmkir elinə,
Şair Əsədə de, o, carə gəlsin.
Oxusun naməni xəbərdar olsun,
Yubanmasın, düşüb yollara gəlsin.

– Xanım, sözün qutardı?

Dedi:

– Söz bir kəlmə olmaz ki, söz üş kəlmə, beş kəlmə, yeddi kəlmə, doqquz kəlmə, on bir kəlmə olar:

Ucar mahalında aşıx qoymaram,
Yüz min arif olsa, sözüm caymaram.
Bağlasan da sazın allam, soymaram
Eylərəm gününü de qarə gəlsin.

Dedi:

– Xanım, bir az yekə danışdın axı burda.

Dedi:

– Uzun danışma.

Dedi:

– Xanım, vallah, elə danışginən ki, o başda utanmıyasan. Sən görmüyübsən Əsədi.

Dedi:

– Uzun danışma, aşıx. Kişi aşıxların hamısı elə bir-birinə oxşuyur.

Götürüb nə cür deyir, tərəfimdən ərz eliyim:

Ucar mahalında adım Səltənət,
Cəmalımı görən çox çəkər həsrət.

Əbəs yerə verməsin mənə zəhmət,
Saldıraram zindana dübarə gəlsin.

Söz təmam olub naməni qoydu bir paketə, bir azda pul çıxartdı, dedi, birdən Aşıx Qərə, cibində pul olmaz. Bir az da buna yol xərci verib, yola saldı. Aşıx Qərə gəlməkdə olsun, sizə deyim Əsəddən. Əsəd toydan gəlmişdi, evində əyləşmişdi, öz qardaşıynan dərdi-dil eliyirdi. Aşıx Qərə o zaman deyillər ki, Əsədgil olan zaman o tayda tiranvay var idi-qatar var idi. Minir qatara, gəlir tay Şəmkirə. Şəmkirə gəlir, əvvəl öz evinə baş vırır. Öz evinə baş vurandan sonra gecəni qalır, öz-özünə fikirləşir: "Ə, mən nə üznən gedim Əsədin yanına? Ə, mən qəfədə də salam verməmişəm, bunun bir əyağına da durmamışam. Buna bir ustad xitab eləməmişəm". Ağıl ağıldan ötgün olar. Bir dostu var idi, onu çağırır ki, ay qardaş, belə bir dərdə düşmüşəm. Deyir:

– Ə bir şey dəyil ki, nədi?

Dedi:

– Ə getginən pullarından bir az, o Səltənət xanım verən puldan bir az götür, denən, Əsəd, sənin adıva Ucarda çox pul almışam, ona görə gətdim bir azın da sənə verəm. Naməni də, kağızı da qoyginən onun arasına, virginən özün də aradan çıx.

Elə olanda bu fikir bunun başına sığışdı. Ağlına sığışdı, gəlir qapını daqqılıbab elədi. Qapını döydü, Məhəmməd gəldi qapıya:

– Aşıx Qərə, çox xoş gəlibsən. Əşşi, sən hara, bura hara?

Dedi:

– Hə, gəlmişəm bir ustanı görəm.

Usta diyəndə Məhəmmədin bir az elə təəccübü artdı. Ə, bu indiyəcən Əsədi hesaba qoymurdu. Deyirdi, "burda mənəm, Bağdatda kor xəlifə". Nə cür olub ki, Əsədə deyir ustad. Ustad evdədi? Bəli, evdədi. Əlbəttə ki, qədimdən diyəllər ki Azərbaycan xalqı, xüsusən Qarabağ mahalı qonaxpərəstdi, qonaxpəsənd insandılar. Belə olanda gəldilər, gəlib içəri salam-əleykumə salamdan sonra istədi Əsədin əlinnən öpə. Əsəd əlini çəkdi. Dedi:

– Ə Qərə, bu gün sənə nə olupdu, niyə belə eliyirsən?

– Ay ustad, yaman göylümə düşmüşdün, yaman ürəyimə düşmüşdün.

Çaydan-zaddan içənnnən sonra dedi:

– Qərə, sözuvu de. Dilivin altındakı o çöpü çıxart.

Qərə dedi:

– Ustad, getmişdim Ucar mahalına. Sənin adıva yaman pul almışam. Gətdim bu pulu da sənin xidmətıva.

Dedi:

– Ay Qərə, mənim o pullara ehtiyacım yoxdu. Boşda ayna.

Axı, siz hamıvız qəşəng bilirsiz ki, pul kağızı adi kağızdan fərqlidi. Pul kağızı elə bi az suvaşar, adi kağız yüyər. Bu kağızın arasındaki adi kağız var idi, kağız öz-özünə züydü düşdü Əsədin qucağına. Əsədin qucağına düşəndə Əsəd kağızı götdü dedi:

– Hə, Qərə, de görüm o "qərə pişik", "qərə pişik" deyirdin budı? Ə kişi, bura bax görüm sən mənə pul gətiməmisən ki, sən mənə dərdi-sər gətiribsən.

Mən sizə dediyim kimi, Əsəd naməni oxudu. Naməni oxuyannan sonra Əsədin rəngi saraldı. Rəngi saralanda qardaşı Məhəmməd dedi:

– Qardaş, nə oldu sənə?

Dedi:

– Qardaş, səsivi çıxartma. Ucar mahalınnan bir qız, Səltənət adında namə yazıb, özü də aşıx Qərəni bağlıyıb əlinnən də sazını alıpdı.

Namənin altında qeyd eləmişdi ki, sənin şairivi bağlamışam sazını da almışam. Onun özü gələcək bura. "Bəli", – dedi Aşıx Qərəni bağlıyıb, Aşıx Qərənin sazını da alıb əlinnən (Belə dastanları eşidəndə insan vaqiən fərəhlənir ki, elə bu işin dalısycan, bu işin ardıyca keşiş çəkənlər də var. Mən sənə də təşəkkür eliyirəm, sağ ol). Belə olanda dedi, qardaş, bir qızdı da, bir cavandı, bir arvaddı bir namə yazıpdı da, onun qorxusu yoxdu. Dedi:

– Ay qardaş, sənin xəbərin yoxdu işdən.

– Necə?

Dedi:

– Qardaş, əvvələn qərib-qürbət yerdi, özü də o xanım tayfasıdı. Onun tərəfdarı mənnən çox olar.

– Qardaş, nigaran olma. Sənin cavabıvı heş İran-Turanda verən olmaz.

Dedi:

– Qardaş, insanın insannnan ağlı ötkündü, bilməy olmaz ki. Allahtala insanı yaradanda deyir, “fətəbərəkallah” – əhsən xaliqin. “Əhsən” mənə ki, gör nəmənə xəlq eləmişəm.

Belə olanda aşıx Qərə dedi:

– Ay usta, qurban olum, mənə dedi ki, kimin şəyirdisən? Mən də demişəm Əsədin şəyirdiyəm.

Dedi:

– Qərə, heş məni sən qəfədə hesaba qoyursan? Allah evivi yıxmasın, indi məni bu meydannan niyə çəkirsən aparırsan?

Dedi:

– Ay usta, qurban olum sənə, yadında qalsın uşax dədəsindən qeyrətdi heş kəsi bilməz. Mən də sənnən bilihli, sənnən qeyrtədi heş kəsi bilmədim, ona görə sənin aduvu verdim.

Belə olanda qardaşı Məhəmməd gördü ki, Əsəd deyir getmiyəcəyəm. Məhəmmədə Aşıx Qərə səqqəl tutdu:

– Məhəmməd, başıva dönüm, gör neynərsən. Əsəd getməsə, mənim sazım orda qalcax, kasıb babanın biriyəm, bir də sazbəndə gedəm, sazı düzəltdirəm eliyəm. Onnan da sonra adım hər tərəfə düşəcək ki, Aşıx Qərəni bağlıyıblar Ucarda. Azərbaycanda hər tərəfə yayılacax ki, bağlıyıblar sazın əlinnən alıblar.

Məhəmməd dedi:

– Qardaş!

Dedi:

– Can.

Dedi:

– Qardaş, qərənquş görərsən ki, bir dənə kəhliyi qovalar, kəhliy uçar. Onun dalısycan qəranquş gələr, kəhliy gələr soxular bir dənə qərətikanın içinə. Qərənquş o qərə tikannan həya eylər, o kəhliyi boşdar çıxar gedər. Sən bizim bu evi hesapla qərətikannıx, elə bu aşıx Qərəni də kəhliy. Gəlib sığınıb sənin böyruva. İnsaf elə, niyə bunu əli boş yola salırsan?

– Qardaş, elə bil ki, o qızın naməsinnən bəllidi. Çox ustaddı. Axı mən də bir şey eləməmişəm, onnan da sonra Aşıx Qəriyə heş ustaddıx eləməmişəm axı. Və boynumda vəzifəsi ola gedəm mən.

Belə olanda götürür Məhəmməd görür ki, yox ee, Əsəd getmiyəcək. Götürür sazın görək Məhəmməd Əsəddən necə təqazə eliyir, nə deyir, nə eşidir. Məhəmməd deyir:

Başına döndüyüm gül üzlü qardaş,
Qorxmaginan bu meydana getginən.
Bir qızdı, cavana naqisi-ağdı,
Sıdqın bağlı o sübhanə getginən.

(Qardaş, başıva dönüm, cavandı da. Cavan həmməşə naqisi-ağ olar. Xüsusən, xanım tayfası olar. Götürüb sənə bir namə yazıb.)

Məhəmməd belə diyəndə Əsədin gözləri doldu:

– Qardaş, başıva dönüm, sən ölümə desən, ölümə gedərəm. Amma Qərədən ötürü niyə ağladırsan məni?

Götürüb görək cavabını necə deyir, tərəfimnən ərz eliyim:

Dizimin taqəti, gül üzlü qardaş,
Gedəmmirəm bu meydanə, qorxuram qardaş,
Sözünnən bəllidi arif, biləndi
Aşikarə, mərd-mərdanə qorxuram.

– Qızdığından qorxmuram ki, bilirsən nəyinnən qorxuram? Əvvələn qızdı, qərib-qürbət yerdi, onun tayfası, eli-hammısı ordadı, mənim kimim var orda? Mən də kişiyəm, kişi qisminin həmməşə arvaddan tərəfi az olar. Sözünnən bəllidi, bi də sözünnən bəlli ki, nəmənədi.

Qərə baxdı Məhəmmədin üzünə. Qərənin üzünə ölüm sifəti çəkilib. Bir dənə səqqəl tutdu:

– Məhəmməd, başıva dönüm, görürəm elə mənim pənahım sənsən. Ümüdüm sənsən, əvəl Allah, ikinci ümidim sənsən.

Məhəmməd dedi:

– Qardaş, qulax ver:

Əgər gələr şairlərin təmamı
Sənə hərif olmaz Sədi, Nizami.

Mehmanındı sənə, gəlir gümanı
Bağırımı qanə döndərmə, getginən.

Əsəd deyir, qardaş, qulaq as:

Təh doğub anası zalım qızını,
Oxudum naməsin, bildim sözünü.
Gəl sənə söylüyüm sözün düzünü,
Tay tapılmaz bu zənənə, qorxuram.

Dedi:

– Qardaş, hər nəmənə, onnan sonra ağzınnan zənnəndi deyirsən axı.

Dedi:

– Ay qardaş, başıva dönüm, dünyanın zənnən dolandırıb. O nə işdi? Bilmək olmaz, Allah Tala özü insanı yaradanda özünə əhsən deyir. Demir-erkək dişılığını demir, zənən-arvaddığını demir.

Məhəmməd gördü ki, yox, Əsədi çöyürə bilmir. Neyniyim, neynəmiyim, baxdı Məhəmməd aşıx Qərənin üzünə, gördü aşıx Qərədə day aşıx Qərəlik qalmıyıb ki. Aşıx Qərə sapsarı saralıpdı– Aşıx Sarı olupdu. Amma götürüb görək Məhəmməd sözünün axır bəndini necə deyir. Qardaş, qədimdən diyəllər ki, kiçikdən, xəta böyükdən əta. Nə olar axı insan peyğəmbər evladı dəyil ki, iltimas elədiyə. Peyğəmbər də iltimas eləmiyə insandı da əlinnən bir xəta üz verər, qurban olum sənə:

Böyüklərdə bəxşiş olar ədalət,
Mənə kərəm eylə lütfi inayət.
İltimas eyliyir sənə Məhəmməd
Qəbul eylə mərdiyanə getginən.

Əsəd bu sözü eşidəndə deyir ki, qardaş, sən niyə o sözü deyirsən? Qulaq as, neynək, sən diyən olsun gedərəm. Amma qulax ver:

Eşidib adımı Şahdağı, Dərbənd,
Qorxum budu fələk edə ədavət.
Yazıb kitablarda diyəllər Əsəd
Məhkum oldu bir zənanə, qorxuram.

– Qardaş, qorxuram ki, bəyax sənə dedim Allah insanı yaradanda demiyib ki: “Zənən – kişi demiyib, arvad– kişi söhbəti

olmuyub. Özünə əhsən deyipdi”. Dedi: “Aşıx Qərə”. Dedi: “Bəli, usta”. “Qurban olum sənə”, – dedi Aşıx Qərə, “de görüm bir, evi tikilənin oğlu, o nə cür bir qızdı? Sən onun nəyinə allandın bağlandın bu meydanda”

Dedi: “Ay ustad, qurban olum sənə”. Axı Qərə də bir az gözdən dağınıx idi. Dedi:

– Ay usta, qurban olum sənə, onun üzündə bir cüt xal var ki, dünyanın nə malı var, hamısını ona bağışdaram, o xallara bağışdaram.

Dedi:

– Allah əvivi yıxsın, elə o xallara gözün düşüb ki, orda məhkum olubsan da.

Dedi:

– Usta, naməni vermişəm, sənə qurban olum, gör neyniyəsən mənim o sazımı ordan alasan, özümü də qutarasan. El içində biyabır ollam.

Belə olanda ancax Əsəd deyir ki, namənin cavabı namə ola, inşallah, özüm də bir neçə günə gələrəm. Aşıx Qərəyə götürüb görək nə cür namə yazır, nə deyir, nə hiss eliyir, tərəfimdən ərz eliyim sizin hamınızın sağlığıza:

Yazdığın namələr gəldi yetişdi,
Gözləginan, o Ucara gəlirəm.
Meydanda çəkərəm səninlə hesab,
Günüvü eylərəm qarə, gəlirəm.

Qərə dedi:

– Ay usta, başıva dönüm, bir az yavaşdan denən bəlkə mənim sazımı verə. Dedi:

– Uzun danışma.

Uzaxdan-uzağa özün öymə sən,
Ar olsun ki, bağlılığın soymasan.
Bəyənərəm meydanında caymasan,
Sədrin üsdə bir cüt narə gəlirəm.

Belə olanda Qərə dedi:

– Usta, qurban olum, sənə dedim o nardan-zaddan söhbət aşma ey. Beləsin yazginən ki, mənim sazımı versin.

Dedi:

– Qərə, qulaq as day bunnan beləsi mənim özümə qalıpdı. Götürüb görək nə cür deyir:

Əslim Xiyoludu, öz adım Əsəd,
Çismimi yandırır eşqi-məhəbbət.
Camalını görmək üçün, Səltənət,
Ağ üzündə bir cüt xalə gəlirəm.

Söz təmam oldu. Aşıx Əsəd naməni yazdı, verdi aşıx Qəriyə. Dedi, Qərə getginən, inşallah, beş günə-on günə day özüm yetişərəm.

Qərə getmaxda olsun, gəldi, gəldi durdu qapının ağzında. Səltənət xanım gəlirdi baxdı gördü kü, Aşıx Qərə genə də qapının ağzındadı. Öz-özünə fikirrəşdi ki, ayə, gəl getginən, elə bunun sazını ver, qoy çıxsın getsin, yazıx adamdı. Bəllidi, özü də cavan idi, axı, Aşıx Qərə. Gəldi dedi ki, bə sən niyə yalan danışırdın, sən niyə deyirdin ki, Əsəd mənim ustadımdı? Dedi:

– Xanım, mən yalan danışmaram.

– Necə?

Dedi:

– Mən deyirəm ustadımdı da.

Dedi:

– Getmədin axı sən Şəmkirə.

Dedi:

– Xanım, getdim də gəldim də.

– Sağ ol, qəribə qoçax oğlansan. De görüm, mənim üçün nə gəttin?

Naməni çıxartdı ki, mən sizə dedyim kimi verdi Səltənət xanıma. Səltənət xanım oxudu, oxudu gəldi ki, axırda "ağ üzündə bir cüt xalə gəlirəm", əlini qaldırdı Qərənin qulağının dibindən bir şillə yapışdırdı. Dedi:

– Xəta dildə, Əsəd hardan bilirdi mənim üzümdə bir cüt xal var? Sən deyibsən də ki, o bilir da.

Qızlar bunu tutun. Qızlar tutdular Qərəni də apardılar, bəli, o biri aşıxların yanına.

Ancax bu tərəfdən sizə ərz eliyim ki, Əsədin başı toylardan ayıldı belə baxdı ki, ay oğlan, 10 gün demişdi, 15 gün olubdu. Şah Hüseyin Balabançı adında bir dostu var idi. Dedi:

– Şah Hüseyin, gəl gedək çölə, çıxırıx dana azına da bərəkət, çoxuna da bərəkət. Yolda-yolaxda toy-zad rast gələr, görək nəmənə qazansax ikimizinkidi.

Bular öz ailələriynən həlal-hümmət eliyib ayrıldılar. Gəldi o yerə yetirdi ki, Əsəd baxdı ki, yavaş-yavaş Şəmkirin dağları day görsənmir. Öz-özünə fikirləşdi, ay oğlan, sən gedirsən meydana arvad ola, kişi ola fərqi yoxdu, insanın ağlı ötkündü bir-birinnən. Gedirsən, bəlkə məğlub oldun, heş qəyidə bilmədin bu məntəqiyə. Amma belə olanda dedi:

– Şah Hüseyin.

Dedi:

– Bəli.

Dedi:

– O balabanuvu çıxartginən. Sən Allah bəlkə mən heş day evimə qəyidə bilmədim. Dedi, ürəyimə bir neçə dəst söz gəlib, götürüb görək bu dağların arasında nə deyir, nə hiss eliyir, nə duyur:

Dindi, dindi, əlim əldən üzüldü,
Gözdəmiyin qohum-qardaş, el, məni.
Qürbət ellər oldu mənim məskənim,
Vəfalı dost, bir yadıva sal məni.

Şah Hüseyn Balabançı dedi:

– Əsəd, ölümə getmirix ki, gedirix, inşallah, qalib olassan. Nigaran olma. Dedi, Şah Hüseyn, qulaq as:

Təb tüğyan eylədi, oldum divanə,
Məcnun kimi düşdüm çöl-biyabanə.
Bilməy olmaz bəlkə keşdim İrana,
Qoy aparsın axan Araz, sel məni.

Çərxi-fələk vurdu sinəmə oxun,
Biçarə Əsədi öldüyə çıxın.
Hidiynən Fatmıya siz yaxşı baxın,
Gəzin bu qürbətdə dalbadal məni.

Bir oğlu vardı Hidayət addı, bir qızı Fatma addı. Çün Fatma da Əsədin özünün sevgilisinin adıdı ha. Ona görə qızının adını qoyupdu. Belə deyib, fələyin əlinnən ah çəkib, sazını qoydu köynəyinə, düşdü yol sorağına. Gəlhagəl ha dağları aşıb, təpələri, düzdəri gəldilər yetişdilər. Qədimnən ustaddar, babalarımız bir söz deyib, deyir ajdığın oldu dərdin çobanadı, yolun itirdin dərdin sarvanadı. Gördülər bir çoban qoyunu yatırdıb, sən öl dünyadan bixəbərdi. Yatırdı bir tərəfdə, heş elə bil dünyanın həmmi-qəminnən xəbəri yoxdu.

– Çoban qardaş, bərəkətdi olsun.

Dedi:

– Xoş gəldiz.

– Çoban qardaş, biz ajmışıx bizə bir az çörək verəsən.

Çoban ala qoyunnan, qərə qoyunnan tutub sağdı, gətirib südü bişirib buların qabaxlarına qoydu. Çoban belə baxanda gördü ki, bu gələn adamın yanında bir əyaxdan yoğun, başdan nəzik bir şey var. Dedi:

– Qardaş, o nədi sənin yanında? Sənin çomağın bir az yekədi.

Dedi:

– Çoban qardaş, bu qəmdağdandı.

Dedi:

– Başıva dönüm, axı qələmdavad o yekəlıxda olmaz ki....

Dedi:

– Qələmdavad demirəm, çoban qardaş. Bu sazdı, qopuzdu.

Dedi:

– Aşıxsan olma?

– Bəli.

– Yaxşı oldu. Əyər belə olsa mənim cavabımı verəsən, verə bilərsən?

Dedi:

– Sən məni nə bilirsən?

– Həə, onda söhbətimiz yoxdu.

Burda çörəyi yeyib qurtardılar, qurtarandan sonra bu tərəfdən çoban dedi:

– Adın nədi?

Dedi:

– Adım Əsəddi.

Dedi:

– Hara belə, bu vəziyyətdə hara gedirsən?

Dedi:

– Gedirəm Ucar mahalında Səltənət xanımın meydanına.

Dedi:

– Hə, əyər məsləhətin olsa, mən səni burda bir imtahan eliyim, gör gedə bilirsən, yoxsa gedə bilmirsən, əvi tikilənin oğlu.

Əsəd belə baxdı ki, xeyir, çoban pəsə-püsəni yığışdırdı, dəyənəyini basdı döşünə. Dedi: "Əsəd, hazırsan?" Əsəd gördü ki, xeyir baba, şər gəldi qapını kəsdi. Şər qapını kəsdi, belə olanda balabançıya dedi, qəşəng yerdə dükan aşdıx. Allah ruzisini bazar eləsin. Nə olub, necə? Bax gör indi bu çoban nəmənə soruşur. Dedi: "Çoban qardaş, sözuvu de". Götürüb görək çoban Əsəddən nə soruşur, Əsəd nə cavaf verir, ayə çobana cavaf tapa bilir, yoxsa yox? Genə tərəfimnən ərz eliyim aşıx millətinə, aşıx xalqına ərziş verən insannarın sağlığına və o aşıxların sağlığına ki, bu sazın hörmətin saxlıyırlar. Genə də aşıxlar sağlığına. Bunu da bir köhnə "Qərəçi"ynən:

Başına döndüyüm, ay aşıx qardaş,
Götür sazın bir bu qoyunnan danış.
Dağların qoynunda axan çeşmədən,
Bərrü bəhru biyabannan bir danış.

Dedi:

– Çoban qardaş, başıva dönüm mənim qoyunnan nə başım çıxır.

Dedi:

– Uzun danışma, sözümün cavabın ver.

Sən öl, baxdı gördü bir zoğal ağacıdı, əyər Əsədə biri dəysə, Əsəd gərək yeddi ay aş içə. Belə olanda dedi:

– Çoban qardaş, hirsdənmə, başıva dönüm, cavabıvı deyim.

Götürüf görək Əsəd çobanın nə cür cavabını verir, genə mən diyim siz sağ olasız:

Başına döndüyüm, ay çoban qardaş,
Əzəl başdan bu cahannan bir danış.
Neçə şeydən yaratdılar insanı?
Xəlq eyliyən o sübhannan bir danış.

Dedi:

– Mən bilmirəm o sübhan-zad sən nəyə deyirsən? Başım çıxmır sübhannan-zaddan. Amma qulaq as, mən də bir şeylər bilirəm.

– Nəmənə bilirsən, çoban qardaş?

Yad beyzai ilə bəxyuldə əsa
Otardı qoyunu həzrəti Musa.

(Qoyunu otarmax çox pis iş dəyil. Peyğəmbərlər də qoyun otarıblar.)

Əvəl qoyun balasını almasa,
Ram etməyə o çobannan bir danış.

Əsəd gördü ki, sən öl, bu çoban o çobannardan dəyil. Bu çoban aşıx püskürdən çobannardandı. Belə olanda, deyir qulaq as, çoban qardaş:

Kimiydi "Allahu əkbər" cəhdinərəsi,
Məğribdən məşriqə yetişdi səsi?
Kimiydi onun əvəl kəmərbəstəsi?
Zala samo Nərimannan bir danış.

Belə olanda çoban da gördü ki, Əsəd də tərpənməz bir dağ kimidi. Dedi, aşıx qardaş, qulaq as:

Yazda yaylaxlarda gəzər sürülər,
Quzu mələr, qoç qoyuna göz elər.
Pendiri, qaymağı tazə kərələr,
Ləzzət verər, o dəhannan bir danış.

Əsəd dedi:

– Çoban qardaş, çox yaxşı dedin, çox gözəl dedin. Hərə öz sənətinnən deyir. Necə deyir qulaq as:

Kimiydi dünyanı qoydu intizar?
Kimiydi xofunnan titrədi dağlar?
Əvvəlinci göydə neçə mələk var?
Yerdən, göydən, asimannan bir danış.

Belə olanda çoban bir az əl-əyağını itirdi. Əl-əyağını itirəndə Əsəd dedi:

– Çoban qardaş, nə oldu, bə niyə özüvu itirdin?

Deyir:

– Yox Aşıx Əsəd, elə bilərsən ki, mən çoxlarının meydanına düşmüşdüm, amma sənin yayıvı əlləməli dəyil, qardaş.

Deyir, yox qardaş, inşallah, sən də yaxçı diyirsən. Götürüb çoban belə deyir:

Çox bəd olar ağ qoyunun kürəsi,
Ləzzət verər, e bala qassan kərəsi.
Yay gedib, gələndə payız vədəsi,
Xoş məkannı o muğannan bir danış.

Əsəd deyir, qulaq as:

Nə ağaşdı yeməy olmaz barını?
Kimdi həqqə bəxş eylədi varını?
Necə dağdı heç ərtiməz qarını?
Yaranıpdı nə zamnannan, bir danış.

Çoban Mahmud gördü, əə, sözün dalısın belə uzuna getsə, sən öl, Əsəd bunu bağlıyacey. Dedi:

– Ə, mən səni bağlasam, sazıvı əlinnən alaceyəm. Sən məni bağlasan, bu sürü sənin ixtiyarındadı.

Belə olanda çoban götürüb görək nə cür deyir, nə soruşur? Genə mən deyim elimizin sağlığına:

Çoban Mahmud deyir, danışdım becat,
(Mənim sənnən bəhs eləməyim düz dəyildi.)
Mən dedim ruzivi alsam indicə,
İltimas eylərəm sənə bir gecə,
Qonaq olan o mehmannan bir danış.

Əsəd gördü ki, işin dalısı aydınnığa keşdi, işin dalısı dostluğa keşdi. Belə olanda Əsəd götürüb deyir:

Ay keşdi, gün keşdi qocaldın, Əsəd,
Bir gün bu topraxda ucaldın, Əsəd.
İndi de gör, nə günə qaldın, Əsəd?
Odu dedim, yol-ərkannan bir danış.

Söz təmam olub, çoban Mahmud da qoyunu yığışdırıb yavaş-yavaş gəldilər kəndə sarı. Kəndə yetişəndə Mahmud qabaxda getdi. Çağırdı: “Ay ana, ay ana, şami qəşəng bişirginən qonağımız var”. Anası dedi: “Başıva dönüm, özüvə də qurban olum, qonağıva da qurban olum”. Anası da ancax belə baxırdı ki, bir dənə uca boy, gözdəri qovur göz, göygöz (yanı, ustadın deyişinə görə, Aşıx Əsədin gözləri göy imiş, uca boy bir aşıx imiş) uca boy bir adam gəlir, yanında da bir az onnan xırdarax bir kişidi. Yaxınnaşanda amma çobanınn anası ürəy əldən verir. Baxır görür Əsəd keşməli dəyil. Gəlirlər yeməy-işməkdən sonra kəndə hay düşür ki, çoban Mahmudun qonaxları aşıxdı. Camahat aşıx səsini eşidəndə deyillər, ə, durun gedək bir az Maahmudun evinə bir az da aşıx gecə oxusun, bəlkə eyniyyətimiz açılsın. O nə cür diyəllər, qəm-qüssəmiz dağılsın. Gəlirlər Aşıx Əsəd bir az oxuyur, oxuyannan sonra bir iksini də oxuyur deyir:

– Ay qardaş, vallah yoldan gəlmişıx, yorqunux. Bir icazə versəz, biz daha yatax.

Belə diyəndə çoban Mahmudun anasının adı Banu xanım idi. Banu xanım belə baxdı, dedi ki, Əsəd, harda yatasan? Dedi ki, vallah, icazə versəz, yoldan gəlmişıx, biz yatax. Belə diyəndə dedi: “O cür söhbətimiz yoxdu”. “Nəmənədi?” Dedi: “Mənim ya cavabımı versəssən, bəyaxdan deyirsən gedirəm bir dənə qızın meydanına. Əvvəl mənim kimi burda xanımın cavabın ver, onnan sonra”. Amma əvvəl girəndə Əsəd soruşdu, Mahmud bə atan hardadı? Dedi, vallah, atam 6 ildi ömrün verib sizə. Belə olanda Banu xanım götürüb görək Əsəddən nə soruşur, nə deyir, nə hiss eliyir? Əsəd cavaf verə biləcəkmi, yoxsa yox? Tərəfimnən ərz eliyim görək sizin sağlığıza:

Başına döndüyüm, ay aşıx Əsəd,
(Axı xanımın gözünü qızdırıb Əsəddən)
De gəlib gedirsən, nə diyarə sən?
Səni sallam, sallam olmaz oyuna,
Tapammazsan öz dərdivə çarə sən.

Əsəd baxdı ki, dedi: “Elə nahardan bəlliydi, şama nə var?” Oğlunnan bəlliydi sənin kimi analar kürəyində durub. Bunu qə-

dimdən deyillər ki, hər bir müəffəl insanın hər bir o cür deyirlər, yetkin insannarın kürəyində ya bir yaxçı ana durupdu, ya bir yaxşı xanım durupdu, ya bir yaxçı ata durupdu. Dedi:

– Mən gördüm də day Mahmudun mənnən deyişməsinnən sənin kimi anası var. Əhsən ustadına!

Dedi:

– Cavaf ver, uzun danışma.

Oturannar, əyləşənnər dedilər, aşıx Əsəd, sən aşıxsan, o bir xanımdı cavabın ver da. Götürüb deyir:

Sənə qurban olum, ay Banu xanım,
Üz tutub gedirəm o Ucara mən.
Həqqə düz olana yetişməz bəla,
Sıtqın bağlamışam kirdigara mən.

Dedi:

– Əsəd, qulaq as:

Girərəm meydanə divanə misal,
Verəmməz cavabın Rüstəmi Səlsal.
Mənəm eşq içində şəmi suz hal,
Pərvanə tək yanacaxsan narə sən.

Əsəd dedi, qulaq ver, ay xanım:

Cavab verə bilməz rəngi-aşina,
Sən bir zənanəsən, mən bir mərdana.
Şəhpər açıb, əyər girsən meydana,
Bir tərlanam, baş əymərəm sarə mən.

Dedi, Əsəd, yekə-yekə danışma, qulaq as deyim da. Banu xanım götürüb deyir:

Əğil baxmaz böyük, uşax, zənana,
Bac verəmərəm hər yetirən nadana.
Sazı allam, özün sallam zindana,
Dinmə ki, düşərsən nahaq qanə sən,
Dinmə ki, düşərsən ahu-zarə sən.

Belə olanda Əsəd deyir ki, xanım, elə bil bir az çox yekə danışdın. Götürüb Əsəd nə görək, nə cür deyir, genə mən deyim elimizin sağlığına:

Çoxlar sənin kimi, xanım, gəlib başıma,
Amma tab gətimiyib, ee ər savaşıma.
Alam qucağıma, basam döşümə,
Onda eyliyərəm günün qarə mən.

Camahat da dövrədən, hər tərəfdən güldü. Banu xanım amma ürəkdən dedi, görəsən bu iş havat olacax?

Banu deyir, saralmışam, solmuşam,
Dərya təki qaynamışam, dolmuşam.
Həmdəmsiz otaxda, aşıx Əsəd, təkcə qalmışam,
Eylədin sinəmi hezar payə sən.

Əsəd deyir:

Əsədin sözünü ariflər qanar,
Bülbüləm, bağından eyləmə kənar.
İllər xəstəsiyəm, hey ürəyim yanar,
Müştəqam qoynunda bir cüt narə mən.

Belə olanda söz təmam oldu, Banu xanım Əsədin mənzurunu bildi, Əsəd də Banu xanımın mənzurunu bildi. Bu tərəfdən Banu xanım dedi, qardaş, day bular yorğundular, durun əyağa, çıxın gedin yatın. Camahat dağılışdı, camahat dağılışmaxda olsun Banu xanım güddü-güddü Mahmud da yatdı. Mahmud yatandan sonra Banu xanım gəldi Əsədin otağın. Əsədin otağına gəldi, gördü Əsəd belə yatıb kasıbın qaraçuxası kimi. Hey silkələdi o üzün-bu üzün, Əsəd birdən dik atıldı. Dik atıldı gördü Banu xanımdı. Dedi:

– Xanım, sən burda nə gəzirsən?

– Əsəd, sən Allah, neçə illər xəstəsiyəm, neçə illərdi– 6 ildi ərim ölüpdü, əgər izni icazə versən, isdiyirəm sənə gələm.

Dedi:

– Xanım, mən bi iştiğa görmərəm. Əvvəla, sənnən mən bir iş görsax, zina olacax. Bu iş ola bilməz.

Belə olanda, dedi, bə nə cür eliyim? Dedi, bəsdən bu iş olmaz, mənim özümün ailəm var, mənim özümün əhli-əyalım var. Banu xanım gördü yox, Əsəd yola gəlmir. Əsəd yola gəlmiyəndə götürüb sazın dedi, day mən istəmirdim camahatı ayıldam. İndi qulaq as. Götürüb görək Əsədə nə deyir, Əsəd cavab verə bilir? Əsəd əlindən qurtara bilir, yoxsa qurtara bilmir?

Amma Banu xanım ağızını açanda Şah Hüseyn balabançı elə bil cin gördü. Durdu əyağa:

– Ədə, nə olub? Əvi basıblar? Nə olub, Əsəd, nə olub?

Dedi:

– Day səs salma, hay salma, nə hay-küy salmısan?

Baxdı gördü Banu xanım bunun yanındadı. Banu xanım deyir:

Başına döndüyüm, ay aşıx Əsəd,
Əylənib mehmanım ol, sənə qurban.
Durub xidmətində kənizlər kimi,
Sən də aylarınan qal, sənə qurban.

Əsəd deyir, qulaq as, Banu xanım:

Sənə qurban olum, ay Banu xanım,
Hicran çox çəkmişəm, qala bilmərəm.
Bir qoca mehmanam sabaha kimi,
Əylənib mən səni ala bilmərəm.

Banu xanım belə görəndə deyir, Əsəd, qulax ver:

Bu dünya dediyin fənadı-fəna,
Vəfa qılmayıpdı sultana, xana.
Gəl verək ləb-ləbə, yetişək kama,
Qoluvu boynuma sal, sənə qurban.

Əsəd gördü ki, xeyir, Banu xanım əl çəkən dəyil. Deyir:

Əğildən naqissən, yazıx biçara,
Hər kəs nəfsə uyar, qalar avara.
Üqbada zinakar yanacax narə,
Qolumu boynuva sala bilmərəm.

Banu xanım gördü ki, Əsəd imtina eliyir. Ancax alıb belə deyir:

Gəl belə mənlə eyləmə kədər,
Yolunda qoyaram canım ilə sər.
İki qəlb bir olsa, işlər düzələr
Gəl verək əl-ələ, gəl sənə qurban.

Belə olanda Əsəd deyir:

Əsədəm, özümün xanımanım var,
Eldə şöhrətim var, adım-sanım var.

Gözü yolda sən tək bir sənəmim var,
Hicran iki oldu, gülə bilmərəm.

Belə olanda Banu xanıma razılıx verib, Banu xanım gecə 12 yarılarında getdi bir dənə mollanın qapısını döydü. Molla gözünü ova-ova çıxdı çölə, dedi bə cin gəlib: "Ay bismillah, ay bismillah, ay bismillah". Dedi: "Əə, nə bismillah, bismillah eliyirsən?" Dedi: "Axı gecə yarısı, ay Banu xanım, burda..." Dedi: "Uzun danışma, gəlginən Əsədnən mənim siğəmi oxu". Dedi: "Axı gecə yarısı vacib idi". Dedi: "Sabaha qalsa, qazanın dibi yanar". Qazanın dibi yanar, diyib bular gətirib, bəli, siğəsin oxudu. Bir on, on-beş gün də Əsəd qaldı burda. Əsəd qalıb burda, ancax bu tərəfdən Şah Hüseyin dedi ki, Əsəd, əgər sən burda qalsan, başıva dönüm, bildirçinin dəni də yanında, suyu da yanında. Mən çıxım gedim. Mən gəlmişdim əğyalıma çörək qazanmağa. Banu xanım bunu eşidəndə, ərindən bir az qızıldan, alçan-külçandan qalmışdı gətdi tökdü Əsədin qabağına. Dedi, bu puldan, qızıldan öz əhyalıva da yolla, Şah Hüseyinkinə də yolla. Dedi, sən Allah day ayrılıx söhbəti aşmasın. Yolladılar, yollıyandan sonra genə də beş gün qalıblar. Əsəd dedi, xanım, biz getməliyix, qalmalı dəyilix. Amma qəyidəndə, inşallah, səni aparram. Belə olanda hər ikisi ayrıldılar. Bəli, belə olanda ayrılıb Banu xanımdan yola düşdülər. Gəlhagəl, gəlib çatdılar Ucar şəhərinə. Ucarın bir qəhfəxanası var idi. Bu qəhfə sahabının adı Dəli Mahmud idi. Bu Dəli Mahmuddan az-çox camahat əvələn çox ehtiram elərdi, həm də zorru-zərri bir insan idi, camahat qorxardı. Əsəd gəlib otdu qəfəçiyə, dedi, bizə bir yaxçı bir çörək verginən, yemək verginən. Qəşəng buna bir cücə qızartdı, gətdi qoydu Əsədin qabağına. Əsəd sazı qoydu bir tərəfdə, yeməh-işməhdən sonra, Mahmud baxdı ki, bu gələn adam aşıxdı.

– Qardaş, aşıxsan?

– Bəli, aşığam.

– Nə əcəb olupdu yolun düşüpdü bu tərəflərə? Nə əcəb olupdu sən Ucara gəlibsən?

Dedi:

– Ay Mahmud, söznən desəm dilim yanar, icazə versən sazınan deyim nə olupdu.

Əsəd sazı götürüb, sazı zilbənd eliyə-eliyə dövrədən baxannar gördü ki, qəfədə aşıx sazı zilbənd eliyir. Yavaş-yavaş yığışdılar qəfənin içərisinə. Yığışanda Əsəd götürüb görək Şah Hüseyin balabançıynan köhlərin bir eliyib dik durdular ayax üsdə. (Ancax mən ustadımdan eşitdiyimə görə, ustada dedim ki, usta, sən Allah sən kimi gördün yaxçı saz çalan? Dedi, oğul, yaxçı saz çalan mən Əsədi gördüm. Böyük bəy deyirdi ki, əvvəl aşınalığı ki, aşıx Əziz Şahnaziynən ustad Əsəd Miskinin aşınalıxları Qərə qəyədə olub. Ustad getmiş imiş ora toya. Qərə qəyədə deyir dedilər ki, aşıx Əziz, aşıx Əsəd də gəldi. Deyir mən də çün o taydan gəlmişəm, axı özün bilirsən mənim atam Gəncənin o taylıdı da – Gəncənin Qasım İsmayılof rayonundandı, Dəli Məmmədi tərəfindən – Yol Qazaxlar kəndindən. Bu deyir ki, mən öz-özümə belə cavanam, çox da mağruram, deyirəm ki, o taydan gəlmişəm, nə şeirlər, sözdər var məndədi. Deyir, mən heş Əsədi hesaba qoymadım. Hesaba qoymuyanda gördüm bir nəfərdi, uca boy bir kişidi, gözdəri göy. Gəldi otdu, dedilər, aşıx Əziz, sən allah o sazıvı verginən aşıx Əsəd də birini oxusun. Deyir, mən hirsimnən getdim sazı belə verəndə, deyir Əsəd bu sazı köhlədi, saza bir mızrap vurdu, bir tazıyanə vırdı, mən dedim Allah yer açıleydi, mən gireydim yerə. Mən gərək Əsəd gələndə Əsədin əyağına dureymişəm. Mən Əsədin əlindən öpeymişəm, əyağından öpeymişəm. Əsəd durdu bir başdadı iqtidadan xəlq eyliyən qadiri-sübhan bizim, lo bizim, qələm bizim, məzhəbi-iman bizim, İslamidə şərt olunmuş natiqi – Quran bizim. Rahmani-rahimi bizim, Xəstə Qasımın belə sözdərindən başdadı. Dedi, oxudu qurtardı. Dedi, oğul, bura bax görüm muhacir balasısan? O taydan gələnə muhacir balası deyirlər. Muhacir balasısan? Dedim, bəli ustad. Bağışda mən nadannnıx elədim. Dedi, oğul, yaxşı oxuyursan, yaxçı söz bilirsən, amma aşıxlığın yolun bilmirsən. Sən gəlsən mənim yanıma, mən aylarnan toylara vəx verirəm. Gəl sən mənim yanıma mən səni yaxçı bişirrəm. Elə o udu ki, ustad deyirdi mən iki il, aşıx Əsədə şahiddıx elədim. Odu ki, aşıx Əsəd pişmiş bir aşıx idi. Aşıx Əsəd ustad bir aşıx idi.

Sazı çalır, camahat da dolur qəfiyə. Qəfiyə dolanda götürüb görək nə deyir, nə hiss eliyir, genə mən deyim. Buna da

Qərədağda "Qürbəti" diyəllər. Elə qürbətdə yaşıyan insanların hammısının sağlığına:

Başına döndüyüm, ay dəli Mahmud,
İtirmişəm bir ceyranı, gəzirəm.
Ucar mahalında qəzamətdədi,
Yaqub kimi mən Kənanı gəzirəm.

Dedi:

– Ay usta, qurban olum, kimin zindanındadı, haradadı, sənə nə cür olub xəbər gəlib?

Deyir, qulaq as deyim da:

Gəl sənə söylüyüm mərdi-mərdana,
Mənlə kəz başdıyıb çərxi-zəmanə.
Şagirdim bağlanıb düşüb zindana,
Məcnun olub, biyabanı gəzirəm.

Dəli Mahmud dedi, nigaran olma, yerdə də olsa, göydə də olsa, dəryanın dibində də olsa onu axtarıb tapaceyəm. Amma mənə bir balaca ip ucu ver da. Əsəd götürüb nə cür deyir, genə mən deyim:

Pünhannamə yazıb göndərib özü,
Sinəmə salıbdı bir yanar közü.
Adı Səltənətdi, əfəndi qızı,
Mən Əsədəm, o zənanı gəzirəm.

Belə olanda: "Mən Əsədəm, o zənanı gəzirəm", – Səltənət xanımın adı gələndə Dəli Mahmud əlini qoydu başına. Dedi:

– Niyə əlivi qoydun başıva?

Dedi:

– Ay aşıx Əsəd, çox yaxçı aşıxsan, insaf dəyil sən əlli yaşda öləsən.

– Necə öləm?

Dedi:

– Hə, o dediyin adam ki var, o dediyin 18 dənə aşıx bağlıyıpdı, deyirlər, bir dənə də aşıx elə Şəmkir tərəfindən gəlib, elə onu da bağlıyıb. Onu sən çətin bağlıya biləssən, qardaş.

Dedi:

– Qardaş, heş nigaran olma, onun əlin mənim əlimə versən, nigaran olma bağlıyaceyem.

Belə olanda xəbər göndərdilər Səltənət xanıma ki, bir aşıx gəlib səni isdiyir qəfədə. Səltənət xanımın bir əmqızısı var idi, Reyhan addı, çox aşığı Reyhan bağlamışdı. Heç Səltənət xanım da bağlamamışdı. Dedi, Reyhan, dur əyağa sazı da götür qızlarnan getginən bu aşığı da bağla sən gəti. Bağda işimiz-gücümüz tökülüp qalıpdı. Belə diyəndə Reyhan xanım sazını götürüb, min naz ilə, işvə ilə gəlir qəfənin qabağına. Belə baxdı ki, qəfə dolupdu. İçəridə bir aşıx oxuyur. Aşıx, sən öləsən, oxuyur sinəsi dərya kimi coşa gəlir, təlatüm eliyir. Girdi içəriyə baxdı, Əsəd dedi, bə Səltənət xanım gəldi. Oxuduğu yerdə sazı kəsdi. Sazı kəsdi, Reyhan xanım işarə elədi qızlarına – mənim sazımı gətirin. Götürübdü sazın alıb ələ deyir:

– Aşıxsan, yoxsa dolaşıxsan?

Dedi:

– Yox, elə Allah diyən olsa, aşıx ollam, dolaşıx olmaram.

– Amma elə bil sən pırtdaşıxsan, səndən aşıx çıxmaz.

Dedi:

– Uzun danışma. Verirəm sən öləsən, dərivi soyarlar burda.

Ancax bu tərəfdən Reyhan xanım min işvə, nazınan sazını köhlüyüb götürüb görək Əsəddən nə soruşur, tərəfimdən ərz eliyim bunu da bir “Gəraylı”ynan:

Söylə görüm haralısan?
Əvəl yerin bilim, aşıx.
Nabələdsən, yol azmısan,
Nişan verim yolun, aşıx.

Əsəd dedi:

– Ay xanım, qulaq as, indi yerimi də nişan verəcəyəm, özümü də nişan verəcəyəm. Hələ səni də bağlıyaceyəm.

Götürüb görək Əsəd nə deyir:

Mənim əslim iranlıdı,
Şəmkirbasar elim, ay qız.
Lalü-göhər sərrafıyam,
Düşüb bura yolum, ay qız.

Reyhan xanım deyir:

Ustasan, ustanı tanı,
Danışma hərzəyanı.
Səndə yox sərraf nişanı,
Dolaşdırma dilin, aşıx.

Dedi, xanım, sənə qurban olum, dedi elə əsli sərraf mənəm. Vallah, nadan-nudan nə bilir axı südün qədrin? Südün qədrin qısıran dana bilər. Dedi, uzun danışma, səni verrəm burda dərivə saman təpərlər. Əsəd deyir:

Danışdığın söz hədərdi,
Könlüm məndən mükəddərdi.
Sözlərim ləli-guhərdi,
Burda yoxdu alam, ay qız.

Belə olanda Reyhan xanım baxdı ki, Əsəd bını Səltənət xanım zənn eliyir. Götürüb deyir ki:

Hax veripdi muradımı,
Gətirrəməzsən tabımı.
Verəməzsən cavabımı,
Sənə tezdi ölüm, ay aşıx.

Belə diyəndə, dedi, ay xanım, ey kaş məni elə sənin dizlərivin üsdündə başımı kəsələr. Dedi, oğlan, uzun danışma. Alıb Əsəd belə deyir:

Sənin kimi nazəninnər,
Meydanıma çox gəliblər.
Sualımda lal olublar,
Mən qucmuşam belin, ay qız.

Belə olanda Reyhan xanım deyir:

– Məni ayrı adama oxşatma. Mən Səltənət deyiləm. Mən Səltənətin əmisi qızıyam. Reyhanam, mənə Reyhan diyəllər.

Qulaq as götürüb görək Reyhan xanım nə soruşur, genə də Əsəd cavaf verə biləcək, yoxsa yox:

Bəli Reyhanam, coşqundu sözüm,
Namərdin oydurram gözüm.
Bağlıyaram, allam sazın.
Kəsdirərəm dilin, aşıx.

Əsəd deyir:

Əsədnən meydan olarsan,
Düşüb atəşə yanarsan.
Sualımda lal olarsan,
Olar qeyli-qalın, ay qız.

Söz tamam oldu, Reyhan xanım gördü ki, aşıx Əsəd doğrudan da bildirməli dəyil. Ancax Səltənət xatir özün sındırmadı. Dedi, qulaq as, sən hələ harasını görübsən. Necə? Dedi, qulaq as, mən sənnən soruşum, sən gərək cavaf verəsən. Belə olanda Səltənət xanım yadına düşdü Reyhanın. Dedi, əyər bu mənim cavabımı verə bilsə, Səltənəti də bağlıyacax. Yox, mənim cavabımı verə bilməsə, Səltənət bunu bağlıyacax. Belə olanda Reyhan xanım sazın zildən köhlüyüb görək nə cür deyir, tərəfimdən ərz eliyək:

Məndən salam olsun aşıx Əsədə,
Əbəs yerə bu məkana gəlibsən.
Qəza toru salıb səni kəməndə,
Düşəcəksən, çox ziyanə gəlmisən.

Dedi, Reyhan xanım, qulaq as, vallah, mən toğludan, buzovdan- zaddan dəyiləm ki, xatircən ol, mən o aşıxlığın kəltə kəliyəm. Bu söhbətlər mənə kar verməz (Kəltə kəl üş yaşar kələ diyəllər ki, heş zadın qabağından qaşmaz). Götürüb görək aşıx Əsəd nə deyir:

Başına döndüyüm İreyhan xanım,
Hicranın əlindən cana gəlmişəm.
Eşq atəşi sinəm üsdündə qovr edib,
Səməndər tək yana-yana gəlmişəm.

Reyhan baxdı ki, Əsəd tərpənməz dağ kimidi. Götürüb belə deyir:

Düzgün cavab söylə, budur sualım,
Bura gəlməyində nədir xəyalın?
Yoxladım əğlini, seçdim kəmalın,
Batacaxsan nahaq qanə gəlibsən.

Əsəd deyir, xanım, elə kəş mənim başımı sənin dizivin üsdündə kəsələr. Dedi, uzun danışma. Dedim, verrəm gözdərivi oydurallar. Belə olanda Dəli Mahmud dedi:

– Başıva dönüm, qardaş, görüm neyniysən? Buların əlindən bu dövrə dar bezarrıyıbdı, ay başıva dönüm, bir kişi çölə çıxmır. Deyillər, kişilərdə qeyrət yoxdu buları bağlıya. Qurban olum sənə, kürəyindəyəm.

Dəli Mahmudun belə deməyindən Əsəd coşa gəlib götürüb deyir:

Düzgündü başımda əğli-kamalım,
Sinəmdə qaynıyır bəhri-ummanım.
Tutub şagirdimi Səltənət xanım,
Deyir, salıb o zindana gəlmişəm.

Reyhan belə baxdı ki, hə, bu axır tutulan şagird ki vardı, aşıx ki vardı bunun şagirdidi. Belə olanda tez Reyhan xanım deyir:

Səltənəti görcək tutular dilin,

(Deyirsən bəs Səltənəti bu sadəlıxda görə bilərsən? Sən Səltənəti görsən dil-dodağın tutulacax. Dilin tutulacax, gözün kor olacax, özün yıxılacaxsan. Dedi, ay xanım, həylə qərələrdən get uşaxlara, get gecə yuxluya bilməsinlər.)

İşıxlı dünyadan üzülər əlin.
Gözü yolda qalar əhli-əyalın,
Gedəcəksən, sən zindana gəlibsən.

Əsəd dedi, xanım, elə zindanda insanlardan ötürüdü də. İnsan eşqinin üsdündə zindana getsə heç zad eləməz. Belə deyəndə Reyhan xanım cəhənnəm kimi zəbanə çəkir. Əsəd alıb belə deyir:

Arzum budur, bircə görüm üzünü,
Əlim çatsa, ağladaram gözünü.
Bağlıyıb əlindən alaram sazını
O şəm olsa, mən pərvanə gəlmişəm.

Belə diyəndə Reyhan xanım dedi, oğlan, hərzə-hərzə danışma. Qulaq as, gör nə deyirəm, al əlimdən gəldi:

Uşax saymaginan ha Reyhanın yaşın,

(Aşıx Əsəd, baxmaginən uşaqlığa, böyükluğa dəyil. Ağıl başda olar, yaşda olmaz. Dedi, xanım, o əlbəttə ki, diyəllər ki, yaşıyan çox bilməz, çox gəzən çox bilər. Bu elə qədimdən misalımızdı. Deyir, məni uşax bilib gözünün qabağında deməginən ki, bir şey bilmir.)

Ağarıb tühlərin, cayıbdı huşun.
Səltənət bağlıyıb, kəsdirər başın.
Boyanarsan e qızıl qanə, gəlibsən.

Dedi, xanım, dedim da. Keşkə elə Səltənət xanımın dizinin üsdündə mənim başımı kəsələr. Bu tərəfdən dəli Mahmud dedi, qardaş, başıva dönüm, görüm neyniyəssən? Amma Dəli Mahmud bu tərəfdən Səltənət xanımdan yanqeydi. Ordan deyir ki, əlin götürüb: "Pərvərdigara, qurbanımı qəbul elə, bəlkə Əsəd Səltənəti bağlıya". Əsəd götürüb deyir:

Arzum budu kam alım,
Qərib şikar istər tərlan xəyalım.
Söylə Səltənətə, İreyhan xanım,
Səyyadam, o ceyrana gəlmişəm.

Söz belə olanda Reyhan xanım bını eşitcək tez qızlara dedi ki, qızlar gedək. Bular gəlməkdə olsun. Dəli Mahmud Əsədin böyrün kəsdi. Dedi: "Qardaş". Dedi: "Can qardaş". Dedi:

– Elə dədə-baba sənnən qardaş olaceyem. Amma bir söz deyim, qardaş, bı Reyhana baxma ha, Səltənət bulardan dəyil. Səltənət neçəsin bağlıyıb salıbdı zindana.

Dedi:

– Qardaş, nigaran olma ee.

– Qardaş, bax qorxma. Ucar mahalı hamısı mənnən qorxur. Gəl sənə burdan – yarı yoldan qayıdıb çıxıb gedəsən. Axırı budu ki, mən Ucarnan dava eliyəcəyəm da, qanlı düşəcəyəm da. Heş nigaran olma. Getsən, getginən.

Əsəd deyir:" Qardaş". Dedi: "Can qardaş". Dedi: "Qardaş, başıva dönüm, meydana gələn çətin qaçar. Əyər mənim kürəyimdəsən, onu de, Səltənətin kürəyindəsən, onu de". Dedi: "Qardaş, sənin kürəyindəyəm. O nəs sözdü?" Dedi: "Qardaş, əgər gördün məhkum oldum hammı bir qappaz vursa, sən beşin vur, qorxma. Hamma gördün ki, mən onu məhkum elədim dişit oğlu kimi sən xeyrin ver.

"Dişit oğlu kimi xeyrin ver diyəndə", baxdı Dəli Mahmud gördü ki yox, Əsəd ürəyi dolu danışır.

Reyhan xanım gəldi Səltənətin yanına. Səltənət baxdı ki, Reyhan çox pəjmürdə gəldi. Rəngi atmış, belə girdi içəriyə elə bil ilan bunu qovalıyır.

– Əmiqızı, nə olub, niyə belə gəldin?

Dedi:

– Səltənət, and olsun o həqq Allaha ki, ikimiz də inanırıx bir aşıx gəlib ki, İran-Turanda onun tayı tapılmaz. Necə tapılmaz?

Dedi:

– Hə, sən aşıx Qərəni bağlıyıbsan, onun ustadı gəlib.

– Olmuya Əsəd idi? Adı Əsəd idi?

Dedi:

– Hə, Əsəd idi.

Dedi:

– Ə, sənin gözüvə nə cür dəyir? Onun şagirdini mən belə bağladım heş ağızın da aşmadı, açammadı.

Dedi:

– Yox, bu sən diyənlərdən dəyil.

Belə olanda Reyhan gördü ki, yox ee, heç cürə eliyə bilmir, Səltənəti başa sala bilmir. Sazın götürüb, dedi, əmqızı, qulaq as, bu Qərə o Qərələrə bənzəməz. Bismillahi, aman yoldan keçəsən, deyəsən cin var, bismillah-bismillah rədd olasan. Bu bismillahi-zadı hesaba salan dəyil.

– Necə?

Dedi:

– Qulaq as deyim da. Götürüb görax bunu da dəstanıynan necə deyir, mən deyim elimizin sağlığına:

Gəl sənə söylüyüm, ay mələkzada,
Gəlmiyib cahana tayı Əsədin.
Danışanda dərya kimi qaynıyır,
Qüdrətdən verilib payı Əsədin.

Səltənət xanım baxdı belə deyir:

Bihudə danışma, hünərsiz qasid,
Söyləmə sözlərivi əfsanə, İreyhan,
Zahirdə zənənam, cəngidə aslan
Çoxlar gəlib bu meydanə, İreyhan.

Belə diyəndə Reyhan dedi, xanım, o cür dəyil ki, dedim sənə bu Qərə o Qərələrə bənzəməz. Sən bəyaxdan burda deyirsən, elə burda mənəm, Bağdatda kor xəlifə. Sən öl, bura bir Qərə gəlib ki, sənin Qərəvin üsdünədi.

– Necə?

Reyhan deyir:

Sinni keçib bilməm qırxı, əllini
Qorxu yox gözündə vursan gülləni.
Meydan atsan onda sözün bəllənir,
Coşqun da çağlıyır çağı Əsədin.

Belə olanda Səltənət xanım deyir:

Hər gədalar cəmalımı görəmməz,
Hər yetənnər meydanımda durammaz,
Sual etsəm cavabımı verəmməz
Bunu da salaram zindanə, Reyhan.

Bəli, Reyhan dedi, xanım mən deyirəm, sən eşidirsən. Amma meydanda görəsən. Meydan aşığı ayrıdı, bu meydan aşığıdı. Əsnəmiş nər kimi girir ortaya. Reyhan deyir:

Danışıb çalanda sazının simi,
Barmaxları dinləndirir nəsimi.
Sinədə təbi var dəryalar kimi,
Səni görməkdədi səyi Əsədin.

– Xanım, əlləşir ki, səni görsün.

Dedi:

– Neynək, qulaq as:

Bağladım şagirdin, billəm elmini,
Əğli azalıpdı, qocadı sinni.
Tutular zəbanı görəndə məni,
Qarqa neynər bir tərlana, İreyhan.

Dedi:

– Xanım, vallah, qarqa dəyil. O evi tikilən oğlan, əslan oğlu əslandı. Sən öl, qərəquş kimi şığıyıb adamın çəngəlin lülə çalır haa.

Dedi:

– Reyhan, o, səni çox qorxudub.

Deyir, qulaq as:

Sinni çox olasa da, cavandı halı,
Reyhanam, eylərəm səni xəbərdar.
Çağır meydanıva yığılsın Ucar,
Onda tutulacaq toyu Əsədin.

Səltənət alıb belə deyir:

Səltənətəm, qalmamışam avara,
Qolların bağlarım, sallam zindana.
Görərsən ki, olub cismi sərpara
Bais oldum bi piyanə, İreyhan.

Söz tamam oldu. Bular burda qalmaxda olsun. Amma gecəni Əsəd Dəli Mahmudun qəfəxanasında qalıb gecə danışdılar. Əsəd dedi ki, qardaş, qurban olum, qoymaginən naxaxlıx olsun. Naxax bir iş olsun. Nə cür? Dedi, qardaş, əgər qəribbasarrıx olsa, bırda məni bağlıyaceklər. Hamma sən kürəyimdə dursan məni çətin bağlarlar. Belə olnada Səltənət xanım car çəkdirdi Ucar mahalına, Ucar camahatına. Ucar camahatı bütöv töküldülər gəldirlər, şəhrin meydanında yığıldılar. Yığılandan sonra bəli, hal-hekayəni aşdı camahata dedi:

– Ay camahat, bilin Azərbaycanın Şəmkirindən bir aşıx gəlib, özü də əsli İrannıdı. O taylıdı, xiyoyludu, Əsəd adında. Mən şagirdin bağlamışam, gəlib mənnən deyişməyə. Burda sizin qabağınızda istiyirəm onnan deyişəm.

Əsəd dedi:

– Ay xanım, əgər icazə versən mən də bir söz dəyəm.

– Nədi?

Dedi:

– Burda qəribbasarrıx olmayacax. Onnan sonra sənin bir qazin olacax, mənim bir hakimim. Bir nəfər də olacax ki, bunların ikisinin sözünü təsdiq eləsin.

Dəli Mahmud dedi, başıva dönüm qardaş, həylə bax. Gətdilər Qara Musa adında bir kişini Əsədin hakimi elədilər. Genə də Səltənət xanımın da bir ayrı hakimi oldu. Bir nəfər də oldu ku, məxsus bunların iksinin sözünü təsdiq eliyə. Belə olanda bir az çörəkdən-çaydan içib yedilər. Yeyib-içəndən sonra Səltənət xanım baxdı ki, Əsəd heş özün bunda qoymur ki, meydana

giripdi. Axı meydana girənin bir rəngi artar, bir qiyafəsi dönər. Səltənət xanım sazın köhlüyüb, alıb döşünə girdi meydanın ortasına. Alıb görək Əsədə nə deyir, nə hiss edir, mən deyim tərəfimdən hamıya can sağlığı:

Səltənət xanım alıb deyir:

Dod eyliyib gələn aşıx,
Söylə görüm, nə karəsən?
Nədən ötrü aşkar eylə,
Gəlibsən bu diyarə sən?

Dedi, xanım, əvvalən mən bura gəlməzdim, mənim şəyirdimi sən bağlamaseydin. Onnan sonra Dəli Mahmud, hanı mənim şəyirdim-zadım? Mənim şəyirdim gərək bu meydanda ola. Döyrədən, dedilər, bəli xanım, düz deyir bu. Sənin o bağladığın aşıxların gərək hamısı burda ola. Aşıxların hamısını gətirdilər. Allah heş kimi yaman günə salmasın. Baxdılar gördülər ki, o aşıxlar ki xoş alvara naz eyliyir, o aşıxlar ki, quzu pilova naz eliyir, paltarları cırıx, üsdü-başdarı yaman vəziyyətdə, üz gözdərin tük basıb, gəldilər durdular meydanın qırağında. Amma Əsəd belə baxdı gördü ki, Aşıx Qərə başın salıb aşağı. Deyir, qulaq as xanım:

Çıxmışam Şəmkir elindən,
Gəlmişəm bu diyarə mən.
Darda qalan aşıxların,
Edəm dərdinə çarə mən.

– Xanım, mən öz başıma gəlməmişəm bura.

Dedi:

– Uzun danışma, qulaq as:

Beca çıxıbsan elindən,
Yazıxsan, qayıt yolundan.
Sazın alaram əlindən,
Rəhmim gəlir, biçarəsən.

Yazıxsan, axı qoca bir kişisən, rəhmim gəlir sənə. Belə deyəndə Əsədi bir ucadan qah-qah səsi – gülməyi meydanı aldı. Dedi, xanım, kaş elə sənin, sənin mənə yazıxlığın gələ. Hamma o cür yazıxlığın gəlməsin, haa, qurban olum. Aşıxlıxda heş kəsə

yazıxlığın gəlməsin. Qulaq as, gör mən nə deyirəm. Əsəd götürüb görək sinəsinə sazın soppasın döşünə görək nə cür deyir:

Seçilmişlər, göhar xanım,
Eşq içində Səməndərəm.
Bir tərlanam bac vermərəm,
Dövr eyliyən hər sara mən.

Səltənət xanım bir az rəngin atıb, bu tərəfdən də Dəli Mahmud dedi, başıva dönüm qardaş, qurban olum, görüm neyniyəsən haaa. Biz kişilərin üzün ağ eliyəssən? Dedi, qardaş, sənə demişəm, inşallah, bağlıyannan sonra dişi toğlu kimi xeyrin verəssən. Belə olanda Səltənət alıp belə deyir:

Səltənətəm, göylüm qəni,
Qəza qəhri tutub səni.
Sinəmdi elmin mədəni,
Mən bir dərya, sən bir adasan.

Belə diyəndə Əsəd dedi, xanım, sənin dəryalığıva da qurban olum, elə adalığıva da qurban olum. Qulaq as:

Əsəd sözün deməz hədyan,
Mən mərdana, sən bir zənan.
Sən olsan dəryayi-umman,
Qəvvasam o dəryaya mən.

Belə olanda Səltənət xanımın rəngi atdı. Amma Dəli Mahmud baxdı ki, Səltənət xanım özünü itirdi. Səltənət xanım gördü ki, əgər Əsəd düşsə qabağa bunun işi çətin olacax. Tez sazını köhlüyüb, dedi, qulaq as, götürüf görək Əsəddən nə soruşur, nə deyir, Əsəd cavaf verə bilir, yoxsa yox? Genə tərəfimdən ərz eliyim sizin hamıza can sağlığı:

Bizdən salam olsun aşıx Əsədə,
Əfsanə gəlifsən bu mahala sən.
Səni qərq eylərəm qəm dəryasına,
Əlimdən gələrsən tez zavala sən.

– Xanım, elə kaş mən sənin əlində gəlim zavala. Mənim başımı sənin dizivin üsdündə kəsələr. Dedi: “Oğlan, hərzə-hərzə danışma. Verrəm sənin dərivü soyallar”. Dedi: “Zorunan, ya xo-

şunan?” Dedi: “Elə zor da olsa, söz mənimdi xoş da olsa”. Belə olanda Əsəd alıb belə deyir:

Başına döndüyüm Səltənət xanım,
Yolum var gedirəm hər mahala mən.
Hicran xəstəsiyəm, qəm şikəstəsi,
Səyyadam gəzirəm bi qəzala mən.

Sənin kimi qəzal axtarıram elə. Səltənət xanım baxdı Reyhanın üzünə, gördü Reyhan başın salıb aşağı. Reyhan öz-özünə dedi ki, mən sənə dedim ki, day Əsəd olardan dəyil. Alıb belə deyir:

Səni tutub qəza, qəhri-zamana,
Sinnin keçib, ömrün gəlib tamama.
Qolların bağlıyıb, sallam zindana
Qan ağlıyıb, hey çəkərsən nalə sən.

Əsəd deyir:

Gəzmişəm mahalı, obanı, eli
Zindana salmazdar, qoca bülbülü.
Oxur, zöqa gəlir görəndə gülü,
Muştaqam üzündə qoşa xala mən.

Dedi ki, uzun danışma. Sinni olan sinnin tutmur. Özünən özüm tutmur.

– Get xanım, bura meydandı. Ayrı söz lazım dəyil.

Amma Səltənət xanıma, dövrədən hamı gülüşdü. Belə olanda Səltənət alıb deyir:

Anla mərifətdən, danışma ləvənd,
Boynuva saldırram zəncirdən kəmənd.
Zindan guşəsində eyliyərəm bənd
Əgər ki, düşəsən kəc xiyala sən.

Ayrı-ayrı xiyallara düşsən, sənin boynuva zəncir saldırram. Xanım, elə eşq zənciri kaş mənim boynuma dolana. Amma bu tərəfdən Dəli Mahmud ağacı qoyub yerə, dedi, qardaş, başıva dönüm, görüm neynərsən. Qardaşımdı ey, çoxdandı itirmişdim, indi tapmışam. Dövrədən deyirlər, Dəli Mahmud, bu havağın

qardaşıdı? Dedi, hə dədədən ayrıyıx, nənədən bir. Sən öl, yaman qardaşam. Belə olanda Əsəd götürüb deyir:

Cəngimə dayanmaz bəhrami-fələk,
Dəryayi-elmidə mənəm bir nəhəng.
İstəsəm qoyaram irəngbəirəng.
Saətdə düşərsən min bir hala sən.

Belə diyəndə Səltənət xanım baxdı ki, Əsəd sən öl əsrəmiş nər kimi, ağzı köprümüş nər kimi ağzınnan köpüy atır. Belə olanda Səltənət xanım deyir:

Adım Səltənətdi, özüm pür kamal,
Kimə nəzər sallam tez tapar zəllal.
Gücün çatmaz mənəm qəlyeyi-Salsal,
Bənd olub düşərsən siyah çala sən.

Dedi: "Xanım, elə qəlyeyi-Salsalı o zaman Rüstəmlin qoydu qurtardı. Day indi sənin əlivi qoymax lazım dəyil. Sən qələ də olasan, bağ da olasan, təpə də olasan, sən öl axırda başıvı alaceyəm.

Götürüb görək Əsəd nə cür deyir:

Öz adım Əsəddi, şöhrətim şüar,
(Yani deyir mənə şair Əsəd də deyəllər.)
Sıdqınan çağırram Heydəri-kərrar.
Yıxaram qələni, olaram taru mar
Kam almamış qayıtmaram dala mən.

Dəli Mahmud dedi, qardaş, qurban olum, o kamı sən alma, mən alım. Əsəd belə baxanda gördü yox, Dəli Mahmud Səltənətə aşıxdı. Bir çay-çörək gətiripdi, çay-çörək yedilər, işdilər. Dedi:

– Qardaş, o arada bir söz dedin axı başıva dönüm.

– Nə dedim?

– Dedin, mən kam almamış qayıda bilmərəm. Sən döndün dedin ki, o kamı qoy mən alım.

Dedi:

– Qardaş, Allah bunun evin yıxmasın, yazıxdı.

– Necə?

– Qardaş, bax indi yeddi ildi mən bundan ötrü sinə çat gəzirəm bax. Sinəm açıx, nə qədər ox atır atsın.

Dedi:

– Onun da göylü var sənə?

Dedi:

– Bə niyə yoxdu? El üzündən gələ bilmir.

Belə olanda Səltənət gördü ki, Əsəd belə məşquldu ki, dəli Mahmudnan danışmağa, ətəyin kəsəsən xəbəri olmaz. Dedi:

– Əsəd, səni bura çağırmamışam ki, gərdəyə-zada girəsən. Gəl, meydana.

Amma öz-özünə fikirləşdi ki, gəl bunu çəkək qıfılbəndə, qıfılbənddə bi şey bilməz. Götürüb görək nə cür çəkir qıfılbəndi, nə deyir, nə hiss eliyir, tərəfimdən ərz eliyim genə o taylı, bu taylı aşığa hörmət eliyən insanların yekbəyek hamısının sağlığına:

Sənnən xəbər alım, ay aşıx Əsəd,
Nar ağaşdı bar gətirər, gülü yox.
O kimdi ki, hər zəbanda danışar,
Cəsədi var, mədəni yox, dili yox?

Dedi:

– Xanım, oları vallah, mənim nənəm laylay əvəzinə qulağıma deyərdi. Qulaq as deyim da:

Sənə cavaf verim, Səltənət xanım,
O əncirdi bar gətirər, gülü yox.
O qələmdi hər zəbanda danışar,
Cəsədi var, mədəni yox, dili yox.

Səltənət xanım gördü, xeyir, bu bildiyi aşıxlardan dəyil. Bu nə desə, beşini də ondan izafə deyir.

– Səltənət xanım, sözün var, yoxsa yox?

Dedi, qulax ver:

Kim idi başını kəsdilər teşdə?
Kim idi əbrini minib sehr etdi ərşdə?
O kimdi ki, nazir olar hər işdə,
Hər işə qadirdi cismi, canı yox?

Dedi, xanım, bə nə cür olub? Sən əfəndi qızısan, sən bir sünni qızısan, mən şiyyə. Mən bilmirəm, sən bilirsən? Qulaq as:

Həzrəti Yəhyanı kəsdilər teşdə,
Əli bulut mindi, sehr etdi ərşdə.

Rəbbi-cəlil nazir olar hər işdə,
Qadirdi, hazırdı, cismi, canı yox.

Səltənət xanım gördü ki, nə disə bu diyəcax, cavabın diyəcax. Götürüb deyir:

Səltənətəm, nədi durmaz dolanı?
Neçə şeydən yaratdılar insanı?
Kim idi yedi əmri-sübhanı,
Kənardadı imanı yox, dini yox?

Əsəd belə baxdı, dedi, qulaq as! Genə onu da "Zarı Kərəmi"ynən deyir:

Əsədəm, kürreyi-zəmin dolanır, xanım,
Ərbəəədən yaratdılar insanı.

("Ərbəə" diyəndə dörd şeydən-ab, atəş, xak, baddan yaradılır insan)

Şeytandı nəhy etdi əmri-sübhanı,
Dərgahdan qovuldu dini, imanı yox.

Söz tamam oldu. Əsəd dedi:

– Xanım, mən dəyirmanın ət daşı deyiləm ki, bayaxdan başından döyürsüz.

Belə diyəndə dəli Mahmud girdi meydana. Dedi:

– Danışanın ağzına vuraram. Ədə, bu gələnnən indi üçüncü dəfədi bı Səltənət xanım bundan soruşur. Qardaş, indi icazə verin mənim də qardaşım soruşsun da.

Oturan hakimlər dedilər:

– Bəli xanım, düz deyirsən. Üş dəfədi soruşursan, Əsəd sənnən bir şey soruşmuyupdu.

Belə olanda Səltənət xanım labüd boyun əydi, dedi:

– Bəli. O da soruşa bilər.

O da soruşa bilər diyəndə belə olanda amma dəli Mahmud baxdı, qardaş başıva dönüm, görüm neyniyəssən? Qurban olum sənə, day ikinci meydana qoyma qalsın. Dəli Mahmud belə diyəndə Əsəd baxdı Şah Hüseynin üzünə. Şah Hüseyn Balabançıya dedi:

– Şah Hüseyin, qadan alım Şah Hüseyin, gəl hələ bir Şah Xətayiynən çal görax nə var, nə yox.

Sənnən xəbər alım Səltənət xanım,
O hansı ocaxdı narı yeddidi?
Üş yüz altmış altı bir bağ içində,
Hesab etsən əsli karı yeddidi?

Səltənət xanım dedi ki, fəqət meydandı ayrı söz danışmıyassan? Oların cavabın mən billəm. Alıb Səltənət xanım belə deyir:

Sənə cavaf verim, ay Aşıx Əsəd,
Cəhənnəmdi, namgüzarı yeddidi.
Üş yüz altmış altı gün bir il nisanı,
Həftələrdə ruzi namı yeddidi.

Yəni həftədə yeddi dənə gün var. Dedi, sağ ol, xanım. Mən deyirdim heş əvvəldə ütüdən çıxmıyassan. Hamma elə bil ki, yola düşübsən. Əsəd götürüb belə deyir:

Kim meyraca getdi Turi-Sinaya?
Söylə əvəl harda gəldi nə ayə?
Hansı yolun bərabərdi min aya?
Nə vacibdi ehtibarı yeddidi?

Səltənət xanım cavaf verir:

Musa meyrac etdi Turi –Sinaya,
Həraya iqra gəldi rəsuli ayə.
Şəbi-qədri bərabərdi min aya,
O namazdı, səcdəgahı yeddidi.

Əsəd belə baxdı ki, doğrudan qız çox dolu bir aşıxdı. Əsəd götürüb görax axır kəlməsin necə deyir, a qardaş, görüm Səltənət cavaf verə biləcək, ya yox? Dəli Mahmud o tərəfdən deyir: “Başıva dönüm, qardaş”. Ağacı alıb əlinə deyir, sən öl bir nəfər gəlsə, qıçın qırram. Dəli Mahmud meydan suluyir. Əsəd bir cövlan eliyir, bir fırlanır, götürüb görax nə deyir:

Əsəd, nədi əl dəyməmiş hörülər?
Nə məkandı yalan doğru durular?
Nədi yaranmışa qərzi verilər?
Nə surədi düz ayəsi yeddidi?

Səltənət xanım dedi:

– Bu sözün əslində mənası yoxdu.

Dedi:

– Xanım, mənası yoxdu get, gəl, imzala. Əgər mənası olsa, məhkum olubsan, mənası olmasa, mən məhkum olmuşam.

Səltənət xanıma labüd dövrədən dedilər, düz deyir da. Əgər sözün mənası olmasa, o məhkumdu. Amma hakimlərdən soruşdu. Dəli Mahmud, qardaş, bu sözün mənası var, yoxsa yox? Dedilər, bu söz çox mənalıdı. Səltənət xanım bilmir ona görə. Səltənət xanım labüd gəlipdi imzaladı ki, əgər sözün mənası olmasa, Əsəd bağlanıb, mənası olsa, mən bağlanmışam. Götürüb görək Əsəd onu nə cür deyir:

Ömür yaranmışa qərz verilər,
"Əlma undu" düz əyası yeddidi.

(Quranda bir "əlma undu" addı surə var. Onun yeddi ayəsi var). Belə olanda hər tərəfdən "əhsən" dedilər Əsədə. Amma Dəli Mahmud yetirib Əsədə Səltənət xanımın əlindən sazını aldı. Dedi, başıva dönüm qardaş, indi sən mənə xeyrin ver.

Səltənət xanım yeriyib qabağa dedi:

– Əsəd, insaf eylə mən sənin qızın sinnindiyəm. Düzdü şərtimiz budu ki, mən səni bağlasam, başıvı kəsdirəcəyəm, sən məni bağlasan, mənim ixtiyarım səndədi. Amma mən sənin qızın sinnindiyəm.

Dedi:

– Xanım, elə qiyamətin günü sən mənim qızımsan, mən sənin atan.

Səltənət xanım gətirdi bir dəst paltar və min manat da pul, qoydu Əsədin qabağına. Dedi:

– İndi olsun mən sənin qızın oldum, sən mənim atam. Düzdü?

Dedi:

– Hə.

Dedi:

– İndi icazə versən, ata bir məsləhət bilə.

Qıza heş bəlli dəyil nə diyə.

– Amma isdiyirəm səni verəm Dəli Mahmuda.

Çün Səltənət xanımın da ürəyindən idi. Dedi:

– Qızın vəzifəsi atanın sözünə baxmaxdı.

Baxdı ki, aşıx Qərə də Rehyan xanıma sarılıpdı. Dedi:

– Ay usta, başıva dönüm, elə o savabı eliyibsən iki sevənləri bir-birinə yetir.

Bəli, Reyhanı da aldılar aşıx Qəriyə. Tamam aşıxları da azad elədilər. Allah tamam bənddə olan insanları da azad eləsin. Burda bir neçə gün toy tutdular. Toyun axırında da aşıx bir duvaqqapma oxudu:

Ay aşıx, gəl qalx ayağa,
Ay qaçax sənnən danışax.
Əyləşənlər əhsən desin,
Sənə hər yannan danışax.

Danışdırax telli sazı,
Xilqət insandan danışax.
Eşqi nədən yaratdılar,
Alışdı cannan danışax.

Yaradandan əzəl nida,
Aşkar elə gəldi hara?
Nədən həqqin dərgahından,
Şeytan atıldı kənara?

Həxtaladan nə yetişdi,
Nara yalannan danışdı.
(Nə kağızdı həqiqətdən yazıldı, qarasızdı)
İki dərya yanaşıdı,
Kədərridi, arasızdı.

Əziz deyir, necə dərddi,
Cərrah gəlsə, çarasızdı.
Hər kəs əldən gedər,
Ayrılar xandan danışar.
Sağ olasız, şad yaşıyasız.

# GƏRGƏRLİ MƏHƏMMƏD VƏ MEHPARƏ XANIM

Gahdan yüz atəş kar etmir sənə,
Gahdan öz-özüvə alışıb yanırsan, gönül.
Gah da Məhəmməd tez gəlir coşa,
Gahdan əlim çatmır heç bir işə.
Gahdan dönürsən dəmirə, daşa
Gahdan şişə təki sınırsan, gönül.

Dünyaya neçə şayər gəlib, hər kəsən öz elminin qədərincən neçə kəlimə söz deyib gedib, xoş nəql olunub. Ustaddarımız, qədimdən belə buyurublar, bəli də istiyırıx ki, dostlara ərz eliyəx ki, Gərgərli Məhəmmədin hekayətini. Məhparə xanımnan nə cür olub buların sərgüzəştləri, sözləri? İstanbulda xotgar paşanın qızı bu Məhparə xanımıdı. Buna həqdən bir dəna bir pay yetişmişdi ki, ibarət idi ki, o da sələf şairlixıdı. Bu şair idi. Hər tərəfə bu namə yazdı, elaniyə elədi. Hər kəs məni sözinən məhkum eləsə, mən gedəcəyəm ona. Əgər hər kəsi bağlıya, məhkum eliyəm, salacağam zindana. Ta qırx nəfərəcən, qırx nəfər oldı, verəcəyəm çəksinlər dar ağacına. Bağışladı, güzəşt elədi yoxdi. Buyidi ki, aşıqlardan neçələri sazlarını götürüb gedirdi qızın meydanına. Qız buları məhkum edirdi, salırdı zindana.

Bir gün bu zindanalara qəza verəndə qız özü gəldi. Zindanda gördülər qız gəlib. Dedilər, hətmən görəsən bunun nə sözü var? Buları çıxatdı eşiyə düzüb, dedi bəs aşıqlar, siz burda qalmaqınan həməşə bir iş olmaz. Mən də sizi ki azad eləmiyacağam. Ta bir aşıx ola məni məhkum eliyə, ta onnan sora siz azad olasız. Bəs siz harda yaxçı aşıx yeri bilirsiz, mənə deyin. Mən olara götürüb şeirnən namə yazım. Əgər hünəri olsa, gəlsin mənim meydanıma, ya mən məhkum edərəm gəlsin o sizin yanıza, ya da məni məhkum eləsin. Ta sizi azad eləsin də burdan. Mən ki bilmirəm harda yaxşı aşıx var. Harda yaxşı olsa ki, siz bilərsiz. Aşıqlardan biri dedi, xanım, mən baxdım sənin gücüva. Bəli, bu dövrələrdə bizim kimi min dənə aşıx gətirəsən, heç belə sənin savadıva cavab verən olmuyacax. Amma İranı Azərbaycanda Təbriz var. O Təbrizdə iki dana aşıxların ustadı var. Biri

aşıx Babadı, biri aşıx Mənsum. Siz aşıxlardan elə aşıx Mənsuma bir namə yazasız. Olar gəlsələr, ta ki olardan olur ki, sizin sualıza cavap diyər. Qız buları dürüst örgəşdi. Addarı yaddaşt elədi. Gəlib evinə tarı istədi. Bir dənə dayələrdən çağırdı. O dayəni çağırdı ki, bu gözəl xo-xətti varıdı. Dedi:

– Dayə, mən bir qapan şeir oxuyuram. İrana oları elə yazarsan ki, elə düzəcaxsan xətti ki hər yanda hər kəs açıb oxuya, diyə – "afərin bu xətti yazana".

Xət yazmax, axı, neçə cürədi. Budu ki, indi o tarı aldı qoydu qucağına, dayə də qələminən dəftəri əlində amadə eliyipdi. Tarı köhlüyüb, zili zil bəmin bəm, dəmin dəm sinəsin üsdə müstəgəl. Təbi coşub, qız götürüb aşıx Baba, aşıx Mənsuma görax necə şeirlər yazır. Biz də ərz eliyirıx eşidən dostlarmızın hamısının sağlığına:

Məndən salam olsun, aşıx Baba, aşıx Mənsuma,
Ustad olsaz bizim meydanə gəlin.
Ya ustaddır adını götürün üsdüzdən,
Ya qəvvaz olsaz, bizim ummanə gəlin.

Sözləri belə yazır ki, bəlkə buların hünəri olsa təksid çəksin gətirsin. Dübarə sözün xatəməsini belə deyir:

Məhparəyəm, namə yazdım İranə,
Gərək aşıxları yığam zindanə.
Şairrıxda məni tək doğub aləm,
Hünəriz olsa, əgər meydanə gəlin.

Naməni aldı əyağında yazdı, özü də imzasın qoyub: "Aşıx Baba, Aşıx Mənsum sizi mənə burda-zindanda aşıxlar nişan veriblər. Mən ki sizi tanımırdım. Buların pənahı dəst gəldi sizə. Əgər ustad olsaz, aşıq olsaz, gəlib buları burdan azad eliyin. Aparın, ya da özüğüz da gedib bulara həmdərd, həmsöhbət olun, əgər gəlməsəz, elə aşıxlığı da tərgidin. Day sizin həqqiz dəyil ki, bir də saz götürəsiz, aşıxlıx eliyəsiz. Hələ qala ustaddıx". Bir neçə sözlər yazdı ki, buları ta ki, təşrifə gətirsin. Ağa, naməni yazandan sonra çağırdı bir nəfər qulam: "Bu naməni aparacaxsan İrana. İranda – Təbrizdə Aşıx Baba, Aşıx Mənsum deyirlər, yetirəcaxsan ona". Bu qul, ağa, alıb o zaman tay neçə aylarnan, illərnən orda söhbə-

timiz yox, indi müztəsər şirin dillərnən, bu qulam naməni gətirib o gün oldu yetirdi şəhri Təbrizə. Təbrizdən xəbər aldı. Deyillər, aşıxlar meydanı var burda. Sahabilərin meydanında aşıxlar orda meydan qurardılar, söhbət edərdilər, hər kəs öz doğmasıynan. Aşıx Baba, aşıx Mənsum da burda aşıxların ustadı idi. Axşamçağı dəxilə hər kəs oxuseydi, gətirər tökərdi buların qabağına. Bular olardan bir həqqi çıxardı – usddaddıx həqqi. Bu, xəbəri aldı, gəldi aşıxların, bəli, həmin yanına ki, meydanda söhbət edirlər. Xəbər aldı bir nəfərdən, ağa, bu aşıxların içində ustaddarın diyirlər aşıx Babeynən, aşıx Mənsum. Bu, nişan verir, dedi odu əyləşiblər dəxin başına. Bu gəldi ki, buların yanına, xub yavaşca əyildi:

– Ustad, salam.

Aşıx Baba, bir belə boylananda gördü bir şəxs. "Əleykəsalam", – əyləş görüm. Dedi, ağa, sizin üçün bir naməm var.

– Görüm?

Naməni çıxartdı. Mehparənin naməsini verəcək aşıx Babıya. Aşıx Baba aldı naməni oxudu. Baxdı gördü, bəli, aşıxlar Mehparənin zindanına düşüb, olar nişan veriblər buları. Çağırdı yoldaşı Aşıx Mənsumu. Aşıx Mənsum: "Bəli"-dedi.

– Qardaş, bax görax neynəməliyıx?

Bular hər iki namənin halından baxəbər oldular. Dedilər, ağa, siz indi əyləşin burda, biz gecə gedax evə, ta biz məsləhətdaşax iki dənə hamkar. Görax səhər çağı hansımız getmaliyıx. Qulam dedi:

– Mən gedim siz gəlin da.

– Nə? Elə əliboş nəyə gedirsən? Elə əyləşginən bu gecəni bizə qonaq ol, səhəri da bahəm gedax da. Biz də sənnən getsax beştər olar, çox yaxşı olar.

Qulam qaldı orda. Axşam çağı Qulamı gətirdilər evlərinə. Ta şamların yiyəndən sonra bular məsləhət elədilər. Amma bizim çün Aşıx Baba da qocalmışdı, Aşıx Mənsum da qocalmışdı. Aşıx Baba dedi:

– Sən geddin nə xos, aşıx Mənsum, mən sabah bilirəm elə siz gedəsiz. Mən nəyə lazımam? Day orda bir dənə qızdı da. Gedib Səmudu bağlıyıb gətiracaxsan.

Aşıx Mənsum dedi:

– Aşıx Baba, mən sənnən şərti kəsirəm, əgər gedən bağlıya gətirə, qızı mən alacam ha. Diyəsən ki, dölətindən, özündən sənə verəm, vermiyacam. Gedirsən, gəl gedax. İkimiz bahəm getsax, bağlasax, birimiz özün alacax, birimiz də hop dölətin, sərvətindən birqaradı bəxş istifadə eliyax. Amma sən getsən day mənim həqqim yoxdi, mən getsəm, sənin həqqin yoxdi.

Aşıx Baba dedi:

– Get sən. Görax nec cür olur?

Aşıx Baba, Aşıx Mənsumdan ustad idi. Belə fikir elədi ki, qabaxca bu getsin əgər bağlandı, məhkum oldu, zindana getdi mən gedərəm. Yox, getdi getsin da. Qərar oldu ki, aşıx Mənsum getsin. Ağa, səhər çağı həmin qızın bu qulamı ki vardı, bunnan bahəm aşıx Mənsum atdarı mindilər getmağa məşğul olsunlar. O gün olub, söhbətimiz dolu olmasın, Ustanbula yetişiblər bular. Qulam bir baş apardi buni, bəli, qızın yanına. Qapını döymək, kəniz gəldi qapını aşdı. Gördü qulam gəlir, bir qoca aşıx gətirir. Çox yaxşı. Varıd oldu, apardı bir dənə məxsus qonax otağı var idi, apardı o qonax otağına. Aşıx Mənsur əyləşib, qulam gəldi qızın yanına, dedi:

– Xanım, bəli, mən getdim Təbrizə. Bular ikisi də ustaddırlar. Bular ikisi də qabil ustaddır. Amma bir az ayıx ol. Sən cavan, bu qoca. Əgər məhkum eləsə, səni alacax.

Deyir:

– Düz deyirsən qulam, mən baxdım bunun əslən day cavanlıx asarı qalmıyıb bunda.

Qız neynədi, qız keçib aynanın qabağına özünə bir neçə qələminən ziynət vurub. Niyə vururdu? Bundan ötürü ki, bu qocanın, bu aşığın huşu getsin mənim gözəlligimin yanında. Amandı bu çoxdankıdı, köhnə. Düşdü getdi. Qız gəldi, getdi aşıx Mənsumun yanına. “Salam, Aşıx Mənsum”, – baxdı bu qıza, qıza baxanda gördü xudavəndi-hədiyyət kərəm dəryasıdı, cuşa gələndə bunu xəlq eliyib. Allah bunu o qədər gözəllik verilib. Aşıxa salamdan sonra “xoş gəlibsən” dedi. Dedi: “Xanım, xoş-naxoş gəlmişəm”. Bə niyə elə cavab verdi? Dedi:

– Xanım, iki dənə tələbix burda. Tələb tərəfə xoş gəldin eləsin deməz. Çün salam var da arada. Bə, bəli, mən səni məhkum eliyib aparacağam. Sən məni məhkum eləsən, zindana salacaxsan.

Dedi, düz deyirsən. Qız gördü bu aşıx çox ustaddardandı.

– Aşıx Mənsum, İrandan gəlmisən?

Dedi:

– Bəli.

– Xub, çox yaxşı, mən sizə namə yazmışdım. Aşıx Mənsum, heç sizinən biz meydanda camaat içində heç qabaxlaşmadıx. Elə burda sənnən iki kəlmə söhbət eliyax. Bəli, əgər görax mən sənə faiqaam, ya yox? İşimiz burda müxtəsər, roşən olsa, gəl insaf eləginan, məndən bir qədir dünya malı alginan. Neynək get sözlərivi İranda örgət o cavana ki, mənə layiq olsun. Gör insafdı mən sənə gedəm? Mənə layiq bir dənə oğlana örgədəsən sözləri, gələ burda məni məhkum eliyə. Ta mən də gedəm İrana.

Mənsum dedi: “Xub, eybi yoxdu”. Xanım da burda – qız Mənsuma bir dana söz didi, toxumdu söz dedi. Toxumdu söz deməyə görə Mənsum da bunun cavabını elə verdi ki, onun sözü üsdün oldu. Dedi, bəs mənə rıyazatdıx verəcaxsan? Dedi, nə cür gəlirsən qabağa, gəl rıyazatdıx verim. Öz sözün ha. Qız durdu o zamanda gətirdi bunun qabağına min dana lira qoydu. Bir dana yaxşı at, bir dəst əla libas. Bəs tamam buları verdi buna. Aşıx Mənsum çox-çox razı oldu. Min dənə liranı götürdü. Bu tərəfdən də qız, özünün əksini verdi Aşıx Mənsuma ki, bu da mənim əksim. Mənim əksimi hansı oğlana cavab bilsən, bu əksi də verərsən ona. Xülasə, söhbətimiz tulu olmasın.

Aşıx Mənsum burda atı minib, öz atını qoydu orda qaldı. Öz atı bu ata layiq deyildi. Durdu atı mınıb gəldi, vardı İrana. İranda yollarda tamam kərvannara ta dizlərin ki yolda gərraş edirdilər, nə mənə qəhrəman oğlannar olseydi qədim tacirlərin yanında olardı, baxır bulara göz qoyur. Kəddən keçir göz qoyur, obadan keçir nazar eliyir. Görür, yox, qıza layıx bir oğlan yoxdu. Dolana-dolana gəldi yetirdi ta bırda Ələmdar Gərgəz ki, vardı ikisi bir-birinə yaxındılar. Bəli, bu Gərgəznən bu Ələmdarnan

indi qarışıb bir-birinə bir xiyaban vurublar elə birdirlər. Gərgəz də varid olurdu ki, axşam çün isdiyirdi kəndə varid olsun. Gördü dağdan bir dana cavan şıkar edib, bir danə ahunu atın üsdünə yühlədi. Yaxınalaşanda gördü bir dənə qoca aşıx, cinahında bir saz. Varid olur bulara:

– Salam-əleyküm, ustad.

– Əleykə salam. El aşığı, xoş gəlirsən, səfa gəlirsən. Hara gedirsən, burda kim səni dəvət eliyib?

Dedi:

– Ay cavan, heç kəs dəvət eləmiyib. Elə isdiyirəm bu kəddə bu gecə qonax qalam, səhər getməliyəm mən Təbrizə, gedəcağam.

Amma aşıx Mənsum baxdı gördü ki, bu cavan elə layıxdır o qıza ki, hələ bir az da ləyaqətdə artıxdı ondan – gözəllikdə, insannıxda. Dedi:

– Xub, bura bax görüm, aşıx qardaş, elə əvvəldən bizə qonax olsan necədi?

Dedi:

– Çox yaxşı. Mən sizə qonax olacağam.

Bunun da, cavanın adı Məhəmməd idi. Məhəmməd bunu götürdü gəldi. Bu da tacirin oğlu idi. Varid oldu həyətdə atı verdi mehtərlər apardı, istirahətdıx eləsin. Bu aşıx Mənsumnan bahəm vardı içəri. Bir az çaydan-çörəkdən, xoş-səfa gəlmisən oldu, gecə bular şamları yedilər, işdilər ta ki, yerlərin salsınlar yatmağa Məhəmmədin anası, bacisi, qardaşları bular istirahətdiğa məşğul, Məhəmməd dedi:

– Aşıx, aşıxlarda yaxşı sözlər, söhbətdər olar. Bir-iki dənə belə qısa sözlərindən demədin istifadə eliyax.

– Yaxşı, deyim da.

Bu başladı öz sərgüzəştin dedi. Özü Məhparanın yanına getmağın, belə gəlmağın. Dedi:

– Xub, indi sən hansı oğlanı tapıb göndərəcaxsan ora?

Dedi:

– Vallah, hənüz tapıb göndərməmişəm. Amma cavan, mən layiq bilirəm ki, sizi göndərəm. Mənim çoxu da sizə ki gəldim

ha, qonax oldum, onu bilginən eydim, məramım, mətləbim budu.

Dedi:

– O qız necə qız idi?

Qızın əksin çıxardı verdi Məhəmmədə. Məhəmməd qızın əksini görmax, bu pərvərdigarın ta ki özünün bir nəzəri idi. Qızdan bir dənə məhəbbət oxu Məhəmmədin ürəyinin başından, kürəyinin ortasından o vaxt vızıltıynan keçsin. Məhəmmədin az qaldı huşu başından çıxa. Elə məhəbbəti əlaqə yetirdi bu qıza. Dedi:

– Aşıx, mənnən bu gecə həmsöhbət olduz. Amma keşkə vermiyəydiz mənə bu əksi. Niyə? Əslən səbri-qəralım alınıb.

Dedi:

– Olsun, eybi yoxdu. Gedərəsən onu orda məhkum edib gətirərsən.

Dedi:

– Canım, mən nəyinən məhkum eliyəcağam? Mənim sözüm yoxdu ki.

Dedi:

– Sənə sözü mən örgədərəm.

Dedi:

– Dur əyağa, de görüm o sözlərdən. Nəmənə diyacaxsan?

Deyir, ağa, gedax Təbrizli aşıx Baba məndən də ustaddı. Mən də öz bildıyım sözlərdən örgədim və aşıx Babadan da sən sözüyü al. Cavan, ikimiz də yaxçi, möhkəm sözlərdən səni örgədax, get o qızı məhkum elə. Dedi, çox yaxşı. Səhər nə vaxt olacax. Gecəni ilan vuran yatdı, Məhəmməd yatammır. Ağa, bular səhər durdular, namazların qıldılar. Elə ki, sübhanələrin yedilər indi aşıx Mənsum dedi ki, oğul, getməliyəm. Məhəmməd durdu ki, ana, mən bir gedirəm Təbrizə.

– Nəyçün bala?

Dedi:

– Darıxıram, gedim görüm nə var, nə yox?

Dedi:

– Darıxman yoxdu sənin. Atıvı minginın get şıkarıva filan. Təbrizdə sənin alverin yox, bir şeyin yox.

Dedi:

– Anacan, darıxıram gərək gedəm.

Olmadı da. Durdu mehtərə deyib, atı yəhərlədi, atı mindi aşıx Mənsurnan bahəm gəlsinlər Təbrizə. Aşıx Mənsum gətirdi apardı bunu evlərinə. Aşıx Babıya xəbər verib. Gecə aşıx Baba gəldi buların yanına, Məhəmmədi gördü. Gördü bir dənə cavan gətirib, elə bilginən ki, mislən bir dənə mahdı:

– Bunu hardan gətiribsən? Cərəyan nə cür oldu? Sən getmişdin qızdan ötrü.

Dedi:

– Bəli, getmişdim qızdan ötürü, eyni cəryan nə cür ki, ərz eləmişəm aşıx Mənsum aşıx Babıya başa saldı. Xub, indi bu cavanı gətirmişəm, buna sözlərimizdən örgədax. Ta bu getsin, bəlkə o qızı məhkum edə. Dedi, çox yaxşı, xub, belə rəva bilmisən də. Bir az şamların-zaddarın yiyəndən sonra indi aşıx Baba dedi hə, oğul, indi bu sözlərdən örgəş görüm, nə cür örgənirsən? Bu aşıx Baba başladı bu oğlana bir qırax söz dedi. Oğlan höccə elədi, gördü xeyir, rəvan diyanmır. Beş-altı dəfə döndərdi sözü, birdən narahat oldu ustad. Dedi, bunu öz xoşuna qoysax, bu örganmaz. Bi dənə ustad odu ki, nümunə bir dənə pərsənd zildən yavaşladı. Elə örgənirlər. Məhəmməd narahat oldu, Məhəmməd zilli görmüyüb, çoğunu eşitmiyib. Narahat olanda dedi:

– Usta, kifayətdi. Mən sizdən bir dənə xahişt eliyirəm. Mən çün yorqunam, yuxusuzam. Mən örgənəmərəm. Gecəni yatax, səhər çağı mən, çünki fikrim rovşən olar, tez örgənərəm.

Dedi, çox yaxşı. Durdular bular istirahətdıxnan məşğul oldular. Bular yatsın, eşit Məhəmməd də qızın eşqi məhəbbətindən yatammır. Bu yandan da işi bu cür çətin gördü. Neynədi, bular yatıb bu ağladı gözünün yaşını tökdü. Allah, bu nə sovdadı mənim başıma gəldi? Şox narahat olandan sonra Məhəmmədi xab tutub, xab tutmax üsdünə ki, sayə saldı. Yerin ləngəri, ərşin sutunu, şiyələrin əvvəlin ağası bir dənə mübarək dəstində badə gəldi ki: “Al Məhəmməd, bu badəni iç. Narahat olma qızın barəsində. Getginən, qızı məhkum eliyib gətiracaxsan”. Məhəmməd badəni içmax, ağa, bir, iki-üş kəlimə Məhəmmədə söz buyurdu.

Bir zaman gördü ki, özü qayib, ruhi zahid. Ağa, neynəsin Məhəmməd? Ayıldı yuxudan, gördü sinəsi oldu bir dənə dəryayi-ümmandan da çox-çox izahə. Elə sözlər gəlir sinəsinə ki..... Gecə olsun, səhər Məhəmməd durub namazın qıldı, məşqul oldular ki, bir-iki tikə çörək, çay içəndən sonra ustadı dedi:

– Hə, oğul, gəl bura görüm, indi zehnivin yaxşı, duru vəxtidi. Mən deyim, bəlkə sən sözləri tez cavannıyasan.

Ağa bu cür olanda Məhəmməd dedi:

– Qulaq as görüm, mənim bir, iki-üş kəlmə özümün zehnimdə söz var. Bu sözlərdən desəm nə cürdü?

– Nə sözü?

– Oxumax sözü.

Dedi:

– De görüm, nə cür sözdü?

İndi Məhəmməd isdiyir ki, ustada belə söz nişan versin.

Ahu-zar eyliyib qəm çəkmə, göylüm,
Əlbət bizim də candan yanananımız var.

Sənə qurban olum, ey Məkkəyi-əmin,
Sənin hökmündədi ərş ilə zəmin.
On bir övladıynan cənabi-əmir,
Onlar kimi bizim də həqqi imanımız var.

Dedi:

– Ustad, mən ümidvaram ki, ta müvəffəq olam ta o qızın yanına getmaxda.

Dedi:

– Cavan, bu sözlər kimin sözüdü? Gərgərli Məhəmməd burda sözlərin tamama yetirir:

Şah Nəbi, şah Təqi, şah ovlüyadır,
İmami-Həsən əskəri, müşükülü guşadır.
Gərgərli Məhəmməd diyir, dərdə davadır,
Şahidiz-zəmanə gümanımız var.

Aşıx dedi:

– Ay Allah, bu sözlər axı Məhəmməd, özüvündü?

Dedi:

– Bəli.

Dedi:

– Bəs sən gecə niyə bulardan diyə bilmirdin?

Dedi:

– Ağa, gecə bir ayrı, indi halım bir ayrı. Mən sizdən icazə isdiyirəm. Bir kəlmə ayrı sözə ehtiyacım yoxdu day. Ustadlar ustadı, mənim dərsimi verdi, icazə versəz mən elə xəstə olmalıyam.

– Hara gedirsən?

– Gedirəm o qızın meydanına. Canım, sözün var?

– Bəli, day sözüm yox, kifayətdi.

Bular annadı ki, bu gecə nəyin nəsidi. Çox yaxşı, durub əyağə Məhəmmədi yola salsınlar, aşıx Baba öz sazın da verdi Məhəmmədə. Yola salsınlar Məhəmmədi, o da getmaxda olsun. Hara getdi? Məhəmməd bir baş gəlip öz kəddərinə. Gələ-gələ anası gördü ki, Məhəmməd gəlir, vəli əlində bir dana saz gətirir:

– Oğul, Məhəmməd!

– Bəli.

– Oğul, onu neyniysən?

Dedi:

– Anacan, getmişdim Təbrizə. Day burdan aldım gətirdim də.

– Neyniysən?

Dedi:

– Hərdənbir çallam, məşğul ollam da. Amma bu sazdı da. Anacan, sazdı da. Sazın ki, bir zadı yoxdu. Zərəri yoxdu xeyrindən suvay. Hə, hə çalanda qəmli göyülləri şad eyliyir.

– Çox yaxşı. Eybi yoxdu.

Məhəmməd yetirib başladı o sazı çalır. Sazı bir dindirmax, amma neynədi gördü xeyir, eşqi-məhəbbət dahı çıxarır. Gecəni səhər elədi, səhər çağı Məhəmməd durub əyağa, tadarük görür libasların-zadın geyinib isdiyir ki, getsin Məhparəyə. Anası gördü Məhəmməd ayrı tadarükdədi:

– Oğul!

– Bəli.

– Hara belə geyinib hazırlaşırsan?
Dedi:
– Ana, isidyirəm bir səfər edim.
– Nə səfəri?
Dedi:
– İsdiyirəm də bir səfərə gedam da.
– Axı sənin bir səfəruvun, bala, adın bir də görüm mənə.
– Anacan, isdiyirəm bir Ustanbul səfəri eliyəm.
– Ustanbula nə üçün, ay oğul?
Dedi:
– Anacan, belə da düzü məhəbbətim qalxıb gedirəm ora.
– Canım, mən bilmirəm.

– Anacan, qoy sizə ərz eliyəm. Bəli, mənim ora məhəbbətim var getmağa. Çün orda bir Məhparə xanım var. Aşıxları bağlıyıb zindana salır. Mən də bu sazı almışam bir gedim görüm bu qız nə cürdü.

Dedi:

– Bala, əgər qızdan ötrü gedirsən, sənə bu dövrədə yaxçı-yaxçı qızlar yeri görmüşux. Birini intixab eliyib alacaxsan, getmiyacaxsan. Qurbətə da getsən mən sənsiz narahat ollam. Əgər gedəsən sənə halal eləmərəm, getməginən.

Məhəmməd gördü belə sözlərnən ana heç nədə razı dəyil bu getsin. Sazı köynəyindən çıxartdı ki, ana, məni günahkar eləmə. Qulaq asginan, neçə kəlmə sənə sözüm var. Mənim bu ərzlərimi qəbul eylə. Məhəmməd orda belə deyir anasına, mən də ərz eliyim tamam əziz dostlar sağlığına:

Başına dolanım, mehrüban anə,
Etdügüm günahım nə, bağışla məni.
Əmmişəm südünü mən qanə-qanə,
Ana, Əliyi-İmranə, bağışla məni.

– Ay bala, niyə Əliyi-İmranə şəki gətirirsən? Axı, mən sənsiz dözə bilmərəm. Nə üçün gedirsən, ay bala?

Deyir, ana, qulaq as:

Səhər-səhər çıxan dan ulduzudu,
Kölgədə bəslənmiş əmlik quzudu.

Adı Məhparədi, xodkar, paşa qızıdı,
Aşiqəm o canana, bağışla məni.

– Ay bala, qadan alım, ay oğul, sən gedirsən mən dözə bilmərəm. Nə cür eliyim? Amma getsən, tez gələsən.

Deyir, ana, yubanmaram qulaq asginan. Alıb sazını:

Məhəmməd də gedir qürbət ellərə,
Bülbül olan həsrət çəkər güllərə.
Məcnun Leylidən ötür,
Ana, düşmüşdü çöllərə.

Cavandı da, cavan məşuqədən ötürü qürbətə gedər, çöllərə düşər, yollar gedər. Nə olar? Dedi:

– Anacan, oxunan Qurana bağışla məni. Sənin rızayətin olmasa, sən dua eləməsən mənim dalımcan, ana, mənim işim rast gəlməz. Bəlkə sən dua eliyəsən, Allah kömək eliyə, mən o qızı məhkum eliyəm. Aşıxlar zindandadı. Zindanda aşıx olmaseydi getməseydim də olardı. Olar yazıxdı-aşıxlar.

Anası aşıxların zindanda olmağın adı gələndə dedi ki, ay bala, söz başarmırsan. Dedi, ana, beş-altısını bilirəm, sən ərxeyin ol məndən. Dedi, oğul bala, get bəs Allaha tapşırdım səni. Amma ki, işin düşdü, əgər qızı məhkum eləsən, tez gələsən ki mən narahatam. Zindana düşsən kağız yazasan bilə. Söhbətimiz dolu olmasın, Məhəmməd anasından xudafiz elədi, rahı-rəvan oldu. Məhəmməd getmağa məşgul olsun. Bəli, o zaman aylar, illər indi bir müxtəsər. Gözəl, şirin illər, o vaxt olupdu ki, Məhəmməd yetirib Məhparənin şəhrinə. Ustanbulda bu ki, xodkar paşanın qızı idi, amma hər yanda aşiq ki vardı eşitmişdilər, gedir aşığı salır bu zindana. Day o aşıx ki danəndə idi, söz bilirdi, qorxusundan bu qızın meydanına girə bilmirdi. Məhəmməd varid olur bir dana karvansarıya. Karvansarədə atı təvil verdi, bir dalandar olardı karvansarada. Dedi, qardaş, mən bir neçə gün bu şəhridəyəm. Bilmirəm bir ay, bilmirəm iki ay, bilmirəm ki, yayın ki, beş. Bu atı sənə tapşırıram. Səni tapşırıram Allaha, əgər buna qəsd eləsən, Allah sənə qəsd eləsin. O zaman apardım, necə isdəsən pulu verəcəm. Məhəmməd gəlib getdi bir dana müsafirxanıya. Varid olsun orda bir dana yer tədarük. Yimax-içmax-

dan sonra Məhəmməd durub başladı bu şəhridə bir gəzir. Görüm hələ nə var, nə yox? Məhəmməd bir dənə kuçeynən gedirdi, burda bir dana tükandar varıdı. Tükandarın adı İbrahim, bu da İrandan getmişdi. Orda güzarı belə düşmüşdü ki, burda bir tükan aşmışdı. Yaxşı sərmayə saxlıyırdı. İbrahim gördü bir dənə cavan bir oğlan əcəm oldu, keçdi bu hissə sarı. Aman Məhəmmədi görəndə İbrahimın əslən məhəbbəti coşa gəldi. Tez qapıdan çağırdı, ə oğul, oğul. Məhəmməd gördü bunu çağırırlar. Məhəmməd belə qayıdanda baxdı gördü bir nəfər bunu çağırır.

– Nə var?

– Bura gəl.

Məhəmməd gəldi salam, əleykəsalam.

– Gəl bura görüm, mənim nəzərimdə sən əcəm uşağısan.

Dedi:

– Bəli.

– Havaxt gəlibsən?

Dedi:

– Elə bu gün gəlmişəm.

– Çox yaxşı.

– Nə əcəb?

– Əcəb camala gəlmişəm burda görüm işdən-zaddan olsa görəm. Bir az burda məşğul olam.

Dedi:

– Çox yaxşı, elə mən iranlıyam. Yaxşı rast gəlmisən mənə. Bu tükanda mənnən bahəm işliyə bilərsən?

Dedi:

– Niyə işliyə bilmərəm?

– Təkəm, yetirə bilmirəm.

Məhəmməd dedi, çox gözəl. Məhəmməd dedi, məni şirkət eliyirsən işliyəm, ya şagird tutursan? Dedi sərmayən olsa, şirkət eliyərəm, olmasa hələ bir az şagirddıx işlə, elə ki pulun oldu şirkət olar. Məhəmməd dedi, xeyir, pulum var. Qoydular dükkanı arıya. İki gün, üçümüncü gün Məhəmməd xırda-xırda isdiyir ki, işi ələ alsın, görsün nəyi nədi. Bir zaman gördü bir nəfər baş-

dıyıb əlin qoyub qulağına zarıya-zarıya gedir ki, sabahları tükan, bazar bağlıdır, paşanın qızı həmama gedəcək. İbrahim dedi:

– Hə, gedax tükan bağlamamız gəlir.

Məhəmməd dedi:

– Nədir qardaş, bu nə deyir?

Dedi:

– Burda bir dənə xodkar paşa var, onun bir qızı var, adı Məhparə xanım. Onun da əzqaza yolu düşüb bizim bu kufədə. Həmam burdadı, gedər bu hamama onda gərək biz bu tükan-bazarı təmiz bağlıyax.

Məhəmməd dedi:

– Bax, İbrahim qardaş, mənə bir o iş əl verməz.

Dedi, mən bağlıyamaram. Dedi, canım, sənnıx deyil ki, bağlamıyasan. Gedib elə tükana od vurallar. Bildin? Uçurdarlar tükanı, öldürələr özümüzü. Dedi, isdər neyniyələr mən tükanı bağlamıram. Mən dünən sənnən tükan şirkəti olmuşam. Hələ nə qazanc eləmişəm ki, indi də tükan bağlıya, bizi yandıra. İbrahim nə qədər dedi, bu qəbul eləmədi. İbrahim gördü olmadı, dedi, qardaş, bura bax görüm, sənnən şirkət olmuşux, indi dəyəruvu versəm, bir azdan gedərsən? Dedi, xeyir, hara gedirəm? Dedi, bəs bölax da. Tükanın iki dənə qapısı vardı. Xub, böldülər, biri düşdü Məhəmmədə tərəf, biri İbrahimə tərəf. Şeyləri böldülər. İbrahim dedi, nə cür bölürsən, böl. Məhəmməd götürdü şeyin qiymətdisini qoydu öz tərəfinə, bir qiymətdini qoydu o tərəfə. İbrahim durdu baxdı ki, hə, necə eliyir eləsin, bunun şərrindən qurtulum. Mən baxıram bu şələşür adamdı. İbrahim bağladı (dükanı) qoydu getdi, dedi özün bilərsən.

Məhəmməd səhər sağ olub, hammı tükanı bağlıyıb Məhəmməd tükanı açdı. Tükanın qabağın suladı, süpürdü səliqəli. Bir dənə səndəl qoyub ora. Döndü bu sazın da gətirdi bura. Məhəmməd oturub səndəl üsdündə, sazı qoydu qucağına bala-bala məşğul oldu. Sazı dindirir. Camahatdan gəlib keçənlər görürlər bir dənə cavan oğlan tükanı açıb, özü də saz çalır. Deyirlər, ay canım, bu, nəbələddi bu yazıx.

O vaxt oldu Məhparə, Məhparə əyləşib salıskanın içində. Salıska da o zaman o fayton vardı, bu yaxın zamanacan faytonların adına “salıska” diyərdilər. Salıskanın içində əyləşib. Neçə dənə qulamlar sağda, solda, kənizlər həmçinin məşğuldular. Bala-bala gəldi. Bir zaman gördülər qabaxda bir tükanın qabağında bir nəfər oğlan oturub, özü də saz çalır. Xanım, bəli, orda bir adam oturub. Xanım bir belə baxdı, gördü bir cavandı əlində sazı. Dedi, qaçın gedin onun əlindən sazı alın, o tükanı bağlıyın. Özünə də bir cüt çəkin, başarsaz salın tükanın içinə, qapını bağlıyın, qıffıllıyın qoy qalsın içəridə. Hamama dəyəndən sonra açarsız, gedər azad olar. Qulamlar əllərində hərbə yetirdi. Cavan, məgər sən bilmirsən ki, buyun höküməti-izamdı, tükan-bazar bağlıdı? Niyə aşmısan? Dedi, qardaş, niyə ki paşanın qızı gedir? Dedi, oğlan, özüva yazıxlığın gəlmir? Dedi, ağacan, bilirəm, vəli mən buranı iki-üş gündü almışam. Zərərim hələ ki vardı ki, xeyrim yoxdu. Eybi yoxdu, xanım gələr burdan keçəndə mən diyərəm mənə güzəşt eliyər də. Məni görməmiş hesab eləsin. Çün tazə asmışam. Dedilər, heç yerdə belə iş olmaz, dur tükanı bağla. Bu Məhəmməd o qədər dayandı buların söhbətinə. Xanım soruşdu ki, nə deyir, niyə bağlamırsız bə? Dedi, xanım, deyir qızın özünə mən ərzimi diyərəm, mənim tükanımı bağlamasın. Nə deyirsən, oğlan? Məhəmməd durub belə keşdi salıskanın yanına. Belə baxanda gözü sataşdı qıza. Hə, Məhəmməd gördü ki, bir dənə gözəldi Allah-təala xoş dəqiqədə xəlq edib. Xülasə, Məhəmməd sazı götürüb çəkdi salıskanın qabağına. Ay nazənin, əzizim, mənə icazə ver mən dərdimi sənə saz-söznən deyim. Mənim tükanım bağlamalı tükanlardan dəyil. Məhəmməd görax qıza necə ərzini deyir, mən də ərz eliyim tamam dostlar sağ olsun:

Gedən dilbər, vəzirgansan, xacəsən,
Əksik olmaz düzdü gohər, çən səndə.
O xumarca baxışın aldı canımı.
Əgər ötər olsan, mən getmərəm yar sənsən.

Aşıqəm, yaranannar,
Yarın sözünü yar annar.

Sözü de bayatıynan,
Arif olsa, yar annar.

Qız söylədi ki, bu nə deyir. Deyir ki, sən də ki getsən kənara, mən sənin yanında kənara getmiyəcağam, əl çəkmiyacağam səndən. Dedi, canım, nə dedin? Çəkin bu tərəfə, bu nə sözdü deyir?

Məhəmməd sözünü təmamə yetirəndə qız qeyitdi ki, ay oğlan, verirəm səni burda öldürəllər ha. Cavansan yazıxlığın gəlsin özünə, ana-bacına. Məhəmməd dedi:

– Xanım, mən ölümdən qorxmuram. O, hərvələri mənə gəlməginan, dayələriva gəl, sözüva baxsınlar. Məhəmməd qızın o cür dimağına, sözün tapşırmasın belə deyir:

Məhəmməd tək sövür alagözün sürməsin,
Siyah zülfün dar gərdəndə hörməsin.
Aşiq fəxri bilər, ay qız, yar yolunda ölməsin
Öldürsən də istəməz qal səndə.

Dedi:

– Xanım, dilimdən kağaz verirəm, məni öldürərsən heç kəs qan tərəqqisi eləmiyə.

Qız dedi:

– Bu belə bilir ki, ay qullar, cəlladdar, mənim buna şuxluğum vardı.

Məhəmmədi elə vurdular ki, Məhəmmədi vurmaxda qız dedi, sürün bunun xatasından qurtulax. Salıskaçı salıskanı sürsün, qullar Məhəmmədi vurdular. Bu bir qədir gedəndən sonra dedi, ay canım, yazıxdı, bu bir dənə aşıxdı, day bunu niyə vurursuz? Day bəsdi də. Qız qoydu çıxdı getdi. Məhəmmədi ötürdülər. Dedilər:

– Ay cavan, sənə biz day qıymadıx ha. Eşitdin? Dur əyağa, çıx əkil get ha, biz getdıx. Məhəmməd durdu oturdu. Baxdı gördü qız gedib.

Məhəmmədin canı alışır. Məhəmməd belə havalandı, sazı alıp qucağına bu dillərdən belə sözlər oxudu. Mən deyim tamam dostlar sağlığına. Məhəmmədə bir qədir camahatdan durub tamaşa eliyirdilər. Odu ki, Məhəmməd bu sözü belə dedi:

Ayıxlar sərxoşa eylər tamaşa,
Saqi mələk bir badə içirtdi getdi.
Eşqin piyaləsin verib dəmhal,
Əqlimi başımdan çaşırtdı getdi.

Məhəmməd öz-özünə başladı. Dedilər, ay Məhəmməd, burda getdihagetdi deməknən belə nə olacax? Həm dur əyağa, elə yaranı isdi-isdi bağlasın yaxşıdur. Dur əyağa gör bu hara getdi? Sən də get da. Məhəmməd sözün xatəməsini tapdı, dursun görsün ta qız hara gedir, onun dalınca gedəcək:

Məhəmmədəm, gəldim yarın elinə,
Şəlviaydım savalvaşaydım belinə.
Bir tərlan idim düşdüm a da elinə,
Ovladammadım, uçdu ha getdi.

Məhəmməd durdu əyağa, çəkdi tükanın qapısnı bağladı. Sazı götürüb qızın dalısıncan elə gedir ki, ta o zaman yetir Məhəmməd hamama. Gördü ki, qulamlar hammısı mindi salıskıya. Salıska gəldi keçdi getdi. İndi bir qızdı, bir də dayələr. Həmamda bular soyunublar öz səlqələriynən məşğuldular yuyunmağa. Məhəmməd varır oldu həmamə. Hamamda o qızlar ki soyunub, libasları düzmüşdülər hərə bir tərəfdə Məhəmməd göz qoydu Məhparə xanımın libaslarına. Gördü buları ki, səliqəynən yığıblar bir-birinin üsdünə və lap axırda bunun üzügünü qoyublar. Məhəmməd əl atıb qabaxcan bu üzügü götürdü: "Şayət bunnan mənim arama bəlkə bir ayılıx düşdi. Ayrılıx düşsə də bu qızın elə üzügünü mən yanımda yadigar saxlıyım". Üzügü qoydu cibinə. Məhəmməd saz əlində varır oldu həmamə. Həmamə ki, o içəriyə varid olanda birdən qızlar gördülər ki, bu aşıxın əlində saz var. Bular elə qışqırışdı ki, bulardan elə səs çıxdı ki, elə biləsən ki misnən qazdı. Bular qışqırışdı, çığırışdılar, ay-vah, xanım, aşıx gəldi bura. Qızlar qaçanda o yan, bu yana tamamda çün əyinlərində libas yoxdu. Məhparə xanım elə onu fürsət bildi ki, qaşdı varid oldu xəzinəyə. Suyun içində Məhəmməd əlini atdı o fitələrdən götürüb, yaş fitələrdən eşib bu dayələrə ki, tovladı, hərdən bir çəkir bulara. Bu dayələr bir-birini itəliyir bir-birinin üsdünə. Ta hammısın Məhəmməd budu həmamdan tökdü eşiyə.

O ki soyunan oda var, onlar getdi ora. Məhəmməd çəkdi qapını örtdü. Bir qaldı Məhparə xanım, bir qaldı Məhəmməd. Hə, Məhəmməd dedi:

– Məhparə xanım, keyfin necədi?

Dedi:

– Aşix, bəli, adın nədir sənin?

Dedi:

– Mənim adıma Məhəmməd diyəllər.

Dedi:

– Bura bax görüm, sən cünnüsən, divanəsən? Sənə bəşər dimax olar? Bura bax görüm, bura kişi gəlməli yerdi sən gəlmisən? Olan, əğlin olsun. Bizi rüsvay eləməginan. Nə sənin üçün yaxşıdı, nə bizim üçün yaxşıdı. Sən niyə belə eliyirsən? Haralısan?

Dedi:

– Xanım, mən nə dəliyəm, nə divanəyəm. Özüm də İrandan gəlmişəm, adım Məhəmmədi. Sən aşıxları zindana salıbsan. Bəli, mən də gəlmişəm sənən deyişməgə.

– Bəs xub, mənnən deyişməgə gəlmisən, hamamda deyişəllər?

– Hə, xanım, belə rastıma düşüb, belə gəldim. Elə nə olar hamamda deyişsax. Burda söhbət eliyax elə. Sözümüz qurtulsun.

Dedi, mənim işlərim ümumidi, nəyinki xüsusi. Getginən şəhrə. Mən də çıxım hamamdan. Soyunmuşam, libasımı geyinib gəlim. Verirəm car çəkdirirəm, tamam cəmaət gələrlər bir meydan var ora. Sən də gəl ora. Orda görax ta sözümüz harda yetir, həp axirə görax sən məni məhkum eliyirsən, ya mən səni məhkum eliyirəm. Məhəmməd, eşidən-duyan olar. Mən paşa qızıyam, adıma Məhparə diyəllər. Sənin dədən yandıracam, sən məni gələsən bu hammada, bu halətdə məni rüsvay eliysən burda ha. Məhəmməd dedi, xanım, suyun içindən çıx eşiyə sənnən bir söhbət eliyax. Dedi, az danış, xəcalət çəkginən. Məhəmməd çox söz danışandan, qıza diyəndən sonra qız qəbul eləmədi. Məhəmməd dedi, xanım, qulaq asginan, sənə burda bir-iki kəlmə sözüm

var. Məhəmməd burda qıza bir qatar belə şeyir oxuyur. Mən ərz edim tamam dostlar sağlığına:

Səlvi boylum, naz eyləmə, gəl çıx bu xəlvətxanədən,
O günə qurban mən olum, ay qız, sən olubsan zəmanədən.
Sən anədən olan gündən muşşa şəkkə əzmiş,
Zülflərin çil-çil olub, nə çəkibdir şanədən.

Qızın zilfləri nəyin ki suyun içində idi, göysünü isdiyir pünhan eləsin. Amma eliyə bilmir ki, ayna kimi dumduru sudu. Qızın da var ağ bədəni. Gümüş kimi hər yanı görsədir. Zilflər yayılıb belə ki suyun üzünə elə bil o yan, bu yan xəlvənd kimidi. Məhəmmədə qız yalvarır ki, Məhəmməd, çox yaxşı iş görübsən, hələ bizə oxuyursan? Səhv edirəsən, oğlan, çıx get. Mən burda xacalatdığımdan suyun üsdünə tərim tökülür. Məhəmməd dedi:

– Baba, sən mənimsən. Canım, mən də səninəm. Kimə nə dəxli var?

– Hə, göyülün şad eylə. Mən sənin dədəni yandıracağam, burdan əlbət çıxmıyax.

Dedi:

– O həlvələrə getmə, mehrüban söz danış.

Məhəmməd alıb belə deyir:

Şükür cəlalına yaradıb insan səni,
Nəyinki insan, huriyi-qılman səni.
Ərasətin məhşər günü qoysalar üryan səni,
Cəhənnəm məkanım olsa, keçmərəm meyxanədən.

Məhəmməd dedi:

– Sənin adın insandı, sən özün insan döyülsən ki, mən necə səndən ayrılım? Huri-mələksən, qılmansan necə ayrılım səndən?

Dedi:

– Nəmənə o yumuşax dilnən deyirsən de, mənim əlimə əlac keçsə, dədən yandıracağam. Bildin, bəsindi. Oxudun? Get day cəmahət gələr, indi qulamlar gələr, xəlq eşidər.

Məhəmməd dedi:

– Canım, hamı gəlsin. Kimə nə? Mən sənin, sən mənim. Ay xanım, molla əlindən məni içmişəm şərbəti. Sən ha Leyli, mən də Məcnun. Baba, gəl qaçma mən divanədən. Niyə qaçırsan məndən kənara? Mən səninəm, sən də mənim. Heç kəsin bir sözü yoxdu. Hər kəs eşidir-eşitsin, bilir-bilsin.

Dayələr görürlər ki, bu aşiq qıza oxuyur, qorxularından içəri gələ bilmirlər. Vəli qapının dalısında durub qulaq asırlar. Ama Məhəmməd ki, bu qızı belə görüb suyun içində elə bil bir dənə, bəli, qaz güləgan neçə bala quşdular. Bu həmişə suyun üzündə üzərlər. Bu yandan ki, qoynunda məmələrin ki görəndə Məhəmmədə qız yalvardı, get. Məhəmməd dedi, hara gedim? Nə cür gedim? Sənin hər cismivi görduxcan sinəmə bir dəsgah söz gəlir. Xanım, eləcən durginan. Mən səni söyürəm? Sənə yaxşı söz oxuyuram. Sən deyirsən, ama burda durma get. Bu əhvalı bir dəstgah söz gəlib sinəmə deyim, onnan sonra iş nə cür olur. Məhəmməd orda belə deyir, mən deyim dostlar sağ olsun:

Bu gün ki sehrində çıxdın qarşıma,
Görürəm sinədə nar məmələri.
Gördüm, ilham aldım, dildən, dodaxdan,
Xəstəyə dərman ver, qız məmələrin.

Qız dedi:

– Vay Allah, mən nə cür eliyim? Bu nə əntiqə bəşər, heç həya eləmir. Heç insan utanmır, elə deyir ha hammısını.

“Oğlan bəsdi”, – əlini apardı döşlərinə, zada

Dedi:

– Canım, narahat niyə olursan, axı? Dedim, day özümündü, özüm deyiram da, necə olar mən olara söz demiyəm?

Qız deyir:

– Hə sənindilər, əlimə keçərsən billəm nə diyərəm sənə.

Məhəmməd dedi:

– İndi mən öz sözümü danışacam. Sənin əliğa düşəndə nə deyirsən de, nə eliyrsən elə.

Məhəmməd alıb sözünü belə dedi:

Namə gəldi şah qapısı qalanduz,
Xəstə cismimi yar başıva dolandız.

Sinəvin üsdünü bir daldalan duz,
Qəzəpməhdi, edər qan məmələrin.

– Gedax, Allah səni nə diyim eləsin ha. Mənim nəyim var mən daldalatdıram? Hələ sən bir az da oxuyursan.

Dedi, mən söyürəm oxuyuram. Dedi:

Xanım, əsli olan kimsə özün öyməsin,
Arası meydandır baş-başa dəyməz.
Xanə dəyər, heş kəsə baş əyməz,
Baxır bir-birinə yan məmələrin.

Qız yalvarır: "Cavan, bəsdi çox narahat elədin məni". Deyir: "Xanım, sözümü axıra gərək yetirim axı. Sözlər özümündü, qulaq asginan". Məhəmməd indi sözün xatirsəni öz adına belə desin, dostlar sağ olsun:

Ay qız, sinən ağdı, Savalanın qarıdı,
Məmələrin Gürcüstanın narıdı.
Aşıx Məhəmmədin yadıgarıdı,
Can sənin, can mənim, can məmələrin.

– Məhəmməd, bəsdi day oxudun. Nəmənə sözün var burda oxuyacaxsan elə? Dedi, xanım, de da. Bu yeni döyül ha. Deyir: "Get gəlib car çəkdirib mən umumidə söz diyəcağam. Cəmahət cəm olar, orda diyərəm. Görərlər həx mənəm, ya sənsən". Məhəmməd dedi:

– Xanım bəli, deməli demişəm burda.

Dedi:

– Xeyir, bə neyniyək? Get mən də çıxım gəlim, geyinim gedax da.

Dedi:

– Xanım, mən getsəm belə gedəmmərəm ki, səhərdən bir belə zəhmət, bir belə kötək vurdurmusan mənə. Oxumuşam sənə, bə ənam vermiyəcaxsan?

– Yaxşı iş görmüsən hələ bir də sənə ənam verim?

Dedi:

– Ənam ver.

Dedi:

– Ayrı zad versən qəbulum deyil. Hədəf bir cavab busəvi eləsən ki get. Qız dedi, heç olmaz, heç olmaz. Dedi, olar necə olmaz? Bir dənə belə oxumuşam, bir belə zəhmət. Bir dənə maç ver. Nə qədər qız dedi, gördü olmadı. Qız dedi, yox da çarə yoxdu, bu getmiyandı. Belə üzdü adam ola. Qaldı labüd. Sona kimi üzə-üzə gəldi suyun üzünə. Qız yavaşca üzünü tutdu Məhəmmədə tərəf. Məhəmməd bunun üzündən bir busə götürür. Bə nə cür busə alır. Hə, elə bil dağarcıxda sakkız qoparır. Sakkız da nəvarə gedir. Məhəmməd bunu alandan sonra dedi:

– Get eybi yoxdu, sənə diyərəm.

Dedi:

– Hara gedim? Xanım, mənim özümün günahım çoxdu. O biri günahlarımın cavabın elə savalın verə bilsəm. O biri üzün məndən şikayət elədi.

Qız nə qədər yalvardı, Məhəmməd dedi illah. “Babal verdin, boyun vurdu yıxdı”– qədim kişilər deyir. Olmadı, qız naçar qalıb. Oğlan bir daha möhkəm busə o üzündən alır, Məhəmməd çıxdı. Hamamdan çıxanda dayələr töküldülər hamama. Xanım, nə oxuyurdu aşıx? Bəli, üzüvə nə oldu belə? Baxdı Məhəmməd bunu üzündən əmciyə öpüb. Maç almışdı, öpmüşdü. Gördülər bunun üzü nə cürdü. Qız dedi, canım hə hölümdən əlimi atdım üzümü diddim. Neyniyim, başımı yoldum. Məhəmməd hamamın qapısında elə dayanmışdı ki gördü salışka gəldi. Qızdan ötürü gəlirdi. Məhəmməd usta çıxdı. Yaxına yetişəndə dedi, qardaş, hardasan bəs gəl çıx görax. Dedi, xanımın əmioğlusuyam da. Dedi, sən getginan mənim otağımda istirahatdıx eləginan, mən də gəlirəm. Dedi, ağacan, bə niyə mən sizi görməmişəm? Siz xanımın əmioğlusunuz, hardeydiz? Dedi, oğlan, çox danışma. Mən çoxdandı getmişdim dövrədən, dərsi-təhsil edirdim. “Güzəşt elə”, – dedi “mən bi xəbər alım”. Dedi, canım sizin xasiyəyinizə bələddi ki, bu du ba üzügü mənə nişanə verib. Aldı üzügü gördü, hə, xanımın üzügüdü. Ağa, buyur, buyur güzəşt elə. Mən gərək soruşam. Məhəmməd oturdu o salışkanın içinə, salışkaçı sürdü. O vaxt yetirsin qapıya. Qapını taxtaxnan döyüb salıska sürən, dayə gəldi qapıya:

– Nədi?

– Xanımın bu əmioğlusudu. Xanımın otağına aparacaxsan. Bu otursun orda. Buna bir az qəndabi-şərbət xidmət elə, əlan xanımı gedirəm gətirəm.

– Ağa, tanıyırsan bu xanımın əmioğlusunu.

Dedi:

– Hə tanıyır.

Məhəmməd dedi:

– Canım, gəl sən özündə tanı, ala bu üzük bax. Qız gördü qızın üzügü oğlandadı.

Dedi: "Buyur, buyur, cavan buyur. Sən gələn yollara mən bir dənə qullu qurbannıx oleydim, buyur". Məhəmməd keşdi içəri. Apardı Məhəmmədi ötürdü qızın otağına. Məhəmməd varid olsun qızın otağına, gördü bir dənə cənnətdi, behişti diyəndə şayət bu otağı düz ordan gətiriblər. Məhəmməd baxdı ətrafa, gördü hər yan aynəbənddixdı. Vəli hər aynanın arasında qızın bir dənə gözəllik, hər formada əksin saldırıb. Bunun əksləri vardı. Ağa, qız getdi bir az qəndabı, şərbətdən gətirib versin Məhəmmədə. Bir az qəza düzəldib gətirdi: "Ay cavan, buları burda meyil elə. İndi xanım gəlir, ginə bahəm qəza gətirrəm yiyəsiz". Məhəmməd bir az olardan yedi içdi, yeyib içəndən sonra (amma qızın bu əkslərinin hər birinə baxanda Məhəmmədin əqli heyrətdə qalır) əksə baxır. Sinəsinə bir dəsgah söz gəlib. Məhəmməd o qızın otağında görək necə dedi. Mən də ərz eliyim ta hammısının sağlığına:

Bugünki sehrimdə bir gözəl gördüm,
Nəzəri, hünəri ellər aşiqi.
Süzgün baxışları aldı canimi, Allah,
Bu necə sonadı göllər aşiqi.

Nə gözəllıxdı, bədənin lüt əksini saldırıb, hər formadadı. İndi Məhəmməd alıb sözün o birini:

Səhər-səhər eylə baxırsan mənə,
Məni öldürəsən, ay qız, salasan qana.
Yaxçı rast gəlibsən, ha, bu tülək tərlana,
Bu necə maraldı, çöllər aşiqi.

Məhəmməd sözün xatəməsini isdiyir oxuya, amma dayə gördü ki, bu cavan evdə oxuyur. Gəlib qapının dalısından qulaq asır. Deyir: "Nə demişəm Allah, elə hər yanda gözəli bəxtəvər elər da. Bura bax, bu gözəllıxda qız, bu cahi-cəlal, bu təşkilat, bu gözəllikdə də ər onundu. Hə gördü dana, ayrı bir qız da var kasıbın qızında da var". İndi Məhəmməd sözün xülasəsini deyir:

Yazıx Məhəmmədi salıbsan dərdə,
Üzuva çəkibsən, ay qız, humayın pərdə,
Məclisdə mərəkə, xeyirdə-şərdə,
Əcayib gözəlmişsən, ellər aşiqi.

Məhəmməd sazı qoydu yerə, intizardı, amma ağalarıma ərz edim ta Məhparə xanımdan. Məhparə xanım ta hamamda yuyunmax yoxdu elə həmişəki kimin elə asudə yuyunsun xeyrə. Elə sonra hamamdan çıxdı. Gəldi libasları geyinib. Amma necə narahatdı, necə narhatdı. Oğlanı söyür, amma çox söyür oğlan ki bu hərəkətləri gətirdi hamamda gəldi bunun yanına. Bu işləri də rahat deyil. Açıb da qızlara demir. Elə hərdən bir narahat sözlər deyir. Deyir: "Diyərəm anlamırlar. Allah rast sala bunun sinəsində bir az yaxşı söz ola, ya mənim bir qatar, iki qatar sözümə cavab verə, belə ta ki camahat bilə mən necə hünərməndə gedirəm. Birdən-birə geriyə mən çiynimə əgəm, diyəm elə bu məni məhkum elədi. Mən belə oğlanı cahanın olan tapammaram. Özü öz əyağıynan gəlib mənim qapıma". Belə olanda qız çıxdı eşiyə, gördü salıska gəlir. Narhatdıxnan səsləndi bunun üsdünə:

– Bə sən bilirsən ki, bizim hamam vaxtımızdı, bə sən niyə yubanmısan?

Gördü xanım çox narahatdı, dedi:

– Xanım, güzəşt elə. Mən gəlmişdim əlam burdeydim, sizin əmoğlunuzu apardım özünüzün mənzilizə, qayıtdım sizdən ötrü.

– Nə, əmioğlu?

Dedi:

– Sənin öz əmioğlun da.

– Mənim əmimoğlum yoxdu.

– Əlində də bir dənə sazı vardı, xanım. Elə hamamdan çıxırdı mənə dedi ki, məni apar xanımın otağına. Xanım dedi sən get mən gəlirəm.

– Canım belə iş olmaz.

– Bəli, mən aparmırdım. Xanım, üzügüvu nişanə verdi. Mən bə xatir üzügün apardım.

Birdən qız baxdı barmağına gördü, ay dad, heç bunun üzüyü yoxdu. Dayəyə dedi:

– Qız, mənim üzügüm hanı?

Qaşdılar hamamı axtardılar, neynədilər, gördülər əslən üzük yoxdu. Xanım dedi, bəli, bu aşıx sənətkar aşıxlardandı. Çox sənətkardı. Hər neyniyibdi, elə bu üzügü özü aparıpdı. Hə, bəli. Gəlin gedax. Bu əntiqə adamdı. Bu mənim yaxamdan tutub ötürmüyəcax. Bilmirəm mənnən bunun işimiz harda məcar olsun.

Ağa, o zaman bunu salıskıynan yetirdilər qapıya. Qapıya yetirmax, narahatdıxnan qapını döydü bərk. Dayə gəldi:

– Salam, xanım.

– Salam.

– Kim var evdə?

Didi:

– Xanım müjdəmi ver, əmioğlun gəlib. Hə, elə bil mahdı bir dənə.

– Danışma, yaxşı xəbərdi hələ müjdə verəcəyəm sənə. Bir denə sən niyə qoymusan onu evə, qız? Kim sənə dedi özgəni al?

Dedi:

– Xanım, al üzgüvu verib, sənin üzügün nişanədi qoymuşam.

Qız nə haynan varid olsun içəriyə, əmr elədi qulam, dayələrə çıxacaxsız ora, aşığı pəncərədən götürüb atacaxsız həyətə. İki mərtəbəydi. Məhəmməd pəncərəni açdı, gördü qız hökmən eliyir, bunun qətlinə fərman verir. Pəncərəni açanda, dedi:

– Xanım, səlamualeykum.

– Danışma, danışama xətakarın birisi. Gəl çıx eşiyə sənə diyacağam.

– Xanım, qonağa belə hörmət edərlər? Mən qonağam sizə.

– Qonaxsan, hə? Pəncərədən atdıracağam səni yerə. Sənin kimi qonağı nə evə qoyallar, nə hörmət edərlər.

Açdi, gördü ki, dayələr üçün qapını bağladılar ki, o qız əmr elədi bunu pəncərədən atın aşağı. Belə olanda Məhəmməd pəncərəni açıb dedi:

– Xanım, sizlər qonaği hörmat eləmaxdan pənəcərədən atarsız aşağıya.

Dedi:

– Xeylam qonağa ehtiram eliyərlər. Vəli qonağa, sənə xeyir. Sənin dədəni yandıracağam. Çox yaxşi. Mənə insanlıx nişan veribsən. Hələ bir də gəlib əyləşibsən mənə qonağ olursan. Sən nədi, bura nədi? Sənə burda bir dənə qazaşdıx nişan vermişıx. Bilginən dünya da nəyin nəsidi.

Məhəmməd dedi:

– Xanım, hələ narahat olmaginan, qoy sən hamamdan gəlirsən, sənə mən bu hamamdan gəlmağına bir qatar şeir oxuyum. Aşıx gördüyünü çağırar, xanım. Narahat olma, gərək mənə ərziş qail olasan, gərək ehtiram qail olasan, əvəzində buyurursan pəncərədən at aşağı. Sən mənim qədrimi bilmirsən. Vəli mən sənin qədrini bilirəm.

Məhəmməd sazı basıb bağırına ta görax bu Məhparə xanımın hamamdan gəlməginə nələr oxuyur. Mən də deyirəm ta ki əziz dostlar sağlığna:

Naznan həmamıdan gəlir canımın canənəsi,
Qabağında xidmət edir, neçə quli, neçə dayəsi.
Açdı hamamın qapısını hamamçı səsləndi, ya mələk.
Nurunan dolsun hamamın camı, cəmhanəsi.

Məhəmməd dedi, bu dayələr, bu kənizlər məndən gileyli olarlar. Hammısın belə qıza oxuyur, heç bizi yada salmır. Odu ki, bu dayələri, kənizləri də saldı sözə. Qız dedi, o sözləri ki oxuyursan ki, mən sənə burda qonax eliyəm, ehtiram qaydada oların heç biri min dənə diyəsən mənə kar eləməz. Sən hamamda mənim dədəmi yandırmısan. Məhəmməd aşıx, gəl çıx get eşiyə. Moqeyində mənnən söhbət eliyəcaxsan, onda nə sözün var

de. Dedi, xanım, söz bir olmaz. Qulaq asghinan sözlərimi deyim görax sora nə cür olacax:

Məşşatalar cəm olub həm sağına, həm soluna,
Əlvan xəna yaxırlar həm əyağına.
Lalələr xəcalət çəkir baxanda gül yanağına,
Allah, qızı belə olanın gör necə imiş anəsi.

Bunun gör anası nə gözəllikdədi? Bu gözallıxda qızı. Dedi:

– Təriflə-təriflə elə bilirsən məhəbbət edirəm sənən?

Təriflə qutar sözün, çıx get, isdiyəsən ölmiyəsən burda.

Dedi:

– Xanım, ölsəm də ölmüşəm, mən bu başi elə bu yolda, bu candan keçmişəm. Ərxayın ol, mən ölümdən qorxmuram.

Məhəmməd burda sözlərin təmam elədi oxuyub. Qız başl-dı ki, indi sözün qutuldu? Gəlginən get, burda ölüvü bu həyətə salmaginan. Sən ölacaxsan, mənim əlimdə öləcaxsan, vəli burda yox axı. Burda mənim için qolay işdi. Məhəmməd dedi:

– Xanım, yaxşı bizə nahar verdin, yaxçı ehtiram elədin, hələ bir də bir gedax. Sən bircə tikə çörəyindən qorxursan. Pulun verirəm, nə olacax? Mən sən dəyiləm. Qonağa belə hörmət eləməzlər. Mən gedəcəyəm, amma, xanım, qoy elə mən sizə qonağa nə cür ehtiram qail olalar onu mən sizə nişan verim, onnan sora. Məhəmməd indi neyniyir, bir qatar dübarə qıza belə söz oxuyur:

Gönül, dur dolan yar başına,
Bu qız sənin cananındı.
Şeyda bülbül fəğan eylər,
Məhparə xanım, vəli buyi gül Mustafanındır.

Bülbül bir elə ki fəqan eylər, o gülün iyindən ötürü elə elər. Vəli məni məzəmmət eləmə. Bu qədər ki, fəqan edirəm, oxuyuram hammısı sənin eşqi məhəbbətindəndir. Sən məni məzəmmət edirəsən. Nə qədər mən oxuyam sənə mohəbbət yetirəm ki, yeri var. Dedi: "Hə bəli, deginan sözləri. Çünki mən səni öldürəcəgəm". Sən mənimsən, mən sənin. Kafər insana qonax ola onun hörməti vacibdi. Axı sənin mən aşiqinəm. Sən də mənim məşuqumsan. Da belə ehtiram qayrılırlar. Dedi:

– Qutardın sözüvü, ya yox? Tez ol bu həyətdən çıx.
Dedi:
– Həyətdən çıxmax? Sənnən bahəm çıxacağıx.
– Mənnən niyə? Mən sabahcan bu həyətdən çıxmayacam.
Dedi:
– Sabah sənnən bahəm burdan çıxarıx, gedarıx meydana. Xanım, meydana gedəndə də bahəm gedəcağıx. Dedi:
– Hə, yaxşı arzun varmış sənin.
Dedi:
– Bəs nə? Mən elə burda düşmüşəm, sabahacan heç yana getmiyacağam.
Məhəmməd sözün götürüb o birisin dedi:

Gəzgəzi Məhəmməd, səni tanrı,
Sən qulsan, ağan tani.
Gözlə bu gələn dövrani,
Dövran sahibi-zamanındır.

– Amma bu dövran sənə qalmiyəcək, onu bilginən. Elə mənnən həmişə bir yerdə qalacaxsan, amma o gün xacalat çəkəcaxsan ha, bu saat gəl yada salam. Elə bizim evdə da. Hə göylün şad eylə.
Dedi:
– Çox yaxşı adamsan, hələ bir də sizin evə gedəcəyəm?
Dedi:
– Gedəcaxsan, gedəcaxsan, xanım.
Dedi:
– Gəl çıx getginan, sabah meydanda məni məhkum eləsən eybi yoxdu. Görax sizə gedirix, yainki yox? Ya sən zindana gedirsən, o da meydanda bəllilər.
Dedi:
– Xanım, yubanma getginan naharaıvı ye. Əmir ver, nahar gətirsinlər görax iş nə olur? Qız nə qədər diyib narahat oldu, axır dayələr gördü ki, qız çox narahatdı. Dedilər, xanım, qoy bir tikə nahar verax. Yesin, işsin burda dilə tutarıx ki, yola sallıx ki, gəl da. Day pis zad dəyil. Aşıxdı el aşığıdı, indi sən bağlıyıb bunu özün ütüləcaxsan. Ya bu səni məhkum eliyəcax. Baba, nə ola-

caxdı? Qoy bir tikə, xub, nəyimiz var verəx eybi yoxdu, öz yediyimiz nahardan bu da yesin. Axır qızı apardılar otağa, ayrı otağa apardılar. Məhəmməd qalıb burda. İndi bu qızlara nahar gətirirlər, bu yandan da Məhparə dedi ki, ona nahar düzəldin aparın ki, çıxar həray çəkər bizi rüsvay edər. O, əntiğbir şeydi. Məhəmmədə təam gətirdilər dayələr. Amma Məhəmmədi necə söyürlər, necə isdiyirlər, necə xoşdular, dayələrin üş-dördü birdən gəlirlər nahar gətirib. Ay aşıx, sağ ol səni, aşıx, bizi çox şad eləmisən. Qəşəng oxuyursan, qəşəng saz çalırsan, əmma Məhparə bir az nərahətdi, eybi yoxdu. Amma bir az gözlə ha, bulara baxma. Sabah meydanda, ay oğul, məhkum olmuyasan. Məhkum olsan, bu səni zindana salacaxdı. Dedi, onu elə necə kiritmişəm, onu sabah meydanda məhkum edəcağam. Ərxeyin olun. Dedilər, hə Allah razı sala, sən bunu bağlıyasan, məhkum edəsən, elə bahəm ola toy edəsiz. Biz də sizin ikinizə xidmət eliyax. Hə, inşallah, o cür olacax. Məhəmməd bu sözləri belə dimax, dayələr gedirilər. Elə ki, xanım da bəli, naharın yedi. Məhəmməd də naharın yedi. Dedi, gedin görün oğlan hindi day yimax-içmaxdan zaddan qutuldi? Hə, indi dursun bir əyağa, getsin fəqət hansı misafirxanada, hansı qəhvəxanada qalır-qalsın. Mən də verirəm car çəksin kuçələrə, sabah hamı gəlsin meydana. Bu da gəlsin onda meydana ta görax orda kim məhkumdu, kim hakimdi. Dayələr gəldi aşıx, bəli, Məhparə buyurur ki, buyursun getsin hansı müsafirxanada qalır qalsın. Biz sabah, inşaallah, bilərik ki, meydanımız filan yerda olacaxdı. Bildin? Carçı da carrıyır. Elə hər yanda diyacax. Gəlsin meydana, cəmaət içində görax neyniyax? Məhəmməd dedi, gedarsan xanıma diyarsan, xanım, biz dədən-babadan bu bizdə belə var xasiyyət. Bir kişinin ki, evində qonax düşdux, dünya yığışa, ordan durub ayrı yana getmərik. Onu bildir, mən bu gecə burdayam. Səhər-səhər xanımın özüynan gedərıx. Meydana gedarıx da. Belə olanda qızlar getdi. Gülə-gülə gəlib xanıma yaxınlaşdı: "Xanım, belə deyir, getmir". Qız dedi: "Ay dadıbidad, qız, gedin onu dilə tutun. Yerindən nəşx eliyirsiz, onu salın eşiyə. Amanın günü o burda qalsa, bizim abırımız gedər. O mənim evimdə neyniyəcəh, nə diyəllər? Diyəllər, bular dilləşib-

lər, yalandı-xəlqə bular kələk işlədir". Qızlar gəldi: "Xanım çox narahatdı aşıx. Xob, eybi yoxdu səhər-səhər gələrsiz söbhət edərsiz. Məhəmməd dedi: "Xanım çox narahatdı?" Dedi:

– Bəli.

Deyir:

– Gedəsən xanıma diyərsən ki, neçə ildi bu saxlamanda sən əyləşmisən, bu gecə də mənimdi. Durun, hara gedirsiz gedin. İsidiyirsiz ki, mənnən bahəm olmuyasız burda, durun siz ayrı yanda əyləşin, mən bu gecə burdayam. Sabah məni məhkum elədin, genə gedərəm, yox səni məhkum elədim, elə sən də mənimsən, şah duvanın da mənimdi də. Bə neçə ildi sən oturmusan, indi bu gecə mənə yetişmir bu? Məhəmməddən durub bu küçə qapısından eşiyə getdi yoxdu. Get deginən, gedirsən get, oturusan otur.

Dayələr gülə-gülə, qah-qaha çəkilər, elə biləsən göllərdə bir dənə sonadı, güləgən quşlardı. Nə var qız, nə var? Dedilər, xanım, əntiqə söz deyir. Day deyə bilmırıx necə? Deyir, xanıma denən çox narahatsan, dur əyağa bu saxdumannan dur get ayrı yana. Bura mənimdi, bu gecə mənə yetişmir. Dedi, "Allahü əkbər, Allaha əkbər", bunu Allah nə mağə tərəfdən bəla göndərdi bu geçdi mənim gərdənimə. Dayələr dedi, xanım, narahat olma neynərsin bu gecə, gör neçə olcaxdı? Canım, qapıları – zadı bağlarıx, o, qalar otaxda. Biz də qallıx burda, nə olucax? Hamı da buları bağlıya-bağlıya gəlirıx. Qız özü səddəsəd razıdı, onu söyür bu sözlər demək isdiyir ki, dayələr bunun ürəginin sırrını bilməsin. Oğlandan ötür, ürəgi bir tikədi. Ağa, bular gecəni belə qalsınlar. Məhəmmədə şam gətirdilər. Məhəmməd şamı-zadı yedi, hə, yatdı. Qapını bu üzdən bağladılar. Məhəmməd dedi:

– A canım, bizim qapını niyə bağlıyırsız? Bəyəm mən gecə hava istidi, darıxdım, necə çıxım həyətə?

– Yox, darıxmax-zad yoxdu. Gəlginan yallah, gedirsən-getginan bir dəfə, qapıvı bağlıyacam.

Məhəmməd dedi, bağlıyın. Bağladılar qapını. Hamısı gediblər, özləri yığışdılar öz yerlərinə. Tamam öz qapıların dalların möhkəm bərkidirlər, möhkəm gecəni yatsınlar. Amma dayələr-

dən bir neçəsi nigahban durullar. O yatır, bu nigahban durur, o ayılır. Qorxurdular Məhəmməddən. Səhər çağı süb Məhəmməd durub əyağa. Məhəmməd pəncərənin yanında oturmuşdi. Bu Məhparə xanım sanki bu fikir elədi ki, bu əcəm oğlu yuxudan durmamış mən durum əyağa, gedim bir həyətdə əl-üzümü yuyum gəlim. Durdu əyağa çıxsın həyətə. Bunun da əynində bir dənə piraxat bədən bütün eşikdədi. Ağappax, elə biləsən ki, mislən bir dana gümüşdi. Çıxdı başıaçıx, qoluaçıx, o cür öz kefinə gəldi. Getdi həyətə Məhəmməd gördü, bəli, cənnət cücəsi çıxdı gəldi, getdi. Məhəmməd pəncərəni açıb sazın köhlüyüb bamədədi. O zaman gördü ki, qız qeyitdi həyətə, isdiyir ki, getsin Məhəmməd yavaşca qapını açdı. Qapını açdı, oturdu pəncərənin içində.

Məhəmməd isdiyir ki, qıza burda sübhün vaxtında bir qatar şeir oxusun. Biz də ərz eliyax dostlar sağ olsun:

Səhəri geyibsən illə xələti,
Düzülübdü düymələri, sinəndə.
Sovdü çəgib qoynun cənnət bağıdı,
Qaravız havaların qara sinəndə.

Savalanın qarın qoyalar indi sənin o sinəün üsdünə, ay qız, o qarə görsənər o sinənin yanında. Dedi, mənə necə deyirsən, oxuma? Aşıx, səhərin süb vəxtidi, onan camahat eşitdər, məni rüsvay elədin. Bəsdi, səs salma. Dedi, baba, sən mənimsən, mən sənin. Kimə nə dəxli var, ay Məhparə xanım? Dedi:

Dindir bu Məhəmmədi, bir dindir
Qəmli göylü, ay qız, şad eylə güldür.
Axır o ağ sinən üsdünə bir mindir,
Bəsləginən mən tifili barı sinəndə.

Dedi:

– Hə, çox yaxşı adamsan, hələ sinəm üsdünə mindirəcəyəm. Fikir gör hardadı? Dədən yandıracağam, sən öləsən. Səni dar ağacından üç gün assam ha, lənət mənə gəlsin. Verəcəyəm qarqavuzlar gözlərivi oysun.

Dedi:

– Mən səni məhkum eləsəm, xanım, səhərə bal, kərə, nahara cilov, pilov, cilov xuruş, axşama da görax hansı əziz xörək olsa, axşam da onnan. Mən də səni bağlasam belə saxlayacağam. Sən məni dar ağacından asma.

Qız əlin qoydu ağzına gülə-gülə getdi. Dayələr Məhəmmədin səsinə qalxıb töküldü:

– Xanım, nə var?

Dedi:

– Heç heç, mən diyərəm bunu salın eşiyə. Canım, bu eşiyə-ammanığa qoymağa adamdı? Səhəri durub mənə oturub pəncərəni içindən söz oxuyur.

– Xanım, səni sövür e, olsun. Gəl bura, gəl narahat olma. Hə, sevir.

Dedi:

– Aparın ona yallah çaydan, çörəkdən verin yesin – işsin mənim də çay-çörəgimi gətirim. Ta gedax görax bunnan mənim işim harda qərar tapır.

İndi ağa, buların hər ikisi sübhaniyən məşğuldurlar yesinlər, içsinlər. İndi o qız döndü neynədi. Adam göndərdi aşıx Məhəmmədə. Dedi, denən bu yol qalmax yoxdu, yedin-işdin yaallah, dur əyağa get meydana, mən də gəlirəm. Get otur öz səndəlində. Ta mən də gəldim. Dayələr gəldi ki, aşıx, bəli, qız deyir dursun o bala-bala getsin meydana, mən də gəlirəm. Dedi, xanım gəlsin, bahəm gedax da. Bə hərçənd niyə gedirıx? Dedi, canım, o ayrı gələcax, sən onnan niyə gedirsən? Aşıx, sən elə lap əntiqə danışırsan ey. Oğlan, ikiz tələbsiz axı. Bahəm bir yerdə getmağız yaxşı dəyil. Dedi, sizin əqliz elə kəsmir. Get xanıma denən gəlsin, bahəm gedax. Qızlar getdi, gülə-gülə gəldi. Xanım, bəli, deyir bahəm gedacax. Dedi, gedərsən diyərsən a canım, sən niyə bu cür adamsan? Hesab ver e, mənim bir dənə salıskam var. Mən salıskaynan gələcağam. Sən piyadasan, genə mən səndən qabax gedəm. A sənin atın yoxdu ki, piyadadan sən düş get da. Dayə durdu gəldi, ay oğlan, ay aşıx. Dedi, bəli. Xanım belə deyir, deyir mən dalıcan salıskaynan gələcağam. Deyir, canım, salıska bir xanımı tutmur ki, əlbət bir tərəfində mən otura

biliram. Qızlar gülüblər, gülüblər, qah-qaha çəkirlər. Canım, nəyə gülürsüz? Dedi, ay aşıx, sənin başına dönüm, elə söz danışırsan ki, canım xanım səni qoyar ki, sən salıskaya minəsən? Deyir, xanımlıx dəyil ki heç. Denən gəl bura, dur əyağa get gedax, yubatma xəlx indi gələcək meydana. Qızlar gülə-gülə gəldi ki, xanım, deyir salıskada da əlbət mənə də yer var. Mən onun salıskasına minəcağam. Salıskasında gedəcağam. Allahu əkbər! Qız danışmadı, sora dedi, çəkin gedin beş-altı dənə cəlladlardan, qulamlardan çağırın. Gəlsinlər bunun qollarını bağlasınlar. Bunu vura-vura gətirsinlər meydana. Dedilər, xanım, sən bunu məhkum eləməmisən, sən bunun qollarını bağlıyamazsan. Narahatdıx olar, onda sən məhkum olarsan. Yaxşıdı diyələr, bu aşığın belə döydürür, belə vurdurur. Axı bunu məhkum eləmiyib. Necə vurdura bilərsən? Yaxşı iş dəyil. Ağa, söhbət dolu olmasın. Çox söz olandan sonra qız durub əyağa geyinib, salıskaçı salıskanı amadə eliyib. İndi qız gəlib oturub, salıskanın içinə. Dedi, biz salıskaynan gedax, sən özün bilərsən. Məhəmməd qaşdı çıxdı otdu salıskanı sürənin yanında. Kürəyin döndərdi xanıma sarı. Dedi, vallah, sən otur da mən səndən nə deyirəm, nə danışıram. Mən üzümü bu yana oturmuşam. Sən də otur da, gedax da. Qızlar, qulamlar, qız özi, bu salıskanı sürən elə gülürlər Məhəmmədin bu hərəkətdərinə. Məşğul oldular getmağa. O vaxt yetirsinlər meydanə. Meydanda Məhəmməd baxdı gördü ki, Ustambul şəhərinin cəmahəti tamam səlil o, kəbir, qoca, cavan, arvad, kişi tamam burdadılar. Elə bil ki, baharın bulutudu bi zaman. Yetirdi salıska meydanın ortasında kı saxladı bular ensinlər. Məhəmməd göz qoydu, gördi iki dənə səndəl qoyublar. Biri qızıldı, biri gümüş. Məhəmməd dedi, hətmən bu qızıl səndəli özü üçün sazlıyıb. Mən qaçım, vur-tutu oturum bunun üsdündə, görax bu nə diyəcax? Məhəmməd salıskasının yanında qız hərəkət eliyəcan bir gombuldu yerə. Hoppuldamaxnan qaşdı getdi, oturdu qızın səndəlinin üsdündə. Dayələr dedi, xanım, bəli, aşıx getdi oturdu sənin səndəlində. Dedi, hə, iş burdadı da. Mən bilirəm bu yaman bir bəladı, yaman bəladı. Gəlib indi burdadı, bunu bu səndəldən kim qovur? Qız endi aşağa. Gördü Məhəmməd oturub səndəlin

üsdündə. Qız burda bir xal yandı. Ama pasivand oldu. Dedi, mən bu qədər bu oğlana məhəbbət yetirmişdim, bu qədər sevirdim. Deyirdim ki, cəmahət biləcax ki, mən necə bir gözəl cavana, yaxşı bir oğlana gedəcağam. Bunun Allahınan rast sala, əzəldən bir-iki qatar bir sözü ola, mənim sözlərimə cavab diyə. Mən Allahdan belə oğlanı axtarıram, dünyada tapammaram. Amma bırda gör nə cür oldu ki, camahat diyəcax ki, gör nəmənədi ki, heş qızılnan gümüşü tanımadı. Burda bunun ərzigi olmadı. Ərzigdən düşdü bu. Keçdi narahat Məhəmmədin qabağına. Dedi:

– Aşıx!

Dedi:

– Bəli.

Dedi:

– Bəs adam bir yerə gedəndə bilməz ki, harda oturacax? Qabaxca gərək öz yerin tanıya. Sən deyirsən mən aşığam, deyirsən mən şairəm. Sən ki öz oturduğun yeri tanımamısan indiyəcən.

Məhəmməd dedi:

– Xanım, mən çox yaxşı tanımışam. Çox gözəl billəm nəyin nəsidi.

Dedi:

– Yox, bu yer mənimdi, bu səndəl. Dur get o biri səndəlivin üsdündə söz danışax. Burda deyirsən mənim evimdi. Mənim dədəmi yandırırsan. Dur otur orda. İndi səni salmışam toruma. Gör sənə neyniyəcağam.

Məhəmməd dedi:

– Xanım, keç otur səndəlivin üsdündə. Əlindən nə gəlsə, mənə əsirgəmə.

Dedi:

– Mənim səndəlim budi. Mən burda oturacağam.

Dedi:

– Nə tanımamışam, canım. Ay cəmaət, aşıxları ki mənnən bağlaşardılar bu səndəldə oturardılar, ya gümüş səndəldə?

Məhəmməd dedi:

– Xanım, qulaq as mənim bu kəlməmə. Ağa, cəmahətin həqqi, vəzifəsi fəqət oturub tamaşa elamaxdı. Ya sən ayrı diyəsən, onda bular şahət olalar bizə. Bizə şahət olalar. Görələr ki, bəli, mənim sözüm biqanundu. Mənası ayrıdı, ya mənası yoxdu. Onda diyə bilərlər. Mən səni bağlasam alacağam, aparacağam İrana sənnən dünyada ömür sürəcağam. Sən məni bağlasan aparıb öldürəcaxsan. Xəlqə nə dəxli var?

Bəs indi ki, elədi dedi, keç otur səndəlində söhbət eliyax. Dedi, xanım, səndəl sənindi. Dedi bəli, aşıxlar orda oturur. Dedi, aşıxları çəkmə arıya. O aşıqlar əgər aşiq olseydi öz yerin tanıyardı, bilərdi ki, harda oturacax. O, yerin bilmiyib, öz qiymətin bilmiyib, aşıxlığın, aşığın sözünün qiymətin nə biləcax? Mənnən söhbət elə. Sənə bir kəlmə söz diyirəm, sözümün cavabını rədd elədin qanunnan, müqədaratnan mənə heç oxumax lazım deyil. Düz keçəcağam burda dar ağacına. Rədd eliyə bilmısən bil ki, həx söz mənnəndi. Nədi? Dedi, Allah Ədəmi xəlq eylədi, Adəminən Həvvanı. Qabaxca Adəmi xəlq elədi, ya Həvvanı? Belə olanda qız qeyitdi ki, nə deyim. Dedi, bəli, Adəmi. Adəmin məqamı böyük oldu, Həvvanın? Qız gördü bu söz onnan da çətin oldu. Dedi, baba, nə olsun? Dedi bəli, Adəmin məqamı böyükdü Həvvadan. Dedi, qızılın məqamı böyükdü, gümüşün? Dedi məlum ki, qızılın. Dedi hə, mənim məqamın sənnən böyükdü. Qızılın məqamı gümüşdən böyükdü. Bəs qızıl səndəl mənim oldu. Gümüş səndəl də sənə. Mən icazə versəm, keçib oturacaxsan. İcazə verməsəm əyağ üsdə durub söhbət eliyəcaxsan. Xeyir, sən kimsən, nə karəsən icazə versən? Dedi, arvad gərək kişinin bilirsən əmrinə itaət eləsin, danışma. Qız gördü ki, əgər iki kəlmə də danışsa heç gümüş səndəl də buna yetişmiyəcax. Bu belə ki sözü gətirir, qız qaşdı oturdu səndəlin üsdündə-gümüş səndəldə. Dedi, sən məni qoyma görüm necə qoymaya bilərsən. Dedi, hə elə oturarsan ha, elə oturarsan, bəyaxdan deyirdin ki, qızıl səndəl mənimdi. İndi sözün var de. Məhparə xanım neynədi? Çağırır dayəni, ay dayə, mənim o tarımı götür gəl görüm, bu əcəl oğli nə oldu düşdi mənim canıma. Mən neynirəm Adəm qabax oldu, Həvva qabax oldu belə sözləri. Mən söz diyəcəgəm mənim sö-

zümə, oğlan, cavab verginən. Ayrı sözlər mənim heç xətrimə dəymir. Dedi, xanım, buyur da. İndi bu yol neyniyir, götürüb gö-rax burda nə cür deyir qız Məhəmmədə bunun cavabın diyə bi-lir, yainki yox? Mən ərz eliyim ağalarımızın sağlığına:

Səndən xəbər alım, ay Aşıx Məhəmməd,
O nədi ki, ağ üsdündən qarə düşübdür?
Neçə şeydən yarandı həzrəti-Adəm
Cənnətdən çıxıb nə diyarə düşübdür?

Hə, deyirsən bəs səni öz xoşuna ötürəcağam hə? Dedi, gö-rüm sözə cavab de. Məhəmməd dedi, xanım, hələ sözüvu demisən hələ gör mən sənin sözuva cavab deyə bilirəm, ya demirəm? De-di, belə hərbələri kəs! Bu nədir ki, belə dədən yandıracağam, belə anan ağlar qoyacağam. Səni dar ağacından asacağam. Elə bu söznən. Məgər bu nəmədi? Dedi, baba, buları mən küçələrdə aşıx oynardım uşax vaxtı. Ondan bular mənim zalarımdı. Dedi, oğlan, sözə cavab de görüm. Məhəmməd dedi, al mənnən gəldi, xanım:

Sənə cavab verim, ay Məhparə xanım,
O mürəkkəbdi ki, kağız üsdən qarə düşübdür.
Abı, atəş, xaki baddan yarandı həzrəti Adəm,
Cənnətdən çıxıb sərən dibə düşübdür.

Dedi:

– Xanım, bu cür sözlərə ümid olsam, bulara ümid olmagi-an. Xanım, yolumuz uzaxdı. Burdan gedəciyik İrana, İranda nə qədir çəkəcax bizim toy tədarükü görmağımız. Nə qədər toy baş-lıyacax. İşimizi yubatma. Mənim də gözü yolda qalanım vardır. Arzumuz var, hə, yaxçı gönlüvü şad eliyirsən, day gözü yolda qalanların işi qurtuldu. Elə ha gözlüyəcaxlar Məhəmməd gəldi.

Qız dübarə götürüb dahi nə deyir:

Nəynən bağladılar, Məhəmməd, bərəni, bəndi?
O nədi bu dünyanı dolandı döndi?
Göydən yerə neçə dənə kitab endi,
Hər kimin şanına xoş sitarə düşbdür?

Məhəmməd dedi:

– Ay xanım, başardıxca bir az yaxşı sözlərdən deginan. Məhəmməd götürüb qızın cavabını dəxi dübarə görax necə de-

yir, amma hamı hər yandan tamaşa eliyirlər. Ay canım, bir dənə aşıx bu qızın qabağında bu qədər dayanmadı, əslən bir kəlməsin açammadı. Elə biləsən bu cavan bu qızı bağlıyacax?

Xanım, ilqarnan bağladılar bərəni, bəndi,
Haşiyə bir ilandı, dünyanı dolandı, döndü.
Göydən yerə dörd kitab endi,
Məhəmmədin şərrinə xoş sitarə düşübdür.

Quran Həzrəti Məhəmməd peyğəmbərə gəldi.

Qız gördü, əhsən. Dedi: "Allah sənə təvəkkül, Allah, sən özün kömək elə. Bu mənə bir-ikicə kəlimə bax, iki qatar sözümün cavabını desə, onnan sora nə qədər söz demirsən oxumaram ki, oxumaram. Belə oğlanı mən hardan tapacağam?". İndi neyniyir, ta qız gedib dübarəsini belə desin, ta biz diyax dostlar sağ olsun:

Məhparə diyər nəmənədi yemədilər, doydular?
O nədi ki, aşıx, qiyamətə qoydular?
O kimiydi onun dərsini soydular?
O kimiydi Ələt bazarında darə düşüpdür?

Məhəmməd gördü ki, qız sözünü qutardı. Öz adını verdi, şair öz adın diyər axı, sözün axırın, Məhəmməd dedi:

Məhəmməd diyər ki, behişt meyvəsidi yemədilər, doydular,
O xanım, qisasdı qiyamətə qoydular.
O haşədi onun dərisini soydular,
Mənsurdu da Hələbdə darə düşübdür.

Qız gördü yox, deyəsən ki, bu cavan bir dənə savalın zəvalında qalanlardandır. Xeyir, qız Allaha şükr edir: "Xudaya, axı mən bir kəlmə, bir qatar sözinən, əgər buna məhkum olsam, diyəllər bu rəy gördü. Heç olmasa gərək xubdan meydan bunun əlinə keçəndən sonra mən bir qatar da oxuyam. Day gücüm çatsa da indi meydan bunundu". Qız dedi:

– Cavan, indi meydan sənindi. Belədi, mənim düzü halım yoxdu. Meydan sənindi, vəli qalsın sabaha day. Sabah gəlax, söhbət eliyax. Bu gün adama bir qatar bəsdi.

Məhəmməd dedi:

– Xanım, işimiz var ha, yolumuz uzaxdı. Xəlqi də burda intizar qoymuşux. Mənim də gözü yolda qalanım var. Sənə dedim, nə üçün sabah. Bu gün səhbət eliyax.

Dedi yox, mənim halim yoxdu. Qız meydandan çıxdı, cəmaət bunan atdadılar. Gördülər ki, qızın gücü çatmıyacax bu aşığa. Odu ki, qabaxdan qaçdi. Hamı əcəm uşağından deyillər, “afərin, afərin əcəm oğluna, əfərin əcəm aşığına”. Qız qabaxdan qaçdı, əgər gücü çatseydi heç vədə bu işi görməzdi, möhlət almazdı. Məhəmməd gəldi, getdi misafirxanada qalmır. Qız qalıb ay-day eləsin: “Bəli, mənə bir çarə”.

– Nə çarəsi, xanım?

Dedi:

– Mən baxıram, elə bil bu cavan məni məhkum edəcaxdı.

– Xanım, xoş halıva da.

– Niyə?

– Belə oğlan dünyanı dolanasan tapmıyasan.

Bir az da şad oldu. Dairədən dedi, xanım, mən sənin yerivə oturseydim əgər şair oleydim, elə bu gün orda özümü orda məhkum elətdirərdim. Nəyə durmusan? Baba, burda bu oğlan, sən cinah çəkirsən. Sən tapamazsan belə oğlanı. İsdiyəsən, neyniyəsən? Ay dayı, o sözləri demə, bə mənim hünərim harda qalsın? Hələ bu asanlıxnan mən ona məhkum olamaram. Gecəni qalıblar, səhər olsun genə qız geyinib mindi salıskaya. O yandan gəlsin meydana. Məhəmməd qızdan qabax genə gəldi meydana. Gəldi meydanda həmin səndəlin üsdündə çıxıb əyləşdi. Əyləşəndə qız yetirdi gördü ki, oğlan elə oturub öz səndəlində. Dedi, hə, sahab olmusan həqqindi – o, sənindi. Cəmahət gələn gəlir görür ki, oğlan əyləşib qızın səndəlisində. Dedi: “Canım, qızıl səndəl hə, gör nə də yaraşır! Gör nə yaraşır!” Qız keşdi əyləşdi öz səndəlinə. Dedi:

– Ay cavan!

Dedi:

– Bəli.

– Meydan səninkidi. İndi buyün sən diyacaxsan.

Dedi:

– Xanım, meydan mənim dəyil, bəli, mən fürsəti verirəm sənə. O gün ki sən dedin mən oxumayacağam, mən onda düşərəm qabağa.

– Necə? Buyünləri sənə elə sözlər deyim ki, dünyanın şairlərin yığasan bura o sözə cavab diyə bilmiyəcax.

Dedi:

– Eybi yoxdu, sən elə məni məhkum eləsən, elə bilginən ki, dünyanın şairlərini məhkum eləmisən. Söylə gəlsin.

Qız tarı basdı bağırna, tarın simləri cırr eliyir. Zili-zil, bəmi-bəm, dəmi-dəm-hərəsi öz yerində müstəcəm. Qız elə qəzəbnən görax nə deyir Məhəmmədə:

Səndən xəbər alım, aşıx Məhəmməd,
O nədi ki, öz-özünə yanar hey?
O nədi doğar, balasın yeyər,
Özü də münkür olub kainatı danar hey?

Məhəmməd gördü buyün qız dünənkindən də yaxşı söz deyir. Dedi:

– Məhparə xanım bəli, başardıxcan qəvvaz necə qəlyanın təkindən dürü seçər, sən də şairsən belə lap başardıxcan dərin sözlərdən de. Mənalı sözlərdən de, yaxşı sözlərdən de. Tarixbətarix bu sərgüzəşt, bu sözlər deyiləcax. Buyursunlar ki, şairlərin hünərində nələr varmış, xəzinəsində nələr varmış.

– Necə bəgəm?

– Deyirəm, yəni yaxşı söz deyirəm. Sən bunun mənasını bilirsən.

– Mən, xanım, bunun mənasın çoxdan bilirəm. İndi eşidərik. Hə, anam laylay əvəzinə mənim qulağıma bulardan çalardı, bulardan diyərdi. Hə, bəli. De görüm, bunun cavabını.

Məhəmməd alıb hə, Məhparə xanımın cavabını görax:

Sənə xəbər verim, ay Məhparə xanım,
O səməndər quşdu ki, öz-özünə yanar hey.
O dünyadı doğar balasın yiyər,
Mümkün olub kainatı danar hey.

O səməndər quşudur ki, ömrü az olar. Bir il yaşar. Bir ildən artıx yaşamaz. Özünün də dimdigi əlmasdı, dırnağı ot. Allah o cür

qərar qoyupdu. O dimdiyi ki, çalar dırnağına o vəxti tamam olanda. Onun ağzından bir dənə od düşər, başlar ağzından yanar qurtular. Görürsən şair bəzi yerdə deyir ki, dilim ilə desəm, dilim səməndər tək od tutub yanar. Həmin Səməndərdi ömri bir il yaşadı, bəli, özü-özünə od tutub yanar. Cəmi yaranmışı da-nacaxdı. Qız dedi: "əhsən". Ürəgində deyir: "Allah, çox şükür. Çox şükür ki, bu sözə cavab verdi. Bilirəm mənim bu biri söz-lərimin əslən hamısına bu cavab deyər". İndi qız tarı basıb ba-ğırna dübarə, ay cavan, mənim bu sözümə də bi cavab de görüm:

O kimdi ki, Məhəmməd, bilmək olmaz halını?
O nədi ki, mayə vurmaz çalını?
O hansı qaladı tapmaz onun yoluni?
O necə mürq idi o qaladan uçar hey?

Camahat deyir, ay səni qətbəla tutasan belə qız. Canım, bu buları hardan bilir axı? Bu oğlanı ötürmiyəcax axı. Gəl gör bu cavanı bu məhkum eliyə, belə cavanı sala zindana. Canım, bu cavan da əntiqə bəşərdi niyəti. Elə getbəget sözlərin bərkidir. Bir az da bərk sözlərdi. Baxırlar Məhəmmədin üzünə görax Məhəm-məd nəsə deyə biləcək. Qəmgin olsa, məlum bilax bu sözə cavab bilmir. Görürlər Məhəmməd şahdı. Məhəmməd dedi: "Ay xa-nım, hə, yaxşı sözlərdən deyirsən". İndi o Məhəmməd nə edir, ağa, götürüb qızın sözünü cavabın belə verir:

Xanım, Allahdı ki, bilmək olmaz halını,
Eşq idi mayə vurmaz çalını.
Bədən bir dənə qaladı tapmaq olmaz yolunu
Ruh bir murqudu ki, o qaladan uçar hey.

Qız ərxayın oldu. Day bu cavan heç kimə mənim söz-lərimdən qalmaz. Məəttəl qalan döyüllər, ərxeyin oldu. Məhəm-məd dedi, xanım, sözlərivə cavab deyirəm, ya yox? Bəli, deyir-sən. Amma Məhəmməd, başacan gələ bilsən, çox yaxşı. Dübarə Məhəmmədə söz deyir:

Necə dağdı, ay cavan, yağar qarı əriməz?
Dörd bir yanın süsən, sünbül bürüməz.
Olar kimlər bilə ölər, çürüməz?
Hansı alimdi ki, oxumamış bilər hey?

Məhəmməd dedi:

– Xanım, nə vaxtacan hey-heynən diyəcaxsan? Hə, döndər ayrı bir qafiyəynən de də.

Dedi:

– Mən sözümü deyirəm. Harda məhətəl qalsan, denən bilməm. Mən ki məhəddəl qalmaram ha.

– Hə, deyirsən hamamdı, yalvaram sənə diyəm çıx get. Evimdi diyəm çıx getginən. Bura o dəyil. Atan yandıracam.

Deyir, olarda səni məhkum eləmişəm, xanım, elə burda da məhkum edəcağam:

Xanım, o Qaf dağıdı yağar, qarı əriməz,
Dörd bi yanın süsən-sünbül bürüməz.
O ovluyaylərdilər ölər, çürüməz,
Allahdı ki, oxumamış bilər hey.

Qız gördü yox day, heç şəkki yoxdu. Narahatdıx, nigarançılıx yoxdu. Bu bilənlərdən ay cavan, mən diyəcağam elə sən mənə cavab diyəcaxsan. Dedi, bəli xanım, yaxşı sözlər oxuyubsan. Məni yubadırsan. Bir az babat tez qutar, ayrı qapıya qədər sözü oxuyax. Qız dedi, cavan, aç gəlsin görüm sözün cavabın. İndi Məhəmməd sözün cavabın belə açır:

Lalə gülüdü odsuz-közsüz dağlanar,
Nufil körpüsüdi ildə bir yol yağlanar.
O Qurandıkı salavata bağlanar,
"Bismillah"dı sərancamın açarı.

Qız gördü yox, məhəddəl eləmağa gəlməz. Nəmənə desə, bu cavan diyəcək cavabını. İndi götürüb qız sözünün xatəməsini:

Məhparə diyər, o nədi gecələr çox olar?
Sübh açılar, gün çıxmamış yox olar.
O nədi ki, yonulmamış ox olar,
İnsanların balı – pərin biçər hey?

Məhəmməd gördü, ə, qız indi sözün qutardı. Deyər, qulaq as:

Məhəmməd diyər ki, şəbu pərdu gecələr çox olar,
Süb açılıb gün çıxmamış yox olar.
Şəmadətli sözdü ba, yonulmamış ox olar,
İnsanların bali pərin biçər hey.

Allah elə qərar qoyub işıxlanan, gün çıxan arasında özünə harda məkan tapsa gedər varid olar ora. Ayrı yana gedə bilməz. Yuvası bəlli dəyil. Balasını da qanadının altında dolandırar. Həmişə bir dənə balası var, süd verər özü də. Bəli, o sübünən gün çıxan arasında görəsən yox olar.

Dedi:

– Məhəmməd, bəli indi day mən demiyəcağam. İndi sən də de görüm, sən də heş demək başarırsan? Yol getməyi başarırsan, ya mən düşmüşəm qabağa? Sən mənnən yol getmək örgənirsən.

Dedi, xob, bir de görax. Məhəmməd dedi, bəs day sən oxumuyacasan ki? Deyir, xeyir day mən oxumuyacam. Elə bulardı ki, oxunur. Məhəmməd dedi ki, bəs inidi ki elədi qulaq asginan. Görək Məhəmməd nədən xəbər alır:

Məhparə xanım, dünyaya gəldi neçə dənə peyğambər?
Allahın əmriynən olar nə dedi?
Kim idi yerə vurdu mayəni?
Bərkitdi yerləri göyləri, olar nə dedi?

Qız dedi, vallah, bax mən əslən indiyəcən bu sözlərdən nə eşitmişəm, nə də bir nüxtəsi əslən zehnimə gəlir. Qız dedi, cavan, bunnan sonraki özünki genə var? Dedi, söz bir olmaz ki. Dedi, aç görüm, o birisiləri də de, bəlkə mən elə bir yer açdım. Dedi, elə aça bilseydin, elə əzəldən açardın. Qulaq as:

Ənbiyadan, övlüydan-olardan,
Nə Rüstəm Mənsuri çəkdilər dardan?
Dəryanın üzündə ol o Şahi-mərdan,
Ustad oldu Cəbrailə, nə dedi?

"Bax-bax", – qız deyir – "Allahu əkbər, xuda, çox şükür", – ürəgində deyir. Allah, qəribə şayirdı. Gəlib bunun hünəri, aşikar oldu xəlqə. Cəmahət bilsin ki, mən necə hünərməndə gedirəm. Necə bir qüdrətdi? Mən bir oğlana məhkumam ki, tapammaram. Götürüb Məhəmməd sözünü deyir:

Məhəmməd diyər, kim idi kitabı tutmuş dəstində?
O kim idi, o cavanın qəsdində?
Həzrəti Adəm qaldı sərəndimin üsdündə,
Cəbrayıl vəh gətirdi ona nə dedi?

Dedi, oğlan, bu bir qatardı, mən iki qatar söz demişəm bağlama. İndi sənin qaldı bir qatarın. Birin də de görax neynəmalıyıx? Dedi, demirsən cavab? Dedi, yox da tapamıram axı, bilmirəm a diyəm. Bilsəm, diyərəm də. İndi görax Məhəmməd dübarə bu yol nəmənə qızdan soruşur. Nə deyir, mən də deyim yaxşı oğlanlar, tamam əziz dostlarımızın hamısnın sağlığına:

Səndən xəbər alım, Məhparə xanım,
O hansı qandı əvvəl əraya düşdi?
Kim idi çəkdi qılıncını vurdi,
Kim öldi, kim yıxıldi, kim qaşdi?

Dedi, bu yol da vurdu, yıxıldı, qaşdı, öldü deyirsən. Həm də deyirəm söz soruşuram. Bəs sən məndən niyə soruşursan? Mən də söz soruşuram. Dedi, cavan, sən Allah, bu qatarı tez-tez de başa gətir. Bu nə sözdü, ə? Məhəmməd sözün o birisini deyir:

Hə, xanım, o kimiydi ki, onun çıxmadı canı?
O kim idi ki, onun axmadı qanı?
Nə üsdə qopdu Nuhun tufanı?
Əzrail haradan bənd alıb keçdi?

Məhəmməd sözün belə xatəməsni deyir. Elə çəpi çalırlar Məhəmmədə, "afərin", "əhsən", "sağ olsun" deyirlər cəmahət. Gurultudan qulax tutulur. Məhəmməd sözün xatəməsini təhvil verir:

Məhəmmədəm, eşqində olmuşam dəli,
Bağırımın başı olupdur zədəli.
Bura bax, xanım, nə üsdə saldı labüd cəngi və cudi?
Nə üsdündə keşakeşdi?

Belə olanda, ağa, sözlər tamama yetir. Qız məhkum oldi. Məhəmməd burda qız qayitdi isdiyir ki, oğlanın hünərin bildirsin camahata. Dedi:

– Məhəmməd, bəli, yaxçı şairsən. Bir daha sənnən söz isdiyirdim.

Dedi:

– Nəmənədi?

– Bir qatar söz oxuyasan ki, özüvün adı Məhəmməddi, hamısı qafiyələri bütün Məhəmməd diyəsən. Diyə bilərsən?

Oxudu, dedi:

– Xanım, hammısını Məhəmməddən oxudum?

– Bəli, afərin.

Qız özü bir çəpik vurdu Məhəmmədin sağlığına. Cəmaət də hammisi baxdılar, ona çəpik vurdular. Qız dedi:

– Ağa, keş yol haqqındı, minəsən salıskıya.

Keşdi mindi salıskıya. Aparıb öz evinə. Bəli, ta rəsmi qaydeynən, xodkar paşaya xəbər verdilər ki, qızıvı İrandan bir cavan gəlib məhkum elədi. Xodkar paşa istədi bunu xidmətinə baxdı oğlana, gördü, vallah, həylə həqqiymiş. Allah bunu ona yaradıb. Bu onun həqqidi. Götürüb buları nə gözəl arzuynan, nə şadlıqnan bulara bir toy tutur. Məhəmməd qızı götürüb ta Ustanbuldan gəlir İranə. Bir nəfər qasidə kağız yazdı ki, aparacaxsan mənim atama verərsən bu kağızı. Peşvaz verərlər bizə, biz çox şadlıqnan gəlirıx. Qurbanlar çıxardarlar qabağa. Ağa, qasid naməni yetirib, bulardan ənamın alıb, ta ki çıxıblar qabağa. Peşvaz ediblər Məhəmmədi, yetiriblər ta həmin öz xanəsinə. Bir dənə toy tutub, orda Məhparə xanımnan özünə.

Navarı oxuyan aşıx Hüseyin Təbrizi, balabanda Salanağeyi Şəfaət, dairədə çalan Məştəlağa Cudi. Tamam əziz dostlarımızn hamısnın sağlığında. Qutuldu.

Məhəmməd və Məhparə xanım dastanı aşıx Hüseyn Təbrizinin dilindən balabanda Salanağey Şəfaət, Məştəlağa Cudinin müşayəti ilə dinlənilib yazıya alınmışdır. Dastanın əldə olanan variantlarında müəyyən səhnələrdə yer alan aşıq deyişmələrinin bir qismi tam əldə olunmamışdır. Orijinalın saxlanılmasına uyğun olaraq bu mətnlər yarımçıq şəkildə də olsa kitabda saxlanılmışdır.

## BABA LEYSAN

Mən gəlirdim Tufarqanın elinnən,
Yolum düşdü obasına Pərinin.
“Salam” verdim, “əleyk” aldı salamım,
Qonax oldum babasına Pərinin.

Pərim təklif etdi orda düşməyəm,
Su istədim, şərbət verdi, içməyəm.
Göyül quşu həva aldı uşmağa,
Uşdu qondu cığasına Pərinin.

Tökülübdü dar gərdanə hörmələr,
Gümüş kəmər incə beli bürmələr,
İpəh göynəh üsdən qızıl düymələr,
Düzülübdü yaxasına Pərinin.

Mən Abbasam, gəldim burda qalmağa,
Şirin canı eşq oduna salmağa.
Qürbət eldə belə gözəl almağa,
Yaxşı düşdüm sovdasına Pərinin.

Bəli, əziz eşidənlər, isdiyirəm bir dasdanı ərz eliyəm xidmətizə. Baba Leysanın dasdanı ki, doslardan, tanışlardan əxz eləmişik ərz eliyən xidmətdərinə. Mən Aşıq Ərəb Balaban; Ağayi Babulla Qədimi; Bəli, əziz eşidənlər, geçən zamanlarda, ərz eliyim xidmətizə atalardan, babalardan, analardan dilbədil gəlişib bu dasdan ta yetişib əlimizə ki, ərz elirəm xidmətizə. Qədim Azərbaycanda Təbrizin şəhrində bir meydan varımış, məxsus aşıxlar meydanıymış. Aşıxlar həmişə orda oxuyarmışlar. Vəli qayideyi-aşıxlıx belə deyilmiş. Aşıxdan söz-qıfılbənd soruşarmışdar. O zaman bir aşıx Təbrizdə varımış, benamı Aşıx İsmayıl. Yəni, Aşıx İsmayılın pəncəsinin üsdünə tay pəncə yoxumuş. Saz çalmaxda, oxumaxda, bəhsidə zadda. Nə cür aşıx gəlsəymiş Aşıx İsmayıl məhkum eliyərmiş. Hər kəs hər kəsi də o zaman sözünən, şernən məhkum eliyərmiş, sazını əlinnən alar-

mış, özünü boş yola salarmış. Bəli, bir gün Aşıx İsmayıl meydanda söhbət eliyir, əyan, əşraf, yığılılar Aşıx İsmayılın söhbətinə qulax asırlar. Cavannar sıreynan bir tərəfdə əyləşiblər söhbətə qulax asırlar. Aşıx İsmayıl söhbətin eliyənnən sonra, bir qaydadır aşıxlar dövran yığarlar. Ərz elədim ki, ürəhdən atalarımızın, babalarımızın rəsmiyyatı və qanuni-əsildi ki, biz gedirik bu yollarınan belə aşıxlar o zaman dövran yığarmış, genə dövran verəllər aşığa. Bəli, sazını gətdi qoydu yerə ki, bir dövran yığa Aşıx İsmayıl. Amma bu cavannarın içində bir cavan vardı adına Leysan deyərdilər. Leysan da bu cavannarın içindəydi. Bilmədi, birdən belə nəzərinə gəldi ki, Aşıx İsmayılın sazın götürüm, görüm mən də çala bilirəm? Əlin uzadıb Aşıq İsmayılın sazın götdü, mizrabı bir çaldı saza. Aşıq İsmayıl sazın səsin eşidib narahat oldu. Sazı qeyzinən, tündünən tutdu Leysanın əlindən aldı:

– Oğlan, məgər sənin bu şəhərdə işin yoxdu? Sənin mənim sazımnan nə işin? Qoy yerə, get işinin dalıynan.

Yerdən dodaxlarının altınnan pıçıldaşıllar? bir-birinə güllüllər muna. Daxı xəcələtdiyinnən bulların yanında dayana bilmədi. Durdu da çıxdı gəldi evinə. Ama narahatdı, niyə Aşıx İsmayıl bu işi elədi, bir elə camahatın, cavannarın içində, məclisdə mənim üçün bu işi gördü. Narahat oldu, gəldi öz evlərinə. Baba Leysanın anası gəldi:

– Oğlan!

– Bəli.

– Niyə bu gün sən narahatsan, hardan sənin narahatçılığın var?

– Ana, bəşərdi da, insandı da. Gündə insan əlli dəfə fikri əvəz olur. Gah şad olur, gah naşad olur, fikir eliyir. Mənim də böyünnəri fikrim narahatdı. Sən heç aludə olma mənim fikrimin narahatçılığına.

Əmma oğlan çox narahatdı, gəlib dəstəmaz aldı, özün verib xəlvət otağa üz dolandırıb xudavənd dərgahına ki, xudaya, sən bilirsən ki, məni bir elə cəmaitin içində şərməndə elədi, xəcalət elədi. Mənə elə dərəcə verəsən ki, mən gedəm aşıq İsmayıldan qisasımı alam. O qədri xudavənd dərgahına dua eliyib,

andını qoydu möhürə oğlanı yuxu tutdu. Oğlanı elə yuxu tutdu, yuxusuna kim gəlir? Ağalar ağası, mərdi-Mürtəza Əli, düşmənin gözünün xəncəri, dustun dizinin taqəti, bəli, gəlir oğlanın yuxusuna. Oğlan baxdı gördü, bunun başının üstündə bir nurani seyyidi dayanıb.

– Səlam.

– Əleykimə-səlam.

– Oğul, niyə narahatsan?

– Vallah, bu günnəri mənim narahatçılığım bir yerdəndi. Aşıx İsmayıl məni cavannarın içində şərməndə eliyib. Day mən bir də tay-tuşumun içinə çıxa bilməm.

Dedi:

– Oğlan, narahat olma. Gəl, əlimdəkin ki, görürsən, al iç. Amma sabah gedərsən Aşıx İsmayıldan qisasını alarsan.

Oğlan aldı həmin badəni işdi, dedi:

– Ağa, nə içməlidi? Bundan bir dənə də verginən.

Dedi:

– Bir dənə bəsindi. Mən bundan iki dənə üç nəfərə vermişəm xeyrini görmüyüb. Əsliynən Kərəmə verdim, od tutdu yandı, Leyliynən Məcnuna verdim dağa-daşa düşdü, Şirinnən Fərhada verdim, külüng atdı başın yardı. Elə bir dənə bəsindi, yerinə yetirə bilsən.

Oğlan içib, durdu döşənsin ki, ağanın əl-ayağına, gördü yoxdu göz önünnən. Ayıldı, durdu yerinnən: "Pərvərdigarə, mən vaqeədə gördüm munu, ya yuxuydu?" Gördü, xeyr, tər süpürüb basıb bunu, öz-özünə şeir gəlir sinəsinə, təbi şeir tapıb. Leysanın anası gəldi:

– Oğul, sən gedərdin işə belə vax, niyə yatıbsan?

Ana baxdı gördü oğlanın gözəl, cavannıxı biridi, min olub, şeir oxuyur:

– Oğul, nə xəbərdi?

Dedi:

– Ana, əgər mənim üçün saz tapıb gətirsən, ürəyimdə neçə kəlmə sözüm var. Sizin üçün ərz eliyəcəm.

Dedi:

– Oğul, saz nəmənə?

Dedi:

– Aşıxlarda olar, çalarlar.

Göndərillər sazbənd dükanınnan bir saz gəlir. Leysan sazın zilin, bəmin kök eliyir, indi görək mövlasını anasına nə cürə tərif eliyəcək. Mən də ərz eliyim qulaq asanların hamısının sağlığına:

Gəl sənə mövlamın tərifin edim,
Görünməz yerrərdən görünər mövlam,
Əl eyləsə Zilfiqarın qəbzinə,
Dinsizdəri dinə gətirər mövlam.

Anası dedi:

– Barakallah oğlum, sağ ol səni! Sən bu sözdəri hardan örgəşdin? Nə qəşəh sözdər oxursan, ay oğul.

– Bu sözdərdən genə varımdı. Çoxdu o sözdərdən. İcazə ver, ana, deyim.

Bir gilə göndərdi qırxlar cəminə,
Onu göndərdilər ərki-zəminə.
İşarət eyləsə göydəki günə,
Günü günortadan qaytarar mövlam.

– Sağ ol səni, sağ ol, oğul! Sən mənim ruhima qəza verdin. Hardan öyrəndin bulları?

– Ana, icazə ver, o sözlərdən çoxdu:

O Musa əyləşən Turun dağıdır,
Hər yana baxarsan cənnət bağıdır.
Beçarə Leysanın müskil çağıdır,
Cəmi müşkilləri həll edər mövlam.

Bəli, edər. "Cəmi müsgilləri həll edər, gərəh səmimi qəlbinən gedəsən mövlaya. İşin müşgilə düşəndə mövlanı çağırarsan, həmişəlik qəlbində məhəbbətin ola". Söz tamam oldu, dedi:

– Ana, əgər izni, icazə versən mən gedib Aşıx İsmayılnan söhbətdəşib, bağlaşmalıyam.

– Oğul, sən sazı böyün alıbsan, gedərsən Aşıx İsmayılnan bu gün qabax-qarışı söybət eliyəsən, eliyə bilməssən, oğul. Aşıxdan söz xəbər alallar, ahəng soruşallar, bilməssən. Dünən-

nəri öz sazıydı sənin əlinnən alıb, xəcalət olmusan, bu günnəri bu sazı, cəmahət içində şərməndə olarsan.

– Ana, mən gördüyümü görmüşəm. Gərəh gedəm Aşıx İsmayıldan qisasımı alam.

– Oğul, özün bilərsən.

Sazı qoydu köynəginə, anasıynan xüdahafiz eliyib, düşdü yol başa. Gəldi Təbrizdə aşıxlar meydanında gördü, bəli, hər günkü kimi Aşıx İsmayıl bərnaməsinə idamə verir. Əyan-əşrəf əyləşiblər Aşıx İsmayılın söybətinə qulax verillər. Bu da saz çiynində gəldi əyləşdi meydanın bir tərəfində. Aşıx İsmayıl göz dolandırdı camaatın içinə, aşığın gözü elə camahatda olar ki, görüm bəli, məclisdə kimlər əyləşib. Baxdı gördü, bir aşıx, əlində saz görünür. Belə baxdı diqqətinən gördü dünənki oğlandı. Fikirrəşdi: "Mən bu oğlanın sazını əlinnən aldım, şərməndəlih çəkib narahat olub, mənə acığı gəlib, gedib saz alıb gəlib".

Dedi:

– Oğlan, əlində sazın olmaxda aşıxsan?

– Bəli, aşığam.

– Aşıxsan, dur gəl bura görüm.

Leysan durdu gəldi Aşıx İsmayılnan rubəru dayandı. Camaatın da gözü elə bulardadı, dünən saz alıb gəlib, bu gün Aşıx İsmayılın meydanına. Aşıx İsmayılın tamam hər tərəfdə tərifi vardı, tamam şəhərrərə, obalara, oymaxlara yayılıb bunun tərifi. Bunun qorxusunnan heç aşıx gəlib bəhs eliyə bilmir. Necə olub ki, bu dünən saz alıb, bu gün gəlib Aşıx İsmayılın müqabilinə.

– Oğul, axı sən dünən saz alıbsan, bu gün gəlmisən mənim meydanıma. Aşıxdan söz xəbər alarlar, ahəng soruşallar, qıfılbənd soruşallar. Axı sən ustad görmüyübsən, ustad yanına getmiyibsən.

Dedi:

– Belə çox söhbətə yol vermə! Mən gəlmişəm sənnən bağlaşam. Çün sən dünən sazı qeyzinən mənim əlimnən aldın, sən məni narahat eliyibsən. Gəlmişəm sənnən bağlaşam.

Aşıq dedi:

– Nobət sənnəndi, ya mənnəndi? Qabağa sən düşəsən, ya mən düşüm?

Dedi:

– Sən ustadsan, mən şagirdəm. Mən hələ dünən saz alıb gəlmişəm qarşına. Sən deyəcəksən, mən də cavab ərz eliyəm, əgər bilsən. Sənin sözdərin cavabın dedim, onnan soora nöbət yetişəcəhdi mənə.

Bəli, Aşıx İsmayıl sazının zilin, bəmin kök eliyib. Camahat da hamısı vasavasda, bular neyniyəcəh? İndi görəh Aşıx İsmayıl nə soruşur, cavabını Baba Leysan deyə biləcək, ya yox:

Aşıx İsmayıl:

Gəl-gəl sənə deyim, balaca aşıx,
O nədir ki, gecə-gündüz gəzər hey?
Nə dəftərdi qələm tutmaz yazısın,
Nə qələmdi o dəftəri yazar hey?

Dedi:

– Ustadcan, mən elə bildim sən mənnən qıfılbənd xəbər alacaxsan. Bullar qıfılbənd dəyillər ki..

Dedi:

– Bəs nəmənədi, oğlan? Çox özüyü o yana – bu yana çalma. Ya sözüvün cavabını de, ya sazıvı mərhəmət elə, ver mənə.

Dedi:

– Oları biz uşax çağı yatardıx kürsü başında bizdən tapbaca soruşardılar. İcazə ver, mən cavabı ərz eliyim:

Bizdən salam olsun kamil ustada,
Aynan gündü gecə-gündüz gəzər hey.
Sinə dəfdərdi, qələm tutmaz yazısın,
Dil qələmdi, o dəfdəri yazar hey.

Həmən dörədən "əhsən" deyillər: "Sağ olasan, Leysan".

Aşıx İsmayıl bir balaca əl-ayağın yığışdırdı:

O nədir ki, çeşmə ikən çay oldu?
O nədir ki, əl dəyməmiş zay oldu?
O kim idi, yoxsul ikən var oldu?
O kim idi, saldı ona nəzər hey?

– Ustadcan, icazə ver ərz eliyim. Mən bayaxda dedim, mənnən qıfılbənd xəbər al, tapbaca soruşma.

Dedi:

– Oğlan, qədim danışma, ya sazı ver, ya cavabını söylə görəh.

Göz yaşıdır, çeşmə ikən çay oldu,
O gül idi, əl dəyməmiş zay oldu.
Hatəmidi yoxsul ikən var oldu,
O xudaydı saldı ona nəzər hey.

Burda Aşıx İsmayılın bala-bala simi qarışır: "Balam, hardan gəlif bu, hardan örgəşib bu sözdəri?". "Hə", – dedi, – "Oğlan, icazə ver, aşıxlarda qəydədi, üş bənd söz soruşam mən".

O kimidi tabe oldu şeytana?
O kimidi, heş nə gəlməz gümana?
O kimidi, qəsb edər şirin cana?
O kimidi, dərdi oldu həzar hey?

Binamazdı tabe oldu şeytana,
O münkürdü heş nə gəlməz gümana,
Həzrəti-İsmayıl qəsd etdi şirin cana,
Həzrəti-Əyyubdu dərdi oldu həzar hey.

Həzrəti Əyyub elə məriz oldu ki, onun tamam bədəni yara tutdu. Day elə oldu ki, dedilər buna evdə day faydə olmaz, bu ki dünyanı vəda eliyə, aparax qoyax bir dağın üsdünə, dağın başına. Apardılar qoydular bir dağın üsdündə, qayıtdılar gəldilər. Əmma bədəninə qurt düşmüşdü. Bi dənə-bi dənə bu qurtdar düşər yerə, gənə salardı yaranın üsdünə ki, heyvannar, mən ki dünyadan getməliyəm, siz mənim bədənimdə təyyib eləyin. "Həzrəti Əyyub idi dərdi oldu həzar hey", yenə dörədən "əhsən" deyillər. Bu dəfə nöbət yetişir Leysana. Leysan deyəcəh Aşıx İsmayıl da cavab deyə: Bəli, görəh Aşıx Leysan nə cür deyəcək? Aşıx İsmayıl nə cavab verəcək, mən də ərz eliyim tamam əziz, möhtəşəm insannarın hamısının sağlığına:

Sən kamili-ustad mən sənə şagird,
Mən şagirdin dedihlərin aş, görəh.
Nə gündə təxt oldu Məscidi-Əxsa
Haradan gətdilər ona daş görəh?

Aşıx İsmayıl fikirrəşdi, gördü bir dənə nüxtəsin tapıf demiyəcəh, ürəyində dedi: “Oğlan, yetim qalasan səni insallah, hayannan tapıb dedin bu sözü? Mən nə bilim Məscidi-Əxsa hansı gündə təxt olub, hardan daş gəlib ora?”. Ürəgində bu sözdəri dedi, amma dildə:

– Oğlan, bu sözlər bir şey dəgil, sən üçün də de, tükənənnən sora axırda mən oların hamısını açaceyəm.

Leysan elə bildi Aşıx İsmayıl düz deyir. Harda? Aşıx İsmayılın gözünün için tappax olmur. Aldı görəh Leysan sözünün o birisini:

Kim ustası oldu o daşı qazdı?
Kim nəqqaşı oldu, o daşı yazdı?
Oxuya bilmədi hurufun azdı,
O kimidi dedi: “Üzüqarə, qaş görəh?

Ürəgində dedi: “Sənin üzün qarə olsun, mən nə billəm kimdi?” Amma üzdə dedi:

– Oğlan, ollar bir söz dəyillər. Eliyə bilsən, axırda mən sənin sözdərin üçünə də mən bir cavab verəcəm”. Hamı bir-birinin çiyninən boylaşıb baxır ki, ayə, bu dünən saz alıb gəlib, bu gün Aşıx İsmayılınan muğabıl durub.

Mahnı:

Gözlərin göyçəhdi, boyun bir bəstə,
Dilin badam içi, dodağın püstə,
Küçənizdən geşdim görmədim səni,
Neçə ki ömrüm var sevirəm səni.

Qaradır qaşdarı, xaldır arası,
Bir dərdə salmısan yoxdur çarası.

Həbibsən sən, ya rəzil, səndən mədəd, ya Əli fəryadir-əz,
Ələcsizdən bəli dedim, əcəb xoşhaldır yüküm.
Beş gözəlin aşiqiyəm, bəsri-cəmaldır yüküm,
Həm dərindi, həm dayazdı, həm şirindi, həm acı,
Zəhmətdə zəhri-həlakini, ləzzətdə baldı yüküm.

Lütfəsindən əyri olan tez görsədər isbatın,
Hər ağac kökündə bitər, hər miyvə bəslər zatın,
Hər çayı, ədyar, naşı bilməz qiymətin,
Ürfan məclisində gövhər-misaldır yüküm.

Biçarə Aşıx Ələsgər, sığın Şahi-Heydərə,
Onun damənindən tutan məhşərdə yanmaz nara.
Pirim mənə rüşxət verdi bu gün çıxdım bazara,
Sərrafdan qalxır beylə, gör nə cəlaldır yüküm.

Söhbətimiz o yerdə qalıb ki, Aşıx Leysan Aşıx İsmayılın müqabilində dayanıb. Camaat da hamısı bahəm qulax asıllar bulların söybətinə. Bəli, Aşıx İsmayıl üş bənd Leysannan xəbər alır. İndi bu yol Leysan Aşıx İsmayıldan söhbət soruşur. İki bənd soruşubdu, bir bənd qalıbdı ki, ərz eliyəciyəm. Aşıx İsmayıl ürəgində dedi ki, mən bunu hardan danışdırdım? Gəl gör, bi belə cəmaətin içində məni şərməndə eliyəcəh. Dünən saz alıb əlinə, bu sözdəri hardan öyrənif? Götürsün görəh sözünün əvvəl-axırında nə xəbər alır:

Əzəldən sitəmdi Leysanın işi,
Nə gündə qırxıldı peyğəmbər başı?
Yer altında o yad mahanın yaşı
Yaşın bağışdadı mağzın aş görəh.

Aşıx İsmayıl o yana baxdı, bu yana baxdı, istədi cavab versin, gördü yoox, tapıb deyə bilmiyəcəh. Dedi:

– Oğlan, mən bunların hamısını bilirdim, yadımnan çıxıb. Evdə kitabım var, gedim kitaba baxım gəlim sənin sözdərivin cavabın bi dənə-bi dənə verim.

Aradan çıxır camaatın içinnən asda qaçan namərtdi. Bəli, bir saat gözdədilər, iki saat gözdədilər, gördülər, xeyr, Aşıx İsmayıldan sorax yoxdu. Əlbətdə, o gün o cür geşdi. Camaat dağıldı getdi. Səhəri gəldilər gözlədilər, gördülər xəbər yoxdu. Amma Aşıx İsmayılın 12 dənə şagirdi vardı. Həmişə Aşıx İsmayıldan dərs alardılar. Bullar sazların fırladılar keşdilər Leysanın yanına ki, indiyədək bizim ustadımız Aşıx İsmayılıdı, indi xob,

onu qaçırtmısan, yoxdu. Gərəh bizə burda ustad olub dərs deyəsən. Dedi:

– Əvvəla, inşallah, ustadız gələr. Gedib kitaba baxa gələ, mənim cavabım verə. Gəlməsə, baş üsdə mən sizə ustaddıx elərəm. Bir gün, iki gün, üş gün gözdədilər, sorax olmadı. Amma burda qalıbdı Leysan 12 şagirdə dərs deməyə məşğul. Vəli bu şagirddərin içində bir dənəsi var, adı Vərqədi. Bu, çox bahuş, söz təfil alan. O şagird ki, bahuş da, söz təhvil ala o müəllim onu çox isdiyər.

Vərqa çox liyaqətdi bir cavanıdı, Vərqanın atası yoxuydu, atası dünyadan getmişdi. Bir əmisi varıdı, əhli-ticarət idi, gedərdi ticarətinə. O zaman maşın yoxumuş, qəflə-qatırnan gedərmişdər o yana. Vərqanın əmisi gedirdi Şirvan şəhərinə, Vərqa gəldi:

– Əmi, inşallah səfərin haradı?

Dedi:

– Oğul, bu dəfə gedirəm Şirvan şəhərinə.

Dedi:

– Orda kara gələn zad olsa mənim üçün al gəti, bayram qabağıdı.

Qəflə-qatırı çatıllar, neçə gündü yol gəlillər. Aşıx diliynən ta gəlif yetişdilər Şirvanın şəhərinə. Atdarı, qatırrarı yerləşdidilər, o zamannar karvansaradı, geşdilər, əyləşdilər. Xəriddənxuruşdan eliyiflər, bir möqe gördülər, səs gəlir. Xəbər aldılar, nə səsdi? Bir nəfərdən soruşdular. Dedi:

– Ağa, bizim şəhərimizdə bir Məsihi qızı Pərizad xanım var, çox qabil qızdı, çox gözəldi, amma həm də qabil aşıxdı. Bi belə aşıxları məhkum eliyib danışıxda, söybətdə. Əhd eliyib hər aşıx bağlasa, gedəcəh ona, hər aşığı bağlasa öldürtdürəcəh. Odur ki, neçə dənə aşıx bağlıyıb, ta aşıxlar qorxullar. İndi bu yol onun şagirddəridi meydanda oxuyullar, bir-birlərin mədh eliyillər.

Dedi:

– Xob, gedəh ollara beş dəqə tamaşa eliyəh.

Hücrələri bağlıyıblar, özdərin verdilər meydana gördülər, bəli, meydan sulanıb, süprülüb, əyan, əşraf əyləşib. Bular da bir

tərəfdə dayanıblar, baxıllar aşıqlara. Bir möqe gördülər biri əlində bir əks – şəkil satır. Dedi:

– Bu nəmənədi? Nə əksidi?

Dedi:

– Bu, Məsih qızı Pərizad xanımın əksidi. Aşıxlar qorxur ta onnan gedib bağlaşmıllar. İndi əksini görüb bəlkə tamahlaşıb gedib bağlaşalar.

Deyir, hə, bir dənə də bu əkslərdən mən alım aparım öz məmləkətimə.

Vərqanın əmisi bir dənə o əksdən aldı qoydu cibinə, xəriddərin-xuruşdarın eliyiblər. Qəflə-qatırrarın çatıblar gəlillər öz məmləkətdərinə. Bəli, varid oldular. Vərqa gəldi:

– Əmi, getmişdin Şirvana, mən tapşırmışdım mənə bir soqat alasan, alıbsanmı?

Birdən yadına düşdü, dedi, mən sənə bir zad alacaydım, amma yadımnan çıxıb. Vəli bir dənə əks almışam. O məmləkətin bir dənə qızı var, Pərizad xanım, çox tərif elirdilər, özün görə bilmədim, amma əksini almışam. Apar otaxda as divardan xoşun gələndə baxarsan.

Dedi:

– Hə, əmi, mən bir ona baxım.

Cibinnən çıxardıb əksi verdi öz qardaşı oğlu Vərqaya. Vərqa baxdı ki, baba, bu, belə nazənindi ki... Bir ah çəkdi, bir göyüldən, min göyülə aşix oldu. Dedi, hər yanda olsa, gərəh gedəm bu əksin sahabın tapam. Ama bu fikri eliyib, əmsinin yanında bi söz demədi. Durdu gəldi, evdə bu yol duvara əksi vurur. Deyir, ya Allah, mən bunu zahirdə görə bilmirəm, kaş yatıb yuxuda görəydim. Oğlan o qədri ahu-zarrıq eliyir ki, oğlanı yuxu tutur otaxda. Bir moqey yuxudan ayıldı gördü öz-özünə şeiri gəlir sinəsinə. Dedi: “Pərvərdigara, mən bu əksə aşiq olmuşam, görək ona görə bu şeyir, bu söz mənim qəlbimə gəlir? Mən aludə olmuşam o qızın əksinə. Gərəh hayanda olsa, tapıb onu mən görəm”. Yerinnən durdu, bəli, əyləşdi otaxda. Vərqənin anası gəldi, baxdı gördi Vərqə əyləşib narahatdı.

– Oğul, niyə narahatsan?

– Ana, icazə buyur, neçə kəlmə gəlib sinəmə ərz eliyim bilginən ki, mən niyə narahatam.

Bu gün bir kimsənə gördüm,
Kəlamullah əlindəydi,
Oxurdu sureyi-Yasin
Musər büllah dilindəydi.

Anası dedi:

– Oğul, sənin bu sözdərinnən bir söz ayrılır.

Dedi:

– Ana, icazə ver, mən getməliyəm.

Anası dedi:

– Oğul, necə yanı?

Dedi:

Qıl namazın zikrin eylə,
Get rukiyə fikrin eylə.
Getməginin fikrin eylə,
Gəlməh Allah əlindədir.

– Oğlan, hara yanı gedəssən?

– Ana, icazə buyur sözümü deyim, mən getməliyəm aludə olmuşam.

Allah, heş kəsi aludeyi-başqa, sey eləməsin. Bu aludə, o aludədi – eşq aludəsi, aşiq olub. Muhəbbət bilən bilir, nə cür insan aludə olar. Bilən bilir, bilmiyən də hötmən bilər. Aldı sözün:

Budur Vərqanın sözü,
Sinəmdədir eşqin közü.
Pərizad Məsihin qızı
Özü Şirvan elindədir.

– Gedəciyəm Şirvan elinə, anacan.

Evləri var xana-xana,
Mən kül oldum yana-yana.
Düşdüm eşqə yana-yana.
Rüsvay edib eldə məni.

Söhbətimiz o yerdədi ki, Vərqa isdiyir anasınnan xudahafiz eləsin. Anası çox məzəmmət eliir ki, sən nabələd bir oğlan, heş yerə bələd dəyilsən, evdən çıxmıyıbsan. Gedərsən, oğrudan-

əyridən, hərambaşıdan rast gələr, səni mənim əlimnən alar. Dedi:

– Ana, bilmirəm, ya gərək öləm, ya gedəm əksin sahibin tapam. Mən aludə olmuşam, aşiq olmuşam!

Anası nə qədri məzəmmət elədi, amma oğlan az eşitdi. Dedi:

– Ana, mənə həlal eylə südü. Mən sənə çox zəhmətdər vermişəm. Əma isdirəm gedim.

Hamıynan görüşür, əmma qorxudan Leysana demir, mən gedirəm. Əgər Leysana desəm, mən gedirəm Şirvana, sayəd qoymuyacax. Vərqa Baba Leysannan gizdin sazın da götürüb gəldi yetişdi Şirvan şəhərinə. Amma nabələddi də, bilmir karvansarə hayandadı. Xəbər aldı bir nəfərdən, qoca kişidən:

– Əmi, Məsihi qızı Pərizadın yeri hayandadı?

Dedi:

– Neynirsən? Ora gedən quş qanad salar, qatır gessə dırnax. Ora heş kəsin uğuru yoxdu. Sazın da var. Mən baxıram, aşıxsan. Məsih qızı Pərizad səni də məhkum eliyər, neçə dənə aşıx bağlıyıb, getmə.

Dedi:

– İşin yoxdu, sən elə o bağın yolun maa nişan ver.

Dedi, bu yolu ki görürsən, düz gedir ora. Amma ordan necə keçəcəhsən içəri bilmirəm, onu day özün bilərsən.

Yolu xəbər alıb, gəlir ki, şansa bağın qapısı çıxdı. Varid oldu içəri heş kəs bilmədi. Bağın ətrafın gəzdi, dolandı, bəli, gəldi bir yerdə bir hovuz tapdı. Çox səfalı bir hovuz darəsi çəmənzarrıx, gül-çiçəh. Heybəsini çıxardıb qoydu kənara, hovuzun suyunnan əl-üzünü basəfa verdi, çün yol yorğunudu, neçə gündü yol gəlib. Çəkildi xorreyi-xaba bülənd oldu. Vərqa yatmaxda, gəlin sizə hardan ərz eliyək, Məsihi qızı Pərizad xanımnan. Pərizad xanımın 40 dənə kənizi varıdı, hər kəniz bir işə müvəkkəl idi. Yanı, hərəsi bir iş görərdi. Vəli bir kəniz varıdı, adı Nərgiz xanım idi, çün bağın güllərinə yetişərdi, Güləstan xanım deyərdilər. Elə adı da Güləstan xanımıdı, özü də güləstanıdı. Çox gözəl. Əlbəttə, bağın ətrafın gəzirdi, bağın güllərinə yetişirdi, gəldi

hovuzun kənarına, baxdı gördü, pəh, əcəm aşıqlarından bir dənə hovuzun kənarında yatıb. Yemə-içmə oğlanın qəddi-qamətinə, xoş heykəlinə tamaşa eylə. Bir gönüldən, min gönülə aşix oldu. Pərvərdigara, bu kimdi? Sazı olmaxda aşıxdı, Məsihi qızı Pərizad eşqinə gəlib. Amma noola, bu oğlan yuxudan oyana, mən bunu necə bəyənmişəm, o da məni bəyənə. Qızın cənginə keşmiyə, Məsihi qızı Pərizadın. Neyniyim? Mən birdən səslənsəm, dur ayağa, Məsihi qızı Pərizad gələr səni görər. Amma qorxuram diskinə, cavandı dodax-modağı nauxluya. Bəs elə mən bunu şeirnən, sazı-sözünən yuxudan ayıldım. O zərnişan tellərinnən bir neçəsin seçdi, saz əvəzinə düzdü döşünə. Görəh bu oğlanı yuxudan necə oyadır, oğlan necə yuxudan ayrılır?

Nə yatıbsan bu qəflətdə,
Qalx, munisim elmi oğlan.
Oyan bir söhbət eyliyək,
Həm bülbülüm, gülüm oğlan.

Oğlan bədbəx yuxudadı, nə bilsin? Belə nazənin – zülflər əbrişin kimi yanağın üstünnən, gözdəri nərgisi-şəhla kimidi. Əma oğlanın başının üsdündə belə söybət eliyir. Oğlan xabi-qəflətdədi. Qızın belə nazlı səsi oğlanı daha da şirin yuxuya salmaxdadı. Aldı görəh dubara qız nə söylədi:

Sən bir gülsən, güli-dəsdə,
Dərənnər göndərər dusta.
Oyan, çıx sinəm üsdə,
Əm dodağım, dilim, oğlan.

İnsan ki, yuxudan duranda bir musiqi səsi qulağına gələndə, deyər nə yaxşı olar, o musiqi bir balaca da ucalanaydı. Oğlan gördü belə bir həzin, gözəl səs munun başının üsdündə gəlir, gözün aşdı gördü bir nazənin gözəldi, zilflər əbrişin kimi tökülüb, şəhla gözlər elə bil ildız kimi yanır, yanaxlar payız alması kimi, dodaxlar nanə yarpaxı kimi, oğlanın az qaldı huşu başınnan çıxa. Oğlan utandığınnan dubara gözünü yumdu. Amma, qız baxdı gördü ki, oğlan gözünü yumdu, dedi, bu genə hötmən yuxuya getdi, qoy öz adına da deyim da. Qız aldı görəh sözünün axırında nə deməh isdiyir:

Oyansana, oğlan, bil halımı,
Xəzan eyləmə gülümü.
Əm ləbimi, quc belimi,
Zərəfsandı telim, oğlan.

Oğlan gözün aşdı, dedi:

– Allah, yuxudu görürəm?

Durdu əyləşdi, diqqətinən baxdı, qız oğlana baxdı, oğlan qıza baxdı. Ustaddar deyəllər, məhəbbət insanın gözündə olar. Elə bir-birlərinə aşix olullar ki, elə heyran-heyran, mayıl-mayıl bir-birrərinə baxıllar ki. Qız oğlana, oğlan qıza təmaşə eliyir, vəli Vərqa çox ləyaqətdi cavandı. Qız birdən utanıb çarşabı çəhdi. Oğlan dedi:

– Əvvəl camalıyı mənə nişan verirsən, onnan sonra gizdədirsən? Bəs sən ki, camalıvı gizdətdin mənnən bir dəsgah söz gəldi sinəmə:

Siyah zülfin gül üzündən götürdün,
Görsətdin camalın, dedin ayə bax.
Sən məni oxladın dağlar maralı,
Qaşın kaman, kiprikləri yaya bax.

Mən aşiqəm gülə bəndəm,
Bülbüləm, gülə bəndəm.
Mən ki, gedərgi qonağam,
Bir şirin dilə bəndəm.

Qız gördü oğlanın danışığı lap şirindi. Amma gedə-gedə bu iki aşiqin-məşuqin məhəbbəti daha da artır.

Xurşidi-xavərsən, mahi-münnikat,
Ləbün şəkər, diş incidir, dil nabat.
Bir kəlmə danışsan, həq üzünə bax,
Göydən yerə gələn Məsihaya bax.

Oğlan belə danışanda qızın lap xoşuna gəlməhdə. "Əmma gözəl qız, icazə buyur, sözümün sonuna bax, sən mənnən niyə üzünü gizlətdin?".

Ünüm yetməz, dərd əhlinin ününə,
Ruzi-şəbim döndü Məhşər gününə.

Şeyx Sənan kimi, gözəl məni dinlə,
Az qaldı ayırsın bu tərsayə bax.

Hər iki aşiqi-məşuq firavan-firavan danışıllar, şirin söhbətdə, söhbət içindədilər. Qız o tərəfə, bu tərəfə baxırdı, gördü Məsiha qızı Pərizad bağın o tərəfinnən gəlməhdədi. Dedi:

– Oğlan yaxşı yerdə əylənmisən, dincəl. Yaxşı yerdə dükan aşdıx, Allah bazar yetirsin.

Dedi:

– Məsihi qızı Pərizad xanım gəlir, əyər sənnən məni burda görsə, həm səni öldürər, həm məni öldürəcəh. Sən bu hovuzun kənarında pünhan ol, mən durum görüm neynəməliyəm. Bir təhər xanımın üzün salam o tərəfə gedə bağın o yanına, səni hovuzun kənarında görmüyə.

Dedi:

– Narahat olma, görsə də görüb. Noolar?

Dedi:

– Otuz doqquz dənə aşıx görüb bağlıyıb. Səni də görsə bağlıyar. Sənin kimi cəvanə qıymaram.

Güləstan xanım durub xanımı qarşıladı ki, xanım bağın bu tərəfinin güllərin təzə suvarmışam, ayaqqabın, paltarın batar. Bağın o tərəfi gəzməlidi, ged o tərəfə. Məsihi qızı Pərizad xanım yavaş-yavaş isdiir dönsün bağın o tərəfinə. Belə göz dolandıranda gözü sataşdı hovuzun kənarında əcəm aşığına.

Dedi:

– Ay çəpəl, məndən gizdin gətirib əcəm aşığını bağda saxlıyırsan?

Qırx qıza əmr elədi, gedin o əcəm aşığını vura-vura gətirin bura. Qızdar bağda yeyiblər, içiblər indi tərpənillər bir baş ora. Yetişən gördülər, bir cavandı ki, gözəllikdə Yusifi-Kənan, şücaətdə Rüstəmi-Zaldı. Səf çəkiblər, oğlana tamaşə eliyillər.

O tərəfdən qız narahat olur ki, məgər mən demirəmmi o oğlanı vura-vura gətirin bura, mənnən biicazə gəlib bağa. Qızdarın əlinə girəvə düşdü, yapışdı biri o o qolunan, biri bu qolunnan. Biri əl salıb qoynuna şuxlux eliyir. Biri qaçır yalannan şa-

palax vurur ki, guya şapalaxlıyır. Belə oğlanı gətiriblər, qızın müqabilində dayanıbdı.

– Oğlan, eşitmiyibsən Məsihi qızı Pərizadın adın?

Dedi:

– Eşitmişəm, xanım, elə ondan ötrü gəlmişəm.

Dedi:

– Mən otuz doqquz dənə aşıx bağlamışam. Sən hələ təzə yetişirsən, sənin sinnin aşağıdı. Sən mənnən söhbət eliyə bilməssən.

Dedi:

– O aşıxları ki, sən bağlıyıbsan, olar aşıx dəyilmiş. Sən mənnən heş başlaşa bilməssən.

Dedi:

– Oğlan, qədim danışma. Sən mənim bağıma bi icazə gəlibsən, o yannan bəri danışırsan da?

Dedi:

– İxtiyarım var.

Əmmə Məsihi qızı Pərizad xanım bir müşdəri gözüynən baxdı oğlana, gördü çox ləyaqətdi oğlandı. İndi Vərqa da bir baxdı Pərizad xanıma, gördü dordan da gözəldi, elə əksinə görə özü də gözəldi. Ürəgindən bu geşdi ki, mən Güləstan xanıma aşix oldum, Güləsdan xanım mənə Xudavəndin şəriətiynən verrəm kəbinə, Güləsdan xanımı allam, Məsihi qızı Pərizadı da mənim ustadım alar. Otuz doqquz aşığı məhkum eliyib, mən onnan bağlaşsam, məhkum eləsəm, gərəh deyəm bir ustadım var gedəsən ona. Dini-islamı da qəbul eliyəsən.

“Təsnif” ərz eliyək əziz dost-sağlığına:

Çıxıb yollara baxmaxdan, qalmıyıb de canım mənim,
Can deyib-can eşidərdik bu ayrılıx nədən oldu?
Gəl sən gələn yola qurban,
Canım ola ay sənə qurban,
Gözüm ola ay sənə qurban.

Aşiq olub, tərgi-vətən olanın,
Əzəl başdan pür kəmalı gərəhdir.

Oturub-durmaxda ədəbin bilə,
Mərifət elmində dolu gərəhdir.

Xəlqə həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısıyca xoş sədası gərəhdir.

Arif ola, eyhamınan söz qana,
Naməhrəmnən şərm eliyə, utana.
Saət kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdir

Ələsgər haqq sözün isbatı verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəhdir.

Bu, "Döymə kərəmiydi", indi gedəh dastanımızı ərz eliyək. Burda Pərizad xanımnan danışır, əmma gözü qalıb Güləstan xanımda. Güləstan xanımın gözünün için görməh olmur, ey dadi-bidad. Elə qorxur, elə narahatdı ki, gəl ki görəsən.

– Oğlan, sən ki saz götürüb gəlmisən mənim meydanıma, mənim işimə heş kəs qarışa bilməz.

Dedi:

– Qızdar gedin mənim o şögürümü gətirin.

Axı, sazın bir neçə adı var, yer var "saz"deyər, yer var "sögür" deyər. Öz dilimiz – saz. Qızdar, gedin mənim sazımı gətirin. Qızdar tərpəniflər, Məsihi qızı Pərizad xanımın sazın gətdilər. Sazın zilin, bəmin kök eliyib görək burda Vərqaya nə demək isdiyir, nə cür hərbə kəsir:

Gəl-gəl sənə deyim, əcəm aşığı
Kimsə qarışənməz işimə mənim.
Dünya doli olsa əcəm aşigi,
O da qarışənməz işimə mənim.

Dedi:

– Xanım, “adın nədi Rəşid, birin dedin, birin eşid”. Sən al-qırmızıdan geyibsən əyninə elə bilirsən ki, sən də bir zad olubsan. Sən xanımsan, vəli Güləstan kənzidi.

Ürəgindən bu sözdər keçir. Aldı görəh oğlan qızın cavabın nə cür deyir:

Gəl-gəl sənə deyim Məsihi qızı,
Çox da geşmə bu meydannan irəli.
Əynivə geyibsən alı-qırmızı,
Gözəl var ki, gözəllərdən irəli.

Özünü libasınan bəziyibsən, amma gözəl var, sadə gözəl olar. Güləstan xanımı deyir, ha, üsdüörtülü. Güləstam xanım elə o yanda nanə yarpağı kimin əsir. Vah, bullar belə girişiblər. Görəsən Məsihi qızı oğlanı məhkum deyillər, bu cavana. Bu söz Məsihi qızı Pərizad xanımın bir az acığına gəldi. Aldı görəh Pərizad xanım nə deyir:

Əynimə geymişəm al-yaraşığı,
Cahanı tutubdu camalım şovqi.
Dünya dolu olsa əcəm aşiği
O da qarışənməz işimə mənim.

(Tamam eşidənlərin sağlığına, məxsusən nənələrin sağlığına. Çün bir dəfə mənə dedi ki, oğul, bu navarrarı sən bu qədər oxuyirsən, Allah eliyə tükənmiyə səsin. “Ümidvarəm, tükənməz dedim. Anaların ürəgi insafən çox nazik olar. Anamın bu sözü ürəgimə çox əsər qoydu). Ərz elirəm tamam anaların sağlığına:

– Ay xanım, belə sən özüvü çox çəhdin yuxari, icazə buyur, hə sözün cavabın ərz eliyim.

Qail oldux səkkiyatın onuna,
Səkkizinə, doqquzuna, onuna.
Aşiq gələ girə loğman donuna,
O da qarişənməz işimə mənim.

Dedi:

– Nə danışırsan? Mən o aşıxlardan dəyiləm ki. Amma, dayan saa sözün cavabın deyim.

Aldı görəh oğlan nə deyir:

Atımı çapmağa bu meydan degil,
O yol ki tutmuşam bir ərkən dögül.
Sən görən Süleyman, Süleyman dögül,
Süleyman var, Süleymannan irəli.

Navarın o üzündə ərz elədim qızınan oğlan bir-birinə hərbə kəsillər:

Cavannar içində şuxi-şəngim var,
Meydana girməyə əlif qəddim var.
Sənnən danışmağa yaxşı həddim var,
Vərqa geşməz ustasınnan irəli.

"Vərqa geşməz ustasınnan irəli" – bu qız çəhdi əlin əlinə qah-qah güldü:

– Qızdar, buna baxın. Bu bəyaxdan mənnən danışırmış. Aşıx dəyilmiş. Bunun ustası varımış. Ustasının gücünə biznən danışırmış bu. Hə, indi verrəm səni aparallar zindanda saxlıyallar, ta ustadın gələr, bu yol ustadınnan bağlaşaram. Mən əgər səni məhkum eləsəm, deyərlər, o şagirdidi. Əmma göndərərəm ustadın gələr, o möqe ustadınnan bağlaşaram. Məlum olar ki, mənim hünərim nəmənədi.

Bu yol qızdarın hamısın yığıb bir yerə. Qızdarın hamısı ürəgində deyir, kaş verəydi mən aparıb zindanda saxlıyaydım. Hamıdan betər Güləstan xanımın ürəgi hanə yarpağı kimi əsdi. O oğlanı kaş Pərizad xanım indi görəh bu qızdarın hamısına tapşırır, nə cür tapşırır, nə tapşırır?

Yığışın qızdar, qulaq asın,
Gör nə danışır kətərə.
Uşaxdı kəndin anlamır,
Sözdər danışır hədərə.

Qızdar yığışdılar, toplandılar bir yerə. Aldı Pərizad xanım:

Bu oğlan deyəni qızdar haxlıyın,
Qulaxlarınan mıxlıyın.
Aparın dustax saxlıyın,
Uşax çıxmasın səfərə.

Vərqa gördü bu belə zindan söybəti zadı danışır. Dedi, yaman yaxşı yerdə dükan aşdıx, Allah bazar versin. Bu məni dus-

tax etsə, mənim də ağam qalıfdı Təbriz şəhrində. Hardan biləcəh, mən harda qalmışam. Amma Məsihi qızı Pərizad bu sözü dedi, dediyi sözə də peşiman oldu. Mən niyə bu sözü dedim ki, qızdar aparalar oğlana əziyyət eliyələr. Mən dubara bu sözümü əvəz eliyim. Qızdar bu oğlanı aparıf əziyyət eləməsinnər.

Cavan cavannar xasıdır,
Göllərin su sonasidir.
Gözəl kəhlih balasıdır,
Ələ düşməz belə fərə.

– Bunu yaxşı saxlıyın, damazdıx olur.

Amma, qızdarın hamısı göz bazarıdı, baxıllar dörd gözünən. Görəh, Güləstan xanım baxır, Məsihi qızı bu oğlanı kimə tapşırır? Aldı görəh sözünün o birisini:

Pəriyəm məsti-məstana,
Sözdərim düşdü dasdana.
Gətirin tapşırax Gülüstana
Nə bada güllərin dərə.

Güləstan xanım elə sevindi, elə bil ki, dünyanı verdin. Güləstan gəldi qabağa: “Ay xanım, doğrudan tapşırırsan bu oğlanı mənə?” “Hə, verəciyəm sən aparıb saxlıyəsən, əmma elə isgəncə verəsən ki, oğlan yaza, ustası gələ”. Əlbəttə, bu sözü deyib, Güləstan xanım yapışdı oğlanın əlinnən bir qədər getdi. Sora dedi, qayıdım bir xəbər alım görüm bu oğlanı mən nətəri saxlıyaceyəm:

– Ay xanım, doğrudan mən bu oğlanı nə cür saxlıyım?

Dedi:

– Sən bilmiyəcəhsən, nə cür saxlıyaceysən, dayan deyim da:

Əylənsin burada qalsın,
Qızıl güllərdən ha dərsin.
Göndərəh ustası gəlsin,
Onu salax dərdi-sərə.

Söz tamam oldu, Güləstan xanım yapışıb Vərqanın əlinnən gəlillər. Bəli, gəldilər yetişdilər Güləsdan xanımın ki, bir mənzili vardı ora. Bu yannan, o yannan söybət eliyillər, amma bir neçə gün Vərqa burada qalası olur. Bir gün deyir:

– Axı, xanım, mənim bir ustadım var. Mən ona bir namə yazmalıyam, mən onnan gizlin gəlmişəm. Əzgərəh bir namə yazam, mənim ustadım gələ. Əmma mən diyəciyəm, sən də yaz. Mən sözdərimi deyəciyəm, sən də yaz göndərəh usdadıma.

Güləsdan xanım qələm, dəfdər, kağaz gətirif, indi Vərqa nə deyir, Güləsdan xanım nə yazır, mən də ərz eliyim əziz və möhtərəm vəfalı dosdarın hamısının sağlığına:

Ərzi-halım mən də sənə yazaram,
Namənm yetişməmiş, ustam, durma, gəl.
Xaliq bilir şirin cannan bezaram,
Günüm olub gündən qarə, durma gəl.

Güləsdan xanım yazır, əma gördü ki, Vərqanın gözdəri yaşardı:

– Oğlan, bir qaşıx qanınnan qorxursan, yainki mənim yanımda darıxdın?

– Dust ki, insanın yadına düşdü, bəli, narahat olar. Əmmə mənim həm dusdumdu, həm usdadım. Leysan yadıma düşüb. Nə yazıram ona, elə bil ürəgimin başına od qoyublar.

Əlbəttə, dubarə sözü tərəfinnən nə deməh isdiyir ərz eliyən əziz, möhtərəm dosdarın hamsının sağlığına:

Açar xoş günümdə qızıl gül kimi,
Fərəhdən çay olar çağlıyan bacı.
Adımı eyliyər müqəddəs andı,
Əzizdər, qəlbində saxlıyar bacı.

Gözümdə qəm görsə geçirər təlaş,
Deyər: "mənə gəlsin dərdin, a qardaş"
Bilsə dırnağıma toxanıb bir daş,
Ürəhdən ağlıyar, ağlıyar bacı.

Əliyəm, bacımdı əziz həmdəmim,
Onun ülfətiynən sağalar qəmim.
Qəfil yara alsam, olar məlhəmim,
Sarıyar yaramı, bağlıyar bacı.

(İnşallah, ruziqarız xoş geşsin. Allahdan bir arzum var. Nəmənədir? Əsirrər ki, neçə ildi ana-bacılarının gözü yoldadı və bizim gözdərimiz yoldadı və olar intizardılar balalarınnan ötrü Allahdan bi dənə o arzumuz var ki, tezdignən azad olub öz vətənnərinə şadlığınan gəlsinnər inşallah). Bəli, əziz dosdar, bu bizim şumara 4-cü navarımızdı ki, Baba Leysannan isdirəm xidmətizə ərz eliyəm. İnşallah, şaddığınan qulax asasız.

Dasdana getməmiş isdirəm "Təsnif" ərz eliyəm xidmətizə, onnan sora dasdanı başdıyax:

Boz at, məni bu davadan qurtarsan,
And içərəm, səni məxmər çullaram.
Əgər məni ay, bu davadan qortarsan,
Qızıldan-gümüşdən səni nallaram.

Nəbinin var Boz at minib belinə
Aynalı sursatı alıb əlinə,
Gülləni yağdırır düşmən üsdünə,
Qoy sənə desinnər, ay qoçax Nəbi!
Hacəri özünnən ay qoçax Nəbi!

Gün gəlib ey günortanın yerinə,
Hacar xanım minib atın belinə,
Əşrəfi mirvari düşüb telinə,
Qoy sənə desinnər, ay qoçax Nəbi!
Hacəri özünnən ay qoçax Nəbi!

Bəli, əziz dusdar, söhbətimiz o yerdədi ki, Vərqa Pərizad xanımın zindanındadı, Güləsdan xanım aparıb Vərqanı zindanda saxlıyıb. Çünki, qız tapşırmışdı ki, aparın bunu zindanda saxlayın, işgəncə verin. Əgər ustadı gəldi heç, gəlmədi ustadının əvəzinə özün əziyyət eliyəcəyih.

Vərqa sinnidə aşağıydı, xanımın sözünə bavər elədi. Amma Güləstan xanıma dedi:

– Ay Güləstan xanım, o qələmi gətir mana, necə ki, ürəyimə söz gəlib oları mən deyim, sən də yaz göndərəh mənim ustadım gəlsin:

Bir namə yazmışam şahlar şahına,
Ərənlər sərvəri, qibləgahıma.
Bir namə də yazaram öz ustadıma,
Naməm yetişməmiş, ustam durma gəl.

Güləstan döndü yorğun marallar kimi oğlana baxdı. Gördü doğrudan da oğlan narahatdı, gözdərinin kasəsi dolub yaşınan.

Dedi:

– Oğlan, qurbanın kəsilim, narahat olma, canım. Mən qoymaram sənə xəta yetişə. Xudaya, sənə bir əziyyət qoymaram, gərəh mən öləm da.

– Hə, nazənin sözümün əvvəl-axırın yaxşı yaz.

Əyninə geyibdir narinci-ağı,
Sinəmə çəkillər dügünlü daği,
Vərqa olub Pərizadın dustaği,
Naməm yetişməmiş, ustam, durma gəl!

Bəli, əziz dustlar, söz tamam oldu. Naməni yazıblar, o zaman verdilər qasıda. Qasıd oladı, bir vardı "qasıd" deyərdilər, bir vardı "çapar" da deyərdilər. Neçə gün, neçə gecə qasıd yol gəlib, o zaman aynan ilinən, aşıxların müxtəsər diliynən ta gəldi yetişdi Təbrizin şəhərinə. O zaman yetişdi ki, Baba Leysan məclis qurub söybət eliyirdi. Qasıd naməni verdi. Baba Leysan öpüb qoydu gözünün üsdünə:

– Oğul, bunu hardan gətirmisən?

Dedi:

– Şirvannan gətirmişəm!

Namənin üsdün oxudu, gördü bəli, şagirdi Vərqadı, gedib düşüb Məsihi qızı Pərizadın zindanındadı. Naməni oxudu, vəzihaldan xəbərdar oldu. Üz dolandırdı aşıqlara ki, çün onların üstadıydı, dedi:

– Mənim bir müsavurat çıxıb qənşərimə, mən getməliyəm. Amma siz pərəkəndə olmayın, dağılmayın. Neçə gün mənim müsavirətim çəksə, inşallah, qayıdaram, gələrəm.

– Nə mənə olub? Nə xəbər var?

Bu vaqiəni danışır bu aşıxlara. Amma buların içində bir dənə şagird varıdı, adı Gülsanıdı, dedi:

– Ustad, sən hər yana getsən, mən sənnən gedəcəyəm.

Dedi, "yox". Bəli, gecəni qalıblar, sabah durublar. Libaslarını geyiblər. Baba Leysan sazın da götürüb, düşdülər yol turabına. Bir qədər yol gəliblər, bir qədər yol gələnnən sonra amma eşitmişdilər ki, bir Aşıq Allahı var, əlbəttə adı Allahquluydu, Aşıq Allahı deyərdilər. Dedilər, nə yaxşı ki, bu şəhərdən bizim güzarımız düşür Tufarqanın elinnən, bu aşıq Allahı bir-iki dəfə gedibdi xanımnan deyişib, bağlaşıbdı, deyillər o, Şirvanın şəhərinə bələddi, gedəh onu da bələdçi götürəh. Amma Aşıq Allahıyar, çünki, aşıqlar o zaman çox bilərdi, gedərdilər onnan öyrənərdilər, saz çalardılar biri şeir, biri dastan. Aşıq Allahı aşıq görəndə qaçıb gizlənərdi. Çünki, çox əziyyət eləmişdilər buna. Küçədə əyləşmişdi neçə aşığınan söybət eliyirdi, gördü, bəli, cavan aşıx saz çiynində o başdan gəlir. Durdu yavaşca bu adamların içinnən yavaşca yannadı, yetişib, bəli, öz evlərinə.

Bir, iki, üç dənə balaca uşağı-zadı varıdı. Xanımısı hara getmişdi, ya qonşudaydı, ya çeşmə başına getmişdi. Ama uşaxlara dedi, gedin qapının dalında olun, mən girirəm bax bu qapının dalında olun, mən girirəm bax bu təndirə. Təndir çox isdi bir təndir dəyildi, öz dilimiz, çox bəyaz bir təndiridi. Girrəm bu təndirə, qapağını örtün. Hər kəs məni xəbər alsa, degin Aşıx Allahı yoxdu, gedib özgə yerə. Dedilər, "baş üstə". Bu uşax tayfasıdı da, gəldilər qapının arxasın saldılar, təndirin qapağında qoyublar, aşıq Allahı əgləşib təndirin içində. Gəldilər qapını döydülər, uşaxlar bilafasilə getdilər qapını aşdılar.

– Bala.

– Bəli.

– Bura Aşıq Allahının mənzilidi?

– Bəli, ağa.

– Aşıq Allahı evdədi, ya yox?

– Niyə evdədi, ağa. Girib təndirə, qapağını elə biz özümüz qoymuşuq.

Sözün düzün, elə uşaqdan soruş.

– Necə, yəni təndirə?

Bəli, keşdilər gəldilər, götdülər təndirin qapağını. Baba Leysan gördü doğrudan da Aşıx Allahı təndirdə əyləşib.

– Burda neynirsən?

– Vallah, bərk soyux dəymişdi. Gəlmişəm bura soyux dəyməm çıxsın.

– Baba, gəl işimizi görəh. Sənnən mənim yaxşı işimiz var.

Amma Aşıx Allahının xanımısı ikiydi dosdar. Bəli, xanımısı ikiydi, vəli əvvəlki xanımısı çox salahın idi, sonrakı bir az naköndəm idi. Əvvəlki xanımı Allahın rəhmətinə getmişdi, sorakı dururdu. Çox salahın xanım idi, sorakı naköndəm aşığa əziyyət eliyərdi. Gəldi, bəli, gördü iki cavan aşıx bulların qonağıdı. Aşıq Allahıya yalvarırlar ki, sən Allah, bizə bələdçi olasan, bizi aparasan Şirvana. Çün Aşıq Allahı iki dəfə gedib Şirvana Məsihi qızı Pərizad xanımnan bəhs eliyib. Ama Məsihi qızı Pərizad xanım bəhsi də bunu məhkum eliyib. Qaçıb gəlib, and içib əgər bir də girinə geşsə Aşıq Allahını öldürə. Aşıq Allahı da o qorxudan qəbul eləmir Şirvana getməyi:

– Ay bala, da mənim vədim geçib, aşıxlıx vədim geçib. Bir də saz götürəm, kətbəkət, elbəel gələm, gedəm Şirvana. Mən da gedə bilmərəm.

Xanımısı keşir o yana, hərdən dox-dox, ayranı çalanmış qarılar kimi dox-dox donqulduyur. Elə birdən arvad açıldı:

– Bura bax görüm, niyə gedə bilmirsən? Əcəb o moqe gedirdin ki, Məsihi qızı Pərizad xanımı məhkum eliyəsən, o səni məhkum elədi çıxıb gəlibsən. İndi bular gəlib səni bələdçi aparıllar, getmirsən? Gərəh bularınan gedəsən. Bir quş bir laxana pənah gətdi, o lahanı kəsib atmazdar.

Aşıq Allahı çox yalvardı, xanımısı az eşitdi.

Dedi:

– Axır sözüm budu ki, ya məni bu evdən boşda çıxım gedim, ya gərəh bullarınan gedəsən Şirvanın şəhrinə.

Belə deyəndə əvvəlki xanımısı yadına düşdü. Dedi:

– Ay arvad sən ki, mənim sözümə baxmadın, dur ordan o duvardan sazı gəti görüm, bir-iki kəlmə söz gəldi sinəmə deyim, ta görəh başımızın qəzası nə olur?

Xanımsı forən gedib sazı gətdi verdi aşıq Allahıya. Aşıq Allahı sazın kökün, zilin bəm eliyib görəh indi burda nə deməh isdiyir, tərəfimnən ərz eliyəm tamam dusdarın sağlığına:

Ağ ağalar, gəlin sizə söyləyim,
Yar da dedi, çəg-çəgin yarıdı getdi.
Xəncər alıb bağrım başın peyliyin,
Kimi gördün, yardan yarıdı getdi.

Belə deyəndə xanımısı daha da narahat oldu, dedi, filan, filan. Bu yol dedi, əvvəlki xanımı tərif eliyirsən, məni təkzib eliyirsən? İndi sənə bəlləndirrəm.

Aldı Aşıq Allahı:

Xudadan əmr oldu gəldim cahana,
Axdı çeşmim yaşı, döndü ümmana,
Şeyda bülbül həsrət qaldı fəğana,
Bülbül ölkəsinnən xarıdı getdi.

– Olmuya deyirsən belə-helə? Gərəh bularnan gedəsən Şirvanən şəhrinə.

Arvadına dedi:

– Bə mənə yaraşmaz bir də saz götürəm düşəm kətbəkət, şəhərbəşəhər.

Dedi, "yox", – "gərəh gedəsən". Dedi, qoy sözümün əvvəl-axırısın deyim. Bəli, əziz dustlar, söhbət həmən yerdədi ki, Baba Leysannan Gülşən əyləşiblər, aşıq Allahı da yalvarır ki, xanımısı narahat olmasa bu getmiyə. Yox, əyər gessə, xanım onu bu dəfə görsə yolu yoxdu. O da deyib, çün iki dəfə gəlib mənnən bəhs eliyibsən, get bir də gəlsən öldürəcəm. İndi bu da gedə də bilmir. Xatəmə kəlməsin nə deməh isdiyir, deyəh tamam dostların sağlığına:

Ürəkdən çəkərəm mən də bu ahi,
Yalandan and içməm, vallah-billahi.
Sizdən soruşsalar aşıq Allahi
Deyin təzə yağmış qarıdı getdi.

Mən aşiqəm gülə bəndəm,
Bülbüləm, gülə bəndəm

Mən ki gedərgi qonağam,
Bir şirin dilə bəndəm.

Arvad da belə baxır gözdüyür ki, bullar gedənnən sora görəssən təzə yağmış qarsan, ya köhnə. Deyir, gərəh gedəsən. Gördü, yox, əlacı yoxdu. Axı, arvad mənə yaraşmaz bu sinni-salınan saz götürəm.

Dedi:

– Olmaz olacax dai.

Dedi:

– Sən sözü gej düşünürsən, yaxşı dəyil. Dayan, neçə kəlmə gəlib sinəmə deyim bilginən: “Yanıq Kərəm”nən oxuyacam.

Aldı Aşıx Allahı:

Ay ağalar, mənim qərə bəxtimnən,
Çərxi-fələk mənə baxdı kəm indi,
Dolandım dünyanın seyrin eylədim,
Görmədim özümnən bəxdi kəm indi.

Ərzuruma,
Yollar gedər Ərzuruma,
Dəvəsi ölmüş ərəbəm,
Dözərəm hər zuluma.

– Ay arvad, gəl şeytan daşın ətəgindən tök. Mən gedə bilmərəm, bullarnan ayaxlaşa bilmərəm.

Dedi:

– Ya mənim kağazımı cibimə qoy, mən bu evdən gedəm, ya gərəh bularınan gedəsən.

Əmma Aşıx Allahının o geşmiş günnəri yadına düşür. Əvvəlki xanımı çox salahıdı, o da dünyadan gedib. Aldı dubara:

Gözəllər yığılar göz bulağına
Leyli, Məcnun gedər göz bulağına.
Hicran çeşməsinə, göz bulağına,
Təzədən nöbə kim, baxdı kimindi.

Aylar məni,
Həfdələr, aylar məni.

Yüküm qurğuşun yüküdür,
İncidir taylar məni.

– İndi bu sinni-salınan dersən təzədən saz götürüm?

Dedi:

– Bilirsən nə var, gərəh bularnan gedəsən Şirvanın şəhərinə. Cavannıx mövqendə hər yerdə eşidirdin ki, bir gözəl qız var, aşixdi, əhd eliyib, kim onu məhkum eliyib, gedib onnan bəhs elirdin, amma indi bullar gəliblər sənnən gedələr Şirvanın şəhrinə, getmirsən. Əlacı yoxdu, gərəh gedəsən.

Aşıq Allahi degər qəlbü dögüləm,
Çəhsələr Səhəngə gəlbü dögüləm.
Düz söz danışmağa qəlp dögüləm
Naşı şərraf baxdı mənə kəm indi.

Mən aşiq mərdə ta su,
Doldur ver mərdə ta su.
Belə namərd gəlib mərd olmaz
Olmasa mərd atası.

Söz tamam oldu, Aşıq Allahi sazın qoyub köynəginə. Gördü, yox, bu arvadınan başarmıyajax. Libasdarın geydi əyninə. Bəli, Baba Leysan oldu, Aşıq Allahi oldu, bir də Gülşən ki, təğribən təzə yetişir. Düşdülər yola, neçə gün-neçə gecə yol gəlillər, ta gəldilər yetişdilər Şirvanın şəhrinə.

Amma Şirvanın şəhrinin yaxınlığında bir dağın damənəsində xudavəndin əzəl göylü olanda bir çeşmə, su çıxır ki, əqli heyrandır. Bunun suyuna hər kəs, hər nə niyyət elə yuyuna, niyyəti hasil olar. Aşıq Allahı bu çeşmənin mocizatını hər nəmənə ki, vardı dedi. Bu çeşmədə hər kəs nə niyyət etsə, çimsə niyyəti hasil olar. Yaxşı oldu bahəm elə burda yuyunax sora gedək. Aşıx Allahı da bullarla soyundu. Çün aşıx Allahı qocaydı da bullardan qabaq libasların geyinib, soyux munu nırıxdırdı, azdı. Getmiyəcəydi xanımın çarbağına, azıb düşdü xanımın çarbağına.

Amma Leysannan da Gülşən gəlib qəvəxanada məşğul oldular ha gözlədilər Aşıq Allahıdan sorax olmadı. Gəldilər, axdardılar tapammadılar. Aşıq Allahı yatıb bu yol bir dənə bütənin

dibində. Eşit xəbəri kimdən? Məsihi qızı Pərizadın kənizdərinnən. Güləstan xanım ki, bağda güllərin yetişərdi, o da ki, Vərqanın yanındadı. Ayrı kəniz bağın güllərinə yetişir. Bağı gəzdi, dolandı, gəldi, gördü, baba, Aşıq Allahı girib bir dənə butanın dibində elə də yuxuluyub ki, şirin yuxudadı. Bilavasita qayıtdı xanımın yanına. Dedi:

– Xanım, Aşıq Allahı genə gəlib, sazın da qoyub odu ha butanın dibində, yatıb orda.

Dedi:

– Elə gedin yuxunun içində yapşın qulağınnan gətirin yanıma, yaxşı gəlib.

Aşıq Allahı xab içindəydi ki, kənizlər də 40 incə bel qız da yeyib içiblər, xəlvət bir bağdı, qənim isdillər. Ağa, yetişdilər, gördülər Aşıq Allahı yatıb. Yapışdılar bunun qulağınnan bir zərəfat, bir şuxlux eliyə-eliyə. Aşıq Allahı gözünü ocaladı, gördü, dedi: "Ey dadi-bidad xanımın çarbağıymış, övüm yıxıldı. Gəlmiyəcəydim, Allah vurub təpəmə, gəlib düşmüşəm lap xanımın çarbağına. İndi neyniyim mən?". Apardılar xanımın yanına. Əmr elədi, gedin o mösün çıbığınnan bir bağ qırın gətirin bura. Oğlan, nə qoyursan, nə axtarırsan? İki dəfə gəlmisən bura, mən sənə dinmədim, çıxdın getdin, indi yenə gəlifsən mənnən bəhsə?

– Yox, xanım, vallah, məni vurmayın. Mən özüm gəlməmişəm. Məni bura gətirən var. Sən Baba Leysanın şagirddərinnən tutub salmısan zindana. İndi bi yol məni bələdçi götürüblər. Allah vurub təpəmə, azmışam gəlib düşmüşəm sənin çarbağına.

Dedi:

– Leysannan gəlmisən?

Dedi:

– Bəli.

Dedi:

– Səni azad elərəm, vəli gedəsən Baba Leysanı göndərərsən mənim meydanıma.

Dedi:

– Xanım sən deyəsən, demiyəsən, elə o özü gələcək sənin yanına.

Aşıq Allahını çıxardır, deyir bəs ki, sən ustadına deynən sabah meydana hazır olsun, mən də öz elimi, tayfamı yığım. Nə qədə ki, Məsihi var, hamısına namə yazın, sifariş eləməliyə sifariş eliyin. Sabah yığılsınnar meydana bəhs eliyək.

Ağa, Leysanda ki, qəhvəxanadaydı Aşıq Allahı da gəldi. Dedilər:

– Bəs hardaydın?

Dedi:

– Vallah, azdım, getdim, düşdüm Məsihi qızı Pərizad xanımın çarbağına hesabı basdırma kötəh vurublar mana. Özü də deyir, sabah meydanda hazır olsun, bəhs eliyəcəyik. Amma, tamam Məsihilərə onnar xəbər verəcəklər. Biz də müsəlmannara xəbər verək, bizim də elimiz, tayfamız cəm olsunnar. Bizim tərəf bi tərəfdə dayansın, Məsihilər də bi tərəfdə. Dedi:

– Xob, müsəlmanlardan hər neçə dənə dəvət eliyə bilsən dəvət də gəlsinlər meydana.

Sabah oldu, amma indi Məsihi qızı Pərizad xanım o tərəfdən Məsihiləri hamısını dəvət eliyib meydana, şagirddər dövəsində varid oldu meydana. Bu tərəfdən də Baba Leysan sazını götürüb Aşıq Allahıdı, Gülşən varid oldular, müsəlmanlardan da az idi də yığışıblar meydanın bir tərəfinə səf çəkib dayandılar. Ağa, bir-birlərinə xəbər verərlər ki, bir dənə aşıx gəlib Məsihi qızı Pərizad xanımnan bəhs eliyəcək. Otuz doqquz dənə aşıx bağlıyıb, bu günnəri bir dənə gəlib o qırx tamamdı, 40-ın tamamında dara çəkəcəh, gəlin gedəh tamaşıya. Yığışdılar, meydan doldu. İndi o tərəfdən Məsihi qızı Pərizad xanım bir dənə şagird yolladı meydana əvvəlcədən. Bunnan qədim rəsimmiş aşıxların şagirdi olarmış, əvvəl şagirdlər meydanı qızdırarmış, sora ustad aşıq gedib meydanda söybət eliyərmiş. Leysan baxdı gördü ki, Məsihi qızı Pərizad xanım bunu uşax hesab eliyir. Bir dənə təzə yetişir şagird yolladı munun meydanına. Amma bularında ki, şagirddəri Gülşəndi o da hənuz aşıxlıx eləmiyib. Üz dolandırdı Baba Leysana dedi:

– Bu şagirdin cavabın verə bilərsən?

Dedi:

– Amanın da kəsərəm.

Baba Leysan Aşıq Allahıya deyir:

– Bunun bəs cavabını verə bilərsən?

Dedi:

– Amanın kəsərəm. Amma qorxuram sabah xanım səni bəhsi də məhkum eliyə, bu yol day məni də qoymuyalar bu meydannan çıxıb gedəm.

Dedi:

– Xatircəm ol, dişinin dibinnən nəmənə gəlir, de.

Bu yandan Aşıq Allahı varid oldu şagirdin meydanına.

Belə baxdı, baxdı, gördü qoca kişidi, saqqal döşünnən. Amma Məsihi qızı Pərizad xanım gördü Aşıq Allahı varid oldu meydana. Şagird dedi:

– Xob, sən deyəcəhsən, ya mən deyəciyəm?

Dedi:

– Nə? Əvvəl sən deyəcəhsən, sonra mən.

Şagird götürüb görəh burda aşıq Allahıya nə deməh isdiyir:

Sənə deyim qoca kişi,
Sən bura həvəs gəldin mi?
Saldın çətinə bu işi
Sən bura həvəs gəldin mi?

Aşıq Allahi baxdı gördü ki, şagird çox yekə danışdı. Sazı basıb döşünə nə deməh isdiyir, ərz eliyim dosdarın sağlığına:

Hər yerdə şərəfləndirən insani vətəndir
Xoşbəxt eliyən, sövgülü-cananı vətəndir.

İlhamı yad ölkədən almaq nəyə lazım,
Xoş nəğmə, gözəl mahnı, gülüstanı vətəndir.

Gövlüm, arama başqa bir aləmdə səadət,
Ağ günlərinin daimi ünvani vətəndir.

Öz doğma Azərbaycanıma qurban olum mən,
Şair yetirən oğlu Süleymanı vətəndir.

Bəli, əziz dosdar söhbətimiz o yerdə qalır ki, Aşıq Allahiy-nən xanımın şagirdi deyişillər. Aşıq Allahı sazı döndərib sinəsinə, dörədən camaat baxıllar. Görəh şagirdin cavabında nə deyir:

Gör nə danışır kətərə,
Sən məni aciz gördünmü?
Səni sallam dərdi-sərə,
Sən məni aciz gördünmü?

Əziz dosdar, bulların sözdəri burda çox çəkir. 3 bənd şagird Aşıq Allahiyə deyir, 3 bənd də Aşıq Allahi şagirdə deyir. Bir az nacir danışıllar. İstəmirəm, möhtərəm eşidənlər qulax asacaxlar bu navara. Bəzi sözdəri isdəmirəm, navarda ad apara. Xülasə Məsihi qızı Pərizad xanım o tərəfdən baxdı gördü ki, Aşıq Allahı bir ot əsdirir ki, gəlki görəsən. Ən qərib zamandı şagirdin sazın əlinnən ala. Üzündədə ki, xanımın zülmət var. Yeddi qələmnən özünə zinyət verib. Bədənnümmənü qoyub qarşısına 7 dəs libası töküb-aldan, yazıldan elə geyinib ki, misli bəzəkli tavusdan kimi.

Üzünə də niqab salıb, oğlan camalın görmür. Bəli, Leysan baxdı gördü ki, xanım özü durdu gəldi meydana, bu tərəfdən də Reyhan çox yaxşı bir cavanıdı, ləyaqətdi bir gözəl cavan oğlan. Bu tərəfdən də Reyhan varid oldu meydana. Qız niqabın altınnan oğlanı görür, Vəli oğlan qızın simasın yaxşı görə bilmir. Qız baxdı-baxdı, pə, bir oğlandı ki, ruzigarın anası tək doğubdu ürəgindən bu geşdi ki, heyif ola bu cavana gəlib mənim meydanıma, mən bunu məhkum eliyəciyəm. Otuz doqquz aşığa qatıb öldürəm. Amma mən bir söhbət eliyim ki, oğlan özünü pinhan içində saxlasın. Dedi:

– Oğlan, o şagird ki, salmışıq zindana o sənin şagirdindir?

– Bəli, xanım, Mənim şagirddərimdəndir.

– O ki, namə yazıb, sən onun ustasısan.

Dedi:

– Bəli, mən onun ustasıyam.

– Gəlibsən mənnən bəhsə?

– Bəli, xanım gəlmişəm. Sənin şərtin nəmənədi, mənə de. Mən də deyəciyəm.

Xanım dedi:

– Oğlan, mənim şərtim budu ki, otuz doqquz dənə aşıx bağlamışam. Vəxti ki, 40 aşıx tamam oldu, qırxın da çəkəciyəm dara. Qırxıncı da sənsən ki, gəlmisən mənim meydanıma.

Dedi:

– Xob, sənin şərtin ki budu. Mənim də şərtim var. Bəli, sən məni məhkum eləsən, öldür, qanım da sənə halaldı. Mən səni məhkum eləsəm, gərək dini-islam qəbul eliyəsən. Kəlmeyi-şəhadəti dilində çare eliyəm bir. İkincisi, otuz doqquz dənə aşıq sənin ki, zindanın dadı, neçə illərdi yatıb ollar azad olacaq, 40 incə bel qız bağda saxlıyırsa ki, onların hər bürü, hər bürünü sevsə, verəcəhsən. Xudavəndin əhdiynən, peyğəmbərin şəriətinən, kəbinnəri kəsilə. Alaciyəm o qızdarı aşıxlara. Özün də ki, xob, ta mənimdi. Şərtin budu ki, kim səni məğlub eləsə, gedəssən ona. Day buna bir söz yoxdu.

Dedi:

– Sözdərin qəbuldu.

Sora da müsəlmanlar, məsihilər kagəz alveri elədilər. Bir-birlərinə ki, hər kəs hər kəsi məğlub eləsə onun dinini qəbul eliyə. Bəli, bu yol məsihilər, müsəlmanlar səf çəkib dayanıblar. Məsihi qızı Pərizad xanım dedi:

– Oğlan.

Dedi:

– Bəli.

– Xob, söhbətimizi elədik. İndi försət sənnəndi, ya mənnəndi?

Dedi:

– Bizim mövlamız əvvəl fürsəti verib düşmənə, fürsət sənnəndi. Sən deyəcəhsən, mən əgər bacarsam sənin sözdərivə cavab verim.

Qız baxdı gördü bu oğlan çox liyaqətdi danışır.

Dedi:

– Bəs nə yaxşı ki, mən buna işarə eliyim, özü pinhan içində saxlasın. Nə dillərinən deyəcək ərz eliyim tamami əziz, möhtərəm, vəfalı dosdarın, eşidənlərin hamısının sağlığına:

**“Kəşkoğlu” havası**

Başına döndüyüm əcəm aşiqi
Sən özün saxla pünhan içində,
Çox cəvannar mən qoymuşam sərgərdan
Mən bir nəhəngəm ümman içində.

Dedi:

– Xanım, gözdə atıvı çox təh çapbıyasan. Meydanı xalı görmüyəsən Gör kimnən muğabıl dayanıbsan: “Adın nədi: Rəşid. Birin dedin, birin eşit”. Al sözün cavabı gəldi:

Gəl sənə ərz edim Məsihi qızı,
Tək özüvü görmə meydan içində
Əynivə geyibsən abi-qırmızı,
Mən də bir nəhəngəm ümman içində.

Məsihi qızı Pərizad xanım baxdı, baxdı gördü, ay dadi-bidad, tamam mərdüm hamının gözü bulardadı. Bular müqabil bir-birlərinən söhbət elirlər. Oğlan, nə qoyubsan, nə axdarırsan? Adın Məsihilər içində batacaq. Bunun möhkəminnən xəbər al, oğlan tapıb deyə bilməsin, məhkum elə.

Aldı Məsihi qızı Pərizad xanım:

O kim idi günü gördü dizində?
O kimdi ki, ixlal yoxdu sözündə?
O kimidi gəzər ümman üzündə?
O kimidi qaldı rizvan içində?

– Ay xanım, deyəsən yavaş-yavaş mənnən isdirsən ki, bir zərbül-məsəl deyəllər el içində “pişih öldürüb göz qorxudasan?”. Mən o aşıxlardan dəyiləm ki, 39-nu bağlıyasan.

Dedi:

– Yox, mən sizin öz içizin, öz sözdəriznən soruşuram.

– Hə, xanım, icazə buyur, mən sözün çavabın ərz eliyim.

Görək nə dillərnən ərz eliyəcəh söylüyüm bütün eşidənlərin sağlığına:

O mövladı günü gördü dizində,
O xudadı sual yoxdu sözündə.

Həzrət Nuhdu qaldı ümman üzündə,
O Musadı, qaldı rizvan içində.

Tamam hər iki tərəfdən "əhsən, əhsən" səsi asimana büland oldu. Doğrudan da sağ olasan səni, nə gözəl bu sözdərin cavabın tapdın dedin. Əmma xanım baxdı gördü, xeyr, bu aşıx başqa aşıxlara oxşamır. Bu yol isdiyir hərbəynən oğlanı qorxudsun. Aldı görəh qız oğlanın cavabın nə deməh isdiyir. Nöbət bu dəfə Məsihi qızı Pərizad xanımındı:

Kim kimə gətirdi bir doğru xəbər?
Kimin hökmündədi in- cinni, bəşər?
Adım Pərizaddı, sahibi-ləşkər,
Özüm Məsihiyəm Şirvan içində.

Hə, gözəl qız, bəs sən Məsihisən Şirvan içində. Qulax as, ta sözüyün çavabın ərz eliyim, bil nəmənəyəm. Dinim, məzhəbim kimlərdi. Aldı, bəli, oğlan görək nə demək isdiyir:

Çəbrayil gətirdi bir doğru xəbər,
Sülüyman hökmündə in-çinni, bəşər.
Adım Leysandı, pirimdi Heydər,
Özüm müsəlmanam islam içində.

Hər tərəfdən "əhsən, əhsən", "afərin" səsi asimana büland oldu. Çün aşıxların rəsmi-qaydası buna görədi ki, üş bənd biri deyərdi, üş bənd biri. İndi, bəli, qızın üş bənd sözdəri tükəndi. Leysan cavabını rədd elədi. Bu dəfə nöbət yetişdi Leysana. Dedilər, xub, görək Leysan nəmənə xəbər alaçaq. Aya, qız da çavabın deyə biləcək, ya yox. Mən ərz eyləyim tamam eşidənlərin hamısının sağlığına:

Sənnən xəbər alım, Məsihi qızı,
Yaranmış dünyaya neçə gəlibdi?
Həqq yaradıb neçə yüz min məlaykə?
Onların əfsəri neçə gəlibdi?

Xanım dodağının altından ləbxənd vurdu, yəni gülümsədi, ürəgində dedi: "Oğlan, səni səğir qalasan, mən nə bilim həx necə yüz min məlakə yaradıb, əfsəri neçə gəlib?". Əmma gördü qız cavab verə bilmədi, aldı dübarə sözün:

O nədi ki, yusan getməz qarası?
O nədi ki, yoxdu onun çarası?
İsmayıl – qoş qurbanının anası,
Nə ayda, nə ildə qoça gəlibdi?

Soradan baxdılar gördülər ki, xeyr, xanım cavab deyə bilmir. Aldı görəh Leysan xatimə kəlməsin nə cür deyir:

**“Yanıq Kərəmi” havası**

Lesan deyər mən də aşdım bu diki,
Kimidi sarvannan ayırdı lökü?
Behişdə şəcəri-Tubanın kökü,
Sərində yarpağı neçə gəlibdi?

Yeri qalar,
İl dönər, yeri qalar.
Qiyamət o gün olar,
Dosd gedər, yeri qalar.

Ağa, söz tamam oldu, amma dövrədən baxdılar gördülər ki, Məsihi qızı Pərizad xanım çavabın deyə bilmədi. Dedi:

– Xanım, əvvəla o sazı mərhəmət elə.

Əvvəldə tutub xanımın əlindən sazı aldı. Onnan sora əmr elədi ki, o otuz doqquz aşıx zindandadı, oları da çıxardın gətirin bura. Bəli, oları da çıxardıb gətdilər. Əmr elədi ki, o qırx incəbel qız bağdadı, oları gətdilər. Vərqanı da zindannan çıxardıblar, Güləstan xanım da ki, onun yanındadı. Dedi:

– Xanım, əvvəla, “kəlmeyi-la illahə-illallah”ı de, islamı qəbul elə, onnan sora xudavəndin əhdinnən, peğəmbərin şəriətinnən kəbinimiz kəsilsin.

“Kəlmeyi-şəhadət”i qızın dilinə çari eliyib. Əmma otuz doqquz aşıx gəlib, bu tərəfdən də kənizdəri gətdilər, Aşıq Allahı da bunnarın içindədi. Əmr elədi aşıxlara ki, daraşın qızdarın üsdünə. Hər kəsin gözü hər kəsi tutsa, bir-birinə aşix olsa, xudavəndin əhdinnən, peyğəmbərin şəriətinnən kəbinnəri kəsilsin. Aşıq Allahı gördü, baba, elə qapan qapandı. Bu da qızdarın işin-

nən bir dənə kətrim-kötrümünü yaxaladı. Qız nə qədər elədi Aşıx Allahının əlindən çıxa, çıxa bilmədi. Leysan baxdı gördü ki, Aşıx Allahı yapışıb bir dənəsinin yaxasınnan qoymur əlinnən çıxa. Dedi:

– Onu niyə tutubsan? Bir dənə yaxşısını tutaydın.

Dedi:

– İcazə verin, mən özüm öz tutduğum gözəlin tərifin sizin üçün eliyim.

Nə dillərnən tərif eliyəcəh, mən də ərz eliyəcəm eşidənlərin sağlığına:

İyitdər sevəllər topuğu yoğun,
Çıxarsan yuxarı, olax qol-boyun.
Gəzəsən bəddəbəd, boğumbaboğum,
Titriyə quyruxdan yumuşaq ola.

Baba Leysan əlin basıb ağzına gülməh tutdu:

– Aşıq Allahı, genə tərifin varmı?

Dedi:

– Hələ çoxdu, icazə buyur.

İgiddər sevəllər qaşdarı sarı,
Olasan qol-boyun çıxa yuxarı.
Məmələr bənziyə Savalan qarı,
Ağzıya salanda sarı yağ ola.

Dedi:

– Aşıq Allahı, adamın üzünnən gəlmir belə söz deyə. Genə tərifin var?

Dedi:

– İcazə buyur, bir kəlmə də sözüm var.

Aşıq Allahı belə sözdərdən deyir. Aldı görəh, bəli, sözünün əvvəl-axırın nə cür deyir:

Aşıq Allahı yalan yoxdu işimdə,
Əcəl quşu dövr eliyir başımda.
Bir gözəl sövəsən on dörd yaşında,
Nə ondan yuxarı, nə uşağ ola.

Bəli, söz tamam oldu, o zaman baxdılar gördülər ki, xanım oğlanın sözünün cavabın deyə bilmədi. Qız da dini-islamı qəbul eliyib. Göndəriblər bir molla gəlib, bir qazi. Hamı bu mətləbə dörə əyləşmişdilər, oldu irazı. Şadi, xeyri-mübarəh dua verdilər. O qızdarı oğlannara rəva gördülər. Tutuldu toyları, olar kama yetdilər, ucaldılar, qocaldılar, köçüb bu dünyadan getdilər. Bəli:

Budur etibarı qoca dünyanın,
Verir fərmanını hər bir insanın.
Özündə saxlayır baharı, yazı,
Biz də olax bu hikmətdən irazı.
Ərəb də götürsün sədəfli sazı,
Oxusun siz üçün bir xoş avazı.

Evləri, ay evləri,
Nə uzaxdı evləri.
Neçə ildi gəzirəm,
Tapammıram evlərin.

Rəbiyyə, bala Rəbiyyə,
Gedib özün bəziyə.
Mən ki, səni sövmüşəm,
Səni verillər özgüyə.

Əzizim, nə qarası,
Nə ağı, nə qarası.
Gönül sevən gözəlin
Nə ağı, nə qarası.

Rəbiyyə, bala Rəbiyyə,
Gedib özün bəziyə.
Mən ki, səni sövmüşəm,
Səni verillər özgüyə.

# TAHİR VƏ ZÖHRƏ

Bəli, indi söhbətimiz belə başlanır. Mən bu söhbəti idamə verim ki, zamani-qədim Qaraman addı bir şəhri var idi. Bu şəhridə iki qardaş varımış. Biri vəzir, biri soltan. O zamanın şahı idi soltan, amma vəzir çox ədalətdi bir şəxs idi. Çox baiman, çox fəqirə-füqəraya ürəyi yanan bir şəxs idi. Amma padişah çox zülmukar naədavət, namürvət, kasıba, dövlətdiyə yetişmiyən bir şəxs idi. Amma əz qəza buların heç birisinin də ovladı yox idi. Bir gün Əhməd vəzir bu fikirdə çox aranı – dağa, dağı – arana gətirib, amma gördü əlindən bir iş gələsi dəyil. Bir şey ki Allah əlindədi buna insan neyniyə bilər. Dedi, mən bir dənə vəzir, qardaşım Hatəm Soltan bu məmləkətin şahı, bizim bir belə mal, əmlakımız. Heş birimizin bir övladımız yoxdu, bizdən sonra bu malı-dövlətə kim sahip olacey? Bu fikridə çox narahat idi. Amma bu fikirinən kasıblara, libassızlara, aclara əl tutub, ehsan eliyirdi. Neçə tikənin biri ofsanətə düşər, neçə tikənin biri geri qaytarar. Fəsaddıx dünyada yaxşı olar, gərək bunları fəramuş eləmiyəsən. Elə indi də sən doyuncan yeyirsən, ac mədədən bir xəbərin olsun. Xülasə, Əhməd vəzir gördü bir dənə dərviş bu fikri-xiyaldadı, varid oldu bunun qapısına. Qapını açdılar:

– Salam.

– Əleykəssalam.

Keçdi yuxarı başdan əyləşdi. Əhməd vəzir gördü ki, bu çox bir nurani şəxs idi. Heç bu məntəqədə bu dərvişi görmüyüb. Dedi:

– Baba dərviş, həsdiviz hardandı?

Dedi:

– Dərvişin, aşığın yeri məlum olmaz. Bu gun burda, sabah bir ayrı yerdə.

Dəstur verdi xanımına:

– Sona xanım, gətir dərvişə bir qədir qızıl verəceysən. Tök baba dərvişin kəşkuluna.

Xanım bir boşqab ağ qızıl gətirib töksün dərvişin kəşkuluna. Dərviş dedi:

– Əhməd vəzir, mən o dərvişlərdən dəyiləm pay yığam. Mən gəlmişəm payı olmayanlara pay verəm.

– Baba dərviş, nə payı verəcəksən?

Cibindən bir dənə alma çıxartdı, verdi Əhməd vəzirə. Dedi:

– Mən sənin payıvı verdim. Allahdan da bir xahiş elə, istəginən, inşallah, sənə bu almadan bir ovlad əmələ gələr.

Dərviş sözün deyib, qapıdan çıxdı. Əhməd vəzir dedi: "Ey dadi – bidad, belə söz olmaz. Bu dərviş verən bu almadan sənə necə ovlad olar? Tutun görüm bu dərviş kimdi?". Çıxdılar, gördülər dərvişdən dahi nişanə yoxdu. Tapa bilmədilər. Axşama kimi Əhməd vəzir bu fikridə aranı dağa gətirib, dağı arana gətirib zehni bir yerdə qərar tutmadı ki, bu kim olmuş olsun? Mən niyə bunu tanımamışam? Əhməd vəzir axşama kimi alma əlində tamaşa eliyib, gördü bu almanı heç bir bağda görmüyübdü. Bu almadan müşki-ənbər iyisi gəlir. Alma əlində qoyub sinəsinin üsdünə, yuxu apardı Əhməd vəziri öz təxti rəxti-xabının içində. Alanı rüyada gördü ki, difar yarıldı, həman alma verən dərviş difarın parçasından varid oldu Əhməd vəzirin otağına. Əhməd vəzirə dedi: "Bəli, bu almanı ki, mən vermişəm sənə bu, dünya almalarından dəyil. Bu almadan sizə ovlad olar, züriyyət olar. Bu züriyyət almasıdı. Vəli çün mən qabaxcan deməmişdim, indi gəlmişəm bu sözü sənə deyəm. Sabah bu almanı apararsan qardaşın Hatəm Soltanın yanına. Bu almanı böləcəksiz. Yarısını o xanımıynan yiyəcək, yarısın sən. Hər ikizin uşağı olar, vəli hankizin oğluz qızız oldu, verərsiz biri-birinə". Dərviş bu sözü deyib, genə gözdən qayıb oldu. Əhməd vəzir bir möqey oyandı, gördü gecənin yarısıdı. Difar gəlib qovuşub, bu yuxu görürmüş, amma otax elə işıxlanıb, elə müşgi-ənbər iyisi gəlir ki, behiştin iyisi bu otaxdan gəlir. Bu halda səsləndi: "Xanım, xanım!". Əhməd vəzirin səsinə arvad qapını açıb: "Kişi, nə olub? Yuxu görübsən?" Gördü otaxdan elə iy gəlir ki, elə ətri iyisi gəlir ki... Arvad dedi:

– Hə, Əhməd vəzir!

Dedi:

– Bəli.

Dedi:

– Gündüzləri ibadətdəsən, məsçidlərdə namaz qılırsan. Gecə də lotu-putuynan oynuyursan? Bu nə vəzdi, bu nə ətridi?

Dedi:

– Arvad, ayrı söz danışma. Bu ətri, bu müşgi-ənbər bu almanınkidi. Bir də bizim qonağımız gəlmişdi. O günüz gələn dərviş indi də gəlmişdi.

Dedi:

– Bə necə oldu?

Dedi:

– Elə oyandım ki dərvişdən xəbər yoxdu.

Axtardılar, dərviş tapılmadı. Cəryanı arvada deyib, hər ikisi sübhə ibadətə məşğuldular. Sübh açılar, Əhməd vəzir sübh namazını əda eliyib, özün yetirdi qardaşı Hatəm Soltanın barigahına, dedi:

– Hatəm Soltan, salam.

Dedi:

– Əleykəsalam.

Dedi:

– Qardaş, bir belə cərəyan. Bu almanı mənə bir dərviş verib. Bir belə söz deyib. Gəl indi almanı bölax. Əgər yuxu səheh oldu ki, biz də əməl elərıx. Yuxu səheh olmadı, bu almadı da gətirmişəm bu əhdi-peymannan almanı böleceyıx. Hankimizin oğlu, qızı oldu onu da verax biri-birinə. Bu yuxunu mən görmüşəm bir dərviş bu almanı mənə verib.

Çağırdılar bir neçə nəfər, namə yazıldı, hər ikisinin arasında əhdi-peyman yazılıb incələdilər. Bu incəliyəni Hatəm Soltan qoydu cibinə, Hatəm Soltan imzaladı, verdi Əhməd vəzir qoydu naməni cibinə. Hər kəsə almanı öz xanımısıynan, ağa, yedilər. Həmin gündən hər ikisinin xanımının boynuna uşax düşdü. Doqquz ay, doqquz sahat, doqquz dəqiqə tamam oldu, buların hər ikisinin xanımı bari-həmlilərin qoydular yerə – Əhməd vəzirin bir oğlu oldu, Hatəm Soltanın bir dənə qızı. Carçı car çəhdi şəhrə. Ha bular şaddıx məclisi qurdular. Qəfə-qəlyan yığışdılar, qohum-qəbilə, tamam əyanə-əşrəf indi bu şaddıx məc-

lisində gördülər day buların iksinin də ovlad ki, oldu bəs yaxşıdı, gəlin bu məclisə elə buların addarın da qoyax. Addarın nə qoyax? Oğlanın adını qoydular Tahir, qızın adını qoydular Zöhrə. Buları veriblər kamil dayələr bulara təlimat verir, öyütdülər. Bular, ta bular yetişdi aşıx dili yüyürəy olar yeddi il tamam oldu, ağa, buların indi məhtəb vaxtı yetişdi. Bular elə göyçəy idilər ki, bərabərləri yox idi yerində. Amma bular elə bir-birlərinə oxşuyardılar ki, heç kəs təxşiş verə bilmirdi ki, buların hankisi oğlandı, hankisi qızdı. Bir məsəl var ki, diyəllər, elə bil ikisi bir almadan əmələ gəlib. Buların ikisi bir alma idilər. Heş kəs buları tanıya bilməzdi oğlan hankisidi, qız hankisidi. Əhməd vəzir gəlib baxti ki, bular yeddi yaşa yetişdilər qardaşı Hatəm Soltana dedi:

– Bə atamın boynunda olmağın üç həqqi var. İndi oların vaxtı yetişib. Gəl indi biz bu işə iqdam eliyəx.

Dedi:

– Üç həqqi nəmənədi?

Dedi:

– Biri budu ki, ata ovladı böyütsün, tərbiyə versin-bu biri.

Dedi:

– Biri qəbulumdu.

– Biri odu ki, ovlad ki yeddi yaşına yetişdi gərək qoyasan elm örgəşə, dərs oxusun, basavad olsun. Biri də budu.

Dedi:

– Səhehdi, qəbulumdu.

Dedi:

– Üçüncü, oğlan oldu, ya qız, qızı ərə verəsən, oğlanı evləndirəsən. İndi ikisinin vaxtı qalıb, böyütmüşux. Bura qədər örgətdığımızı örgətmışıx, indi bundan bu yana gərək bunnarı gərək qoyax mədrəsəyə. Bir dənə kamil molla gətirax ta bulara dərs desin.

Ağa, bir dənə kamil alim gətiriblər buları qoydular məktəbə. Bular dərs oxumaxdadılar. Ta oxuyub bular yetişdilər 15 sinnilərinə. Amma bular hər ikisi ki, məktəbə gedərlər məktəbin qapısında bir dənə sərv ağacı var. O sərv ağacının dibində hankisi qabax gəlsə, qərar qoyublar oturanda biri-birin gözliyəllər. Hansı dalı gəlsə, gərək o dalı gələn gəlsin bular bahəm getsinlər.

Bahəm gedəllər, bahəm dərs oxuyullar, bahəm evlərinə gələrlər. Bir dəqiqə bir-birindən ayrılmaz. İndi bular dərsi yetiriblər, bir miqdarı on beş sininə kimi dərs oxuyublar. Kamil savaddardılar. Amma bir-birinə elə aşıqi məşuqdurlar ki, bir dəqiqə hansı bir-birindən ayrılsa, canı çıxar. Amma indi gəlginan bu məktəbdə bir dənə köppəyoğlu keçəl, bu da aşıxdı Zöhrəyə. Zöhrə də bunu heç hesaba qoymaz. Hər gün Zöhrəyə salam verər, cavab eşitməz. Söz atar, Zöhrə cavab deməz. Axı, əğillidi baş qoymıyacaqdi keçələ ki, sən mənə bu sözü dedin. Ağa, bu keçəl də bir gönüldən min gönülə bunun aşıqidi. Amma Zöhrə buna əhəmiyyət vermir. Tahir Mirzənin yanında keçələ Zöhrə nə diyəcək?

Sənə indi hardan xəbər, verim tamam keçəldən. Tamam keçəl başın ovdu, qaşıdı yenə Zöhrəyə bir söz atdı. Zöhrə cavab demiyib, keçəl qaşdı həmin alimin üsdünə. Alim dedi:

– Bəli.

Dedi:

– Alim, bura qoy görək məhtəbxanadı, ya lotuxana?

Alim dedi :

– Oğul, necə?

Dedi:

– Biz sənin dərsivə qulaq asax, ya Tahirnən Zöhrənin deyib gülməsinə, mırtına.

Dedi:

– Oğlan, bu nə sözdü?

Dedi:

– Bəli, özləri ki oxumur, heç bizi də qoymurlar dərs oxuyax.

Dedi:

– Oğlan, belə söz olmaz.

Dedi:

– İnanmırsan, gözüynən görginən. Əlan sərv ağacının dibində hər ikisi oturub məşğuldu bir-biriynən mırt eliyirlər. Şuxlux eliyirlər.

Alim bir pəncərədən baxıb gördü, ey dadi-bidad düz deyir, ikisi də oturub sərv ağacının dibində, bular məşğuldular söh-

bətdədilər. Gəlib dərs təmam oldu. Molla həmin saətdan özünü yetirib Hatəm Sultanın huzuruna. Dedi:

– Qurban, daha sənin qızın həddi-təhlikdi. Bundan sonra qızın mədrisəyə gəlməsin.

Dedi :

– Niyə?

Dedi:

– O məhtəbdə ki uşax oxuyur, bunların hammısını sabah cavabı mənnən olacax. Buların ataları məndən söz soruşar. Mən onda olara nə cavab verəcəyəm? Sənin qızın qoymur bu uşaxlar dərs oxusun. Sabahdan qızın mədrəsiyə gəlməsin, mən gəlləm bunun dərsini evdə diyərəm.

Ağa, o günnən Zöhrəni qədəğən elədi. Zöhrəni qədəğən eliyib, Tahir Mirzənin xəbəri yoxdu. Sabah Tahir Mirzə Quran kitabını götürüb özünü yetirdi həman sərv ağacının dibinə. Gördü bu məhtəbdə nələr, nələr bi uşax vardı hamısı bir-bir gəldi getdi, amma Zöhrədən xəbər yoxdu. Tahir Mirzənin bir dənə Xannar xanı addı siğə qardaşı vardı bu məhtəbdə. Gördü fəğət dalıda gəlir, Xannar xanı. Dedi, qoy gəlsin bunnan xəbər alım, görüm Zöhrədən bunun nə xəbəri var? Xannar xanı gəlib Tahir Mirzə xəbər aldı:

– Xannar xanı, Zöhrədən nə xəbər?

Dedi:

– Xəbərim yoxdu.

Dedi öz-özünə: “Yəqin özü məni imtahan üçün bu gün gəlmiyib ki, görüm mən bir gün məhtəbə getməsəm Tahir Mirzə mənim dalımcan gələr? Soruşar ki, görüm Zöhrəyə nə oldu?”. Xannar xanı dedi: “Bir az səbr elə, mümkündü gələr, şayət bir nəqahəti var”. Gözlədi, gördü xeyir, az qalır ki day məhtəb uşaxları məhtəbdən çıxsın, Zöhrə gəlmədi. Dedi, gəl dərdüvü burda bir neçə kəlmə ilə Xannar xanıya izhar eylə. Görax, axı bu Zöhrə niyə gəlmiyib? İndi götürüb bir neçə kəlmə isdiyir Xannar xanıdan nə xəbər alsın, nə desin:

Başıva dolannam, ay Xannar xanı,
Nədən hamı gəldi, Zöhrə gəlmədi?

Həqq götürsün aralıxdan yamanı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Xannar xanı dedi: "Bilmirəm". Tahir Zöhrə yenə aldı görək nə dedi:

Axşam oldu biz də keçdix adalar,
Görün dost yoluna salır cidalar.
Məhtəb uşaxları, ağazadalar
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Gördü ki xeyir, Xannar xanı cavab deмədi. Məhtəb uşağından bilən yoxdu Zöhrə niyə gəlib, ya niyə gəlmədi? Alıb sözün dübarəsini:

Başına örtübdü tirmə şalını,
Tərk eliyipdi məhtəbxana yolunu.
Xudam lal eyləsin çoğul dilini,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Amma gördü genə cavab verən olmadı. Alıb sözün dübarəsini Tahir Mirzə nə deyib, oxuyum cəmi qulaq asanlar sağlığına:

Mən bilirəm Hatəm Soltan döyüpdü,
Yəqin çoğul gedibdi, bir söz deyipdi.
Alıp qəddim, ağlamağım ayıpdı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Amma Tahir Mirza oxumaxdadı. İndi Tahir Mirzə nə deyir, nə yazıllar söz tamam olsun, mən oxuyum, sağ olsun qulaq asannar:

Kaş qara gələydi bu bahar, yazlar,
Ağlar, xan Tahirin sümüyü sızlar.
Sizə qurban olum oğlannar, qızlar,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?

Söz tamam, Tahir Mirzə burda oxumaxdadı. Həman dəqiqə keçəl gördü, çün Zöhrənin intizarında idi, gördü Tahir Mirzə başdıyıb indi də şer oxuyur. Gəldi həmən mollaya xəbər verdi ki, sən deyirdin, biz deyirdik inanmırdın. Gəl, eşitmaxlıxdan görmaxlıx yaxşıdı. Tahir Mirzə indi də başdıyıb uşaxların qabağını kəsib orda aşıxlıx eliyir. Bir qulaq asdı, baxdı gördü düz deyir. İndi də Tahir Mirzə aşıxlıx eliyir. Dəstur verdi, Tahir Mirzə-

ni gətirdilər. Tahir Mirzə qarışıb uşaxlara. Genə qəytərdilər buları mədrəsəyə. Molla dedi:

– O oxuyan hər kəsdi, dursun əyağa. Görüm oxuyan kimidi?

Aman keçəl işarə elədi Tahir Mirzəyə, amma qəlbində istiyirdi işareynən qandırsın, çünkü bu vəzir oğludu, deməsinlər bunu keçəl döydürdü. İşarəni elədi Tahir Mirzəyə ki, budu. Amma diliynən dedi ki, molla, oxuyan mənəm. Tahir Mirzə dedi ki, mənnən ötür onu döyməginən. Əgər pis oxusam da icazə ver dübarə bir qətər də oxuyum, şayət xoşun gəlmiş olsun.

Molla dedi:

– Nəmənə oxuyassan?

Dedi: "Qulaq asginan". Götürüb "Şərur" havasıynan belə deyir:

Başıva dolanım, ay molla əmi,
Bir ala gözlüyə aşiq olmuşam.
Çəkirəm dünyada fikri, həm qəmi
Bir ala gözlüyə aşiq olmuşam.

Qəvvas kimi dəryalara girmişəm,
Ürəgimdə eşqin sirrin bilmişəm.
Yusuf kimin bir Züleyxa sövmüşəm
Bir ala gözlüyə aşiq olmuşam.

Piri-müjganları od saldı cana,
Nə olar rəhm edəsən tifili-qana.
Adı Zöhrə, özü yaşılbaş sona
Bir ala gözlüyə aşiq olmuşam.

Molla gördü bunun daha heç çovnu-çarası yoxdu. Elə bu qoymuyacax bular mədrəsədə bu uşaxlar oxusun. Vaxtəkən sözün üstünə düşüblər. Molla dedi:

– Zöhrəyə aşıq olubsan?

– Bəli.

– Hatəm Soltan qızına?

Dedi, bəli. Tahir Mirzə sözünün xülasın belə deyir:

Tahir Mirzə yerin olupdu gülşən,
O dəsti zilflərin oldu pərişan.
Ağ üzündə xallar tamam xoş nişan,
Bir ala gözlüyə aşiq olmuşam.

Bəli, söz tamam oldu, molla dəstur verdi çubux-fələqqəni aşdılar, bağladılar Tahir Mirzənin əyağına. Dəstur verdi:

– İndi kim isdiyir bunu vursun?

Həman keçəl əyağa qalxdı, nə qalxdı:

– Molla əmi, əgər icazə versən mən vurram.

Dedi:

– Vur.

O qədir Tahir Mirzənin əyağına həmin keçəl çubux vurdu ki, tamam əyaxlar qabar oldu. Bir zərrə Tahir Mirzəyə bu keçəlin ürəyi yanmadı. Niyə? Zöhrəyə bu da aşıq olmuşdu. Keçəlin ədavət fürsəti düşdü bunun əlinə. Ağa, Tahir Mirzəni o qədir vurublar əyaxdan saldılar. Huş başından çıxdı. Dəstur verdi çubux-fələqqəni qoydular yerə. Tahir Mirzənin əyaxların açıblar ta Tahir Mirzə huş gəldi başına, sürünə-sürünə gəldi həman sərb ağacının dibində Quran kitabını qoyub başının altına xürreyi-xaba bülənd oldu. Sözü eşit kimdən-indi uşaxlar çəkildi getdi – Zöhrə xanımdan. Zöhrə dünəndən qadağandır, bu məktəbə gəlmir. Genə Tahir Mirzə bunun dövrəsinə dolanmır. Dedi, hələ o, gəlmiyib. Mən gedim bir məhtəb yollarına bir baxım. Demax olmaz şayət Tahir Mirzənin bir nəqahəti olmuş olsun. Amma gəlib elə varid oldu mədrəsənin-tamam məktəbin qapısındakı o sərv ağacının dibinə. Gördü Tahir Mirzə Quran kitabı başının altında elə yatıbdı ki, kasıbın şansı kimi. O yasəmən zilflərindən alıb sinəsinin üsdünə indi bir neçə kəlmə isdiyir Tahir Mirzəni bu ağacın dibində nə cür oyatsın, genə mən oxuyum tamam sözə qiymət verən oğlanlar sağlığına:

Çoğulumuz getdi xəbərə
Bixəbərsən, əmim oğlu,
Çəkdirəllər səni dara
Nə diyərsən, əmim oğlu?

Sabah mənim atam dar ağacın qoylatdırdı, səni çəkdirdi dara onda nə diyərsən, nə sözün var? Tahir Mirzədən xəbər yoxdu, oyanmadı. Aldı genə dedi:

Yatıbsan xabi-qəflətdə,
Göz açmıram müsibətdən.
Çox əmibsən ləbi-qəddən,
Nə doyarsan, əmim oğlu?

Bəli, amma Tahir Mirzə oyanmıyıb. Zöhrə xanım gördü Tahir Mirzə yatıb. Bir kəlmə, iki kəlmə oxudu gördü xeyir, Tahir Mirzə elə yatıb dünyadan xəbəri yoxdu. Ağlıya-ağlıya sözün dübarəsini nə deyir, nə cür oyadır, nətəər olacaq bunların başlarının qəzavü qədərlərin mən oxuyum tamam qulaq asanlar sağlığına:

Xəbərin yoxdu xəbərdən,
Getdi işləri dəbərdən.
Nə anıbsan bal, şəkərdən
Nə qanarsan, əmim oğlu?

Baxır ki, Tahir Mirzə genə oyanmayır. Deyir:

Sabah səni dindirəllər,
(Səndən söz xəbər alarlar)
Dərdi, qəmə mindirəllər.
Ya sürgün, ya öldürəllər,
Nə diyərsən, əmim oğlu?

Nə yatıbsan, niyə oyanmırsan, ay əmim oğlu? Gördü, xeyir, xəbər-əhval yoxdu. Dedi:

Başımdakı tirmə şaldan,
Üzümdəki qoşa xaldan.
Nə olub düşmüsən haldan,
Oyanmırsan, əmim oğlu?

Tahir Mirzənin döyülməsindən Zöhrənin xəbəri yox idu. Oğlan oyanmır, qız ağlıya-ağlıya alıb belə deyir:

Hicran kotənini əkərsən,
Biçib xərmana tökərsən.
Ah çəkərsən, yaş tökərsən
Qəm yiyərsən, ay əmim oğlu.

Gördü xəbər yoxdu. Qız elə ağlıyır, baharın buludu kimi gözlərindən yaş ələnir. Sözünün xülasını Zöhrə belə deyir:

Mən Zöhrəyəm, qələm qaşlı
Gərdanımdı qarqı saçlı.
Mən yazığı gözü yaşlı
Sən qoyarsan əmim oğlu.

Zöhrənin gözündən üç-dörd qətrə damcı yaş düşdü Tahir Mirzənin üzünə. Tahir Mirzə bir moğey gözlərini aşdı, gördü Zöhrə bir yerdən gözlərin yumur, min yerdən yaş əliyir. Tahir Mirzə qalxıb durdu əyağa. Qolların saldı əmisi qızı Zöhrənin boynuna:

– Nə olub belə ağlıyırsan? Mənə kötək vurublar, sən niyə ağlıyırsan?

Dedi:

– Axı xəbərin yoxdu xəbərdən?

– Nə olub məgər?

Dedi, cəryan belədi. Əhvalatdan sənin xəbərin yoxdu? Dedi:

– Mən baxəbərəm.

– Ya məmləkətdən sürgün elərlər, ya məni sənə verməzlər. Bunun biri hətmən olacaq. İndi sabah məni sənə vermədilər, sən onda neynərsən?

Tahir Mirzə bir ağaş parçası tapıb, saz əvəzinə alıb sinəsinin üsdünə isdiyir Zöhrəyə nə desin, mən oxyum tamam əziz qulaq asanların hamısının sağlığına "Sarıtel" havasıynan:

Başıva dolannam Zöhrəm,
Ölsəm də dönmərəm səndən.
Fələk bizi saldı qəhrə,
Ölsəm də dönmərəm səndən.

"Ta mən ölmüyəncən səndən döndü yoxdu" – deyib Tahir sözünü davam elədi:

Kimlər gəldi bu xəbərə?
(Xəbəri gətirən kim idi?)
Ağ günümüz oldu qara.
Məni çəhsələr də dara
Genə mən dönmərəm səndən.

Dedi yenə, mən səndən əl çəkəmmərəm. Məgər dədə-baba sözüdü: “cücə dənüsdə ölür”. Alıb sözün dübarəsini Tahir Mirzə belə deyir:

Hər ikimiz bir almadan,
Sənsən göylümü alladan.
Çuğullux keçdi haradan?
Tahirəm dönmərəm səndən.

Axı çuğullux, bu daş bizə hardan dəydi? Tahir Mirzə sözün təmam eylədi, Zöhrədən ayrıldı. O, o tərəfə, bu da öz xanəsinə gəldi. O, da ağlıya-ağlıya öz mənzilinə, öz evlərinə və Tahir Mirzə də ağlıya-ağlıya öz evlərinə gəldi. Amma Tahir Mirzə yetirib öz mənzilinə getmədi. Getdi qonax otağının qapısını açıb, üzü quylu düşdü orda fərşin üsdünə. O qədir ağlıyıb ki, huş başından çıxıb. Behuş xürreyi-xaba bülənd oldu genə. Tahir Mirzənin ata-anası nə qədir axtardılar, amma Tahiri tapa bilmədilər. Tahirdən bir xəbər verən olmadı ki, axı bu gün bu şəhridə nə oldu. Hər tərəfə car saldılar, Tahir Mirzəni tapa bilmədilər. Axırda Tahir Mirzənin anasının yadına düşdü ki, mən gedim bir qonaq otağına da bir baxım. Demax olmaz Tahir Mirza orda olar. Gəldi gördü qonaq otağının qapısı açıxdı. Varid oldu içəri, gördü Tahir Mirzə yuxudan ayılıb, amma elə ağlıyır, elə ağlıyır balası ölmüş ana kimi. Dedi:

– Oğlum, nə olub sənə? Niyə ağlıyırsan? Sənə kim nə deyib?

Dedi:

– Ana, mənim başımın qəzavü qədəri çoxdu.

– Axı nə olub?

Dedi, icazə versən diliynən deyə bilmərəm, mən dərdimi sənə sazınan, sözünən deyim. Tahir Mirzə indi burda sazınan, sözünən anasına nə diyəcək, mən də oxuyum tamam qulaq asanlar sağlığına:

Canım ana, gözüm ana,
Ana, mən qannar ağlaram.
Sənə qurban özüm ana,
Ana, mən qannar ağlaram.

Oğlunun bu sözündən anası çox təəccüb qalıb, hələ bilmir ki, cərəyan nəyin kimidi. Bu nədən ötürü bu sözləri söylədi? Dedi:

– Oğlum, hələ sözün mənə diyəcəksən. Niyə ağlıyırsan sən? Səni kim döyüb, kim söyüb?

Dedi:

– Ana, dərdim çoxdu, dərdimin çarəsi yoxdu, dərdim dəvasız bir dərddi.

Tahirin anası Sona xanım alıb görax oğlunun cavabında nə deyir:

Canım oğul, gözüm oğul,
Ağlama, balam ağlama.
Yedirdərəm qəndi-noğul,
Ağlama, Tahir ağlama.

– A bala, niyə ağlıyırsan? Dərdüvü de, sonra ağla, görüm dərdüvə əgər mən əlac eyliyə bilmirəm, bilməsəm sonra ağlıyarsan, bala. Dərdin nəmənədi?

Dedi: "Dərdim böyük dərddi, qulaq as" Aldə genə dedi:

Qürbətdığa düşdü daşım,
Çox bəlalar çəkər başım.
Gəlmədi məhtəb yoldaşım,
Didəmdə qannar ağlaram.

Amma sözümüzün indi kəsrini oxuyaceyem navarın o üzünə ki dübarə Tahir Mirzəynən anası bir-birinə nə deyillər. Anası dedi:

– Oğul, sənin məhtəb yoldaşın, Zöhrədən savay məhtəb yoldaşın yoxdu? Zöhrə niyə gəlmiyib? Nə olub gəlmiyib? Məgər Zöhrənin bir şayət bir nəqahəti varmış.

Anası bildi ki, day bular axır bir-birinə aşiqi-məşuqudular. Zöhrə hətmi ki, bir gün getmiyib mədrəsəyə onan ötürü belə narahatdı. Dedi:

– Oğlum, o gəlib, gəlmiyib yerində, amma bizim əhdi-peymanımız var. Namə yazılıb, kağız imzalanıb. Sənin kağızın onda, onun kağızı səndə. Zöhrə sənindi, sən də Zöhrəninsən. Vəli qulaq as əgər inanmırsan sözümün dübarəsini deyim. İndi götürüb deyir:

Özüm özümü öyərəm,
Xanı, bəylərə diyərəm.
Gedib atava diyərəm,
Ağlama, balam ağlama.

Anası dedi: "Necə Zöhrədən ötürü ağlıyırsan? Gəlmiyib, gəlmiyib Zöhrə evindədi da. Əvvəl atan gəlsin, mən sənin ərzivu atavın xidmətinə yetirrəm. Sabahdan getsin Zöhrəni gətirsin sənin üçün". Tahir Mirzə dedi ki, elə dəyil:

Mən Tahirəm artdı qəmim,
Dəryaya qərq olub gəmim.
Gəlmədi Zöhrə həmdəmim,
Ana, mən qannar ağlaram.

Görürsən mən qan ağlıyıram, mən bilirəm nə var, amma sən bilmirsən. Amma Tahirin anası sözünün xülasını belə deyir:

Diyərəm soltana, xana,
Bax gözümdən axan qana.
Sənə quraban anan Sona,
Ağlama, balam ağlama.

Bəli, söz tamam oldu, bu vaxt Əhməd vəzir gəldi gördü, ey dadi-bidad, oğlu bir tərəfdə, xanım bir tərəfdə. Hər ikisi gözü yaşlı, əl qoynunda. Elə məlul, müşkil əyləşiblər ki... Dedi:

– Sizə nə ölüm xəbəri veriblər? Nə olub, mənnən gizliyirsiz.

Sona xanım dedi:

– Xeyir, ayrı nigarançılıx yoxdu. Xəbər budu ku, Zöhrəni mədrəsədən guya qədəğən eliyiplər, indi Tahir Mirzə onnan ötürü ağlıyır.

Çün ayaxlarının da o qabarrın nə qədir vurmuşdular, döymüşdülər anasına bəyan elədi. Tahir Mirzənin eyni cəryanı nədir Əhməd vəzirə anası söhbət elədi. Əhməd vəzir bir əllərin ovdu, dedi:

– Oğlum, bunnan ötürü narahatsan? Zöhrə sənindi, sən də Zöhrəninsən. Bu gecə sabah olsun, mən sabah gedərəm bir dənə yaylıx örtərəm Zöhrənin başına, bir dənə də üzik taxaram barmağına. Qurtarar gedər işinə. Bunnan ötürü narahatçılıx yeri yoxdu. Niyə ağlıyırsan? Kim Zöhrəni sənə verməz?

Bəli, Tahir Mirzə sabahın intizarın çəhməkdədi. Amma sabah Əhməd vəzir yerindən durdu, getdi qardaşı Hatəm Soltanın yanına. Gördü hələ Hatəm Soltan yerindən durmuyub. Heç onu yerindən durmasın. Əhməd vəzir gözlədi qardaşı yerindən durdu. Və gördü qardaşı Əhməd vəzir bu vaxtıdan heş moqey indiyə kimi gəlməmişdi, bu tezdəndən gəlib bunun mənzilinə. Dedi:

– Qardaş, Əhməd vəzir, nə cəryan üz veripdi?

Dedi:

– Qardaş, ayrı bir cərəyan yoxdu. Ayrı bir nigarançılıx yeri yoxdu. Fəqət gəlmişəm ki, aramızda üş dənə ki şərtimiz vardı yazılıb, imza eləmişıx. Hər ikimizin naməmiz biri-birindədi. İndi işin əvand, ikisin yerinə yetirmişıx və biri qalır. Onun da indi vaxtıdı. Sən qızın Zöhrəni verəsən mənim oğlum Tahirə alam və toy başlıyax, toy eliyax.

Çün qabaxdan Hatəm Soltana ayrı sözlər demişdilər, ayrı çuğulluxlar eləmişdilər çox narahat idi. Hatəm Soltan dedi ki, sən ki Zöhrəni deyirsən verəm Tahir Mirzəyə, mənim yeddi dənə it küçüyüm ola, birin Tahir Mirzəyə vermərəm. Elə bu cavabı Əhməd vəzir eşidən elə bilginən ki, işixlı dünya bunun nəzərində tiri-tar oldu, dağ yıxıldı Əhməd vəzir qaldı altında. Gördü Hatəm Soltan elə qəzəbnak olub ki, əgər sözü bir də döndərsə yəqin cəlladdara bunun boynun vurduracaq. Əhməd vəzir dalı-dalı Hatəm Soltanın otağından çıxdı, düz gəlib öz evinə. Tahir Mirzənin gözü yolda, intizar çəkir. Allah heş kəsi intizar eləməsin. Hər intizarrığı hər kəs çəhsə, çox böyük dərddi. Gördü atası gəlir, amma elə bekef, elə məlul, müşküldü kü, elə bil dünyanın bacı-xəracını Əhməd vəzirdən çəkdirirsən. Atası bu pərişan gəlmaxda. Allah heş istədiğın şərməndədə eləməsin. Bir adamı yolluyasan bir ümit yerinə, gedə naümid gələ, bu da çətindi. Allah heç igidin əlin boşa vurmasın. Bu yannan ata utanır, mən gedim oğluma vədə vermişdim, səhər gedərəm allam gətirərəm, bu tərəfdən ata utanır, o tərəfdən oğul göz-intizarda. Ata-bala bir-birinə yetişən daha Tahir Mirzə xəbər almadı ki, ata, cərəyan nəyin kimidi. Əhməd vəzirin vəzinə baxıb bildi ki, Hatəm Soltan buna “yox” cavabı veribdi. Çün Tahir Mirzə bilirdi ki, iki gündü

ki bu qızı burdan qadağan eliyiplər day bu muamele olmayacaq. Buların işləri tutmadı. Tahir Mirəznin anası gəlib Əhməd vəzirin yanına dedi:

– Tez mənə bir xəbər ver görüm, havax deyillər gəlin Zöhrəni aparın?

Əhməd vəzir ağlıya-ağlıya dedi:

– Bu bizim xam xiyalımızmış. Bəs sən saydığını qoy dursun, gör fələk nələr sayır. Belə bir məsələ var. Sən saydığın qoy dursun, gör fələk nələr sayır. Muamelə tutmadı – vermədi. Özü də elə qəzəbnax idi ki, əgər bir də getsəm, mənim nəmənə qohumu-qəbiləm var hamısını öldürtdürər.

Bu tərəfdən Əhməd vəzir öz evində naümid əyləşib, amma o tərəfdən Hatəm Soltan çağırdı dübarə bunun bir də bir yanında peşxidməti vardı, dedi gedərsən Əhməd vəzirə deyərsən ki, Hatəm Soltan səni çağırır. "Niyə?" – dedi. Dedi, çün onun camahatın arasında o qədir xətir-xürməti var ki, hamı mənnən incikdi, hamı mənnən narazıdı. Sabah camahatı toplar başına, hamı onun hökümündə olucaq. Onda gələr həmi mənim qızımı alar, həmi də təxti-saltanatıma sahib olar. Get Əhməd vəziri çağır, gəlsin mənim yanıma. Bu tərəfdən peşxidmət gedib Əhməd vəziri gətirsin. Bu tərəfdən bunun bir dənə cəlladı var idi, adına cəllad Qasım deyərdilər. Çox adamlar öldürmüşdü, gözündə zərrə bunun məhəbbət olmazdı, bir kəsin üzünə baxanda ürəyində bir zərrə rəhm olmazdı. Çağırdı cəllad Qasımı təxtin yanına. Qasıma dedi:

– Bəli, vəxti ki mənim qardaşım Əhməd vəzir varid oldu mənim imarətimə, qapının qabağında bir güşəsində duraceysən. Gördün ki, Əhməd vəzir təh gəlir, boynunu vuraceysən, başını atasan mənim qədəmlərimə.

Cəllad Qasım əllərini qoydu gözünün üstünə dedi:

– Baş üstə.

Qasım bu tərəfdə şəmşir əlində, bir pinhanıda qapının bir çiynində dayanıb, o tərəfdən peşxidmət özün yetirdi Əhməd vəzirin evinə. Salam, badəssalam. Dedi:

– Əhməd vəzir, Hatəm Soltan deyir mən ona bir şoxlux elədim. Şovru durdu burdan getdi. Gəlsin nə cür məndən qızı

alır, havax alır, havax toy eliyir. Deyir, elə yetirdi mənə dedi, "qızı ver, mən toyun eliyim". Mən də narahat oldum, ona bərk cavab demişəm.

Ağa, Əhməd vəzir-biçarə Əhməd vəzir bu tərəfdən durub indi gəlir qardaşının xaraba qalmışına. O tərəfdən dəstur cəllad Qasıma belə yazılıb. Amma vəxti ki, bu söz deyiləndən sonra cəllad Qasım bir fikir elədi: "Bular iki qardaşdılar, indi bunun qəzəbi tutub. Mənə deyir mənim qardaşımı öldür, məgər mən bunu öldürdüm, sabah bunun hirsi yatdı, onda mənim boynumu vurdurtdurar, diyər mən dedim, sən niyə mənim qardaşımı öldürdün? Mən eliyə bilmərəm bu işi" – öz qəlbində. Gördü Əhməd vəzir təki-tənha gəldi, varid oldu Hatəm Soltanın təxtinin qabağında gərdan çəkib dayandı. Dedi:

– Qardaş, salam.

– Əleykəssalam.

Gördü cəllad Qasım bunu öldürmüyüb. Dedi:

– Qardaş, qız alanın ya gərək qolunda doyuncan qüdrəti ola, zorunan ola. Ya gərək bir çuval qızılı ola. Mənim qızım yoldan keçənlərdən dəyil ki, sən elə diyəsən ver, mən də verəm, sən də götürüb gedəsən.

– Bə neyniyək, qardaş?

Dedi:

– Demişam da, ya bir çuval qızılın ola, ya da qolunda o qədir qüdrətin ola ki zorunan mənnən alasan. Mən sənə bir şoxlux elədim, çıxdın getdin, burdan acıx elədin getdin.

Bu sözü deyib, öz şəmşiri göydə idi, libas geyinmax bahanasıynan yavaş-yavaş yeriyib özün yetirdi şəmşirinə. Libaslarını geydi, şəmşiri bağlıyıb gəldi qardaşı Əhməd vəzirinən rubəru dayandı. Şəmşiri elə havalı verdi Əhməd vəzirin ürəyinin başından ki, iki qarış şəmşirinin ucu çıxdı eşiyə. Əhməd vəzir həmən dəqiqə yıxılıb bargahda Hatəm Soltanın təxti-xabının əyağında həman saat can təslim elədi. Çağırdı:

– Cəllad Qasım!

Qasım əl döşündə:

– Bəli.

Dedi:

– Məgər mən deməmişdim sən Əhməd vəzirin boynun vur?

Dedi:

– Sən demişdin, vəli mən peşiman oldum. Qardaşınıdı, əvvəl o cür demişdin, sabah hirsın yatardı məni öldürərdin. Bəs indi öz əliynən öldürdün, mən öldürmüşəm hesab eləginən.

Dedi:

– Bunun cəsədin apar atginan dəryaya.

Çün o viranənin ətrafı dəryaydı. Əhməd vəzirin cəsədin cəllad Qasım götürüb bir neçə nəfərnən apardılar saldılar dəryaya. Götürüb bir dəsturu hökmü-fərman yazdı Tahir Mirzənin başın gətirəcəksiz mənim xidmətimə, bir də anasının başını. Hər ikisinin boynun vurub başların gətirəcəksiz mənim huzuruma. Ağa, iki dənə cəllad biri gedib Tahir Mirzənin anasının sorağına, həman cəllad Qasım getdi Tahir Mirəzənin sorağına. Tahir Mirzə gördü əllər qoynunda elə ahu balası kimi göz yoldadı, atasından nə xəbər gəlir. Gördü əvəzi ki, bular qız alverinə getmişdilər, elçılığa getmişdilər, cəllad gəldi-xəbəri cəllad gətirdi. Tahir Mirzə bildi iş nəyin nəsidi. O cəllad ki gəlmişdi Tahir Mirzənin anasının sorağına, Tahir Mirzənin anasın öldürüb. Amma cəllad Qasım ki yetişdi yapışıb Tahir Mirzənin yaxasından yıxdı yerə, istədi Tahirin başını kəssin. Dedi:

–Cəllad Qasım, mənim atamın az çörəyini yeyibsən? Cəllad olanda, nə olar, adamın heç ürəyində bir rəhmi olmaz? Mənim atamın çörəyindən utan. Dədəmi öldürtdüdüz, anamı öldürtdüdüz, indi istiyirsən məni də öldürəsən. Mənim atamın bir yollux çırağın keçirdəsən. Bəs indi ki, öldürürsən, icazə ver sinəmdə bir üş-dörd kəlmə sözüm var, deyim sonra öldür.

İndi istiyir nə desin, mən oxuyam tamam qulaq asanların sağlığına:

Aman cəllad, gəl rəhm eylə,
Dərd məni alacax oldu.
Malı-mülkü, küllü-varım
Kimlərə qalacax oldu?

Tahir Mirzə alıb sözünün dübarəsini:

Qardaşım yox deyim sözüm,
Anam qalmır çəksin nazım.
Bu üstü sədəfli sazım
Bəs kimlər çalacax oldu?

Əziz eşidənlərimiz, çün sözümüz o yerdə qaldı ki, Tahir Mirzəni cəllad Qasım yıxıb başını kəssin. Çün cəllad Tahir Mirzənin atası Əhməd vəzirin çox çörəyin yemişdi. Orda Tahir Mirzə ürəyi dərdə gəldi: "Xub, Hatəm soltan dəstur verib, sən məni öldürəsən. Vəli cəllad olanda, nə olar. Heç adamın bir duza, çörəyə bir ehtiramı olmaz? Adam heç yediği nəməhdən heç utanmaz?"

Amma cəllad Qasım üz tutdu Tahir Mirzəyə:

– Axı dəsturu-Hatəm Soltandı, gərək mən səni öldürüm. Öldürməsəm öz canım xətərdədi.

Amma gördü isdiyir cəllad Qasım Tahir Mirzəni öldürsün, götürüb burda bir neçə kəlmə nə diyəcək, mən oxuyum tamam eşidənlər sağlığına "Sarıtel" havasıynan:

Mən Tahirəm budur sözüm,
Belə dərdə necə dözüm?
Zöhrə xanım-iki gözüm
Ya Rəbb, kim alacax oldu?

Amma söz tamam oldu, cəllad Qasımın Tahir Mirzənin atasının həqqi yadına düşdü. Dedi:

– Tahir, qaç bu diyarıdan get. Mən səni öldürmədim. Mən burdan gedərəm Hatəm Soltana deyərəm, mən Tahir Mirzəni tapa bilmədim. Tahir Mirzə eşidib onun atasını, anasını öldürübsən isdiyirsən özün də öldürəsən, Tahir Mirzə qaçıb itib, tapa bilmədim. Mən bu bərnaməni Hatəm Soltana yetirrəm. Amma sən isdiyəssən, canın bu xətərdən xilas olsun gərək sən Qaraman şəhrindən çıxıb qaçasan.

Tahir Mirzə elə ki cəllad Qasımın əlindən xilas oldu, hərəsi var hara getsin, çox fikr eyliyib dedi ki, mən bir yer tanımıram. Mənim indi bir yerdə əl tutarım yoxdu. Allah heç igidin ümidini kəsməsin. Tahir Mirzənin hər yannan əlacı kəsilib, indi Tahir Mirzəyə kim sahib durar. Bu tərəfdən Tahir Mirzə bu fik-

ridə, cəllad Qasım özünü yetirdi Hatəm Soltana. Baş vurub ədəb yerində dayandı. Dedi:

– Hatəm Soltan sağ olsun, Tahir Mirzə eşidib ki, sən onun ata-anasını öldürübsən, qaçıb itib, nə qədir dolanmışam nə özüm tapa bildim, nə bir kəs Tahir Mirzədən xəbər verir.

Hatəm soltan dəstur verdi, hər kəs Tahir Mirzənin əgər öldürüb başın mənə gətirsə, ya o cür diri tutub mənim hüzuruma gətirsə, Tahir Mirzənin öz ağırı o şəxsə mən qırmızı qızıl verrəm. Camahat bir iddə Tahir Mirzəni axtarmaxdadı. Amma bir iddə görəndə üz daldasına vurub, qıymırlar Tahir Mirzəyə. Sözü eşit kimdən, indi Hatəm Soltan carçı salıb dəstur verib Tahir Mirzəni axtarır. Amma Tahir Mirzə gördü bu Qaraman şəhrində qalsa tapılacey. Şəhridən çıxıb kənara, atasının bir dənə xanabanı var, özün verdi həman bağa. Tahir Mirzə bir həftə bu bağda qaldı. Tahir Mirzəni nə qədir axtardılar, tapa bilmədilər. Gəl sözü eşit kimdən? Tahir Mirzədən. Tahir Mirzə gördü ki, aclıx da onu ixtiyardan salıb. Dedi, qərədən ki solay day rəh yoxdu. Çıxıb yolun kənarına şayət bir Allah sövən adam gələr, mən bunnan bir çörəy alım, özümü verim bir diyara. Əzqəza Tahir Mirzə yolun kənarında ixtiyarsız gözlərinin yaşını baharın buludu kimi əliyib, gördü bu tərəfdən bir dəstə xarıkən gəlir. Yəni ibarət tikən diyəllər olara. Gordü bir dəstə xarıkən mallarını yühlüyüblər tikan aparırlar. Tahir Mirzə kəsdi buların qabağını. Gördü buların içində çox qoca, günü keçmiş bir qoca kişi var amma çiynində bunun bir dənə dağarcığı var. Dedi:

– Əmi, dədə-babadan bir dənə məsələdi, diyəllər ki, acandın çobana, yoruldun sarvana. Çörək ehtiyatız olsa, mənnən muzaqey eləmiyin.

Amma o şəxsi Tahir Mirzəni tanıyıb, gözlərinin yaşını tökə-tökə nəmənə çörəyi var idi, verdi Tahir Mirzəyə. Dedi:

– Tahir Mirzə, nə mən, nə mənim yoldaşlarım bizdən sənə xətər yetişməz. Amma bu çörəyi aldın, bu diyarda qalma səni əxtərirlər, oğul. Səni öldürəcəklər, baş götür get ayrı bir dövlətin məmləkətinə. Zöhrədən də əl çək, canın heyifdi, xətərdəsən. Amma bu sözü eşidən Tahir Mirzə gözlərinin yaşını tökə-tökə

görax burda bir neçə kəlmə bu kişinin bu deməsinə nə deyir. Mən oxuyum "Hüseyni" havasıynan:

Əlləri hənalı bayram günündə
Dostum bir nayrannıx verdi, hazarat!
Yardan ayrılmağı nəsihət etdi,
Bizə nə bayramlıx verdi, hazarat?!

Bu sözü mənə dedin, məni nagiran elədin. Niyə gərək bu sözü mənə deyirdin? Ay əmi, kaş o bir tikə çörəyi mənə verib, bu kəlməni də demiyəydin. Eşqi biqədərdi. Alıb sözün dübarəsini:

Məni şəddə kimi belə dolasan,
Ayrılmaram tikə-tikə doğrasan.
Yarıma qurbanam, əgər sorarsan,
Ağ günü qaranlıx verdi hazarat!

Amma Tahir Mirzə alıb sözünün tapşırmasını belə deyir:

Dedim: Zöhrə, bax nə qələm qaşın var...
Dedi: Tahir, bax nə müşkil işim var...
Dedi: Mən xəstəyəm, nə yemişin var?
Bir cüt nar dərmannıx verdi hazarat!

Bəli, söz tamam oldu. Amma sözü eşidin indi kimdən? Bular ki Tahir Mirzədən ayrıldılar gedə-gedə həmin qoca nəsiyət elədi ki, oğlum, bu diyarda durma vallah səni tapıb öldürəcəklər. Tahir Mirzəyə söz əsər eləmədi. Amma bu tərəfdən bular getmaxdadılar. Gəl sözü eşit kimdən? Tahir Mirzənin iki dənə satın alınan novcavan qulu var. İki dənə də Tahir Mirzənin siğə qardaşları var. Bular o qədir Tahir Mirzənin vəfasın elədilər əxtərdilər tapa bilmədilər. Amma qullar gəzə-gəzə gəldilər əzqəza həman xanə bağında Tahir Mirzəni tapdılar. Bular indi üçü bu bağda olsunlar, gəl sözü eşit bunun siğə qardaşalrından. Olar Tahir Mirzəni çox gəzdilər. Çox Tahir Mirzəyə tərəfdarrıx elədilər. Xəbər verdilər Hatəm Soltana ki, Tahir Miraznin iki dənə siğə qardaşı var, deyillər əgər Hətəm soltan isdiyə Tahir Mirzəni tapa onun başından bir tük əskik ola, Qaramani alt-üst elədər. Hatəm Soltan dəstur verib oları gətirtdi. Gətirib hər iksinin meydanda boynunu vurdurub, verdi aparın atın dəryanın kənarında bir dənə

yabana. Tahir Mirzənin qardaşlıxların öldürdülər. Leşlərini gətirib atdılar dəraynın kənarına, amma qullar və Tahir Mirzə bular üş gün genə bağda bahəm qalıblar. Tahir Mirzə gördü genə o çörəgi o qabaxki xərikənlərdən alımışdı qutarıb. Amma ajdıx buları əsər elədi. Genə çıxıb yolun kənarında intizar bir nəfər yol adamı tapsın özlərinə bir qədir çörək alsınlar. Əzqəza Tahir Mirzənin öz dədəsinin bir xərkanı var. Bu çox çörək itirən namərd, haram bir mərdiməzar şəxs idi. Allah mərdimazara həmişə lənət eləsin. Tahir Mirzə gördü bir neçə dənə mal yühlüyüb qabağında tikannan gəlir. Dedi öz-özünə: "Yaxşı oldu, elə bu mənim dədəmin xərkanıdı". Çıxdı, dedi:

– Əmi, salam.

– Əleykə salam. Tahir Mirzə, burda neynirsən?

Dedi:

– Hatəm soltanın zülmündən qaçıb burda pünhan olmuşam. Təh mən dəyiləm həmən dədəm mənə satın alan qullar da mənim yanımdadı.

Qulların birinin adı Əhməddi, birinin adı Məhəmmədi. Həmin şəxsi çıxardıb nəmənə çörəyi var idi, verdi Tahir Mirzəyə dedi:

– Tahir Mirzə, bərk gizlən haa səni əxtərirlər. Tapsalar öldürəcəklər.

Tahir Mirzə dedi:

– Məni görmədin hesab elə. Heş kəs mənim yerimi bilmir.

Tahir Mirzə əlin saldı cibinə. Bir qədir əşrəfi çıxardıb həmin dədəsinin tikançısına verdi, dedi:

– Nə bada, nə bada bilməzsən mənim yerimə diyərsən.

Tikançı dedi:

– Xətircan ol, demərəm, xudafiz.

Bular ayrıldılar. Bu namərd yeksərə düz getdi Hatəm Soltanın dərbarına ki, sənə müjdələr olsun, Hatəm Soltan.

Hatəm Soltan dedi:

– Nə olub?

Dedi:

– Tahir Mirzənin yerini bilirəm hardadı, Hatəm Soltan?

Elə ki bunnan təqib eliyib eynən cəryanı, yer-yurdu düz öyrənir, çağırır cəllad Qasımı ki, bu dəyqə Tahir Mirzəni öldürüb köynəyini bulayaceysiz qanına, gətirərsiz mənim hüzuruma. Ya da özün qolları bağlı gətirərsiz mənim hüzuruma. Dəstur verir cəlladlara. Ustad rəvayət eliyir ki, o dəyqə cəladdar varid oldular xanabağa, gördülər Tahir Mirzə iki dənə su hovuzunun üsdündədi. Quru çörəyi basıblar suya isdiyirlər ki, bu çörəyi yesinlər. Bu tərəfdən cəlladlar varid oldular bağa. Tahir Mirzə gördü cəlladlar əllərində sirmə qılınc varidi bağ oldular. Əl atdılar Tahir Mirzənin yaxasına yıxdılar yerə. Qullar gördü ki, cəlladlar isdiyir Tahir Mirzəni öldürsün. Qullar ikisi də özlərini saldılar Tahir Mirzənin üsdünə ki, bizi öldür, Tahir Mirzəni öldürmə. Bular nə qədir əlləşdilər qulları Tahir Mirzədən ayıra bilmədilər. Axır əlacları kəsilib, bəs isdəmirsiz ki, sizi öldürək Tahir Mirzəni öldürmüyək. Bəli, cəlladlar dedi, bəs əlizi ötürün sizi öldürax, Tahir Mirzə qalsın. Qulların iksi də Tahir Mirzədən əl çəkdilər. Buları çəhdilər kənara, cəlladdarın hər biri buların birini yıxıb isdiyir toyux kimi başdarını kəssin. Amma Tahir Mirzənin dərdi tüğyan eliyib, cəllada belə iltimas eliyir ki, cəllad, bilirəm elə oları öldürürsüz, məni də öldürəceysiz. Amma icazə ver sinəmdə bir neçə kəlmə sözüm var, mən oları deyim. Deyir:

Şahın əmri ilə gələn cəlladdar,
Öldür məni, qullarımı öldürmə.
Ərşə bülənd oldu dadı-fəryad da
Öldür məni, qullarımı öldürmə.

Qəbul eləmədilər. Tahir Mirzə gördü cəlladdar isdiyir öldürsün qulları alıb sözünün dübarəsini dedi:

Bu qullar mənim malım baxırlar,
Şirin canı dost oduna yaxıllar.
Cavandılar, canlarından qorxurlar,
Öldür məni, qullarımı öldürmə.

Cəllad qəbul eləmiyib, aldı Tahir Mirzə sözünün dübarəsini:

Mən Tahirəm, viran oldu güllərim,
Dustum yoxdu sora halimi mənim.

Sağımda, solumda yazıx qullarım
Öldür məni, qullarımı öldürmə.

Bəli, söz tamam oldu cəladdar Tahir Mirzənin qullarının hər ikisini çəkdilər Tahir Mirzənin qabağında öldürdülər. İkisinin də başlarını kəsdilər. Cəlladdar ki, Qasımınan gəlmişdi gözlərini qan tutmuşdu. Cəllad Qasım şəmşirin sivirib dedi:

– Əgər Tahir Mirzənin başından bir tük əksik ola, sizi Tahirdən qabax mən öldürrrəm. Biz bu cavanın qanını bura tökə bilmərix. Niyə bizim əlimiznən Tahir Mirzənin qanı tökülsün.

İndi Tahir Mirzə cəlladdara bir neçə kəlmə nə kəlmə iltimas eliyir:

Dörd tərəfim qara qannar alıpdur,
Aman Allah, imdad eylə bu işə!
İndi bildim Əhməd vəzir ölüpdü,
Aman Allah, imdad eylə bu işə!

Öldürülüb Əhməd ilə Məhəmməd,
Zalim cəllad bir-birindən belahət.
Dünyada qalmıyıb,vallah ehtiqad,
Aman Allah, imdad eylə bu işə!

Tahir Mirzə aldı sözünün xülasəsini belə dedi:

Gedin deyin Zöhrə gəlsin yanıma,
Zalım cəlladlar susayıb qanıma.
Aparırlar Hatəm Soltan yanına
Aman Allah, imdad eylə bu işə!

Bəli, söz tamam oldu. Amma Tahir Mirzəni cəladdar qapdılar qabaxlarına. Bir qədir yol gətiriblər. Tahir Mirzə gördü qullar inciyir. O qədir çəkib Tahir Mirzənin qollarını bərkiddilər ki.... Götürüb bir neçə kəlmə yolüsdü Tahir Mirzə cəlladardan nə iltimas eliyir, nə deyir genə oxuyum sağ olsun eşidənlər. “İrəvan çuxuru”ynan belə dedi:

Zalım cəllad, asda bağla qolumu,
Qadir Allah, səndən mənə bir imdad.
Öldürdü qulumu, etdi zulumu
Qadir Allah, səndən mənə bir imdad.

Aldı sözünün dübarəsini:
Göydə bir ulduz var, adı Talıbdı
Hamı gedib, daha kimim qalıpdı?
Zöhrə məni, dərdi məni alıpdı
Qadir Allah, səndən mənə imdad.

Tahir Mirzə sözünün tapşırmasını belə deyir:

Mən Tahirəm, bəs necə oldu ellərim,
Gülşənli baxçada soldu güllərim.
Sağımda, solumda öldü qullarım,
Qadir Allah, səndən mənə bir imdad.

Bəli, söz tamam oldu, Tahir Mirzəni qatdılar qabaxlarına gətirirlər Qərəmən şəhrinə. Bir qədir Tahir Mirzəni yol gətiriblər, əzqəza Tahir Mirzənin güzarı haradan düşdü? O yerdə ki Tahir Mirzənin siğə qardaşalrını öldürmüşdülər, həmən yerdən Tahir Mirzənin yolu düşüb. Tahir Mirzənin atasının cənazəsini suya atlamaxları yadına düşdü. Rast gəldi, çıxdı həman qulların cənazəsinin üsdünə. Tahir Mirzənin dərdinin biri genə min oldu. Cəlladdar Tahir Mirzəni qolu bağlı gətirdilər Hatəm Soltanın hüzuruna. Hatəm Soltan dəstur verib, şəhri-Qərəman hamısı yığışıb meydanda hazırdılar ki, görsünlər Tahir Mirzəni Hatəm Soltan nə cür öldürür. Dar ağacı qoylanıb. Tahir Mirzəni qolları bağlı gətirdilər dar ağacının dibinə. Amma gəl sözü eşit tamam bu şəhrin ağsaqqal, qarəsaqqalınnan və bu tamam məhtəb uşaxlarından. Buların hammısı xəbərdar oldular ki, Hatəm soltan isdiyir tahir Mirzəni öldürsün. Tahirin məhtəb yoldaşları hammısı özlərini yetirdilər həman meydandana kı, Tahir Mirzəni dar ağacının dibində saxlıyıblar iki dəfən Hatəm Soltandan səda gəldi cəlladdara, çəkin bu çəpəni dara. Cəmaət qalqələ elədilər. Qurban, bunun dədəsin öldürdün, nənəsin öldürdün, gəl özünə rəhm elə. Özü cavandı bunun qanını bu torpağa töhmə. Qəbul eləmiyib cəlladdar müntəzirdi Hatəm Soltananın üçüncü fərmanına, amma Tahir Mirzə gördü bunun məhtəb yoldaşları hammısı əl-ələ qol-qola meydanın bir tərəfində çəpər kimi dayanıblar. Bəzisi ağlıyır, bəzisi qəmgündü, bəzisi əl duadədi: “Allah, sən Tahir Mirzəni Hatəm Soltanın şərrindən xilas eylə”. Amma Tahir Mirzə icazə alıb hami camaatdan,

Hatəm Soltandan ki, bir neçə kəlmə sinəmdə söz var mən oları deyim, sora məni çəkin dara. Tahir Mirzə sazını aldı sinəsinə "döymə Kərəmi" havasıynan əmisi Hatəm Soltana nə iltimas eliyir. biz oxuyax tamam bu navarrara qulaq asannarın sağlığına:

Tayım-tuşum yığışıbdı yanıma,
Taxsırım yox, bigünaham, xan əmi!
Zalım cəllad susayıbdı qanıma
Taxsırım yox, bigünaham, xan əmi!

Qəbul eləmədi iltiması, amma ikinci hökmü verib üçüncü hökmə müntzirdilər görsünlər Hatəm Soltan nə diyəcək.

Çün xəbər yetişdi Zöhrəyə ki, Tahir Mirzəni qollar bağlı gətiriblər, dar ağacının dibindədi. Bu da tamam öz məhtəb yoldaşalırını yığıb bir dəstədə, o şəhrin qızlarınynan gətirdi. Mümkündü ki, kişi tayfasının iltiması qəbul olmasın. bəlkə bu qızlar iltimas eliyə buların iltiması qəbul olsun. Tahir Mirzə dövriyə baxanda gördü Zöhrə ağlıyıb, gözündən bir qətrə yaş gəlib bunun üzündə dayanıb. Amma elə ki Tahir Mirzə Zöhrənin üzündə o bir qətrə yaşı görüb bu sözü ona misal vurdu:

Bu meydanda zülmü həddən aşıbdı,
Atasız yetimin bağrı bişibdi,
Qızılgül üsdünə şəbnəm düşübdü,
Murğzar olupdu yollar, xan əmi!

Qəbul olmadı iltimas. Tahir Mirzə sözünün dübarəsni alıb görək nə diyəcə ək :

Genə mənə zülm oldu xudadan,
Fəraydıma yetsin məni yaradan.
Tahir ağlar, nakam gedir dünyadan
Yaman olub indi hallar, xan əmi!

Qəbul olmadı iltimas. Üçüncü hökmü oxudu: "Vurun Tahir Mirzənin boynun". Cəlladar və cəlladın biri həman cəllad Qasım idi ki, Tahir Mirzənin öz dədəsinin dostu idi. Tahir Mirzəni gətdilər dar ağacının dibinə. Amma o məhtəb uşaxları ki, oğlan və qızlar Tahir Mirzənin öz yoldaşları idi, hammısı dar ağacının dövrəsini kəsdilər, deilər: "Hatəm Soltan, əvvəl gərək bizim hammımızı öldürəsən sonra tək Tahir Mirzəni öldürəsən".

Və cəmaət üz tutdular Hatəm Soltana ki, gəl bunun qanın güzəşt elə bizə, bu cavandı bunun qanın bu meydana, bu torpağa töhmə. Hatəm Soltan qəbul eləmədi. Hökmü sədr elədi, gərək Tahir Mirzəni gözüm görə-görə çəkəsiz dara. Tahir Mirzə çün gördü Zöhrə qoşulub bu qızlara, bu da iltimas elədi. Üzün tutdu camahata ki, mənim əmimdən möhlət alın mənə beş dəqiqə. Mənim bir neçə kəlmə sözüm var, vəsiyyətim var, mən oları deyim sora məni genə öldürsün. Hammı iltimas elədi Hatəm Soltan. Buların xahişin qəbul eliyib Tahir Mirzə indi beş dəqiqədə nə oxuyacaq cəmaətə, Hatəm Soltana və Zöhrəyə nə diyəcək, mən ərz eliyim sizə can sağlığıynan. "Hüseyni" havasıynan belə dedi:

Qolu bağlı saxlıyıbsan qabaxda,
Günahım yox, bigünaham, xan əmi!
Öldürərsən, nahaq qana batarsan,
Günahım yox, begünaham, xan əmi!

Tahir Mirzənin iltiması genə qəbul olmadı, dedi:

Gözəl kəhliy kimin səsə gəlipdi,
Siyah tellər əsə-əsə gəlipdi.
Qızın Zöhrə iltimasa gəlipdi
(Hələ bu camahatın iltiması qəbul olmadı heç)
İltiması qəbul eylə, xan əmi!

]Amma Hatəm Soltan genə qəbul eləmədi. Alıb Tahir Mirzə sözün dübarəsini dedi:

Siz baxmıyın müxənnətlər felinə,
Namərd kəsin doğru gəlməz dilinə.
Zöhrə yarın əlin verin əlimə,
Qovdur bu ölkədən, xarec eylə, xan əmi!

Tahir Mirzənin söz ağzından çıxan Hatəm Soltanın az qaldı ruhu bədəndən çıxsın, dedi:

– Camaat, mənə deyirsiz bunun qanından keçim? Görürsüz nə danışır.

Dedilər: "Nə danışır? Bir qız, bir oğlanındı. Hələ o dar ağacının dibində beş dəqiqə vaxtı var. Nə desə, deyipdi". Amma alıp Tahir Mirzə sözün dübarəsini genə dedi:

Dəryadan ayrılır neçə adalar
Gönül dost bağına salıb cadələr.
Məhtəb uşaxları, ağazadələr
Orda iltimas eylər, xan əmi!

Xan əmiyə əslən sözlər əsər eləmədi. Bu sözlərin biri bunun başına işləmədi. Tahir Mirzə gördü iltiması qəbul olmuyub alıb sözünün xatəməsini belə deyir:

Mən Tahirəm, əl çəhmişəm canımdan,
Zalim cəllad nədən doymur qanımdan.
Mən ölürəm, Zöhrə, getmə yanımdan
İltimasım qəbul etmir xan əmim.

Amma Tahir Mirzə sözünü tamam eylədi. İltiması qəbul olmadı. Bir də dəstur verdi ki, Tahir Mirzəni tez çəkin dara gözüm görməsin. Amma cəlladlar Tahir Mirzənin əl atdılar ki, qolun çəhsinlər dara o məhtəb uşaxları ki, qız və oğlan dar ağacının dövrəsində dayanmışdılar hammısı əl-ələ verdilər Tahir Mirzəni aldılar araya, dedilər:

– Hatəm Soltan, əvvəl ölüm bizimkidi, sohra Tahir Mirzənin.

Və elə ki ovzanı belə görəndə cəmaət can başa gəldi. Hammısı yeriş elədilər Hatəm Soltanın təxtinin qabağına. Dedilər, əgər bunu öldürsən gərək bizim hamımızı öldürəsən. Bunun atasını öldürdün, anasını öldürdün, qulların öldürdün, sigə qardaşalın öldürdün. Əgər bu cavanın da qanını bu torpağa tökəsən nəbadə bizim torpağa yağış yağar, nə bizim torpaxda ot bitər. Hatəm Soltan camahatın bu yerişin gördü, gördü cəmaət dəydi bir-birinə. Naçar dəstur verdi cəllada əl saxla. Cəllad çəkilib kənara Tahir Mirzəni dar ağacının dibindən çəhdilər bu yana. Dedi:

– Cəmaət, siz bilirisiz ki, mən sizin xatirinizi çox istərəm. İndi dəsturu sizinkidi. Bu mənim düşmanımdı, gözümün qabağında olmaz, siz nə deyirsiz mən o sözə itaət eliyim. Mən sizin sözünüzü qəbul eliyim.

Ağsaqqal, qarasaqqal məşvərəd-məsləhət, dedilər bunu öldürmə. Torpağında da qoyma qalsın, sürgün elə öz torpağından çıxart. Hatəm soltan qəbul elədi dedi:

– Camaat, mən sizin sözünüzü qəbul elədim. Bunun ölümündən keşdim, indi bir nəfər bunu zəmanət eləsin gecəni mənim torpağımda qalsın, sabahdan ta bunu xilas eliyim.

Cəllad Qasım Tahir Mirzəni zəmanətə götürdü dedi:

– Qurban, mən özüm zəmanətə götürrəm. Sabah hansı torpağa, hansı səmtə deyirsən aparım o tərəfə, sürgün eliyim getsin.

Dedi: “Aparasan ötürərsən Osmanlı torpağına”. Zöhrə bu yandan baxəbər oldu ki, Tahir Mirzəni cəllad Qasım zəmanət elədi. Gecə bir kisə əşrəfi yolluyub cəllad Qasımın hüzuruna, bir də bir namə yazdı ki, cəllad Qasım, sabah ki Tahir Mirzəni aparaceysən sənnən tərəf mənim bir tərəqqim budu ki, Tahir Mirzəni aparanda mənim imarətimin qabağından gətirərsən. Elə ki pul gəldi yetişdi cəllad Qasıma. Naməni cəllad Qasım oxuyub baxəbər oldu. Qəbul elədi namənin cavabını yazdı ki, xanım, sabah sübh mən Tahir Mirzəni sənin imarətivin qabağından keçirdəcəyəm. Sən onda mənim müntəzirim olginən. Onda Tahir Mirzəni görə bilərsən. Cəllad Qasım sübh yerindən durub Tahir Mirzəni qolları bağlı qatdı qabağına. Amma Zöhrə xanım iki əllərin qoyubdu pəncərənin eşiyindən təmaşa eliyir. Ta gördü ki, bu halıda Tahir Mirzə qolları bağlı cəllad Qasımın qabağında gəldi imarətin qabağına. İşarə elədi cəllad Qasıma ki, saxla mən onu bir doyuncan görüm. Vəli Hatəm Soltan gizlində bir namə yazıb verdi cəllad Qasıma ki, mən cəmahətin hüzurunda dedim Tahir Mirzəni sürgün elə. Elə ki mənim torpağımdan çıxartdın Tahir Mirzəni öldürüb köynəyin buluyaceysən qanına, gətirib mənə nişan verərsən. Mən cammata görə o sözü dedim ki, öldürmərəm, sürgün elərəm. Əgər Tahir Mirzəni öldürüb köynəyin gətirib mənə nişan verməsən səni öldürrəm. Həmən namə də cəllad Qasımın cibində. Cəllad Tahir Mirzəni saxlıyıb Zöhrənin imarətinin qabağında. Zöhrə yendi gəldi Tahir Mirəznin yanına. Cəllad Qasımdan icazə alıb, icazə versən bir neçə kəlmə mənim sinəmdə sözüm var-əmim oğluma oxuyum. Onnan sonra Tahir Mirzəni hayana aparsan özün bilərsən. Zöhrə xanım o yasəmən zülflərindən aldı saz əvəzinə sinəsinin üsdünə görax “Bayramı” havasıynan cəllad Qasıma və Tahir Mirzəyə nə deyir:

Tahir, atan ölüb başın sağ olsun,
Yer, yeri, xan Tahirim, yar, yeri!
Bu sağlıxdan ölüm mənə yey olsun,
Yeri, yeri, xan Tahirim, yar, yeri!

Tahir Mirzənin dərdinin biri min oldu. Dedi, cəllad Qasım, icazə ver əmim qızımın cavabına bir neçə kəlmə də mən ərz eliyim. Aldı sözün dübarəsin:

Atam ölüb, nə iş gəlir əlimdən,
Gətirməsin heş baxçaları̇z bar, yeri!
Mən bülbüləm, ayırdılar gülümdən
Qoyma qona gül yerinə xar, yeri!

Amma bu sözü diyən Zöhrənin elə bil ciyərinin başı dağlandı. Aldı sözün dübarəsini:

O dünya, bu dünya üzün ağ olsun,
Dörd tərəfin behişt olsun, bal olsun.
Atan ölüb, sənin başın sağ olsun,
Barı qoy mən çəkim ahu-zar, yeri!

Əlbəttə, bu ahu-zar bundan sohra mənimki oldu. Amma Tahir Mirzə götürüb sözünün dübarəsini "Qaytarma" havasıynan belə deyir:

Atam mənə qəsri-eyvan saldırdı,
Anam onu göz yaşıyla doldurdu.
Zalım atam bəy atanı öldürdü,
İndi mən olmuşam bi ilqar, yeri!

Bu sözü diyən Zöhrənin az qaldı ruhu bədəndən pərvaz eləsin. Aldı görax Tahir Mirzənin sözünün cavabında nə deyir:

Dolansın, dolansın peymana dolsun!
Saralıb heyva tək gül rəngi solsun!
Atam özü zalım əlində qalsın,
Olsun taci-taxtı taru –mar, yeri!

Tahir Mirzə sözün deyən, gördü o tərəfdən bir yel qalxıb. Zöhrənin ənbərçəsin sinəsindən atdı kənara. Tahir Mirzənin gözü Zöhrənin sinəsinə sataşan bu kəlməni ona xatir oxudu:

Anadan olannan gülməyir üzüm,
Qürbət ölkələrdə mən necə dözüm?

Ənbərçən altında sataşdı gözüm
Sinən ağdı, Savalanda qar yeri.

Amam Zöhrə alıb genə sözünün dübarəsini "Göyçə gülü" havasıynan belə dedi:

Gedər olsan ənbərçəni atarsan,

(Zöhrənin yadına düşdü ki, bu qürbət elə gedir. Bəlkə bunun ehtiyacı var xəşdiğa. Gəl bu ənbərçəni ver aparsın qürbət eldə bu xərşləsin. Əgər xəşləməsən də sən mənim bu ənbərçəmi yanında yadıgar saxla, nişanə saxla)

Elə bil ki, Kəbə-qiblə yatarsan,
Sən əxtərib məndən gözəl taparsan
Qoy Zöhrə yar çəhsin intizar, yeri!

Bu sözlərdə Tahir Mirzəyə bir miskil oldu. Amma götürüb Tahir Mirzə sözünün xatəməsini dedi:

Ağlaram, gözümdən tökərəm qanı,
Fəryadıma yetsin xannarın xanı.
Tahir sövüb Zöhrə kimi tərlanı
Qorxum budu qucaxlasın sar, yeri!

Zöhrə xanım xahiş elədi cəllad Qasıma ki, sən Tahir Mirzənin qolların aç, bir sahat mənə möhlət ver, bir neçə kəlmə tapşırmalı sözlərim var. Mən onları Tahir Mirzəyə deyim və onnan sonra səni və Tahir Mirzəni Allaha tapşırdım. Cəllad Qasım qəbul elədi. Tahir Mirzənin qolları açıldı, Tahir Mirzə Zöhrə xanımla varid oldular Zöhrənin otağına. Zöhrə qolların açıb saldı Tahir Mirzənin boynuna. Tahir Mirzə başını qoydu Zöhrənin sinəsinə. İki həsrət bir-birinə yetişib, o qədir ağladılar ki, ikisi də bixtiyar yıxıldılar bir yerə. Cəllad Qasım gördü bunların otaxdan eşiyə gəlmələri çox tünd çəhdi. Cəllad Qasım varidi otax oldu, gördü Tahir Mirzənin başı Zöhrənin sinəsindədi, Zöhrənin qolu Tahir Mirzənin qoynundadı. Elə bil ilan şərməşib bir-birinə. Dayanıb bular huşa gəldlər. Tahir Mirzə gözlərini aşdı gördü, bəli Zöhrənin otağındadı, bular biri-birindən ayrılıblar, isdiyirlər yola düşsünlər. Amma Zöhrə xanım ənbəriçəsini aşdı verdi Tahir Mirzəyə: "Tahir, bu ənbərçəni məndən yadiqar apar". Tahir Mirzə ənbərçəni alıp öpdü qoydu cibinə. Amma isdiyirlər indi biri-

birindən ayrılsınlar, Tahir Mirzə ayrıla-ayrıla cəllad Qasımdan möhlət alıp Zöhrəyə nə deyir, mən oxuyum tamam bu navarı alanlar sağlığına. “Şəruru” havasıynan alıb deyir:

Mən gedirəm səni Allah saxlasın,
Ağlıya-ağlıya qal innən belə.
Neçə-neçə əmanətin məndədi,
Saxlıya bilmirəm, al innən belə.

Alıb sözün dübarəsini:

Didərginəm, daha gəlməm bulara
Axdı didəm yaşı, döndü sulara.
Canım düçar olub min bəlalara,
Hərdən-hərdən yada sal innən belə.

Sözünün tapşırmasını Tahir Mirzə belə deyir:

Geniş dünya dar oldu,
Əzəl günnən işim ahu zar oldu.
Dağıldı dövlətim, taru mar oldu,
Atavı duzağa sal innən belə.

Tahir Mirzə sözünü tamama yetirdi. Amma Tahir Mirzə və Zöhrə xanım bular biri-birindən ayrılıb xudahafiz eliyib yola düşdülər. Gəl sözü indi kimdən eşit, Tahir Mirzədən və Zöhrədən. Vaxtı ki, bular biri-birindən ayrılıb, cəllad Qasımla bular üş gün yol getdilər. Ta Qaraman şəhrindən Qaraman torpağından çıxdılar. Yetişiblər Osmanlı sərhəddinə. Cəllad Qasım gördü ki, bir çoban dağda qoyun otarır. Dedi:

– Tahir Mirzə, Hatəm Soltan bu naməni yazıb vermişdi mənə. Apararsan Tahiri mənim torpağımdan çıxardıb öldürüb köynəyinin qanına buluyub gətiriib verərsən mənə. Vəli bu da Hətəm sultanın yazdığı namədi.

Tahir aldı, oxudu gördü düz deyir, belə yazıb. Amma Tahirnən Zöhrə ki burda bir-birindən ayrılırdı, onda Zöhrə xanım bir dəsti libas gətirdi verdi Tahir Mirzəyə. Cəllad Qasıma tapşırdı kı, o libaslar ki Tahir Mirzənin əynindədi oları çıxardasan bir ayrı heyvanat öldürüb qanına buluyarsan. Dedi:

Can sənin can, mənim əmimoğlu Tahir. Cəllad Qasım, amanın bir günüdü nə badə mənim əmoğlumu öldürəsən.

Çün cəllad Qasım qol verdi Zöhrəyə ki, mən Tahir Mirzəni öldürmərəm elə qolunun da üsdündə də kişi kimi mərdanə durdu. Özlərini verdilər çobana tərəf. Çoban gördü iki dənə qərib varid oldu bunun qoynunun yanına. Gəlib, salam-kalam, xub qardaş, nə işiz var? Cəllad Qasım dedi: "Dədə-babadan belə rəsmidi diyəllər acaldın çobana, yoruldun sarvana. İndi bizə bir az süddən, çörəkdən nə olsa ver". Çoban gətirib bulara süddən-çörəkdən aldılar, yedilər. Cəllad Qasım dedi:

– Qardaş, bu qoyunnardan satarsan?

Dedi:

– Hər hankısın alsaz sataram.

– Biri neçədi?

Dedi:

– Mən sizə o qoyunnan neçəsini desəz peşkəş elərəm. Sırf sizə ki, bu nəcabətdə görürəm.

Cəllad Qasımın çün Zöhrə, Tahir Mirzənin ciblərini əşrəfiynən doldurmuşdu. Qoyunun pulunu verdilər. Çobannan qoyunu aldılar, çobandan xudahafiz eliyib ayrıldılar, amma gətiriblər bir meşənin kənarında cəllad Qasım bir yeri qazdı çala elədi. Qoyunu kəsib həmin çalıya qoyunun qanı töküldü. Tahir Mirzənin libasların əynindən çıxardıb bələşdirdi həmin qana. Tahir Mirzə o libası ki Zöhrə vermişdi Tahir oları geyib əyninə. Qoyunun ətini yedilər, bu gecə burda qaldılar.

Sübh açıldı. Səhər cəllad Qasım Tahir Mirzədən xudahafiz eliyib ayrıldı. Dedi:

– Qardaş, bu daha Osmanlı torpağıdı. İndi mən getməli oldum Qaraman şəhrinə, sən özün bilərsən hara gedəcəksən.

Gəl sözü eşit Tahir Mirzədən. Tahir Mirzə elə ki, cəllad Qasımdan ayrılıb, üz qoydu dolana. Nabələd vilayət, bilmir hayana gedir. Gün batana gedir, gün çıxana gedir? Şəhrə gedir, kəndə gedir xəbər yoxdu. Bəli, Tahir xilasa nabələddi, o qədəri yol getdi ki, ta gün batıb gördü bir yanı tapa bilmədi. Amma azan vaxtı yetişdi bir hisara. Gördü gennən bir qaraltı gəlir, yetişib ora gördü bura bir dənə bağdı-bağ hasarıdı. Nə qədri dolandı bu bağın yolunu tapa bilmədi. Xülasə, Tahir Mirzə gecə yarıdan

keçənə kimin dolanıb bağın dövrəsinə əz qəza bağın bir alçax yeri varıdı, hasarı oradan aşıb varid oldu bağa. Bağda çox dolandı, heş kəsi tapa bilmədi – nə bir ev, nə də bir şəxsi tapa bilməyib gəldi çıxdı bir su havuzunun üsdünə. Dedi, yaxşı oldu, hələ mən bu gecəni bu su hovzunun qırağında qallam, səhər bu bağ hər kəsindi gələr, dibdə bu suyun qırağına məni görər, mən də dərdimi ona diyərəm. Tahir Mirzə əl üzünü yuyub, sudan bir qədri içib amma baxdı gördü ki, göldə sonalar, qazlar, ördəhlər üzür. Öz ördəh, qazları, gölləri yadına düşdü, öz bağları yadına düşdü. Dərdi tüğyan eliyib, Tahir Mirzə burda sazı köynəhdən çıxardıb, öz dərdinə münasib bir neçə kəlmə nə oxusun, Tahir Mirzə əzqəza burda oxumaxdadı. Sözü eşit kimdən? Xanverdi sövdəgərdən. Bağ ki, Xanverdi sövdəgərındı, bunun bir Nərgiz addı qızı var, yemə-işmə bu Nərgizin xəddi xalına, gül cəmalına tamaşa elə. Nərgizin çün atası sövdəgər təzə ticarətdən gəlmişdi. Sovdagar başın qoyub Nərgizin dizinin üsdünə, Nərgiz atasının üzünə, başına əlin çəkib tamaşa eliyrdi. Amma gördü qəfildən bunun qulağına bir səs gəldi. Tahir Mirzə nə oxuyur "Sarı Tel" havasıynan görax orda Nərgiz nə eşidir?

Cüda düşdüm ellərimdən,
Qan ağlar ellərim mənim.
Bülbülüm yox güllər üsdə,
Boş qalıb güllərim mənim.

Nərgiz gördü, Allah, bir belə yanıxlı səs gəlir. İlahi, görəsən bu səs hardan gəlir. Allah, bu nə deyir? Bu kim üçün bu sözdəri oxuyur. Qulaq asın, görün hələ sözün dübarəsini nə deyir:

Cavan ikən qəddim büküldü,
Ah çəhdim köksüm söküldü.
Şanası üzə töküldü,
Pərişan tellərim mənim.

Elə bu sözü Tahir Mirzə diyən Nərgizin gözündən eşqidən bir qətrə yaş düşdü sövdagərın üzünə. Sövdəgər oyanıb dedi:

– Qızım, niyə ağlıyırsan?

Dedi:

– Ata, bilmirəm çarhavuz tərəfindən kimdi, buna kim nə sitəm eliyip, nə zülm olup qulağıma bir yanıxlı səs gəlir.

Dedi:

– Qızım, mənim bağıma quş qanad sala bilməz, qatır dırnax sala bilməz, oğru da bağda səs eləməz. Belə bir söz olmaz.

Dedi:

– Ata, vallah, mənim qulağıma səs gəlirdi, saz səsi gəlirdi.

– Hansı tərəfdə?

Dedi:

– Həmən çarhavuz tərəfində.

Xan sövdəgər qızı Nərgizi götürür ki, gedim görüm belə söz olmaz. Olmaya cin-şəyatin yığıncağı olar. Amma gəliblər kənardan baxdılar gördülər, hə, bir qərəlti gəlir çarhavuzun qırağından.

Dedi:

– Qızım, səbr elə görax bu dübarə nə oxuyacaq, nə diyəcək?

Amma alıb Tahir Mirzə sözünün dübarəsini belə deyir:

Fələk, mənə səndən oldu,
(Öz dərdinə münasib belə deyir)
Saraldı gül rəngim soldu.
Sağımda, solumda öldü
Novcavan qullarım mənim.

Bu sözləri diyən Xanverdi sövdəgərin da gözü yaşardı. Gördü qızı Nərgiz elə ağlıyır ki, balası ölmüş ana kimi. Amma sövdəgər çün dünya gəzmiş idi. Gördü bu hər kəsdi böyükzadədi ki, deyir sağımda, solumda öldü novcavan qullarım mənim. Bəyəm kiçik adamın qulu olar sağ-solunda, dövrəsində? Bu bildi böyükzadədi. Alıb Tahir Mirzə sözünün dübarəsini:

Tahir Mirzə bu çağında
Sinəsi Zöhrə dağında.
Çarhavuzlar qırağında
Sonalı göllərim mənim.

Tahir Mirzə sözünü tamam elədi, Xanverdi sövdəgər və qızı Nərgiz xanım yeridilər hovuzun başına. Hovuzun başına gələn Nərgiz baxdı gördü. ilahi, bu hovuzun üsdündə bir oğlan əy-

ləşib, saz qucağında. Elə bil on səkkiz gecəlıx aydı. Qəlbində yeddi qurban dedi: “Allah, rəhm elə, bunun sövgisi olmasın. Bu oğlan subay olsun, mənim də dədəmin göylünə rəhm sal, elə məni versin bu oğlana, nə olar”. Xanverdi sövdəgər elə ki Tahir Mirzəyə yaxınlaşar, Tahir Mirzə dik qalxdı ayağa əllərini qoyub döşünə Xanverdi sövdəgərə salam verdi:

– Əmi, məni bağışla, səndən bi icazə girmişəm sizin bağa.

Xanverdi sövdəgər sual elədi:

– Oğul, sən kimsən? Gecənin bu vaxtı mənim bağımda nə qayırırsan? Gecənin yarısı bu bağda nə dadı-fəryad salıbsan? Niyə bi icazəsiz giribsən mənim bağıma?

Dedi:

– Əmi, məni əfv elə, qəribəm, nabələdəm hər yerdən ümidim kəsilib bu bağın pənahında olmuşam.

Dedi:

– Axı, de görüm nəçisən, nə karəsən?

Tahir Mirzə başının qəzavü qədərini dedi: “Mən Qaramannıyam, vətənimdən cüda düşmüşəm. Elimdən didərginəm, üsdə Allah, yerdə sənə pənaham”, – deyir. Xanverdi sövdəgər Tahir Mirzənin qolundan tutub, gətirdi öz xanəbağına. Qəlbində dedi: “Yaxşı oğlandı, əgər bu oğlan mənim sözümü qəbul eləsə, mən qızım Nərgizin əğdin də oxuyaram buna, elə mənim oğlum yoxdu bu mənə oğul olar, həm yeznə olar, mənim malı-əmlakıma sahib olar. Mən bu əğli, bu dərrakədə kimi tapaceyəm, bu ləyaqətdə ta mən onnan əl-ələ vurum”. Tahir Mirzəni gətirib xanəbağa yavaşca işarəsini verdi ki, oğlum, sən qəbul eylə mən qəbul eylədim. Sən elə mənim bu bağımda qalası oldun. Hələ, de görüm nə oldu vətənindən, yurdundan, elindən belə kənara düşübsən, didərginsən? Tahir Mirzə sazını aldı sinəsinin üsdünə, indi isdiyir dərdini Xanverdi sövdəgərə desin. Mən oxuyum eşidənlərə can sağlığı:

Hatəm Soltan öz atam öldürdü,
Viran oldu taxtı-taracım mənim.
Məni bu ölkədən sürgün eylədi,
Sizlərə düşüpdü ehtiyacım mənim.

Bu sözü eşidən çün Xanverdi sövdəgər tacir idi. Hər vilayəti dolanaradı. Hatəm Soltan adı eşidən bildiki bu Qəramannıdı. Dedi oğlum çoxda narahat olma. Əgər istəsən ki, gedəsən öz vilayətuva mən o vilayətə tücarətə gedəcəyəm gəl səni aparım. Əgər sövgün var tapşırım sovguva, ata-anan var tapşırım ata anava. Dedi: "Atam da ölüb, anam da ölüb, gedə bilmərəm". Dedi: "Bala, niyə?" Dedi, qulaq as:

Ay əmi, gedə bilmirəm bir ilqara bağlıyam,
Hər tərəfdən düyünlüyəm, dağlıyam.
Qaramannı Əhməd vəzir oğluyam,
Misridən gələrdi xəracım mənim.

Elə ki Əhməd vəzir adın eşidəndə Xanverdi sövdəgər bildi ki, bu Hatəm Soltanın vəzirinin oğludur. Əhməd vəzir Hatəm Soltanın vəziri idi. Bəs o nə cür oldu Hatəm Soltan öz qardaşını öldürdü. Ta cərəyan nə cür olmuşdu, Tahir Mirzə əvvəldən axıra şərh verdi. Dedi:

– Oğul, bəs sən dahi bildim day o ölkəyə gedə bilməzsən. Çün sənin atavı öldürüb, anavı öldürüb, özüvü də öldürəcəkmiş sürgün eliyip. Sən dahi ora gedə bilməzsən. Amma sən elə mən diyən sözü qəbul, elə sənin işivi Allah burda düzəldir. Mənim qızım Nərgiz Zöhrədən də göyçəkdi.

Amma Tahir Mirzə bu sözü eşidən alıb sözünün dübarəsini belə dedi:

Tahir Mirzə vəsmə yetirdi sözün,
Anadan olandan gülmədi üzüm.
Bu qarşımda duran o nazlı qızın
Şahlar şahı bilir, o bacım mənim.

Bu sözü diyən Nərgiz əyağından başmağı çıxartdı atdı Tahir Mirəzəyə tərəf. Dedi:

– Elə xiyal eliyirsən ki, mənim atam həylə deyir, mən sənə gəlləm. Mən heç ayağımı yuyub suyun sənin üsdüvə atmaram.

Bəs ki Nərgiz burda çox narahat oldu:" Əya, mən sənə qəlbimdə yeddi qurban demişəm, səfeh oğlu səfeh. Sən də deyirsən axı o mənim bacım olsun". Nərgiz gördü iş tutmadı. Bu əvvəldən

ayrı söz disəydi genə olardı. “Bacı” deyir axı nətər olsun. Baxdı ki, Xanverdi sövdəgər gördü Tahir Mirzə belə deyir. Dedi:

– Oğlum, eybi yoxdu indi ki, qəbul eləmədin mənim qızımı özünə bacı qərar verdin, elə sən də oldun mənim doğrudan oğlum. Nərgiznən səni bacı-qardaş hesab edərəm eybi yoxdu.

Tahir Mirzə bir müddət bağda qalası oldu. Amma sözü eşit kimdən? Zöhrədən. İndi Tahir Mirzə burda Nərgizin yanındadı. Zöhrə xanım orda vəxti ki Tahiri sürgün elədilər, yaman dərt budu. Bir dəstə o başındaki cahı-cəlalı qızları götürüb Tahir Mirzənin imarətdərinə gedir. Gəldi gördü oba köçüb. yurdu qalıf viranə. Ata ölüb, ana ölüb, qullar, siğə qardaşlardan bulardan birindən nişanə qalmıyıb. Tahir Mirzənin özünü də sürgün eliyibilər. O imarətdə ki Tahir Mirzəynən diyərdilər gülərdilər. O keçən günnər yadına düşdü. Zöhrə xanıma dərd üz verdi. Amma yasəmən zilflərindən aldı sinəsinin üsdünə, çün qızlar buna çox təskinlik verdilər. Dedi: “Qızlar, qulaq asın mənim sinəmdə bir neçə sözüm var”. İndi Zöhrə xanım dərdin qızlara necə deyir, imarətlərdən nə xəbər alır, söyləyək:

İmarətdər, sənnən xəbər alıram
Səndə gəzən xannar xanı, necə oldu?
Gönül pozğun bu viranı gəzirəm,
Səndə gəzən xannar xanı, necə oldu?

Alıb sözünün dübarəsini:

Hanı bəs baharın, hanı bəs yazın?
Hanı bəs söhbətin, hanı bəs sazın?
Necə oldu ördəyin, necə oldu qazın?
Səndə gəzən xannar xanı, necə oldu?

Alıb Zöhrə sözünün dübarəsini nə deyir:

Səhər-səhər Tahir məni bəllərdi,
Halımı soruşub, kövlüm alardı,
Özü də gəlməsə, qasid yollardı
Səndə gəzən xannar xanı, necə oldu?

Qızlar dedi: “Nə qədir burda oxuyassan, söz tamama yetişməz. Vəli məlum da dəyil Tahir hardadı. Tahir tərəfindən Allah

sənin başıvı sağ eləsin”. Zöhrə burda sözünü tamam eliyib. Tahir Mirzə orda Nərgizin yanındadı.

Xanverdi sövdəgər dedi:

– Oğlum.

Dedi:

– Bəli.

Dedi:

– Sənin əlindən nə iş gələr?

Dedi:

– Mənim əlimdən heç iş gəlməz. Fəqət mənim əlimdən çalıb oxumaq gələr. Dedi:

– Bəs teyxə çalıb oxumaxdan sənə iş olmaz. İndi sən beli götür, mən dəhnədən suyu bağlayacağam, sən hər yerdən suyu kəsərsən ağaşların dibinə.

Xanverdi sövdəgər Tahir Mirzəni götürüb başdan ərxi aşdı, amma Tahir Mirzə orda-burda bir neçə ağaca suyu arxa sındırıb, baxdı gördü əl qabar oldu, əyax qabar oldu. Tahir Mirzə iş adamı dəyil. İndi bekara aşıxlara bel versinlər elə Tahir Mirzədən pis olar. Bir adam ki işləmiyib neynəsin? Amma Tahir Mirzə ovzanı belə gördü, götürüb dərdinə münasub bir ağacın dibində əyləşib nə oxuyur, mən oxuyum tamam eşidənlərin sağlığına – “Cəlili” havasıynan:

Ay ağalar, gəlin sizə söylüyüm,
Gör necə yad olub ellər mənimlə.
Beli də veribdi mənim dəstimə,
Xub, oynar dəstimdə bellər mənimlə.

Alıb sözünün dübarəsini:

Bağı gördüm, ağrı qalxdı başımdan,
Üzüm bar bağlayıb gözüm yaşımdan.
Qohum-qardaş, el dağılıb başımdan,
Gör necə yad olub ellər mənimlə.

Xanverdi sövdagər Tahir Mirzənin əhvalatından baxəbər oldu. Dedi:

– Oğlum, mənim ovladım bir dənə qızıdı ki, Nərgiz xanım sən mənim malı-əmlakımın sahibi olarsan. Və mən də qoja kişi-yəm, günüm keşmiş və narahat olma osmanlı gözəllərindən allam sənin Zöhrəndən də çox-çox göyçəkdilər.

Amma Tahir Mirzə sövdəgərin bu sözündən çox narahat oldu, fikirrəşdi: "Mənim kövlüm harda, bunun kövlü harda. Amma çün qürbət vilayətdi", – bir söz deyə bilmədi. Naəlac bunun sözünə "bəli" dedi. Tahir Mirzə bir müddət Xanverdi sövdəgərin bağında qalası oldu. Amma Nərgiz xanım Tahir Mirzəyə çox yaxınnıx eliyir, çox əlaqə yetirdi. Tahir Mirzə bu yaxın gəldikcə, o kənara çəkildi. Sözü eşit kimdən, Xanverdi sövdəgərın tacir yoldaşlarından. Gəldilər Xanverdi sövdəgərın yanına, dedilər:

– Xanverdi sövdəgər, biz qazancı yedıx, indi bir mayaya əl qoymuşux. Daha bizim tücarət vaxtımızdı, dayanmax moğeyi dəyil, əlhamdulillah. Eşitmişıx sənin Tahir Mirzə kimi bir də bir oğlun var. Həmi aşıx, həmi sənin oğlun. İndi ağa, bizim ticaratımızın moqeyidi.

Xanverdi sövdəgər bulara "bəli" deyir. Hər kəsən öz tədarükünün üsdündə yühlər bağlanıb indi bular hanki diyara gedəcəklər Allah bilir. Xanverdi sövdəgər kənizləri, nökərləri, Tahir Mirzəni və qızı Nərgizi yığdı başına. Axşamnan vəsiyyətin elədi. Xanverdi sövdəgərın 40 dənə bağı var. Bunun otuz doqquzu fəqət mivə bağıdı. Amma bu bağların içində bir bağ var, buna "Bahar bağı" diyəllər. Bu bahar bağının içində olan güldü, bülbüldü. Və Xanverdi sövdagər bu bağın içində fəvvarələr düzəldib, bülbüllər gülün üsdündə oynuyur, oxuyur, suların cırıltısından, bülbüllərin cəhcəhindən qulax tutulur. Amma səhər ki Xanverdi sövdəgər yola düşdü, haçarı verdi qızı Nərgizə. Dedi:

– Qızım, nə badə bahar bağının haçarını verəsən Tahir Mirzəyə. Tahir Mirzə gülü, bülbülü görsə qalmıyacaq gedəcək. Amma 39 bağının hammısının haçarını verdi Tahir Mirzəyə.

Rəvayət belədi ki, vəxti ki Xanverdi sövdəgər getdi, Nərgiz xanım çox əlləşdi Tahir Mirzəni yola gətirsin. Gördü olmadı. Tahir Mirzə bir ujdan bundan kənara çəkilir. Axır əlacı kəsildi, Tahir Mirzədən əl üzdü. Amma Tahir Mirzənin eşqi Nərgizin

ürəyindən çıxmır. Gündə bu qızlardan neçəsin götürüb çıxır seyrə. Hər gün qızlardan birini qoyur evdə. Əzqəza qızlardan biri qalmışdı, gəldi Tahir Mirzənin mənzilin sil-süpür eliyir. Tahir Mirzə bağları suvarır, Nərgiz də həman bahar bağının haçarını vermişdi bu qulluxçuya. Qulluxçu Tahir Mirzənin mənzilin süpürüb təmizlədi, demə haçar düşüb qalır burda. Tahir Mirzə gəldi gördü bunun mənzilindədi haçar var. Haçarı göttdü, gördü bu haçar o haçarrarlardan dəyil. Çağırdı qulluxçunu ki, bu haçar necə haçardı? Qızın yadına düşdü ki, Nərgiz mənə deyib nabadə bu haçarı verəsən Tahir Mirzəyə. Dedi:

– Bu bahar bağının haçarıdı.

Dedi:

– Necə bahar bağının haçarıdı? Mən indiyəcən o bağı görməmişəm, tanımıram. Qız gördü ağzınnan bara qoydu, dedi:

– Bu köhnə bir sandıx var, onun haçarıdı.

Tahir Mirzə gördü, qız yalan deyir. Bu ayrı bir haçardı. İndi nəmənə haçarıdı, bunu Tahir Mirzədən pünhan eliyirlər.

Dedi:

– Düzün de, demədin sən öləsən, səni öldürrəm.

Dedi:

– Öldürsən də mən diyə bilmərəm. Dəsturdu mən bu haçarı sənə vermiyəm. Dedi:

– Axı, bu necə haçard, bu köhnə bir haçardı.

Qız boynuna almıyıb Tahir Mirzə bunun bir də şaltısını çəhdi. Qız qorxusundan dedi:

– Bu bahar bağının haçarıdı. Nərgiz gəlib məni öldürəcək.

Dedi:

– Sən bağı mənə nişan ver, Nərgizdən qorxma.

Gətirdi bağı Tahir Mirzəyə nişan verdi, Tahir Mirzə haçarın salıb bağın qapısını aşdı, girdi içəriyi. Gördü, hə, behiştin bir guşəsidi bu bağ. Bülbüllərin avazasəsindən, güllərin iyisindən, suların fəvvarəsindən Tahir Mirzənin az qaldı huşu başından çıxsın. Bir qədir bağı dolanıb, amma götürdü burda öz halına münasib bir neçə kəlmə nə oxuyur, mən də oxuyum “Qaratel “havasıynan:

Qızılgül içində xaram,
Çox sızlıyır mənim yaram.
Yoxsulluxla yoxdu aram,
Sən baxırsan harə fələk.

Amma aldı Tahir Mirzə sözünün xülasəsini:

Baxmadın Tahir sözünə,
Ox dəysin düşman gözünə.
Qohum-qardaşın üzünə
Həsrət qoydun yarə fələk.

Tahir Mirzə sözünü tamam elədi. Bağı dolandı, çox doanadı gəldi, sazı qoydu başının altına. Bu halda gördü o bülbüllərdən. O güllərdən bir dənə alıb baxdı. Tahir Mirzə baxıb gördü hərə bir bülbül var, hərəsinin özünün bir gülü var. Bu bülbül o bülbülün gülünə getmir. Həs öz gülünün üsdündə oynuyur. Bülbülün biri bir dənə güldən qovzadı yuxarı. Yuxarıdan ki, buraxır gülü aşağı gələndə sürüyür gülünü tutur. Əz qəza bu tərəfdən bir yel əsdi. Yel bülbülün ağzından gülü alıb gətdi saldı bir tikan kolunun üsdünə. Axı güllər çox tikanlı olur. Tahir Mirzə tamaşa eliyir, gördü bülbül şığıdı o tikana düşən gülü götdü. Amma gülü götürəndə tikanın biri pərçim oldu bülbülün ürəyinin başından, bülbül vaxtı ki bu tikana pərçim oldu, o qədir əlləşdi özünü o fəlakətdən çıxartdı. Gəldi həmin gülü ki bülbülün ağzından qoparıb düşmüşdü həman tikanın üsdünə dimdiyiynən o gülü çəhdi bu yana başını qoydu həman gülün üsdündə can verdi. Əhvalatı belə görəndə Tahir Mirzə çox narahat oldu. Təzədən təbi tüğyan elədi. Amma götürüb burda genə bülbülün əhvalatına nə deyir, Zöhrəsi yadına düşür mən oxuyum tamam mərdi mərdanə oğlanlar sağlığına:

Baharın gülşən çağında,
Nə gəzirsən bağı bülbül!
Oxudun əğlim apardın,
Mənnən oldun yarı bülbül!

Mənim dərdimin birini min elədin. Dübarə:

Bülbül, sənin işin qandı,
Aşiqlər oduna yandı,

Nədən hər yerin əlvandı
Köksün altı sarı bülbül?!

Aldı Tahir Mirzə sözünün dübarəsini ağlıya-ağlıya belə dedi:

Bülbül, geyib sən al yaşıl
Qolların boynumdan aşır.
Ağlamax mənə yaraşır
Qoy ağlıyım barı bülbül!

Bülbül, səni kimi sürütdü,
Kim damdan dala köçürtdü?
Kim sənə badə içirtdi,
Kimlər oldu saqi bülbül?!

Aldı sözünün dübarəsini:

Gecə yarıdan keçəndə,
Bülbüllər güldən düşəndə,
Zöhrə yar badə içəndə
Mən olaydım saqi bülbül!

Aldı sözünün dübarəsini Tahir Mirzə “Sarı tel” havasıynan belə dedi:

Bülbül, sən damda çəkərsən
Göz yaşın üzə tökərsən.
On bir ay cəfa çəkərsən
Bu bir ayın zarı bülbül!

Bülbül, sən məni andırdın
Gülşən bağın dolandırdın.
Axı oduva yandırdın,
Yazıx xan Tahirə bülbül!

Bülbül, döşün altı sarı
Səsin gəlir zarı-zarı.
Həm gül, ənbər Tahir yarı
Dur dolanax dağı düzü.

Tahir Mirzə sözünü tamam elədi. Ağlıya-ağlıya gəldi bülbülün yanına. Götdü bülbülü qoydu dizinin üsdünə. Gördü do-

ğurdan da bülbülün gözlərinin qapaxları nəm salıb. Tahirin genə dərdi tüğyan elədi. Zöhrəsi yadına düşüb, qürbət vilayət, bülbülün bu vəfasın gördü. Götürüb bir neçə kəlmə indi nə oxuyacaq baxaq”Gəraylı” havasıynan:

Viran bağda gəzən bülbül,
Sən ağlama, mən ağlaram.
Bağrım başın əzən bülbül,
Sən ağlama, mən ağlaram.

Götürüb sözünün dübarəsini:

Bülbül, geyinmisən qara
Ciyər oldu hezar para.
Sən gülə həsrət, mən yara
Sən ağlama, mən ağlaram.

Amma aldı sözünün dübarəsini:

Bülbül, geyinmisən ağı
Sinəmə çəkibsən dağı.
Tahirin çeşmi çirağı,
Sən ağlama, mən ağlaram.

Tahir Mirzə sözünü tamam eylədi. Bağda məşqul ağlamax oldu. Amma gördü Zöhrənin dərdi Tahir Mirzənin heç gününən ürəyindən çıxmır. Tahir Mirzə xiyalınan öz vətəninə getmək istədi. Bu zaman Nərgiz xanım seyridən qayıtdı. Gördü Tahir Mirzə çox dadı-fəryad eliyir. Dedi:

– Tahir Mirzə, nə dadı-fəryad edirsən? Bu bağlar sənin səsindən zarə gəlib. Sən bülbülləri lal elədin tamam.

Dedi:

– Nərgiz xanım, əgər icazə versən mən vətən sarı getməli oldum.

Dedi:

– Yüz dənə burda Tahir Mirzə ölə, diyəsən qoya addım-addımdan götürəsən qoymaram. Atam gələ, mən səni atama təhvil verəm.

Dedi:

– Ay zalımın qızı, bəlkə sənin atan öldü, səfərdn qayıtmadı.

Dedi:

– Hər nə ola sonra, xülasə səni qoymaram addımını addımımdan götürəsən. Əvvələn, mən sənin yanında əmanətəm. Atam gələr görər sən gedibsən, hər yerdə olsan gəlib səni tapar öldürər. Gözlə atam gəlsin, ta onnan sonra gedərsən və mən icazə verməməm sən bu diyarıdan kənara çıxasan.

Tahir Mirzə gördü, xeyir, Nərgiz Tahir Mirzəni yola salmıyacaq. Amma Tahir Mirzə öz mənzilində sazını aldı sinəsinə, götürüb burda bir neçə kəlmə nə oxuyur "Koroğlu qaytarması"ynan :

Fələk, səndə nə adətdi
Ayırmax yarı-yarından.
Göz ilə görməmişəm kəman
Könül yox olur varından.

Bu səndə nə qaydə, nə adətdi? Aldı sözünün dübarəsini:

Rəqib, evin bərbad olsun!
Saralsın, gül rəngi solsun!
Ayrılan necə şad olsun,
Belə sərxoş nigarından!

Sözün dübarəsini köhnə "Gəraylı"ynan belə deyir:

Eylərəm yüz min xiyalı,
Pərişandı könlüm halı,
Gecə-gündüz yar camalı,
Getmir gözüm kənarından!

Amma Tahir Mirzə sözünün dübarəsini belə deyir:

Mən Tahirəm, bəxt itirdim!
Dərdimi həddən ötürdüm.
Cəfa çəkdim, bağ bitirdim,
Dərmədim bircə barından!

Tahir Mirzə sözünü tamam elədi. Amma Nərgiz xanım gördü Tahir Mirzə genə otaxda dadı-fəğan salıb. Gəldi Tahir Mirzənin yanına dedi:

– Tahir Mirzə, nə arı-barı eliyirsən? Qoymaram bi qədəm otaxlardan kənara çıxasan. Nə Zöhrəbazlıxdı?

Amma Tahir Mirzə baxdı Nərgizin üzünə gördü, xeyir, Nərgiz icazə verməyəcək bu getsin. Tahir Mirzə nə qədir iltimas elədi getmağına, Nərgiz icazə vermədi.

Genə bir gün Tahir Mirzənin keçən günlər yadına düşüb, Nərgiz xanım bir moqey başa düşdü, gördü Tahir Mirzə imarətdə dadı-fəryad salıbdı, bülbül kimi naləsindən yatmax olmur. Gəldi Tahir Mirzənin yanına, dedi:

– Tahir Mirzə, genə nə dünyanı qəmə qərq eliyibsən? Nə oldu sənə?

Dedi:

– Nərgiz xanım, ərz eləmişəm vətən yadıma düşüb, Zöhrəm yadıma düşüb. Yanı mən Allahın o xəlq elədığı o bir bülbülücən yoxam ki mən gedəm Zöhrənin yanında mənim başımı kəsələr Zöhrənin dizi üsdə. Mən bu dəqiqə getməliyəm. Mənim başımı Zöhrənin torpağında kəssinlər.

Nərgiz xanım gördü, xeyir, Tahir Mirzənin əslən Zöhrə qəlbindən çıxmır. Dedi:

– Tahir, nə Zöhrəbazlıxdı? Atam gəlmiyənə qədər, yüz dənə Zöhrə ola, yüz dənə Tahir burda ölə qoymaram qədəm qədəmimdən götürəsən. Məgər ki mənim atam Xanverdi sövdagər ticarətdən qayıda icazə verə, gedəsən. Nə Zöhrə bazlıxdı.

Tahir Mirzə gördü, xeyir, beləliynən Nərgiz xanım buna icazə verməyəcək getsin, odu Tahir Mirzə üzün tutdu qızlara ki, siz də mənə köməxlıx eliyin. Bəlkəm Nərgiz xanım insafa gələ, məni Zöhrəmə tərəf yola sala. Qızlar üz tutdular Nərgizə dedilər

– Xanəm, görürsən bu burda qalası dəyil. Qoy çıxsın getsin.

Dedi:

– Mənə bir iki tərif elə görüm, mən səni yola sallam gedərsən.

Zöhrə munu amma ürəkdən demir ha, yalan deyirdi. İsdiyirdi ki, Tahir Mirzədən özünün tərifin elətdirsin. Götürüb indi burda Nərgizi Tahir Mirzə necə tərifləyəcək, biz oxuyacağıq tamam qulaq asanlarımızın sağlığına:

Budu, gəldi bahar fəsli,
Açılıpdı lala, nərgiz!

Ağız süddü, dodax qaymax
Dilin batıb bala, Nərgiz!

Qızlar Tahir Mirzəyə "afərin" söyləyib, Nərgiz xanəma dedilər:

– Nərgiz xanım, bu tərifin qabağında sən Tahir Mirzəni yolundan saxlamaginən.

Nərgiz xanım dedi:

– Hələ sözünün dübarəsini desin, bu hələ bir tərif olmadı.

Aldı Tahir Mirzə:

Gedərsən Çinə, Maçinə,
Müşk, ənbər səpdin saçına.
Bənziyirsən ağ laçına
Hey cumursan gölə, Nərgiz!

Nərgiz güldü, başını buladı. Tahir Mirzə dedi:

Kəsibsən aşığın yolun,
Qırıbsan qanadın, qolun.
Tuti kimi oxur dilin,
Dönübsən bülbülə, Nərgiz!

Qız əslən Tahir Mirzəni hesaba qoymadı bu nə deyir. Dəstur verdi, qızlar, bu tərifdi mənə deyir? Buna bir kötək vurun. Qızlar neynəsinlər, Nərgizin dəsturu idi. Tahir Mirzəyə bir əl gəzdirdilər. Tahir Mirzə dedi: "Xanım, day getmərəm. Qulaq as, səni lap yaxşı tərifləyəcəyəm". Dedi:

Sənə qurban, ay Nərgiz xanım,
Ağa cahda çıxdı canım.
İntizardı Zöhrə yarım,
Rəhmin gəlsin qula, Nərgiz!

Nərgiz dedi: "Sən öləsən". Qızlar dedi:

– Xanım, bəlkə bu həqq aşığıdı. Buna zalım olma, bunun naləsi bizi tutar və səni də zəlil eylər.

Dedi:

– İndi ki, həqq aşığıdı, gedirəm içəri, bir əlamət verəcəyəm əgər bildi ki, nəmənədi yəqinimdə həqq aşığıdı, mən yol verrəm bu gedər Qaraman şəhrinə. Nərgiz xanım gedib qızın kəmərini bağladı belinə. Üsdündən ipək şədləri doladı. Nərgizin ağ üzündə

neçə dənə qara xallar var idi. Amma bu dəfən Tahir Mirzə gördü Nərgiz otaxdan çıxanda elə bil ki gün çıxdı. İndi burda bir neçə kəlməynən nə diyəcək “Baş sarıteli”nən mən də ərz eliyim:

Ağa geyinib ağayibsən,
Gürcüstanı talayıbsan.
İpək şəddə dolayıbsan
Zər üstündən belə, Nərgiz!

Qızlar güldülər. Dedilər:

– Xanım, imtahan idi də. Düz deyir zər üsdündən ipək şəddəni dolayıbsan. Dedi:

– İcazə verəcəyem ee, məni yaxşı tərifləmir axı.

Tahir Mirzə baxdı gördü qızlarnan Nərgiz xanım əl-ələ tutub indi. Bir neçə kəlmə belə dedi:

Əlini vermisən ələ,
Canım qurban fitnə-felə.
Şəddən kimin incə belə
Tut qolumdan dola, Nərgiz!

Məni də öz şəddən kimi belivə dola. Amandı icazə ver mən də gedim. Nərgiz xanım genə dedi ki, Tahir Mirzə, məni yaxşı tərifləsən, yola salaceyəm. Götürüb sözününü dübarəsini belə deyir:

Ay Nərgiz, qapındakı sayil ollam,
Hər nə desən, qayıl ollam.
Ağ gününə mayıl ollam,
O dənə-dənə xala, Nərgiz!

Gördü Nərgizin ağ üzündə qərə xallar var. Elə bilginən havanın üzündə ulduz çıxıb parlıyır. Bəli, bir neçə kəlmə də belə deyir. Qızlar dedi:

– Xanım bu getməsə də bunun ah-naləsi bizim burda hamımızı qərəbəxt eylər. Gəl bunu yola sal, cəhənnəm olsun gözümüzdən itsin çıxsın getsin. Bu ki ey dadı-fəryad hey “Zöhrə, Zöhrə” deyir. Gəl bunu bu bağdan çıxart getsin.

Nərgiz gördü doğrudan da Tahir Mirzə burda qalası dəyil. Gətirib bir qədir əşrəfi töhdü Tahir Mirzənin cibinə dedi:

– Tahir Mirzə, doğurdan da mən səni imtahan eliyirdim. Vaqiyan Zöhrəyə çox əlaqəm var. Həqiqi aşıxsan, həqiqət aşığı-

san amma hər məclislərdə oxusan, oxutsalar məni də yadından çıxartmaginan. Amma bir də yollara baxa-baxa getməgə vacib ol. Mənim atamın bu günlər gələn günüdü. Əgər yollarda rastına gəlsə, ya səni öldürəcək, ya qaytarib gətirəcək.

Tahir Mirzə Nərgiz xanımdan halal hümmət aldı yola düşdü. Bir qədri yol gəlmişdi, ağa, bu getmaxdadı, bu tərəfdən Xanverdi sövdəgər yetişdi. Xanverdi sövdagər yetişib Nərgizdən sual elədi:

– Tahir Mirzə hanı?

Dedi:

– Tahir Mirzə dünən bizdən ayrıldı.

– Hansı yolanan getdi?

Qızlar nişan verdi. Tahir Mirzə səməndini minib süvar olub. Tahir Mirzə bir az yol getmişdi ki, gördü dalıdan toz qalxdı. Döndü baxdı, gördü bir atdı gəlir. Dayandı, gördü həman Xanverdi sövdəgərdı gəldi yetirdi. Yetişdi belindən şəmşiri çəhd,dedi:

– Hara qaçırsan? Nə xəta eliyibsən bu gün qaçırsan?

Tahir Mirzənin dizləri titrədi. Allah heç igidi köməhsiz eləməsin. Əlalxüsus qürbət vilayətdə. Tahir Mirzə Əhməd vəzir oğludu. İndi burda Xanverdi sövdəgər Tahir Mirəzəyə şəmşir çəkmaxda, Tahir Mirzə ağlıya-ağlıya sazı köynəkdən çıxartdı ki, sövdəgər əmi, qulaq as, mən sənə bir neçə kəlmə söz deyim. Öldürsən də burda məni öldür, amma məni dala qaytarma. Götürüb görax burda bir neçə kəlmə nə diyəcək "Yanıx Kərəmi"ynən. Deyir:

Kövül qalxdı, vətən sarı yeridi,
Bir sözüm var sənə, Xanverdi, deyim.
Düz-çörəyin halal eylə, gedirəm,
Duxtər öz əliynən nan verdi deyim.

Elə qəlbin bulanmasın, öz qızın məni yola saldı. Ağa, götürüb sözünün dübarəsini "Quba Kərəmi"ynən belə dedi:

Mən qanmışam o maralın sözündən,
Almamışam busəsini üzündən.
Ya el töhmətindən, ya öz-özündən
Zöhrə xanım məndən yan verdi, deyim.

Tahir Mirzə, sözün saza düzüldü,
Xumarlandı, ala gözlər süzüldü.
Zağı vurdu, gül yarpağı üzüldü,
Bülbül gül üsdündə can verdi, deyim.

Söz tamam oldu. Xanverdi sövdagər dedi, gəl bunu sən anlat, ona qandır. Dedi:

– Oğlum, Zöhrə xanım öldü, sən bica yerə Qaramana getməginan. Özünü bihud yerə zəhmətə salma. Mən əlan bu səfərdə Qaraman şəhrinə getmişdim. Çün sən Zöhrəni demişdin. Mən isdiyirdim onnan baxəbər olam. Və bir də Zöhrəni görəm Zöhrə necə Zöhrədi. Mən Qaramana yetirmaxda Zöhra ölmaxda. Zöhrə öldü, gəl bixud yerə getmə.

Dedi:

– Əmi, nə olar gedərəm onun qəbrinin üstündə bir neçə kəlmə oxuram,ürəyim boşalar qayıdaram gələr.

Xanverdi sövdagər gördü, xeyir, bu beləlıxnan da qayıtmayacax. Xanverdi sövdagər o belindəki xənçərin çıxardıb, saz əvəzi aldı sinəsi üsdünə ki, bu inanmıyacaq gəl bunu inandır. Götürüb burda “Koroğlu dubeytisi”ynən belə deyir:

Canım oğul, gözüm oğul,
Oğul, Zöhrən öldü gördüm.
Sənə qurban özüm oğul,
Oğul, yarın öldü gördüm.

Tahir Mirzə ağlıya-ağlıya, ayə, bu xəbərdi sən mənə deyirsən? Sazını köynəkdən çıxartdı aldı sinəsinin üsdünə:

Canım ata, gözüm ata,
Ata, gedərəm qalmaram.
Sənə qurban özüm ata,
Ata, gedərəm qalmaram.

Amma Xanverdi sövdəgər genə dedi:”Oğul, dur gedək evimizə”. Gördü Tahir Mirzə üzün qoydu, düşür torpax üsdə. Yapışdı qolundan dedi:

Oğul, dur gedək evimizə
Gedərsən, çəkərsən cəza.
Elinən durdum namaza

(Dedi, bunu belə xatırlasam bəlkə getməsin.)
Oğul, yarın öldü gördüm.
Amma aldı Tahir Mirzə ağlıya-ağlıya:
Oğul ki var qəzadadır,
Qədəm yolu əzadadır.
Xəlvət canım cəzadadır,
Ata, gedərəm qalmaram.
Aldı Xanverdi sövdəgər dübarəsini belə deyir:
Oğul, ağladım doydum,
Əynindən libasın soydum.
(Mən özüm soyundurdum Zöhrəni)
Əliminən məzara qoydum,
Oğul, yarın öldü gördüm.

Amma elə ki bu sözü bunnan belə eşidər, dedi:” Xanverdi sövdagər, bu bir xəbər dəyil sən mənə dedin”. Onu da qızılə bayatıynan belə dedi:

Mən Tahirəm, bağlar sənin,
Sinən üsdə dağlar sənin.
Günün olsun ağlar sənin,
Ata, gedərəm qalmaram.

Tahir Mirzə sazını atıb belinə Xanverdi sövdəgərla halalıhümmət elədi, ağa. bular yola düşdü. Tahir Mirzə gəlir Qaraman tərəf, amma Xanverdi sövdəgər qayıtdı Osmanlı vilayətinə, öz torpağına. Tahir Mirzə bir mənzil yol gəldi, amma yorulmuşdu çıxdı bir dağın üsdünə. Gördü kənardan bir çoban görsənir. Yavaş-yavaş gəldi o çobanın yanına. Amma baxdı gördü bu çoban iki nəfərdi. Başdan əyağa hammısı qəra geyinib. Çobanın tamam qoyunları da qaradı. Əlində ağacı da qaradı. Amma Tahir Mirzə bu işə təəccüb qaldı. Çoban gördü bir nəfər aşıx saz çiynində gəldi, bunlardan kənara dayandı. Çobanın öz adına Şahqulu deyərdilər. Vəli yoldaşının adına Qafər deyirdilər. Dedi:

– Qafər, sən burda dayan mən gedim görüm bu aşıx bizi gördü kənarda əyləşdi.

Gəldi, salam-kəlamdan sohra dedi:

– Aşıx qardaş, hardan gəlib, hara gedirsən?

Dedi:

– Çoban qardaş, diyəcəm hardan gəlmişəm hara gedirəm. Amma sənin bir işivə mən təəəccüb qalmışam.

Dedi:

– Aşıx qardaş, mənim nə işimə təəccüb qalıbsan?

Dedi:

– Axı mən məhəttələm ki mən çox çobanlar, çox qoyunlar görmüşəm belə səninki təəccübdü. Qoyunun da qaradı, libasın da qaradı. Hətta əlində ağacın da qaradı. Sən bu qaranı niyə geyinmisən?

Bu sözü deyəndə Şahqulunun dərdi tüğyan elədi. Tahir Mirzədən qabax amma götürüb burda bir neçə kəlməni nə deyir, “Bayramı” havasıynan ərz eliyim:

Dolanım başıva, ay cavan oğlan,
Ağam üçün mən qaranı geymişəm.
Dolanım başıva, mən qadan alım,
Ağam üçün mən qaranı geymişəm.

Bu sözü deyəndə Tahir Mirzənin gözləri yaşınan doldu. Dedi, gəl gör bu mənim öz çobanım ola. Yəqin Zöhrənin başında qəzavü qədər var. Çoban dedi:

Düşmən bizə düşmənnığın bildirdi,
Ağladı bəndindən yaşın sildirdi.
Hatəm Soltan Əhməd vəziri öldürdü,
Ona görə mən qaralı geymişəm.

Əhməd vəzir adı gələndə Tahir Mirzənin az qaldı ruhu bədənindən çıxsın. Amma götürüb sözünün dübarəsini belə deyir:

Səhər-səhər çıxan dan ulduzudu,
Aşıxların söhbətidi, sözüdü.
Adı bəlli-Hatəm Soltan qızıdı,
Zöhrə qara geyib, mən də geymişəm.

Amma bu sözü deyəndə Tahir Mirzənin gözləri yaşınan ələndi, amma aldı sözünün dübarəsini” Ceyranı”ynan belə dedi:

Qadir Allah səni burda yetirdi,
Görcəyin Şahqulu dərdin artırdı.

Sən nişanda bir ağanı itirdim,
Onun üçün bu qaranı geymişəm.

Söz belə olan çoban sözün tamam elədi. Tahir Mirzə bir fikri elədi. Gördü bu elə haman öz atasının çobanıdı. Tahir Mirzənin az qaldı ruhu yerindən çıxsın. Amma götürdü burda bir neçə kəlmə, indi nə diyəcək mən ərz eliyim"Şahsəvən havası"ynan:

Başına döndüyüm çoban,
Çoban, yardan bir xəbər ver.
Günüm günnən olur yaman,
Çoban, yardan bir xəbər ver.

Tahir Mirzə bu sözü diyəndə çoban bir diqqət ilə baxdı ki, gördü öz həman ağası Tahir Mirzədi. Qolların saldı Tahir Mirzənin boynuna. O üzün, bu üzün Tahir Mirzənin ilan kimin yaladı. Dedi: Tahir Mirzə, qulaq as yardan sənə belə xəbər verim:

Başıva dolanım Tahir,
Sən bu diyara xoş gəldin,
Didəmdən tökər yaş, olur qan
Sən bu diyarə xoş gəldin.

Aldı Tahir Mirzə:

Birisinin adı Qafar,
Ayaxların qabar-qabar,
Zöhrə yardan doğru xəbər,
Çoban, yardan bir xəbər ver.

Aldı görax çoban Tahir Mirzənin cavabında nə deyir "Mina gəraylısı"ynan:

Qubar canını alıpdı,
Gözü yollarda qalıpdı.
Zöhrəm də qəmə dolupdu,
Sən bu diyara xoş gəldin.

Amma Tahir Mirzə lap yəqin eylədi bu öz çobanıdı. Aldı sözünün dübarəsini gözlərindən yaş ələnə-ələnə belə dedi:

Tahir deyir dağ dumanı,
Göylümün çoxdur gumanı.
Ay atamın əziz çobanı,
Çoban, yardan bir xəbər ver.

Çoban sözünün xatəməsini Tahir Mirzəyə belə deyr “Gəraylı” havasında:

Qafar keçirtdi günlərin,
Saxlayıbdır atan varın.
Sənə deyim yar xəbərin,
Düşmüşdü darə, xoş gəldin.

Tahir Mirzə gördü bunun bir yanında yoldaşı var. Amma bunun nəzərinə biganə gəlir. Tahir Mirzə öz dediyinə-sözündən peşiman oldu. Amma dübarə götürdü bir neçə kəlmə dedi:

Başına döndügüm çoban,
Çoban, səni əbəs gördüm.
Qurbanı olduğum çoban,
Çoban, səni əbəs gördüm.
Nan ilə nəngin olsun,
Qapın dövlətinən dolsun.
Bu sirri ürəyində qalsın,
Çoban, səni əbəs gördüm.

Amma aldı Tahir Mirzə sözünün dübarəsini :

Tahir deyir, şah bilməsin
(Əgər Hatəm Soltan bilsə genə ədavəti başdıyacaq )
Cəllad qapıma gəlməsin.
Yarı qorxuya salmasın,
Çoban, səni əbəs gördüm.

Əlbəttə, öz çobanına üzün tutmuşdu. Amma o tanımadığını deyirdin mənzurunda. Şahqulu dedi: “Heş bir zərrə sənin narahatçılığın olmasın. Bu da mənim elə öz yoldaşımdı. Necə ki məni bilirsən, elə onu da həylə bil. Elə bu da bizlərdəndi”. Söz tamam oldu. Çobanın adı Şahqulu idi. Amma Şahqulu dedi yoldaşına qoyunu yığsın. Ağa, hara aparısan? Dedi, aparaceyəm ərxəcən. Qoyunu yığdılar gətdilər asdaca. Gəl sözü eşit kimdən? Çobandan. Çoban Tahir Mirzəni qoydu yoldaşı Qafarın yanında, gəldi anasının yanına, dedi:

– Ana, mənim bir əziz qonağım var. Bir yaxşı tədarük görəcəksən-şam tədarükü.

Əlbəttə, çobanın anası çox qocalmışdı. Amma çox bilmişlərdən idi.

– Ayə bala, nə cür qonaxlıx çəkim?

Dedi:

– Elə göylündən nə keçdi, hər nə zehnivə gəlsə, onnan allaceysən.

Qarı tamam şamın tədarükün hazır eylədi. Çoban gəldi ərxaca dedi yoldaşı Qafara:

– Qafar, mənim bu gecə qonağım var, bu aşığı aparaceyəm evimizə. Mən görürəm bu qəribdi. Bu gedər şəhridə qalar, çöllərdə heyifdi cavandı.

Qafar Şahqulunun sözündən çıxımıyıb qoyunun yanında qaldı. Tahir Mirzə öz libasının köhnələrindən bir dəst verdi burda Tahir Mirzə geyindi, sazı qoydular libasın altına. Şam vaxtı gətirdi evlərinə. Anası şamı hazır eliyib, sürfə salındı. Əyləşdilər sürfənin başında, amma sürfə salınanda çoban üzün tutdu nənəsinə:

– Nənə!

Dedi:

– Can nənə.

Dedi:

– Nənə, mənim bu qonağımı tanıyırsan?

Qarı baxdı tanımadı. Dedi:

– Oğlum, tanımıram.

Dedi:

– Əğilli bax gör heş zehnində bu kəsə oxşuyur, ya oxşamır.

Bir də diqqətinən baxdı, dedi, bala, ürəyimdə bir söz var, amma deyə bilmirəm. Dedi:

– Nənə, nəmənədi, niyə demirsən?

Dedi:

– Bu qonağımızın gözləri rəhmətdik Tahir Mirzənin gözdərinə oxşuyur. Əhməd vəzirə də bunun bir fikri oxşuyur.

Belə deyəndə Tahir Mirzənin gözlərindən yaş ələndi. Çoban dedi:

– Nənə. niyə rəhmətdik deyirsən? Bu elə Tahir Mirzə özüdü. Niyə tanımırsan?

Arvad bir də baxanda gördü həqiqət Tahir Mirzədi. Amma çoban dəyişdirib bunu öz libaslarına ayrı şiklə düşüb bu. Arvad vurdu qolların saldı sürfənin üsdündən Tahir Mirzənin boynuna. Ahu balasın yalıyan kimi Tahir Mirzəni elə yaladı. Dedi:

– Tahir Mirzəni gətiribsən, yaxşı eliyibsən, amma gətiribsən qəssab əlinə.

– Niyə nənə?

Dedi:

– Hatəm Soltan gündə car çəhdirir Tahir Mirzəni öldürüblər, Tahir Mirzənin ölüsün də hər kəs tapsa Hatəm Soltana xəbər aparsa, ona nə qədir əşrəfi verəcək. Tahir Mirzəni Qərəmən şəhrinə niyə gətirdin?

Dedi:

– Nənə, mən sabah gedəcəyəm qoyuna. Mən bilmirəm o tərəf söz, bu tərəf söz mənim başıma işdəməz. Sabah Tahir Mirzəni yetirəcəksən Zöhrə xanıma.

Qarı dedi:

– Oğlum, mən Tahiri necə aparım Zöhrəyə nişan verrəm? Zöhrənin neçə dənə qaravulları var.

Dedi:

– Nənə, bilmirəm nə cür yetirəcəksən bunnan bu yanası Tahirin Zöhrəyə yetişməsi sənin boynuva.

Qarı çox fikir elədi dedi, baba Ələsgər bir söz deyirdi ki, bir baş ki dost yolunda getmiya, onu kal qarpıza dəyişmək olar. Da bunnan artıx nə yaşaıyaceyəm. Dedi:

– Oğlum, sabah gedəcəksən pul verəcəksən iki dəst libas alaceyəm. Birin özüm geyinəcəyəm, bir dəst qız libası sənə alaceyəm.

Tahir Mirzə cibindən əşrəfidən çıxartdı verdi çobanın anasına, qarı özünü verdi bazara. Bir dəst qoca libası ald,ı bir dəst də qız libası. Gətirdi qız libasını giydirdi Tahir Mirzəyə. O qoca libasında özü geyindi. Yapışdı Tahir Mirzənin biləyindən gətdi Zöhrənin sağtumanının qabağına. Qulluxçular və qaravullar gördülər bir qarı bir qız gətirir, dedilər:

– Ay qarı, bu qızı hara aparırsan?

Dedi:

– Bu qızı qara baxt olsun, 40 gün bundan qabax ərə vermişdim, əri ölüb indi duldu. Mən də saxlıya bilmirəm, aparıram verəm Zöhrənin yanında xidmət eləsin.

Yol verdilər, qarı keçdi. Amma gəldi yetişdi Zöhrənin həyətə. Həyətə yetişəndə bunun bir dənə, Zöhrə xanımın bir dənə qoca aşbazı var idi. Gördü məcmeyi başında pillələrdən enir. Amma mırtıldanır. Ağzına hər nə gəlir Zöhrəyə deyir: "Gündə bizdən 4 rəqəm qəza bişirtdirir, qab yudurtdurur". Bu sözlərdən diyə-diyə papap eliyə. Amma yetişdi həyətə, gördü bir qarı bir qızın biləyindən yapışıb dayanıb:

– Hə qarı, sənin nə sözün var?

Dedi:

– Ay bala, mənim bu qızım yaxçı işləkdi. Ev işinə çox bələddi, variddi. Amma saxlıya bilmirəm, mənim də ərim ölüb, bunun da əri. İndi bi cür eliyəsən, bunu əlivin altında işlədəsən. Hər iş əlindən gələndi.

Aşbaz Allahdan isdiyirdi belə bir sözü. Dedi:

– Qarı, gəlsin bir neçə gün mənim yanımda qalsın. Bilmədıxların da mən örgədərəm. Qabdan qaşıxdan bu da yusun.

Arvadın gülləri çıtdadı ki, yaxşı oldu mənə bir köməkçi gəldi. Amma yavaşca Tahir Mirzə dedi:" İndi mənim əlimi ver bunun əlinə, day sən burdan qayıt. Bunnan buyanası mənim öz boynuma". Qarı Tahir Mirzəynən bir-birinin əlindən tutub, bir-birinin əlini sıxdı qarı qayıtdı öz mənzilinə. Amma həmən o aşbaz Tahir Mirzəni götürdü gətirdi aşbazxanaya. Məcmeyeni, qab-qaşığı nişan verdi. Bunu yu ora qoy, bunu yu ora. Bütün bu sözlərdən sonra, dedi:

– Ay xanım, mən buların hammısını bilirəm. Sən get istirahət eliyəcəksən elə. Buların hammısını mən yuyaram da təmizlərəm də. Zöhrə də nə qəza istəsə, mən onu hazır elərəm.

Elə ki bu arvat bu sözləri eşitdi, allahdan getdi qoca arvad yıxıldı öz mənzilində yatdı. Gəl sənə kimdən xəbər verim? Tahir Mirzədən. Tahir Mirzə indi qablara əl vurdu vurmadı Tahir Mir-

zə qab yuyan dəyildi ki... Amma əxtərdi Zöhrə xanımın otağın tapdı. Gördü Zöhrə xanım gedib gərdişə, hənüz gəlmiyib. Gəldi girdi Zöhrə xanımın sandıxxanasında gizləndi. Zöhrənin bir Məlaksima addı qulluxçusu var. Yani qızların hammısının başçılığı odur. Zöhrənin nəmənə pünhanı, dərdi olsaydı buna diyərdi. Gəldi, Zöhrə gərdişdən gəlib əyləşdi təxtinin üsdündə Mələksima da bunun yanında. Amma Mələksima gördü bu gün Zöhrə xanımın əhvalı çox pərişandı. Dedi:

– Zöhrə xanım, bu gün qəlbin tutuxdu, niyə deyib danışmırsan?

Dedi:

– Mələksima, Tahir Mirzə genə yadıma düşüb, az qalır bağrım çatlasın. Bu qızlardan beş-altısın çağır, yığ bura bir söhbət eləsin, mənim köylüm açılsın. Mələksima durdu qulluxçuların ələ gələnin çağırdı, beş-on qız yığdı bura. Hərəsi bir söz dedi. Zöhrə gördü, xeyir, buların demağınnan bunun heş ürəyi açılmadı. Qızlar çox təsəlli verdi. Zöhrə gördü bu təsəlliynən ürəyi sakit olmadı dedi: "Qızlar, mənim öz sazımı verin". Sazını verdilər. Zöhrə burda gör nə deyir:

Qızlar, gəlin sizə halım söyləyim,
O keçən günlərim yadıma düşdü.
Tahirin yanında məktəbxanada,
O dərs oxuduğum yadıma düşdü.

Səhər-səhər Tahir bizə gələrdi,
Şirin-şirin söhbət edib gülərdik.
Ürəyimi alıb eynin silərdik,
Gülüb danışdığım yadıma düşdü.

Zöhrə xanım sözünün tapşırmasını belə dedi "Yanıx Kərəmi"ynən:

Zöhrə deyir belim incə, boy bəstə,
Zülfim dar gərdəndə dəstəbədəstə.
Yerini salardım mən sinəm üstə.
Oynayıb güldüğüm yadıma düşdü.
Deyib danışmağım yadıma düşdü.

Zöhrə sözün tamam eylədi. Zöhrə özünün xas baş kənizi Mələksimanı çağırdı yanına. Dedi:

– Ay Mələksima, mən day aşpazxana aşı yeməkdən canım çıxdı. Bir az yağ. düyü gətir, mən özüm bir plov bişirim. Özüm yeyim, bəlkə bu qəm də mənim ürəyimdən çıxsın.

Mələksima həman dəqiqə yağı, düyünü gətirdi Zöhrə xanımın bərabərinə. Zöhrə xanım ağ biləkləri çirmədi. Yağı, düyünü hazır eliyib bişirdi qoydu dəmə. Amma dəsti xabın üsdündə Zöhrəni bihuş apardı. Yağ, düyü də hazır olmuşdu. Və Mələksima surfəni açdı aralığa, bular hər ikisi məşğul oldular yemağa. Bu dəqiqə Mələksima dedi:

– Zöhrə xanım, Allahın öz altında Tahir Mirzə də indi bu surfənin başında olaydı.

Bu sözü deyəndə Zöhrənin əvvəl tikəsiydi qaldı əlində. Dahı Zöhrə tikəni ağzına aparmadı. Mələksima bu sözü deməkdən peşiman oldu. Dedi, xanım, kaş mənim dilim lal oleydi. Mən sənə bu sözü demiyəydim, Tahiri yadıva saldım. Tahir özü də bu sözləri eşidir, amma Zöhrə xanım götürdü ağlıya-ağlıya çün Tahir Mirzəni də yuxuda görmüşdü yatdığı yerdə bir neçə kəlmə belə deyir, "Zübeydi" havasıynan:

Sənə qurban olum Tahir,
Görən Tahir haçan gələr?
Mən çəkirəm ahu-zarı,
Görən Tahir haçan gələr?

Aldı sözünün dübarəsini:

Qızıl güllərin dərirdim,
Pünhan yerrərdə sərirdim.
İndi yuxumda görürdüm
Görən Tahir haçan gələr?

Aldı sözünün dübarəsini "Sarıtel" havasında:

Eşqin gölünə girərəm,
Sınıx könüllər hörərəm.
Sənə muştulux verərəm,
Görən Tahir haçan gəlir?

Əgər Mələksima, gələsən mənə belə bir xəbər gətirəsən, sənə muştulux verərəm. Aldı dübarə:

Zöhrə deyir qan ağlaram,
Bulannıx sel tək çağlaram.
Qəlbimdə yara bağlaram,
Görən Tahir haçan gəlir?

Söz tamam oldu, ağlıya-ağlıya rəxti xabına yuxuya getdi. Yuxu genə Zöhrəni apardı. Amma Mələksima həman qəzanı ki, çəhmişdilər heç birisinə əlin vurmadı, yığışdırdı qoydu o tərəfə. Ağa, gəl indi sənə kimdən xəbər verim, Tahir Mirzədən və Mələksimadan. Elə ki Zöhrə getdi yuxuya, Tahir Mirzə sandıxxanadan çıxıb gəldi Mələksimanın yanına. Gördü Mələksima da yuxuya keçib. Yavaşca soyundu, ayə, bunun bu tərəfindən bu dəqiqə çımıldatdı. Mələks ima gördü, əyağına bir soyux əyax dəydi. Yerindən dih qalxdı ki, bu qızların hankisidi gəldi mənim yerimə bu yer yapdı. Amma baxdı gördü qız işi dəyil. Ayə, sən kimsən? Dedi:

– Ay qız, adam balasısan, yavaş qışqır.

– Axı sən kimsən, burda nə qəyirirsən? Elə bil kişisən.

Gördü bəli, kişidi. Bəs sən kimisən, bir diqqətinən baxan yuxuluydu tanımırdı. Baxdı gördü Tahir Mirzədi. Elə qollarını aşdı belə saldı kı, elə bil aşıx balabançının qoynuna qolun saldı. Gördü ki, ayə bu Tahir Mirzədi yügürdü Zöhrənin otağına. Tahir Mirzə gördü bu belə ki gedir Zöhrənin yıxılacaq üsdünə ki, ay Zöhrə, dur ayağa Tahir Mirzədi. Dedi: “Evi yıxılanın qızı, sən həylə desən, haa, Zöhrədə Zöhrəlıx qalmaz. Diskinər, həm də sevındixindən dodaxları parçalanar”. Dedi: “Bə neyniyax, Tahir Mirzə”. Dedi:” Qoy özüm oyadım”. Dedi:” Sən öləsən, mən oyadeceyəm, özü də Zöhrədən doyuncan müjdəgannıx alacayem”. Dedi:” Onda gərək sazınan-avaznan oyadasan. Çün Zöhrə saza avaza bazdı”. Amma indi necə oyadır, “Müxənnəs “havasıynan:

Xab içində yatan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!
Ay qəm qüssəyə batan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!

Əl yetməz sazın yendirim,
Sinəmin üsdə mindirim.
Qorxuram, necə dindirim,
Oyan, Zöhrəm, yarın gəldi!

Gördü Zöhrə belə yatıb, aşıxların ele bil şansı yatıb. Amma aldı sözünün dübarəsini:

Qaşa, gözə düşdü həmə,
Mən dərdimi deyim kimə?
Sənə qurban Mələksima,
Oyan, Zöhrə, yarın gəldi!

Zöhrə xanım oyanmadı. Tahir Mirzə dedi:

– Mələksima, sən Allah, qoy yarımı mən özüm oyadım.

Mələksimadan sazı aldı. Zöhrəni belə oyadır Tahir Mirzə – "Cəlili" havasıynan:

Kəsdireydim naz balıncın yanını,
Bir tuteydim kirpiklərin sanını,
Nə tapıbsan bu yuxunun kanını
Oyan, gözlərinə qurban olduğum.

Bağrın başı bal gətiməz xazaldan,
Göz kəsmərəm sənin kimi gözəldən,
İkimiz də həmdərd idix əzəldən,
Oyan, gözlərinə qurban olduğum.

Amma Zöhrə xanım elə beləsinə bir qırcıxda elədi, bunun qulağına bir səs gəldi. Amma götürüb Tahir Mirzə bunun yıxılısına belə deyir, onu da "Hüseyni"ynən:

Nə vaxtdandı gözün yolda qalıpdı,
Saralıbdı, gül rəngin solubdu.
Oyan, Zöhrə, xan Tahirin gəlibdi,
Oyan, gözlərinə qurban olduğum.

Gördü, xeyir, qız elə yatıb kasıbın şansı yatan kimin. Amma Tahir Mirzə gördü Zöhrə oyanmadı, götürüb sözünün dübarəsini, gördü Mələksima əl-əyağını çox dağıdır:"Ay Mirzə, qoy mən oyadım". Dedi, – "yox", – səs eləmə. Oyadarsan Zöhrənin dodaxları uçuxlar, qoy özüm oyadım, muşdulux səninkidi:

Nə vaxtdan gəldim otağa,
Yatıb, oyanmaz, oyanmaz!
Canım canına sədağa,
Yatıb, oyanmaz, oyanmaz!

Gördü Zöhrə, xeyir, bununan oyanası dəyil

Tahirəm necə neçəsin
Sevmədim türkman beçəsin,
Ağ üzündən ənbərçəsin, aşdım
Atıb, oyanmaz, oyanmaz!

Amma bu sözü diyəndə Zöhrə bir silkindi. Gördü elə bilginən qulağına söz-avaz səsi gəlir. Amma Mələksima əl atdı Tahir Mirzənin qolundan tutdu. And verdi, sən çəkil kənara, indi Zöhrə məndən xəbər alacaq. Mən sənin gəlməyin müjdəsin Zöhrəyə verim, muştulux alım birdən səni qafildən görər. Amma götürüb Mələksimadan nə xəbər alır. Gördü Tahir Mirzənin köynəyin, Zöhrə özü tihmişdi. Həman köynəkdi, həman sazdı-Tahir Mirzənin sazıdı. Orda Mələk Simadan belə xəbər aldı:

Yarım gəlipdir otağa,
Saz sahibi yar necoldu?
Canım canına sadağa
Saz sahibi yar necoldu?

Mələksima güldü, demədi burdadı. Aldı Zöhrə dübarə:

Hər nə oldu mənə oldu,
Gül rəngim saraldı, soldu.
Bağ pozuldu, bülbül öldü,
Saz sahibi yar, ay Mələksima, necoldu?

Amma yenə Mələksima bir gülümsündü, demədi Tahir Mirzənin yerini. Aldı dübarə:

Biqafıldan gəldi xəbər,
Yaralarım qabar-qabar.
Xan Tahirdən doğru xəbər,
Saz sahibi yar necoldu?

Amma Tahir Mirzə yaman dadı-fəryad saldı saxdımanda, elə day dayanmadan özün atdı Zöhrənin bərabərinə. Bular belə yıxıldılar qol altdan, boyun üsdən, boyun altdan qol üsdən. Evin

yıxılsın mərdimazar. Zöhrə xanım dedi:" sən Allah Tahir Mirzə, çox ağlamışam, qoy birində deyim". "Mirzəcanı" da deyirlər, "Xançobanı" da deyirlər bunnan qayıtdı:

Yatmışdım başıma gəldi bir səda,
Ala gözlərinə qurban olduğum.
Bir dərdə düşmüşəm yoxdu bir çarə
Ala gözlərinə qurban olduğum.

Amma aldı sözün dübarəsini:

Kimdi mənim kimi qara bağlıyan,
Sinəm üsdün çar-çarpaz dağlıyan.
Gecə-gündüz Tahir deyib ağlıyan,
Ala gözlərinə qurban olduğum.
Bayram ayı demax olmaz hər aya,
Yazıx məzlum kimə getsin haraya.
Deynən, ay qız, Tahir gəlib buraya
Ala gözlərinə qurban olduğum.

Bəs Tahir o vaxtdan gəlib bura, niyə demirsən, ay Mələksima? Sənin üzün qara olsun. Dedi:" Xanım, mənim müştuluğumu ver".

Zöhrənin bir qulluxçusu da varıdı ki, aşpazıydı, bir qoca arvadıdı. Bu cəryandan baxəbər oldu. Durma gəldim, üz qoydu Hatəm Soltanın dərbarına. Cərəyanı Hatəm Soltana bəyan elədi ki, Tahir Mirzə gəlib qızın Zöhrənin otağındadı. Amma Zöhrə bu əhvalatdan baxəbər oldu, bildiki Tahir Mirzəni bu dəfə tutsalar öldürəcəklər. Gəldi gördü Tahir Mirzə rəxti-xabın içində yatıbdı. Götürüb bir neçə kəlmə burda "Urmu" havasında belə söylədi:

O bi iman getdi xəbərə,
Nə yatıbsan Tahir Mirzə?
Çəkəcəklər səni dara,
Bixəbərsən Tahir Mirzə.

Amma Tahir Mirzə oyanmıyıb, aldı sözün dübarəsini:

Danışırıx biz qeybdən,
Xəbərin yoxdu eybidən.
Qorxuram mən səyrəğibdən,
Nə yatıbsan, Tahir Mirzə?!

Tahir Mirzə oyanmadı. Aldı genə:

Xiyal toxumun əkərsən,
Sən azaplar çəkərsən.
Ağlıyarsan, yaş tökərsən
Nə yatıbsan, Tahir Mirzə?!

Amma Tahir Mirzənin genə xəbərdən xəbəri yoxdu. Zöhrə ağlıya-ağlıya götdü onu da belə deyir:

Mən Zöhrən qələm qaşlı,
Ala gözlü, siyah saçlı.
Qoyma məni gözü yaşlı!
Nə yatıbsan, Tahir Mirzə?!

Söz tamam oldu. Tahir Mirzə gözlərin aşdı, gördü Zöhrə ağlıyır. Tahir Mirzə Zöhrənin boynun qucaxladı. Bu ala gözlərindən öpdü. Dedi:” Sən niyə ağlıyırsan?” Zöhrə xanım əhvalatı ona söylədi. Tahir Mirzə dedi:

– Qorxma, sən məndən ayrıla bilməzsən. Səni məndən ayırmazlar.

Dedi:

– Bu dəfə ayıracaxlar. Bu işə tədbir lazımdı.

Tədbir nəmənə olsun, amma Tahir Mirzə bu dəfən ölümün yəqin eylədi, dedi:

– Zöhrə, məni aparacaxlar Hatəm Soltan yanına. Onda mənə bir dənə sandıx yondurtdurginan, məni qoydur sandığın içinə, atdır dəryaya.

Tahir Mirzəni, xülasə Zöhrəni qoyax burda otaxda. Görax indi o beyiman qarı getdi ora, nə xəbər verdi. Özün ki, yetirdi Hatəm Soltan otağında hingildəyə-hingildəyə ki, qurban, Tahir Mirzə gəlib, nə cür əhvalatı bilirdi, o cür söylədi. Hatəm Soltan dəstur verdi, dəryanın ətrafın tutdular. Tahir Mirzə heş tərəfə çıxmasın. Zöhrənin imarətinin dövrəsin aldılar. Dəstur verdi cəlladdara, Tahir Mirzəni Zöhrənin yanından tutun gətirin. Ağa, cəlladdar varid oldular Zöhrənin otağına. Tahir Mirzəni Zöhrənin yanında tutdular. Qolların bağlıyıblar döyə-döyə gətiriblər Hatəm Soltanın hüzuruna. Elə ki Hatəm Soltanın gözləri sataşdı Tahir Mirzəyə az qaldı ruhu bədənindən ayrılsın. Cəhənnəm ki-

min zəbana çəkdi. Dəstur verdi, bu çəpəni gözümün qabağında tikə-tikə doğruyun. Amma cəmaət əhvalatı belə görəndə genə yeriş elədilər Hatəm Soltanın yanına. Hatəm Soltan, gəl bu Tahir Mirzənin günahından keç. Nə qədir dedilər, qəbul eyləmədi. Amma cəmaət dedi, əgər istiyəsən bunu sən öldürtdürəsən, biz hammımız bir dəfənə bu şəhri alt-üst eliyəciyix. Hatəm Soltan dəstur verdi indi ki belə oldu, bunu bu cür tulluyun dəryaya. Belə olanda Zöhrə xanım üz tutdu cəmahətə ki, deyin atam icazə versin, indi ki onu dəryaya atdırır mən bir sandıx gətirtdirmişəm. O sandığa qoyax, bağlıyax atax dəryaya. Hatəm Soltan cəmaətin bu sözün, Zöhrənin bu sözün eşidib qəbul eylədi. Dedi sandıxda olmasın qəvalçadə olsun, bir şeyi ki mən ataceyəm dəryaya sandığa qoysunlar, eybi yoxdu. Sandıx gəldi, Tahir Mirzənin əndazəsində bir sandıx gətdilər. Amma Tahir Mirzəni sandığa qoyanda Zöhrə xanım çox ağladı. Ürək dözmədi. Ürək dözməyəndə Tahir Mirzə üz tutdu Zöhrə xanıma:

– Zöhrə, niyə ağlıyırsan?

Dedi:

– Atıllar səni suya.

Dedi:

– Qorxma, su mənə heç zad eyləməz.

Zöhrə dedi, yox əmioğlu bu dəfən axırındı. Tahir Mirzə gördü Zöhrə çox narahatdı, sazını götürüb bir neçə kəlmə cəmaətdən, Hatəm Soltandan icazə alıp, "Ceyranı Kərəmi"ynən belə deyir:

Başına döndüyüm alagöz xanım,
Qoy aparsın görüm, su mənə neynər?!
Sənə qurban olsun bu şirin canım,
Qoy aparsın görüm, su mənə neynər?!

Sən mənim tərəfimdən nigaran olma. Amma gördü, xeyir, Zöhrə elə ağlıyır elə bil baharın buludundan yaş ələnir. Aldı sözün dübarəsini:

Əmib-əmib ləblərindən qandığım,
Pərvanə tək mən oduna yandığım.
Müşənbələ, at dəryaya sandığım,
Qoy aparsın görüm, su mənə neynər?!

İsdiyir sandığı həylə salsın suya. Dedilər, ay Zöhrə xanım, o sandıx müşənbələnmiyipdi, sandığa su çıxacaq. Zöhrə ağlıyır. Tahir Mirzə gördü sandıx müşənbəsiz gəldi, dedi:

Bu sandığı yonan naşıdı naşı,
Yandırır Zöhrənin kirpiyi qaşı.
Yusifi dəryada saxlıyan kişi,
Qoy aparsın görüm, sel mənə neynər?!

Yusifi dərayada balığın qarnında saxlıyan kişi mənə də, inşallah, suda necat verər. Amma gördü Zöhrə çox şiddətnən ağlıyır. Genə aldı sözün dübarəsini "Kərəmi" havasıynan dedi::

Tahir Mirzə, gəl eyləmə əndişə,
Əlbət beləymiş qəzanın işi.
Yusifi quyudan çıxardan kişi,
Qoy aparsın görüm, su mənə neynər?!

Tahir Mirzə sözünü qurtaran kimin onu saldılar sandığa. Sandığın ağzın bərk-bərk bağladılar. Sandığı apardılar atdılar dəryaya. Sandığı su götürüb apardı. Zöhrə xanımın otağının qabağında saxlandı. Zöhrə xanım belə görəndə hali qarışdı, əhvalı pozuldu, amma aldı görək bir neçə kəlmə Zöhrə burda nə deyəcək:

Qannı dərya, nə axırsan sel yanı,
Axıb-axıb nə məkana gedərsən?
Qoymaginan sandıx qala girdabda,
Götür apa, hər bir yana gedərəsən.

Aldı dübarə:

Ağlaram, gözümdən tökərəm qanı,
Fəryadıva yetsin qadir sübhanı.
Gözüm yaşı kaş quruda dəryanı,
Aparginan Həştərxana gedərsən.

Aldı sözün dübarəsini:

Mən Zöhrəyəm, Tahir Mirzə qəmində,
Heç olmadım söhbətində, dəmində,
Nə çalxanırsan bu Gilanzəmində?
Tapşırıram Süleymana gedərsən.

Söz tamam oldu. Zöhə xanım dəryaya baxdı. Gözlərinin yaşı sel kimin axdı. Amma Tahiri atdılar suya, su aparmaxda olsun. Cəmaət dağılıb, hər kəsin öz evinə. Hamı qəm dəryasına qərq oldu, Zöhrəyə qızlar çox təsəlli verdilər. Hərəsi bir qolundan yapışıb gətidilər öz imarətinə. Dedi, qızlar məni dindirmiyin, danışdırmıyın, mənim dərdim həddən ziyadə olup. Zöhrə xanım gecəni qaldı öz imarətində, Tahir Mirzəni atdılar dəryaya. Sübh Zöhrə otaxdan çıxdı, otağın qabağına bir baxdı, suya baxanda gördü ki, sandığı su dolandırır saxtamanın başına. Zöhrənin dərdi tüğyan eylədi. Su bu sandığı hənüz aparmıyıb. Dərdi tüğyan eylədi, öz dərdinə münasib sandığı gördü nə deyir:

Nə axırsan qannı dərya,
Getdi mənim, yarım getdi.
Əlim çatmaz, ünüm yetməz,
Bir ah ilə zarım getdi.

Aldı dübarə:

Onunan yetirdi canım,
Artıbdı dərd ilə qəmim.
Badəsti döndərdi gəmim
Getdi, küllü varım getdi.

Başıma qara bağlaram,
Sinəmi çarpaz dağlaram.
Zöhrəyəm, qannar ağlaram
Getdi, vəfadarım getdi.

Söz tamam oldu. Qızlar gördülər Zöhrə xanımın az qalır ruhu bədnindən ayrılsın. Bir qədri qızlar təsəlli verdilər. Zöhrəni apardılar evinə. Amma Zöhrə xanım gecəni otaxda qalıb, səhər durdu genə ürək dözmürdü tələsirdi çıxdı bir otağın dövrəsinə baxanda, gördü su sandığı dolandırır genə sahdımanın başına. Üş gün, xülasə Zöhrə xanım hər gecəni yatdı gördü su dolandırır sandığı saxdımanın başına. Anda verdi, bu sandığı götür get, mənim gözüm bir də Tahir Mirzənin sandığını görməsin. Amma üçümüncü günün səhərisi durdu gördü, bəli, sandığı qız görəndə

anda verdi bu dəfən, sandığı götür get,mənim ürəyim təsəlli tapsın, gözüm görməsin. Gördülər sandığı su dolandırdı, Zöhrənin saxdımanı qabağından qıjıltıynan sandıx yola düşdü. Amma Zöhrə o qədir baxdı ki, gördü day bu dəfən sandıx dala qayıtmadı, sandıx gözdən itdi. Zöhrənin dərdinin biri min oldu. Qızlar yığışdılar Zöhrənin başına, xanım, özün icazə verdin sandığı su apardı. İndi nə deyirsən? Dedi qızlar qulaq asın:

Tahiri atdlılar suya,
Getdi, xan Tahirim getdi.
Xıdır çıxartsın quyudan,
Getdi, xan Tahirim getdi.

Tahiri atdılar suya,
Qolunda bazubənd, dua.
Kimlər tapa, kimlər yuya,
Getdi, xan Tahirim getdi.

Tahir getdi axa-axa,
Gözüm qaldı baxa-baxa,
Dəryaya ildırım çaxa,
Getdi, xan Tahirim getdi.

Zöhrə sözün tamam eylədi, qayıtdı öz mənzilinə. Qızlar bir qədir Zöhrəyə genə təsəlli verdilər. Amma Zöhrə aram olmadı, gözünün yaşını tökə-tökə gəldi genə imarətinin qabağına. Götürüb bir neçə kəlmə dübarə belə deyir:

Axıb-axıb gedən dərya,
Getdi xan Tahirim səndə.
Dörd bir yanı bağı-səhra,
Getdi xan Tahirim səndə.

Gedibdi əlimdən yarım,
Artıbdı ah ilə zarım.
İndi mən kimə yalvarım.
Getdi, xan Tahirim getdi.

Aldı dübarə:

Zöhrəyəm, qannar ağlaram,
Sinəmi çarpaz dağlaram.
Yeddi ilqara bağlaram,
Getdi xan Tahirim səndə.

Söz tamam oldu. Qızlar dedilər, xanım. daha Tahir Mirzə getdi, indi nə edax? Zöhrə baxdı gördü, düz deyillər, dəryaya təzədən neynəsin. Qəyitdi otaxlarına. Otaxda dərdi tüğyan eyliyip, aldı dübarə bir neçə kəlmə belə deyir:

Axıb-axıb çoşan dərya,
Yaxşı saxla xan Tahiri.
Onu vurmaginan daşa,
Yaxşı saxlaginan xan Tahiri.

Bu dəryanın adasından
Alın yarın qadasından.
Gizlət şərri-bəlasından.
Yaxşı saxla xan Tahiri.

Amma alıb sözünün axırını belə deyir:

Zöhrəyəm, yaman çağlıyan,
Başıma qara bağlıyan.
Sinəmi çarpaz dağlıyan
Yaxşı saxla, yarım səndə.

İndi biz Zöhrə xanımı Tahir Mirzənin dalıncan ağlar qoyax. Görax Tahir Mirzənin başına nə oyun gəlib? Belə ki, Tahir Mirzə dəryaya atıldı, dərya dağa vura-vura Tahir Mirzənin sandığın apardı Həştərxan tərəfinə. Apardı o yerə çıxartdı ki, 40 günnən sonra Tahir Mirzə dəryanın üzündə suda qalmış idi. Amma bir rəvayətdə diyəllər üş gün qaldı, bir rəvayətdə diyəllər 40 gün qaldı, bilmirəm hankisi səhehdi, xülasə sandıx gəldi çıxdı o yerə ki Həştərxanın paşası Sona xanım neçə dənə qızlarnan çıxmışdılar gəzməyə. Dəryanın qırağında Sona xanımın bir dənə bağı var idi. Əlbəttə, atasının bağı idi “Paşa bağı” diyərdilər. O paşanın bağıydı Sona xanım cuma günü idi, çıxmışdlar orda gərdişə, gördülər suda bir qaraltı gəlir. Sona xanım qızların yığdı başına-vəzirin qızın, vəkilin qızın, aşpazın qızın, o birsinin qı-

zın: “Ay qızlar, bu gələn görün nəyə oxşuyur?”. Dedilər: “Xanım, yəqin gəmi dəryada qərq olub, o gələn sanduğa oxşuyur, elə bilginan vəzirgan sandığıdı”. Xülasə, sandıx gəldi yaxına, gördülər, bəli sandıxdı. Qılzar elə ki gördülər su sandığı qoruğğa elədi gətirdi, o dəryadan bir ərx ayımışdılar həman Həştərxan paşasının bağına. Düz sandığı su gətirdi yetirdi həman ora. Qızlar gəldilər zor verdilər, sandığı sudan çıxartdılar kənara. Amma Sona xanım dedi:

– Qızlar, gəlin indi bir şərt eliyax, bu sandığın ağzını açax. Kimin şansına nəmənə çıxsa, onun olsun.

Əvvəl-əvvəl aşpazın qızı dedi:

– Xanım, əgər bu sandığın içində üsdiod yox, sarıkök, zəncəfil, darçın olsa mənim. Noxud, ləpə bu şeylərdən oldu mənim.

Vəkilin qızı dedi:

– Dünya malı olsa mənim.

Vəzirin qızı dedi:

– Əgər qızıl gümüş olsa, mənim.

Sona xanım dedi:

– Əgər oğlandı oldu mənim.

Cəryan belə olanda qızlar sandığı gətdilər bağın içinə sandığı açsınlar. Hərəsi bir söz deyib, sandığın ağzını aşsınlar görsünlər sandıxda nə var. Və kimin dedığı düz olur. Amma elə ki sandığın ağzını aşdılar, gördülər sandığın içində bir dənə ay parçasın kimin bir oğlan yatıb. Amma dünyadan xəbəri yoxdu. Sona xanım özünü saldı sandığın üsdünə:” Sandıx mənim”. Qızlar dedilər:

– Xeyir, xanım, onu döşün götürməz. Sənin savadın varımış, sandığın üsdündə yazı varmış bilirmişsən ki, bu sandıxdakı oğlandı. Heç vaxtı qəbul eyləmarıx. Bə neyniyax? İndi bu sandıx, bu oğlan bizim aramızda şərtinəndi. İndi ki, belə oldu adama bir kəlmə oxuyaceyıx. Hər kəsin sözündə bu oğlan ayılsa, oğlan onunku döyül.

Qızlar dəydilər bir-birinə, bir baş yolması düşdü ki, amma götürüblər görək indi kim nə cür deyir, oğlanı nə cür oyadırlar:

Cuma günü sandığını tapdığım,
Əcəm oğlu, sandığından dur, yeri!

Ala gözlərinə heyran olduğum,
Əcəm oğlu, sandığından dur, yeri!

Amma Tahir Mirzə elə yatıb ki kasıbın baxtı kimin, oyanmadı. Bəli, Tahir Mirzə oyanmadı. Amma vəzirin qızı dedi:

– Sona xanım, sən oxudun oyanmadı, indi nobə mənimkidi, əgər mənim sözümdən oyansa, oğlan mənimkidi.

Götürüb görax vəzirin qızı nə deyir:

Əcəm oğlu, necə gəldin buraya?
Gözəl oğlan, sandığından dur, yeri!
Bəs nə yaxşı qərq olmadın dəryaya,
Gözəl oğlan, sandığından dur, yeri!

Vəkilin qızı dedi:

– Nobən savruldu?

Dedi:

– Bəli.

Dedi:

– Oğlan ki oyanmadı?

Dedi:

– Yox.

Dedi:

– İndi nobə mənimdi, mənim sözümlə oyandı, oğlan mənimdi.

Başına döndügüm, qurban olduğum,
Oyan sandığından, ay əcəm oğlu.
Alışıb oduna biryan olduğum,
Oyan sandığından, ay əcəm oğlu.

Gördülər, xeyir, əcəm oğlundan əslən oyanmax sədası gəlmir. Nobə gəldi yetişdi Sona xanıma:

– Qızlar, bəli, indi nobə mənimkidi də.

– Bəli, xanım səninkidi.

Sona xanım elə yəqin elədi ki, mən diyəndə oyanacaq. Axı kasıbnan dövlətdinin şansında fərq var. Səddə səd bu diyəndə oyanacaq. Götürüb sözün "Xan Çobanı"ynan dedi:

Haradan gəlirsən sən nə məkannısan,
Cəvahir qiymətdi, gövhər kannısan.

Adam öldürübsən, yəqin qannısan
Əcəm oğlu, sandığından dur, yeri!

Amma oğlan ayılmadı. Vəzirin qızı dedi:

– Xanım, indi nobə mənimkidi?

Dedi:

– Bəli, nobə səninkidi.

Götürüb dübarə:

Açıldı sandığın, görsəndin aya,
Camalım şövləsin bənzətdim aya.
Kimlər səni qərq eyliyip dəryaya,
Əcəm oğlu, sandığından dur, yeri!

Gördü, xeyir, durmadı ki, durmadı. Vəzirin qızı dedi:

– İnşallah, mən diyəndə oyanacaq.

Alıb belə deyir:

Açıldı sandığın, görsəndi sinə,
Cəmalın şöləsin oxşatdım günə.
Kim səni qərq edib bü günə,
Əcəm oğlu, sandığından dur, yeri!
Gözəl oğlan, sandığından dur, yeri!

Amma genə oyanmıyıb. Aldı Sona xanım belə deyir "İrəvan çuxuru"ynan:

Evdən çıxdın xarab qoydun xanəni,
Yandırdın oduva ata-ananı.
Gəl yandırma paşa qızı Sonanı,
Əcəm oğlu, sandığından dur, yeri!

Söz tamam oldu, amma Tahir Mirzə ayılmadı ki ayılmadı. Sona xanım dedi:

– Qızlar, dübarə bir neçə kəlmə bu dəfən oyanacaq.

Amma qızlar dedi:

– Xanım, bizimki oyudu dedıx, qurtardı. İndi nə deyəcəksən, deginən.

Amma götürüb görax burda Sona xanım nə deyəcək "Qəhrəman havası"ynan:

Başına döndügüm, qurban olduğum,
Oyan sandığından, xan əcəm oğlu.

Ala gözlərinə heyran olduğum,
Oyan sandığından, xan əcəm oğlu.

Amma qız elə vurulmuşdu ki, "xan" da deyirdi, "bəy" də deyrdi, "ərbab" da deyirdi, "qurban olduğum"da deyirdi, amma oyanmadı ki oyanmırdı:

Dərin-dərin dəryalara dolubsan,
Şirin canın eşq oduna salıbsan.
Nə müddətdi bu dəryada qalıbsan,
Oyan sandığından, ay xan əcəm oğlu.

Əcəm oğlu oyanmadı ki oyanmadı. Tahir Mirzə oyanmadı. Oyannan aşpazın qızı gəldi ki, bə nə cür oyadım bunu, boş böyründən bir dürtmə, Tahir Mirzə diskindi, gördü ha gün gəldi. Sona xanım dedi, hə,oğlan sözümə ayıldı. Dedi:

Bu sandıxda yatan oğlan,
Sona xanım sənə qurban.
Ya Tahirdi, ya Mirzə xan,
Bu oğlan mənimdir, mənim!

Amma vəzirin qızı gördü sandığın üsdündə ki yazmışdılar və bu yazılardan bu qız bildi. Buların savadı yoxdu, amma qızın savadı var. Paşa qızın savadı var. Vəzirin qızı, vəkilin qızı etiraz elədilər. Dedilər: "Sona xanım isdiyə göyə çıxsın, qəbulu dəyil, bu da qəbul deyil". Qızlar qəbul eləmədilər. Dedilər: "Sənin savadın var və adın bildin. Buların heç birisi şərt dəyil. Şərt budur ki, bizim hankimizi sevdu, oğlan onunkudu". Tahir Mirzə gördü, burda iş belə cərəyan tapdı, indi nə desin qılzar bundan razı olsun. Amma sazını basdı sinəsinə "Borçalı gözəlləməsi"ynən:

Başına döndügüm, qurban olduğum,
Tanrı məni sizə qurban eyləsin!
Yanıb odlarına biryan olduğum,
Tanrı məni sizə qurban eyləsin!

Qızlar dedi:

– Görəsən hankimizi deyir?

Sona xanım dedi:

– Məni deyir də.

Aldı Tahir Mirzə:

Eşq əhlin dərdi-dilin qanannar,
Əmib-əmib ləblərindən qanannar.
Eşq əhlinin dərdin, dilin bilənlər,
Bu qarşımda duran gözəl sonalar,
Tanrı məni sizə qurban eyləsin!

Allah, görəsən hansımızı deyir. Sona xanım dedi: "Elə məni deyir". Aldı sözün dübarəsini:

Göydə bir ulduz var, adı Qəmərin,
Özüm mən ol ləblərindən əmərim.
Boyu uzun, beli gümüş kəmərim,
Tanrı məni ona qurban eyləsin!

A, bu görəsən hankımızı dedi? Gördülər, gümüş kəmər Sona xanımın belindədir. Sona dedi: "Məni dedi, məni dedi". Qılzar dedi:" Xeyir, qəbul eləmərıx, gərək adıynan desin". Aldı "Yurt yeri" havasıynan:

Qulaq asın, Tahir Mirzə sözünə,
Gecə-güündüz yuxu gəlmir gözünə.
Mən aşığam Hatəm Soltan qızına,
Tanrı məni ona qurban eyləsin!
Sizi mənə ana-bacı söyləsin!

Qızlar Tahir Mirzənin bu sözündən bir az dayandılar: "Ayə, bu Hatəm Soltan kimdi görəsən? Haralıdı?" Sona xanım dedi:

– Narahat olmuyun, bunun elə bil ayrı yerdə sovgüsü var. Onun adın çəkir. Görürsuz ki bizi demir.

Dedilər:

– Hə, sən qaş-göz elədin, him elədin, səni deyir. Öləsən də qoymarıx bir addım bizdən ayrılasan, hər yerə getsax bahəm gedəcıyıx.

Amma Sona xanım nə qədir dedi, gördü qızlar qəbul eyləmədi. Yapışdı oğlanın ətəyindən: "oğlan, bir dalımcan gəl görüm bular nə deyir?". Vəzirin qızı yapışdı sağ qolundan, vəkilin qızı sol qolundan, o çəhdi belə, bu çəhdi elə. Tahir Mirzə gördü xeyir, saqqalı qalıb əldə. Amma bular başladılar bir-birinin üs-

dünü cırmağa. Bir bağban gördü qızdar çırpışdı. Bel çiynində özünü yetirdi qızların yanına:

– Ay qız, nə olub, oğru tutubsuz?

Dedilər:

– Bura gəl, oğru tutmamışıx, sandıx tutumuşux. Gəl bu kişini böl ver bizə. Amma bağban gəldi gördü bir oğlandı. Elə bil Allahın bekar moqeyi kərəm dəryası cuşa gələndə əvvəl qələmin bu oğlana çalıpdı. Bağban bu oğlanı belə görəndə qızların hərəsinin döşünə bir dürtmə vurdu.

Dedilər:

– Neyniyirsən, bağban?

Dedi:

– Allah bunu fəğət mənə yetirib. Sən neyniyəcəksən? Bəs görmürsüz mən bu bağda təkəm? Bir belə ağacı mən tək suvarıram. Qızlar, qaçın.

Qızlar beli ovladılar, hərəsi çəkildi bir tərəfə. Belin birin verdi Tahir Mirzənin əlinə, birini də özü götürdü ki, suvarsın. Amma Tahir Mirzə gördü bu tərəfdən də bağban beli verdi əlinə dedi:

– Oğlum, burdan bu suyu açarsan o ağacın dibinə, ordan açarsan o ağacın dibinə.

Tahir Mirzə dedi:

– Əmi, icazə ver bir neçə kəlmə sözüm var, deyim. Onnan sonra görax sən nə deyirsən, mən nə deyirəm.

Aldı "Kərəm gözəlləməsi"ynən:

Allah, mən nə yaman sovdaya düşdüm,
Mən getdıxca yollar gedir mənimlə.
Bilmədim yolumu buraya saldım,
Axa-axa gedir sellər mənimlə.

Amma aldı sözün dübarəsini görək nə deyir:

Mənim sövdücəyim qərədi qaşı,
Deyillər bülbülün güldü sirdaşı.
Gözlərimin axır hey qannı yaşı,
Çalxanır çeşmələr, göllər mənimlə.

Aldı sözün dübarəsini:

Tahir Zöhrə sövdü, cana yetişdi,
Gəldi işi ah-fəqana yetişdi.
Axır ömrüm bağıbana yetişdi,
Dəstimdə oynayır bellər mənimlə.

Amma söz tamam oldu, düşmanın ömrü tamam olsun. Gəl sözü eşit kimdən, Sona xanımdan. Sona xanım gördü oğlan nə qədiri oxuyur, fəqət dilindən Zöhrə adı düşmür. Zöhrə deyir, dad deyir. Zöhrə deyib ağlayır. Amma bağban elə ki beli verdi Tahir Mirzənin əlinə, Tahir Mirzə beli bir o tərəfə vurdu, bir bu tərəfə vurdu, gördü xeyir bağ belliyən dəyil. Sona xanım ağacın dalısından qızlarnan daldadan baxırıdılar. Görək əgər bu bağı bellədi, ağaşları suvardı, başqa, əgər gördü yox, başarmır, əkə bilmədi bilin ki, bu böyükzadədi. Tahir Mirzə beş-altı dənə bel yerə vurub, əl qabar oldu, əyax qabar oldu, beli tulluyub yerə sazı köynəkdən çıxartdı, aldı sinəsi üsdünə görax bir neçə kəlmə nə diyəcək:

Bahar fəsli bağ içində,
Bülbül oynar güllərinən.
Gözəllər pinhanda durmuş,
Əl şəbabət tellərinən.

Qızlar dedi, bizim burda durmağımızı, ay xanım, bildi. Aldı Tahir Mirzə sözünün o birisini:

Sənə qurban olum Sona,
Bircə rəhmin gəlsin mənə.
Tut qolumdan apar məni,
Tahir ağlar dillərinən.

Söz tamam oldu. Sona xanım gəldi Tahir Mirzənin yanına. Əlindən tutdu, beli aldı atdı yerə. Dedi:

– Oğlan, sən nə bağmansan, nə bağ suvaransan. Sən nə rəiyət oğlusan. Gəl görüm, sən hansı bağmanın gülüsən, hansı bağın çiçəyisən? Sənin başıvın qəzavü qədəri nədi?

Tahir Mirzə əvvəldən axıra bəyan eylədi. Sona xanım yapışdı Tahir Mirzənin əlinnən gətdi atası paşanın yanına. Paşa baxdı, gördü oğlan çox bivəceh, mərifətdi, ləyaqətdi bir oğlandı. Dedi:

– Oğlum, nəmənə başıvın qəzavü qədəri var, mənə bəyan eylə.

Tahir Mirzə əvvəldən axıra sərgüzəştin söylədi paşaya. Həştərxan paşası əhvalatı belə görəndə dedi:

Oğlum, indi bu barədə fikrin nəmənədi? Mənə açıx söylə.

Dedi, paşam sağ olsun, dilinən deyə bilmərəm. Götürüb burda "Qürbəti" havasıynan görək nə deyir:

Paşa, mən qapıva dada gəlmişəm,
Nə olar yetirəsən canana məni.
Aşiq oldum Hatəm Soltan qızına,
O atdı dəryayi-ümmana məni.

Dedi:

– Ə oğul, yetirirəm səni yarıva. Sözünün o birisini de görüm.

Götürüb sözünün dübarəsini:

Uşaqikən beşigimi yırqadı,
Çörəyimi zəhrimara doğradı,
Hatəm Soltan qəzəbinə uğradım,
Atdı seldən-selə, ümmana məni.

Paşa dedi, :" Oğlum, qorxma hammısının qisasını allam". Amma götürüb sözünün o birisini də belə "Hüseyni havası"ynan dedi:

Tahir ərzi-halın şaha bildirir,
Ağlıyıbən göz yaşını sildirir.
Zöhrə dərdi axır məni öldürür,
Təbibim ol, yetir dərmana məni.

Amma elə ki Tahir Mirzə sözünü tamam eylədi, çün paşa dedi:

– Oğlum, indi mən burdan bir dəstə qoşun götürüb aparacağam sənin atan vilayətinə. O qızı alam verəm sənə. Qoy görax. İsdiyirsən gedəsən o qızın dalıncan alasan, yoxsa yox?

Yapışdı paşanın əlindən, dedi:

– Paşa, əl mənim, ətək sənin. Amandı, mənim əlimi damənindən eyləmə.

Paşanın adına Hasan paşa deyərdilər. Elə ki Hasan paşa bu cavabı Tahir Mirzədən eşidib, dəstur verdi Həştərxan məmləkə-

tində bunun nə qədir qoşun vardı cəm eylədi. De ki, bir quş bir budağa ki pünhan gətdi gərək onun işin düzəldəsən. Qoşun cəm eyliyib, üz qoydular Qaraman şəhrinə. Az gəldilər, çox gəldilər, gəldilər yetişdilər. Qaramanın yaxınlığında çadır çadırdan, tanap tanapdan keçdi, amma çün Sona xanım libası-mərdana geyinib Tahir Mirzəynən çiyinbəçiyin gedirlər. Dedi:

– Tahir Mirzə, gedirəm-gedəcəyəm. Əgər o qız mənnən gözəl oldu, elə onu alıb toyunu eliyəcəyəm sənə. Əgər məndən çirkin oldu, ikinizi də öldürüb qəyidib gələcəyəm.

Dedi:

– Xanım, sənin başıva dolanım. Gedax elə baxginan, nə olar.

Gəldilər elə ki bir çəmənzadədə tənab-tənabdan çadır saldırdı, xanım dedi:

– Ateyi –mehriban, bilirsən nə var? Biz axı gedax diyax, indi biz neyniyax, biz nəyə gəlmişıx. Əvvəl mən unvanı elçi gedəcəyəm Hatəm Soltanın yanına. Görax bunun Zöhrəsi qalır, Hatəm Soltan qalır, yoxsa ölüpdü. Mən işdən, əhvalatdan baxəbər alam gəlim.

Dedi:

– Qızım, yaxşı rəng görürsən.

Dəstur verdi, qoşun hər kəsən öz işində, öz istirahatındə. Burdan bir kağız yazdılar Hatəm Soltana Hasan paşanın dilincən ki, mənim bir oğlum var. Yolladım yanına. Eşitmişəm bir qızın var, həddi-tərifdi, gəlsin oğlannan qız bir-birini görsün, biz, inşallah, qohum olacayıq. Cavab gəldi ki, olsun, mən müntəzirəm, sənin adamın hər moğey gəldi gəlsin. Tahir Mirzə özü də bularınan geyinib ayrı libasa. Tahir Mirzə dedi:

– Xanım, amanın bir günidi deməginən ki, Tahir Mirzəni gətirmişəm. sevındigindən bağrı çatdar.

İş belə olanda Sona xanım dedi:

– Heş sən getmiyəcəksən. Fəqət sən sazı ver mən aparım.

Sazın köynəyini Zöhrə özü tikmişdi. Qərar qoydular Tahir Mirzənin sazını Sona xanım götürüb dörd dənə qızınan mərdanə libasında varid oldu Zöhrənin qəsrinə. Baxdı gördü, hə, qədim

belə bir söz diyərdilər: “aya sən çıxma, mən çıxım, günə deyir,sən çıxma mən çıxım”. Belə olanda Sona xanım dedi:

– Zöhrə, mənim bir müxtəsər əlimdən çalıb oxumaq, aşıxlıx gələr.

Dedi:

– Nə olar, mənim də ürəyim çoxdandı tutulub.

Dəstur verdi: “Ay oğlan, mənim sazımı gətir”. Sazı qənşərə çıxartdılar. Saz qənşərə gələndə Zöhrə az qaldı qəşş eləsin. Sazı gördü gördü ki, Tahir Mirzənin sazıdı. Köynəyin Zöhrə özü tihmişdi. İşıxlı dünya Zöhrənin gözündə qarannıx oldu. O siyah yasəmən zilflərindən birin basdı sinəsinə, görax Sona xanıma nə deyir:

Sənə qurban olum, Sona,
Saz yiyəsi yarım necoldu?
Qızıl güllər üzə-üzə,
Saz sahibi yar necoldu?

Sona xanım Tahir Mirzənin sazın aldı çiyninə dedi:

Zöhrə, sənə xəbər verim
Saz sahibi yarın gəlib.
Qızıl güllər üzə-üzə,
Saz sahibi yarın gəlib.

Ay Sona, sənə qurban olum, hardadı? Dedi:

Bağlar başı qar olupdu,
İşim ahu zar olubdu,
Hankinizə yar olupdu?
Saz sahibi yar necoldu?

Amma belə diyəndə Sona bir gülümsündü, dedi:

Dərdindən qübar götürdüm,
Ahu köksümdən ötürdüm.
Sənə müjdələr gətirdim,
Saz sahibi yarın gəldi.

“Oy, sənə qurban olum, Sona, doğurdan deyirsən?”-dedi.

Başıma qara bağlaram,
Sinəmi çarpaz dağlaram.

Zöhrəyəm, qannar ağlaram,
Saz sahibi yar necoldu?

Aldı Sona xanım Zöhrənin cavabını belə deyir:

Başıva qara bağlama,
Sinəvi çarpaz dağlama.
Sona deyər, qan ağlama
Saz sahibi yarın gəldi.

Həylə diyəndə durdu Zöhrə bir qolların saldı Sona xanımın boynuna. Üzün qoydu üzünün üsdünə. Gördü yaman yumuşaxdı. O aşıx Ələsgərin bir sözü vardı deyir ki:

Gönül, sən ki düşdün eşqin bəhrinə,
Narin silkin, narın çalxan, narın üz.
Dost səni bağına bağman eyləsə,
Almasın dər, gülün iylə, narın üz!

Tikdirmisən uca eyvan, oda sən,
Bu sövgülün, o nökərin, bu da sən.
Qiya baxdın, canım yaxdın oda sən,
İnsaf eylə, gəl könlümün narın üz!

Ürüsxət ver, sözün desin, Qayım ağa,
Yuyar qəssar qəddim, bükər qayim ağa.
Ləzzət verər bal qatanda qaymağa,
Olardan da şirin olur narın üz.

Aşıq olan sözün deməz tərsinə,
Tər gəzən dünyada gedər tər sinə.
Tər sinəyə qismət olsun tər sinə,
Narın üzə qoy söykənsin narın üz.

Doğurdan Zöhrə gördü Sona bundan qalan dəyil, axı nə cür olub Sonanı almıyıb. Bir də gəlsin məndən ötürü. Dedi:

– Sona, yalannan deyirsən mənə həylə?

Dedi, elə ki, sən narahatsan, qulaq as. Dedi:

Gözəllıxda tayın yoxdu,
İllah, sənin qaşın Zöhrə.

Tahir kimin yarın vardı
Bəxətəvərdi başın Zöhrə.

Zöhrə xanım dedi:

Gəlmisiz, ağır oturun,
Paşaya xəbər yetirin.
Öldüm Tahiri gətirin,
Cəbr eylədi atam mənə.

Belə diyəndə aldı Sona xanım :

Gəl durax qabax-qabağa,
Canım canıva sadağa.
Sandıx çıxdı bizim bağa,
Avand oldu işin Zöhrə.

"Oy, sənə də qurban olum, o sandıx tutan əllərivə də", – dedi. Aldı Zöhrə:

Zöhrəyəm Qaramannıyam,
Bil sinəm üsdü dağlıyam.
Qoynumda qonax saxlıram
Cəbr eylədi atam mənə.

Amma aldı Sona xanım:

Sona deyir, gəl bəsləşək,
Görax kimdi kimdən qəşəng.
Gücüm vardır ki bişək,
Gətirmişəm qoşun Zöhrə.

Zöhrə dedi:

– Qoy sənin başıva mən dolanım, ay Sona xanım, mənim nə həddim var ki, mən sənnən bazılaşam, mən sənə hərif olam. Gözəllıxda da, ləyaqətdə də, şücaətdə də sən dübərabəri mən sənə.

Elə ki Zöhrə sözlərin deyir, Sona xanım belindən şəmşirin çəhdi dedi:

– Zöhrə, bu şəmşiri sənin atanın qoşununun və özünün qanıynan suvaracayam, narahat olmagınan. Sayısız qoşun gətimi-

şəm dağın o üzündə, filan çəməndədirlər. Elə bilrəsən mən təh gəlmişəm? O Tahir də gəlib.

Sona qolların saldı Zöhrənin boynuna. Üzündən-gözündən öpüb, gözlərininn yaşını sildi, dedi:

– Qorxma Zöhrə, ələn mən səni aparram atamın yanına, orda cahı-cəlalınan sənin toyuvu eliyəcəyəm.

Amma bu tərəfdən Zöhrənin yapışdı qolundan, saxdımannan çıxartdı. Zöhrəni saldı qabağa, ağa, gətirdi Zöhrəni yetirdi Həsən paşanın qoşunun içinə. Bu tərəfdən xəbər verdilər Hatəm Soltana ki, o gələnnər qızı aparıb. Deyirlər:” O qız istiyən, Hatəm Soltan, bilirsən kimdi? Tahir Mirzədi. Sandıx gedib çıxıb Həştərxana. Həştərxan paşası qoşun çəkib gəlib Zöhrəni apardılar”. Hatəm Soltan dəstur verdi Qaraman şəhrində nə qədir qoşun vardı atdandı. Ağa, cəngi başlandı. Tahir Mirzə gördü ki, əvvəl əldən Hatəm Soltan özü gəldi meydana. Üz tutdu Həsən paşaya ki, icazə versən atamın qısasını mən bu əmimdən alam. Dedi: “Oğul, onun qanın mən sənə həlal eylədim”. Amma bular ki rubəru olanda arada bir neçə şəmşir rəddi-bədəl oldu. Tahir Mirzə dedi:

– Əmi, sənin xətrivə qıymıram. Bu cür gəlməzlər meydana. Cəmaət sənə gülür.

Dedi:

– Nə olub mənə?

Dedi:

– Atın bax, odu qoşqunu qırıbdı.

Başın döndərdi daldan ata baxanda Tahir Mirzə bir şəmşir vurdu boynuna, nizəni vurdu əmisinin ürəyinin başından kürəyinin ortasından çıxdı. Cəhənnəmə vasil eylədi. Ordan qoşun qayıtdılar Qaraman şəhrinə. Tahir Mirzəyə 40 gün, 40 gecə toy tutdular.

# AŞIQ HƏSƏN QƏFFARLA AŞIQ ƏZİZİN BİR MACƏRASI

Günlərin birində Azərbaycanın gözəl şəhri Təbrizdə belə bir macəra baş verir. Bir gün Təbrizdə Davud Xəratə Aşıq Əziz Şəhnazı dost olur. Bunların ailəbir-birinə get-gəl edirlər. Bir gün Aşıq Əziz Şəhnazı quca vaxtı dürür gəlir Davudu görməyə. Qapını çalır, Davud qapını açır. Elə bu anda Aşıq Əziz içəri varid olur. Sən demə, Davudun qardaşı Səməd həyətdə bir dana kəsir. Aşıq Əziz deyir:

– Davud, bü nədir?

Davud deyir:

– Sənə qurban kəsirəm.

Aşıq geçir otağa gözləy indi kəbab gələr, bir saata kəbab gələr, kəbabdan xəbər olmur. Aşıq Əziz narahat olur, bəs bu neçə qurbandır ki, bir tikə mənə gəlmədi?

Nahara da ayrı bir yemək gəlir. Aşıq Əziz ordan gəlir qəhvüə və bu macranı Aşıq Həsən Qəfariyə söhbət eylir. Qəfarı deyir:

– Belə olmaz.

Burda Aşıq Əziz sazı alıb odlu sinəüstə görək Aşıq Həsən Qəfariyə nə oxudu:

Aşıq Həsən sənə deyim düzünü,
Bu şərtə qalsın öz aramızda.
Orəə pənhan saxla sözümü,
Götür kağız-qələm, yaz aramızda.

Gördüm Səməd dana kəsib bir danə,
Davud dedi, qurban kəsmişəm sənə.
Nəhar oldu şurba gətirdi mənə,
Suruşma qüy qalsın öz aramızda.

Əzəlcə elədi qəlbim əztirab,
Dedim ki, indicə gələək kəbab.
Əziz deyi, verəmmə bir cavab,
Car eyləmə, qalsın söz aramızda.

Bu sözü Aşıq Həsən Aşıq Əzizdən eşitdi və narahat halda durdu gəldi Davudun evinə. Davud gördü Aşıq Həsən Qəfarı yaman qızarıb. Davud dedi:

– Həsən, səni quvublar belə olmusan?

Aşıq Həsən dedi:

– Oğlan, Aşıq Əzizə qurban kəsirsən, ona bir tikədə kəbab vermirsən. qəhvüdə danışdı, az qaldım otandığımdan ölüm.

Davud dedi:

– Mən bilmədim belə olacaq, Aşıq Həsən. Sən allah, mənim əvəzimdən ona bir namə yaz, bəlkə məni bağışlaya.

Burda görək Aşıq Həsən Qəfarı Davudun əvəzindən Əzizə nə yazır:

Kamil ustad Aşıq Əziz,
Ərzim sənə yetə gərək.
Xəcalətim həzurunda,
Böyükərdə əta gərək.

Sözün yetişdi guşuma,
Dünya dar oldu başıma.
Özum güldüm öz işimə,
Məni tapa xəta gərək.

Sən ki qonaq gəldin mənə,
O gün Səməd kəsdi dana.
Gəl süzü salma dastana,
Ört üstunu yata gərək.

Gəlmişəm qapuya dada,
Ayaq yalın, pay-piyada.
Dillərdə düşməmiş səda
Söz aradan ötə gərək.

Davuda çatdı bu xəbər
Qəlbinə doldu qəm, kədər.
Qəfar, yaz özgə təhər
Geçən geçib gedə gərək.

Bir-birinə məsləhət elədilər, namə əllərində gəldilər Aşıq Əziz Şəhnazıgilə. Əzizin oğlu qapını açdı, gördü Aşıq Həsən, yanında da Davud. Dedi:

– Büyürün, atam evdə dəgil, gəlin içəri.

Bunlar varid oldular evə. Yeyib-içəndən sonra yazılan şeiri danışıb zəbt elədilər. Dedilər:

– Ustad gələndə özü qulaq asar, bizi bağışlar.

Bunlar qayıtdılar. Bir neçə gündən sonra Aşıq Əziz Şəhnazı gəlir. Oğlu deyir:

– Ata, Aşıq Həsənə Davud gəlmişdi, sənə şeir danışdı.

Aşıq Həsən Qəfarı odur zəbtostündədir, aç oxut gör nə deyib? Əziz nuara qulaq asandan sonra baxəbər oldu, götürüb görək burda Aşıq Əziz nə yazır burda:

Mən bir dostun vəsalına oğradım,
Bu yandan iki dost əlimdən gedib.
Gəldim gördüm ətri vardı, özu yox
Sandım ki, bülbülüm gölümdən gedib.

Onlar gəlmişdilər məni görməə,
Dost bağından alma-heyva dərməyə.
Oğul nadan olub cavab verməyə,
Şanə tək pərişan telimdən gedib.

Kəlbrüyəüyş əgləşən zaman,
Bilmirəm xüş geçib, yuxsa da yaman,
Gəlib Əzizdən alsın imtəhan,
Sanasan Muğanlı elindən gedib.

Əziz sözü təmamladı, bildi bu macranı Aşıq Həsən Qəfarı yazıb, elə alır görək Aşıq Həsənə burda hansı şəhri yazdı:

Əziz dostum, inan məni,
Əcəb yaman hala saldın.
Bilmirəm kim verib xəbər
Məni qalmaqala saldın.

Mən deməədavətdən,
Mərəz olar məhəbbətən.

Tərləmişəm xəcalətdən,
Elə bil ki, gölə saldın.

Demirəm günah səndədi,
Dost ayağın kəsəndədi.
Təqsiri Aşıq Həsənədi,
Söz və dildən-dilə saldın.

Mən dedim ki, sirr saxlayar,
Bilməki, edəək car.
Geyli olmaz, əvəz olar,
Gizlin sözü elə saldın.

Hamı olmaz mahir quas,
Əziz tanır ipək ətlas,
Qəfariən alam qisas,
Yaxşı fürsət ələ saldın.

Əziz namənin dalısında da yazdı, dedi: “Aşıq Həsən, bu şeirə cavab ver”. Naməni gətirdi verdi Davuda, dedi:

– Verəən Aşıq Həsənə.

Davud Əzizi yola saldı. Birbaş gəldi Aşıq Həsən Qəfarıgilə, orda naməni verdi Aşıq Həsənə. Aşıq Həsən namə oxudu, şairlər kitabından Şair Nəbidən bir namə yazdı yolladı Əzizə. Əziz də belə cavab yazdı:

İnsan əhli hiddətinə varanda,
Əzəldə şərtini biləsən gərək.
Nə zamanda hökm gələr insana.
Dürədərindi, dalasan gərək.

Həsən Qəfarı belə cavab verir:

Varid olasan Məhəmmədin dininə,
Şəhadət kəlməsin biləən gərək.
O zamanı hökm gələr insana,
Vacibat dəryadı dalasan gərək.

Şair Nəbi:

Söylə şəriətə neçə yedidi?
Kaf nuna bənd olub neçə yedidi?

Cəsm cəsdində neçə yedidi?
Dörd yüz dörd bəndi sanasan gərək.

Aşıq Əziz:
Məqdəmat şəriətdə yedidi,
Kaf gün nəda təriqətdə yedidi.
Səcdiə bədən həqiqətdə yedidi,
Dörd yüz dörd bəndi sanasan gərək.

Şair Nəbi:
O nədir ki, başı çıxmaz təlaşdan,
Ölüb qiyamətə asılıb ərşdən?
O kimdir ki, töhfə getdi bəhiştən,
Mənkir sən özünə çalasan gərək?

Aşıq Əziz:
Əsrafilin süri hər işdən kənar,
Əmir olunar qiyamətdə çalınar.
Cəbreyil gətirdi bir tabaq ənar,
Ərz itdi fatmə alasan gərək.

Şair Nəbi:
Şair Nəbi çox işləə dərinə,
Nə yazılıb Cəbreyilin pərinə?
Varanda Kəbəbürcü-sərinə,
Nəmazı nə səmtə qılasan gərək?

Aşıq Əziz:
Can fəda ərənlər sərinə, Əziz,
Üç hərfi Cəbreyl pərinə, Əziz.
Varanda Kəbədərinə, Əziz.
Nəmazı hər səmtə qılasan gərək.

Aşıq Əziz namənin cavabın yazdı, gəldi Aşıq Həsən Qəfarıgilə. Namənin cavabın verdi Aşıq Həsənə. Aşıq Həsən Qəfarı durdu Aşıq Əzizin əlindən öpdü dedi:

– Məni əfv qil.

Burda barışıq oldu.

## DİNİ, TARİXİ-ƏFSANƏVİ VƏ COĞRAFİ ADLARIN İZAHI

*Ali-əba* – Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyndən ibarətdir. Buna "pəctani-ali-əba" da deyilir (Əba ailəsi beşliyi).

*Aləmi-əmr* – maddi olmayan, ölçülməyən və hər kəsin anlamayacağı aləm.

*Beyti-xuda* – Kəbəyə işarədir.

*Beytül-Həram* – Məkkədə Kəbəyə verilən ad.

*Beytullah* – Lüğəti mənası "Allahın evi", "Kəbə". Sufi istilah kimi kamil insanın qəlbi.

*Burak* – Həzrət Məhəmmədin merac gecəsi mindiyi at.

*Davud* – İsrail oğulları içərisində peyğəmbər, Həzrət Süleymanın babası. İlahi kitab – Zəbur Davud peyğəmbərə göndərilmişdir.

*Dərviş* – Təsəvvüf əhli, təriqətin ehkam və qaydalarını yerinə yetirən, varlığından keçən təriqətçi, mürid.

*Düldül* – Həzrət peyğəmbərin ağ dişi atının adı. Fərva bin Əmr-ül Guzami tərəfindən peyğəmbərə hədiyyə olunmuşdur. Düldül "kirpi" deməkdir, atın surətli qaçışına görə Düldül adı verilmişdir.

*Əl-məscid əl-Əqsa* – Quranda xatırladılan məkan. Rəvayətə görə, Məhəmməd merac zamanı həmin məscidə aparılmışdır. VIII əsrin axırlarında bu ərazidə məscid tikilmiş və Əl-Məscid Əl-Əqsa adlandırılmışdır.

*Ərşi-əla* – Allahın səltənəti, taxtı.

*Əzrayil* – Dini etiqadlara görə, insanların ölüm vaxtı çatarkən onların canını alan mələk, ölüm mələyi. Allahın 4 mələyindən (Cəbrayıl, Əzrayıl, Mikayıl, İstafil) biri.

*Heydəri-Kərrar* – Həzrət Əlinin ləqəblərindən biri.

*Həsən Əskəri* – Şiə imamı.

*Həşr* – Ölüllərin dirilib qiyamət meydanına cıxarılacağı vaxt, zaman.

*Həvva* – Yaradılan ilk qadın. Rəvayətə görə, Həvva Adəm peyğəmbərin sümüyündən (qabırqasından) yaradılmışdır.

*Hüseyn* – Əli ibn Əbutalibin Məhəmməd peyğəmbərin qızı Fatimədən olan kiçik oğlu, üçüncü şiə imamı. 669-cu ildə Həsənin vəfatından sonra Hüseyn Ələvilər nəslinin rəhbəri olmuş, 680-ci lidə imam 70 nəfərlik kişik ordusu ilə Kufə yaxınlığında Kərbəlada xəlifə ordusuyla döyüşdə həlak olmuşdur.

*Xəlilullah* – İbrahim əleyhissəlamın ləqəblərindən; (Xəlilullah – "Allahın dostu" deməkdir).

*Mövla* – 1.Yardımçı və qoruyucu olan Allah; 2. Sevgili, sevən.

*Xızır* – Xalq arasında ölümsüzlük şərbəti içmiş, hər zaman, hər məkanda insanlara yardım edən əfsanəvi şəxsiyyət.

*İsa* – Möcüzəvi şəkildə Allahın əmriylə bakirə Məryəmdən doğulan, İncilin göndərildiyi peyğəmbər.

*İsmayil* – Həzrət İbrahimin oğlu. İslam rəvayətlərində Həzrət İbrahimin oğlunu Allaha qurban vermək istəyi və bu qurbanın qoyunla əvəzlənməsi göstərilir. Xalq arasında "İsmail qurbanı" gününün qeyd olunması eyni rəvayətlə izah olunur.

*İmam Rza* – Şiələrin səkkizinci imamı.

*Kərbala* – İraqda şəhər, şiələrin ziyarətgahı. 680-ci ilin oktyabr ayının 10-da şiələrin üçüncü imamı Hüseyn ibn Əli öz silahdaşları ilə birlikdə Kərbəla yaxınlığında qətlə yetirilmişdir. Bu hadisədən beş il sonra Kərbəla Əli tərəfdarlarının ziyarət yerinə çevrilmişdir.

*Kənan* – Suriya və Fələstinin bir hissəsinin daxil olduğu qədim ölkə.

*Kəştiyi-Nuh* – Rəvayətə görə, vaxtilə dünyanı su basmış, Nuh peyğəmbər Allahın əmriylə böyük bir gəmi düzəldərək öz ümmətini tufandan xilas etmişdir.

*Qənbər* – Əlinin istəkli qulamı olmuşdur.

*Qəndil gecəsi* – İslamda mübarək gecələrdən biri. Bu gecədə bütün qəndillər işıqlandırıldığı üçün ayinə "Qəndil gecəsi" adı verilmişdir. İslamda 5 qəndil gecəsi mövcuddur: 1. Qədir gecəsi (26-27 ramazan), 2. Mevlud qəndili (11-12 Rəbiüləvvəl), 3.Rəğaib qəndili (Rəcəb ayının ilk cümə gecəsi), 4. Merac qəndili (26-27 Rəcəb), 5.Bərat qəndili (14-15 şaban).

*Qəzənfər* – Həzrət Əlinin xitmətçisi.

*Qırxlar* – Ələvi və Bəktaşilər Əlinin başçılıq etdiyi 40 kişinin məclisini “Qırxlar məclisi” adlandırmışlar.

*Qırxlar şərbəti* – Bəktaşi təbirlərindəndir. Şərbət ayinə uyğun olaraq ağ kasa işərisində hazırlanır, əvvəlcə “baba”ya təqdim olunur, daha sonra növbəylə dəvişlər tərəfindən içilir. Qırxlar şərbəti həm də cənnətdəki “kövsər”ə işarədir.

*Məsihi* – Xristian dini; Həzrət İsaya Məsih deyildiyi üçün onun dinindən olan insanlar da Məsihi adlandırılmışdır.

*Mina* – Məkkə yaxınlığında dağ.

*Mürtəza* – Əlinin ləqəblərindən biridir.

*Ruhul-Qüds* – Cəbrayıl əleyhissəlam haqqında deyilir.

*Ruhullah* – İsa əleyhissəlamın ləqəblərindən (Məhəmməd əleyhissəlama Həbibullah-Allah talanın sevgilisi; İbrahim əleyhissəlama Xəlilullah – Allahtalanın dostu; Musa əleyhissəlama Kəlimullah – Allahtala ilə danışan; İsa əleyhissəlama Ruhullah söylənilmişdir).

*Ruhi-əzəm* – 1.Sufi ədəbiyyatda “ən böyük ruh” mənasında işlədilir. 2.Allahın zikr olunması.

*Salsal* – Bişməmiş quru palçıq. Rəvayətə görə, mələklər Allahın əmriylə müxtəlif yerlərdən gətirilən torpaqları su ilə qarışdıraraq palçıq yaratmış və insan şəklinə salmışlar. Bu palçıqdan yer üzünün ilk insan və peyğəmbəri yaradılmışdır. Qurani-Kərimdə buyurulur: “And olsun ki, biz insanı hame-i mesnundan (palçıqdan), salsaldan yaratdıq. (Hicr surəsi, 26)

*Sina dağı* – Həzrət Musaya vəhylərin verildiyi məkan.

*Şah Nağı* – Şiə imamı.

*Şah Tağı* – Şiə imamı.

*Şahi –Qəsəm* – Həzrət Əliyə verilən ad.

*Şahi-Mərdan* – Həzrət Əliyə verilən ad.

*Yahya* – Peyğəmbər, Həzrət Zəkəriyyənin oğlu. Quranda Həzrət Yahyanın atasının çox yaşlı, anasınınsa sonsuz olduğu halda Allahın möcüzəsiylə doğulduğu rəvayət olunur.

*Yəsrib* – Məkkənin əsil adıdır.

*Zülfiqar* – Həzrət Əlinin ikibaşlı qılıncı.

# LÜĞƏT

**A**

Abdal (ə) – 1. Dərviş, qələndər;
2. Söyüş mənasında işlənir

Amadə (f) – hazır

Arastə (f) – bəzənmiş, zinətlənmiş

**B**

Ba ədəb (f) – ədəbli, mədəni

Bahəm (f) – bir yerdə, bərabər, birlikdə

Bakamal (f) – ağıllı, kamallı

Basəfa (f) – səfalı, gözəl

Bərqərar (f) – möhkəm, daimi, davamlı

Bəzirgan (f) – adlı, sanlı, hörmətli, böyük

Bica (f) – boşuna, vecsiz, nahaq yerə

Binəva (f) – zavallı, fağır

Bir yolluq (d) – bir dəfəlik

Bitab (f) – taqətsiz, halsız

**C**

Cayma (f) – yer, mövqe

Cəbr (ə) – zülüm, zor işlətmə

Cəng (f) – müharibə, savaş

**Ç**

Çəxi-fələk (f) – dünya

Çolu (d) – topal

**D**

Dam (f) – kürəkən

Damən (f) – ətək

Dəhan (f) – ağız

Dəhmərləmək (d) – birini təhrik edərək bir işi görməyə təşviq etmək

Dərdi-dil (f) – ürək dərdi, sirr
Dərban (f) – qapıçı
Dəstur (f) – əmr, sərəncam
Dibdə (d) – sonra, axırda
Didar (f) – 1. üz, camal;
2. görüş
Didar (f) – üz, camal
Dölhadöl (d) – dayanmadan dolmaq

**Ə**

Əbr (f) – bulud
Əbru (f) – qaş
Əfğan (ə) – nalə, fəğan, fəryad
Əfzəl (ə) – daha fəzilətli, artıq
Əhdü peyman (f) – söz vermək, müqavilə
Əqd (f) – 1. bağlama;
2. qurma, tərtib etmə;
3. nigah, kəbin
Ələmdar (ə) – bayraqdar
Ənbiya (ə) – peyğəmbərlər
Ərbab (ə) – sahibi mülkədar
Ərş (ə) – qübbə, taxt-tac
Əzazil (d) –zalım adam

**F**

Firişdə (f) – 1. Mələk, məlaikə;
2. Məl-məsum, günahsız

**H**

Hatəm (ə) – 1. Qət edən, əmr edən, qanun verən;
2. Comərd, əliaçıq, səxavətli
Hezik (d) – hərzə
Hənuz (f) – hələ, hələ ki
Həsinmək (d) – ehtiyat etmək
Hidayət (ə) – doğru yol, göstərmək, rəhbərlik

Hoza (d) – çomaq
Huyuxlanmaq (d) – üşənmək, qorxmaq

**G**

Gəşt (f) – dolanma, gəzmək, seyr etmək
Giriftar (f) – tutulmuş, mübtəla, aşiq
Giysu (f) – saç, zülf, hörük
Goftü-gu – danışıq, söhbət
Goftar (f) – söhbət, söz

**X**

Xabi-qəflət (f) – qəflət yuxusu, cəhalət
Xabi-rahət (f) – rahat yuxu
Xaki-payinə (f) – ayağının tozu, torpağı
Xali (ə) – boş, sərbəst, yiyəsiz
Xalvar-xalvar (d) – xalvar çuvaldan böyükdür, xalvar-xalvar, yəni çox-çox, həddindən artıq
Xədəng (f) – 1. Ox;
2. Qovaq ağacı
Xəridar (f) – alıcı, satın alan, müştəri
Xoşnud (f) – xoşhal, razı

**İ**

İcabət (ə) – cavab vermə, icra etmə, məmnuniyyətlə qəbul etmə.
İltica (ə) – sığınma, pənah gətirmə, xahiş, istək
İltimas (ə) – xahiş, rica
İntixab (ə) – seçmək
İntişar (ə) – 1. Yayılma, dağılma;
2. Ağızlara düşmə, şöhrətlənmə
İşar (ə) – bildirmə, xəbər vermə
İştibah (ə) – səhv, yanlış

**K**

Kələmkötür (d) – kobud
Külah – papaq

**Q**

Qəvi (ə) – güclü, qüvvətli
Qəvvas (ə) – dalğıc, üzgüçü
Qovzamaq (d) – başının üstünə qaldırmaq
Qübar (ə) – 1. Toz, narın torpaq;
2. Məc, kədər, qüssə

**L**

Ləşkər (f) – qoşun, ordu
Löpük (d) – nazik, hamar daş
Lütük (d) – tükü tökülmüş

**M**

Mahru (f) – ay üzlü, gözəl mənasında
Mah (f) – ay
Maritmaq (d) – diqqətlə baxmaq
Məlul-müşkül – yazıq-yazıq, bikef, kefsiz
Miskin (ə) – yoxsul, fəqir, yazıq
Mizan (ə) – ölçü, tərəzi
Mövqe (ə) – vaxt, zaman
Mu (f) – saç, zülf
Mücavir (ə) – 1. Qonşu;
2. Pir, məscid xidmətçisi
Müfəssir – şərh edən, izah edən
Müxənnəs (ə) – xain, namərd
Müxtəsər (ə) – qısa, qısası, qısaca
Münəvvər (ə) – işıqlı, nurlu
Müntəzir (ə) – gözləyən, intizar çəkən
Mürəxxəs (ə) – izinli, rüsxətli
Mürği-xəndan (f) – oxuyan quş
Müşkül (ə) – çətin, ağır
Mütrib (ə) – çalğıçı, xanəndə

**N**

Nan (f) – çörək

Nagəhan (f) – qəflətən, gözlənmədən
Naqafil (f) – gözlənilmədən, qəfil, ani
Nar (ə) – od, atəş
Natəvan (f) – gücsüz, zəif, taqətsiz
Nəsar (ə) – xaçpərəst, xristianlar

**P**

Peyman (f) – əhd, söz vermə
Pərvaz (f) – uçmaq (fars mənşəli sözdür)
Pərizadə (f) – pəri, gözəl
Pəsənd (f) – bəyənmək
Pəstah (d) – əda
Pişvaz (f) – qarşısına çıxmaq, qarşılamaq, qəbul etmək

**R**

Rah (f) – yol
Rəvan oldu (f) – yola düşdü
Rubəru (f) – üzbəüz
Ruzi-əzəldən (f) – əvvəl gündən, əvvəldən
Rüxsar (f) – üz, çöhrə

**S**

Sarımaq (d) – ələ salmaq, dolamaq
Sayə (f) – 1. Kölgə;
2. Məc, himayə, vasitə
Sayil (ə) – dilənçi
Seyrəqib (f) – it xasiyyətli
Səhih (ə) –düzgün, gerçək
Səng (f) – daş
Səyyad (ə) – ovçu
Səri (ə) – sürətli, tez, tələsik
Sərvər (f) – başçı, rəis
Sərsəri (f) – avara, sərgərdan
Sirab (f) – sudan doymuş, sulu
Sitəm (f) – zülm, əziyyət

Sübhan (ə) – 1. Mədh, tərif;
2. Allaha verilən ad.
Süvar (f) – minmək, ata minmək

**Ş**

Şəhbal (f) – qanadın uzun lələkləri
Şovkət – əzəmət, böyüklük, dəbdəbə
Şumar (f) – say, hesab

**T**

Təkmil (ə) – mükəmməl, təkmilləşmiş, kamil
Tərh (ə) – çəkmə, rəsm etmə
Təsəddüq (ə) – sədəqə, nəzir
Təvaf (ə) – 1. Birşeyin ətrafında dolanma;
2. Kəbənin ətrafında dolanmaqdan ibarət həcc mərasimi
Tiğ (f) – qılınc, xəncər
Tülu (ə) – günəşin doğması

**V**

Vəsət (ə) – orta, ara

**Y**

Yavər (f) – köməkçi, müdafiəçi

**Z**

Zail (ə) – 1. Müvəqqəti, fani;
2. Batan (Ay və Günəş haqqında)
Zəxm (f) – yara
Zikr (ə) – 1. Yada salma, xatirə gətirmə;
2. Adını çəkmə;
3. Söyləmə, ifadə etmə;
4. Dua, vird;
5. Tərif etmə

## QEYDLƏR VƏ İZAHLAR

1. **“Tufarqanlı Abbas ilə Gülgəz”** dastanı Aşıq Həsən Qəffari tərəfindən 1998-ci ildə söylənilərək yazıya alınmışdır.

Aşığın söylədiyinə görə o, bu dastanı ustadı Aşıq Əli Sərxanlıdan öyrənmişdir. Bundan başqa dastan Aşıq Ələsgər Mərəndli, Aşıq Çəngiz Biriya (Ərəzəyin), Aşıq Dərviş Vəhabzadə, Aşıq Hüseyn Sai, Aşıq Əhməd Həmidi (Qaradağ), Aşıq Yədulla Eyvəzpur (Tufarqan) və s. aşıqlar tərəfindən davamlı olaraq söylənilmişdir.

2. **“Dililqar və Mahcamal”** dastanı Aşıq Hüseyn Sai tərəfindən söylənilmiş, 2010-cu ildə yazıya alınmışdır. “Dililqar və Mahcamal” dastanını Hüseyn Sai Aşıq Əziz Şəhnazidən öyrənərək repertuarına daxil etmişdir.

3. **“Zöhrə və Məhəmməd”** dastanı Aşıq Əbulfəzl Saydi tərəfindən söylənilmişdir. Aşığın dediyinə görə o, bu dastanı 2015-ci ildə ustad Aşıq Əziz Şəhnazidən əldə etmişdir.

4. **“Sənan və Tərsa balası”** dastanı Aşıq Əbduləli Nuri tərəfindən 2002-ci ildə söylənilmişdir. O, bu dastanı Aşıq Xeyrulla Muğanlidan əldə etmişdir.

5. **“Şirin ilə Fərhad”** dastanı 2011-ci ildə Aşıq Hüseyn Sayi tərəfindən söylənilmişdir. Ustad dastanı Aşıq Əziz Şəhnazidən əldə etmişdir.

6. **“Yadigar və Gülabatın”** dastanı Həsən Qəffari tərəfindən 1992-ci ildə söylənilmişdir. Dastan əvvəllər Aşıq Məmməd Mərəndi tərəfindən də oxunmuşdur.

7. **“Cəhan və Cəmşid”** dastanını Aşıq Məhəmməd Məzrəli 1985-ci ildə söyləmiş və o, bu dastanı Aşıq Əziz Şəhnazidən əldə etmişdir.

8. **“Yusif və Züleyxa”** dastanı Aşıq Fərəcullah tərəfindən 1990-cı ildə söylənilmişdir. Ustad dastanı Aşıq Ali Sərxanlıdan öyrənmişdir.

9. **“Aşıq Miskin Əsəd və Səltənət”** dastan Aşıq Rıza Şəhnazi tərəfindən 2015-ci ildə söylənilmişdir. Ustad dastanı atası Əziz Şəhnazidən əldə etmişdir.

10. **“Gərgərli Məhəmməd və Mehparə xanım”** dastanı Aşıq Əli Səlimi tərəfindən söylənilmişdir. Ustad dastanı 1992-ci ildə Aşıq Əziz Şəhnazidən almışdır.

11**. “Baba Leysan”** dastanı Aşıq Ərəb tərəfindən söylənilmişdir. Ustad Aşıq Mustafa Dolludan götürülmüş bu dastan bundan başqa Aşıq Hidayət Musa oğlu (Qoşaçay) tərəfindən də söylənilmişdir.

12. **“Tahir və Zöhrə”** dastanı Aşıq Həsən Qəffari tərəfindən söylənilmişdir. O, bu dastanı 1989-cu ildə Aşıq Polad Xudafərinlidən əldə etmişdir.

13. **“Aşıq Həsən Qəffarla Aşıq Əzizin bir macərası”** dastanı Aşıq Rıza Şəhnazi tərəfindən söylənilmişdir. O, bu dastanı 2015-ci ildə atası Aşıq Əziz Şəhnazinin arxivindən götürmüşdür.

# BAŞLIQLAR

**ÖN SÖZ ........................................................................ 3**
Tufarqanlı Abbas ilə Gülgəz ................................................ 14
Dililqar və Mahcamal........................................................... 94
Zöhrə və Məhəmməd .......................................................... 110
Sənan və Tərsa balası.......................................................... 122
Şirin ilə Fərhad .................................................................. 135
Yadigar və Gülabatın .......................................................... 144
Cəhan və Cəmşid ................................................................ 151
Yusif və Züleyxa................................................................. 161
Aşıq Miskin Əsəd və Səltənət ............................................. 192
Gərgərli Məhəmməd və Mehparə xanım .............................. 234
Baba Leysan ....................................................................... 278
Tahir və Zöhrə .................................................................... 317
Aşıq Həsən Qəffarla Aşıq Əzizin bir macərası ..................... 399
Dini, tarixi-əfsanəvi və coğrafi adların izahı......................... 404
Lüğət .................................................................................. 407
Qeydlər və izahlar ............................................................... 413

**Güney Azərbaycan folkloru,**
**VI kitab**
Bakı, Elm və təhsil, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığan:
**Səadət Əliyeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60X84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 416 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.